**Azərbaycan Respublikası**
Mədəniyyət və Turizm Nazirliyi

***AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN 85 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLİR***

# Heydər Əliyev
# və
# mədəniyyət

***müraciətlər***

***çıxışlar***

***müsahibələr***

***təbriklər***

***məlumatlar***

NURLAR
Nəşriyyat-Poliqrafiya Mərkəzi

BAKI – 2008

# Heydər Əliyev
# və
# mədəniyyət

*üç clddə (üçüncü cild)*

*1999–2003*

**NURLAR**
Nəşriyyat-Poliqrafiya Mərkəzi

BAKI – 2008

Layihənin rəhbəri və
ön sözün müəllifi: **ƏBÜLFƏS QARAYEV**

Tərtib edənlər: **SEVDA MƏMMƏDƏLİYEVA,**
**TEYMUR ƏHMƏDOV**

Redaktor: **LƏTİFƏ MƏMMƏDOVA**

**HEYDƏR ƏLİYEV VƏ MƏDƏNİYYƏT. 3 cilddə (III cild)**
Bakı, «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2008,
536 səh., foto-şəkilli

Oxuculara təqdim olunan "Heydər Əliyev və mədəniyyət" adlı toplunun üçüncü cildinə Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin 1999-2003-cü illərdə ədəbiyyat, mədəniyyət, incəsənət, elm, din və idman xadimləri ilə görüşləri, müsahibələri, tövsiyələri, milli-mənəvi dəyərlərə verdiyi yüksək qiymət barədə materiallar toplanmışdır.

Sanballı kitab müasir mədəni yüksəlişlə maraqlanan, ədəbiyyat və incəsənət tarixi ilə məşğul olan tədqiqatçılar, geniş oxucu kütləsi, müəllim və tələbələr üçün dəyərli mənbədir.

ISBN – 9952 – 426 – 50 – X (dəst)
ISBN – 9952 – 426 – 49 – 6 (III cild)

© Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi, 2008
© “NURLAR”, 2008

## XALQ ARTİSTİ LEYLA BƏDİRBƏYLİYƏ

*Bakı şəhəri, 7 yanvar 1999-cu il*

Hörmətli Leyla Bədirbəyli!

Sizi – Azərbaycan teatrının və kinosunun görkəmli nümayəndəsini anadan olma gününüz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Siz Azərbaycan mədəniyyətində özünəməxsus yer tutan təkrarolunmaz sənətkarlardansınız. Hələ gənc yaşlarınızda yaratdığınız rəngarəng, maraqlı və yaddaqalan obrazlar Sizə ölkəmizdə böyük şöhrət gətirmişdir. Təbiətin bəxş etdiyi yüksək insani keyfiyyətlər, fitri istedad, gözəl nitq mədəniyyəti ilə yanaşı, aktyor sənətinin incəliklərinə bələd olmağınız sayəsində Siz öz gözəlliyi, mərdliyi, sədaqəti və əməksevərliyi ilə səciyyələnən Azərbaycan qadınının canlı təcəssümü kimi teatr tariximizdə silinməz iz qoymusunuz. Azərbaycan dramaturgiyasının və dünya klassiklərinin şah əsərlərinin qəhrəmanlarına səhnə həyatı verməklə öz adınızı mədəniyyət tariximizə qızıl hərflərlə yazmısınız.

Azərbaycan kino sənətinin inkişafındakı xidmətləriniz də böyükdür. 1942-ci ildən bəri kino ekranlarında canlandırdığınız aparıcı qadın obrazları öz dolğunluğu, fikir dərinliyi və böyük tərbiyəvi əhəmiyyəti baxımından xalqımızın bütöv bir nəslinin yüksək milli-mənəvi dəyərlər ruhunda yetişməsində mühüm rol oynamışdır. Baş rollarda çəkildiyiniz filmlər Azərbaycan kinematoqrafiyasını daha da zənginləşdirmiş və onun şöhrətini ölkəmizin hüdudlarından kənara da yaymışdır.

Azərbaycanın teatr və kino sənəti qarşısındakı xidmətləriniz həmişə yüksək qiymətləndirilmişdir. Siz Dövlət mükafatlarına layiq görülmüş, müxtəlif orden və medallarla təltif olunmusunuz. Ən böyük mükafatınız isə teatr həvəskarlarının, bütün xalqımızın Sizə bəslədiyi dərin hörmət və məhəbbət duyğularıdır. Xalqına və Vətəninə sonsuz sədaqətlə xidmət göstərən bir sənətkar kimi Sizin bununla fəxr etməyə tam haqqınız vardır. İnanıram ki, teatra vurğunluq və böyük zəhmətsevərliklə keçən zəngin və mənalı yaradıcılıq yolunuz bundan sonra da neçə-neçə yeni aktyorlar nəsli üçün əsil örnək olacaqdır.

Sizə cansağlığı, xoşbəxtlik və uğurlar arzulayıram.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**XALQ YAZIÇISI**
**RÜSTƏM İBRAHİMBƏYOVA**

*Bakı şəhəri*
*4 fevral 1999-cu il*

Hörmətli Rüstəm İbrahimbəyov!

Sizi – Azərbaycanın tanınmış yazıçısı və kino xadimini 60 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz 60-cı illərdə ədəbiyyata qədəm qoyan, öz dünyagörüşü və bədii ifadə tərzi ilə ədəbi mühitimizi canlandıran nəslə mənsub sənətkarlardansınız. Başlıca mövzuları insan və zaman, xeyir və şər, ənənəvilik və müasirlik olan əsərləriniz qısa bir müddət ərzində Sizə böyük şöhrət qazandırmışdır. Milli-mənəvi dəyərlərimizlə ümumbəşəri ideallarin üzvi vəhdətini əks etdirən səhnə əsərləriniz dünyanın bir çox ölkələrində uğurla tamaşaya qoyularaq Azərbaycan ədəbiyyatının beynəlxalq miqyasda tanınmasında mühüm rol oynamışdır.

Yazdığınız əsərlərin ekran həyatı da uğurlu olmuşdur. Ssenarist və rejissor kimi çəkdiyiniz filmlər Azərbaycan kino tarixində mühüm mərhələ təşkil etmiş və kino sənətimizin qızıl fonduna həmişəlik daxil olmuşdur. Öz bədii dəyərinə və toxunulmuş məsələlərin aktuallığına görə geniş tamaşaçı kütləsi tərəfindən böyük maraqla qarşılanmış əsərləriniz içərisində "İstintaq" və "Ad günü" filmləri xüsusi yer tutur.

Sizin bir ictimai xadim kimi fəaliyyətiniz Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri vəzifəsi ilə məhdudlaşmamış, vətənimizin taleyüklü anlarında informasiya blokadasının yarılmasına, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına da xidmət etmişdir.

İnanıram ki, Siz müstəqil Azərbaycanda ədəbiyyatın və kinematoqrafiyanın inkişafı yolunda bundan sonra da var qüvvənizi sərf edəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## P.M.İBRAHİMBƏYOVUN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan ədəbiyyatının və kino sənətinin inkişafındakı xidmətlərinə görə Rüstəm Məmmədibrahim oğlu İbrahimbəyov "Şöhrət" ordeni ilə təltif edilsin.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 fevral 1999-cu il*

# XALQ YAZIÇISI, MƏŞHUR KİNO XADİMİ RÜSTƏM İBRAHİMBƏYOVUN 60 İLLİYİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ ÇIXIŞ

*"Gülüstan" sarayı*
*5 fevral 1999-cu il*

Əziz Rüstəm, 60 illik yubileyinlə əlaqədar, bu münasibətlə mən sənə təbrik məktubu göndərmişəm və məktub bu gün mətbuatda dərc olunubdur. Ancaq bu mərasimdə mən məktubda yazdığım sözlərə əlavə olaraq bir neçə kəlmə də demək istəyirəm.

Rüstəm İbrahimbəyov Azərbaycan ədəbiyyatına, mədəniyyətinə 60-cı illərin əvvəllərində gəlmiş böyük yaradıcılar dəstəsinin parlaq nümayəndəsidir. Rüstəm İbrahimbəyov o zamandan indiyə qədər öz yaradıcılığı ilə – nəsr əsərləri, kino əsərləri, səhnə əsərləri ilə Azərbaycan mədəniyyətini zənginləşdirmiş, dünya mədəniyyətinə layiqli töhfələr vermişdir. Rüstəm İbrahimbəyov çox məhsuldar yazıçıdır, dramaturqdur, kinossenaristdir, rejissordur. Onun yaradıcılığının çoxşaxəli, çoxistiqamətli olması da fitri istedadından irəli gəlir. Rüstəm İbrahimbəyovun yaratdığı əsərlər Azərbaycan oxucularını, keçmiş Sovet İttifaqının oxucularını və dünyanın bir çox ölkələrinin oxucularını sevindirmiş, onlara Azərbaycan həqiqətləri haqqında və ümumiyyətlə, müasir həyatımızın həqiqətləri haqqında çox gözəl məlumatlar vermişdir.

Rüstəm İbrahimbəyovun yaradıcılığı haqqında şübhəsiz ki, bizim alimlər, jurnalistlər, teatr, kino sənətinin tədqiqçiləri çox yazıblar və bundan sonra da çox yazacaqlar. Çünki Rüstəm İbrahimbəyov indiyə qədər daim yazdığı-yaratdığı kimi, bu gün də yazır – yaradır və bu enerji ilə, bu istedadla hələ çox illər, on illər yazacaq, yaradacaqdır, Azərbaycan mədəniyyətini daha da yüksəklərə qaldıracaqdır.

Rüstəm İbrahimbəyovun ilk addımları çox uğurlu olmuşdur. Şübhəsiz ki, mən Rüstəm İbrahimbəyovun əsərlərindən özümə çox əziz olan əsərləri xüsusi qeyd edirəm.

Məsələn, 1968-ci ildə çəkilmiş və təqdim olunmuş "Bir cənub şəhərində" filmi o vaxt Azərbaycan mədəniyyəti üçün, Azərbaycan kino sənəti üçün böyük bir hadisə oldu. Əgər nəzərə alsaq ki, bu, Rüstəm İbrahimbəyo-

vun birinci kino əsəri idi, yəni ssenarisini Rüstəm yazmışdı və Eldar Quliyevlə birlikdə bu filmi çəkib yaratmışdılar, təsəvvür etmək olar ki, ilk addımında Rüstəm İbrahimbəyov cəmiyyətə özünü çox gözəl təqdim etmişdir. Ancaq bəzən yaradıcılarda belə olur ki, onlar parlayırlar, sonra müəyyən qədər solurlar. Yaxud da ki, bir də qalxırlar, bir də düşürlər. Ancaq Rüstəm o vaxtdan indiyə qədər demək olar ki, yüksəlib irəli gedibdir.

Rüstəm İbrahimbəyovun bütün əsərlərində əsas məzmunu, mənanı təşkil edən budur ki, o, həmişə həyatın reallığını təsvir edibdir. Amma o dövrdə, sovet ideologiyası çərçivəsində bu o qədər də asan deyildi. Çünki bəzən bu istiqamətdə yazanlar bir az da kənara çıxanda dissident olurdular. Ancaq Rüstəm İbrahimbəyovun həyatı olduğu kimi təsvir etməsi və həyatın hər tərəfini – həm müsbət tərəfini, həm mənfi tərəfini olduğu kimi göstərməsi onun yaradıcılığının ən gözəl cəhətidir və əsərlərinə böyük şöhrət gətirən amildir.

Mən qeyd etdim ki, bu o dövrdə bir o qədər də qəbul olunmurdu. Elə "Bir cənub şəhərində" filmi də ilk dəfə qəbul edilməmişdi. Onun ekrana buraxılması qadağan olunmuşdu. Ancaq məlumdur ki, o vaxt mən bu işə qarışandan sonra, – o vaxt mən hələ Azərbaycanın rəhbəri deyildim, Təhlükəsizlik Nazirliyinin başçısı idim, – mən bu işə qarışandan sonra o filmin yolu açıldı və film həm Azərbaycanda, həm də keçmiş Sovetlər İttifaqının hər yerində böyük rəğbətlə, böyük maraqla qarşılandı. Rüstəm bu yolu o vaxtdan indiyə qədər davam etdiribdir.

Məsələn, bəlkə də "Ad günü" filmi zahirən adi bir mövzuya aid olan bir əsərdir, – nə siyasi xarakter daşıyır, necə deyərlər, nə də bir böyük mövzu iddiasındadır. Amma mənəviyyatımızı, müasir həyatımızı, həyatımızın qüsurlarını nə qədər gözəl əks etdiribdir.

Xatirimdədir, mən bu filmə təsadüfən baxarkən heç bilmirdim ki, bu film nədir və kimindir. Ancaq mənə o qədər böyük təsir bağışladı ki, mən sonra bu filmin təbliğatçısına çevrildim. O vaxtkı dövrdə bu məsələni bilən adamlar xatırlamalıdırlar ki, mən bir neçə dəfə rəsmi müşavirələrdəki çıxışlarımda bu filmi təbliğ etdim. Hətta onu başqa ölkələrin bir neçəsinə göndərdim.

Yaxud, "İstintaq" filmi. Bunun da taleyi əvvəlcə o qədər uğurlu olmamışdır: Film çəkilmişdi, ancaq onun ekrana buraxılmasının qarşısı alınmışdı.

Xatirimdədir, mən bunu biləndən sonra gördüm ki, bizim Azərbaycanın rəhbərliyində bu barədə çox ciddi fikir ayrılığı var. Mən büro üzvlərini dəvət etdim, – o vaxt Azərbaycanın rəhbərliyi Kommunist Par-

tiyası Mərkəzi Komitəsinin bürosundan ibarət idi, – birlikdə bu filmə baxdıq. Rüstəm, sənin xatirindədir, Nizami adına kinoteatrın binasında o vaxt Kinematoqrafiya İdarəsi yerləşirdi.

**Rüstəm İbrahimbəyov:** Bəli, yaxşı xatirimdədir, indi də orada yerləşir.

**Heydər Əliyev:** Orada kino zalı var idi, filmə orada baxdıq. Filmə baxıb qurtarandan sonra gördüm ki, mənim həmkarlarım çox narahatlıq keçirirlər. Birindən soruşdum, başını buladı. O birisi dedi ki, yox, bu filmə baxmaq lazımdır. Hamısını dinlədim. Ancaq axırda bu filmin tək Azərbaycan üçün yox, bizim o vaxtkı ölkəmiz üçün çox dəyərli olduğunu bildirdim və bu film çox böyük uğurla o vaxt Sovetlər İttifaqının bütün respublikalarında göstərildi, nəhayət, Sovet İttifaqının dövlət mükafatına layiq görüldü.

Bu filmlərdə, – tək bu filmlərdə yox, başqa səhnə əsərlərində də, başqa nəsr əsərlərində də, – dediyim kimi, Rüstəm İbrahimbəyov daim həqiqəti, reallığı əks etdiribdir. Ancaq o dövrdə bu təşəbbüsdə bulunmaq, bu yolla getmək və beləliklə, əsərləri yaymaq, yaxud da əsərlərə uğur qazandırmaq asan deyildi. Buna baxmayaraq, Rüstəm İbrahimbəyov nə qədər çətinlikləri də olsa, nə qədər əziyyət də çəksə, heç vaxt öz iradəsindən dönməmişdir, bu yolla getmişdir. Amma hər dəfə qalib gəlmişdir. Nəhayət, bu əsərlər bəzən rəsmi dairələr tərəfindən qəbul olunmadığı halda ictimaiyyət tərəfindən, tamaşaçılar tərəfindən, oxucular tərəfindən çox böyük hörmətlə, ehtiramla, məmnuniyyətlə qəbul edilmişdir.

Beləliklə, Rüstəm İbrahimbəyov həm nəsr əsərlərində, həm səhnə əsərlərində, həm kino əsərlərində özünəməxsus bir yolla getmiş və bu gün də bu yol ilə gedir. Bu, bütün başqa cəhətlərlə bərabər, Rüstəm İbrahimbəyovun ən böyük nailiyyətlərindən biridir.

Xatirimdədir, o vaxtlar Azərbaycanda bəzi yazıçılar, şairlər, bəzi tənqidçilər çalışırdılar ki, Rüstəm İbrahimbəyovu və Maqsud İbrahimbəyovu sovet ideologiyasının əleyhinə çıxan adamlar kimi ifşa etsinlər və belə cəhdlər də göstərilmişdi. Ancaq həqiqət bundan ibarətdir ki, mən o vaxtlar bunların qarşısını həmişə almışdım. Məni düzgün başa düşün, mənim dəstəyim, köməyim olmasaydı, necə ki, o vaxt bəzi belə gözəl yazıçıları, yaradıcıları sıxışdırırdılar, məhv edirdilər, onda bunlara da bəlkə belə bir ziyan dəyə bilərdi.

Bir dəfə – 1989-cu ildə Moskvada bir jurnalist məndən müsahibə götürərkən Azərbaycanın keçmiş dövrü haqqında, yəni 70-ci illərdə mənim Azərbaycana rəhbərlik etdiyim zamandan danışırdıq. Mənə sual

verdi ki, sizdə, Azərbaycanda o vaxt dissident var idi, yoxsa yox idi? Dedim ki, yox idi. Dedi, nə üçün? Dedim ki, biz dissidentləri axtarmırdıq. Təbiidir, əgər axtarsaydıq, çox dissident çıxarmaq olardı. Amma biz axtarmırdıq. Bu nə deməkdir? Bu o deməkdir ki, həmin dissident sayılanların əsərlərini biz qəlbən qəbul edirdik və onların özünə yol tapması üçün imkanlar yaradırdıq. Beləliklə, həmin müəlliflərə öz həmrəyliyimizi bildirirdik. Ancaq geniş təbliğ etmirdik ki, biz bununla həmrəyik.

Məsələn, əgər o illər – 60-70-ci illərdə Azərbaycanda dissident axtarsaydıq, onlar çox idi. Ən böyük dissident Bəxtiyar Bahabzadə idi. Hətta mənim xatirimdədir, mən Təhlükəsizlik Nazirliyində işləyən zaman onun həbs olunması məsələsi qoyulmuşdu. Yaxud da ki, Xəlil Rza ən böyük dissidentlərdən biri idi. Çünki onun əsərləri, o cümlədən Bəxtiyar Vahabzadənin əsərləri həqiqəti deyirdi. Amma bu həqiqət o vaxtkı kommunist ideologiyasına zidd idi və buna görə də onlar dissident idilər. Ancaq biz Xəlil Rzanı da qoruduq, saxladıq.

Maqsud İbrahimbəyov, Rüstəm İbrahimbəyov əsil dissident idilər. Ancaq biz qoymadıq ki, onlar dissident olsunlar. Bəlkə də onlar indi heyifsilənirlər ki, o vaxt Əliyev qoysaydı və biz dissident olsaydıq, indi bəlkə hörmətimiz daha da artıq olardı.

Yaxud, götürək Anarı. O da dissident idi. Məsələn, "Qobustan" jurnalının yaranması və o jurnalın səhifələrində yayılan əsərlər şübhəsiz ki, dissident xarakteri daşıyırdı.

Mənim xatirimdədir, 1970-ci ildə Leninin 100 illiyi qeyd olunurdu. Azərbaycanda da biz Nəriman Nərimanovun 100 illiyini hazırlayırdıq. Çünki onlar eyni ildə – Lenin də, Nərimanov da 1870-ci ildə anadan olublar. O vaxt Moskvadan gəlirdilər və mənə deyirdilər ki, bəs burada millətçilik var, burada antisovet var, burada filan var. Hər dəfə baxırdım və onlara izah edirdim.

Bir dəfə Moskvadan numayəndə gəldi ki, belə şey olarmı, – "Qobustan" jurnalında yazılıbdır ki, Nərimanov Lenindən də böyük adamdır. Dedim, a kişi, belə şey olmaz, yəqin sizə səhv deyiblər. Gətirin baxım. Gətirdilər baxdım. "Qobustan" jurnalında yazıçı İsa Hüseynovun Nəriman Nərimanov haqqında bir yazısı getmişdi. Orada yazmışdı ki, bəli, Nəriman Nərimanov Lenin deyil, Lenindən də üstün bir adamdır. Mən dedim, bilirsiniz nə var, indi bu yazıçıdır, yazıbdır, sərbəst adamdır. Bu o demək deyil ki, bizim də fikrimiz belədir. Bizim fikrimiz belə deyil. Mən birtəhər bu məsələni sovuşdurdum. Amma sonra bunlara dedim ki, yaxşı, daha ağını çıxarmayın.

Yəni təkcə o deyil. Hələ mən bir faktı xatırlayıram. Amma həmin jurnalda belə yazılar çox gedirdi. Mən həmin jurnalı o vaxtlar daim oxuyurdum, izləyirdim. Görürdüm ki, yaxşı yazılardır. Bu yazılar nə idi? Bizim milli mədəniyyətimizi, milli keçmişimizi, milli ruhumuzu o vaxtlar təbliğ edirdi. Bizim rəsmi jurnallardan fərqli olaraq, bu jurnal bunları təbliğ edirdi və insanlarda milli ruhu oyadırdı, öz tarixinə, öz keçmişinə, öz mədəniyyətinə hörmət və ehtiramı yaradırdı. Çünki o dövr belə idi – hesab edilirdi ki, oktyabr inqilabına qədər heç bir şey olmayıbdır, hamısı oktyabr inqilabından sonra olubdur. Bax, o illər bu cür oyanış bizim yazıçılarımızın çox əsərlərində olmuşdur. O cümlədən "Qobustan" jurnalında. Beləliklə, Azərbaycanda bu gənc insanlar həqiqəti deyirdi, düzü deyirdi və insanları həqiqətə çağırırdı. Bu sahədə Rüstəm İbrahimbəyovun xidmətləri çoxdur.

Rüstəm İbrahimbəyov, Maqsud İbrahimbəyov – bu iki qardaş Azərbaycanda ədəbiyyatın, mədəniyyətin inkişafında böyük xidmətlər göstərmiş, eyni zamanda yeni bir hadisə meydana çıxarmışlar. Azərbaycanda bir ənənə yaranıbdır: atası şair, yazıçı, oğlu da şair, yazıçı. Əgər keçmiş Sovetlər İttifaqına nəzər salsaq, başqa respublikalarda mən buna rast gəlməmişəm.

Məsələn, Səməd Vurğun – oğulları Yusif, Vaqif yazıçılar, şairlərdir. Rəsul Rza, Nigar Rəfibəyli – oğlu Anar. İlyas Əfəndiyev – oğlu Elçin. Bu barədə daha da çox faktlar gətirmək olar. Yaxud da ki, Bülbül – oğlu Polad Bülbüloğlu. Bunlar ata-oğuldurlar. Amma iki qardaşın ikisinin də ədəbiyyat, mədəniyyət, kino sənətində eyni səviyyədə böyük fəaliyyət göstərməsi – bunlar Azərbaycan üçün yenidir. Bəlkə heç kəs buna fikir verməyibdir, amma mən bir az keçmişimizə baxanda bunu xüsusi qeyd edirəm. Maqsud, Rüstəm – paralel olaraq ikisi də bizim ədəbiyyatımıza, kinoya, teatra, mədəniyyətimizə gəlib və ikisi də çox uğurlu yol keçib. Bu gün də yazırlar və gələcəkdə də yazacaqlar.

Rüstəm İbrahimbəyovun yaradıcılığının əsas xüsusiyyətlərindən biri də odur ki, o öz yaradıcılığı ilə milli çərçivədə qalmayıbdır, keçmiş Sovetlər İttifaqında çox məşhurlaşıbdır və dünyada məşhurlaşıbdır. Bu, hər bir xalq üçün çox böyük əhəmiyyət kəsb edir. Şübhəsiz ki, biz öz mədəniyyətimizi, öz ədəbiyyatımızı, incəsənətimizi, kino sənətimizi yüksək qiymətləndiririk və özümüz içərimizdə bununla fəxr edirik. Ancaq bizim mədəniyyətimizin nümunələri, Azərbaycan yaradıcılarının yaratdığı əsərlər Azərbaycanın hüdudlarından kənara çıxanda bu, Azərbaycan mədəniyyətini dünyaya da yayır. Bizim yazıçılarımızın, şairlərimizin, alimləri-

mizin əsərlərinin çoxu başqa dillərə çevrilib və yayılıbdır. Ancaq Rüstəm İbrahimbəyov öz əsərlərini həm Azərbaycan dilində, həm də rus dilində yazaraq, əsərlərinin çoxunu keçmiş Sovetlər İttifaqının oxucularına, tamaşaçılarına orijinalda təqdim edibdir, tərcümədə yox. Bu, birinci cəhət. İkinci cəhət də ondan ibarətdir ki, ümumiyyətlə, Azərbaycan həqiqətlərini daha da geniş yayıbdır. Bu da Rüstəm İbrahimbəyovun Azərbaycan xalqı qarşısında böyük xidmətləridir.

Rüstəm İbrahimbəyovun kino sahəsində fəaliyyəti həm də son illər Müstəqil Dövlətlər Birliyi və Baltik ölkələrinin Kino İttifaqları Konfederasiyasının yaradılmasıdır və onun həmin konfederasiyaya başçılıq etməsidir. Biz bununla fəxr edirik və təbii ki, Azərbaycan yazıçısının, Azərbaycan kino sənətinin bu konfederasiyanın başında durması bizim üçün böyük iftixar hissi doğurur.

Ümumiyyətlə, Azərbaycanın görkəmli mədəniyyət xadimlərinin Azərbaycandan kənarda fəaliyyət göstərməsi bizim üçün çox əhəmiyyətlidir. Bu baxımdan Maqsud və Rüstəm İbrahimbəyovların fəaliyyətini qeyd etmək olar, Tahir Salahovun fəaliyyətini qeyd etmək olar, Müslüm Maqomayevin fəaliyyətini qeyd etmək olar, Polad Bülbüloğlunun fəaliyyətini qeyd etmək olar və bir çox başqalarının fəaliyyətini qeyd etmək olar ki, onlar Azərbaycanda olduğu kimi, keçmiş Sovetlər İttifaqında da bilavasitə öz əsərləri ilə və öz yaradıcılıqları ilə məşhurlaşmışlar.

Bunlar hamısı Rüstəm İbrahimbəyovun yaradıcılığının nə qədər zəngin, nə qədər çoxşaxəli olduğunu göstərir. Təbii, biz fəxr edirik ki, Rüstəm İbrahimbəyovun əsəri "Oskar" mükafatını alıbdır. Fəxr edirik ki, keçmiş Sovetlər İttifaqının dövlət mükafatını alıbdır. Ancaq mənim üçün ən əzizi odur ki, Rüstəm İbrahimbəyovun əsəri Azərbaycanın dövlət mükafatına layiq görülübdür.

Burada bəzi filmlərin, əsərlərin adları çəkildi. Hamısı dəyərlidir. Ancaq mənim üçün ən dəyərlisi "Bir cənub şəhərində", "Ad günü" və "İstintaq" əsərləridir. Çünki bunlar bilavasitə Azərbaycanın həyatı ilə bağlıdır.

Beləliklə, Rüstəm, bu günlər biz sənin 60 illik yubileyini böyük sevinclə qeyd edirık. Mən məmnunam ki, bizim bu gözəl "Gülüstan" sarayının salonu sənin dəvətinlə Azərbaycanın ziyalıları ilə, mədəniyyət xadimləri ilə dolubdur. Bu da sevindirici haldır. Burada Anar Məmmədxanov dedi ki, indi yubileylər keçirmək mümkün olubdur, cürbəcür mədəniyyət, kino əsərlərinin baxışını keçirmək mümkün olubdur. Bəli, bu, müstəqil Azərbaycanın bugünkü reallığıdır. Əgər bu gün möhtəşəm

“Gülüstan” sarayında Azərbaycan ziyalılarının böyük bir dəstəsi, demək olar ki, bütün sahələrdən olan ziyalıların nümayəndələri bir yerə toplaşıblarsa, dostluq, mehribanlıq şəraitində bizim dəyərli dostumuz Rüstəm İbrahimbəyovun 60 illik yubileyini qeyd edirlərsə, bu, çox əlamətdar bir hadisədir. Azərbaycanın prezidenti kimi və həyatını Azərbaycan xalqının həyatının inkişafına sərf etmiş bir adam kimi, bu məni çox sevindirir.

Azərbaycanın çox problemləri var. Ermənistan–Azərbaycan münaqişəsi nəticəsində Azərbaycan torpaqlarının bir qismi işğal olunubdur. İşğal edilmiş torpaqlarımızdan bir milyondan artıq azərbaycanlı yerindən-yurdundan didərgin düşübdür, ağır vəziyyətdə çadırlarda yaşayırlar. Biz Ermənistanla gedən müharibədə çox şəhidlər, itkilər vermişik. Bunlar Azərbaycan reallığıdır və Azərbaycanın bu gününün bir hissəsidir.

Digər hissəsi isə ondan ibarətdir ki, Azərbaycan müstəqil dövlət kimi yaşayır, inkişaf edir, Azərbaycanın mədəniyyəti inkişaf edir, Azərbaycanın iqtisadiyyatı inkişaf edir və Azərbaycan müstəqil dövlət kimi artıq Dünya Birliyində özünə layiq yer tutubdur. Bu da Azərbaycanın reallığıdır. Əgər bu illər Azərbaycanın ziyalıları, mədəniyyət xadimləri, alimləri artıq bir yerə toplaşa bilirlərsə, bir-biri ilə görüşürlərsə, fikir mübadiləsi aparırlarsa, bir-birinin yubileylərini təbrik edirlərsə, şad günlərini bir yerdə qeyd edirlərsə, bu, Azərbaycanın həm reallığıdır, həm də Azərbaycanın inkişaf mərhələsində olmasını göstərir. Bax, bu hissiyyatlarla, bu duyğularla mən bu gün, Rüstəm, sənin 60 illik yubileyinə gəlmişəm.

Doğrudur, mən Ankarada xəstəxanada olduğum zaman xatırladım ki, fevralın 5-də Rüstəmin 60 yaşı tamam olacaqdır. Ancaq heç şübhə etmirdim ki, mən o vaxta qədər qayıdıb gələcəyəm və bu yubileydə Bakıda olacağam.

Rüstəm, mən səni bir daha təbrik edirəm. Sənə cansağlığı arzu edirəm. Sənin ailənə, həyat yoldaşına, uşaqlarına, Maqsuda – sənin qardaşına, onun ailəsinə cansağlığı, xoşbəxtlik arzu edirəm. Sənə gələcək yaradıcılığında yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

**(Dövlətimizin başçısının çıxışı diqqətlə dinlənildi və dəfələrlə gurultulu alqışlarla qarşılandı).**

Respublikamızın rəhbəri Heydər Əliyev Rüstəm İbrahimbəyova təbrik məktubu, gül dəstəsi təqdim etdi.

* * *

Səməd Vurğun adına Dram Teatrının nümayəndələri, “Bakılı oğlanlar” Şən və Hazırcavablar Klubunun üzvləri, respublikamızın tanınmış incəsənət ustaları rəngarəng çıxışları ilə Rüstəm İbrahimbəyovu təbrik etdilər.

Yubilyarın adına xarici ölkələrin dövlət xadimlərindən və yaradıcılıq birliklərindən gəlmiş təbrik məktubları oxundu.

Yubiley mərasimində Milli Məclisin sədri Murtuz Ələsgərov, Prezident İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Milli Məclis sədrinin və baş nazirin müavinləri, xarici ölkələrin Bakıdakı səfiri və digər rəsmi şəxslər iştirak edirdilər.

## “KİTABİ–DƏDƏ QORQUD” DASTANININ 1300 İLLİK YUBİLEYİ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ İCLASINDA GİRİŞ SÖZÜ

*Prezident sarayı*
*16 fevral 1999-cu il*

Hörmətli xanımlar və cənablar!

Ölkəmiz dövlət müstəqilliyini əldə edəndən sonra biz azərbaycanlılar öz tariximizi, tarixi keçmişimizi və tariximizdə mövcud olan mühüm hadisələri, mərhələləri yenidən təhlil edirik, tədqiq edirik və onları müstəqillik mövqeyindən daha da obyektiv, doğru-düzgün yazmağa və həm ölkəmizin ictimaiyyətinə, həm də dünyaya çatdırmağa çalışırıq.

Bu baxımdan “Kitabi–Dədə Qorqud” dastanının 1300 illik yubileyinin keçirilməsi xüsusi əhəmiyyətə malikdir. “Kitabi–Dədə Qorqud” dastanının 1300 illik yubileyinin keçirilməsi haqqında verilmiş fərmandan ötən dövrdə xeyli iş görülmüşdür. Ancaq hələ görüləsi işlər də çoxdur. Ona görə də biz bu gün yubiley komissiyasının iclasına toplaşmışıq. Məqsəd də görülən işlərə nəzər salmaqdan və onların əsasında bundan sonra görüləcək işlər haqqında müəyyən addımlar atmaqdan ibarətdir.

Görüləcək işlər haqqında iş planının layihəsi sizə təqdim olunub. Güman edirəm, onunla tanış ola bilmisiniz. Arzu edərdim ki, müzakirə zamanı öz fikirlərinizlə bərabər, eyni zamanda iş planına münasibət də bildirəsiniz – nəyi qəbul etmək olar, nəyi olmaz, iş planımıza əlavə nəyi salmalıyıq.

Hər halda, bu il biz yubiley tədbirlərini sona çatdırmalıyıq. Ona görə də qarşıda həm böyük, həm də çox gərgin iş durur. Bəllidir ki, tariximizin ən parlaq səhifələrindən biri olan “Kitabi–Dədə Qorqud” dastanının yubileyini indi, müstəqil Azərbaycanın müasir şəraitində çox yüksək səviyyədə keçirməliyik. Ona görə də mən bugünkü müzakirədən çox şey gözləyirəm.

# YEKUN NİTQİ

Mənə elə gəlir ki, biz tədbirlər planını yetərli müzakirə etdik. İndi biz gərək müəyyən edək. Şübhəsiz ki, bundan sonra görüləsi işlər tədbirlər planında öz əksini tapıbdır və bu əlavələr də olacaqdır. Ancaq bu yubileyin zirvə görüşü, tədbiri bu il olmalıdır. Şübhəsiz ki, onun vaxtını uzatmaq məqsədəuyğun olmaz.

Mənə deyirlər, YUNESKO belə bir fikir irəli sürübdür ki, əgər biz bu tədbiri iyun ayında Azərbaycanda keçirsək, YUNESKO-nun rəhbərliyi həmin tədbirdə iştirak edəcəkdir.

Gərək indi biz bu tədbirin vaxtını müəyyən edək. İyul ayı bir az isti olur. Bilirsiniz, yubiley tədbirini sentyabr ayında keçirmək daha yaxşı olar. Ancaq həmin vaxt bir sıra digər yubileylərlə üst-üstə düşə bilər. Çünki Osmanlı imperatorluğunun 700 illiyi qeyd ediləcəkdir. Deyəsən, onlar bunu noyabr ayında keçirmək istəyirlər.

Türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşü hər il bu dövlətlərdən birində olur. Bu zirvə görüşü keçən il Qazaxıstanın paytaxtı Astanada oldu. Orada qərar qəbul edildi ki, növbəti zirvə görüşü 1999-cu ildə Azərbaycanda keçirilsin. Ona görə mən belə nəzərdə tuturam ki, “Kitabi–Dədə Qorqud” dastanının yubileyini həmin zirvə görüşü ilə bir vaxtda keçirək. Bir gün “Kitabi–Dədə Qorqud” dastanının yubileyi, o birisi gün zirvə görüşü keçirilsin. Yaxud da əvvəl zirvə görüşü, sonra isə “Kitabi–Dədə Qorqud” dastanının yubileyi olsun ki, türkdilli ölkələrin dövlət başçıları da bu tədbirlərdə iştirak edə bilsinlər. Artıq belə bir ənənə yaranıbdır. Məsələn, “Manas”ın min illiyi yubileyində türkdilli ölkələrin dövlət başçılarının Qırğızıstanda zirvə görüşü oldu. Yaxud da Daşkənddə Əmir Teymurun 660 illik yubileyi idi, eyni zamanda türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşü keçirildi.

Mən həmin ölkələrin dövlət başçıları ilə danışmışam. Onlar da razıdırlar ki, bu iki tədbir eyni vaxtda keçirilsin. Bu yubileyin vaxtını təyin etmək lazımdır. Ona görə ki, gərək, birincisi, YUNESKO-nun rəhbərliyi ilə bu barədə danışaq, ikincisi, türkdilli ölkələrin dövlət başçıları ilə bu vaxtı bir də müəyyənləşdirək. Çünki həmin dövlət başçılarının hərəsinin öz proqramı, işi vardır. Gərək vaxtı onlarla da razılaşdıraq. Biz bu yubiley tədbirini iyun ayında keçirməyi nəzərdə tutsaq, onda gərək mən türkdilli ölkələrin dövlət başçıları ilə indidən danışıb onların razılığını alım.

Ola bilər, bu tədbirin vaxtı ya iyun, ya da sentyabr ayı olsun. Sentyabrdan sonraya saxlamaq bir az çətindir. Sentyabrda keçirsək, onda biz YUNESKO-nun yüksək səviyyəli heyətindən məhrum olacağıq. Biz bu tədbiri hansı ay keçirsək, həmin tarixi razılaşdırsaq, türkdilli ölkələrin başçıları orada iştirak edəcəklər.

Əlbəttə, bu tədbiri iyul və avqust aylarında keçirmək bir qədər çətindir. Biz onu gərək ya iyunda, ya da sentyabrda keçirək.

Gəlin belə edək, – mən bu məsələni türkdilli ölkələrin dövlət başçıları ilə müzakirə edim, görüm onlar üçün hansı vaxt əlverişlidir, yararlıdır. Əgər onlar üçün iyun ayı əlverişli olsa, onda bu yubileyi iyunun sonunda, yaxud sentyabr ayını qəbul etsələr, bu tədbiri sentyabrın birinci yarısında keçirmək olar ki, başqa ölkələrdəki tədbirlərlə üst-üstə düşməsin. Gəlin belə danışaq ki, mən bir həftə, on gün ərzində bu məsələni müəyyənləşdirib elan edərəm. Beləliklə, düşünürəm ki, müzakirəni qurtara bilərik.

Çox ətraflı fikir mübadiləsi aparıldı, əhəmiyyətli çıxışlar, yaxşı təkliflər oldu. Hesab edirəm ki, bunların əsasında iş planı daha da genişlənər, konkretləşər, həm “Kitabi–Dədə Qorqud” dastanının 1300 illik yubiley tədbirlərinin keçirilməsi, həm də bu sahədə gələcək illərdə lazımi işlər görülməsi üçün yaxşı imkanlar yaranar.

Fərman imzalanandan sonra indiyə qədər görülən işlər və bugünkü müzakirə onu göstərir ki, biz böyük bir iş başlamışıq. Bu gün bütün çıxışlarda bir daha qeyd olundu ki, “Kitabi–Dədə Qorqud” dastanı Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının ən görkəmli, ən parlaq abidəsidir.

“Kitabi–Dədə Qorqud” dastanının fövqəladə əhəmiyyəti ondan ibarətdir ki, o bizim tariximizin 1300 illik dövrünü həm əks etdirir, həm də bir daha təsdiq edir. O, tarixi köklərimizi dünyaya göstərir, oğuz, türk mənşəyimizi və zəngin tariximizi sübut edir. Bunlar bizim hamımız üçün, xalqımızın bu günü, gələcəyi üçün əhəmiyyətlidir.

Məlumdur ki, XX əsrdə Azərbaycan xalqı bir çox tarixi hadisələri yubileylərlə, yaxud başqa tədbirlərlə qeyd edibdir.

Ancaq bu gün təəssüflə deyə bilərik ki, “Kitabi–Dədə Qorqud” dastanı Azərbaycanın həyatında özünəməxsus yeri indiyə qədər tutmayıbdır. Bunun da səbəbləri məlumdur. Çıxışlarda bu barədə deyildi. Biz ötən dövrdə tariximizi özümüz istədiyimiz kimi yaza bilməmişik. Tariximizin, o cümlədən ədəbiyyat, mədəniyyət tariximizin həmişə ideologiya təsiri altında qalması, bu barədə bizim sərbəst olmamağımız vaxtilə belə böyük itkilərə gətirib çıxarmışdı.Buna təəssüf etmək olar.

Bununla yanaşı, bu gün məmnuniyyətlə qeyd etmək lazımdır ki, Azərbaycanın vətənpərvər alimləri, tədqiqatçıları, yazıçıları, şairləri "Kitabi–Dədə Qorqud" dastanı haqqında öz imkanları dairəsində əsərlər yaratmışlar və "Kitabi–Dədə Qorqud"un tədqiqatı aparılmışdır. Ancaq buna dövlət himayəsi istənilən səviyyədə olmamışdır. Məsələn, 1970-ci illərdə, 1980-ci illərin əvvəlində mən Azərbaycana rəhbərlik etdiyim zaman biz respublikamızın tarixi, keçmişi, ədəbiyyatı, mədəniyyəti haqqında çoxlu tədbirlər həyata keçirdik. Amma mən bu gün açıq deməliyəm ki, "Kitabi–Dədə Qorqud" haqqında heç bir təşəbbüs irəli sürülməmişdir. Mən bu gün bunu qətiyyətlə deyirəm. Əgər belə bir təşəbbüs irəli sürülsəydi, biz bunu müəyyən çərçivədə həyata keçirə bilərdik. Mənim işlədiyim həmin illərdə milli mədəniyyətimizə, tariximizə aid olan bir çox tədbirlərin keçirilməsinə Moskvanın müqavimətini, hətta qadağanını hiss etmişdik. Lakin bununla yanaşı, bizim cəhdlərimiz, təkidlərimiz nəticəsində biz o vaxt bir çox tədbirlərin keçirilməsinə nail olmuşduq.

Mən bu gün, bu müzakirə zamanı düşünürəm, – bəs nə üçün "Kitabi–Dədə Qorqud" haqqında heç bir təşəbbüs olmamışdı? Eyni zamanda, özüm belə bir cavab verə bilərəm: yəqin ona görə ki, ümumiyyətlə, bizim – Azərbaycanın üzərinə pantürkizm damğası vurulduğuna, Azərbaycanda çox dəyərli lnsanlar pantürkist adı ilə həbs olunduğuna, repressiyaya məruz qaldığına, əsərlər, kitablar dağıdıldığına görə alimlərimiz, ictimai xadimlərimiz "Kitabi–Dədə Qorqud" haqqında təşəbbüs qaldırmağa bəlkə də cəsarət etməyiblər. Mən bunu belə izah edə bilərəm.

Ancaq biz eyni zamanda onu da qiymətləndirməliyik ki, bir çox alimlərimiz, yazıçılarımız bu mövzuya xüsusi fikir vermişlər, əsərlər yaratmışlar və "Kitabi–Dədə Qorqud" dastanı Azərbaycanın həyatında, ədəbiyyatında yaşamış və inkişaf etmişdir. Amma şübhəsiz, bunlar bizim bu gün istədiyimiz səviyyədə – tarixi ədalət səviyyəsində olmayıbdır.

Burada artıq qeyd olundu ki, Həmid Araslının, Məmmədhüseyn Təhmasibin, Əbdüləzəl Dəmirçizadənin və başqa alimlərin yazdıqları əsərlər "Kitabi–Dədə Qorqud" dastanının elmi tədqiqi və geniş təbliğ edilməsi üçün böyük xidmətlər göstərmişdir. Başqa bir çox alimlərin də adını çəkə bilərik.

Bizim hörmətli alimlərimiz burada çıxış etdilər və öz tədqiqatları, yazdıqları əsərlər barədə məlumat verdilər. Bunlar hamısı çox qiymətlidir. Mən bu görüş ərəfəsində bir neçə belə kitabla tanış oldum. Alim, professor Samət Əlizadənin burada qeyd etdiyi həmin kitab 1988-ci ildə Fərhad Zeynalovun və Samət Əlizadənin müəllifliyi ilə nəşr edilmişdir. Mən

bu kitaba baxdım. O, həqiqətən çox sanballı elmi əsərdir. Ancaq bu elmi əsərlər alimlər, tədqiqatçılar üçün böyük əhəmiyyət daşıyır, geniş ictimaiyyət isə bunlardan istənilən səviyyədə istifadə edə bilməyibdir. “Kitabi–Dədə Qorqud”un elmi nöqteyi-nəzərdən tədqiq edilməsi bizim üçün çox lazımdır. Eyni zamanda, “Kitabi–Dədə Qorqud” Azərbaycan ictimaiyyəti, kütlə, xalq üçün tanınmalıdır.

Mən bu baxımdan Anarın xidmətlərini xüsusi qeyd etmək istəyirəm. Mənə belə gəlir ki, biz bu gün, müəyyən zaman keçəndən sonra Anarın bu sahədəki axtarışlarına, xidmətlərinə daha da yüksək qiymət verməliyik. Bəlkə də Anar uşaqlar üçün Dədə Qorqud haqqında kitab yazanda, yaxud başqa kitablarını yazanda çoxları bunun nə qədər əhəmiyyətli olduğunu o dərəcədə dərk edə bilmirdilər. Amma indi biz artıq öz milli dəyərlərimizi, köklərimizi, tariximizi olduğu kimi təsvir etməyə çalışarkən vaxtilə atılmış belə addımların nə qədər qiymətli olduğunu dərk edirik. Mən Anarın bu münasibətlə yaratdığı filmi də qiymətləndirirəm.

Təbiidir, siz də, biz də, hamımız bilirik ki, hər bir tarixi hadisəni elmi kitablardan da tapıb oxumaq olar. Amma hər bir insan elmi kitablardan istifadə edə bilmir. Son onilliklərin təcrübəsi onu göstərir ki, geniş kütlə, xalq üçün tarixi hadisələri izah, təbliğ etməkdən ötrü ən gözəl vasitə onlar haqqında fılmlərin, səhnə əsərlərinin yaranmasıdır. Məsələn, Üzeyir Hacıbəyov vaxtilə “Koroğlu” operasını yaradana qədər bəlkə də xalqımız Koroğlunu bu qədər dərindən dərk edə bilmirdi. Ancaq Üzeyir Hacıbəyovun yaratdığı “Koroğlu” operası və onun səhnəmizdə çox gözəl şəkildə təqdim olunması indi Koroğlu obrazının və “Koroğlu” dastanının məzmununu, mənasını hamımız üçün çox gözəl göstərir. İndi hər birimizdən soruşsalar ki, Koroğlu kimdir, mərhum böyük müğənnimiz Bülbülün səhnədə yaratdığı Koroğlu obrazı yada düşür. Yaxud, – mən bunu vaxtilə demişəm, – Səməd Vurğunun Vaqif haqqında yazdığı pyes Vaqifi geniş kütləyə tanıdıbdır. Vaqifin şeirləri, əsərləri tanınırdı, amma o qədər də geniş yox. Şeirlərini oxuyurduq, lakin Vaqifin kim olduğu, onun həyatı, tərcümeyi-halı, yaradıcılığı haqqında geniş məlumat yox idi.

Xatirimdədir, mən orta məktəbdə oxuyarkən “Ədəbiyyat müntəxəbatı” kitabında Vaqif haqqında bir-iki səhifə yazı və şeirləri var idi. Biz orta məktəbdə oxuyarkən Vaqifin “Bayram oldu, heç bilmirəm neyləyim” şeirini öyrənmişdik. Mənim orta məktəbdən yadımda qalan odur. Amma “Vaqif” pyesini görəndən sonra Ələsgər Ələkbərovun ifasında Vaqifin surəti də, eyni zamanda Vaqif də bizə məlum oldu.

Ona görə də tarixi mövzuda yaradılan əsərlər, o cümlədən “Nəsimi”, “Babək” filmləri çox qiymətlidir. Şübhəsiz ki, Anarın yaratdığı “Dədə Qorqud” filmi də çox qiymətlidir. Onun qiyməti bəlkə də ona görə çoxdur ki, – indi hamımız bilirik –“Kitabi–Dədə Qorqud” dastanının dili çox çətindir, mürəkkəbdir. Onun tarixi də başqa dastanlar kimi o qədər tədqiq olunmayıbdır. Ona görə də bu təşəbbüs çox əhəmiyyətlidir. Hesab edirəm ki, bu film qarşıdakı yubiley zamanı Azərbaycan ictimaiyyətinə, kütləyə yenidən təqdim olunmalıdır.

Mən burada irəli sürülən təkliflərlə tamamilə razıyam ki, “Kitabi–Dədə Qorqud” haqqında böyük bir serial yaratmaq olar. Bunun nə həcmdə olacağını mən bu gün müəyyən edə bilmərəm. Amma bu təklifi dəstəkləyirəm, qəbul edirəm və biz belə bir serialın yaranması üçün lazımi vəsait taparıq. Yəqin ki, bu, tədbirlər planında öz əksini tapmalıdır və bu barədə işlər görülməlidir.

Beləliklə, indiyə qədər olan dövrdə müəyyən işlər görülübdür. Əgər biz tariximizi bu gün müəyyən qədər səliqəyə salsaq, indiyədək görülən işləri yəqin ki, “Kitabi–Dədə Qorqud”un tarixinin öyrənilməsinin birinci mərhələsi hesab etmək olar. Yəqin ki, ikinci mərhələ “Kitabi–Dədə Qorqud” dastanının 1300 illik yubileyinin keçirilməsi haqqında verilmiş fərmandan başlanır.

Siz bu fərmanın əhəmiyyətini burada çox düzgün qeyd etdiniz. Bu fərmanın ən böyük əhəmiyyəti ondan ibarətdir ki, birincisi, biz bütün dünyaya nümayiş etdirir və bildiririk ki, bəli, “Kitabi–Dədə Qorqud” dastanının azı 1300 il yaşı vardır. İkincisi, onu bildiririk ki, bəli, “Kitabi–Dədə Qorqud” dastanı Azərbaycan xalqına, bütün türk dünyasına məxsusdur. Ancaq onun vətəni Azərbaycandır. Burada çox deyildi, bəli, onun vətəni, sahibi Azərbaycan xalqıdır, onun sahibi müstəqil Azərbaycan dövlətidir.

Mən belə hesab edirəm ki, bax, bu iki cəhət bizim fərmanın böyük əhəmiyyətini nümayiş etdirir. Həmin fərman veriləndən indiyə qədər görülən işlər də çox əhəmiyyətlidir. Burada bu barədə məlumat verildi. Ancaq daha da çox iş bundan sonra görülməlidir. Bundan sonra görüləcək işlər isə iki mərhələyə bölünə bilər: birincisi, vaxtını müəyyən edəcəyimiz builki zirvə tədbirinə qədər; ikincisi, ondan sonrakı dövrdə görüləcək işlər.

Təbiidir, biz “Kitabi–Dədə Qorqud”un 1300 illik tarixini təhlil etmək, əsərlər yaratmaq və onları nəşr etmək, dünyaya yaymaq işini bir il ərzində görə bilmərik. Ona görə də bizim iş planımızın iki hissəsi olmalı-

dır. Onun birinci hissəsində nəzərdə tutulan işlər son yubiley tədbirinə qədər görüləcəkdir. İkinci hissəsində planlaşdırılan işlər isə son yubiley tədbirindən sonra, gələcək illərdə görüləcəkdir.

Hesab edirəm ki, 1997-ci ildə verilmiş fərman gələcək çox illər, on illər üçün böyük perspektiv açıbdır. Biz böyük bir perspektiv plan hazırlamalı və onu ardıcıl surətdə həyata keçirməliyik. Biz nə qədər çox işləsək, "Kitabi–Dədə Qorqud"u, tariximizi bugünkü və gələcək nəsillərə daha da dolğun, düzgün çatdıra biləcəyik. Biz bunu mütləq etməliyik.

Nəhayət, həmin fərmanın meydana çıxması və indi bu müzakirənin aparılması, gələcəkdə görüləcək işlər Azərbaycanın dövlət müstəqilliyinin bəhrəsidir. Bəli, biz keçmişdə nə qədər iş görmüşüksə, indi – müstəqil dövlət olduqdan sonra gördüyümüz işlər onların hamısından üstündür. Çünki biz indi sərbəstik, azadıq, müstəqilik, biz tariximizi olduğu kimi əks etdiririk və əks etdirəcəyik.

Biz öz tariximizlə, mədəniyyətimizlə, ədəbiyyatımızla fəxr edirik və fəxr etməyə haqqımız vardır. Çünki "Kitabi–Dədə Qorqud" dastanı kimi böyük bir elm, mədəniyyət, ədəbiyyat abidəsi olan xalq öz tarixi ilə fəxr edə bilər. Bunlar da ölkəmizin müstəqilliyi nəticəsində mümkün olmuşdur. Biz bu müstəqillik dövründən səmərəli istifadə etməliyik.

Müstəqilliyin qarşımızda qoyduğu vəzifələr çoxdur. Biz hüquqi, demokratik dövlət qururuq, iqtisadi islahatlar aparırıq, siyasi islahatları həyata keçiririk, iqtisadiyyatı inkişaf etdiririk, dövlətimizi möhkəmləndiririk. Bununla yanaşı, mən böyük iftixar hissi ilə deyə bilərəm ki, son illər Azərbaycanda müstəqilliyin imkanlarından istifadə edərək tariximizi təhlil etmək, ədəbiyyatımızı, mədəniyyətimizi yenidən dərk etmək və dünyaya nümayiş etdirmək sahəsində çox işlər görmüşük. Ancaq bundan sonra daha da çox işlər görməliyik və ümid edirəm ki, görəcəyik. Bunların hamısı Azərbaycanın müstəqil dövlət kimi dünyada tanınmasına kömək edəcəkdir.

Mən bir daha deyirəm ki, burada irəli sürülən təkliflər çox dəyərlidir. Məsələn, mən Dədə Qorqud haqqında bu fikirlə razıyam ki, bəlkə də adi bir heykəl qoymaq o qədər də məqsədəuyğun olmazdı. Mən razıyam ki, böyük bir kompleks yaratmaq, onun üçün münasib yer seçmək olar. Yəni doğrudan da, bir surətin heykəlini qoymaq çox lazımdır, lakin "Kitabi–Dədə Qorqud" elə bir dastandır ki, kompleks götürsək, məsələn, bir şəhərcik ayırsaq, sonra orada cürbəcür başqa abidələr də yaratmaq olar. Memarlarımız, heykəltəraşlarımız, rəssamlarımız bu barədə düşünməlidirlər.

Hesab edirəm ki, biz bunu edə bilərik. Təbiidir ki, bunu qısa bir zamanda etmək mümkün deyildir. Ancaq əgər bizim mütəxəssislərimiz bu barədə yaxşı bir təklif irəli sürə bilsələr, komissiyamız bu sahədə yaxşı işləyə bilsə, biz belə bir layihəni qəbul edərik və bu layihə əsasında bir, iki, üç ilə böyük bir kompleks yarada bilərik. Bu lazımdır. Əgər film lazımdırsa ki, insanlar baxsınlar, böyük bir kompleks də lazımdır ki, insanlar daim oraya getsinlər. Dədə Qorqudu ziyarət etsinlər və tariximizlə, Dədə Qorqudla daim təmasda olsunlar.

Burada Dədə Qorqudun qəbri haqqında söhbət getdi. Biz bunu dərinləşdirmədik. Ona görə də mən bu gün bu barədə ətraflı fikir söyləmək istəmirəm. Ancaq hesab edirəm ki, komissiyamız gərək bu barədə də bir təklif versin. Bu təklifi yəqin ki, bir-iki ay müddətində vermək lazımdır. Hörmətli alimimiz burada dedi ki, kimsə Dədə Qorqudun qəbrini tanıyır. Amma mən eşitmişəm ki, Dədə Qorqudun Dərbənddəki qəbri məlumdur və oraya ziyarətə də gedirlər.

Biz etiraf etməliyik ki, Dədə Qorqudun Dərbənddə qəbri olduğunu son vaxtlara qədər bəlkə də az adam bilirdi. Məsələn, etiraf edirəm ki, mən bunu bilmirdim. Yaxşı, kim bilirsə əlini qaldırsın.Görürsünüz, çox az, üç-dörd adam əlini qaldırır.

Gəlin belə danışaq. Bir halda ki, hamınız deyirsiniz Dədə Qorqudun çox yerlərdə qəbri var, gəlin Dədə Qorqudun harada qəbirləri varsa, onları tapaq. Bir halda ki, bu gün deyirik Dədə Qorqudun sahibiyik, həmin qəbirləri tapaq, araşdıraq, kitablarda yazılsın, bunların ünvanı bilinsin.

Hesab edirəm ki, komissiya üzvləri Dədə Qorqudun qəbri barədə işlərlə məşğul olurlar. Mən komissiyanın sədriyəm. Ancaq mənim müavinlərim var. Onlar Elçin Əfəndiyev, Fəraməz Maqsudov və Anardır. Mən bundan sonrakı təşkilati işləri müavinlərimə tapşırıram. Çünki komissiyanın iclasını keçirməyə mənim hər dəfə imkanım olmayacaqdır. Mən müavinlərimdən xahiş edirəm ki, bu gündən iş planı qurulsun. Ola bilər, ayda iki dəfə yığışasınız, komissiyanın üzvlərindən kimləri istəsəniz dəvət edəsiniz, işləri görəsiniz və mənə məlumat verəsiniz. Mən bunu sizdən xahiş edirəm.

Bugünkü müzakirəyə görə sağ olun.

## XALQ ARTİSTİ SÜLEYMAN ƏLƏSGƏROVA

*Bakı şəhəri, 21 fevral 1999-cu il*

Hörmətli Süleyman Ələsgərov!

Sizi – Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsini 75 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz milli musiqi sənətimizin inkişafında böyük xidmətlər göstərərək xalqımızın dərin ehtiram və məhəbbətini qazanmış sənətkarlardansınız. Tükənməz xalq musiqisindən bəhrələnən yaradıcılığınız rəngarəngliyi, forma aydınlığı, musiqi dilinin səlistliyi ilə səciyyələnir. Müxtəlif janrlarda bəstələdiyiniz əsərlər son əlli il ərzində respublikanın mədəni həyatında mühüm rol oynayaraq milli musiqi sənəti tarixinə parlaq səhifələr yazmışdır.

Əsası dahi Üzeyir Hacıbəyov tərəfindən qoyulmuş musiqili komediya janrı yaradıcılığınızda əsas yer tutur. Bu janrın inkişafında əvəzsiz rol oynamış çoxsaylı operettalarının hər biri respublikamızda layiqincə qiymətləndirilmiş və yeni-yeni ifaçılar nəslinin yetişməsinə təkan verməklə musiqimizin inkişafı işinə xidmət etmişdir.

Siz ölkəmizdə yüzlərlə mahnı və romansın müəllifi kimi də şöhrət qazanmısınız. Xalq musiqisi intonasiyaları ilə sıx bağlı olan vokal əsərləriniz insanlara vətən sevgisi, mənəvi saflıq, incə duyğular aşılayır. Opera, simfoniya və süitalarınız, xor, instrumental və kamera əsərləriniz böyük istedadınızın ayrı-ayrı çalarlarını nümayiş etdirən gözəl sənət nümunələridir.

Respublikada peşəkar musiqi kadrlarının hazırlanmasında Sizin böyük xidmətləriniz vardır. Məhz bu iş musiqi məktəbinin direktoru, xalq çalğı alətləri orkestrinin dirijoru, musiqili komediya teatrının direktoru, baş dirijoru kimi vəzifələrdə işlədiyiniz illərdə fəaliyyətinizin əsas istiqamətlərindən birini təşkil etmişdir. Uzun müddətdir ki, Bakı Musiqi Akademiyasının professoru kimi sənətkarlar nəslinin yetişdirilməsi sahəsində səmərəli iş aparırsınız.

İnanıram ki, musiqi mədəniyyətimizin daha da inkişaf etdirilməsi üçün zəngin təcrübənizi və bacarığınızı bundan sonra da sərf edəcək və sənətinizin pərəstişkarlarına yeni musiqi töhfələri bəxş edəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**O.S.SADIQZADƏNİN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

Azərbaycan rəssamlıq sənətinin inkişafındakı xidmətlərə görə xalq rəssamı Oqtay Seyid Hüseyn oğlu Sadıqzadə "Şöhrət" ordeni ilə təltif edilsin.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 fevral 1999-cu il*

## XALQ RƏSSAMI
## OQTAY SADIQZADƏYƏ

*Bakı şəhəri*
*27 fevral 1999-cu il*

Hörmətli Oqtay Sadıqzadə!

Sizi – Azərbaycan rəssamlıq məktəbinin görkəmli nümayəndəsini anadanolma gününüz münasibətilə və yaradıcılığınızın 60 illiyi ilə səmimi-qəlbdən təbrik edirəm.

Siz Azərbaycan mədəniyyətində böyük xidmətləri olan sənətkarlardansınız. Müxtəlif mövzularda yaratdığınız boyakarlıq və qrafika əsərləri Sizə plakat və portret ustası kimi geniş şöhrət gətirmişdir. Siz Azərbaycan xalqının dərin hörmətini qazanmış ziyalı bir ailədə dünyaya gəlmisiniz və gənc yaşlarınızdan təkrarolunmaz yaradıcı bir mühitlə əhatə olunmusunuz. Hələ gənc ikən 30-cu illərdəki siyasi repressiyalar dövründə düçar olduğunuz məhrumiyyətlər Sizin iradənizi nəinki qırmamış, əksinə, haqqın təntənəsinə olan inamınızı daha da qüvvətləndirmiş və məhz bu duyğularla aşılanmış əzmkarlığınız yaradıcılığınızın əsas leytmotivini təşkil etmişdir.

Sənət yoluna boyakarlıq əsərləri ilə qədəm qoyaraq Siz fəaliyyətinizin mühüm bir dövrünü kitab qrafikasına həsr etmiş və dünya klassiklərinin, Azərbaycan yazıçılarının əsərlərinə çəkdiyiniz illüstrasiyalarınızla respublikamızda bu sahənin inkişafına böyük təkan vermisiniz. Sizin yaradıcılıq dəst-xəttinizdə miniatür sənətimizin klassik ənənələrinə əsil yaradıcı münasibət özünü büruzə verir. Tablolarınızda vətənə, torpağa, doğma yurda, onun gözəl insanlarına bağlılığınızı əks etdirmisiniz.

Böyük zövq və məhəbbətlə çəkdiyiniz portretlərdə tarixi şəxsiyyətlərimizin daxili aləminə nüfuz edərək onların xarakterini həssas sənətkar məharəti ilə açmış, milli irsimizə gözəl bələd olduğunuzu nümayiş etdirmisiniz. Azərbaycan qadınlarına həsr etdiyiniz portretlər öz dərin psixoloji çalarları ilə təsviri sənətimizdə xüsusi yer tutur.

Sizin yaratdığınız portretlər Avropa rəngkarlıq məktəbinin ənənələrini davam etdirərək özündə həm də milli koloriti əks etdirir.

İnanıram ki, rəssamlığımızda xüsusi yeri olan bir sənətkar kimi Siz zəngin təcrübənizdən və istedadınızdan istifadə edərək müstəqil Azərbaycanımızın mədəniyyətinin çiçəklənməsi naminə bundan sonra da var gücünüzü əsirgəməyəcək və pərəstişkarlarınıza yeni-yeni əsərlərlə sevinc bəxş edəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## GÖRKƏMLİ QAZAX YAZIÇISI, QAZAXISTANIN İTALİYA VƏ YUNANISTANDAKI SƏFİRİ OLJAS SÜLEYMENOVLA GÖRÜŞDƏKİ SÖHBƏT

*Prezident sarayı*
*4 mart 1999-cu il*

**Oljas Süleymenov:** Çox şadam ki, uzun illərdən sonra biz yenidən görüşürük. Amma mən Sizi həmişə görürəm, fəaliyyətinizi izləyirəm. Dünən Sizin çıxışınızı dinlədim.

**Heydər Əliyev:** Bəli, bizim axırıncı görüşümüzdən çox illər, on il, bəlkə də daha çox keçmişdir.

**Oljas Süleymenov:** Xatirimdədir, mən burada Füzulinin yubileyində olmuşam. O vaxt Siz mənə dediniz ki, Oljas, sən təkcə qazaxlara deyil, azərbaycanlılara da gərəksən.

**Heydər Əliyev:** Oljas, çox şadam ki, Siz bizə qonaq gəlmisiniz. Azərbaycanda sizi xalqımızın böyük dostu hesab edirlər. Təbii ki, mən də bu fikirdəyəm. Hesab edirəm ki, siz Azərbaycan xalqının da dostusunuz, mənim də dostumsunuz. Sizə böyük hörmət hissləri bəslənilir, həm yazıçı, həm də siyasi xadim kimi, Azərbaycanda böyük nüfuza maliksiniz. Azərbaycanın 1990-cı ilin yanvarında sovet qoşunları tərəfindən işğalı zamanı sizin fəaliyyətinizi Azərbaycanda yaxşı xatırlayır və yüksək qiymətləndirirlər, sovet qoşunlarının Bakıya yeridilməsinin ikinci günü sizin buraya gəlişinizi xatırlayırlar. Siz buraya gəldiniz, çıxış edib baş verənləri pislədiniz. Bunu Azərbaycanda çox yaxşı xatırlayırlar.

Bizi Sizinlə çoxdankı dostluq bağlayır. Hələ o vaxtlar, mən burada, Azərbaycanda, Siz isə Qazaxıstanda işləyən dövrlərdə, sonra Moskvada işlədiyim zaman mən Sizə böyük iftixar hissi ilə baxırdım ki, xalqlarımızın belə gənc istedadları var, elə istedadlar ki, nəinki romanlar, pyeslər və ya digər ədəbi əsərlər yazmağa, həm də öz xalqı haqqında, onun taleyi, keçmişi, indisi və gələcəyi barədə düşünməyə qadirdirlər. İndi öz tarixi köklərini, tarixi keçmişini, milli özgünlüyünü və milli ləyaqətini daha dərindən dərk etmiş bütün xalqlarımızın belə görkəmli nümayəndələrindən birisiniz. Siz hələ cavanlığınızda bu məsələlərdə çoxlarına nisbətən daha böyük yetkinlik nümayiş etdirirdiniz. Bu, yaxşı məlumdur. O vaxtlar mən

bunu görür, müşahidə edir, duyurdum və buna görə də bu, əsilinə qalsa, ədəbi istedadınızla yanaşı, məndə Sizə hörmət, ən səmimi, dostluq hissləri doğururdu. Buna görə də şadam ki, Siz Azərbaycanı unutmursunuz, buraya gəlmişsiniz, özü də qəfildən, gözlənilmədən gəlmisiniz. Dünən qəfildən, günortadan sonra mənə xəbər verdilər ki, Siz buraya gəlirsiniz. Əlbəttə ki, mən sevindim, çünki bu, çox xoş xəbər idi. Bununla bərabər, dərhal soruşdum ki, Siz burada neçə gün qalacaqsınız. Mənə dedilər ki, çox az. Onda şübhəsiz ki, məyus oldum. Buna baxmayaraq, mən bu görüşə şadam, Sizi görməyimə şadam. Siz əvvəllər olduğu kimi yenə də gözəlsiniz. Bir sözlə, Sizi salamlayıram.

**Oljas Süleymenov:** Təşəkkür edirəm. Mən buraya, həqiqətən, gözlənilmədən gəldim. Almatıdan İstanbul vasitəsilə Romaya gedirdim, yolüstü İstanbulda dayandım və buraya zəng vurub dedim ki, iki gün vaxtım var. Soruşdum ki, buraya gələ bilərəmmi? Onu da soruşdum ki, Heydər Əliyeviç indi Bakıdadırmı? Dedilər ki, bəli. Odur ki, təyyarəyə minib buraya gəldim.

Heydər Əliyeviç, mən Sizə həmişə böyük hörmətlə yanaşmışam, yanaşıram və yanaşacağam. Çünki bir şəxsiyyət kimi, dövlət xadimi kimi bütün keçmiş Sovet İttifaqı üçün, Azərbaycan üçün, yer üzündəki bütün türk xalqları üçün qədir-qiymətinizi bilirəm. Zənnimcə, əgər onda, 1990-cı ildə Siz burada olsaydınız həmin o Qara Yanvar olmazdı.

Xatirimdədir, o vaxt mən bundan gecə saat üçdə xəbər tutdum, yazıçılar mənə zəng vurmuşdular. O zaman mənə soyuq dəymişdi və “Moskva” mehmanxanasında qızdırmalı yatırdım. Amma hadisədən xəbər tutan kimi qalxıb buraya gəldim. Axı o anda deyə bilməzdim ki, xəstəyəm, gələ bilmərəm. Təbii ki, gəlməyə bilməzdim. Bunu düzgün başa düşməzdilər, fikirləşərdilər ki, Oljas özünü bu dəhşətli əhvalatdan kənara çəkir.

Mən gəldim və dostlarımın, doğma Azərbaycanımın müsibətinə və ağrı-acılarına şərik çıxdım. O vaxtdan həmin günlər, sonralar baş vermiş hadisələr barədə xatirələr mənim ovqatıma təsir göstərir. Mən ilk qaçqınları görmüşəm və bu gün onların məskənlərinə getmək, onlarla dərdləşmək, onların ümid və iztirablarından hali olmaq istəyirəm. Biz bütün bunlara biganə qala bilmərik.

Bu gün mən Sizinlə, Azərbaycanla bir daha görüşürəm. Burada gördüklərimi və hiss etdiklərimi dostlarıma və başqa ölkələrdə ünsiyyətdə olduğum adamlara da danışacağam. Bu torpağa, onun xalqına, şəxsən Sizə, Azərbaycanın görkəmli oğullarına öz məhəbbətimi bir daha ifadə etmək və doğma saydığım bu torpağa xoşbəxtlik, tarixin bizi qarşılaş-

dırdığı belə dəhşətli vəziyyətlərdən tezliklə çıxmağı arzulamaq istəyirəm. Bu xalqın, onun rəhbərliyinin nikbinliyi ümid verir ki, hər şey qaydasına düşəcək, digər xalqların köməyi, arzu və ümidləri ilə burada da günəş bərq vuracaqdır. Azərbaycan buna layiqdir. Sizinlə görüşərkən mən bax, bunları demək istəyirdim.

**H e y d ə r Ə l i y e v:** Mən sizin təşəbbüsünüzü qiymətləndirirəm və bayaq dediyim kimi, istərdim ki, burada çox qalasınız. Ancaq, hər halda, Azərbaycanda olmaq üçün ayırdığınız vaxt ərzində biz çalışacağıq ki, qaçqınlarımızın yaşadıqları çadır düşərgələrini də, mümkün olan hər şeyi də görəsiniz. Bizim üçün başlıcası Sizin ölkəmizə, xalqımıza göstərdiyiniz diqqətdir. Bu diqqət də öz ifadəsini Sizin buraya gəlişinizdə tapır.

Sizi gördükdə, əlbəttə, ötən günlərdən çox şeyi yada salıram, xatırlayıram. Xatırlayıram ki, Siz öz əsərlərinizdə mərdliklə və cəsarətlə elə mövzular qaldırırdınız ki, bunlar o vaxtlar da gərək idi, indi – qazax xalqı da, Azərbaycan xalqı da öz müstəqilliyini, azadlığını əldə etdiyi, suveren dövlətlər olduğu vaxtda daha yüksək qiymətləndirilir.

Əlbəttə, 1986-cı ilin dekabrını da xatırlayıram. Yeri gəlmişkən, deməliyəm ki, bu, Sovetlər İttifaqının tərkibinə daxil olan xalqlara qarşı, necə deyərlər, ilk siyasi təcavüz idi. O vaxt mən Siyasi Büronun üzvü idim və yeri gəlmişkən, Mixail Qorbaçov oraya Kolbini MK-nın birinci katibi kimi göndərməyi qərara aldıqda ona öz fikrimi söylədim. Öz narahatlığımı bildirdim, çünki bundan əvvəl o, Şimali Qafqaz respublikaları barəsində artıq müəyyən işlər görmüşdü – orada yerli millətlərdən olan adamları ruslarla əvəz etmişdi. Sonra, 1986-cı ilin dekabrında Almatıda bu hadisə baş verdikdə Solomentsev başda olmaqla, – Siz onu Qazaxıstanda hələ keçmişdəki fəaliyyətindən tanıyırdınız, – komissiya göndərildiyini və nə kimi qərar qəbul edildiyini xatırlayıram.

Mən öz fikrimi çox kəskin şəkildə bildirdim. Qorbaçovun yeritdiyi milli siyasət məsələləri ilə əlaqədar bizim aramızda əvvəllər də ciddi fikir ayrılıqları olurdu. Yeri gəlmişkən deməliyəm ki, öz sələflərindən fərqli olaraq o, müsəlman xalqları, türk mənşəli xalqlar barəsində çox mənfi mövqe tuturdu. Siyasi Büronun iclaslarında, – xüsusən də bu iclaslar "məhdud" dairədə keçəndə, – oturmaq və olduqca xoşagəlməz söhbətləri eşitmək mənim üçün çox ağır idi. Məsələn, yadınızda olduğu kimi, Özbəkistanda rəhmətlik Şərəf Rəşidova qarşı kampaniya başlanmışdı və əsilində günahsız insanları zindanlara salırdılar. Hər həftə iclaslarda Rusiya Federasiyasının bu və ya digər vilayətlərinin siyahılarını təklif edir, adamlar seçir və onları Özbəkistana göndərirdilər. Soruşurdum niyə?

Mənə cavab verirdilər ki, orada kadrlar yoxdur. Özbəkistan belə yüksək səviyyədə olduğu halda, demə, orada “kadrlar yox imiş”.

Sonra bütün bunlar o yerə gətirib çıxarıldı ki, Qazaxıstanda, o cür kadrları olan respublikada, sən demə, yerli millətdən olan adam yox idi, oraya Kolbini gördərmək lazım imiş.

Beləcə, 1986-cı ilin dekabr hadisələri baş verdi və bir il sonra, hətta bir az da tez, 1987-ci ilin oktyabrında mən bütün vəzifələrimdən istefaya getdim. Qazaxıstanla bağlı hoqqabazlıq mənə çox ağır təsir bağışladı və əsilinə qalsa, Qorbaçovla münaqişəmizin zirvəsinə çevrildi. Yeri gəlmişkən, o vaxt mən Almatıda rəsmi səfərdə olanda bu barədə parlamentdə Nursultan Abişeviçə danışdım.

Təəccüblüsü bu idi ki, Qorbaçov yalan məlumat verirdi. O, Siyasi Büroda deyirdi ki, bilirsinizmi, Qazaxıstanda hamı istəyir ki, birinci katib yerli millətdən olmasın. Görürsünüzmü, bunların hamısı necə saxtakarlıqla təqdim edilirdi, o, hətta bir dəfə bildirmişdi ki, guya Kunayev gələrək demişdir ki, orada elə bir adam yoxdur və Moskvadan adam göndərin. Bax, belə informasiyalar verirdi. Nə etmək olardı? Axı biz bunu yoxlaya bilmirdik. Axı o bunları Siyasi Büronun iclasında deyirdi. Məsələnin müzakirəsindən sonra mən onun yanına gəldim və təklikdə dedim: Siz bir başa düşün, mən burada, Siyasi Büroda rus və ya Ukrayna millətindən olmayan yeganə adamam, mən biganə qala bilmərəm, siz düz iş tutmursunuz, indi 30-cu, 40-cı illər deyil, artıq 1986-cı ildir. Hətta 30-cu illərdə Qazaxıstana Şayahmətov – yerli millətdən olan adam başçılıq edirdi. Bəs indi necə oldu ki, 1986-cı ildə Qazaxıstanda, bu qədər kadrları olan belə böyük respublikada yerli millətdən adam yoxdur? Onun şovinist mövqeyi konkret işlərində özünü çox aydın və konkret görünürdü.

Əslinə qalsa, məhz bu ona gətirib çıxardı ki, sonralar 1988-ci ilin fevralında Dağlıq Qarabağ üstündə Ermənistanla Azərbaycan arasında münaqişə başlandı. Sözün düzü, mən hər yerdə və həmişə dəfələrlə açıq demişəm ki, günahkar o Qorbaçovdur. “Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinin mümkünlüyü” barədə müraciət edən ermənilərə o vəd vermişdi. O, erməniləri arxayın salmış, onlara razılıq vermişdi, sonra da onlar baş qaldırdılar. Onlar baş qaldıranda isə o bunun qarşısını ala bilərdi – o vaxt hələ Sovetlər İttifaqı kimi bir dövlət vardı. Axı Dağlıq Qarabağ məsələsi tarixin əvvəlki mərhələlərində də qaldırılmışdı. Mən burada 14 il respublikanın rəhbəri işləmişəm və bu müddətdə həmin məsələni dəfələrlə qaldırmışdılar. Biz müzakirə edir və sübut edirdik ki, bu, mümkün deyildir, qanunauyğun deyildir və məsələ obyektiv həll olunur-

du. Amma bu dəfə o, həmin məsələni xüsusi olaraq qızışdırdı, faciə baş verdi. 10 ildən çoxdur davam edir.

Əslində, digər bütün münaqişələr – gürcü-abxaz münaqişəsi də, gürcü-osetin münaqişəsi də, nəhayət, Çeçenistan, Moldova münaqişələri də Dağlıq Qarabağ münaqişəsi başlandıqdan sonra yarandı. Onların hamısı sonra meydana gəldi, çünki bu, zəncirvari reaksiyadır. Tarixdə həmişə belə olmuşdur. Ermənistan – Azərbaycan münaqişəsi birinci idi. İndi həlli müşkülə düşən bütün bu münaqişələrin yaranmasında Qorbaçov təqsirkardır. Müxtəsəri, Sizi gördükdə bütün keçmişi xatırlayıram.

**O l j a s S ü l e y m e n o v:** Bütün bunlar siyasi qeyri-peşəkarlığın nəticəsidir, peşəkarlar meydandan çəkilmiş və boşluğu səriştəsiz adamlar, qeyri-peşəkarlar doldurmuşdular. Siyasi nadanlıq milyonlarla insanın faciəsinə gətirib çıxarır. Buna görə də çox vacibdir ki, müstəqilliyin təşəkkül tapdığı məhz bu çətin dövrdə xalqlara Sizin kimi yüksək dərəcəli peşəkarlar, bərkdən-boşdan çıxmış insanlar rəhbərlik etsinlər. Çünki belə imkan xalqlara min ildə bəlkə də bir dəfə verilir və onu əldən buraxmaq olmaz, ondan elə istifadə etmək lazımdır ki, xalq bu dövrdən möhkəmlənmiş halda çıxsın və onun sonrakı nəsilləri irsən müstəqil, sözün əsil mənasında azad və məğrur insanlar olsunlar. Heydər Əliyeviç, Sizin kimi rəhbərlərin xidməti də məhz bundan ibarətdir. Sizə möhkəm cansağlığı, dünən tribunadan çoxminlik salonu lərzəyə gətirdiyiniz kimi güclü enerji arzulayıram. Mən gənclərin Sizi necə alqışladığını gördüm. Təcrübə ilə gənclik hərarətinin bu vəhdəti, bu birliyi çox şey deyir. Sizə cansağlığı, xoşbəxtlik və müvəffəqiyyətlər arzulayıram.

**H e y d ə r Ə l i y e v**: Səmimi sözlərə və xoş arzulara görə, Oljas, Sizə təşəkkür edirəm.

# AZƏRBAYCAN RESPUBLİKASININ ELM, MƏDƏNİYYƏT, İNCƏSƏNƏT XADİMLƏRİNƏ, İCTİMAİ XADİMLƏRƏ AZƏRBAYCAN DÖVLƏTİNİN YÜKSƏK MÜKAFATLARININ – ORDENLƏRİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ

*Prezident iqamətgahı*
*7 mart 1999-cu il*

Hörmətli xanımlar və cənablar!

Siz Azərbaycan dövlətinin yüksək mükafatları – ordenlərlə təltif olunmusunuz. Mən böyük məmnuniyyətlə bu yüksək mükafatları sizə təqdim edirəm.

Bundan öncə qadınları 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edirəm. Onlara cansağlığı, xoşbəxtlik və bütün işlərində uğurlar arzulayıram.

Mərhum akademik Ziya Bünyadovun layiq görüldüyü "İstiqlal" ordenini alimin həyat yoldaşı Tahirə xanıma təqdim edirəm.

**Tahirə xanım Bünyadova:** Əziz Heydər Əliyeviç, Ziya Bünyadovun xatirəsinin əbədiləşdirilməsinə görə ailəmiz adından və şəxsən öz adımdan Sizə təşəkkürümü bildirirəm.

Bakıda prospektlərdən birinə, respublika Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutuna Ziya Bünyadovun adı verilmiş, Ziya Bünyadov adına təqaüd təsis edilmiş, onun yaşadığı evə xatirə lövhəsi vurulmuş, qəbri üstündə gözəl bir abidə qoyulmuşdur.

Cənab prezident, mən Sizə ürəkdən təşəkkür edirəm. Ziyanın xidmətlərinə yüksək qiymət verərək onu respublikanın ən yüksək ordeni ilə təltif etdiyinizə görə minnətdarlığımı bildirirəm. Sizə cansağlığı, gümrahlıq, xoşbəxtlik arzulayıram. Əziz Heydər Əliyeviç, heç bir günümüz Sizsiz olmasın.

**Heydər Əliyev:** Görkəmli sənətkar, xalq artisti Leyla Bədirbəyliyə "İstiqlal" ordeni təqdim edirəm.

**Leyla Bədirbəyli:** Əziz və möhtərəm prezidentimiz cənab Heydər Əliyevə hörmət və ehtiram!

Bizə göstərdiyiniz qayğı çox qiymətlidir. Çətin və gərgin işinizin içində bizi unutmursunuz, bizim haqqımızda düşünürsünüz. Ensiklopedik biliyiniz Sizə hər şeyi işıqlandırır. Sizinlə fəxr edir, həmişə gözəl hisslər keçiririk. Sizin hər bir addımınız bizim üçün dəyərlidir. Xalqımızın səadəti naminə Sizə möhkəm cansağlığı, uzun ömür arzulayırıq. Həmişə belə cavan və gümrah qalın. Sonsuz minnətdarlıq, təşəkkür və razılığımızı qəbul edin.

Heydər Əliyev Rusiya–Azərbaycan Dostluğu Cəmiyyətinin sədri, həmyerlimiz, professor, ictimai xadim Nikolay Baybakova, ictimai xadim Kamran Hüseynova, professor Məzahir Abasova, xalq artisti Tükəzban İsmayılovaya, professor Abdulla Muxtarova, professor Yaqub Mahmudova, xalq artisti, bəstəkar Süleyman Ələsgərova, xalq rəssamı Oqtay Sadıqzadəyə "Şöhrət" ordenləri təqdim etdi.

**H e y d ə r Ə l i y e v**: Əziz Nikolay Konstantinoviç!

Azərbaycanın yüksək mükafatını – "Şöhrət" ordenini sizə dərin məmnuniyyətlə təqdim edirəm. Nikolay Konstantinoviç, Siz bizim üçün doğma insansınız, həmyerlimizsiniz, bakılısınız, əsil azərbaycanlısınız.

Nikolay Konstantinoviç Baybakovu Azərbaycanda hamı tanıyır. Bununla belə, bir neçə söz deyəcəyəm.

O, Bakıda doğulmuş, burada təhsil almış, Azərbaycan Sənaye İnstitutunu bitirmiş, neftçi-mühəndis olmuş və əmək fəaliyyətinə Azərbaycanın neft mədənlərində başlamışdır. Onun hələ 30 yaşı yox idi, amma ən iri idarəyə – Sabunçu Neft–Mədən İdarəsinə başçılıq edirdi. Bu idarə həmin illərdə – mən 30-cu illərin ikinci yarısını nəzərdə tuturam – Azərbaycan, Bakı neftinin, demək olar, əsas hissəsini verirdi.

Nikolay Konstantinoviç Azərbaycanda gözəl məktəb – mərdlik məktəbi, şərəf məktəbi, ləyaqət məktəbi keçmiş və buradan, təkrar edirəm, hələ 30 yaşı bitməmiş daha da yüksəklərə vəsiqə aldı. O, həmin vaxtlar Sovetlər İttifaqının yenicə açılmış neft rayonlarına, "İkinci Bakı"ya göndərildi. O rayonları nə üçün "İkinci, Üçüncü Bakı" adlandırmışdılar? Çünki bütün bu neft yataqları Azərbaycan neftçilərinin fəal iştirakı ilə kəşf olunmuş və açılmışdı. Bu neftçilərdən biri də Nikolay Konstantinoviç Baybakov idi. O, "İkinci Bakı" neft yataqlarının açılması və istismarı sahəsində üzərinə qoyulmuş vəzifəni ləyaqətlə yerinə yetirdi və sonra Sovetlər İttifaqının paytaxtında – Moskvada işə irəli çəkildi.

O, 30 yaşında artıq Sovetlər İttifaqının xalq komissarı, yəni SSRİ-nin neft sənayesi naziri oldu. Onun sonrakı yolu da Sovetlər İttifaqının neft sənayesinin və iqtisadiyyatının inkişafı ilə bağlı mürəkkəb, çətin, la-

kin şərəfli yoldur. Nikolay Konstantinoviç Baybakov Sovetlər İttifaqının neft sənayesinin inkişafına, keçmişdə ittifaqa daxil olan indiki müstəqil respublikaların – Rusiyada və Müstəqil Dövlətlər Birliyinin digər ölkələrində neft sənayesinin belə potensialının və onun belə böyük inkişaf perspektivlərinin olmasına böyük töhfə vermişdir.

Nikolay Konstantinoviç Baybakov 20 ildən çox Sovetlər İttifaqının Dövlət Plan Komitəsinə başçılıq etmişdir. Bu, nəhəng ölkənin xalq təsərrüfatının inkişafını planlaşdıran, təşkil edən və planların həyata keçirilməsinə çalışan başlıca iqtisadi idarəsi idi. Beləliklə, o, təkcə neft sənayesinin deyil, bütun Sovetlər İttifaqının iqtisadiyyatının və xalq təsərrüfatının inkişafına böyük töhfə vermişdir.

Nikolay Konstantinoviç, keçmişin üstündən qələm çəkərək, həyatın guya onlardan başlanmasını düşünən və əlbəttə, dərin səhvə yol verən bir çoxlarından, yeri gəlmişkən, moskvadakılardan fərqli olaraq, biz keçmişdə olanları unutmuruq. Çünki belə zəngin keçmiş olmasaydı, bu gün malik olduqlarımız da olmazdı. Yox, biz keçmişdə olanların hamısını lazımınca qiymətləndiririk. Keçmiş isə o deməkdir ki, Sovetlər İttifaqına daxil olan respublikalar 20-ci illərdən başlayaraq sosial-iqtisadi, mədəni və bütün digər sahələrdə böyük inkişaf əldə etmişdilər. Hazırda bu inkişaf keçmiş Sovetlər İttifaqı respublikalarının, o cümlədən Azərbaycanın bugünkü və gələcək həyatının təməlini təşkil edir. Bütün bunlarda Nikolay Konstantinoviç Baybakovun böyük xidməti var.

Nikolay Konstantinoviç Baybakovu Azərbaycanda hamı doğma adam kimi tanıyır. O, Azərbaycandan getdikdən sonra da bütün illər ərzində bizimlə əlaqəni kəsməmiş, Azərbaycana daim gəlmiş, Moskvada işləyərkən respublikamızın inkişafı ilə bağlı bir çox problemlərlə məşğul olmuşdur. 1938-ci ildən başlayaraq o, Azərbaycandan bütün çağırışlarda SSRİ Ali Sovetinin deputatı seçilir. Məhz Azərbaycan neftçiləri, azərbaycanlı həmvətənlər ona böyük etimad göstərərək SSRİ Ali Sovetinə deputatlığa namizəd irəli sürür və deputat seçirdilər. Nikolay Konstantinoviç bu etimadı layiqincə doğruldurdu.

Şəxsən mən Nikolay Konstantinoviçi çoxdan tanıyıram. Lakin 30 il əvvəl biz onunla lap sıx əməkdaşlığa başladıq, yəni 1969-cu ildə mən Azərbaycana rəhbərlik etdikdə qarşılıqlı münasibətlərimizin yeni mərhələsi, yeni dövrü başlandı.

Azərbaycana rəhbərlik etdiyim bütün o illər ərzində biz Nikolay Konstantinoviçlə fəal əməkdaşlıq etmişik. O, mənim dəvətimlə və ya öz arzusu ilə tez-tez Azərbaycana gəlirdi, biz Aərbaycan iqtisadiyyatının

problemlərini birlikdə nəzərdən keçirirdik. Hamıya məlumdur ki, 70-ci illər və 80-ci illərin birinci yarısı Azərbaycanda iqtisadiyyatın, sosial həyatın sürətli inkişaf dövrü idi. Bütün bunlarda Nikolay Konstantinoviç Baybakovun böyük xidməti var.

Sonralar biz Moskvada, SSRİ Nazirlər Sovetinin tərkibində birlikdə işlədik. Mən Nazirlər Soveti Sədrinin birinci müavini idim. Nikolay Konstantinoviç Nazirlər Soveti sədrinin müavini idi. Biz hər gün birlikdə olurduq, hər halda, həftədə bir dəfə Nazirlər Sovetinin iclaslarında, Siyasi Büronun iclaslarında olurduq. Biz birlikdə idik və fəal əməkdaşlıq edirdik.

Nikolay Konstantinoviç Azərbaycanla əlaqələrini bu gün də itirmir. Məhz bütün bu böyük xidmətlərinə görə və hazırda Rusiya ilə Azərbaycan arasında əməkdaşlığın möhkəmlənməsində və inkişafında çox böyük rol oynadığına görə o, Rusiya – Azərbaycan Cəmiyyətinin sədri seçilmişdir və özünün bu vəzifələrini layiqincə yerinə yetirir.

Nikolay Konstantinoviç uzun ömür sürmüşdür, lakin gördüyünüz kimi, bu gün də cavan, yaraşıqlı kişidir. Bu gün onun 88 yaşı tamam olur, bu gün Nikolay Konstantinoviçin ad günüdür. Nikolay Konstantinoviç, mən şadam ki, Siz öz ad gününüzdə buradasınız, Azərbaycanda, Bakıda, köhnə dostlarınız arasındasınız. Şadam ki, məhz ad gününüzdə Sizə Azərbaycan dövlətinin yüksək mükafatını təqdim etmək şərəfinə malikəm.

Nikolay Konstantinoviç bu gün də enerjilidir, çox gülərüzdür, çox nikbindir, neft elminin problemləri ilə yaxından məşğul olur. O professordur, iqtisadiyyat sahəsində, neft sənayesi sahəsində görkəmli alimdir. O, böyük neftçidir, hətta deyərdim, keçmiş Sovetlər İttifaqında bir nömrəli neftçidir, çünki onun kimi ikinci beləsi Rusiyada da yoxdur, Azərbaycanda da. Nikolay Konstantinoviç elmi fəaliyyətlə də, neft sənayesinin inkişafı sahəsində fəaliyyətlə də məşğul olur və bununla əlaqədar Azərbaycan neftçiləri ilə əməkdaşlığı davam etdirir. Nikolay Konstantinoviç, bütün bunlara görə biz çox şadıq. Təkrar edirəm, mən şadam ki, bu gün biz Sizinlə bir yerdəyik.

Əziz Nikolay Konstantinoviç, Siz öz həyatınız boyu Sovetlər İttifaqının da, dünyanın bir çox digər dövlətlərinin də neçə-neçə yüksək mükafatlarını almısınız. Lakin Siz doğma Azərbaycanınızın dövlət mükafatını ilk dəfə alırsınız. Belə düşünürəm ki, bunun Sizin üçün də, bizim üçün də, bu gün müstəqil dövlət kimi vətəndaşlarını da, öz hüdudlarından kənarda olan həmvətənlərini də mükafatla təltif etmək imkanına malik olan Azərbaycan üçün də əhəmiyyəti var.

Nikolay Konstantinoviç, Sizi bir daha təbrik edir, cansağlığı arzulayıram. Allaha şükür, yaxşı qalmısınız. Düşünürəm ki, yüz illiyinizi Sizinlə birlikdə qeyd edəcəyik. Sizə bütün işlərinizdə uğurlar, ən xoş diləklər arzulayıram.

**N i k o l a y B a y b a k o v:** Əziz Heydər Əliyeviç!

Əziz dostlar və yoldaşlar!

Bu gün mənə təqdim edilən bu yüksək mükafata görə minnətdarlıq sözləri tapa bilmirəm. Bəli, Heydər Əliyeviç mənim həyatımdan çox danışdı. Buna görə də təkrar etmək fikrində deyiləm, bir də ki, buna lüzum yoxdur, çünki çoxları məni tanıyır. Mən yalnız bir şeyi demək istəyirəm ki, faşizm üzərində qələbə üçün Azərbaycanın etdiklərini bəlkə də heç bir respublika etməmişdir. Dövlət Müdafiə Komitəsinin cəbhənin yanacaqla təmin olunması üzrə keçmiş müvəkkili kimi, – bu vəzifəyə məni Stalin təyin etmişdi, – bilirəm ki, almanlar Azərbaycana lap yaxınlaşan zaman ölkəmiz nə vəziyyətdə idi. Axı onlar artıq Krasnodarı işğal edərək Qroznının həndəvərinə gəlib çıxmışdılar və Azərbaycanın aqibəti həll olunurdu. Bəs Azərbaycanın aqibəti nə demək idi? Müharibədən əvvəlki dövrdə, 40-cı ildə çıxardığımız 33 milyon ton neftin 23,5 milyon tonu Azərbaycanın payına düşürdü. Ukrayna (o, çox az miqdarda neft verirdi), Krasnodar (xeyli neft verirdi) faşistlər tərəfindən işğal edildikdən sonra bütün ağırlıq Azərbaycanın üzərinə düşdü. Almanlar cənubda Rostov yolunu kəsdikdə, faşistlər Stalinqrada yaxınlaşıb cəbhənin də, xalq təsərrüfatının da yanacaqla bütün təchizat yollarını kəsdikdə biz çox böyük işlər görməli olurduq. Hətta iş o yerə gəlib çatmışdı ki, cəbhə üçün və xalq təsərrüfatı üçün nefti Xəzər dənizi ilə çənlərdə daşıyıb aparırdıq. Necə deyərlər, sağ əlimizlə sol qulağımızı qaşıyırdıq.

Bu mövzuda çox danışmaq istəmirəm, lakin faşizm üzərində qələbədə vətənimin əhəmiyyətini bir daha nəzərə çarpdırmaq istəyirəm. Dekabrda buraxılmış və yaxın vaxtlarda Bakıya da gəlib çatacaq “Stalindən Yeltsinədək” kitabında faşizm üzərində qələbədə Azərbaycanın rolu və əhəmiyyətindən danışılır. Buna görə də çıxışımı bitirərək demək istəyirəm ki, Azərbaycanın neft və qaz sənayesinin inkişafına az-çox kömək göstərməyə nə qədər ki, qüvvəm var, mümkün olan hər şeyi edəcəyəm, təbii ki, sizin köməyinizlə. Biz köhnə rayonların və ən əvvəl Balaxanı, Sabunçu və Ramananın canlandırılmasına dair qəbul olunan sazişlər əsasında birlikdə hərəkət edəcəyik. Mən həmin rayonlarda trest müdiri olmuşam və oradan da məni “İkinci Bakı”ya, sonra da “Üçüncü Bakı”ya aparmışdılar.

İstəyirəm ki, neftin geoloji ehtiyatlarının qalan 50 faizi əziz vətənimə xidmət üçün çıxarılsın. Sağ olun, Sizə möhkəm cansağlığı, azı 100 il ömür arzulayıram. Az olsa, yanıma gəlin, ömrünüzü uzadaram, çünki mən 150 il yaşamışam. Ona görə ki, bu "dəlixanada" – 22 il sədr işlədiyim Dövlət Plan Komitəsində bir il üç il hesab edilir. 15 il xalq komissarı və nazir işləmişəm, bunu ikiyə vurun, 5 il Şimali Qafqaz Xalq Təsərrüfatı Şurasının sədri işləmişəm, bunu ikiyə vurun, 2 il Dövlət Neft və Kimya Komitəsinin sədri olmuşam, bunu iki il hesab edirəm, çünki orada heç nəyə cavabdeh deyildim. Bunların üstünə mənim 88 yaşımı gəlib hesablayın, görərsiniz ki, hamısı birlikdə 150 ilə bərabərdir. Odur ki, Sizin ömrünüzü uzatmağa ixtiyarım var. Üstəlik, burada, mən Kirovabaddan deputat seçilərkən ilk dəfə uzunömürlü Novruz Bayramovla görüşdüm, həmin gün onun 147 yaşı tamam olurdu. O, buraya, Bakıya herontoloqlarla birlikdə gəlmişdi və təəssüf ki, burada xəstələnib vəfat etdi.

Bunu ona görə deyirəm ki, insanın potensialı çox böyükdür. Mənim keçmiş köməkçim Aleksandr Nikolayeviç Umnov burada oturur. Biz onunla 20 il Dövlət Plan Komitəsində işlədik. O, burada mənə materiallar verdi. Bu materiallardan nə qədər uzunömürlü insan olduğunu və onların nə qədər yaşadığını öyrəndim. Bax, dünyada ən çox yaşayan bir balıqçı olmuşdu – 205 il. Necə istəyirsiniz, yoxlayın, lakin rəsmi məlumat bunu təsdiq etmişdir.

Stalin məni xalq komissarı təyin edərkən nə kimi keyfiyyətlərə malik olmalı olduğumu yoxlamaq üçün məni imtahana çəkdi. Mən hər şeyi danışırdım, o isə hey soruşurdu. Daha nə, özgə nə. Mən dedim: Yoldaş Stalin, mən bildiklərimin hamısını söylədim, əgər Siz faydalı keyfiyyəti mənə desəniz, şad olaram. O, mənə yaxınlaşıb qəlyanı ilə çiynimə vuraraq dilləndi; hər şeyi doğru dediniz, amma başlıca məsələni demədiniz. Təbii ki, mən tez ayağa qalxdım. O isə yenə də qəlyanıyla çiynimə vuraraq bildirdi: Xalq komissarı möhkəm əsəblərə malik olmalı və nikbin olmalıdır. Budur, nikbinliyin nə demək olduğunu bütün həyatım boyu anlayıram. Nikbinlik mənə kömək etmişdir. Bunu Sizə də təklif etmək istəyirəm, çünki bu, ağır şəraitdə xüsusilə vacibdir.

Əziz Heydər Əliyeviç, sözün düzü, heç bilmirəm yaxşı nə deyim. Amma Azərbaycanın inkişafı üçün Heydər Əliyeviçin etdiyini, zənnimcə, heç kim etməmişdir. Mən Mircəfər Bağırovla, başqaları ilə işləmişəm. Lakin açığını deyəcəyəm, kiminsə Heydər Əliyeviç kimi işlədiyini görməmişəm. Respublikamızın, Azərbaycanımızın inkişafı, çiçəklənməsi onun dövründə olmuşdur. Arzu etmək istəyirəm ki, Siz bu məsul vəzifədə də

həmişə o cür fəal olasınız, Azərbaycanı daha böyük enerji ilə möhkəmlədəsiniz. Mən Azərbaycanı, onun həyatını, rəqəmləri izləyirəm və xalq təsərrüfatının inkişafında, Azərbaycan əməkçilərinin həyat səviyyəsinin yüksəlməsində uğurlar arzulamaq istəyirəm. Çox sağ olun.

**H e y d ə r Ə l i y e v:** "Nikolay Konstantinoviç özünün bir keyfiyyətindən danışmadı – o, qadınları çox sevir və qadınlar da onu çox sevirdilər və bu gün də sevirlər. Hər halda, Dövlət Plan Komitəsində çoxlu qadın işləyirdi və o, hamısını sevirdi, onlar da onu sevirdilər. Ümumiyyətlə, nəzərə alın ki, o elə həmin kişidir.

Mən "Şöhrət" ordenini Kamran Hüseynova təqdim edirəm.

**K a m r a n H ü s e y n o v:** Heydər Əliyeviç, Siz indicə Nikolay Konstantinoviçdən danışdınız və o da öz sözünü dedi. Siz bir müddət qısa müalicədə olarkən, inanın, bütün respublika həyəcan keçirirdi, hər gün hamı Sizin səhhətinizlə maraqlanırdı. Allaha şükür, Siz özünüz deyirdiniz ki, hər şey çox əladır və biz sakitləşirdik. Bu, hamının arzu və istəyi idi. Qayıdanda özünüz gördünüz ki, uşaqdan tutmuş böyüyədək bütün ölkə Sizi necə təntənə ilə qarşılamağa çıxmışdı. Çox sağ olun. Allaha şükür ki, Siz tam sağalıb qayıtdınız.

İcazə verin, Nikolay Konstantinoviç Baybakov haqqında bir neçə kəlmə deyim.

Heydər Əliyeviç, Sizin dediklərinizi təkrar etmək mümkün deyildir. Nikolay Konstantinoviç bizim doğma adamımızdır. Çox sağ olun ki, Siz bütün hallarda, heç vaxt Nikolay Konstantinoviçi unutmursunuz.

Siz respublikaya rəhbərlik etdiyiniz 70-ci illərdən danışdınız. Hesab edirəm ki, Azərbaycanın həmin dövrünü intibah, dirçəliş, bərpa, inkişaf dövrü adlandırmaq olar. Nikolay Konstantinoviç də bu işdə heç də axırıncı rol oynamırdı, görkəmli rol oynayırdı. Bizdə nəinki güclü kimya, metallurgiya, maşınqayırma sənayesi meydana gəlmişdi, neft sənayesi inkişaf edirdi, başlıcası bu idi ki, Siz maarifin maddi-texniki bazasının inkişafına diqqət yetirirdiniz. Həmin illərdə bir milyon iki yüz min şagird yeri yaradılmışdı. Demək olar, bütün şagirdlər yeni məktəblərdə oxuyurdular. Səhiyyənin, maarifin bazaları, elmi-texniki idarələr, hər yerdə çox saylı yeni müəssisələr yaradılmışdı. Siz bizi onun yanına göndərib deyirdiniz, "Baybakov oradadır, onun yanına gedin". Biz onun yanına gəlir, deyirdik: Nikolay Konstantinoviç, məktəblərin inkişafı üçün bizə bir milyard manat lazımdır. O, məktəb tikintisinin inkişafı üçün birbaşa, təyinatla 500 milyon manat tapırdı. Azərbaycan kəndinin görkəmi dəyişirdi.

Siz burada da tamamilə doğru dediniz, çox sağ olun.Siz onu unutmursunuz. O, doğma adamımızdır, həmyerlimizdir. Onun Dövlət Plan Komitəsinin sədri olması o demək deyildi ki, bizə hər şey verməli idi. O, bizə nə düşürdüsə, onu da verirdi. Bu da böyük işdir.

İki kəlmə ilə onu da demək istəyirəm ki, o, Rusiyanın müxtəlif rayonlarında işləyən bir çox Azərbaycan neftçiləri, – Komi Respublikasının baş, əməkdar geoloqu Məmmədov, qaz kəşfiyyatı təsərrüfatının başçısı Akif Səyyadov və başqaları üçün mayak olmuşdur. Belələri nə qədərdir! Dardüşüncəli adamlara elə gəlir ki, azərbaycanlılar yalnız göy-göyərti satırlar. Amma onların sənayeni irəlilətməsini unudurlar. Müharibə başlananda Sumqayıtdan 6 min nəfərlik kollektiv bütünlüklə Nijni Tagilə, yerli kombinatın tikintisinə getdi və onu inşa etdi. Mingəçevirin tikintisi başa çatdı və böyük texnika, ehtiyatlar Yenisey SES-in tikintisinə göndərildi. Biz orada tikintiyə başladıq, Beləliklə, Azərbaycan borclu qalmırdı, hər şey edirdi. Çox sağ olun.

Siz Nikolay Konstantinoviçi gözəl xatırlayırsınız, ona hər zaman dostluq, yoldaşlıq əli uzadırsınız. O da Sizə son dərəcə hörmət bəsləyir. Biz bununla fəxr edirik.

**Heydər Əliyev:** Mən Sizi də həmişə xatırlayıram. Görürsünüz, köhnə qvardiyaya necə hörmət edirik. Öz aramızdır bu heç də hər yerdə belə deyildir. Hamı da belə deyildir.

**Kamran Hüseynov:** Çox sağ olun. İcazə verin kiçik hədiyyəni – “Bir həyatın salnaməsi” kitabını Sizə təqdim edim. Bu kitab yaxınlarda nəşr olunmuşdur, tezliklə rus dilində də çıxacaqdır.

**Heydər Əliyev:** Professor Məzahir Abasova “Şöhrət” ordenini təqdim edirəm.

**Məzahir Abasov:** Sizə minnətdarlığımı bildirirəm. Möhtərəm cənab prezident, Siz mənə zəng vuranda mən öz ürək sözlərimi bildirdim. Sizin tapşırığınızla mən general Əbilov haqqında kitab yazmışam. Sizə təqdim etmək istədiyim kitabda ürək sözlərimi belə ifadə etmişəm: “Böyük zəka və ağıl sahibi, xalqımın yüksək hüsn-rəğbətini qazanmış, dünya şöhrətli, müdrik Heydər Əlirza oğluna kiçicik xatirə kimi təqdim olunur”.

Heydər müəllim, bu kitab Sizin tapşırığınızla yazılıb, oxuyarsınız, əgər iradınız olsa, mən onları düzəltməyə hazıram.

**Heydər Əliyev**: İrad ola bilməz. Yəqin ki, yaxşıdır. Sağ olun.

**Məzahir Abasov:** Heydər müəllim, Sizinlə telefonla danışanda dediniz ki, mənə sözünüz var? Fikirləşdim ki, mən nə deyim, – prezi-

dent məni təbrik edir. Amma iki-üç gündən sonra Sizin adınıza bir məktub yazdım. Həmin məktuba hələlik bir cavab yoxdur. Ona görə də yenisini yazmışam.

**H e y d ə r Ə l i y e v:** Sənin məktubun mənə çatmayıb, mən onu almamışam.

**M ə z a h i r A b a s o v:** Cənab prezident, mən Sizə minnətdaram, uzun ömür, cansağlığı arzulayıram. Siz Allah tərəfindən göndərilmiş səma elçisisiniz. Azərbaycanın taleyi yalnız Sizdən asılıdır.

**H e y d ə r Ə l i y e v:** Xalq artisti Tükəzban İsmayılovaya yüksək mükafatı təqdim edirəm.

**T ü k ə z b a n İ s m a y ı l o v a**: Əziz və möhtərəm prezidentimiz, Sizə minnətdarlığımı bildirirəm. Siz bizim əzizimizsiniz. Siz həmişə bizim ailəmizə qayğı göstərmisiniz. 75 yaşımın tamam olması münasibətilə Siz mənə zəng vuranda elə bildim ki, Allah mənə yenidən ömür bəxş etdi. Sizin danışığınız mənə çox böyük təsir etdi. Mən hər yerdə bu barədə danışıram.

İşinizin çox olmasına baxmayaraq, vaxt tapıb müğənniyə – mənə zəng etməyinizlə elə bildim ki, dünyanı mənə bağışladınız. Mən Sizə cansağlığı, uzun ömür arzulayıram. Dünyada nə qədər yaşamaq istəyirsinizsə, Allah onu Sizə bəxş eləsin. Allah mənim ömrümdən kəsib Sizə versin. Çox sağ olun.

**H e y d ə r Ə l i y e v:** Maşallah, yaxşısınız, gözəl qalmısınız, heç dəyişməmisiniz.

**T ü k ə z b a n İ s m a y ı l o v a:** Sizin kimi prezidenti olan qocalmaz. Çox sağ olun, təşəkkür edirəm.

**H e y d ə r Ə l i y e v**: Professor Abdulla Muxtarova "Şöhrət" ordenini təqdim edirəm.

**A b d u l l a M u x t a r o v**: Bu yüksək mükafat üçün Sizə dərin təşəkkürümü bildirirəm.

**H e y d ə r Ə l i y e v:** Tarixçi, professor Yaqub Mahmudova "Şöhrət" ordenini təqdim edirəm.

**Y a q u b M a h m u d o v:** Öz dərin minnətdarlığımı bildirirəm.

Möhtərəm cənab prezident!

Bu gün Azərbaycan ziyalılarına, bizim sənət adamlarımıza müstəqil Azərbaycanımızın ali mükafatlarının təqdim olunması çox əlamətdar bir hadisədir. Buna görə də Azərbaycanın ən yüksək ordenini Sizdən qəbul edərkən hədsiz həyəcan hissi keçiririk. Bunun müqabilində nə isə demək son dərəcə çətindir.

Amma mən bir neçə söz demək istəyirəm. Çünki Sizin bu gün müstəqilliyini qurduğunuz, yaratdığınız, qoruduğunuz, xilas etdiyiniz Azərbaycanda gələcəkdə yüz illərlə ölkəmizin yüksək mükafatları veriləcəkdir. Tarixçi alim kimi mən bu yüksək mükafatı, ali ordeni Sizdən qəbul edərkən bilirəm ki, onu Azərbaycanın prezidentindən, dövlətçiliyimizin xilaskarından, Azərbaycan millətinin fəxrindən qəbul edirəm.

Mən böyük qürur hissi keçirirəm ki, lap bu yaxın günlərdə planetimizin ən qüdrətli siyasətçiləri arasında sorğu aparılanda Siz Kembricdə Bioqrafik Araşdırmalar Mərkəzində "XX əsrin ən görkəmli dövlət xadimi" adına layiq görülmüsünüz. Bu, hər bir azərbaycanlı üçün, şəxsən məndən ötrü böyük bir fəxrdir.

Azərbaycanın bu yüksək ordenini, ali mükafatı bu gün Sizdən qəbul edərkən belə hesab edirəm ki, Siz bu ali mükafatı təkcə mənə deyil, 1950-ci, 1960-cı, 1970-ci illərdə şəxsən Sizin qoruduğunuz milli əhval-ruhiyyəli gənclərin – Siz onları məhv olmaqdan xilas etmisiniz, zülm dəyirmanının qarşısında dayanaraq onları müdrikliklə, son dərəcə ölçüb-biçərək, amma böyük cəsarətlə xilas edirdiniz, mən onların bir nümayəndəsiyəm – onların hər birini təltif edirsiniz.

Siz 1970-ci illərdə Azərbaycanı qaldırdınız. Azərbaycan geniş SSRİ məkanında ən qüdrətli respublikalardan birinə çevrildi. O böyük məkanda azərbaycanlı başını qaldırıb qürurla gəzirdi. O zaman mən də qürur hissi keçirirdim ki, bu mənim Azərbaycanımın qeyrətli oğlunun sayəsindədir, onun xidmətlərinin nəticəsidir ki, Azərbaycan tanınır, xalqımız xalqlar içərisində öz imzasını tapa bilir. Bax, o zaman qürur hissi keçirən azərbaycanlılardan biri kimi, mən bu gün məmnuniyyətlə belə hesab edirəm ki, bu, həmin azərbaycanlıların hamısına verilən mükafatdır.

Nəhayət, Siz 1970-ci illərdə Azərbaycana rəhbərlik edərkən ziyalılarımızın böyük bir dəstəsini məhv olmaqdan xilas etdiniz. Siz tarixçiləri, sənət adamlarını o çox ağır şəraitdə xilas etdiniz, qoruyub saxladınız. Bizim ziyalı potensialımız yaşadı, onlar bu gün Sizin arxanızdadır. Belə hesab edirəm ki, bu mükafat onların hər birinə verilən mükafatdır.

Nəhayət, biz Azərbaycanda neçə il Sizsiz yaşadıq, ağır günlərimiz oldu. Mən cəbhə bölgələrini qarış-qarış gəzmişəm. Kərkicahanda, Xocalıda, Qubadlıda, Laçında gəncləri döyüşə ruhlandıranda hamı bir ağızdan deyirdi ki, bizi bu bəladan, fəlakətdən Heydər Əliyev xilas edəcəkdir, onu hakimiyyətə gətirin.

Ölkəmizdə dövlət çevrilişinə cəhdlər göstərilərkən mən Azərbaycanın bütün guşələrini gəzmişəm. Uzaq Zaqatalada, Şəkinin Göynük kən-

dində, Qaxda, Balakəndə, Lənkəranda, Füzulidə Azərbaycan dövlətçiliyindən söhbət düşəndə hamı əllərini açaraq tribunaya yaxınlaşıb deyirdi: "Tale Heydər Əliyevi yaşatsın, ona cansağlığı versin, bizi o xilas edəcəkdir".

Mənim sözümün mahiyyəti ondan ibarətdir ki, bu gün bizim hamımız dərindən-dərinə dərk edir ki, 1993-cü ildə Azərbaycan məhv olmaqda ikən, daşnakların arzularının yerinə yetməsi ərəfəsində, ölkəmiz parçalananda, xalqımız ayaq altında qalanda, dövlətçiliyimiz məhv olmaq təhlükəsi qarşısında qalanda bizim bir silahımız var idi: Heydər Əliyevin zəkası! O zəkanı bizə Allah-təala bəxş etmişdir. Təkcə o silahla bizim düşmənlərimiz – xalqımızı məhv etməyə çalışan zəhmli xarici düşmənlər də, daxildəki satqınlar da məğlubiyyətə uğradılar. Bu gün Azərbaycan yaşayır!

Düzünü deyim ki, mən həmişə bu salonda yüksək mükafatların təqdim olunması mərasimini izləyəndə daxilən narahatlıq keçirirəm. Bizim hər birimizə – Azərbaycanın ziyalılarına, dövlət adamlarına bu mükafatları Heydər Əlirza oğlu verir. Bəs onun mükafatı nə olmalıdır, ona kim mükafat verməlidir?

Möhtərəm prezident, mən belə hesab edirəm ki, bizim qurtuluş mübarizəmizin qalibi Siz oldunuz. Yəni Sizin kimi şəxsiyyətlərin mükafatla təltif edilməsinə fərmanı tarix verir. Tarix isə min illər üçün Sizi Azərbaycan xalqının qurtuluş mücadiləsinin qalibi kimi yüksək fəxri adla təltif etmişdir. Siz bizim dövlətçiliyimizin xilaskarısınız. Siz bu gün Azərbaycan xalqını planetdə təmsil edirsiniz və xalqımız Sizin sayənizdə dövlətçiliyini qoruyub saxlayır. Mən belə hesab edirəm ki Azərbaycan dövlətçiliyinin xilaskarı olmaq Azərbaycan üçün, dünyamız, planetimiz üçün ən böyük fəxri addır. Bütün bu adlara layiq olduğunuz üçün və xalqımız Sizi öz ürəyinin başına yazdığına görə Sizi qəlbən təbrik edirik, Sizə möhkəm cansağlığı arzulayırıq.

Cənab prezident, təyyarə meydanında Sizi qarşılayanlardan ən çox sevinənlərdən biri mən oldum. İndi həmişəki kimi millətlə baş-başa vermisiniz. Arzu edirik ki, millətimizi bir də belə sınağa çəkməyəsiniz. Sizə möhkəm cansağlığı arzulayıram. Sizə eşq olsun!

**Heydər Əliyev:** Xalq artisti, bəstəkar Süleyman Ələsgərova vətənin yüksək mükafatını təqdim edirəm.

**Süleyman Ələsgərov:** Möhtərəm prezidentimiz!

57 illik zəhmətimə, Azərbaycan milli musiqisinin inkişafında gördüyüm işlərə verdiyiniz qiymətə, mənə göndərdiyiniz məktubda yazdığınız

ürək sözlərinə, telefon danışığımız zamanı dediyiniz qəlbdən gələn sözlərə və məni “Şöhrət” ordeni ilə təltif etdiyinizə görə Sizə minnətdaram. Xahiş edirəm mənim təşəkkürümü qəbul edin.

Mən hər gün düşünürəm, öz-özümə sual verirəm. Deyirəm, görəsən dünyada bizim hörmətli prezidentimiz qədər mədəniyyətimizin, musiqimizin ayrı-ayrı sahələrinə bu dərəcədə diqqət, qayğı göstərən ikinci bir dövlət başçısı varmı? Özüm də o saat cavab verirəm ki, xeyr, əsla yoxdur.

Yaşımın bu ahıl vaxtında bir arzumu Sizə bildirmək istəyirəm. Mənim ən böyük arzum odur ki, torpaqlarımız düşməndən azad edilsin. Şuşamız qayıtsın. Biz Şuşada, Cıdır düzündə izdihamlı bir toplantı quraq və Siz orada çıxış edəsiniz. İştirakçıların hamısı bir ağızdan desin: Xalqımızın və vətənimizin xilaskarına eşq olsun! Möhtərəm prezident, yaşayın, çox yaşayın! Allah bizi bu arzularımıza çatdırsın!

**Heydər Əliyev:** Xalq rəssamı Oqtay Sadıqzadəyə “Şöhrət” ordenini təqdim edirəm.

**Oqtay Sadıqzadə:**Bu yüksək mükafat üçün səmimi-qəlbdən təşəkkürümü bildirirəm.

**Heydər Əliyev:** Əziz dostlar!

Biz bu gün Beynəlxalq Qadınlar Günü bayramı ərəfəsindəyik. Bu, təkcə qadınların deyil, bütün cəmiyyətin bayramıdır, yəni kişilərin də bayramıdır. Əgər belə olmasaydı, 8 Mart günü heç də istirahət günü olmazdı. Qadınların bayramına görə bütün cəmiyyət, kişilər də istirahət edir, bayram edir.

Bu gün təltif olunanların arasında Azərbaycanın gözəl qadınları vardır. Onlar bizimlə bir yerdədirlər. Leyla xanım Bədirbəyli, Tükəzban xanım İsmayılova Azərbaycan mədəniyyətinin tarixidirlər. Ola bilər, mən onlarla bir yaşdayam, bəlkə də bir az yaşlıyam. Mən ən gənc vaxtlarımdan həm Leyla xanımın, həm də Tükəzban xanımın sənətinə vurulan adamlardan biriyəm. Mən xoşbəxtəm ki, Leyla xanım da, Tükəzban xanım da bu gün cəmiyyətdə fəal iştirak edirlər və nəhayət, müstəqil Azərbaycanın, dövlətimizin yüksək mükafatlarını alırlar.

Mən istəyirəm ki, hamımızın adından qadınları bir daha təbrik edim, onlara xoşbəxtlik, səadət arzulayım. Qadınların özlərinə, ailələrinə, balalarına, nəvələrinə, nəticələrinə – hamısına cansağlığı, sağlam həyat, xoş güzəran arzulayıram. ! Sağ olun, sizin hamınızı Qadınlar bayramı münasibətilə bir daha təbrik edirəm.

## AZƏRBAYCANDA KEÇİRİLƏN DAĞISTAN MƏDƏNİYYƏT GÜNLƏRİNDƏ DAĞISTAN İNCƏSƏNƏT USTALARININ KONSERTİNƏ BAXDIQDAN SONRA YARADICI KOLLEKTİVLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Respublika sarayı*
*12 mart 1999-cu il*

Sizi Azərbaycanda səmimi salamlayır və Azərbaycanda Dağıstan mədəniyyəti günlərinin başlanğıcı olan gözəl çıxışınız münasibətilə ürəkdən təbrik edirəm. Bu, Azərbaycan üçün də, Dağıstan üçün də böyük hadisədir. Xalqlarımız, ölkələrimiz bir-biri ilə həmişə sıx bağlı olmuşlar, indi isə buna xüsusi zərurət və xüsusi tələbat var. Siz də məhz bu məqsədə xidmət edirsiniz. Öz sənətinizlə, öz çıxışlarınızla Dağıstanla Azərbaycan arasında dostluq münasibətlərinin möhkəmlənməsinə və inkişafına kömək edirsiniz. Bu baxımdan Azərbaycanda Dağıstan mədəniyyəti günləri böyük əhəmiyyətə malikdir.

Bu günlərin başlanmasına mən çox şadam və əminəm ki, Azərbaycanda olmağınız xalqlarımızı, dövlətlərimizi, ölkələrimizi, şübhəsiz, daha da yaxınlaşdıracaqdır. Bu gün siz Dağıstan xalqının parlaq incəsənətini nümayiş etdirdiniz. Dağıstan nadir ölkədir. Zənnimcə, dünyada Dağıstan kimi ölkə yoxdur. Əlbəttə, bu ölkənin zəngin təbiəti var, ancaq ən çox öz gözəl insanları və çoxmillətli tərkibi ilə zəngindir. Təkrar edirəm, mən dünyada elə bir ölkə tanımıram ki, Dağıstan kimi kiçik bir ərazidə bir çox millətlərdən olan insanlar yaşasın və özü də gözəl yaşasınlar. Bu gün siz öz çıxışınızla Dağıstanın bu rəngarəngliyini, çoxmillətliliyini olduqca parlaq şəkildə nümayiş etdirdiniz.

Şəxsən mən və Azərbaycan xalqı Dağıstanı yaxşı tanıyırıq. Biz sizin tarixinizə, mədəniyyətinizə, incəsənətinizə də bələdik. Bu gün siz yüksək səviyyəli, yüksək dərəcəli incəsənət və Dağıstan xalqları mədəniyyətinin yüksək nailiyyətlərini göstərdiniz. Müxtəlif dillərdə – avar, dargin, qumuq, lak, ləzgi və Dağıstanın bir çox digər dillərində mahnıları dinləmək xoş idi.

Əlbəttə, rəqslərinizi görmək də xoş idi. Siz virtuozsunuz. Əlbəttə, İqor Moiseyevin bizim hamımız üçün məşhur olan, rəqs sənətinin həqi-

qətən yüksək səviyyəsinə yiyələnmiş ansamblı var. Qafqazın–Azərbaycanın da, Gürcüstanın da, başqa xalqların da rəqs ansamblları var. Biz Azərbaycanın rəqs ansamblını çox yüksək qiymətləndiririk. Ancaq bu gün sizin göstərdiklərinizi, açığını deyəcəyəm, mən əvvəllər Dağıstanda görməmişdim.

Mən Dağıstan xalqlarının gözəl rəqslərinin dəfələrlə şahidi olmuşam, amma "Ləzginka" məşhur ansambldır. O, bütün dünyanı gəzib dolaşmışdır və özünün yüksək ustalığını bu gün də saxlayır. Bu gün siz "Ləzginka"nın çıxışından əlavə, çoxmillətli Dağıstana aid bir çox digər şeylər də göstərdiniz. Buraya gəldiyinizə görə, Dağıstan mədəniyyətini Azərbaycanda göstərməyə başladığınıza görə sağ olun. Mən bunu çox böyük hadisə hesab edirəm, incəsənət və mədəniyyətdə qazandığınız əla uğurlar münasibətilə sizi təbrik edirəm.

Dağıstan Rusiya Federasiyasının ayrılmaz hissəsidir. Biz Dağıstanla, Dağıstan xalqları ilə dostluqdan danışdıqda Azərbaycan və Rusiya Federasiyası arasında dostluqdan danışırıq. Mən Dağıstanı yaxşı tanıyıram və Rusiya Federasiyasını yaxşı tanıyıram. Ürəkdən arzu edirəm ki, siz Dağıstan Rusiya Federasiyasının ən cənub hüdudlarında onun dayağı, Rusiya ilə Azərbaycan arasında dostluğun çox mühüm vəsiləsi olasınız. Biz Rusiya ilə münasibətlərimizin möhkəmlənməsi və inkişafı üçün mümkün olan hər şeyi edəcəyik. İqtisadi əməkdaşlıq yaxşı inkişaf edir. Digər bütün sahələrdə də xoş cəhətlər olduqca çoxdur. Ancaq Azərbaycan ilə Rusiya arasında hərtərəfli, çoxsahəli dostluq münasibətlərindən və sıx əməkdaşlıqdan danışa bilməyimiz üçün bütün bunlar hələlik çox azdır. Biz bu baxımdan səy göstərir və göstərəcəyik. Buna Rusiya tərəfi də çalışır. Bu işdə Dağıstan da çox mühüm yer tutur, onun xüsusi rolu var, çünki siz Azərbaycana çox yaxınsınız, eləcə də Azərbaycan sizə tarix, milli ənənələr, adətlər, din, müəyyən qədər dil baxımından yaxındır. Bütün bunlar Dağıstan–Azərbaycan dostluğu vasitəsilə Rusiya–Azərbaycan dostluğu və əməkdaşlığını da möhkəmlətmək üçün yaxşı zəmin yaradır.

Şadam ki, sizin belə istedadlarınız, yaxşı müğənniləriniz var. Naida xanım bunu mənə demişdi. Şadam ki, Dağıstan xalqlarının incəsənəti belə yüksək səviyyədədir. Çox şadam, sözün düzü, buraya gəlməyə hazırlaşarkən bilirdim ki, konsert yaxşı olacaq, amma güman etmirdim ki, belə gözəl olacaqdır.

Sizə cansağlığı, firavanlıq, yeni-yeni yaradıcılıq uğurlan arzulayıram. Dağıstan ilə Azərbaycan arasında dostluğun, qardaşlığın möhkəm-

lənməsi sahəsində sizin tərəfinizdən də, Azərbaycanın mədəniyyət xadimləri tərəfindən də yeni-yeni səylər göstərilməsini arzu edirəm.

**Naida Əbdülhəmidova** (Dağıstanın mədəniyyət naziri):

Heydər Əliyeviç, Azərbaycanda Dağıstan mədəniyyəti günlərinin keçirilməsini lazım bildiyinizə görə, vaxt tapıb konsertimizdə olduğunuza görə çox sağ olun. Hesab edirəm ki, Azərbaycanda bütün gözəl işlər Sizin xoş məramınızla başlayır. Bizim Dağıstan dövlətinin başçısı Məhəmmədəli Məhəmmədoviç də Azərbaycanla əməkdaşlığa aid bütün təşəbbüslərinizi həmişə dəstəkləyir. Azərbaycanda bu qəbula görə çox sağ olun.

Bu gün biz iki çox mühüm tədbir keçirdik – sərgi açdıq və indi də konsert verdik. Sabah Qusarda böyük konsert verəcəyik.

## XALQ RƏSSAMI OQTAY SADIQZADƏ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Prezident sarayı*
*13 mart 1999-cu il*

**Oqtay Sadıqzadə:** Cənab prezident, vaxt ayırıb məni qəbul etdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirir və bu görüşdən çox şad olduğumu vurğulayıram. Sizin yenidən ölkəmizin prezidenti seçilməyiniz münasibətilə çəkdiyim portretinizi, habelə xalq rəssamı mərhum Elmira Şahtaxtinskayanın mənzərə janrında iki əsərini Sizə təqdim etmək istəyirəm.

**Heydər Əliyev:** Mən bu hədiyyələrə görə təşəkkürümü bildirirəm və sənət əsərlərini yüksək qiymətləndirirəm. Bu əsərlər çox dəyərli əsərlərdir. Elmira xanım da Azərbaycanın rəssamlıq həyatında böyük bir iz qoyub gedibdir.

**Oqtay Sadıqzadə:** Təşəkkür edirəm, cənab prezident. Mən bu fürsətdən istifadə edərək Sizdən bir xahiş etmək istəyirəm. Bu yaxınlarda Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin 60 illiyi tamam olur. Bu, ən şöhrətli və məşhur muzeylərdən biridir. Hazırda o, çox acınacaqlı vəziyyətdədir, təmirə ehtiyacı vardır. Muzeyin imkanları isə olduqca məhduddur. Hətta ekspozisiyaların bir hissəsi işləmir, çünki təmirə ehtiyac vardır. Əgər imkan daxilində bu işə kömək göstərsəydiniz, orada çalışanlar çox şad olardılar. Mən bunu onların adından yox, öz adımdan deyirəm. Çünki mən muzey üçün rəsmlər çəkir, onların sifarişini yerinə yetirirəm.

Məlumat verim ki, mən dahi şairimiz Nizami Gəncəvinin yaradıcılığı ilə bağlı son dövrdə bir neçə şəkil çəkmişəm və hazırda bu əsərlər muzeydə saxlanılır. Eyni zamanda şairə Natəvanın portretini də çəkmişəm. İcazə verin onların fotosurətini Sizə təqdim edim.

**Heydər Əliyev:** Mən bu tablolara baxmaq istərdim. Mən belə işlərlə çox maraqlanıram. Siz vaxtilə Zərifə xanımın da portretini çəkmişdiniz. Çox yaxşı portretdir, mənim çox xoşuma gəlir. Ona görə Sizə təşəkkür edirəm.

**Oqtay Sadıqzadə:** Cənab prezident, bu bizim borcumuzdur. Bunu biz öz borcumuz hesab edirik. Çünki Siz doğrudan da bizə həm mə-

nəvi, həm maddi cəhətdən çox kömək etmisiniz. Siz bizim prezidentimizsiniz. Ona görə biz həmişə Sizə borcluyuq.

**Heydər Əliyev:** Sizin mənə heç bir borcunuz yoxdur. Siz böyük bir rəssamsınız, çox işlər görürsünüz, Azərbaycanın rəssamlıq sənətini inkişaf etdirirsiniz. Dediyim kimi, Elmira xanım Şahtaxtinskaya da çox böyük əsərlər yaradıbdır, bizim rəssamlıq sənətində böyük iz qoyub gedibdir. Ona görə Sizin sənətiniz, yaradıcılığınız çox qiymətlidir. Bunları nəzərə alaraq mən Sizi ordenlə təltif etdim. Amma Siz bundan sonra da çox işlər görə bilərsiniz. Görürəm ki, Siz çox məhsuldar işləyirsiniz. Bu, çox yaxşıdır.

Muzey haqqında dediyiniz məlumatı nəzərə alaram. Mən bilmirdim, eşitməmişdim və heç kəs mənə deməyibdir. Yəqin ki, bir tədbir görmək lazımdır. Doğrudan da o, nadir bir binadır, unikal muzeydir. Oranı qorumaq, saxlamaq lazımdır.

Mənim yadıma salsınlar. Gərək bir gün vaxt tapıb gedim muzeydə bu tablolara baxım. Bunlar çox maraqlıdır. Bunların reproduksiyasını buklet kimi çıxarmaq lazımdır. Çox gözəl işlərdir. Azərbaycan haqqında cürbəcür rəngli albomlar hazırlayanda bu reproduksiyalardan oraya daxil etmək lazımdır. Çünki bunlar həm kompozisiya, məzmun nöqteyi-nəzərindən, həm də rəssamlıq sənəti nöqteyi-nəzərindən çox dəyərlidir. Mən bunu fotolardan görürəm. Yəqin ki, əsili bundan daha da təsirlidir. Sizi təbrik edirəm. Gərək vaxt tapıb Natəvanın da portretinə gedib baxım. Bu şəkildən görünür ki çox yaxşı portretdir.

## AZƏRBAYCANDA DAĞISTAN MƏDƏNİYYƏTİ GÜNLƏRİ

*14 mart 1999-cu il*

Sizi Azərbaycanda səmimi salamlayır və Azərbaycanda Dağıstan mədəniyyəti günlərinin başlanğıcı olan gözəl çıxışınız münasibətilə ürəkdən təbrik edirəm.

Bu, Azərbaycan üçün də, Dağıstan üçün də böyük hadisədir. Xalqlarımız, ölkələrimiz bir-biri ilə həmişə sıx bağlı olmuşlar, indi isə buna xüsusi zərurət və xüsusi tələbat var. Siz də məhz bu məqsədə xidmət edirsiniz. Öz sənətinizlə, öz çıxışlarınızla Dağıstanla Azərbaycan arasında dostluq münasibətlərinin möhkəmlənməsinə və inkişafına kömək edirsiniz. Bu baxımdan Azərbaycanda Dağıstan mədəniyyəti günləri böyük əhəmiyyətə malikdir.

Bu günlərin başlanmasına mən çox şadam və əminəm ki, Azərbaycanda olmağınız xalqlarımızı, dövlətlərimizi, ölkələrimizi, şübhəsiz, daha da yaxınlaşdıracaqdır.

Bu gün siz Dağıstan xalqının parlaq incəsənətini nümayiş etdirdiniz. Dağıstan nadir ölkədir. Zənnimcə, dünyada Dağıstan kimi ölkə yoxdur. Əlbəttə, bu ölkənin zəngin təbiəti var, ancaq ən çox öz gözəl insanları və çoxmillətli tərkibi ilə zəngindir. Təkrar edirəm, mən dünyada elə bir ölkə tanımıram ki, Dağıstan kimi kiçik bir ərazidə bir çox millətlərdən olan insanlar yaşasın və özü də gözəl yaşasınlar. Bu gün siz öz çıxışınızla Dağıstanın bu rəngarəngliyini, çoxmillətliliyini olduqca parlaq şəkildə nümayiş etdirdiniz.

Şəxsən mən və Azərbaycan xalqı Dağıstanı yaxşı tanıyırıq. Biz sizin tarixinizə, mədəniyyətinizə, incəsənətinizə də bələdik. Bu gün siz yüksək səviyyəli, yüksək dərəcəli incəsənət və Dağıstan xalqları mədəniyyətinin yüksək nailiyyətlərini göstərdiniz. Müxtəlif dillərdə – avar, dargin, qumuq, lak, ləzgi və Dağıstanın bir çox digər dillərində mahnıları dinləmək xoş idi. Əlbəttə, rəqslərinizi görmək də xoş idi. Siz virtuozsunuz. Əlbəttə, İqor Moiseyevin bizim hamımız üçün məşhur olan, rəqs sənətinin həqiqətən yüksək səviyyəsinə yiyələnmiş ansamblı var. Qafqazın – Azərbaycanın da, Gürcüstanın da, başqa xalqların da rəqs ansamblları var. Biz Azərbaycanın rəqs ansamblını çox yüksək qiymətləndiririk. Ancaq

bu gün sizin göstərdiklərinizi, açığını deyəcəyəm, mən əvvəllər Dağıstanda görməmişdim.

Mən Dağıstan xalqlarının gözəl rəqslərinin dəfələrlə şahidi olmuşam, amma “Ləzginka” məşhur ansambldır. O, bütün dünyanı gəzib dolaşmışdır və özünün yüksək ustalığını bu gün də saxlayır. Bu gün siz “Ləzginka”nın çıxışından əlavə, çoxmillətli Dağıstana aid bir çox digər şeylər də göstərdiniz.

Buraya gəldiyinizə görə, Dağıstan mədəniyyətini Azərbaycanda göstərməyə başladığınıza görə sağ olun. Mən bunu çox böyük hadisə hesab edirəm, incəsənət və mədəniyyətdə qazandığınız əla uğurlar münasibətilə sizi təbrik edirəm.

Dağıstan Rusiya Federasiyasının ayrılmaz hissəsidir. Biz Dağıstanla, Dağıstan xalqları ilə dostluqdan danışdıqda Azərbaycan və Rusiya Federasiyası arasında dostluqdan danışırıq. Mən Dağıstanı yaxşı tanıyıram və Rusiya Federasiyasını yaxşı tanıyıram. Ürəkdən arzu edirəm ki, siz Dağıstan Rusiya Federasiyasının ən cənub hüdudlarında onun dayağı, Rusiya ilə Azərbaycan arasında dostluğun çox mühüm vəsiləsi olasınız. Biz Rusiya ilə münasibətlərimizin möhkəmlənməsi və inkişafı üçün mümkün olan hər şeyi edəcəyik

İqtisadi əməkdaşlıq yaxşı inkişaf edir. Digər bütün sahələrdə də xoş cəhətlər olduqca çoxdur. Ancaq Azərbaycan ilə Rusiya arasında hərtərəfli, çoxsahəli dostluq münasibətlərindən və sıx əməkdaşlıqdan danışa bilməyimiz üçün bütün bunlar hələlik çox azdır. Biz bu baxımdan səy göstərir və göstərəcəyik. Buna Rusiya tərəfi də çalışır. Bu işdə Dağıstan da çox mühüm yer tutur, onun xüsusi rolu var, çünki siz Azərbaycana çox yaxınsınız, eləcə də Azərbaycan sizə tarix, milli ənənələr, adətlər, din, müəyyən qədər dil baxımından yaxındır. Bütün bunlar Dağıstan–Azərbaycan dostluğu vasitəsilə Rusiya–Azərbaycan dostluğu və əməkdaşlığını da möhkəmlətmək üçün yaxşı zəmin yaradır.

Şadam ki, sizin belə istedadlarınız, yaxşı müğənniləriniz var. Naida xanım bunu mənə demişdi. Şadam ki, Dağıstan xalqlarının incəsənəti belə yüksək səviyyədədir. Çox şadam, sözün düzü, buraya gəlməyə hazırlaşarkən bilirdim ki, konsert yaxşı olacaq, amma güman etmirdim ki, belə gözəl olacaqdır.

Sizə cansağlığı, firavanlıq, yeni-yeni yaradıcılıq uğurlar arzulayıram. Dağıstan ilə Azərbaycan arasında dostluğun, qardaşlığın möhkəmlənməsi sahəsində sizin tərəfinizdən də, Azərbaycanın mədəniyyət xadimləri tərəfindən də yeni-yeni səylər göstərilməsini arzu edirəm.

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV XALQ RƏSSAMI OQTAY SADIQZADƏNİ QƏBUL ETMİŞDİR

*14 mart 1999-cu il*

Martın 13-də Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Prezident sarayında xalq rəssamı Oqtay Sadıqzadəni qəbul etmişdir.

Vaxt ayırıb onu qəbul etdiyinə görə dövlətimizin başçısına dərin minnətdarlığını bildirən və bu görüşdən çox şad olduğunu vurğulayan Oqtay Sadıqzadə respublikamızın rəhbəri Heydər Əliyevlə onun yenidən ölkəmizin prezidenti seçilməsi münasibətilə çəkdiyi portretini, habelə xalq rəssamı mərhum Elmira Şahtaxtinskayanın mənzərə janrında iki əsərini təqdim etdi.

**Prezident Heydər Əliyev dedi:**

– Mən bu hədiyyələrə görə təşəkkürümü bildirirəm və sənət əsərlərini yüksək qiymətləndirirəm. Bu əsərlər çox dəyərli əsərlərdir. Elmira xanım da Azərbaycanın rəssamlıq həyatında böyük bir iz qoyub gedibdir.

**Xalq rəssamı Oqtay Sadıqzadə prezident Heydər Əliyevə təşəkkürünü bildirərək dedi:**

– Təşəkkür edirəm, cənab prezident. Mən bu fürsətdən istifadə edərək Sizdən bir xahiş etmək istəyirəm. Bu yaxınlarda Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Müzeyinin 60 illiyi tamam olur. Bu, ən şöhrətli və məşhur muzeylərdən biridir. Hazırda o, çox acınacaqlı vəziyyətdədir, təmirə ehtiyacı vardır. Muzeyin imkanları isə olduqca məhduddur. Hətta ekspozisiyaların bir hissəsi işləmir, çünki təmirə ehtiyac vardır. Əgər imkan daxilində bu işə kömək göstərsəydiniz, orada çalışanlar çox şad olardılar. Mən bunu onların adından yox, öz adımdan deyirəm. Çünki mən muzey üçün rəsmlər çəkir, onların sifarişini yerinə yetirirəm.

Sonra rəssam dahi şair Nizami Gəncəvinin yaradıcılığı ilə bağlı son dövrdə çəkdiyi və hazırda muzeydə saxlanılan əsərlər barədə və şairə Natəvanın portreti haqqında məlumat verdi və onların fotosurətini prezident Heydər Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı dedi: Mən bu tablolara baxmaq istərdim. Mən belə işlərlə çox maraqlanıram. Siz vaxtilə Zərifə xanımın da portretini çəkmişdiniz. Çox yaxşı portretdir, mənim çox xoşuma gəlir. Ona görə sizə təşəkkür edirəm.

Oqtay Sadıqzadə qeyd etdi ki, "cənab prezident, bu, bizim borcumuzdur. Bunu biz öz borcumuz hesab edirik. Çünki Siz doğrudan da bizə həm mənəvi, həm maddi cəhətdən çox kömək etmisiniz. Siz bizim prezidentimizsiniz. Ona görə biz həmişə Sizə borcluyuq".

**Prezident Heydər Əliyev dedi:**

– Sizin mənə heç bir borcunuz yoxdur. Siz böyük bir rəssamsınız, çox işlər görürsünüz, Azərbaycanın rəssamlıq sənətini inkişaf etdirirsiniz. Dediyim kimi, Elmira xanım Şahtaxtinskaya da çox böyük əsərlər yaradıbdır, bizim rəssamlıq sənətində böyük iz qoyub gedibdir. Ona görə sizin sənətiniz, yaradıcılığınız çox qiymətlidir. Bunları nəzərə alaraq mən sizi ordenlə təltif etdim. Amma siz bundan sonra da çox işlər görə bilərsiniz. Görürəm ki, siz çox məhsuldar işləyirsiniz. Bu, çox yaxşıdır.

Muzey haqqında dediyiniz məlumatı nəzərə alaram. Mən bilmirdim, eşitməmişdim və heç kəs mənə deməyibdir. Yəqin ki, bir tədbir görmək lazımdır. Doğrudan da o, nadir bir binadır, unikal muzeydir. Oranı qorumaq, saxlamaq lazımdır.

Mənim yadıma salsınlar. Gərək bir gün vaxt tapıb gedim muzeydə bu tablolara baxım. Bunlar çox maraqlıdır. Bunların reproduksiyasını buklet kimi çıxarmaq lazımdır. Çox gözəl işlərdir. Azərbaycan haqqında cürbəcür rəngli albomlar hazırlayanda bu reproduksiyalardan oraya daxil etmək lazımdır. Çünki bunlar həm kompozisiya, məzmun nöqteyi-nəzərindən, həm də rəssamlıq sənəti nöqteyi-nəzərdən çox dəyərlidir. Mən bunu fotolardan görürəm. Yəqin ki, əsli bundan daha da təsirlidir. Sizi təbrik edirəm. Gərək vaxt tapıb Natəvanın da portretinə gedib baxım. Bu şəkildən görünür ki çox yaxşı portretdir.

## TANINMIŞ FRANSIZ MODELYERİ PAKO RABANI QƏBUL EDƏRKƏN

*20 mart 1999-cu il*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1999-cu il martın 20-də Prezident sarayında tanınmış fransız modelyeri Pako Rabanı qəbul etdi.

Dövlətimizin başçısı Heydər Əliyev qonağı mehribanlıqla salamlayaraq dedi:

– Azərbaycana xoş gəlmisiniz. Güman edirəm, Sizin bu ziyarətiniz Azərbaycan üçün xüsusi bir fövqəladə xarakter daşıyır. Çünki mənim xatirimdə deyil ki, indiyə qədər Azərbaycana Sizin kimi dizayner gəlibdir.

Keçmiş zamanlarda Azərbaycanda, – təkcə Azərbaycanda yox, Sovetlər İttifaqına mənsub olan respublikalarda Sizin sənət o qədər də geniş yayılmamışdı. Səbəbi də məlum idi. Çünki Sovetlər İttifaqı dövründə, yəni o hökumətin üsul-idarəsində şəxsi mülkiyyət olmadığına görə hər şey dövlət təşkilatları, dövlət müəssisələri tərəfindən təşkil edilirdi. Ona görə də hansısa modalar ümumi ölkə üçün yaranırdı. Ayrı-ayrı modelyerlər, yaxud da dizaynerlər Sovetlər İttifaqında belə şeylər yaratmırdılar və bəzən buna ehtiyac da yox idi.

İndi isə vəziyyət tamamilə dəyişibdir.

Bizim ölkəmizdə iqtisadiyyat bazar iqtisadiyyatı yolu ilə inkişaf edir, şəxsi mülkiyyət yaranır. İndi Azərbaycanda sahibkarlar yaranıbdır və bütün sahələrdə, o cümlədən dizayn sahəsində müxtəlif özəl müəssisələr Azərbaycanda daha da inkişaf etməyə başlayır. Belə bir zamanda bizim ölkəmizdə modelyerlərə, dizaynerlərə və yeni modalara maraq artıbdır. Respublikamıza ayrı-ayrı ölkələrdə, xüsusilə Avropada maraq çox artıbdır.

Hörmətli cənab Pako Raban, Sizin bu səfəriniz də yəqin ki, Azərbaycana artmış marağınızın nəticəsidir. Mən hesab edirəm ki, Sizin Azərbaycana gəlişiniz və burada öz modalarınızı, öz işlərinizi nümayiş etdirməyiniz Azərbaycanda bu sahənin inkişafına yardım göstərəcəkdir. Ona görə də mən Sizin Azərbaycana ziyarətinizi çox qiymətləndirirəm və Sizə təşəkkür edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bu ziyarətiniz Azərbaycan

ilə Sizin aranızda əlaqələr yaradacaq və inkişaf edəcəkdir. Güman edirəm ki, Sizin bugünkü təqdimatınız da uğurlu keçəcəkdir. Buyurun.

Prezident Heydər Əliyevlə görüşməyindən böyük şərəf duyduğunu bildirən Pako Raban dedi:

– Cənab Azərbaycan Respublikasının Prezidenti, Sizə böyük şəxsi razılığımı bildirməklə bərabər, eyni zamanda ikiqat məmnunam ki, Siz bu gün məni qəbul etmisiniz və Sizinlə görüşmək şərəfinə nail olmuşam. Sizə bildirmək istəyirəm ki, ümumiyyətlə Parisdə, Fransada bizim kimi şəxsləri bir növ bu sahənin, yəni moda sahəsinin səfiri kimi qəbul edirlər. Mən də özümü belələrindən hesab edirəm və mənə elə gəlir ki, Azərbaycanla dostluq əlaqələrinin inkişaf etdirilməsi sahəsində bir səfir kimi öz rolumu oynayacağam. Ümid edirəm ki, mənim bu səfərim Azərbaycanla Fransa arasında bir dostluq rəmzinə çevriləcəkdir. Cənab Prezident, çox sağ olun. Siz mənim bu şərəfə nail olmağıma imkan verdiniz.

Hörmətli qonağa minnətdarlığını bildirən respublikamızın rəhbəri Heydər Əliyev dedi:

– Təşəkkür edirəm. Bəli, mən də Sizi bir səfir kimi qəbul edirəm. Fransanın Bakıdakı səfiri daimi səfirdir, amma Sizin kimi məşhur şəxsiyyətlər də şübhəsiz ki, səfir rolunu oynayır və səfir kimi işlər görürlər.

Fransa ilə Azərbaycan arasında son illər çox yaxşı dostluq və əməkdaşlıq əlaqələri yaranıbdır. Biz Fransa ilə əlaqələrimizə xüsusi əhəmiyyət veririk. Ölkələrimiz arasında dostluq və əməkdaşlıq haqqında bir çox müqavilələr imzalanıbdır və biz onları ardıcıl surətdə həyata keçiririk. Məmnuniyyətlə deyə bilərəm ki, son illər bu əlaqələr genişlənib, inkişaf edibdir və bu gün də inkişaf dövrünü keçirir. Bu sahədə Prezident cənab Jak Şirak ilə mənim şəxsi əlaqələrim xüsusi rol oynayır.

Bəlkə də bunu demək artıqdır ki, Fransa böyük ölkədir, böyük mədəniyyətə, böyük tarixə malik olan ölkədir və bu gün də dünyada özünəməxsus mühüm rol oynayır. Ümumiyyətlə, Fransa ilə Azərbaycan arasındakı əlaqələr həm iqtisadi sahəni, həm mədəniyyət sahəsini, həm də humanitar sahələri əhatə edir. İndi isə, bu görüşdən sonra biz Sizi də bu əlaqələrin yaranmasına və inkişaf etməsinə cəlb edirik və beləliklə bizim bu əlaqələrimiz daha da genişlənir.

Siz hər halda dünyada Sizin sənətə məxsus olan məşhur şəxslərdən birisiniz ki, Azərbaycana gəlmisiniz. Bu, özü-özlüyündə çox əhəmiyyətlidir. Amma güman edirəm ki, bu, gələcəkdə də əlaqələrimizi inkişaf etdirəcəkdir.

# “BAKILI OĞLANLAR”ın YENİ YUMOR KOLLEKSİYASI AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV BAKININ ŞƏN VƏ HAZIRCAVABLAR KLUBU KOMANDASININ KONSERTİNDƏ OLMUŞDUR

*6 aprel 1999-cu il*

Prezident Heydər Əliyev konsertdən sonra “Bakılı oğlanlar” komandasının üzvləri ilə səhnə arxasında görüşdü və onları təbrik edərək dedi:

– Salam, axşamınız xeyir. Sizi təbrik edirəm, çox gözəl çıxış etdiniz. Siz adətən rusca danışırsınız, amma mən istəyirəm azərbaycanca da danışmağı öyrənəsiniz. Görürəm ki, yavaş-yavaş öyrənirsiniz. Əlbəttə, KVN başlananda rus dilində olubdur. Keçmiş Sovetlər İttifaqında bu, başqa cür də ola bilməzdi. Çünki butun respublikaları gəzməli, ümumittifaq müsabiqəsində iştirak etməli idi. Bu ənənə qalıbdır. Amma eyni zamanda, yavaş-yavaş Azərbaycan dilini də mənimsəmək lazımdır. Mən demirəm ki, rus dilindən imtina edəsiniz, ancaq bərabər olsun. Görürəm ki, Azərbaycan dilini bir az artırmısınız. Bu, çox yaxşıdır.

Sizi təbrik edirəm. Görürəm ki, tədricən inkişaf edirsiniz. İndi bilmirəm – siz KVN-siniz, yoxsa satira və yumor truppasına çevrilmiş yaradıcılıq qrupusunuz. Bunu demək mənə çətindir, mən sənətşünas deyiləm və hər hansı ad vermək istəmirəm. Lakin, hər halda, siz KVN səviyyəsindən qalxıb inkişaf etmisiniz və sanballı teatr konsert ansamblına çevrilmisiniz. Sizin əsas istiqamətiniz satira və yumordur. Bu isə yəqin ki, indi cəmiyyətimizə hər şeydən çox gərəkdir. Yəqin buna görə də çıxışlarınızın məzmunu və mənası kimi, yaradıcılığınızın janrı da tamaşanızı çox cazibədar edir.

Eşitdim ki, bu gun siz dördüncü dəfə çıxış edirsiniz və bütün çıxışlarınız böyük uğurla keçir, bu qədər iri salona çoxlu tamaşaçı toplayır. Bu, xoş hadisədir. Məsələn, son bir neçə ildə sizi müşahidə edən bir insan kimi bunu görmək mənə xoşdur ki, siz istedada, özü də qeyri-adi istedada maliksiniz, həm də ifaçıların özlərinin bu istedadı yaradıcılıq inkişafında zənginləşir. Təbiidir ki, hər bir yaradıcı adam üçün, xüsusən satira və yumor janrında çıxış edən artist üçün istedad böyük əhəmiyyət kəsb edir. Nə kimi

sujetlər yazılsa da, istedadı olmasa o, bunları göstərə bilməz. Siz istedadlı adamlarsınız və mənə elə gəlir ki, ən başlıcası bundan ibarətdir.

Onu da görürəm ki, sizin üçün yazan yaxşı müəllifləriniz var və ya özünüz də məharətlə yazırsınız. Bunların hər ikisi yaxşıdı Sizdə çox yaxşı nömrələr var, onlar gülüş doğurmaqla yanaşı, məna yükünə və dərin məzmuna da malikdir. Mən bunu bəyənirəm, çünki adamlarımız üçün, cəmiyyətimiz üçün gərəklidir, faydalıdır. Siz böyük fayda gətirirsiniz.

Ürəkdən istəyirəm ki, istedadlar inkişaf etsin. Görürəm ki, onlar inkişaf edirlər. Yəqin ki, sizin yaradıcı kollektiviniz yeni-yeni istedadları özünə cəlb edəcəkdir. Məsələn, sizin aranızda yəqin elə adamlar var ki, onlar bir neçə il əvvəl burada deyildilər?

**Anar Məmmədxanov** ölkəmizin rəhbərinə cavab verərək dedi: Bəli, yox idilər. Məsələn, Murad Dadaşov 1996-cı ildə gəlibdir...

**Heydər Əliyev:** Murad Ramil Usubov haqqında...

**Anar Məmmədxanov:** Məsələ burasındadır ki, o, həmişə Sizi təqlid edir.

**Heydər Əliyev:** Bəs Ramil Usubovu?

**Anar Məmmədxanov:** Ramil Usubovu Cabir İmanov təqlid edir.

**Heydər Əliyev:** O isə təkcə məni təqlid edir? Bu, azdır. Məni təqlid etmək isə həm çətindir, həm də asan, xüsusi səy tələb etmir. Amma görürəm ki, bunlar yeni istedadlardır.

**Anar Məmmədxanov:** Cənab prezident, 1996-cı ildə Siz bizim konsertdə ilk dəfə olarkən bu iki cavan oğlan səhnəyə ancaq tort gətirirdi. İndi isə onlar səhnədə, demək olar, əsas adamlardır.

**Heydər Əliyev:** Görursünüzmü, istedaddır. Bu istedad isə müvafiq mühitdə inkişaf edir. Onlar səhnəyə tort çıxarmağa utanmadılar və öz istedadlarını bu mühitdə, bu kollektivdə göstərə bildilər. Siz bu istedadı qiymətləndirdiniz. İndi isə, sənin dediyin kimi, onlar baş rollarda çıxırlar.

Həm də təkcə onlar yox. Hərə həm səsi ilə, həm də ifası, öz dəst-xətti ilə bir cür istedaddır. Bunların hamısı çox xoşdur.

Bu gün xoşuma gəldi ki, sizdə yaxşı səsi olanlar var, yaxşı oxuyursunuz. Zənnimcə, sizlərdən bəziləri artıq solist ola bilər. Bir baxın, sizin ifaçılarda, ümumən kollektivinizdə nə qədər muxtəlif keyfiyyətlər cəmləşmişdir. Bütün bunlar çox xoşdur. Sizi urəkdən təbrik edir, yaradıcılıq uğurları arzulayıram. Bundan sonra da mənim dəstəyimə ümid bəsləyə bilərsiniz.

Mənə elə gəlir ki, oğlum sizinlə çox dostluq edir və yəqin ki, sizinlə məni möhkəm birləşdirən vasitəçidir.

Sizə yeni-yeni uğurlar arzulayıram. Ümidvaram ki, siz bizi yeni yaxşı nömrələrlə, yeni çıxışlarla sevindirəcəksiniz. Sağ olun.

Prezident Heydər Əliyev Ankarada olarkən yazılmış "Yaşa, prezident yaşa" mahnısı barədə də öz fikrini söylədi:

– Sizin dediyiniz kimi bu klip çox güclü təsir bağışladı. Mənə onun haqqında demişdilər. Ancaq o vaxt mən eşitməmişdim. Sonra oradakı telekanal bu klipi hər gün, hər saatdan bir göstərirdi. Mən bu təşəbbüsə görə sizə təşəkkür edirəm. Bu, mənə çox xoş idi, mən bundan təsirlənmişdim. Yaxşı mahnıdır, sözləri də yaxşıdır və siz onu urəkdən ifa etmisiniz. Gərək ki, bu mahnı Azərbaycanda da çox güclü təsir bağışlamışdır. Bir sözlə, buna görə sağ olun.

Mən buraya gələndə bu mahnının ifaçılarını dəvət etmək niyyətində idim. Ancaq bir-birinin ardınca gələn işlər vaxtımı elə aldı ki, mən bunu edə bilmədim. Fürsətdən istifadə edərək sizə təşəkkür etmək istəyirəm. Bəstəkar kimdir?

Musiqinin müəllifi Rəşad Haşımovu prezidentə təqdim edərək dedilər ki, Azərbaycanda ən məşhur olan "Rast" qrupunun rəhbəridir. Öz yaradıcılığında muğamla cazı məharətlə uyğunlaşdırır.

Prezident Heydər Əliyev bunu eşidərək dedi: muğamla cazın sintezi heyrətamiz hadisədir. Bunu yaradıcılıq baxımından gözəl, yaxşı bacaran adam, şübhəsiz, böyük müvəffəqiyyət qazanır. Təbrik edirəm. Bəs sözlərini kim yazmışdır?

Ölkəmizin rəhbərinə bildirdilər ki, mahnının mətninin müəllifi şair Fikrət Qocadır. Mahnını Azərbaycan estradasının bütün ulduzları ifa etmişlər.

Prezident Heydər Əliyev dedi:

– Bu, mənə çox xoş idi. Bu, həm də böyük yaradıcılıq hadisəsidir. Çox sağ olun.

# "KİTABİ–DƏDƏ QORQUD" DASTANININ 1300 İLLİK YUBİLEYİ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ NÖVBƏTİ İCLASINDA GİRİŞ SÖZÜ

*Prezident sarayı*
*8 aprel 1999-cu il*

Hörmətli xanımlar və cənablar!

Bu gün biz «Kitabi–Dədə Qorqud» dastanının yubileyi üzrə komissiyanın növbəti iclasına toplaşmışıq. Ötən iclasda yubileyin hazırlanması və keçirilməsi ilə əlaqədar məsələləri ətraflı müzakirə etdik və qərar qəbul etdik. Bundan sonra yubiley tədbirlərini hazırlayıb keçirmək üçün iş planı tərtib olundu və mən onu təsdiq etdim.

Müəyyən vaxt keçibdir. Bu gün mən komissiyanın iclasını toplamışam ki, işlərin gedişatını təhlil edək. Nəzərə almaq lazımdır ki, yubiley tədbirlərinin zirvə mərasiminə az vaxt qalıbdır. Qərar qəbul etmişəm ki, yubileyin zirvə mərasimi iyun ayınm 15-də keçiriləcəkdir. İyun ayının 14-də Azərbaycanda, Bakıda türkdilli dövlətlərin başçılarının ənənəvi zirvə görüşü olacaqdır. Bunu nəzərə alaraq, iyun ayının 15-də «Dədə Qorqud» dastanının yubileyinin zirvə mərasimini keçirməyi qərara almışam.

Güman edirəm, bu, çox yaxşı olacaqdır. Çünki qonaqların arasında türkdilli ölkələrin dövlət başçıları – prezidentləri də olacaq, onlar da "Dədə Qorqud" dastanının yubileyində iştirak edəcəklər. Mən onların hər biri ilə ayrılıqda danışmışam. Onlar "Dədə Qorqud" dastanının yubileyini öz xalqlarının da yubileyləri kimi qəbul edirlər, ona görə də bu mərasimdə böyük məmnuniyyətlə iştirak etmək arzusunu bildirirlər.

Beləliklə, zirvə tədbiri günü müəyyən olunubdur. İki ay vaxt qalır. İki ay müddətində, güman edirəm, hələ çox iş görülməlidir. Biz keçən dəfə də bu məsələləri müzakirə etmişik və hamımızın ümumi fikri budur ki, "Dədə Qorqud" dastanının yubileyini birinci növbədə Dədə Qorqudun irsinə, özünə layiq keçirməliyik. Ona görə də qalan dövrdə indiyə qədər görülməmiş işləri görməliyik və nəzərdə tutulmuş başqa işlərin hamısını həyata keçirməliyik.

# YEKUN NİTQİ

“Kitabi–Dədə Qorqud” dastanının yubileyinin keçirilməsi ən böyük siyasi, mənəvi xarakter daşıyır və mədəniyyətimizə, ədəbiyyatımıza olan qayğını və münasibəti göstərir. Biz son onilliklərdə Azərbaycanda tariximizin görkəmli səhifələrini yad etmək, tariximizi bugünkü və gələcək nəsillərə daha da geniş anlatmaq, xalqımızın, millətimizin tarixini dünyaya nümayiş etdirmək məqsədi ilə bir çox yubiley mərasimləri keçirmişik. Bunların da hər birinin çox böyük faydası olubdur. Bu faydanı nə faizlə, nə miqdarla, nə də çəki ilə ölçmək olar. Ancaq əgər bir ölçü olsaydı, demək olar ki, ən böyük ölçüyə malik faydalardır.

1947-ci ildə Nizami Gəncəvinin 800 illik yubileyi keçirildi. Xatırlayın, o vaxta qədər Azərbaycan xalqı Nizamini nə qədər tanıyırdı, yaxud dünya nə qədər tanıyırdı? Tədqiqatçılardan, alimlərdən, yazıçılardan və mədəniyyətlə, ədəbiyyatla məşğul olan adamlardan başqa, ölkəmizdə Nizami bu qədər tanınırdımı, xalqımız, insanlar Nizaminin əsərlərini oxuyurdularmı? Dünya tanıyırdımı ki, Azərbaycanın Nizami Gəncəvi kimi böyük bir şairi, yazıçısı, mütəfəkkiri, filosofu, alimi var? Yox. Təsəvvür edin, əgər 1947-ci ildə bu yubiley keçirilməsəydi, Nizaminin əsərləri o vaxt Azərbaycan dilinə tərcümə olunmasaydı, kitabları nəşr edilməsəydi, portreti yaranmasaydı, heykəli qoyulmasaydı, Nizaminin adı əbədiləşdirilməsəydi və 1947-ci ildən sonra Nizaminin adı dünyaya geniş yayılmasaydı, Azərbaycan tarix, mədəniyyət, elm cəhətdən bu qədər zəngin olacaqdımı? Yox.

1947-ci ildə İkinci Dünya müharibəsi yenicə qurtarmışdı, ondan bir-iki il keçmişdi. 1947-ci ildə biz yaşadığımız Sovet İttifaqında kartoçka sistemi ləğv olundu, pul islahatı keçirildi. Bəli, ölkə, Azərbaycan onda ağır iqtisadi vəziyyətdə idi. Ancaq Nizaminin yubileyi keçirildi və biz böyuk bir sərvət əldə etdik. İndi biz hər yerdə fəxr edirik ki, Nizamimiz vardır. Doğrudur, o, həmişə olubdur. Lakin o, nə bizim xalqımıza, nə də dünyaya indiki kimi məlum deyildi.

Biz 1973-cü ildə Nəsiminin yubileyini – 600 illiyini keçirəndə Nəsimi bu qədər tanınmış bir şair idimi? Yox. Heç bizim orta məktəb dərsliklərində Nəsiminin əsərləri yox idi. Elədir, yoxsa yox? Nəsimini bütün dünyaya tanıtdıq. Biz Nəsimini dünyaya tanıtmaqla Azərbaycanı yenidən tanıtdıq. O vaxtlar respublikamız müstəqil olmasa da, biz onun əsər-

lərini nəşr etdirdik, başqa dillərə – ingilis, fransız dillərinə tərcümə etdirdik, yaydıq.

Biz Füzulinin 500 illiyini keçirdik. Bəlkə də Füzuli xalqımıza Nizamidən, Nəsimidən daha da çox tanış idi. Ancaq xalqımız Füzulini də o qədər tanımırdı. Doğrudur, hələ yubileyi olmadan, məsələn, 1950-ci illərdən başlayaraq Füzuli ölkəmizdə təbliğ edildi. Xatirimdədir, 1930-cu illərdə mən orta məktəbdə təhsil alarkən biz Füzulinin ancaq bir-iki qəzəlini oxuyurduq. Füzuli şəxsiyyəti, təfəkkürü, elmi, fəlsəfəsi bir o qədər məlum deyildi. Yadınıza salın, biz müstəqillik dövründə Füzulinin 500 illik yubileyini keçirdik. Həmin yubileyi xatirinizə salın – bütün türk dünyasından nümayəndələr Azərbaycana yığıldı.

Xatirimdədir, Gürcüstan parlamentinin sədri Zurab Jvaniya gəlib həmin tədbirdə iştirak edirdi. Biz "Gülüstan" sarayında axşam mərasimindəydik. O mənim yanımda oturmuşdu, heyranlıqla söyləyirdi ki, "Baxın, Azərbaycan nə edir. Azərbaycan bütün türk dünyasını bura yığıbdır. Görün, türk dünyası nədən ibarətdir". Zurab Jvaniya o qədər heyran olmuşdu ki, bunu gizlədə bilmirdi. Amma təkcə bu deyil, mən belə faktları çox saya bilərəm.

Mən bunları ona görə deyirəm ki, bu yubileylərin, o cümlədən "Kitabi–Dədə Qorqud" dastanının yubileyinin keçirilməsi ilə əlaqədar tədbirlərimizi anlamayanlar, yaxud da onu qəsdən anlamaq istəməyənlər, – çünki bizdə elə qüvvələr var ki, Azərbaycanda hər şeyin pis olmasını istəyirlər. Yaxşı nə olursa, elə bil onların canı çıxır, – hamısı başa düşsünlər ki, biz bütün bunları millətimiz, xalqımız üçün, müstəqilliyimizi və tarixi keçmişi, köklərimizi bir daha sübut etmək üçün edirik. Bunlar lazımdır, şəraitimiz nə cür olur-olsun, bunları etmişik və bundan sonra da edəcəyik.

Biz keçmiş zamanlarda böyük minnətdarlıq hissi ilə qeyd edirdik ki, İkinci Dünya müharibəsi, Vətən müharibəsi gedən zaman, Leninqrad blokadada olduğu dövrdə orada Nizaminin 800 illik yubileyi keçirilmişdi. Bu, yazılarda, kitablarda dəfələrlə qeyd olunubdur. Leninqrad blokadada ikən orada Nizaminin yubileyi keçirilmişdir. Bu tarixdir, həqiqətdir. Biz indi müstəqil dövlətik. Müstəqil dövlət kimi xalqımızın milli köklərini, tarixini, qədim mədəniyyətini, böyüklüyünü öz vətəndaşlarımıza da, bütün dünyaya da göstərməliyik, təbliğ etməliyik.

Əgər nəzərə alsaq ki, bizə düşmən olan bəzi ölkələr, xalqlar sübut etmək istəyirlər ki, "Azərbaycan xalqının dərin kökü, tarixi yoxdur", erməni millətçiləri daim təbliğ edirlər ki, "bunlar köçəri xalqdır, onların heç keçmişi olmayıbdır", əgər xalqımızın keçmişinə dair mənfi təbliğatı

nəzərə alsaq, bu tədbirlərimizin nə qədər əhəmiyyəti olduğunu görərik. Azərbaycanın tarixində indiyədək keçirilmiş bütün yubiley mərasimlərindən "Kitabi–Dədə Qorqud" dastanının yubileyi hamısından əhəmiyyətlidir, vacibdir.

Birincisi, bu, bizim tariximizin, mədəniyyətimizin, ədəbiyyatımızın qədimliyini, eyni zamanda tarixi köklərimizin 1300 il bundan əvvəlki dövründə xalqımızın böyük bir eposu olduğunu göstərir. Biz buna adi bir hal kimi baxa bilmərik.

Bir məsələni də qeyd etmək lazımdır. Mən bunu keçən dəfə də demişəm. Biz keçmiş illərdə, onilliklərdə tariximiz, mədəniyyətimiz, ədəbiyyatımız haqqında çox işlər gördük. Mən Nizaminin, Nəsiminin və başqa klassiklərimizin yubileyləri haqqında burada danışdım. Ancaq təəssüflər olsun ki, biz o illər "Kitabi – Dədə Qorqud" dastanının yubileyi ilə əlaqədar məsələni qaldıra bilmərik. Biz ötən iclasımızda bunun səbəblərini izah etdik.

Mən bir daha qeyd edirəm ki, məsələn, Anarın bu barədə təşəbbüsü, yazıları olmasaydı və o, "Dədə Qorqud" filmini yaratmasaydı, "Kitabi–Dədə Qorqud" dastanı haqqında xalqımız üçün bu qədər geniş məlumat yox idi. Təbiidir ki, bizim Dədə qorqudçularımız, alimlərimiz, tədqiqatçılarımız çoxdur. Bizim ötən iclasımızda onların bir çoxu çıxış etdilər, çox gözəl fikirlər söylədilər. Göstərdilər ki, onlar 30-40 ildir ki, "Dədə Qorqud" dastanının tədqiqi ilə məşğuldurlar. Amma bunlar hamısı elmi tədqiqatlardır. Adətən elmi tədqiqatlar dar çərçivədə olur, müəyyən insanları əhatə edir, yaxud onlara mənsub olur. Amma "Kitabi–Dədə Qorqud" dastanını geniş kütləyə populyar şəkildə göstərmək əvvəllər mümkün olmamışdı. Bunun müəyyən səbəbləri var idi. Bu da ondan ibarətdir ki, bəli, bəziləri bizim türk kökümüzü göstərmək istəmirdilər, yaxud da bunu göstərməyə qorxurdular. Bir çoxları isə buna mane olurdular. Bunlar hamısı keçmişdən məlumdur.

Bunları nəzərə alaraq, bizim "Kitabi–Dədə Qorqud" dastanının 1300 illik yubileyi haqqında qəbul etdiyimiz qərar və indi həyata keçirdiyimiz tədbirlər xüsusi əhəmiyyət kəsb edir. Onun bu gün üçün də, gələcək nəsillər üçün də, dünya üçün də böyük əhəmiyyəti vardır.

Bunun əhəmiyyəti bir də ondan ibarətdir ki, biz artıq böyük türk dünyası, türk xalqları, türkdilli xalqların ümumi kökləri, müştərək mədəniyyəti, tarixi haqqında danışırıq. Bunları böyük tarixi şəxsiyyətlərin yaradıcılığı əsasında edirik. Məsələn, biz qırğız eposu "Manas"ın 1000 illik yubileyini birlikdə qeyd etdik, keçirdik. Bu, böyük bir hadisə oldu. Açıq deyək ki, Manasın kimliyi, onun tarixi, yaratdığı irs haqqında o vaxta qə-

dər Azərbaycanda çox az adam bilirdi. Amma qırğızlar bunu etdilər. Biz hamımız – türkdilli ölkələrin dövlət başçıları oraya toplaşdıq. Hamımız birlikdə sübut etdik ki, bəli, bizim xalqlarımızın qədim kökü və bu xalqların müştərək tarixi, mədəniyyəti vardır. "Dədə Qorqud" dastanının yubileyi bu baxımdan böyük siyasi əhəmiyyət daşıyır. Təsadüfi deyildir ki, mən türkdilli ölkələrin dövlət başçıları ilə "Dədə Qorqud" dastanının yubileyinin Azərbaycanda keçirilməsi haqqında danışarkən bunu izah etməyə ehtiyac duyulmadı. Onların hər biri dedi ki, bu, bizim hamımızındır, bu yubileyi hamımız bir yerdə böyük məmnuniyyətlə qeyd etməliyik.

Yəni "Dədə Qorqud" dastanı bizi bu gün eyni zamanda birləşdirir, bir-birimizə yaxınlaşdırır. Birləşməyə də ehtiyac vardır. Məsələn, biz TÜRKSOY təşkilatını qiymətləndiririk. Azərbaycan bu təşkilatın inkişaf etməsinə həmişə öz səylərini göstərir. Biz – türkdilli ölkələrin dövlət başçıları görüşərkən türkdilli dövlətlərin bu təşkilatını çalışırıq ki, mədəniyyətə və iqtisadiyyata yönəldək, onu siyasiləşdirməyək. Şübhəsiz ki, hər bir türkdilli dövlət gərək öz tarixini təqdim etsin. Belə də oldu. Biz Qırğızıstanda "Manas"ın, Qazaxıstanda Abayın yubileylərini qeyd etdik, Özbəkistanda Əmir Teymurun yubileyində olduq. "Dədə Qorqud" dastanı da həm Azərbaycanın, həm də bütün türkdilli dövlətlərindir.

Məsələn, Türkiyənin prezidenti, başqa rəhbər şəxsləri ilə danışarkən mən "Dədə Qorqud" deyirəm, onlar isə bildirirlər ki, biz buna "Dədəm Qorqud" deyirik. Bax, siz mənə təqdim etdiyiniz medalların bəzilərinin içərisində "Dədə Qorqud", bəzilərində isə "Dədəm Qorqud" yazmısınız. Yəni bu, hamımız – onlar üçün də, bizim üçün də doğmadır. Amma bu, hamının olmaqla bərabər, xüsusən Azərbaycanındır, Azərbaycana məxsusdur. Bu da türk aləmində Azərbaycanın nə qədər görkəmli yer tutduğunu göstərir.

Bəs biz indi onları nümayiş etdirməməliyikmi, biz onları öz xalqımıza və başqa xalqlara çatdırmamalıyıqmı?

Beləliklə, mən hesab edirəm ki, indiyə qədər xeyli iş görülübdür. Mən görülən işləri qiymətləndirirəm. Ancaq işlərin çoxu hələ yarımçıq vəziyyətdədir, hazırlanma mərhələsindədir. Bunların əksəriyyəti iyunun 15-nə qədər tamamlanmalıdır, başa çatmalıdır. Ola bilər ki, bu tədbirlərin bəzilərini o vaxta qədər çatdırmayaq. Bundan narahat olmaq da, tələsmək də lazım deyildir. Gərək hər bir şeyi keyfiyyətli edək. Çünki bu dövrdə biz nə etsək, onlar on illərlə yaşayacaqdır.

Mən yenə də Nizaminin yubileyinə qayıdıram. Məsələn, Nizaminin əsərləri hələ 1947-ci ildə tərcümə olunub, nəşr edilibdir. Ondan sonra Azər-

baycanda bu sahədə işlər həmin əsas üzərində davam etdirilibdir. Şübhəsiz ki, ondan sonra biz Nizami Gəncəvinin 840 illik yubileyini də keçirdik.

Xatirimdədir, Moskvada buna nə qədər mənfi münasibət göstəriblər. Mən təklif vermişdim ki, Nizami Gəncəvinin 840 illik yubileyini keçirmək lazımdır. O vaxt Mərkəzi Komitənin ikinci katibi Suslov mənə dedi ki, axı bu, yuvarlaq tarix deyil, gərək ya 800, 850, ya da 900 olsun. O vaxt mənim ona dediyim sözlər Moskvada da geniş yayılmışdı. Mən dedim ki, "Hörmətli Suslov, Nizami Gəncəvi elə bir şəxsiyyətdir ki, onun yubileyini hər il keçirmək lazımdır". Biz o vaxt Nizaminin 840 illik yubileyini keçirdik. Ola bilər, onların dediklərində də müəyyən məntiq var idi. Amma biz nə üçün bu yubileyləri keçirmək istəyirdik? Çünki hər bir belə yubiley tədbiri bizim mədəniyyətimizi, tariximizi, millətimizin milliliyini təbliğ edir. Biz bunları daim etməliyik. Yenə də deyirəm, bu işlərin ölçüsü, çəkisi yoxdur, amma faydası hədsizdir. Ona görə biz bunları etməliyik.

"Kitabi–Dədə Qorqud" dastanının yubileyi ilə əlaqədar nəzərdə tutulan tədbirlərin hansını iyunun 15-dək keçirmək mümkündürsə, onu etmək lazımdır. Onlardan hansını bu müddətdə keyfiyyətlə keçirmək mümkün olmasa, tələsmək lazım deyildir. O demək deyildir ki, iyunun 15-də keçiriləcək zirvə tədbirinə qədər bütün tədbirlər keçirilsin, sonra hər şey bitsin. Yox, belə deyildir. Yubiley tədbiri sadəcə bir vasitədir ki, "Dədə Qorqud" dastanını təkcə Azərbaycanda yox, eləcə də bütün dünyada daha geniş tədliğ edək və Dədə Qorqud irsini ardıcıl surətdə yazaq, təhlil edək, yayaq, insanlara çatdıraq.

Mən komissiya üzvlərindən, xüsusən Elçindən, Anardan, Fərəməz Maqsudovdan xahiş edirəm ki, bu işlə hər gün məşğul olsunlar. Hansı məsələlərdə qarşıya çətinlik çıxarsa, mənə gecikmədən məlumat versinlər ki, biz onları vaxtında həll edək.

Burada bir neçə təklif irəli sürüldü. Mən onları indi müzakirə etmək istəmirəm. Xahiş edirəm ki, komissiya sədrinin müavinləri başqa müvafiq şəxslərlə birlikdə bu təkliflərə iki-üç gün müddətində baxsınlar, onları təhlil etsinlər. Sonra mənim yanımda toplaşaq və son qərar qəbul edək. Mən indi belə bir şəraitdə bir qərar qəbul etmək istəmirəm. Çünki belə bir şəraitdə qərar qəbul etmək də mümkün deyildir. Gərək ona bir baxaq, təhlil edək.

Burada, məsələn, Qobustan haqqında təklif verildi. Təbiidir ki, bu, cazibədar bir təklifdir. Ancaq baxmaq lazımdır ki, bunu həyata keçirmək nə qədər realdır. Bakıdan Qobustana 60 kilometrdən bir qədər çox məsafə vardır. Bu təklifə ətraflı baxmaq lazımdır ki, o nə qədər realdır. De-

diniz ki, zirvə görüşünə gələcək dövlət başçıları da orada iştirak etsinlər. Ona görə də mən dəqiqləşdirmək istəyirəm ki, bu, necə olacaqdır?

**Polad Bülbüloğlu:** Cənab prezident, dövlət başçılarını oraya vertolyotla aparmaq olar.

**Heydər Əliyev:** Vertolyota minincə, düşüncə çox vaxt gedəcəkdir. Yaxşı, Qobustanda tədbir keçirilməsi barədə təklifə baxmaq olar ki, o nə dərəcədə realdır.

Yaxud, burada park haqqında söhbət getdi. Uşaq dəmir yolu yerləşən park haqqında bir təklif oldu. Memar İlham Əliyev isə Şıx yamacında yerləşən park haqqında təklif irəli sürdü. Buna da baxmaq lazımdır. Sonra, – Dədə Qorqud abidəsi harada, necə olmalıdır? – biz bunu da müəyyənləşdirməliyik, həll etməliyik. Bu abidə parkla əlaqədar, yaxud necə olmalıdır? Hər halda, bu təkliflərin hamısı dərin təhlil tələb edir.

Fəraməz Maqsudov dedi ki, İçərişəhərdə bir yer var, ona da baxmaq lazımdır. Burada "Dədə Qorqud" mükafatı haqqında da danışıldı. Bu o qədər də real deyildir ki, digər dövlət başçıları ilə birlikdə mükafat təyin edək. Mən bunu təsəvvür edə bilmədim, ancaq ona da baxmaq lazımdır. Xahiş edirəm, bütün bu təkliflərin hamısına 2-3 gün ərzində baxın, məsləhətləşin, sonra mənim yanıma gəlin. Bir neçə variant ola bilər. Ancaq dəqiq bir fikrə gəlməliyik ki, görək bunlar hansı yollarla həyata keçirilə bilər, reallıq nədən ibarətdir.

Başqa bir məsələ. Siz dediniz ki, müsabiqə elan olunubdur, Dədə Qorqudun portreti hazırlanır?

**Elçin Əfəndiyev:** Cənab prezident, Dədə Qorqudun portretini hazırlamaq üçün müsabiqə elan edilibdir. Amma bu müsabiqənin nəticəsi zirvə tədbirinə qədər məlum olmayacaqdır.

**Heydər Əliyev:** Vaxtilə Nizaminin də portreti yox idi, amma yarandı. Bilirsiniz, yubileydə Dədə Qorqudun portretinin hazır olmaması heç də mümkün deyildir. Sizin verdiyiniz bu medallarda da Dədə Qorqud şəkli var. İndi Dədə Qorqudu kim necə istəyir, o cür də çəkir. Amma bu yaramaz. Məsələn, Füzulinin bizə məlum olan portreti 1930-cu illərdə çəkilmişdi. Mən yenə də orta məktəb dövrünü yada salıram. O vaxt rəsmlə çox məşğul olurdum. Mən 1938-ci ildə Füzulinin həmin portretinə baxıb, onu boya ilə çəkmişəm. Bu, mənim yaxşı yadımdadır. Bu portret var idi, özü də rəngli idi. Yəni Füzulinin rəngli portreti var idi.

Nizaminin portretini 1947-ci ildə Qəzənfər Xalıqov yaradıbdır, heykəlini də Fuad Əbdürrəhmanov yaradıbdır. Nəsiminin portretini Mikayıl Abdullayev, heykəlini isə Tokay Məmmədovla İbrahim Zeynalov

yaradıblar. Yəni bunlar hamısı gözümüzün qabağında olmuş işlərdir.

Təsəvvür edin, biz "Kitabi–Dədə Qorqud" dastanının yubileyinə gəlirik. Dədə Qorqudun portreti yoxdur. Yaxşı, bəs bu müsabiqə nə qədər davam edəcəkdir? Xahiş edirəm, bu barədə düşünün. Gəlin məsləhətləşək. Bu mümkündürmü – biz "Kitabi–Dədə Qorqud" dastanının yubileyini keçiririk, ancaq onun portreti yoxdur. Xahiş edirəm, oturun, bu barədə fikirləşin, görün nə edə bilərsiniz.

Layihələrin maliyyələşdirilməsi ilə əlaqədar sözümü mən artıq maliyyə nazirinə dedim. Ancaq eyni zamanda, mən Baş nazirə tapşırıram – xahiş edirəm, sən özün şəxsən bunların hamısına bax və mənə məruzə et. Prinsip bundan ibarət olmalıdır ki, israfçılığa qətiyyən yol verilməməlidir. Eyni zamanda, yubileyi layiqincə keçirmək üçün tələb edilən vəsait tapılmalıdır və verilməlidir. Maliyyə naziri burada dedi ki, "Mədəniyyət Nazirliyinin, akademiyanın və başqalarının öz pulları vardır. Mən sizə göstərəcəyəm ki, onu haradan götürmək lazımdır". Sən belə fikirlərini kənara qoy. Başa düşdün? Əgər xüsusi yubiley keçirilirsə, demək, büdcədən ayrılmış vəsait ora gedə bilməz. Çünki büdcə vəsaiti onların cari işləri üçün ayırır. Amma bu, xüsusi bir tədbirdir. Baş nazir, sən özün bu məsələlərə bax, mənə məruzə et.

Bilirsiniz, Azərbaycan dövlətinin vəsaitini qoruyub saxlayan bizik. Altı ilə yaxındır ki, mən buna rəhbərlik edirəm. İndiyə qədər çox şeyi qorumuşuq, saxlamışıq. Baxmayaraq ki, bizdən qabaq çox şeylər dağıdılmışdı. Təsəvvür edin, indi Azərbaycanda inflyasiya yoxdur. Ətrafımızdakı ölkələrin hamısı inflyasiya içərisindədir. Bizdə iqtisadiyyat inkişaf edir. Torpaqlarımızın 20 faizinin işğal altında olmasına, ölkəmizdə bir milyondan çox qaçqın yaşamasına baxmayaraq biz bunları ediriksə, demək, biz Azərbaycanın iqtisadiyyatını, maliyyə işlərini ağılla aparırıq. Çətinliyimiz, çatışmazlığımız çoxdur, hamısı var. Amma hansı işi necə etməyi biz bilirik. Heç kəs bundan narahat olmasın.

Mən komissiya üzvlərinin və buraya dəvət olunmuş şəxslərin hamısına müraciət edirəm ki, "Dədə Qorqud" dastanının yubileyinin yüksək səviyyədə keçirilməsi üçün bundan sonra hər kəs öz səylərini daha da artırmağa çalışsın, biz bu yubiley tədbirini birlikdə hazırlayıb həyata keçirək.

Mən inanıram ki, bu yubiley mərasimləri Azərbaycanda vətəndaşlarımızın daha böyük ruh yüksəkliyini təmin edəcəkdir, cəmiyyətdə daha da birlik, həmrəylik yaradacaqdır. Bu, bizim həm mədəniyyətimizin, həm ədəbiyyatımızın, həm də ümumiyyətlə, tariximizin daha da geniş təbliğ olunması üçün yeni bir şərait yaradacaqdır. Hamınıza bu yolda uğurlar arzulayıram.

# GÖRKƏMLİ ALİM, AKADEMİK ZƏRİFƏ ƏLİYEVAYA HƏSR EDİLMİŞ "ZƏRİFƏ XANIM ƏLİYEVA" KİTAB–ALBOMUNUN TƏQDİMAT MƏRASİMİNDƏ ÇIXIŞ

*Rəşid Behbudov adına Dövlət Mahnı Teatrı*
*14 aprel 1999-cu il*

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu axşam biz burada birlikdə Zərifə xanım haqqında olan kitab-albomun təqdimat mərasimini, eyni zamanda bir xatirə gecəsini yaşadıq.

Bugünkü mərasim məni və ailə üzvlərimi bir daha on dörd il bundan öncə olan günlərə, aylara qaytardı. Nə qədər çox il keçsə də, bizim ailəmiz bu itkinin ağrısını-acısını həmişə hiss edir. Hesab edirəm ki, nəinki biz, mənim nəvələrim də, onların davamçıları da bu hisslərilə yaşayacaq və bizim hamımız üçün əziz, unudulmaz Zərifə xanım həmişə qəlbimizdə yaşayacaqdır.

Zərifə xanım haqqındakı kitab onun şəxsiyyətinə, həyat yoluna, insani keyfiyyətlərinə, mənəviyyatına layiq bir kitabdır. Bu kitabı hazırlayanlara, çapdan çıxaranlara təşəkkür edirəm.

Bugünkü gecə bizim üçün çox təsirlidir, eyni zamanda olduqca maraqlıdır. Bu gecənin hazırlanması böyük incəsənət, mədəniyyət nümunəsidir. Bunun hazırlanması böyük istedad tələb edir. Bu gün biz bu istedadların şahidi olduq. Gecəni hazırlayanlara və proqramı aparanlara, burada çıxış edənlərin hamısına təşəkkür edirəm.

Bu gün buraya bizim yaxın qohumlarımız, bunlarla bərabər, dostlarımız, xarici ölkələrin Azərbaycandakı səfirləri, elm, mədəniyyət xadimləri, vaxtilə Zərifə xanımla bir yerdə çalışmış, uzun illər dostluq etmiş çox dəyərli insanlar dəvət olunublar. Bu gecədə iştirakınıza görə mən sizin hamınıza təşəkkür edirəm.

Gecənin proqramı xatirə anlayışına uyğundur. Ona görə də bu, qəmli-kədərli bir gecəyə çevrildi. Bəlkə də biz bu hissiyyatları yaşamağımızdan da məmnunuq. Eyni zamanda, hörmətli dostlarımız, qonaqları-

mız, bu hissiyyatlarımızı siz bizimlə bərabər yaşadınız. Bunlara görə, bugünkü gecədə iştirak etdiyinizə görə hamınıza təşəkkür edirəm.

Bu gün burada dəfələrlə qeyd olundu ki, Zərifə xanımın ən gözəl xüsusiyyətlərindən biri o idi ki, o, həyatda çox nikbin, şən idi. İnsanlarla çox mehriban münasibətdə olmaq onun üçün əsas şərt idi. O, insanları sevirdi, insanlar da onu sevirdilər. Ona görə də mən bu gecəni bir növ dostluq, birlik gecəsi adlandırıram. Bu, Zərifə xanımın xatirəsinə ən dəyərli bir abidədir. Bu gecədə nə qədər təsirləndinizsə, eyni zamanda mən istəyirəm ki, buranı tərk edərkən şad əhval-ruhiyyədə dağılışasınız.

Sizin hamınıza cansağlığı, həyatınızda səadət, xoşbəxtlik, hər birinizə işlərinizdə uğurlar arzulayıram. Bir daha hamınıza təşəkkür edirəm. Sağ olun.

## "VAŞİNQTON–POST" QƏZETİNİN JURNALİSTLƏRİ İLƏ GÖRÜŞ

*Vaşinqton, "Monarx" oteli*
*26 aprel 1999-cu il*

**Heydər Əliyev:** Sizi səmimi-qəlbdən salamlayıram. Mətbuatla görüş həmişə çox maraqlı olur. Xüsusən dünyada məşhur olan belə bir qəzet – "Vaşinqton-post" qəzetinin nümayəndələri ilə. Mən sizi salamlayıram və təşəkkür edirəm ki, siz vaxt tapıb bizimlə görüşməyə gəlmisiniz. Adətən qəzetçilər suallar verirlər. Yəqin ki, sizin də suallarınız vardır.

**Stiv Rozenfeld:** Cənab prezident, Sizə çox təşəkkür edirik ki, bizi dəvət etmisiniz. Bəli, doğru buyurursunuz, Sizə çoxlu suallarımız vardır. Əgər etiraz etməsəydiniz elə birbaşa suallardan başlayaq.

**Heydər Əliyev:** Buyurun, başlayın.

**Sual:** Cənab prezident, bilmək istərdik ki, Siz NATO-nun Kosovodakı əməliyyatlarını necə qiymətləndirirsiniz və Sizcə, NATO-nun Kosovo barədə qərarları sülhün bərqərar olmasına gətirib çıxaracaqmı?

**Cavab:** Əvvəlcə mən istəyirəm sizə təşəkkür edim ki, qəzetiniz və siz Azərbaycana, Azərbaycanın prezidentinə bu günlər çox böyük diqqət göstərmisiniz. Aprel ayının 22-də bizim Vaşinqtona gəlməyimizlə əlaqədar siz aprelin 23-də öz qəzetinizdə bizim gəldiyimizi bəyan etmisiniz və hətta bir şəkil də vermisiniz. Deyirlər ki, "Vaşinqton-post" qəzetində belə bir fotonun yerləşdirilməsi bu qəzetin xüsusi münasibətini göstərir. Ondan sonrakı gün bizim Hərbi Dəniz Akademiyasında olmağımız haqqında sizin qəzetdə bir məqalə verilibdir. Bunlara görə təşəkkür edirəm. Bizim Azərbaycanda deyirlər ki, göz dəyməsin, həmişə belə olsun. Çünki burada prezidentlər çoxdur. İndi siz bizə belə diqqət göstərmisiniz. Ola bilər, buna görə də göz dəysin.

Sizin sualınıza cavab olaraq onu deyə bilərəm ki, şübhəsiz, Yuqoslaviya, Kosovo problemi çox mürəkkəb bir problemdir. Amma siz bilirsiniz ki, biz, Azərbaycan on ildir belə bir problemin içində yaşayırıq. Yəqin sizə məlumdur ki, Azərbaycanın tərkibində olan Dağlıq Qarabağ vilayətini 1988-ci ildə Ermənistan Azərbaycandan ayırıb özünə bağlamağa çalışıbdır.

Bunun nəticəsində müharibə baş veribdir və Ermənistan silahlı qüvvələri müəyyən səbəblərə görə Azərbaycan ərazisinin 20 faizini işğal edibdir. Buna baxmayaraq, biz beş il öncə atəşkəs haqqında saziş imzalamışıq, atəşi dayandırmışıq və məsələni sülh yolu ilə həll etmək istəyirik. Məsələni sülh yolu ilə həll etmək üçün Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli özünüidarəetmə statusu verməyə razıyıq. Amma Ermənistan tərəfi bununla razı deyildir. Ona görə də indiyə qədər bu məsələ həll olunmur.

Yuqoslaviyada isə Miloşeviç Kosovonun muxtariyyətini ləğv edibdir və beləliklə, o, beynəlxalq hüquq normalarını pozubdur, ədalətsizlik edibdir və Kosovo albanlarının özünüidarəetmə statusu almaq cəhdlərinə görə də orada müharibə başlayıbdır. O, etnik təmizləmə ilə məşğul olur. Bizim bu barədə fikrimiz belədir ki, hər bir ölkənin ərazi bütövlüyü toxunulmaz olmalıdır. Ona görə də biz Yuqoslaviyanın ərazi bütövlüyünü müdafiə edirik, dəstəkləyirik. Biz separatçılığın əleyhinəyik. Amma eyni zamanda etnik təmizləmənin də, soyqırımın da əleyhinəyik.

Şübhəsiz ki, biz Kosovo albanlarına müstəqillik vermək, müstəqil dövlət yaratmaq təklifinin əleyhinəyik. Amma, eyni zamanda Kosovo albanlarının hüquqlarının tapdalanmasının da əleyhinəyik. Biz hesab edirik ki, bu məsələdən ən düzgün çıxış yolu budur ki, Yuqoslaviyanın ərazi bütövlüyünün toxunulmazlığı şərti ilə Kosovo albanlarına Yuqoslaviya dövlətinin tərkibində muxtariyyət hüququ verilməlidir və hər iki tərəf belə bir prinsip əsasında münaqişəyə son qoymağa məcbur edilməlidir. Bu baxımdan NATO-nun Yuqoslaviyada apardığı əməliyyatlar, görünür ki, son qərardır. Yəni bütün başqa imkanlar nəticə vermədiyinə görə NATO bu cür əməliyyatlara başlayıbdır.

Ümumiyyətlə, biz hərbi əməliyyatların əleyhinəyik. Ancaq Miloşeviçin hərəkətlərinin qarşısını yəqin ki, başqa cür almaq mümkün deyildir. Ona görə də biz NATO-nun bu əməliyyatlarını da məqsədəuyğun hesab edirik.

Təbiidir ki, məsələnin sülh yolu ilə həll edilməsi hər şeydən yaxşı olardı. Əgər Miloşeviç bununla razı olmursa və özünü bu qədər sərbəst aparırsa, onda onu məcbur etmək lazımdır.

Birləşmiş Millətlər Təşkilatının nizamnaməsində sülhə məcbur etmək kimi bir müddəa var. Ona görə də biz hesab edirik ki, əgər NATO bu yol ilə gedibsə, bu yol ilə də məsələni sona çatdırıb həll etməlidir. Bu, mənim prinsipial fikrimdir. Amma taktiki cəhətlər, şübhəsiz ki, NATO-nun özündən asılıdır.

**S u a l: Siz "Bu münaqişəyə son qoyulmalıdır" deyərkən, əgər lazım olarsa, quru qoşunlarının da Kosovoya göndərilməsinin tərəfdarısınızmı?**

**C a v a b:** "Bilirsiniz, indi vəziyyət elədir ki, Miloşeviç bütün dünyaya meydan oxuyur.

Rusiyanın məsələni sülh yolu ilə həll etmək fikri ilə razıyam. Amma əgər Miloşeviç heç bir təklifi qəbul etmirsə və özbaşınalıq edib soyqırımı siyasəti həyata keçirirsə, bunun başqa yolu yoxdur.

**S u a l: Cənab prezident, İraq Küveyti işğal edərkən Sovetlər İttifaqı beynəlxalq səylərə qoşularaq bu təcavüzə qarşı çıxış etdi. Sizcə, indi Rusiya nə üçün beynəlxalq qüvvələrlə bir mövqedən çıxış etmir?**

**C a v a b:** Buna mən tam cavab verə bilmərəm. Onu Rusiyadan soruşmaq lazımdır. Ancaq bizi narahat edən bir məsələ ondan ibarətdir ki, Rusiyada bu dəqiqə şovinist, millətçilik əhval-ruhiyyəsi çox geniş yayılıbdır.

Şübhəsiz ki, hər dövlət öz siyasətini özü bildiyi kimi aparır. Amma Rusiyada slavyan birliyi, yaxud da pravoslav, xristian birliyi şüarı altında onlar bu ədalətsizliyə dəstək verirlər. Mən hesab edirəm ki, Rusiya o qədər də düzgün siyasət aparmır. Ümumiyyətlə, Rusiyanın məsələləri sülh yolu ilə həll etmək prinsipi əsaslı fikirdir. Ancaq məlumdur ki, NATO da bu məsələni sülh yolu ilə həll etməyə çalışır. Amma bunlar nəticə vermədi. Rusiya da həmin o əlaqə qrupunun, yaxud da Rambuyedəki danışıqların iştirakçısı idi. Gərək o, həmin vaxt çalışaydı və Miloşeviçlə xüsusi əlaqəsi olduğuna görə gərək ona başa salaydı ki, bu cür hərəkətlərdən əl çəksin. Amma buna nail olmayaraq, eyni zamanda NATO-nun əməliyyatlarının əleyhinə çıxmaq, şübhəsiz ki, anlaşılmazdır. Rusiya deyir ki, məsələni danışıqlarla həll etmək lazımdır. Bu, düzgün fikirdir. Ancaq əgər danışıqlar nəticə vermirsə?

Məsələn, biz beş ildir Ermənistanla danışıqlar aparırıq ki, məsələni sülh yolu ilə həll edək. Ermənistan Azərbaycan torpaqlarının 20 faizini işğal edibdir. İndi də deyir ki, "Dağlıq Qarabağa müstəqillik vermək lazımdır". Biz nə qədər çalışırıq, münaqişəni həll edə bilmirik. Minsk qrupunun həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa da Ermənistanı bu məsələnin sülh yolu ilə həll olunmasına təhrik edə bilmirlər. Məsələ həll olunmur, torpaqlarımız işğal altındadır, bir milyondan artıq həmvətənimiz qaçqın vəziyyətində çadırlarda yaşayır.

Məsələn, Dağlıq Qarabağda müharibə etmək lazım deyildir. Sadəcə, Ermənistan tərəfinə daha da güclü təsir olsaydı ki, onlar düzgün mövqe tutsunlar, məsələni həll etmək mümkündür.

Görünür ki, indi Miloşeviç həm özünə arxayındı, həm də başqa şeylərə arxayındır. O, heç bir ədalətli fikrə məhəl qoymur. Mənim fikrim bu qədər.

**S u a l: Cənab prezident, öncə bildirdiniz ki, Siz Dağlıq Qarabağa Azərbaycanın tərkibində geniş statuslu muxtariyyət verməyə razısınız. Bilmək istərdik ki, bu "geniş muxtariyyət" deyərkən nəyi nəzərdə tutursunuz? Yəni mən Dağlıq Qarabağda yaşayan erməni çoxluğuna geniş muxtariyyət verilməsini nəzərdə tuturam. Ümumiyyətlə, "geniş muxtariyyət" deyərkən nəyi nəzərdə tutursunuz? Bir az bu məsələnin spesifik cəhətlərinə vara bilərsinizmi?**

**Məsələn, Siz Dağlıq Qarabağa özünün polis qüvvələrini saxlamağa və silah gəzdirərək yerli əhalinin təhlükəsizliyini təmin etməyə, yaxud Dağlıq Qarabağ ilə Ermənistan arasında planlı şəkildə körpünün fəaliyyət göstərməsinə, dəhlizin olmasına icazə verərsinizmi? Xahiş edirəm, geniş muxtariyyətin detallarında nəyi nəzərdə tutduğunuz barədə bizə ətraflı məlumat verəsiniz.**

**C a v a b:** Bilirsiniz, əgər Ermənistan tərəfi bu geniş muxtariyyətin tərəfdarı olsa, biz onlarla birlikdə bu məsələni daha da dəqiqləşdirə bilərik.

Məsələn, prinsip etibarilə siz dediyinizə, – əlbəttə ki, Dağlıq Qarabağda polis qüvvələrinin saxlanmasına və silahlı polisin olmasına biz tamamilə razıyıq. Ermənistanla daim əlaqə saxlamaq – buna da biz tamamilə razıyıq. Biz onlara iqtisadiyyatda da çox böyük səlahiyyətlər verməyə hazırıq, yaxud, xarici ölkələrlə müstəqil iqtisadi əlaqələr saxlanmasına da biz razıyıq, "yüksək muxtariyyət" deyəndə, orada bir neçə məsələlər üzrə onlar gərək Azərbaycan hökuməti ilə mütləq bağlı olsunlar. Qalan məsələlərdə isə biz onlara geniş səlahiyyət veririk.

Dünyada çox belə muxtariyyətlər var, muxtariyyət statusu vardır. Biz bəyan etmişik ki, Ermənistan tərəfi üçün uyğun olan muxtariyyət statusunu biz onlara verməyə hazırıq. Amma Ermənistan tərəfi bununla razı deyildir.

**S u a l: Cənab prezident, mən mövzunu dəyişərək İrandakı cari siyasi durum barədə Sizin fikirlərinizi bilmək istərdim. Sizcə, İranın cari siyasi vəziyyəti nə qədər sabitdir və Siz gələcəyə baxdıqda İranda nələrin baş verə biləcəyini görürsünüz?**

**C a v a b:** Bu barədə qəti bir söz demək çox çətindir. İranda olan rejim, islam dövləti rejimi, şübhəsiz ki, gücə arxalanan bir rejimdir. İran əhalisinin çox hissəsinin dindar olması və dinin İranda çox güclü təsiri olması, şübhəsiz ki, bu rejimi daha da möhkəmləndirir.

İranda təxminən 30 milyona qədər azərbaycanlı yaşayır. Bu, İran əhalisinin təxminən yarısıdır. Onlar istəyirlər ki, öz dillərində məktəb olsun, kitab olsun, qəzet olsun. Onlar başqa bir şey istəmirlər.

Baxmayaraq ki, vaxtilə öz konstitusiyalarında belə hüquqların verilməsi haqqında maddə yazılıbdır və bugünkü prezidentXatəmi də prezident seçkiləri vaxtı söz veribdir ki, prezident seçilsə Konstitusiyanın 15-ci maddəsini həyata keçirəcəkdir, ancaq onu həyata keçirmir.

**S u a l: Cənab prezident, Sizcə, prezident Xatəmi İranda mövcud olan mühafizəkar qüvvələr və kəşfiyyat orqanları üzərində öz ideyaları ilə qalib gələ biləcəkmi və Siz Xatəmini yaxın 5-10 il ərzində İranda önəmli rol oynayan siyasi fiqur kimi görürsünüzmi?**

**C a v a b:** Şübhəsiz ki, prezident Xatəmi bir siyasi fiqur kimi İranda böyük rol oynayır və gələcəkdə də oynaya bilər. O, Qərblə müəyyən bir dialoq etmək təklifini irəli sürübdür.

**S u a l: Bu səfəriniz zamanı prezident Klinton ilə söhbət etmək imkanınız oldumu? Xüsusilə, Azərbaycana humanitar yardım göstərməsinə qoyulmuş qadağa barədə onunla söhbət edə bildinizmi? Azərbaycana qarşı tətbiq olunmuş bu maddənin aradan qaldırılması və bu vəziyyətin düzəldilməsi üçün yeni təşəbbüslər edəcəyi barədə onun tərəfindən vədlər almısınızmı?**

**C a v a b:** Ayın 24-də axşam görüşümüz zamanı mən onunla qısa söhbət etdim və aprelin 25-də NATO-nun toplantısı bitəndən sonra biz yenə də bir neçə dəqiqə söhbət etdik. Bu söhbətlər zamanı bizim əsas fikirlərimizi mən ona bir daha çatdırdım. Bizim üçün əsas iki məsələdir: biri Ermənistan–Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasında Amerika Birləşmiş Ştatlarının səylərinin artırılması, ikincisi isə Konqresin qəbul etdiyi 907-ci maddənin, Azərbaycana yardıma qadağa qoyan maddənin aradan götürülməsidir. Ayın 24-də və 25-də apardığımız söhbətimizin ikisində də o, qətiyyətlə bildirdi ki, bu məsələlərlə ciddi məşğul olur və olacaqdır. Hətta belə dedi ki, mən prezidentlik müddətinin sonuna qədər Ermənistan–Azərbaycan münaqişəsinin həll olunmasını mütləq təmin etməliyəm.

Mən bir neçə vaxt, 10-15 gün bundan öncə prezident Klintondan və xanım Olbraytdan məktublar almışam. O məktublarda prezident Klinton və xanım Olbrayt göstərirlər ki, Amerika hökuməti Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi üçün bundan sonra daha da ciddi məşğul olacaqlar. 907-ci maddə haqqında onlar daim bildirirlər ki, bu maddənin əleyhinədirlər. Onların bəyanatına görə, hökumət çalışır və bundan sonra da çalışacaq ki, 907-ci maddə aradan götürülsün.

Mən bu gün xanım Olbraytla görüşəcəyəm. Görüş zamanı bu mövzuları mütləq müzakirə edəcəyəm.

**S u a l: Cənab prezident, Kosovo mövzusuna toxunan zaman Rusiyada son dövrdə artmaqda olan şovinizm və millətçilik təzahürlərində narahatlığınızı bildirdiniz. Öyrənmək istərdik ki, bu, özünü daha hansı formalarda büruzə verir və Sizin regiona bu halların təsiri necədir?**

**C a v a b:** Rusiyanın siyasətində müllətçilik, şovinizm hər yerdə özünü büruzə verir. Mən sizə bildirmək istəyirəm ki, keçmişdə Sovetlər İttifaqının rəhbərliyində olan şəxslərin də siyasətində millətçilik, şovinizm daim hiss olunurdu. İndi isə Rusiya, baxmayaraq ki, onlar demokratik dəyərləri özlərinin əsas prinsipləri elan ediblər, ancaq orada şovinizm, millətçilik əhval-ruhiyyəsi genişdir – həm Rusiyanın daxilində, həm də Rusiyanın müxtəlif dövlətlərlə, ölkələrlə münasibətlərində.

Biz, rus millətinə mənsub olmayanlar bu cür hallara həmişə çox həssasıq. Məsələn, mən Rusiyanın rəhbər vəzifəli şəxslərinə son vaxtlar bir neçə dəfə demişəm ki, siz ölkənizdə münasibətləri milli zəmində qurmaqla özünüz-özünüzə çox böyük zərər verirsiniz. Çünki Rusiya əhalisinin hamısı slavyan deyildir, hamısı pravoslav, xristian deyildir. Rusiyada müsəlmanlar da, yəhudilər də, buddistlər də var və başqa dinlərə, başqa millətlərə mənsub olanlar da vardır. Rusiyada 20 milyon müsəlman var. İndi bu Yuqoslaviya, Kosovo problemində ardıcıl deyəndə ki, "biz slavyanıq, pravoslavıq, xristianıq, biz serblərə kömək etməliyik", bu, müsəlman millətindən, yaxud başqa millətlərdən olan vətəndaşlara toxunur.

Qafqaz ölkələrinə münasibətlərində də bu millətçilik, sovinistlik özünü göstərir. Məsələn, xatirimdədir, bir dəfə – 1998-ci ilin əvvəlində televiziya vasitəsilə Yeltsin Ermənistanı dəstəkləyərək dedi ki, ermənilər xristiandırlar, onlar bizim strateji təsirimiz altındadırlar, ona görə də biz onlara xüsusi diqqət yetirməliyik.

Şübhəsiz, belə anlamaq olar ki, demək, başqa dinə, yaxud başqa millətə mənsub olan ölkələrə onların münasibəti başqadır.

Belə millətçilik, şovinizm siyasəti bizi çox narahat edir.

**S u a l: Cənab prezident, Siz hələ Sovetlər İttifaqının siyasi bürosunda çalışdığınız vaxtdan bəri uzun illərdir ki, Rusiyanın prezidenti Boris Yeltsini tanıyırsınız. Bilmək istərdik, Siz onu bir lider və bir şəxs kimi necə qiymətləndirirsiniz? Sizcə o, nəyi düzgün edir, nəyi isə səhv edir?**

**C a v a b:** Bu, çox mürəkkəb sualdır.

**S u a l: Cənab prezident, biz bu günlər Gürcüstan prezidenti Eduard Şevardnadze ilə də görüşmüşük. Buna bənzər sualla ona müraciət**

**edəndə o, Rusiyada hökumət ilə hökumətdən kənar qüvvələr arasında bir fərq qoydu. Qeyd etdi ki, Rusiyada bir hökumət dairələri var, bir də hökumətdən kənarda olan qüvvələr vardır ki, onlar daha millətçi, daha şovinistdirlər. Siz də bu fikirlə razılaşırsınızmı, yoxsa Sizcə, elə Rusiyanın hökumət dairələrinin özləri də Sizin regiona qarşı münasibətdə şovinist mövqedədirlər?**

**C a v a b:** Bilirsiniz, mən ümumi fikir söyləyirəm. Bunu araşdırmaq, seçmək çox çətindir. Bu gün hökumətdə olmayan sabah hökumətdədir, bu gün hökumətdə olan isə sabah hökumətdə deyil. Mən ümumi fikrimi deyirəm. Mən bunu fərdiləşdirmək istəmirəm, ümumi əhval-ruhiyyəni deyirəm.

**S u a l: Cənab prezident, icazə verin Azərbaycanın şəxsiyyətləri barədə sual verim. Sizin partiyanın üzvlərinin bəziləri məqalələrində yazırlar ki, Azərbaycanın gələcəyi üçün ən ağıllı, ən düzgün yol gələcəkdə Sizin oğlunuzun prezident olmasıdır. Bu fikrə necə münasibət bəsləyirsiniz?**

**C a v a b:** Bizdə fikir müxtəlifliyi, plüralizm vardır. Kim nə cür düşünür, o cür də deyir. Mən hər bir fikrə münasibət bəsləyə bilmərəm.

Son zamanlar Heydər Əliyevin oğlu haqqında müxalifətdə cürbəcür danışıqlar gedir. Həmin müxalifətdə olan insanlar kimi, Heydər Əliyevin oğlu İlham Əliyev, – o, mənim yanımda oturubdur, – o da Azərbaycanın vətəndaşıdır. Onun seçib-seçilmək hüququ vardır. O da bir vətəndaş kimi öz hüquqlarından nə vaxt, nə cür istifadə etmək istəsə, o vaxt da istifadə edəcəkdir. Bu, tam müstəqildir.

**S u a l: Siz ona səs verərdinizmi?**

**C a v a b:** Bəs hesab edirsiniz ki, verməzdim? Əksinə desəydim siz inanmazdınız.

**S u a l: Cənab prezident, Xəzər dənizində olan enerji ehtiyatlarının həcmi barədə bizdə müxtəlif hesablamalar, ehtimallar vardır. Əgər biz əvvəllər Xəzər dənizinin çox böyük enerji ehtiyatlarına malik olması barədə fikirlərlə rastlaşırdıqsa, son dövrlər bu ehtiyatların daha məhdud olması barədə fikirlər eşidirik. Sizin hesablamalarınız necədir?**

**C a v a b:** Mən bu gün strateji və beynəlxalq araşdırmalar mərkəzində çıxış edərkən bu mövzuya toxundum. Xəzər dənizinin enerji ehtiyatları dörd il bundan öncə elan edildiyindən də çoxdur.

Biz 1994-cü ildə ilk müqaviləni – "Əsrin müqaviləsi"ni imzalayanda mən təsəvvür edə bilməzdim ki, cəmi üç il ərzində müqavilələrin sayı 16-ya çatacaqdır. Sabah biz burada, Vaşinqtonda yenə üç müqavilə imzalayacağıq – "Eksson", – "Mobil" və "Monkrift oyl" şirkətləri ilə. Əgər

Azərbaycanda, ya Xəzər dənizində neft ehtiyatları az olsa, bu qədər şirkətlər yeni-yeni müqavilələr imzalamaq üçün müraciət edərlərmi?

İndiyə qədər imzalanmış 16 müqavilədə 32 şirkət iştirak edir və bu şirkətlər 14 ölkəni təmsil edirlər. İndi üç müqavilə də imzalanacaqdır və bütün müqavilələrə görə investisiyanın ümumi həcmi 50 milyard dollara qədərdir. Neft ehtiyatlarına gəldikdə isə bizim mütəxəssislərin hesablamaları göstərir ki, Xəzər dənizinin Azərbaycan sektorunda olan neft yataqlarının ehtiyatı 4 milyard tondan 10 milyard tona qədərdir. Hələ bu, ilkin hesablamalardır. Amma həqiqətdə bundan artıqdır.

Məsələn, biz birinci müqaviləni imzalayanda layihədə nəzərdə tutmuşduq ki, oradan 510 milyon ton neft götürüləcəkdir.

Amma indi görünür ki, 630 milyon ton götürüləcəkdir.

Yəni 120 milyon ton artıq. Biz hər qazılan quyudan sutkada 500 ton neft gözləyirdik, amma indi 2 min ton neft alırıq.

Bilirsiniz, sizin o dediyiniz fikirlər Rusiya mətbuatında, Amerika Birləşmiş Ştatlarının və başqa ölkələrin mətbuatında yayılıbdır. Bu fikirləri yayanlar Azərbaycanın neft strategiyasının əleyhinə olan adamlardır, o cümlədən ermənipərəst qüvvələrdir.

Məsələn, siz bilirsiniz ki, Rusiya bizim bu neft strategiyamızın əleyhinədir, xüsusən Amerika Birləşmiş Ştatları, Avropa ölkələri şirkətlərinin Xəzər dənizinə gəlməsinin əleyhinədir. Ona görə də onlar gördülər ki, bundan bir şey çıxmır, indi bu cür şayiələr yayırlar. Bunlar əsassızdır. Xəzər dənizinin çox böyük enerji ehtiyatları vardır. Təkcə Azərbaycan sektorunda yox, digər sektorlarda da, xüsusən Qazaxıstan sektorunda.

**S u a l: Cənab prezident, Siz mənim indi vermək istədiyim suala qismən cavab verdiniz. Amma yenə bilmək istəyirəm ki, Sizcə, Rusiya Xəzər regionundakı layihələrdə daha fəal iştirak etmək üçün Ermənistana yardım göstərmək vasitəsilə Sizə təzyiq etmək istəyirmi?**

**C a v a b:** Bilirsiniz, şübhəsiz ki, təsir etməyə çalışır. İndi Rusiyanın bizim Xəzər dənizindəki neft yataqlarında fəal iştirak etməyə maddi imkanları, maliyyə imkanları yoxdur. Onların bəziləri hesab edirlər ki, Azərbaycan bu ehtiyatları saxlamalıdır, nə vaxt onların imkanları olacaq o vaxt istifadə edə bilsinlər.

Ona görə cürbəcür vasitələrlə təsir etməyə çalışırlar.

1994-95-ci illərdə Azərbaycanda terror aktları, silahlı dövlət çevrilişinə cəhdlər də məhz Azərbaycanın neft strategiyasının qarşısını almaq məqsədi daşıyırdı.

Məsələn, 1994-cü ilin sentyabrın 20-də biz "Əsrin müqaviləsi"ni imzaladıq. Sentyabr ayının 29-da Azərbaycan parlamenti sədrinin müavinini və bir də yüksək rütbəli hərbi zabiti terrorla öldürdülər. Bu zaman Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasına hücum edildi və oradan dörd nəfər siyasi cəhətdən çox cinayətkar adamı çıxarıb Rusiyaya qaçırdılar.

Biz 1994-cü ilin oktyabr ayındakı çevriliş cəhdinin qarşısını aldıq. 1995-ci ilin mart ayında yenidən dövlət çevrilişinə cəhd göstərdilər. 1995-ci ilin avqust ayında Azərbaycan prezidentinin təyyarəsini xaricdən qayıdarkən Azərbaycanın hava limanının üzərində raketlə vurmağa cəhd göstərdilər. Bizə məlumdur ki, burada Rusiyanın xüsusi xidmət orqanlarının rolu vardır. Azərbaycan prezidentini silahlı yolla devirmək, yaxud da ki, ona qarşı terror etmək və beləliklə, Azərbaycanın siyasətini dəyişmək məqsədi var idi.

**S u a l: Cənab prezident, bizim ölkəmizdə analitiklər belə hesab edirlər ki, Rusiya təzədən dirçələcək, təzədən güclü bir dövlət olacaq və həm Sizə, həm də Amerikaya təhlükə törədə biləcəkdir. Bu barədə nə düşünürsünüz?**

**C a v a b:** Mən ümumiyyətlə, proqnoz verməkdən çəkinirəm. Ona görə də qəti proqnoz vermək istəmirəm. Hər halda Rusiyanın daxilində gedən proseslər göstərir ki, diqqətli olmaq lazımdır.

**S u a l: Cənab prezident, bu ölkədə fikir müxtəlifliyi vardır. Bəziləri zəif Rusiyanın, bəziləri isə sağlam Rusiyanın tərəfdarıdırlar. Lakin hər ikisi razılaşır ki, zəifləmiş Rusiya qonşuları üçün, Qərb üçün təhlükədir, həm də hesab edirlər ki, Rusiyanın sağlamlaşması üçün Beynəlxalq Valyuta Fondu gərək ona yardımlarını davam etdirsin. Hətta baxmayaraq ki, bəzən Siz də, biz də Rusiyanın etdiyi hərəkətlərlə razılaşmırıq. Amma buna baxmayaraq bəzi adamlar hesab edirlər ki, Beynəlxalq Valyuta Fondu Rusiyaya yardımı davam etdirməlidir. Sizin bu fikirlərə münasibətiniz necədir?**

**C a v a b:** Bu da çox ciddi fikirlərdir. Mən bir onu deyə bilərəm ki, biz istəyirik Rusiya demokratik ölkə olsun, Rusiyada ümumbəşəri dəyərlərə, demokratik prinsiplərə söykənən hakimiyyət olsun, Rusiyada imperiya iddiaları inkişaf etməsin və Rusiya imperiya iddialarından əl çəksin, Rusiya sülhsevər ölkə olsun və qonşularına, o cümlədən Cənubi Qafqazda olan qonşularına ədalətli, normal münasibət göstərsin.

**S u a l: Cənab prezident, Siz GUAM birliyi və onun əhəmiyyəti barədə nə deyə bilərsiniz? Səhv etmirəmsə, Özbəkistan da bu birliyə daxil olmaq istəyir.**

**C a v a b:** Bəli, biz – prezident Kuçma, prezident Şevardnadze, prezident Luçinski, prezident Kərimov, bir də Azərbaycan prezidenti Əliyev sırağagün Özbəkistanın Vaşinqtondakı səfirliyində görüşdük. Biz Özbəkistanı GUAM-a üzv qəbul etdik və GUÖAM-ın bugünkü mövqeyi, fikirləri haqqında birgə bəyannamə imzaladıq. Biz hamımız eyni fikirdəydik ki, il yarım bundan öncə Strasburqda yaranmış bu təşkilat özünün bu gün və gələcək üçün vacibliyini və lazımlılığını sübut edibdir. Biz bu təşkilat çərçivəsində gələcəkdə müştərək fəaliyyət göstərmək haqqında bəyannamədə öz fikirlərimizi bildirdik.

**Stiv Rozenfeld:** Cənab prezident, bizə verdiyiniz çox maraqlı müsahibəyə görə təşəkkürümüzü bildiririk.

**Heydər Əliyev:** Sağ olun. Amma suallarınız azdır. Mən sizdən daha çox sual gözləyirdim.

Amma mən bütün suallara cavab verdim. Özü də çox geniş cavab verdim və sizinlə çox açıq danışdım. Güman edirəm ki, siz mənim fikirlərimi tam açıqlığı ilə hiss etdiniz.

Mən sizə xatirə olaraq Azərbaycan–Amerika əlaqələrinə həsr olunmuş kitab və bir də Azərbaycanın NATO ilə əlaqələri haqqında kitab təqdim edirəm.

"Vaşinqton post" qəzeti ilə gələcəkdə sıx əməkdaşlıq etmək istəyirəm və hesab edirəm ki, bizim aramızda yaxşı, səmimi əlaqələr yaranıbdır. Güman edirəm ki, bizim əməkdaşlığımız gələcəkdə də səmərəli, uğurlu olacaqdır.

**Stiv Rozenfeld:** Cənab prezident, çox sağ olun. Sizə dərin minnətdarlığımızı bildiririk. Bizə çox böyük şərəf verdiniz, Sizinlə Bakıda görüşəcəyik.

**Heydər Əliyev:** Bəli, sizi Bakıya dəvət edirəm. Əgər gəlsəniz çox razı qalacaqsınız. Sağ olun. Təşəkkür edirəm.

## MƏŞHUR MÜĞƏNNİ YAQUB ZURUFÇU İLƏ GÖRÜŞDƏKİ* SÖHBƏTDƏN

*Klivlend şəhəri, "Omni" hoteli*
*16 may 1999-cu il*

**Yaqub Zurufçu:** Cənab prezident, Sizinlə görüşmək mənə böyük şərəfdir. Səhhətinizin yaxşı olduğunu görmək isə məni olduqca sevindirir. Mən Sizə bütün dünya azərbaycanlılarının sonsuz məhəbbətini, hörmət və ehtiramını, xoş arzularını çatdırmaq istəyirəm. Sizi xoş əhval-ruhiyyədə görməkdən böyük fərəh duyuram, sevincimin həddi-hüdudu yoxdur.

**Heydər Əliyev:** Çox sağ olun. Sizi görməyimə çox şadam. Xoş sözlərinizə görə də təşəkkürümü bildirirəm.

**Yaqub Zurufçu:** Cənab prezident, biz Sizinlə fəxr edirik. Sizə hörmətimizin, məhəbbətimizin sonu yoxdur. Sizi belə gözəl görməyimdən çox məmnunam. Cərrahiyyə əməliyyatının uğurla nəticələnməsinə görə də Sizi təbrik edirəm.

**Heydər Əliyev:** Səmimi sözlərinə və məni ziyarət etdiyinə görə sənə minnətdaram. Çox sağ ol. Mən də səni çox istəyirəm. O gün səni yada salmışdıq. Erten Paşa ilə "Aman ayrılıq" mahnısını xatırladıq. Dedim ki, o mahnını mən çox eşitmişəm. "Aman ayrılıq" mahnısını Yaqub Zurufçudan başqa ikinci bir oxuyan yoxdur.

**Yaqub Zurufçu:** Sizin söhbətinizi eşitmək mənə xoşdur, cənab prezident. Onu da deyim ki, Sizin müalicənizin uğurla başa çatması Amerikada yaşayan soydaşlarımız tərəfindən böyük sevinclə qarşılanıb. Bu münasibətlə hətta şənliklər də keçirilib. Həmvətənlərimiz Sizə cansağlığı, uzun ömür arzulayırlar.

**Heydər Əliyev:** Çox sağ olun, Sizin sözləriniz mənə böyük məmnunluq gətirir. Çünki mən də həmvətənlərimi, bütün Azərbaycan xalqını, dünyanın hər bir guşəsində yaşayan azərbaycanlıları çox sevirəm.

---

* Görüşdə millət vəkili, ARDNŞ-nin birinci vitse-prezidenti İlham Əliyev, ölkəmizin ABŞ-dakı səfiri Hafiz Paşayev və digər rəsmi şəxslər iştirak edirdilər.

**Y a q u b Z u r u f ç u:** Biz də Sizi çox sevirik, cənab prezident. Allah Sizdən razı olsun. Sənətimə verdiyiniz yüksək qiymətə görə də təşəkkür edirəm. O mahnının kasetini gətirmişəm, hədiyyə olaraq Sizə verirəm. Həmişə ayaq üstə olasınız. Bizim vəzifəmiz öz sahəmiz üzrə yaxşı işləməkdir. (Sonra Yaqub Zurufçu pianino arxasına keçdi və "Aman ayrılıq" mahnısını özünəməxsus ustalıqla ifa etdi).

**H e y d ə r Ə l i y e v:** Çox sağ olun. Siz həmişəki kimi, bəlkə də daha gözəl ifa etdiniz. Təşəkkür edirəm. Həm oxumağınıza, həm də mənə göstərdiyiniz sonsuz hörmət və ehtirama görə. Amerikada yaşayan soydaşlarımıza mənim salamımı və istəyimi çatdırmağınızı xahiş edirəm. Onların həyatı, işi, fəaliyyəti məni həmişə maraqlandırıb. Sizə də, həmvətənlərimə də dərin minnətdarlığımı bildirirəm. Bir daha təşəkkür edirəm. Sağ olun.

**Y a q u b Z u r u f ç u:** Sağ olun, cənab prezident. Var olun.

## MUSTAFA KAMAL ATATÜRKÜN ÇANKAYA KÖŞKÜNDƏKİ EV MUZEYİNDƏ

*24 may 1999-cu il*

...Cənab prezident, Mustafa Kamal Atatürk 56 illik ömrünün xeyli hissəsini bu binada yaşamışdır. 1921-ci ilin əvvəlldrində bu bina Atatürkə hədiyyə edilmişdir. Mustafa Kamal Atatürk bu binanı türk ordusunun balansına vermiş və onu "Ordu köşkü" adlandırmışdır. 1924-cü ildə memar Məhmət Vədat bu binaya bəzi əlavələr etmişdir. Həmin köşkdən 1932-ci ilin iyun ayına qədər Türkiyə Respublikasının ilk prezident iqamətgahı kimi istifadə olunmuşdur. Türkiyə Cümhuriyyətinin tarixində mühüm yer tutan bu bina yeni köşk tikiləndən sonra muzeyə çevrilmişdir.

**Heydər Əliyev:** Bu çox düzgün və dövlət əhəmiyyətli addımdır. Burada nümayiş etdirilən orijinal eksponatlar, çox ustalıqla yaradılmış əsərlər, nəfis şəkildə hazırlanmış əşyalar çox maraqlıdır, çünki onların hər biri Türkiyə Cümhuriyyətinin yaradıcısı Mustafa Kamal Atatürkün əziz xatirəsini yaşadır.

* * *

Muzeyin xatirə kitabına yazdığı ürək sözləri:

"Böyük Mustafa Kamal Atatürkün ev muzeyini qürur hissi ilə ziyarət etdim. Bu, mənim üçün tarixi hadisədir. Muzey Atatürkün həyatının nə qədər sadə və nə qədər də mənalı, zəngin olduğunu gözəl əks etdirir. Atatürkün qurduğu Türkiyə Cümhuriyyəti ona abidə kimi yaşayır. Türk xalqına uğurlar olsun.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
24 may 1999-cu il"

## RUSİYANIN NTV TELEKANALININ MÜXBİRİNƏ MÜSAHİBƏ

*London*
*19 may 1999-cu il*

**S u a l: Cənab prezident, özünüzü necə hiss edirsiniz?**

**C a v a b:** Normal, indi özümü yaxşı hiss edirəm.

**S u a l: Əməliyyat uğurla keçdi?**

**C a v a b:** Əməliyyat çox uğurla keçdi. Əgər mənim üzərimdə cərrahiyyə əməliyyatının aprelin 29-da aparıldığını, bu gün isə mayın 19-u olduğunu nəzərə alsaq, onda hesab edirəm ki, hər şey normal keçmişdir.

**S u a l: Siz Rusiyadakı son dəyişiklikləri, Yevgeni Primakovun istefasını necə qiymətləndirərdiniz? Bu, rusiyalılar üçün ağrılı məsələdir.**

**C a v a b:** Bilirsiniz, nə isə demək mənə çətindir. Əvvəla, ona görə ki, bütün bunlar baş verən vaxtda mən xəstəxanada idim və çox şeyi bilmirdim. Hökumətin istefaya göndərildiyini yeni hökumətdən söhbət getdiyini eşitdikdə mənə məlum oldu ki, Sergey Stepaşinin namizədliyi ortaya çıxmışdır, indi isə deyirlər ki, onun namizədliyini Dumada təsdiq etmişlər. Nə demək olar, Rusiyada nə edilirsə, görünür, Rusiya onları öz milli mənafeləri naminə edir.

**S u a l: Bu, ölkələrimiz arasında münasibətlərə hansı şəkildəsə təsir göstərəcəkmi?**

**C a v a b:** Deməzdim ki, təsir göstərəcəkdir, çünki xarici siyasət xəttini əsasən prezident müəyyənləşdirir. Doğrudur, bu məsələdə hökumətin sədri, xarici işlər nazirliyi də iştirak edirlər. Bir sözlə, Rusiyadakı son dəyişikliklər bizim münasibətlərimizə təsir göstərməyəcəkdir.

**S u a l: Cənab prezident, Qafqaza bələd olan bir insan kimi Siz bu regionda indiki vəziyyəti necə qiymətləndirərdiniz?**

**Necə bilirsiniz, Rusiyaya yeni Baş nazir gəldikdən sonra vəziyyət dəyişəcəkmi?**

**C a v a b:** Əlbəttə, ümid etmək olar ki, nə isə yaxşı olacaqdır.

Hər şeyin birdən-birə dəyişəcəyini söyləmək çətindir, ona görə ki, Qafqazda vəziyyət çox mürəkkəbdir. Sergey Vadimoviç Stepaşin Qafqazla – Çeçenistanla, Dağıstanla və digər Qafqaz respublikaları ilə artıq

neçə illərdir bağlıdır. Fikir vermişəm, təxminən son iki-üç ildə o, nəinki Çeçenistanda, həm də Dağıstanda tez-tez olmuşdur. Dağıstanda vəziyyət çox mürəkkəb idi, bu, bizi də narahat edir. O, vəziyyətə bələddir, onu tanıyırlar, hiss olunur ki, orada adamlar ona meyillidirlər.

Onun xüsusən Dağıstanda gördüyü tədbirlər müəyyən nəticələr vermişdir. Bütün bunları nəzərə alaraq hesab edirəm ki, bunun yaxşılığa doğru əhəmiyyəti olacaqdır.

**S u a l: Bəs bu regiondakı indiki vəziyyəti necə görürsünüz?**

**C a v a b:** Bilirsiniz, bu regionda vəziyyət həmişə mürəkkəbdir. Mən Bakıdan yola düşən vaxtda, yəni təxminən bir ay bundan əvvəl vəziyyət nisbətən sakit idi.

**S u a l: Cənab prezident, Balkan böhranına münasibətiniz necədir? Hesab edirsinizmi ki, bu böhran danışıqlar stolu arxasında həll olunmalıdır? Siz Birləşmiş Ştatlarda oldunuz, orada kimlərlə görüşdünüz, kimlərlə danışıqlar aparıldı? Belqradda yaranmış vəziyyətə Sizin və dövlətinizin münasibəti necədir?**

**C a v a b:** Vaşinqtonda görüşlərim çox oldu. Prezident Bill Klintonla, dövlət katibi Olbraytla, Konqresdə, Senatda bir çox digər adamlarla, nazirlərlə görüşdüm. Biz bu məsələni xüsusi olaraq müzakirə etmədik, bu, NATO-nun 50 illiyini qeyd etməyə gəlmiş ölkələrin yubiley görüşünün müəyyən bir mövzusu idi. Prinsipcə isə, harada olmağından asılı olmayaraq, münasibətim belədir: biz dünyada hər bir ölkənin ərazi bütövlüyünə tərəfdarıq. Bununla bərabər, biz etnik təmizləmənin əleyhinəyik, soyqırımın əleyhinəyik. Miloşeviç isə orada əsilində etnik təmizləmə aparır və neçə illərdir soyqırım törədir. Əlbəttə, buna əsla biganə qalmaq olmaz. Mənim münasibətim bax, belədir.

**S u a l: Rusiyada dəyişikliklərə qayıdıram. Necə bilirsiniz, indi, bütün bu yerdəyişmələrdən, dəyişikliklərdən sonra Balkan böhranı Rusiyanın köməyi ilə həll edilə bilərmi?**

**C a v a b:** Bilirsiniz, – mən bunu Vaşinqtonda da hiss etmişdim, – NATO ilə Rusiya arasında əməkdaşlıq getdikcə inkişaf edir. Mən bunu belə hiss etdim. Hər halda, NATO bu cür əməkdaşlığı çox istəyir. Düşünürəm ki, indi Rusiya da bu böhranın həll olunmasını istəyir və NATO da bu böhranın həll edilməsini istəyir. Zənnimcə, onlar ümumi səylərlə bunu həll edəcəklər.

**S u a l: Siz hesab edirsiniz ki, məsələ əvvəl-axır danışıqlar stolu arxasında həll olunacaqdır?**

**C a v a b:** Sözsüz ki, hər hansı münaqişə, hər hansı böhran hansı yollarla inkişaf etsə də, nəticə etibarı ilə danışıqlar stolu arxasında həll olunur. Hesab edirəm ki, nəticə etibarı ilə belə də olacaqdır.

**S u a l: Siz Amerikadakı görüşləriniz barədə daha ətraflı danışa bilərsinizmi, kimlərlə görüşdünüz?**

**C a v a b:** Görüşlər lap çox oldu. Mən öz səfərimdən, öz görüşlərimdən çox məmnunam. Səfərin məqsədi aydın idi – digər ölkələrin prezidentləri kimi, biz də NATO-nun 50 illiyinə dəvət edilmişdik. Mən oraya bu tədbirlərdən bir neçə gün əvvəl getmişdim və onlardan sonra da bir neçə gün işlərlə məşğul oldum. Prezident Bill Klintonla görüşdüm, onunla söhbət etdim. Dövlət katibi xanım Olbraytla görüşdüm, onunla çox görüşümüz oldu. İkitərəfli münasibətlərimizin problemləri, xüsusən Ermənistan–Azərbaycan münaqişəsinin həlli məsələsi haqqında təkbətək görüşümüz oldu. Sonra o, Qafqaz respublikalarının – mən Cənubi Qafqazı nəzərdə tuturam, – Gürcüstan, Ermənistan, Azərbaycan prezidentlərinin, zənnimcə, faydalı görüşünü təşkil etdi. Görüşdə onunla yanaşı, Almaniya, Fransa, İtaliya, Norveç, Türkiyə və məncə, daha bəzi ölkələrin xarici işlər nazirləri də iştirak edirdilər. Biz regionumuzda sülhün və sakitliyin bərpası naminə Cənubi Qafqazda əməkdaşlığın inkişafı üçün nə kimi işlər görülməli olduğu barədə fikir mübadiləsi apardıq. Hesab edirəm ki, bu, çox faydalı görüş idi.

Görüşdə hamı – prezidentlər də, bütün nazirlər də çıxış etdilər, öz fikirlərini söylədilər. Belə düşünürəm ki, bu, öz nəticələrini verəcəkdir. Sonra xanım Olbrayt Ermənistan prezidenti ilə görüşümüzü təşkil etdi. Biz əvvəlcə üçlükdə görüşdük – xanım Olbrayt, Ermənistan prezidenti və mən. Sonra o, bizi tərk etdi və biz ikilikdə görüşüb çox ətraflı söhbət etdik. Hər halda, Ermənistanla Azərbaycan arasında münaqişənin dincliklə tənzimlənməsi üçün hər iki tərəfdən yollar axtarılır.

Beş il bundan əvvəl biz atəşkəs haqqında saziş imzalamışıq – bu, mayın 12-də olmuşdur. Bu beş il qəti sülhə gəlmək üçün hər halda, kifayətedici müddətdir. Əlbəttə, bundan ötrü əsas prinsiplər var, – onlar xanım Olbraytın çıxışında təsdiqləndi, – Azərbaycanın ərazi bütövlüyü təmin olunmalı, Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş torpaqlar, – onlar isə ərazimizin 20 faizi qədərdir, – azad olunmalı, bu torpaqlardan məcburi köçkün düşmüş, yəni işğal edilmiş rayonların sakinləri öz yaşayış yerlərinə qayıtmalıdırlar və Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində yüksək özünüidarə statusu verilməlidir. Bu prinsiplər ATƏT-in 1996-cı ilin dekabrında keçirilmiş Lissabon zirvə görüşünün

sənədlərində öz əksini tapmışdır. Xanım Olbrayt bu prinsiplər əsasında daha da irəliləməyi təklif etdi. Biz bu təklifi dəstəkləyirik, hesab edirik ki, bu yolla irəliləyə bilərik və nəticələrə nail ola bilərik.

**S u a l: Cənab prezident, axırıncı sual. Başa düşürəm ki, Londona səfəriniz qısamüddətli oldu. Siz burada görüşlər planlaşdırırdınızmı, keçirdinizmi və görüşlər kimlərlə, hansı məsələlər barəsində oldu?**

**C a v a b:** Xeyr, mən burada görüşlər keçirməyi planlaşdırmamışam. Mən sadəcə olaraq yolüstü burada dayandım, axı uçuş məsafəsi hər halda, uzun idi. Sabah Türkiyəyə yola düşürəm. Türkiyə prezidenti, mənim dostum Süleyman Dəmirəl Amerikada müalicəmə çox böyük diqqət və qayğı göstərirdi, məni müalicədən sonra istirahətə dəvət etdi.

Yeri gəlmişkən, deməliyəm ki, Amerikada mənə son dərəcə böyük diqqət göstərirdilər. Prezident cənab Bill Klintonun özü mənə həm telefonla zəng etdi, həm də məktub göndərdi. Mənim bütün müalicəm onun daimi himayəsi, daimi diqqəti altında idi.

Xanım Olbrayt mənimlə bir neçə dəfə telefonla danışdı, vitseprezident cənab Qor mənə məktub göndərdi. Mən orada çox böyük qayğı ilə əhatə olunmuşdum, buna görə onlara çox minnətdaram. Üzərimdə cərrahiyyə əməliyyatı apardıqları və məni müalicə etdikləri klinika çox yüksək səviyyədədir. Cərrah Brüs Laytl son dərəcə istedadlıdır. Hesab edirəm ki, o, cərrahiyyə əməliyyatını uğurla apardı. Orada mənimlə kardioloq Murat Tuzçu məşğul olurdu. Yeri gəlmişkən, bu cavan adam Türkiyədəndir və orada böyük nüfuz qazanmışdır. Bir sözlə, bütün bunlar mənim mümkün qədər tezliklə ayağa qalxmağıma olduqca müsbət təsir göstərirdi.

**M ü x b i r:** Çox sağ olun.

**H e y d ə r Ə l i y e v:** Siz sağ olun ki, televiziyanız mənə belə böyük diqqət yetirir.

* * *

**M ü x b i r:** Cənab prezident, biz Sizə həmişə böyük hörmət bəsləyirik. Sizə möhkəm cansağlığı və fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq. Prezident Heydər Əliyev kimi görkəmli dövlət xadimi ilə görüşməyi özüm üçün böyük şərəf sayıram, NTV telekanalı Sizin fəaliyyətinizə həmişə böyük diqqət yetirir.

***Müsahibəni Rusiyanın***
***NTV telekanalının müxbiri***
***Andrey Çerkasov aparmışdır***

## Bİ-Bİ-Sİ RADİOSUNUN MÜXBİRİNƏ MÜSAHİBƏ

*London*
*20 may 1999-cu il*

**S u a l: Cənab prezident, xahiş edirəm mənim təbrikimi qəbul edəsiniz. Özü də bu, ikiqat təbrikdir. Çünki Siz taleyin yeni bir sınağından uğurla çıxmısınız. Digər tərəfdən isə Sizi Türkiyədə Mustafa Kamal Atatürk adına beynəlxalq sülh mükafatı gözləyir. Siz bu mükafatı nə zaman qəbul etməyə hazırsınız?**

**C a v a b:** Sağ olun. Sizin təbrikinizə görə təşəkkür edirəm. Minnətdaram. Mən bu gün Türkiyəyə gedirəm. Türkiyənin proqramına görə, onlarda qəbul olunmuş qanuna görə, Mustafa Kamal Atatürk adına beynəlxalq sülh mükafatı mayın 19-da verilir. Çünki 19 may Mustafa Kamal Atatürkün Samsundan yürüşə, vuruşa başlaması günüdür. Bu bayramdır. Ancaq mən o günə çatdıra bilmədim. Görünür ki, müəyyən bir gün təyin olunacaq və mükafat mənə veriləcəkdir. Əsas mükafatla təltif olunmaqdır, onun hansı vaxtda alınması o qədər də əhəmiyyətli deyildir.

**S u a l: Cənab prezident, Sizin Amerikada Robert Koçaryanla görüşünüz olub və həmin görüşdən sonra Ermənistan prezidenti bizim Vaşinqtondakı müxbirimizə deyib ki, ümumiyyətlə, bu görüşlər çox səmərəli keçibdir. Çünki artıq bu görüşdən sonra o, prezident Heydər Əliyevi daha yaxşı başa düşür. Siz həmin görüşdən hansı nəticəni çıxartdınız?**

**C a v a b:** Mən də bu görüşün əhəmiyyətli və səmərəli olduğunu təsdiq edirəm. Mən də belə fikirdəyəm. Mən Robert Koçaryanla 1994-cü ildə bir neçə dəfə görüşmüşəm və o, Ermənistanın prezidenti seçiləndən sonra da bizim onunla Moskvada iki dəfə görüşlərimiz olubdur. Ancaq Vaşinqtondakı görüş daha da səmərəlidir və görünür ki, o, məni daha yaxşı tanıdığı kimi, mən də onu daha yaxşı tanıyıram. Yəni tanımaq imkanı əldə edirəm və bunlar da ümid verir ki, biz danışıqlarda müəyyən qədər irəliyə gedə bilərik.

**S u a l: Cənab prezident, Siz Bakıdan çıxandan sonra bir müddətdir ki, Azərbaycanda hansısa mənada hakimiyyət boşluğu hiss olunur. Yəni baxmayaraq ki, Siz kənardasınız, ölkədən xaricdəsiniz, əlbəttə, əminəm ki,**

**Siz bütün problemləri və məsələləri nəzərdən keçirirsiniz. Amma bizim dinləyicilər və bir çox insanlar, mütəxəssislər Bakıda hiss edirlər və deyirlər ki, bəlkə prezident vəzifəsinin hansısa bir hissəsini Konstitusiyaya müvafiq şəkildə kiməsə həvalə etsəydi, bu, Azərbaycanda siyasi vəziyyətin yaxşılaşmasına və səmərəli şəkildə inkişafına kömək edərdi.**

**C a v a b:** Sizin dediyiniz o sözlər, – yəni bilmirəm bu, öz sözünüzdür, yaxud da sizin dinləyicilərin sözləridir, – onlar səhvdir. Azərbaycanda qətiyyən hakimiyyət boşluğu yoxdur. Hakimiyyət tam yerindədir. Mən Amerika Birləşmiş Ştatlarına rəsmi işdən ötrü getmişdim. Bir həftədən çox bu işlərlə məşğul olmuşam. Bundan sonra cərrahiyyə əməliyyatı keçirilən zaman mənim cəmi bir gün Bakı ilə, Azərbaycanla əlaqəm olmayıbdır. Qalan vaxtlar həmişə əlaqələrim olubdur. Öz vəzifələrini yerinə yetirənlərlə mütəmadi telefon əlaqələrim vardır. Lazım olan məsələləri mənimlə məsləhətləşirlər, mən lazım olan göstərişləri verirəm. Onu qeyd edə bilərəm ki, mən 1993-cü ildən, Azərbaycana rəhbərlik etdiyim dövrdən indiyə qədər demək olar ki, bu qədər uzun müddətdə ölkədən kənarda olmamışdım. Ancaq bu, eyni zamanda mənim üçün sınaq oldu və bizim ölkəmiz üçün də sınaq oldu ki, demək, mən bəlkə bundan artıq, uzun müddət də ölkədən kənarda ola bilərəm. Bizim hakimiyyət artıq çox mütəşəkkildir. Hərə öz işi ilə məşğuldur, hərə öz işini aparır və mən deyə bilərəm ki, bu bir ay müddətində Azərbaycanda heç bir sahədə hansısa bir zəiflik yoxdur.

Mən hər gün Milli Məclisin sədri ilə, Baş nazirlə, Prezident Aparatının başçısı ilə, nazirlərin çoxu ilə, Bakı Şəhər İcra Hakimiyyəti ilə telefon əlaqəsi saxlayıram. Onlar mənə məruzə edirlər və hər dəfə də mənə işlərin yaxşı getdiyini deyirlər. Mən bir onların məruzəsindən yox, başqa yerdən aldığım məlumatlara görə də hesab edirəm ki, bu, elə bizim ən böyük nailiyyətlərimizdəndir. Yəni Azərbaycanda artıq sabitlik yaranıbdır, istiqrar yaranıbdır, ictimai-siyasi sabitlik möhkəmdir, əsaslıdır və onu pozmaq, dəyişdirmək mümkün deyildir. Bu xəstəlik mənim üçün xəstəlik oldu, eyni zamanda ümumi dövlət işimizdə müəyyən bir sınaq dövrü oldu. Bu sınaqdan da biz çox gözəl çıxırıq.

**Müxbir:** Çox gözəl. Cənab prezident, Sizə təşəkkür edirəm.

**Heydər Əliyev:** Sağ olun. Mən də sənə təşəkkür edirəm.

***Müsahibəni Bi-Bi-Si radiosunun müxbiri, Famil İsmayılov aparmışdır***

## TÜRKİYƏNİN "NƏRGİZ-TV" TELEKANALININ MÜXBİRİNƏ MÜSAHİBƏ

*Ankara, Çankaya köşkü*
*23 may 1999-cu il*

**S u a l:** Cənab Əliyev, "Atatürk Beynəlxalq Sülh Mükafatı"na bu il Siz layiq görüldünüz. Bu, Türkiyədə böyük önəmə malik olan bir mükafatdır. Hansı hissləri keçirirsiniz?

**C a v a b:** Çox böyük qürur hiss edirəm. Çünki, həqiqətən, Atatürk adına Beynəlxalq Sülh Mükafatı Türkiyə Cümhuriyyətinin ən yüksək mükafatlarından biridir. Ancaq eyni zamanda bu mükafat mənim üçün əzizdir ona görə ki, Mustafa Kamal Atatürkün xatirəsinə təsis olunubdur və onun adını daşıyır. Mustafa Kamal Atatürk XX əsrdə dünyanın ən böyük şəxsiyyətlərindən biridir, Türkiyə Cümhuriyyətini quran, qurtuluş savaşında qalib gələn, Türkiyə Cümhuriyyətini yaşadan bir şəxsiyyətdir. O, elə bir cümhuriyyət yaradıbdır ki, ölümündən 60 il keçəndən sonra da yaşayır, Türkiyəni dünyanın böyük, qüdrətli, iqtisadi cəhətdən zəngin dövlətlərindən biri edibdir.

Mən çox məmnunam ki, Türkiyə xalqı, Türkiyə Cümhuriyyəti Mustafa Kamal Atatürkün yolu ilə gedir. Mustafa Kamal Atatürk bizlər üçün qəhrəmanlıq rəmzidir, müdriklik rəmzidir, dövlətçilik rəmzidir, demokratiya rəmzidir. Bütün bunlara görə də iftixar edirəm ki, mənə Türkiyə Cümhuriyyətinin belə bir mükafatını almaq nəsib olubdur.

Mən həyatımda çox mükafatlar almışam. Keçmişdə yaşadığımız Sovetlər Birliyi kimi böyük dövlətin ən yüksək mükafatlarını almışam. Başqa dövlətlərin də mükafatlarını almışam. Ancaq bu mükafat – Atatürk adına Beynəlxalq Sülh Mükafatı mənim üçün hamısından əziz, indiyə qədər aldığım bütün mükafatlardan üstündür.

**S u a l:** Cənab prezident, Siz dünyanın bu bölgəsindəki siyasəti uzun illərdən bəri ən fəal şəkildə həyata keçirən, daim siyasətçilərin içində olan bir insansınız. XX əsrin son ilini yaşayırıq. Sizcə, bölgəmizdəki siyasətlər, güc əməliyyatları necə olacaqdır? Rusiyadakı, Balkandakı, Qafqazdakı vəziyyət və s. barədə Sizin fikirlərinizi bilmək istərdik.

**C a v a b:** Əzizim, bu, çox böyük bir mövzudur. Buna qısa cavab vermək mümkün deyildir. Buna cavab vermək üçün gərək 15-20 dəqiqə danışasan. Amma qısa olaraq onu demək istəyirəm ki, XX əsrin son onilliyi dünya üçün çox böyük dəyişikliklər illəri, dövrü olmuşdur.

Birincisi, soyuq müharibə bitmiş, Sovetlər Birliyi dağılmış, Varşava paktı, müqaviləsi, yəni Sovetlər Birliyi ilə bərabər, Avropanın bir neçə sosialist ölkəsinin NATO-ya qarşı yaratdığı əsgəri iş birliyi dağılmışdır. Ən önəmli də odur ki, Sovetlər Birliyinin içində olan 15 cümhuriyyət öz istiqlaliyyətinə nail olmuş, dövlət müstəqilliyini əldə etmişdir. Bu, xüsusən bizim Azərbaycan üçün çox əhəmiyyətlidir, önəmlidir. Azərbaycanın XX əsrin ərzində ikinci dəfə istiqlaliyyət alması, ancaq birincidən fərqli olaraq bu dəfə istiqlaliyyəti qoruyub saxlaması Azərbaycan xalqı üçün tarixi bir hadisədir. Sonra baş verən hadisələr, Balkanlarda olan hadisələr, Avropada olan hadisələr – bu təbiidir. Çünki bir çox sistemlər dağılmış və xalqlar daha da çox istiqlaliyyət əldə etmək istəmişlər. Bunlar hamısı da bəzi dəyişikliklərə gətirib çıxarmışdır. Mən hesab edirəm ki, əgər böyük dünya tarixini götürsək, bu dövr tarixi cəhətdən önəmli bir dövrdür.

**S u a l:** Cənab prezident, iyun ayında Azərbaycanda türkdilli ölkələrin prezidentlərinin zirvə toplantısı keçiriləcəkdir. Bu zirvə toplantısının əhəmiyyəti nədən ibarətdir?

**C a v a b:** Bilirsiniz, türkdilli dövlətlərin birliyi 1992-ci ildə yaranıbdır. Bunun yaranmasının təşəbbüskarı Türkiyədir, Türkiyənin cümhur başqanı, mənim əziz dostum, qardaşım, hörmətli Süleyman Dəmirəldir və Türkiyənin sabiq cümhur başqanı mərhum Turqut Özaldır. Bu da tarixi bir hadisədir, XX əsrin sonunda dünya tarixinə yazılası bir işdir. Çünki türk xalqları, türkdilli dövlətlər əsrlər boyu bir-birindən ayrı düşmüşlər.

Bu dövlətlərin Türkiyədən başqa heç birinin istiqlaliyyəti olmamışdır. Ancaq bu türkdilli dövlətlər, cümhuriyyətlər istiqlal əldə etdilər və 1991-ci ilin sonunda istiqlaliyyət əldə edən kimi, bir neçə aydan sonra – 1992-ci ildə türkdilli dövlətlərin birliyinin əsası qoyuldu, yarandı. Artıq 7 ildir ki, bu birlik, bu qurum yaşayır və mən Azərbaycanın prezidenti kimi, 1993-cü ildən bu qurumun iştirakçısıyam. İlbəil, yəni hər ildən-ilə bu dövlətlərin iş birliyinin daha da genişlənməsi müşahidə olunur. Buna görə də türkdilli dövlətlərin başçılarının zirvə görüşü hər il bir ölkədə keçirilir. Bu il növbə Azərbaycanındır.

Zirvə görüşümüz iyun ayının 14-də keçiriləcəkdir və güman edirəm ki, bu görüş də türkdilli dövlətlərin inkişafı üçün, gələcək istiqbalı üçün çox önəmli olacaqdır.

Bu görüşün böyük əhəmiyyəti, önəmi bir də ondan ibarətdir ki, iyun ayının 15-də bizim hamımızın müştərək milli sərvəti olan "Kitabi–Dədə Qorqud"un 1300 illiyini biz Azərbaycanda yubiley edəcəyik. Türkdilli dövlətlərin başçılarının hamısı bir yerə toplaşaraq tarixi köklərimizə bir daha hörmətimizi və minnətdarlığımızı bildirəcəyik və "Kitabi–Dədə Qorqud"un 1300 illiyini qeyd edəcəyik. Bunlar çox önəmlidir.

**S u a l:** Cənab prezident, keçmiş 15 sovet ölkəsinin, o cümlədən müstəqillik qazanan ölkələrdən biri kimi, Azərbaycanın inkişafı üçün iqtisadiyyatın inkişafının böyük rolu vardır. Bu baxımdan Xəzər neftinin dünya bazarına çıxardılması ilə və Bakı–Ceyhan layihəsinin həyata keçirilməsi ilə bağlı işlər necə gedir?

**C a v a b:** Bunlar çox yaxşı gedir. Biz – Azərbaycan, tarixi bir iş görmüşük. 1994-cü ildə böyük bir müqavilə imzaladıq – 7 ölkəyə mənsub olan 11 böyük neft şirkətinin yaratdığı konsorsiumla anlaşma, müqavilə imzaladıq. Bu müqaviləyə görə Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" və "Günəşli" zəngin neft yataqlarından neftin çıxarılması və dünya bazarlarına daşınması nəzərdə tutulmuşdur. Müqavilənin müddəti 30 ildir və bu müqaviləni həyata keçirmək üçün 8 milyard dollar yatırım, sərmayə planlaşdırılmışdır.

Bununla biz Xəzər dənizini dünyaya açdıq. Xəzər dənizinin çox zəngin təbii sərvətləri – nefti və qazı vardır. Biz bunun təkcə Azərbaycan üçün yox, təkcə bu bölgədə olan ölkələr üçün yox, dünya ölkələri üçün də istifadə olunmasının əsasını, təməlini qoyduq. O müqavilədən sonra Xəzər dənizi dünyanın bütün ölkələrinin diqqətini cəlb etdi. Bu, dünyanın ən zəngin neft, qaz bölgələrindən birinə çevrildi. Yəni bunlar var idi, amma biz bunu dünya üçün açdıq, anlatdıq və böyük neft şirkətləri Azərbaycana gəldilər, yeni-yeni təkliflər irəli sürdülər və 1994– cü ildən indiyə qədər, – sentyabr ayında 5 ili tamam olacaqdır, – biz 19 müqavilə, anlaşma imzalamışıq. Bunların da hamısında Azərbaycan Cümhuriyyətinə təxminən 50 milyard dollar sərmayə qoyulması nəzərdə tutulubdur.

Biz 1994-cü ildə "Əsrin müqaviləsi"ni imzalayarkən o müqavilədə yazılıbdır ki, bu nefti ixrac etmək üçün, dünya bazarlarına çıxarmaq üçün ilkin neftin ixracı üzrə boru xətti yaratmaq lazımdır. Ancaq böyük neftin ixracı üçün əsas neft boru xətti yaratmaq lazımdır. Bu da Bakı–Ceyhandır.

Ötən illər ərzində biz iki neft boru xətti yaratdıq. Biri Bakı–Novorossiysk xəttidir. Rusiyanın Qara dənizdə olan Novorossiysk limanına gedən xətti biz 1997-ci ilin noyabr ayında açdıq. Çünki biz "Çıraq" yatağından neftin çıxarılmasına nail olduq və həmin boru ilə nefti ixrac edirik. Ancaq biz alternativ, ikinci xəttin, boru kəmərinin də tikilməsini lüzumlu bildik və ona da başladıq.

Bu il aprel ayının 17-də biz Gürcüstanın Qara dənizdəki Supsa limanına gedən Bakı–Supsa boru xəttini də açdıq. Neft artıq oradan da dünya bazarlarına ixrac olunur. Ancaq ən böyük neft, əsas neft Bakı–Ceyhan boru xətti ilə getməlidir. Biz dörd ildir çalışırıq ki, Bakı–Ceyhan boru xəttini reallaşdıraq. Bunun qarşısına çox çıxdılar. Yəni guya bu, lazım deyil. Bəzi neft şirkətləri, konsorsiumda olanlar, digər ölkələr neftin buradan, Türkiyədən və Ağ dənizə getməsinin əleyhinə olaraq, başqa yollarla getməsini lüzumlu hesab edərək, tələb edərək Bakı–Ceyhan boru xəttinin qarşısına çıxdılar, buna çox maneələr etdilər, müxtəlif təbliğatlar apardılar və s. Ancaq biz bunların hamısının qarşısını aldıq.

1994-cü ildə qəbul etdiyimiz qərarı biz ardıcıl surətdə yerinə yetiririk və Azərbaycan burada da öz iradəsini göstərdi. Burada da Türkiyə ilə Azərbaycanın iş birliyi üçün 1994-cü ildə biz bəyan etdiyimiz Bakı–Ceyhan boru xəttinin tikilməsi, reallaşdırılması üçün hər cür tədbirləri gördük və nəticə də aldıq. Nəticə də ondan ibarətdir ki, keçən il oktyabr ayının 29-da Türkiyə Cümhuriyyətinin 75 illik yubileyində biz burada, Ankarada böyük bir anlaşma imzaladıq. Bu anlaşmanı Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan, Özbəkistan imzaladılar ki, yəni Qazaxıstan da, Özbəkistan da öz neftini bu boru xətti ilə nəql edəcək və Azərbaycan bütün nefti bu xətt ilə keçirəcəkdir.

Bu, Gürcüstanın ərazisindən də keçəcək, Türkiyədən Ağ dənizə gedəcəkdir. Ancaq yenə də bizim o konsorsiumda bunun əleyhinə çıxanlar var idi – guya bunun çox baha olduğunu söyləyirdilər.

Bir neçə aydır ki, biz bu barədə danışıqlar aparırıq və Türkiyə ilə Azərbaycan arasında çox böyük tədbirlər, yəni ilişkilər gedir.

Nəhayət, onlara da anlatdıq və güman edirəm ki, yaxın vaxtlarda son qərar qəbul olunacaq və Bakı–Ceyhan neft boru xəttinin tikilməsinə başlanacaqdır.

**S u a l:** Cənab prezident, hazırda bu qərarın qarşısını alan əngəl varmı və varsa, hansıdır?

**C a v a b:** Elə bir əngəl yoxdur. Sadəcə, burada Türkiyənin hökuməti də gərək bəzi şeyləri həll etsin. Çünki o vaxtkı konsorsiumun içində

olan şirkətlər bəyan etdilər ki, Bakı–Ceyhan boru xəttinin çəkilişi bahadır, bunun dəyəri 3,7 milyard dollardır. Ancaq sonra Türkiyə də bu işə çox qatıldı, Amerika bu işə çox dəstək verdi və araşdırmalar aparıldı. Sübut olundu ki, yox, bu, doğru rəqəm deyildir. Bunun təxminən 2,7 milyard dollar, ya ondan da az olması artıq sübut, isbat edildi. Bunların hamısı, yəni bəzi maliyyə, texniki məsələlər çözülməlidir. Başqa bir şey yoxdur.

**M ü x b i r:** Cənab prezident, mənim soruşmaq istədiklərim bu qədər. Sizin söyləmək istədiyiniz fikir varsa, buyurun.

**H e y d ə r Ə l i y e v:** Sağ olun. Mən sizə təşəkkür edirəm. “Nərgiz–TV” kanalı çox gözəl bir kanaldır. Bilirsiniz ki, bu, Azərbaycanda da yayımlanır və onu Azərbaycanda da çox məmnuniyyətlə seyr edirlər. Mən heç unutmaram ki, 1997-ci ildə sizin apardığınız sorğulara görə Türkiyənin “NTV” televiziya kanalı Azərbaycanın prezidentini, cümhur başqanını “dünyanın siyasət adamı” kimi qiymətləndirdi, İstanbulda gözəl bir mərasim keçirildi və mənə mükafat verildi. Mən bunu çox yüksək qiymətləndirirəm.

Mən Türkiyənin “NTV” kanalına uğurlar, müvəffəqiyyətlər diləyirəm. “Nərgiz – TV”nin seyrçilərinə də, bütün Türkiyə vətəndaşlarına da uğurlar, sülh, əmin-amanlıq, rifah və gözəl istiqbal, gələcək arzulayıram. Mənim ürəkdən gələn salamlarımı bütün Türkiyənin vətəndaşlarına çatdırmağınızı rica edirəm. Sağ olun.

Müsahibəni Türkiyənin “Nərgiz–TV” televiziyasının Ankaradakı təmsilçisi Murat Yetrin aparmışdır

## MƏŞHUR RUSİYA RƏSSAMI NİKAS SAFRONOV İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Prezident sarayı*
*29 iyun 1999-cu il*

**Heydər Əliyev:** Azərbaycana xoş gəlmişsiniz, Nikas Safronov. Sizin Gəncə və Lahıç səfəriniz barədə mənə məlumat verdilər. Səfər xoşunuza gəldimi?

**Nikas Safronov:** Sizinlə görüşdüyümə çox şadam, hörmətli cənab prezident. Gəncə və Lahıca səfərlərim zamanı məni valeh edən Azərbaycanın qəlbi riqqətə gətirən təbiəti oldu. Bu təbiətdə dünyanın bütün möcuzələri var. Orada elə nadir guşələr gördüm ki, onları heç nə ilə müqayisə etmək mümkün deyil.

**Heydər Əliyev:** Azərbaycanımız doğrudan da gözəldir.

Bu gözəlliyi Sizin kimi kamil rəssamın öz gözləri ilə görməsi və qiymətləndirməsi bir azərbaycanlı kimi mənə xoşdur.

**Nikas Safronov:** Azərbaycanın dövləti kimi xalqı da gözəldir, həm də çox sadəlövhdür. Heç zaman olub-qalanı ilə öyünmür, deyir ki, olanı budur. Azərbaycan xalqı böyük xalqdır.

**Heydər Əliyev:** Azərbaycan xalqı son dərəcə təvazökarlığı ilə fərqlənən bir xalqdır. Biz heç vaxt öyünən deyilik və əsrlərdən bəri belə olmuşdur. Biz öz məziyyətlərimizi göstərə bilmirik, bəzən də hətta onları gizlədirik. Bu, xalqımıza xas xüsusiyyətdir, nə etmək olar. Mən uzun illər ərzində çalışmışam ki, adamlarımız Azərbaycanı daha fəal təmsil etsinlər, xalqın, ölkənin məziyyətlərini göstərsinlər. Buna baxmayaraq, xasiyyət xasiyyət olaraq qalır.

**Nikas Safronov:** Bilirsiniz, mən Azərbaycanda bir daha olmağımdan xoşbəxtəm, özümün bütün asudə vaxtımı burada keçirmək, adi bir qonaq yox, Azərbaycanın tam hüquqlu sakini olmaq istərdim.

Bu mümkündür. Lakin Nikas Safronova səfəri zamanı görüşüb tanış olduğu adamlar daha böyük təəssürat bağışlamışdır. Onlar rəssamın prezidentimizlə tanışlığından xəbər tutduqda dövlətimizin başçısına ən xoş arzularını yetirməyi, onun əlini sıxmağı xahiş etmişlər. Nikas Safronovun Lahıcda görüşdüyü adamlar oraya çəkilmiş yola görə

prezident Heydər Əliyevə onların minnətdarlığını çatdırmağı xahiş ediblər.

**Heydər Əliyev:** Bəli, bir vaxtlar mən oraya yol çəkdirdim, körpü saldırdım. Bu, tarixi hadisədir və 70-ci illərin axırlarında – 80-ci illərin əvvəllərində olmuşdur.

**Nikas Safronov:** Cənab prezident, icazə verin ömür-gün yoldaşınız mərhum Zərifə xanım Əliyevanın portretini Sizə təqdim edim.

Mən çox materialları nəzərdən keçirmişəm, çünki Zərifə xanımla şəxsən tanış deyildim. Zərifə xanımın sifətinin cizgilərindən görünür ki, Sizin birgə ömür-gün sürdüyünüz illər ərzində onun siması get-gedə daha gözəl və daha nəcib olmuşdur. Əvvəla, gözləri olduqca gözəldir, mən onları bir qədər kədərli, onun özünü isə hamının qeydinə qalan bir mələk kimi təsvir etmişəm. Bunlar tanış olduğum materiallardan aldığım şəxsi təəssüratımdır. Arxa planda dağlar təsvir olunmuşdur.

Ümidvaram ki, vaxt ötdükcə Siz bu portretə öyrəşəcəksiniz.

**Heydər Əliyev:** Bəri başdan deyim ki, Siz yaxşı portret çəkmisiniz. Ona görə yaxşı deyirəm ki, şübhəsiz, insan yaşa dolduqca dəyişir, Zərifə xanım da dünyasını dəyişməzdən bir neçə il əvvəl təxminən belə görünürdü. Bir sözlə, Siz bu məqamı həssaslıqla tutmusunuz. Lakin ən başlıcası budur ki, Siz onun xarakterini canlandırmağa müvəffəq olmusunuz. Tam oxşarlıq var. Özü də məsələ təkcə oxşarlıqda deyil, obrazdadır.

Siz onun obrazını çox yaxşı təsvir etmisiniz.

**Nikas Safronov:** Mən Zərifə xanımın portretini, zənnim məni aldatmırsa, onun xoşladığı paltarda çəkmişəm, çünki o, həmin paltarı tez-tez geyinərdi.

**Heydər Əliyev:** O, geyimini dəyişməyi çox da xoşlamırdı, heç vaxt bəzək-düzəyi sevmirdi. Bəzi qadınlardan fərqli olaraq o, həmişə çox sadə geyinirdi. Yeri gəlmişkən, onun bir çox gözəl keyfiyyətləri ilə yanaşı, birgə ömür sürdüyümüz dövrdə mənim üçün ən mühüm xüsusiyyətlərdən biri onun hər cəhətdən təvazökar olması idi. Buna görə onun paltarı da sadə idi. Siz bu xüsusiyyəti düzgün sezmisiniz. Portret çox uğurlu alınmışdır.

Mən onun üzündə nə isə bir qüssə-kədər də sezirəm. Pozanı da düzgün müəyyənləşdirmisiniz. Yaxşıdır. Sağ olun. Əlbəttə, mən bunu gözləmirdim, bilmirdim ki, Siz bu portreti çəkirsiniz.

Lakin Siz bu portreti yaratmısınız.

**Nikas Safronov:** Sizinlə hər bir görüş mənim üçün çox böyük şərəfdir. Mən bütün rəsmlərimi Sizə hədiyyə etməyə hazıram. Bir dəfə haqqı-

nızda demişdim ki, Sizin kimi insanlar dünyaya yüz ildə bir dəfə gəlirlər. Amma sonra anladım ki, belə insanlar min ildə bir dəfə doğulurlar. Mənim üçün böyük şərəfdir ki, Sizinlə şəxsən tanışam. Sizin xalqınızla və mənim xalqımla bağlı həyata keçirmək istədiyim yeni planlar barəsində hər dəfə məmnunluqla düşünürəm. Sizin adamlarınızdan biri nə vaxtsa mənə demişdir ki, biz ikinci sağlığı həmişə Heydər Əliyeviçin şərəfinə qaldırırıq. Mən də dedim ki, bilirsiniz, mən bunu özümə bir qayda edəcək, həmişə və hər yerdə birinci sağlığı Heydər Əliyeviçin şərəfinə qaldıracağam.

İndi isə öz rəsmlərimin illüstrasiyalarından ibarət albomu, Sizin nəvənizin fotoşəkilləri əks olunmuş sanballı jurnalları, mənim Azərbaycanın rayonlarına səfərim zamanı insanların Azərbaycan rəhbərinə çatdırmaq istədikləri hədiyyələri təqdim edirəm.

**Heydər Əliyev:** Təşəkkürümü bildirirəm, bunlar mənim üçün çox qiymətli hədiyyələrdir, çünki bu hədiyyələri sadə insanlar ürəkdən hazırlamışlar.

**Nikas Safronov:** Elə mən də xalqın gözəlliyini qiymətləndirdiyimi qeyd etmək istəyirdim. Xalq Sizi rəsmi, vəzifə sahibi olan bir şəxs kimi deyil, ürəkdən sevib bağlı olduğu bir insan kimi qəbul edir. Bizim Sizinlə görüşəcəyimizdən xəbər tutan hər bir adam Sizə kiçik hədiyyələr göndərir və deyirdi ki, əgər gəlsəniz, Sizi çox böyük hədiyyə gözləyir. Onlar deyirdilər ki, Sizin çəkdirdiyiniz yol bir qədər xarab olmuşdur, lakin biz onu öz əllərimizlə düzəldib qaydaya salacağıq.

Cənab prezident, bir qadının adından da bu yun corabı Sizə verirəm. Bunu həmin qadın Azərbaycan prezidentinin sağlamlığının qayğısına qalaraq özü toxumuşdur.

**Heydər Əliyev:** Son dərəcə mütəəssir oldum. Çox qiymətli hədiyyədir, çünki bu corabı onun özü toxumuşdur. Bu hədiyyə məni təsirləndirir, çünki o, tanımadığım bir insanın mənə qayğısıdır. Mən çox təsirləndim.

**Nikas Safronov:** İndi isə Gəncədəki rus kilsəsinə ziyarətimdən danışmaq istəyirəm. Orada Mariya adlı bir qadın var. Onun sayəsində kilsə çox yaxşı vəziyyətdədir. Rusiyada belə şeyə rast gəlməzsən. Bu kilsədə hər şey – ikonalar, divar rəsmləri qorunub saxlanmışdır, hər şey tərtəmizdir, kilsəni sanki dünən tikmişlər, halbuki onun 200 ildən artıq yaşı var. O qadın öz məhəbbətini, rəğbətini Sizə çatdırmağı xahiş edərək deyib:

“Biz Sizə minnətdarıq ki, burada hər şeyimiz var, heç kəs bizə dəyib-toxunmur, biz Sizi sevirik, Sizə minnətdarıq”. O qadın əlimi öpüb

xahiş etdi ki, mən bu sözləri Sizə çatdırım. Bu epizod fotoşəkildə də əks olunmuşdur.

Bu isə Sizin 1998-ci ildə Gəncə parkında əkdiyiniz ağacın fotoşəklidir. Bunu Sizə verərək bildirmək istəyirəm ki, park səliqə-səhman içində, yaxşı vəziyyətdədir.

**Heydər Əliyev:** Təxminən 30 il bundan əvvəl, mən respublikanın rəhbərliyinə gələndə bir çox digər məsələlərlə yanaşı, Bakı şəhərinin yaşıllaşdırılması məsələsinə də möhkəm girişdim. İndi görürsünüz ki, Bakı yaşıllıq içindədir. Halbuki 30 il bundan əvvəl belə deyildi. Bakının mərkəzi küçələrində az ağac vardı, kənarlarda isə yaşıllıq, demək olar, yox idi. Mən bu işə girişdim. Aradan 30 il keçmişdir və indi Bakı yaşıllıq içindədir. Bu günlərdə yeni tikililər rayonunda bir klinikanın açılışına getmişdim, ətrafa nəzər saldım. Gördüm ki, ilahi, nə qədər ağac var, sanki bütöv bir meşədir! Yaşıllaşdırma hərəkatı Azərbaycanın digər rayonlarına da yayıldı. Əlbəttə, Lahıcda heç nə əkmək lazım deyildir.

Yaxud götürək Lənkəran zonasını – orada da ağac əkməyə ehtiyac yoxdur. Amma bizdə meşəsiz yerlər var. Misal üçün. Gəncə öz qədim çinarları ilə məşhurdur. Bununla bərabər, biz tikinti işləri aparıb Gəncəni abadlaşdırırdıq, deməli, evlər ucaltmaqla yanaşı, parklar da salmaq lazım gəlirdi. Bax, biz belə bir park saldıq. Əgər indi o, yaxşı vəziyyətdədirsə, mən bundan məmnunam.

**Nikas Safronov:** Puşkinin yubileyi ilə əlaqədar Gəncədə görülmüş işlər də xoşuma gəldi. Biz universitetdə olduq, orada gimnaziya var, yerli rəssamlar gimnaziyanın divarlarında rəsmlər çəkiblər. Onlar bu kitabı Sizə çatdırmağı xahiş etdilər.

Əyalətə getməyi məsləhət gördüyünüzə görə Sizə minnətdaram. Ən diqqətəlayiq hal budur ki, xalq Sizi sevir. Bu, xüsusilə əlamətdar bir haldır. Mən çox məmnunam. Bir dəfə məndən soruşdular ki, harada yaşamaq istərdim?

Dedim ki, İsveçrədə, bədəbəddə Şotlandiyada, öz qəsrimdə yaşamaq istərdim. Ancaq bu yaxınlarda dedim ki, yaşamaq istədiyim yeganə bir yer varsa, o da Azərbaycanın hər hansı bir əyaləti, dağlar qoynunda yerləşən kiçik bir qəsəbədir; elə bir guşə ki, orada göl olsun, sadəcə istirahət etmək və təmiz hava ilə nəfəs almaq mümkün olsun. Mən Lahıçda bir qocadan soruşdum ki, neçə yaşın var, cavab verdi ki, oğlum, bilmirəm, amma gərək ki, 100-120 yaşım var. Zənnimcə, orada insanlar özlərinə məxsus ömür sürürlər, Sizi unutmur, tanıyır və çox sevirlər.

**Arif Babayev** (Ulyanovsk Vilayət İcra Hakimiyyətinin nümayəndəsi, Ulyanovsk vilayətindəki azərbaycanlıların "Nizami" cəmiyyətinin vitse-prezidenti): İcazə verin söhbətə qoşularaq deyim ki, biz yol gələrkən mən bu kitabı Nikasa göstərdim, onu mənə Sizin rəhmətlik qardaşınız Həsən Əliyev bağışlamışdır. Allah ona rəhmət eləsin. O, təbiətin məşhur qoruyucusu, akademik idi. Mən onun mühazirələrində tez-tez olurdum. Yadımdadır, o, bizə həmişə deyərdi və elə indi Nikas da belə bir qənaətə gəldi ki, Azərbaycanın təbiəti ilə müqayisədə İsveçrə bir şey deyildir. Həsən müəllim çox maraqlı ideyalar irəli sürürdü. O, çox təvazökar bir insan idi. Respublikada Sizin belə yüksək vəzifə tutmağınıza, yüksək nüfuzunuzun olmasına baxmayaraq, o, tələbələrlə, insanlarla özünü çox sadə aparırdı.

Deyirdi ki, adamları xaricə göndərməzdən, – o vaxtlar biz buna çox aludə idik, – əvvəlcə öz diyarımızı tanımalıyıq. Heydər Əlirza oğlu, demək istəyirəm ki, Nikasın buraya gəlməsi barədə fikir yarandıqda, sözün düzü, ona ölkəmiz haqqında, Sizin haqqınızda danışarkən düşündüm ki, bu görüş iki dahinin – rəngkarlıq dahisi ilə siyasət dahisinin görüşü olacaqdır.

**Heydər Əliyev:** Nikas dahidir, mən isə...

**Arif Babayev:** Əlbəttə, Heydər Əlirza oğlu, Siz özünüz də. Yaxşı oldu, bu tanışlıq mehriban, qarşılıqlı insani münasibətlərə çevrildi. Düzünü desək, Rusiyada, Ulyanovskda biz Nikasa görə şadıq, çünki səfərimiz zamanı adamların bizə göstərdikləri səmimiyyət, hörmət təkcə Nikasa görə deyil, həm də Sizə, Sizin dostluğunuza olan hörmətdir. Bu, çox qiymətlidir. Ulyanovsk vilayətinin qubernatorundan, qanunvericilik məclisinin sədrindən, bizim azərbaycanlılar icmasından, çox adamlardan, – bunları uzun-uzadı sadalaya bilərəm, – Sizə xoş salamlar yetirmək istərdim. Nikasm sayəsində bu yaxınlarda Moskvada "Russkoye zoloto" şirkətinin prezidenti ilə görüşdüm. O, Sizin ünvanınıza nə qədər səmimi sözlər söylədi! Buraya gəlməzdən əvvəl "LUKoyl"un rəhbərliyi ilə görüşmüşəm. Onlar da Sizə ən yaxşı arzularını yetirməyi xahiş etdilər. Sizinlə hər bir görüş məndən ötrü çox böyük hadisədir. Hər dəfə buradan gedərkən özümü günahlandırıram ki, hüzurunuzda oturmuşdum. Əgər icazə versəniz, Sizə hörmətimi bildirmək üçün ayağa qalxardım. Mən Sizin andiçmə mərasiminizi xatırlayıram, o zaman salondan çıxdınız və Sizə yaxınlaşmağıma icazə verdilər. Siz elə ilhamlı və gözəl idiniz ki. Açığını deyəcəyəm, indi də əla görünürsünüz, yaxşı siyasi formada, gözəl, yaxşı əhval-ruhiyyədəsiniz. Bu, ən başlıcasıdır.

Əminəm ki, bizdə hər şey yaxşı olacaq və üçüncü minillikdə də ölkəmizə Sizin rəhbərlik etməyiniz barədə arzumuz da yerinə yetəcəkdir.

O zaman Sizə dediyim əsas fikir bu idi ki, Siz təkcə Azərbaycanın deyil, həm də dünyanın hər yerində yaşayan bütün azərbaycanlıların prezidentisiniz. Biz Sizin ürəyinizdən rica edirik ki, həmişə yaxşı, dəqiq vursun, çünki ürəyiniz Sizə məxsus deyil, o, ölkəmizin, xalqımızın ürəyidir.

Andiçmə mərasimində Nikasla biz gördük ki, Siz təxminən iki saat çox ciddi məsələlər haqqında necə qeyri-standart danışdınız, bütün problemlərə cavab verdiniz. Cabir Novruz şeir oxumağa başlayanda ötən illərin kadrlarını göstərdilər. Yeri gəlmişkən, bu yaxınlarda burada tanışlarımla görüşərkən biz, 1969-cu ildən başlayaraq bütün həmin dövrü xatırladıq. Mən o zaman dedim: bilirsiniz, biz nə üçün beləyik? Ona görə ki, biz heydərçilərik. Biz o cür tərbiyə almış insanlarıq, ayrı cür ola bilmərik. Əgər biz Sizin verdiyiniz çörəyi vicdanla yemişiksə, o tərbiyəni almışıqsa, deməli, bu gün də beləcə güclü qalmalı və yeni Azərbaycan qurmaqda Sizə kömək etməliyik. Andiçmə mərasimində həmin kadrlar göstərilərkən, yanımda əyləşmiş bir nəfər qolumdan dartıb soruşdu ki, nə üçün ağlayıram. Mən dedim: ona görə ki, bu, mənim ölkəmdir, bu, mənim prezidentimdir. Bir daha demək istəyirəm ki, Siz bizim prezidentimizsiniz, Sizi sevir, qiymətləndiririk, Sizə cansağlığı arzulayırıq.

Bir daha demək istəyirəm ki, bizim qubernator iqtisadi və siyasi dialoqu davam etdirmək üçün ən yaxın vaxtlarda Bakıya gəlib Sizinlə görüşməyə hazırdır.

**Heydər Əliyev:** Buyursun. Vaxtını razılaşdırarıq. Sağ olun.

**Nikas Safronov:** Məni və Arif Babayevi səmimi qəbul etdiyinizə görə bir daha Sizə minnətdarlığımızı bildiririk.

## AZƏRBAYCAN RESPUBLİKASI ƏSİLZADƏLƏR MƏCLİSİNİN SƏDRİ, XALQ YAZIÇISI, MİLLİ MƏCLİSİN DEPUTATI MAQSUD İBRAHİMBƏYOV İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Prezident sarayı*
*7 iyul 1999-cu il*

**Maqsud İbrahimbəyov:** Möhtərəm prezident!

Sizi səmimi-qəlbdən salamlayıram. Siz müalicədən qayıdandan sonra birinci dəfədir Sizi görürəm və çox şadam ki, Allaha şükür, səhhətiniz yaxşıdır. Siz bizim dahi rəhbərimiz, dahi prezidentimizsiniz. Fəxr edirəm ki, bu gün mən Azərbaycan Respublikası Əsilzadələr Məclisinin adından Sizə 1 nömrəli şəhadətnaməni təqdim edirəm. Çünki bir nömrəli əsilzadə Sizsiniz.

**Heydər Əliyev:** Əgər siz belə qiymət vermisinizsə, təşəkkür edirəm. Deməli, bu məclis artıq fəaliyyətə başlayır?

**Maqsud İbrahimbəyov:** Bəli, məclis yaradılıb, ilin sonunadək onun qurultayı keçiriləcəkdir.

**Heydər Əliyev:** Siz məclisin yaradılması barədə mənim fikrimi öyrənmişdiniz və mən demişdim ki, yaradın. Çünki bu, Azərbaycanın bu günü və gələcəyi üçün lazımdır. Məni bir sual maraqlandırır. Əsilzadələr məclisinə üzvlər qəbul etmək üçün hansı meyarlar əsas götürülür?

**Maqsud İbrahimbəyov:** Biz vətəni, prezidenti sevən əsil ziyalıları qəbul edirik. Üzvlər çoxdur, amma hələlik heç kimə şəhadətnamə verməmişik. Qəbul olunmaq istəyənlər də çoxdur.

**Heydər Əliyev:** Sizin bu təşəbbüsünüzə uğurlar arzulayıram. Arzu edirəm ki, yaradılan Əsilzadələr məclisi gələcəkdə Azərbaycanın həm dövlətinin, həm cəmiyyətinin naminə, bizim milli ənənələrimizə uyğun, amma eyni zamanda demokratik, hüquqi, dünyəvi dövlət prinsipləri əsasında fəaliyyət göstərsin və Azərbaycan xalqına öz yardımını göstərə bilsin.

(Maqsud İbrahimbəyov prezident Heydər Əliyevə Azərbaycan Respublikası Əsilzadələr Məclisi üzvünün 1 nömrəli şəhadətnaməsini, habelə Əsilzadələr Məclisi adından hədiyyə olaraq qədim xəncər təqdim etdi).

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV RESPUBLİKA ƏSİLZADƏLƏR MƏCLİSİNİN SƏDRİ, XALQ YAZIÇISI MAQSUD İBRAHİMBƏYOVU QƏBUL ETMİŞDİR

*8 iyul 1999-cu il*

Azərbaycan prezidenti Heydər Əliyev iyulun 7-də Prezident sarayında Azərbaycan Respublikası Əsilzadələr Məclisinin sədri Maqsud İbrahimbəyovu qəbul etmişdir.

Əsilzadələr məclisinin sədri, xalq yazıçısı, Milli Məclisin deputatı Maqsud İbrahimbəyov dövlətimizin başçısını səmimi salamlayaraq dedi ki, Siz müalicədən qayıdandan sonra birinci dəfədir Sizi görürəm və çox şadam ki, Allaha şükür, səhhətiniz yaxşıdır. Siz bizim dahi rəhbərimiz, dahi prezidentimizsiniz. Fəxr edirəm ki, bu gün mən Azərbaycan Respublikası Əsilzadələr Məclisinin adından Sizə 1 nömrəli şəhadətnaməni təqdim edirəm. Çünki bir nömrəli əsilzadə Sizsiniz.

Prezident Heydər Əliyev minnətdarlığını bildirərək dedi ki, əgər siz belə qiymət vermisinizsə, təşəkkür edirəm. Respublikamızın rəhbəri Əsilzadələr məclisinin yaradılması ilə də maraqlandı. Maqsud İbrahimbəyov məlumat verdi ki, məclis yaradılıb, ilin sonunadək onun qurultayı keçiriləcəkdir.

Dövlətimizin başçısı xatırlatdı ki, siz məclisin yaradılması barədə mənim fikrimi öyrənmişdiniz və mən demişdim ki, yaradın. Çünki bu, Azərbaycanın bu günü və gələcəyi üçün lazımdır. Prezident Heydər Əliyev Əsilzadələr məclisinə üzvlər qəbul etmək üçün hansı meyarların əsas götürüldüyünü soruşdu. Maqsud İbrahimbəyov bildirdi ki, biz vətəni, prezidenti sevən əsil ziyalıları qəbul edirik. Üzvlər çoxdur, amma hələlik heç kimə şəhadətnamə verməmişik. Qəbul olunmaq istəyənlər də çoxdur.

Azərbaycan Prezidenti Heydər Əliyev dedi ki, sizin bu təşəbbüsünüzə uğurlar arzulayıram. Dövlətimizin başçısı arzu etdi ki, yaradılan Əsilzadələr məclisi gələcəkdə Azərbaycanın həm dövlətinin, həm cəmiyyətinin naminə bizim milli ənənələrimizə uyğun, amma eyni zamanda demokratik, hüquqi, dünyəvi dövlət prinsipləri əsasında fəaliyyət göstərsin və Azərbaycan xalqına öz yardımını göstərə bilsin.

Maqsud İbrahimbəyov Prezident Heydər Əliyevə Azərbaycan Respublikası Əsilzadələr Məclisi üzvünün 1 nömrəli şəhadətnaməsini, habelə Əsilzadələr Məclisi adından hədiyyə olaraq qədim xəncər təqdim etdi.

## SSRİ XALQ ARTİSTİ MAHMUD ESEMBAYEVƏ

*Bakı şəhəri*
*15 iyul 1999-cu il*

Çox hörmətli Mahmud Esembayev!

Sizi, müasir incəsənətin görkəmli xadimini 75 illik yubileyiniz münasibətilə təbrik edir, Sizə xoşbəxtlik, cansağlığı və əmin-amanlıq arzulayıram.

Qədim Qafqazın Sizin yaradıcılığınızda kamillik dərəcəsinə çatdırılmış gözəl rəqs nümunələri XX əsrdə ümumdünya mədəniyyətində mühüm hadisəyə çevrilə bilmişdir. Müxtəlif – xalqların rəqs sənətinin sirlərinə dərindən nüfuz etməyiniz Sizə elə bir ifaçılıq səviyyəsinə nail olmağa imkan vermişdir ki, bu zaman rəqsin plastikası milli və dünya inkişaf meyillərini özündə əks etdirir, mədəniyyətlərin yaxınlaşmasına və qarşılıqlı zənginləşməsinə kömək edir.

Virtuozluq və cilalanmış texnika ilə, rəqsin üslub və xarakterini parlaq və təsirli şəkildə ifadə etmək bacarığı ilə birləşən fitri istedadınız Sizə misilsiz şedevrlər yaratmağa imkan vermişdir. Doğma xalqınıza sonsuz məhəbbət, milli ənənələrə sədaqət, tükənməz əməksevərlik və incəsənətin yüksək ideallarına uzun illər xidmətiniz böyüməkdə olan nəsillər üçün hələ bir çox illər ərzində nümunə olacaqdır.

Sizin yaradıcılığınız ölkəmizdə uzun illər boyu daim heyranlıq və məftunluq doğurmuşdur. Azərbaycanda Sizin iştirakınızla çəkilmiş film bunun daha bir təsdiqidir.

Bu gün Siz təkcə böyük rəqs sənətinin deyil, həm də Qafqaz xalqlarının çoxəsrlik müdrikliyinin təcəssümüsünüz. Xeyirxahlıq və humanizm idealları ilə aşılanmış bütün çoxcəhətli fəaliyyətiniz bu gün də bizim Ümumqafqaz evimizdə sülhə, əmin-amanlığa və sabit inkişafa nail olmaq işinə xidmət edir.

Sizə uzun ömür arzulayıram.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## DÜNYA ESTRADASININ ULDUZLARINDAN BİRİ MƏŞHUR İSPANİYA MÜĞƏNNİSİ XULİO İQLESİAS İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*24 iyul 1999-cu il*

Dünya estradasının ulduzlarından biri, məşhur İspaniya müğənnisi Xulio İqlesias 1999-cu il iyulun 24-də Bakıda, Respublika sarayında ilk konsertini verdi.

Azərbaycan Prezidenti Heydər Əliyev və qızı Sevil xanım Əliyeva konsertdə iştirak edirdilər.

Salona toplaşanlar dövlətimizin başçısını hərarətli alqışlarla qarşıladılar.

Xatırladaq ki, görkəmli müğənni Bakıya iki gün əvvəl, iyulun 22-də, Belarus və Ukrayna paytaxtlarındakı konsertlərindən sonra gəlmişdi. Binə hava limanında jurnalistlərə müsahibəsində o bildirmişdi ki, Azərbaycana gəlmək öz arzusudur. Azərbaycan onun üçün çox şən ölkədir və buraya səyahət etmək, konsertlər vermək məqsədi ilə gəlmişdir. İqlesias demişdi ki, Azərbaycanda çoxlu müğənni var və onlar da başqa ölkələrə səyahətə çıxa, onun kimi məşhurlaşa bilərlər.

İyulun 23-də Xulio İqlesias İmişli rayonuna gedərək Bəhramtəpə şəhərciyində məskunlaşmış məcburi köçkünlərlə görüşdü.

Dünya şöhrətli müğənninin Azərbaycan paytaxtındakı ilk konserti böyük müvəffəqiyyətlə keçdi. Səhnədə ilk dəfə görünən İqlesiası sürəkli alqışlarla qarşılayan minlərlə dinləyici bütün konsert boyu onun sənətkarlığına heyranlığını, hüsn-rəğbətini ifadə edirdi. Xulio İqlesiasın mahnıları isə həqiqətən bənzərsiz, ürəkləri oxşayandır. Lirik, şən, bəzən də kədərli ovqat doğuran bu mahnılar sanki dinləyiciləri xəyalən müğənninin vətəninə – gözəl musiqisi olan uzaq İspaniyaya aparırdı.

Müğənnini müşayiət edən musiqiçilərin yüksək peşəkarlığı, bütün səhnə boyu yerləşdirilmiş ən müasir aparatlar, işıq effekti ifa olunan mahnıların təsir gücünü daha da artırırdı. Xulio İqlesias həm də bacarıqlı aktyor-psixoloq təsiri bağışladı: o, salonla bilavasitə ünsiyyət yaratmışdı və dinləyicilər mahnıların bəzi məqamlarını onunla birgə oxuyurdular. İqlesiasın dünya şöhrəti qazanmasının yəqin ki, bir sirri də onun ifa tərzi

və dinləyicilərə təqdim etdiyi mahnılardır. Hazırda dünyada çox geniş yayılmış hay-küylü musiqidən fərqli olaraq, İqlesiasın mahnıları dinləyicini yormur, necə deyərlər, bezikdirmir. Onun mahnılarına gənclər də, yaşlılar da eyni həvəslə, maraqla qulaq asırlar. Başqa sözlə, Xulio İqlesiasın mahnılarının, ifaçılığının ömrü ötəri deyil, əbədidir. Bu, əsil böyük sənətdir.

Konsert proqramına daxil edilmiş məşhur İspaniya rəqsləri də tamaşaçılar tərəfindən böyük hərarətlə qarşılandı. Nəzərdə tutulduğundan da yarım saat çox çəkən konsertdə müğənni bəzi mahnıları təkrar-təkrar oxudu.

Azərbaycan prezidenti Heydər Əliyev qızı Sevil xanımla birlikdə, konsertdən sonra Xulio İqlesias ilə görüşdü.

Prezident Heydər Əliyev uğurlu keçən konsert münasibətilə görkəmli müğənnini təbrik edərək dedi:

– Bu gün çox gözəl konsert verdiniz. Musiqiniz də çox gözəldir. Səsiniz də heç dəyişməyibdir. Amma iki saat yarımdır oxuyursunuz.

**Xulio İqlesias:** Gördüm ki, Siz salonda oturmusunuz, ona görə axıradək oxudum.

**Heydər Əliyev:** Əgər Siz oxuyub qurtarmasaydınız, mən də gedə bilməzdim. Mən bilsəydim, bir az tez durardım ki, Sizə çox əziyyət verməyim.

**Xulio İqlesias:** Cənab Prezident, gözəl gözləriniz var.

**Heydər Əliyev:** Çox sağ olun.

**Xulio İqlesias:** Siz özünüz və qızınız konsertə vaxt ayırdığınıza görə minnətdaram.

**Heydər Əliyev:** Çox sağ olun. Mən çox təşəkkür edirəm ki, Siz dünən getdiniz qaçqınları gördünüz. Bu, Sizin tərəfinizdən çox böyük insanpərvərlikdir. Bilirəm ki, burada Sizin proqramınız gərgindir, işiniz çoxdur. Amma dünən öz xahişinizlə gedib qaçqınları görməyiniz məni çox məmnun etdi.

Siz otuz iki il bundan öncə də çox populyar olmusunuz və bu gün də populyarsınız. Gördünüz, insanlar Sizi necə qarşılayırlar?

**Xulio İqlesias:** Boğazım bir qədər tutulmuşdu, ona görə də bir az narahat ıdım. Lakin Sizin ölkənizin xalqının, insanların münasibəti mənə ruh verdi və oxumağa başladım.

**Heydər Əliyev:** Mən hiss etmədim ki, Sizin boğazınız tutulubdur. Mən Sizin səsinizi şəxsən yox, lent yazıları vasitəsilə iyirmi il bundan öncə də eşitmişəm. Amma indi heç bir dəyişiklik görmədim. Bu, hə-

qiqətdir. Mənim qızım 70-ci illərdən sizin səsinizə valeh olubdur. Bir mənim qızım deyil, gördünüz ki, salonda oturanların hamısı.

**Xulio İqlesias:** Çox şadam ki, dünən imkanım oldu, Sizin qızınızın musiqisinə qulaq asdım. Onun musiqisindən çox xoşum gəldi. Artıq bununla bəlkə də biznes eləmək olar.

**Heydər Əliyev:** O, heç vaxt biznes məqsədi daşımayıb. Sadəcə, ürəyindən gələn mahnıları yazıbdır.

**Xulio İqlesias:** Hər halda çox gözəl mahnılardır.

**Heydər Əliyev:** Çox məmnunam. Onun mahnılarına verdiyiniz qiymət, əlbəttə ki, çox yüksək qiymətdir.

**Xulio İqlesias:** Böyük musiqidir və həqiqətən də şirin musiqidir.

## XULİO İQLESİASI QƏBUL EDƏRKƏN

*25 iyul 1999-cu il*

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1999-cu il iyulun 25-də Prezident sarayında dünya estradasının ulduzlarından biri, məşhur İspaniya müğənnisi Xulio İqlesias qəbul etdi. Görkəmli müğənnini səmimiyyətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev dedi:**

– Hörmətli cənab Xulio İqlesias!

Hörmətli qonaqlar!

Mən sizi Azərbaycanda bir daha səmimi qəlbdən salalayıram. Mən çox məmnunam ki, Siz – dünyanın ən böyük ulduzlarından biri, nəhayət, Azərbaycana da gəlmisiniz və burada Azərbaycanın musiqisevərləri ilə görüşmüsünüz. Siz dünən mənə dediniz ki, 32 ildir oxuyursunuz. 32 ildir böyük zəhmətlər çəkirsiniz.

Allah Sizə çox gözəl səs veribdir və çox gözəl istedad veribdir. Gözəl səsinizlə, gözəl istedadınızla Siz həqiqətən, dünyanın ən məşhur, ən sevimli, ən gözəl müğənnilərindən biri olmusunuz. Bunu dünyanın hər yerində bilirlər. O cümlədən Azərbaycanda da bilirlər və Sizin sənətinizi çox yüksək qiymətləndirirlər. Ona görə də Sizin Azərbaycana ziyarətiniz, Azərbaycan musiqisevərlərinə sevinc gətirməyiniz və Azərbaycanla tanış olmağınız bizim üçün çox əhəmiyyətlidir.

Mən xüsusən onu qeyd etmək istəyirəm ki, Siz ölkəmizə gələn kimi ilk növbədə, Azərbaycanın ağır vəziyyətdə yaşayan insanları ilə, yəni Ermənistan–Azərbaycan münaqişəsi nəticəsində doğma yurdlarından zorla çıxarılıb indi çadırlarda yaşayan insanlarla görüşə getdiniz. Bu onu göstərir ki, Siz nəinki böyük sənətkar, müğənni, musiqiçi, eyni zamanda böyük ictimai xadimsiniz və dünyada hər bir ölkədə olan ictimai, siyasi, sosial məsələlər də Sizi maraqlandırır. Bu, məni çox sevindirir. Mən şəxsən Sizi neçə illərdir ki, tanıyıram. Eləcə də, insanları ilə, musiqi, teatr sənətkarları ilə həmişə çox maraqlanmışam və onların çoxunun həyatı ilə tanışam. Yaxşı bilirəm ki, səhnədə öz sənətini axşam bir-iki-üç saat nümayiş etdirən sənətkar, demək olar ki, bir gecədə on günlük iş görür. İnsanların çoxu teatra, konsertə gəlir, müğənnini dinləyir, zövq alır. Elə

bilir ki, asan bir şeydir: gəidi, səhnəyə çıxdı, oxudu və bununla da iş qurtardı. Ancaq şəxsən mən bilirəm, – bir dəfə səhnəyə çıxmaq üçün ən böyük artist, ən böyük müğənni, ən böyük sənətkar nə qədər hazırlaşır, nə qədər gərgin saatlar keçirir və öz sənətini nümayiş etdirir.

Ona görə də, mənim fikrimcə, Sizin müğənniliyinizin 32 illik tarixini ikiyə, üçə vurmaq lazımdır. Yəni, ola bilər, 64 il olsun, yaxud daha çox olsun.

Bir şey də çox qəribədir və çox da sevindiricidir ki, Siz 32 il oxuyaraq, – özü də məlumdur ki, Siz o müğənnilərdən deyilsiniz ki, ayda bir dəfə, iki dəfə oxuyasınız. Məsələn, opera müğənniləri vardır, ayda onların iki–üç çıxışı olur və ondan sonra istirahət edirlər. Amma Siz daim oxuyursunuz, – 32 il oxuyaraq səsinizi bu qədər gözəl saxlamısınız və səhhətinizi bu qədər gözəl saxlamısınız. Mən buna görə Sizə çox heyranam və Sizi həyatınız boyu əldə etdiyiniz nailiyyətlər münasibətilə ürəkdən təbrik edirəm.

Sizin dünən Azərbaycan tamaşaçılarına verdiyiniz konsert ən yüksək qiymətə layiqdir. Mən salonda oturmuşdum, fikirləşirdim, – Siz iki saat yarım səhnədən çıxmadınız, iki saat yarım daim oxudunuz. Gör bu nə qədər böyük əməkdir! Özü də əvvəl oxumağa necə başladınız, sonda da elə bitirdiniz. Siz özünüz gördünüz ki, salondakılar Sizi necə hərarətlə qarşılayırdılar, Sizi necə sevinclə dinləyirdilər.

Bəzən bizim böyük konsertlərimiz olur – bir saat otuz dəqiqə, bir saat iyirmi dəqiqə. Orada müxtəlif nömrələr göstərirlər. Amma bir saat iyirmi dəqiqədən sonra adamı yorur. Sizi isə iki saat yarım dinləyəndən sonra mən şəxsən yorulmadım. Əksinə, daha da ruhlandım, daha da çox enerji aldım. Güman edirəm, salondakıların hamısı belə idi.

Sizin konsertiniz qurtarandan sonra biz dərhal görüşdük. Mən gördüm ki, Siz bir az yorulmusunuz. Ancaq Siz gördünüz ki, mən yorulmamışam. Nə üçün? Sizin musiqiniz o qədər gözəl ruh veribdir. Bunlara görə Sizə təşəkkür edirəm və Sizin dünənki çox gözəl konsertinizi, çıxışınızı ürəkdən təbrik edirəm.

Mən məmnunam ki, Siz bugünkü Azərbaycanı, Bakını da müəyyən qədər görə biləcəksiniz, ya görürsünüz. Biz öz vətənimizi çox sevirik. Hesab edirik ki, Bakı dünyanın ən gözəl şəhərlərindən biridir və xüsusən indi, Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra, azad, sərbəst olandan sonra biz özümüzün sahibiyik. Belə olan halda, əlbəttə ki, bizdə indi bütün iqtisadi, siyasi sistem dəyişildiyi halda Bakı çox yaxşı inkişaf edir.

Siz dünən doğru buyurdunuz ki, Azərbaycanın bir müstəqil ölkə kimi çox böyük gələcəyi vardır. Bu, həqiqətdir. Biz bunu bilirik. Amma Sizin də bu ifadəni işlətməyiniz Sizin nə qədər dərin mənaya malik, müdrik

adam olduğunuzu göstərir. Mən çox arzu edərdim ki, Siz Azərbaycanı daha da yaxşı tanıyasınız. Dünən səhnədən Azərbaycan xalqı haqqında dəyərli sözlər dediniz və Sizə bildirə bilərəm ki, Sizin o sözləriniz də həqiqətə uyğundur.

Mən Sizi bir də təbrik edirəm və bir daha Sizinlə görüşüb tanış olmağımdan sevinc hissi duyuram.

Prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirən Xulio İqlesias dedi:

– Çox sağ olun, cənab Prezident. Mənim Sizə deyiləcək bir neçə sözüm vardır. Həmişə mənim ürəyimdə və beynimdə olubdur ki, bu ölkəyə səfər edim. Mən bundan sonra öz həmkarlarıma, biznesdə olan dostlarımın hamısına deyəcəyəm ki, Azərbaycana səfər etmək çox maraqlı və çox gözəldir. Azərbaycanın həm xalqı, həm də Prezidenti çox gözəldirlər.

Siyasətçi olmayıb müğənni olmağım heç də o demək deyil ki, mən insanlar barədə düşünmürəm. Əlbəttə ki, mən qaçqınların düşdüyü vəziyyəti, onların əzab-əziyyətlərini, onların günbəgün yaşadığı çətinlikləri dərindən duyuram. Ümidimi itirmirəm ki, onlar çox tezliklə evlərinə qayıdacaqlar. Mən uşaqların sifətlərinə diqqətlə baxdım, hamının sifətini gördüm. Onların sifətlərində yalnız bir şey yazılmışdı: onlar o ümiddədirlər ki, tezliklə evlərinə qayıdacaqlar. Hara gedirəmsə– gedim, bu haqda hamıya deyəcəyəm. Çünki bu ölkədə oldum, bu ölkəni sevdim, bu ölkənin xalqını bəyəndim. Çox şadam ki, buraya gəldim. Çox şadam ki, cənab Prezident, Sizinlə tanış oldum.

Cənab Prezident, Sizə, bu ölkəyə, bu ölkənin qonaqpərvərliyinə minnətdaram. Sizin gözəl, hər şeyi görə biləcək gözləriniz vardır.

**Heydər Əliyev:** Siz bunu dünən də mənə dərhal dediniz, Mən özüm heç o qədər də təsəvvür edə bilmirəm ki, mənim Siz dediyiniz kimi gözlərim vardır. Gözlərim itidir, ancaq gözəlliyini deyə bilmərəm.

**Xulio İqlesias:** Cənab Prezident, bilirsinizmi, əgər Prezidentin gözləri gözəl olmasa, onun üçün çox çətin olar. İnsanlar həmişə insanı gözündən oxuyurlar.

Cənab Prezident, mən də Sizi təbrik edirəm. Çox sağ olun ki, məni dəvət etdiniz. Bütün adamlara – nazirlərə, mənim konsertlərimə gələn şəxslərin hamısına ayrı-ayrılıqda minnətdarlığımı bildirmək istəyirəm. Həqiqətən, Azərbaycana valeh oldum və insanların hamısını sevdim, onların gözlərini bəyəndim. Cənab Prezident, ilk növbədə Sizin gözlərinizi bəyəndim.

**Heydər Əliyev:** Çox sağ olun, təşəkkür edirəm.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV XALQ ARTİSTLƏRİ MÜSLÜM MAQOMAYEVİ VƏ TAMARA SİNYAVSKAYANI QƏBUL ETMİŞDİR

*28 iyul 1999-cu il*

Azərbaycan prezidenti Heydər Əliyev iyulun 27-də Prezident sarayında görkəmli müğənnilər, xalq artistləri Müslüm Maqomayevi və onun xanımı Tamara Sinyavskayanı qəbul etmişdir.

Dövlətimizin başçısı özünün qonaqlarını səmimiyyətlə salamladı, onların işləri ilə maraqlanaraq dedi:

– Siz çox gözəl təsir bağışlayırsınız. Konsertdə çox yaxşı oxudunuz, mən çox şadam. Şadam ki, siz yaxşı formadasınız, yaxşı oxuyursunuz və öz işinizi davam etdirirsiniz.

**Müslüm Maqomayev dedi:**

– Biz konsertə xüsusi olaraq gəlmişdik ki, Heydər Əliyeviçi təbrik edək. Qəflətən, hazırlıqsız gəlmişdik və məşq etmədən necə oxuyacağımız barədə həyəcan keçirirdik.

**Prezident Heydər Əliyev dedi:**

– Nahaq yerə. Siz bu orkestrlə birinci dəfə deyil ki, oxuyursunuz, ona görə də hesab etmirəm ki, sizdə nə isə alınmaya bilərdi. Siz çox gözəl oxudunuz. Siz bilirsiniz, bu mahnı hamının çox xoşuna gəlir, xüsusilə də mənim. Mahnı həmin gün lap yerinə düşmüşdü.

**Müslüm Maqomayev ölkəmizin rəhbərinə müraciətlə dedi:**

– Heydər Əliyeviç, kitaba görə çox sağ olun. Mən təkid etdim ki, Svyatoslav Belzanın haqqımda yazdığı ön sözə mənim də sözlərim düşsün. Orada mən respublikamıza münasibətimdən, respublikamızın, Azərbaycan prezidentinin məni indi də, Rusiyanın «Vaqrius» firması tərəfindən bu kitab buraxılarkən də dəstəklədiklərini, onun yaxşı kağızda nəşrinə kömək etdiklərini söyləmişəm. Naşirlər onu mənim ad günümə buraxmağı vəd etmişlər. Siz bilirsiniz ki, bu kitabdan bir çox hissələr qəzetdə dərc olunmuşdur.

«Vaqrius» nəşriyyatı planetimizin görkəmli siyasi xadimlərinin memuarları seriyasını nəşr etməyə başlayıb və məndən xahiş ediblər ki, əgər arzu edirsinizsə, memuarlarınızı buraxmağı Sizə təklif edim. Mən onlara

dedim ki, Prezident Heydər Əliyevin memuarlarla məşğul olmağa nə qədər vaxtı olacağını bilmirəm. Amma Siz bilirsiniz ki, onlar adam ayırırlar, istənilən boş vaxtınızda ona diktə edirsiniz, sonra isə onlar kitabı tərtib edirlər. Güman edirəm ki, bu, Sizə edilən ilk belə təklif deyildir.

Prezident **Heydər Əliyev** bunun cavabında dedi:

– Təxminən 1988-ci ildən, istefaya çıxdığım vaxtdan başlayaraq, əvvəlcə Moskvada, sonra isə Qərb ölkələrindən, Amerikadan mənə dəfələrlə müraciət ediblər. Xatirimdədir, buraya Amerika Birləşmiş Ştatlarından insanlar gəlmişdi, 10 gün bu ümidlə oturub gözlədilər ki, razılığa gəlmək mümkün olacaqdır. Özü də deyirdilər ki, onlar kitabı hansısa nəşriyyatlarda buraxacaqlar, buna çox böyük maraq var. Mənə çox müraciətlər olubdur. Ancaq təəssüflər olsun ki, mənim vaxtım yoxdur. Mən təəccüblənirəm, necə olur ki, insanlar işləyə-işləyə memuarlar yazırlar? Təəccüblənirəm ki, təxminən mənim kimi vəzifədə olan adam bir kitab, ikinci kitab yazır. Necə yazır, nə vaxt yazır? Mən bu barədə çox görkəmli xadimlərdən birindən soruşdum. O dedi: Bilirsiniz, mən səhər saat beşdə dururam, saat altıya, səkkizədək roman yazıram, sonra isə işə gedirəm. Hesab edirəm ki, bu, mümkündür, amma inanmaq çətindir.

**Müslüm Maqomayev** isə belə hesab edir:

– Bunu etmək çox asandır, o, səhər saat beşdə-altıda durur, diktofonu qoşur və öz xatirələrini söyləyir.

**Heydər Əliyev:** Mən də diktofondan istifadə edə bilərəm. İndi hamı ondan istifadə edir. Amma bunun üçün vaxt lazımdır.

**Müslüm Maqomayev:** Siz indiyədək nə qədər müsahibə vermisiniz.

**Heydər Əliyev:** Mən bu, digər, üçüncü bir mövzuda müsahibə verməyə məcburam. Haraya gedirəmsə, hər yerdə soruşurlar, hər yerdə xahiş edirlər. Lap çoxları xahiş edir, sadəcə olaraq vaxt yoxdur. Deməli, görünür, mən o siyasi xadimlərdənəm ki, onlar öz memuarlarını dərc etdirə bilmirlər. Halbuki çox gözəl bilirəm ki, mən artıq indi sağ qalan o adamlardanam ki, – bunu geniş miqyasda götürürəm, – onu ki, mən bilirəm, onu ki, ictimaiyyətə mən çatdıra bilərəm, bəlkə də heç kim edə bilməz. O cümlədən də Kreml haqqında, çox şeylər haqqında. Bəlkə də bunu etməkdə Tanrı mənə kömək edəcəkdir. Amma mənim üçün bu, problem deyildir. Mənim üçün problem mənim işimdir. Mən bununla məşğul oluram.

**Müslüm Maqomayev:** Sizin memuarlarınızı oxumaq istərdim.

**Tamara Sinyavskaya:** Bəli, bu, elə bir roman, elə bir bomba olardı!

**Müslüm Maqomayev:** Ələlxüsus, Siz səmimiyyətlə söyləsəniz, hər şeyi açıqlasanız, onda bu...

**Heydər Əliyev:** Mən həmişə səmimiyəm.

**Sonra Müslüm Maqomayev dedi:**

– Siz çox yaxşı görünürsünüz, biz həmişə Sizin barənizdə düşünürük. Yeri gəlmişkən, təkcə biz yox, hətta Rusiyadakı dostlarımız, Böyük Teatrın artistləri də...

**Tamara Sinyavskaya:** Hörmətlə, ehtiramla və məhəbbətlə düşünürlər.

**Prezident Heydər Əliyev təşəkkür edərək dedi:**

– Onların hamısına mənim salamlarımı və xoş arzularımı çatdırın. Sağ olun. Bəli, burada əvvəl işlədiyim dövrdə də və Moskvada işlədiyim dövrdə də görüşdüyümüz, birlikdə olduğumuz, məsələləri həll etdiyimiz insanlar çoxdur. Biz bir-birimizi yaxşı tanıyırıq, bir-birimizə yaxşı münasibət bəsləyirdik. Bu gün də onların hamısına, xüsusən incəsənət və ədəbiyyat xadimlərinə münasibətim çox yaxşıdır. Mən bu insanlara həmişə yaxşı münasibət bəsləmişəm.

**Tamara Sinyavskaya gümanını söylədi:**

– Yəqin Siz qəlbən hər halda artistsiniz.

**Müslüm Maqomayev əlavə etdi:**

– Sizin Azərbaycanda Rusiya mədəniyyəti günlərinin iştirakçılarını, Böyük Teatrın gəlişini necə qarşılamağınız haqqında mən öz kitabımda lap çox yazıram. Mənim yazdığım fəsil «Əliyev qatarı» adlanır. Bilirsiniz nə üçün «qatar»? ona görə ki, xatirinizdədirsə, Tamara ilə biz təzəcə evlənəndə, bizə qatara əyləşib Sizinlə Tulaya qədər getməyi təklif etmişdiniz.

**Heydər Əliyev:** Mən sizə Bakıya qədər demişdim, siz isə dediniz ki, Tulaya qədər.

Sonra Müslüm Maqomayev Prezident Heydər Əliyevə özünün daha bir işi barədə məlumat verdi:

– Mən Sizin portretinizi çəkməyə başlamışam, ancaq sonra biləndə ki, Nikas Safronov, Tahir Salahov və təkcə onlar yox, başqaları da Sizin portretinizi çəkiblər. Sizin portretləriniz çoxdur, belə qərara gəldim: necə yəni, mən, müğənni, portret çəkəcəyəm? Heç yaxşı da düşmür. Əgər çəkəsi də olsam, yalnız özümdə qalacaqdır. Ancaq çəkdim. Həmkarlarım baxdılar...

**Tamara Sinyavskaya:** Sən demə, qoy Heydər Əliyeviç özü qiymət versin.

**Müslüm Maqomayev:** Mən ancaq deyirəm ki, Tahir Salahov, Nikas Safronov baxıblar.

**Heydər Əliyev:** Baxıblar?

**Müslüm Maqomayev:** Bəli, dedilər ki, pis alınmayıbdır.

**Tamara Sinyavskaya:** Bir qədər əsəbiləşmişdilər.

**Müslüm Maqomayev:** Bir sözlə, mən portreti göstərəcəyəm. Əgər xoşunuza gəlsə, özümü xoşbəxt sayacağam. Əvvəlcədən xəbərdarlıq edirəm ki, mən hətta Sizin zahiri görünüşünüzü deyil, daxili vəziyyətinizi çəkmişəm.

**Tamara Sinyavskaya:** Qəlbinizi.

Müslüm Maqomayev çəkdiyi portreti Prezident Heydər Əliyevə təqdim etdi.

**Tamara Sinyavskaya:** Bu, 1972-ci ildə bizim tanış olduğumuz həmin Heydər Əliyevdir.

**Heydər Əliyev:** Mən o vaxt cavan idim. Bilirsiniz, öz portretim haqqında danışmaq yaxşı düşmür, amma prinsip etibarilə yaxşıdır. Sağ olun. Başlıcası odur ki, bu işi üzərinizə götürmüsünüz, böyük zəhmət qoymusunuz, bunu qəlbən etmisiniz. Portret çox yaxşı alınıbdır. Əlbəttə, məni ev şəraitində çox az adam görür. Siz isə hamıdan çox görmüsünüz.

**Müslüm Maqomayev:** Bilirsiniz, Heydər Əliyeviç, kompliment Sizin fotoqrafınıza düşür, fotoşəklinizi o çəkmişdir. Mənim otağımda Sizin çoxlu fotoşəkliniz var. Mən eyni vaxtda bunların bir neçəsinə baxaraq çəkmişəm. Bu portretə oxşayan bir dənə də fotoşəkil yoxdur. Bu, ümumiləşdirilmiş obrazdır. Özümdən də nə isə əlavə etmişəm. Başqa sözlə, mən üzündən köçürməyi ümumiyyətlə bacarmıram.

**Tamara Sinyavskaya:** Sizi bilmirəm, amma mənim çox xoşuma gəlir.

**Heydər Əliyev:** Yaxşıdır. Sağ olun Tamara. Sən yəqin onu ruhlandırmısan?

**Tamara Sinyavskaya:** Əlbəttə, məsləhət verirdim.

**Heydər Əliyev:** O, ruhlandırılmadan bunu edə bilməzdi. İndi məndə Müslüm Maqomayevin rəssamlıq əsəri olacaqdır. Orada sənin adın yazılıb?

**Müslüm Maqomayev:** Yazmadım ki, birdən Sizin xoşunuza gəlməz.

Prezident **Heydər Əliyev** Müslüm Maqomayevə təşəkkürünü bildirərək dedi:

– Tamara kimi sən də görkəmli müğənni, böyük şöhrəti olan musiqiçisən. Amma indi özündə başqa keyfiyyətlər də aşkar edirsən. Doğrudur, təkcə indi yox. Xatirimdədir, sən gənclik illərində oxumağa başlayanda sənin haqqında film var idi. Onu televiziya ilə göstərirdilər, sənin necə şəkil çəkdiyini, heykəl düzəltdiyini görmüşdüm. Mən həmin filmə baxmışam. İndi budur, sənin istedadının daha bir cəhəti üzə çıxdı. Ola bilsin, yenə nə isə üzə çıxacaqdır. Bu, mənə xoşdur, əzizdir, xüsusən də ona görə ki, sən ümumiyyətlə, peşəkar rəssam deyilsən, sən müğənni və musiqiçisən, amma yaxşı portret çəkmisən.

**Tamara Sinyavskaya:** Heydər Əliyeviç, Sizin gözəl kampaniyanız var. Cüzeppe Verdi, Pyotr İlyiç Çaykovski, Aleksandr Sergeyeviç Puşkin, Heydər Əliyeviç Əliyev.

**Heydər Əliyev:** Bundan əvvəl o, onları çəkmişdir?

**Tamara Sinyavskaya:** Yox, Sizin portretinizi çəkdi və bundan sonra başlandı. Yubileyi münasibətilə Puşkini çəkdi, sonra Raxmaninova, daha sonra Çaykovskiyə keçdi. Onun nəsə ilhamı gəlmişdi.

**Heydər Əliyev:** Deməli, bu, onun istedadını açmışdır.

**Tamara Sinyavskaya:** Onun istedadını Siz açmısınız.

**Heydər Əliyev:** Bu, maraqlıdır. Şübhəsiz ki, mən hər şeyi xatırlayıram və hər şeyi qiymətləndirirəm. Vaxtilə sənin mənə həsr etdiyin «Azərbaycan» mahnısını da çox qiymətləndirirəm. Üzərində sənin sözlərin olan not yazısı da mənim kitablarımın arasındadır. Yəni tarix bundan istifadə edəcəkdir. Budur, indi də şəkil çəkmisən.

**Müslüm Maqomayev:** Ancaq bu, ev üçündür.

**Heydər Əliyev:** Aydındır ki, ev üçündür.

**Tamara Sinyavskaya:** Bu, bağ variantı adlanır.

**Heydər Əliyev:** Axı nə üçün? Mən onu verə bilərəm.

**Müslüm Maqomayev:** Yadımdadır, bu qısaqol köynək zolaqlı idi. Mən əvvəlcə zolaqlı çəkdim, sonra onları sildim, çünki mənə elə gəldi ki, bu, bir qədər ağ olur, sadə olmalıdır.

**Tamara Sinyavskaya:** Sizin geyiminizi dəyişdi. Heydər Əliyeviç, Siz indi nə demək istəyirdiniz, portreti muzeyə verəcəksiniz? Heç vaxt.

**Heydər Əliyev:** Yox, verməyəcəyəm. Bəs muzeyə verilsə, nə olar? Bu, pis deyildir. Çünki evdə onu tək özüm görəcəyəm. Muzeydə isə çox insanlar görəcəklər.

**Müslüm Maqomayev:** Özünüz bilərsiniz. Mən onu Sizə hədiyyə edirəm, sonrası isə…

**Heydər Əliyev:** Şəkil mənə məxsusdur və onun harada olacağı mənim işimdir.

**Müslüm Maqomayev:** Mən bu portretin slaydını gətirmişəm, xüsusi olaraq çıxarmışam.

**Heydər Əliyev:** Mənə göstərdiyiniz diqqətə görə bir daha sağ olun. Sağ olun ki, məndə həmişə sizə qarşı məhəbbət və diqqət hissləri var, siz bunu bilirsiniz.

**Müslüm Maqomayev:** Heydər Əliyeviç, sağ olun, vaxtınızı çox almayacağam. Onsuz da Sizin vaxtınızı almışıq. Ümidvaram ki, Sizinlə hələ heç olmasa telefonla danışacağıq.

Prezident Heydər Əliyev görüşün sonunda Müslüm Maqomayev və Tamara Sinyavskaya ilə xatirə şəkli çəkdirdi.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TANINMIŞ MÜĞƏNNİ YAQUB ZURUFÇUNU QƏBUL ETMİŞDİR

*29 iyul 1999-cu il*

Azərbaycan Prezidenti Heydər Əliyev iyulun 28-də Prezident sarayında xaricdə yaşayan həmvətənimiz, tanınmış müğənni Yaqub Zurufçunu qəbul etmişdir.

Prezident Heydər Əliyev soydaşımızla yenidən görüşməyindən məmnun qaldığını vurğulayaraq, ABŞ-ın Klivlend şəhərindəki klinikada müalicə olunduğu vaxt onu ziyarət etdiyinə görə müğənniyə bir daha minnətdarlığını bildirdi.

Görüşdə müstəqil respublikamızın dünyada, o cümlədən Amerika Birləşmiş Ştatlarında daha geniş tanıdılması, Azərbaycan diasporunun gücləndirilməsi zərurəti barədə fikir mübadiləsi aparıldı.

Yaqub Zurufçu ABŞ-ın Kaliforniya ştatında yaşayan yüz minlərlə soydaşımıza Azərbaycanın bu günü və gələcəyi barədə ətraflı məlumat çatdırmaq niyyəti ilə Bakıya gəldiyini bildirərək, respublikamızın rəhbərindən bu barədə müsahibə almaq istədiyini söylədi.

Azərbaycan Prezidenti Heydər Əliyev onun niyyətini bəyənərək Yaqub Zurufçuya geniş müsahibə verdi.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TANINMIŞ MÜĞƏNNİ YAQUB ZURUFÇUNU QƏBUL ETMİŞDİR

*30 iyul 1999-cu il*

Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidenti Heydər Əliyev iyulun 28-də Prezident sarayında xaricdə yaşayan həmvətənimiz, tanınmış müğənni Yaqub Zurufçunu qəbul etmişdir.

**Müğənnini səmimiyyətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev dedi:**

– Səninlə görüşməyimdən çox məmnunam, Klivlenddəki görüşümüz yəqin ki, xatirindədir. Sənin Klivlend klinikasına mənim yanıma gəlməyini özüm üçün çox böyük hadisə hesab etdim. Doğrudur, orada müalicə olunduğum zaman mənim yanıma çox adam gəlmək istəyirdi. Azərbaycandan bu barədə çoxları müraciət etmişdi. Amma mən heç kəsə razılıq verməmişdim. Ancaq sən razılıq almamış klinikaya gəldin və bizim görüşümüz çox gözəl oldu, sən orada mahnı da oxudun. Azərbaycan televiziyası həmin görüşü veribdir və o, tamaşaçılara çox böyük təsir bağışlayıbdır. Çünki mən Klivlenddə cərrahiyyə əməliyyatı keçirəndən sonra səninlə şən əhval-ruhiyyədə olan görüşümüz və bizim bir yerdə olmağımız tamaşaçılara çox yaxşı təsir bağışlamışdır.

Sən o vaxt bu görüşümüzü videolentə çəkmişdin. Onu yaşadığın yerin televiziyasında göstərə bildin, yoxsa yox?

**Yaqub Zurufçu:** Mən öz videokameramla həmin görüşü çəkmişdim, dostlarım da mənə kömək etmişdilər. Mən həmin kaseti yaşadığım Los-Anceles şəhərindəki televiziyada göstərdim. Bəli, o, çox qiymətli bir görüş idi.

Cənab prezident, çox sağ olun ki, Klivlenddə mənə çox böyük diqqət göstərdiniz. Mən qərara aldım ki, Bakıya gəlib Sizinlə bir daha görüşüm, Sizə öz məhəbbətimi bildirim. Kaliforniya ştatında ən azı 300-400 min azərbaycanlı yaşayır. Onlar hamısı Sizinlə görüşüm barədə çəkdiyim videokasetə çox böyük maraqla tamaşa etdilər. Onlar Sizin söhbətlərinizə qulaq asmağa, Sizinlə görüşlərdən bəhs edən videokasetlərə baxmağa həmişə böyük maraq göstərirlər. Onlar istəyirlər ki, Sizin söhbətlə-

rinizi tez-tez eşitsinlər, görsünlər, Azərbaycandakı vəziyyət haqqında geniş məlumat əldə etsinlər.

Cənab prezident, mən özümü çox xoşbəxt hiss edirəm ki, Sizinlə bir daha görüşdüm və Sizi belə gözəl əhval-ruhiyyədə gördüm. İcazə versəniz, mən Sizinlə bir müsahibə aparardım.

**Heydər Əliyev:** Demə, sən məndən müsahibə almaq istəyirsən? Mən razıyam və sənin sənətini çox sevirəm. Bu da təbiidir, Azərbaycanda səni çoxları, bəlkə də hamı sevir. Çünki sən Azərbaycanın ağır illərində öz sənətinlə xalqımıza çox xeyir vermisən. Ona görə də səni Azərbaycanda sevirlər. Mən də səni çox sevirəm. Ona görə də mən sənin arzunu yerinə yetirməyə hazıram.

**Yaqub Zurufçu:** Cənab prezident, çox sağ olun. İcazə verin, mən də öz məhəbbətimi, sevgimi Sizə və Azərbaycan xalqına bildirim. Çünki Azərbaycan xalqına mənim böyük məhəbbətim var.

Mən 1989-cu ildə Bakıya gələndə bizim Azərbaycanda yaşayan millətimiz öz məhəbbətini mənə bildirdi. Mən də o zamandan Azərbaycandan ayrı yaşaya bilmirəm. Mən öz vətənimə olan doğma hisslərimlə buradayam. Özünüz Amerikaya gəlmisiniz, bilirsiniz ki, orada hər şey var, amma Vətənin qoxusu, nəfəsi orada yoxdur. Ona görə də biz, xaricdə yaşayan azərbaycanlılar üçün çətindir. Təəssüf ki, biz Vətəndən uzaqda yaşayırıq. Amma biz harada yaşasaq da Vətən, Azərbaycan kəlməsini, öz milli mədəniyyətimizi yadımızdan çıxarmarıq. Biz azərbaycanlı olmağımızla fəxr edirik.

Cənab prezident, mən Klivlenddəki görüşümüzdə də Sizə demişdim ki, əgər Amerikada Azərbaycan televiziyası açılsa bu, bizə böyük ruh verər. Bilirsiniz ki, dünya, necə deyərlər, reklam üzərində yaşayır. Mən həmin görüşümüzdə də Sizə dedim ki, Kaliforniyada Azərbaycan televiziyasının açılması mütləq lazımdır. Onu da deyim ki, Kaliforniya televiziyasının gecə saat 10-dan 11-dək olan verilişlərini bütün Amerika görür. Buna görə də biz orada öz televiziyamızı aça bilsək, bu çox yaxşı olar. Onu da deyim ki, Kaliforniyada erməni televiziyası hər gün 8 saat ərzində öz verilişlərini yayır.

**Heydər Əliyev:** Yəni Ermənistandan verilişlər orada yayılır?

**Yaqub Zurufçu:** Xeyr. Kaliforniyada erməni televiziyası açıblar. Mən çox təəssüf edirəm ki, niyə bizim də orada televiziyamız yoxdur? Mən bunları Sizə çatdırmaqla ümid edirəm ki, bu barədə fikirləşəcəksiniz.

**Heydər Əliyev:** Yaxşı, mən bu barədə fikirləşərəm və həm də müvafiq orqanlara göstəriş verərəm, bu məsələnin həlli üzərində konkret işləsinlər ki, görək nə etmək olar.

**Yaqub Zurufçu:**Cənab prezident, mən əvvəlki görüşümüzdə Amerika – Azərbaycan Dostluq Cəmiyyətinin yaradılması barədə də Sizə danışmışdım. Mən istəyirəm ki, belə bir cəmiyyət yaradılsın və onun Bakıda bir klubu, yeri olsun. Adamlar axşamlar yalnız konsertlərə, restoranlara gedirlər.

**Heydər Əliyev:** Bəs səfirlikdə bu məsələni bilirlər?

**Yaqub Zurufçu:** Cənab prezident, bunu biz özümüz yaratmalıyıq. Bilirsiniz ki, Amerikada hər bir şey xüsusidir. Biz bir mərkəz yaratmalıyıq. Mən Amerikadan bir neçə müğənninin şəklini də gətirmişəm. Onlar Azərbaycana gəlməyə hazırdırlar. Biz istəyirik ki, onlar gəlib bu klubda oxusunlar və amerikalılar öz musiqilərinə qulaq asmaq imkanı qazansınlar.

**Heydər Əliyev:** Yaxşı mən bu məsələyə də baxaram.

**Yaqub Zurufçu:** Cənab prezident Los-Ancelesdə Sizin söhbətlərinizə qulaq asmaq istəyənlər çoxdur. Xüsusən amerikalılar çox istəyirlər ki, görkəmli dövlət xadimi Heydər Əliyevə qulaq assınlar, Azərbaycanın bugünkü və gələcək sosial-iqtisadi vəziyyətinə dair Sizin düşüncələrinizlə tanış olsunlar. Çünki amerikalı iş adamları Azərbaycanla daha sıx əlaqələr qurmaq istəyirlər. Onlar mənimlə tez-tez əlaqə saxlayırlar, müəyyən kömək istəyirlər. Təəssüf ki, bizim Kaliforniyada televiziyamız yoxdur və biz Azərbaycanda bu gün görülən işləri Amerikada yaxşı təbliğ edə bilmirik.

Cənab prezident, bir daha xahiş edirəm ki, Azərbaycanın bugünkü və gələcək sosial-iqtisadi vəziyyəti barədə danışasınız.

**Heydər Əliyev:** Azərbaycanın çox gözəl gələcəyi vardır. Azərbaycan bir müstəqil dövlət kimi yaşayır. Ölkəmizdə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi gedir. Azərbaycanda həm siyasi, həm də iqtisadi islahatlar həyata keçirilir. Azərbaycanın iqtisadiyyatı bazar iqtisadiyyatı yolu ilə inkişaf edir. Bu yol artıq dönməzdir və biz bu yolu tutmuşuq.

Azərbaycan xarici investisiyanı cəlb etməyə çalışır və bu sahədə bizim nailiyyətlərimiz böyükdür. Azərbaycan açıq, azad bir ölkə kimi insan hüquq və azadlıqlarına, mətbuat azadlığına riayət edir. Azərbaycan bu azadlıqları təmin edən bir ölkə kimi bütün dünyaya açıqdır. Hesab edirəm ki, bütün bunlar Azərbaycanın həm bu günü, həm də gələcəyi üçün əsas şərtlərdir.

Azərbaycanın müstəqilliyi ildən-ilə möhkəmlənir və inkişaf edir. Bilirsən ki, indi biz müstəqillik dövrünün səkkizinci ilini yaşayırıq. Amma bu illər Azərbaycan üçün ağır, çətin olubdur. Ümumiyyətlə, yeni bir dövlət qurmaq, yeni bir siyasi-iqtisadi sistem yaratmaq heç kəs üçün asan deyildir. Çünki 70 il başqa bir iqtisadi-siyasi sistemdə yaşamış respublikada, insanlarda – bunların hamısında dəyişmə prosesi getməlidir. Bu, elə bir prosesdir ki, birinci növbədə insanların psixologiyasında dəyişiklik getməlidir. İnsanların beynində, psixologiyasında dəyişiklik bir gündə, iki gündə getmir. Amma biz bunu təmin edirik. Biz bunu onunla təmin edirik ki, xalqımızı artıq inandırmışıq.

Azərbaycan dövlət müstəqilliyini, milli azadlığını əldə edibdir və xalqımız inanır ki, nə qədər çətin olsa da biz ölkəmizi heç vaxt heç kəsin himayəsinə verməyəcəyik, onun heç kəsin müstəmləkəsinə çevrilməsinə imkan verməyəcəyik. Azərbaycan müstəqil bir dövlətdir və müstəqil də yaşayacaqdır. Biz öz ölkəmizi bundan sonra da inkişaf etdirəcəyik.

Bilirsiniz ki, 1991-ci ildə Sovetlər İttifaqı dağılan zaman Azərbaycan müstəqillik aktı qəbul etdi. 1995-ci ildə qəbul etdiyimiz Konstitusiyada da bu, təsbit olunubdur. Bu, qiymətli sənədlərdir, şübhəsiz ki, həm dövlət, həm xalq üçün bu istiqamətdə fəaliyyət göstərməyə əsas verən sənədlərdir. Amma bu fəaliyyəti yaratmaq, aparmaq, yenə də deyirəm, insanların hamısını buna inandırmaq, eyni zamanda ölkəmizi ayrı-ayrı xarici təzyiqlərdən qorumaq üçün çox işlər görmək lazımdır. Biz bu işləri görürük.

Bilirəm, o illər hamı üçün çətindir, amma Azərbaycan üçün daha da ağır, çətin olubdur. Sən buraya ilk dəfə 1989-cu ildə gəlmisən. O vaxt sən Azərbaycanda vəziyyəti görmüşdün. O zaman bir tərəfdə xalq idi, o biri tərəfdə isə kommunist hakimiyyəti idi.

Kommunist hakimiyyəti xalqı artıq idarə edə bilmirdi, ona görə xalq meydanlara tökülürdü, öz etirazını bildirirdi. Bunların da nəticəsində o vaxt, 1990-cı ilin yanvarında sovet hakimiyyəti, Moskva, xüsusən sovet hökumətinin başında duran Qorbaçov Azərbaycan xalqına qarşı böyük bir qəsd, təcavüz etdi, böyük qoşun hissəsini, tankları, silahlı qüvvəni bir gecənin içərisində Azərbaycana yeritdi. Günahsız insanlar qətlə yetirildi, qan töküldü, şəhidlər verildi.

Bu o zaman idi ki, Ermənistanla Azərbaycan arasında münaqişə gedirdi. Çox təəssüflər olsun ki, o vaxtlar sovet hökuməti, başda Moskva olmaqla sovet hakimiyyəti bu münaqişədə Azərbaycana ədalətsiz yanaşmışdı. Məsələn, 1988-ci ilin fevral ayında, Ermənistan–Azərbaycan

münaqişəsi yaranan zaman Dağlıq Qarabağda ermənilər qalxıb artıq Azərbaycandan imtina edəndə və Dağlıq Qarabağın Ermənistana bağlanması haqqında qərar qəbul ediləndə, şübhəsiz ki, o cür totalitar bir dövlətin, Sovet İttifaqı hökumətinin bu münaqişənin qarşısını almağa imkanı var idi.

Dağlıq Qarabağ vilayəti Azərbaycanda 1923-cü ildə yaranıbdır. O vaxta qədər heç zaman belə bir vilayət olmayıbdır. Azərbaycanın ərazisində ermənilər də, başqa millətlər də yaşayıbdır. Mən hesab edirəm ki, sovet hakimiyyəti tərəfindən Azərbaycana o vaxt birinci qəsd edilibdir. Bu da ondan ibarətdir ki, sovet hökuməti Azərbaycanın içərisində ermənilər üçün muxtariyyət qurumu yaradıbdır. Nə üçün?

Ermənilər hər yerdə yaşayırlar. Məsələn, Kaliforniyada da çoxlu ermənilər vardır. Amma Amerika onlara muxtariyyət hüququ verirmi? Vermir. Yaxud, əsrin əvvəlində, 1920-ci ilin əvvəllərində Ermənistanda nə qədər azərbaycanlılar yaşayıblar. Onlar da Dağlıq Qarabağda ermənilər yaşayan kimi yığcam, yəni bir ərazidə yaşayıblar.

Yadımdadır, Naxçıvanla Ermənistan arasında rayonlar var. Mən onları yaxşı tanıyıram, qabaqlar oraya çox gedib-gəlmişəm məsələn, orada Qəmərli, Vedi, Zəngibasar, Uluxanlı rayonları var idi. Naxçıvanın sərhədindən, Şərur rayonundan Ermənistanın o vaxtkı sərhədinə keçəndən – həmin sərhədi 1920-ci illərdə yaradıblar, əvvəllər belə sərhəd olmayıbdır – ta Yerevana qədər olan bütün rayonlar azərbaycanlı rayonlarıdır. Mən o vaxtlar bu yolu avtomobillə də çox getmişəm, həm də dəmir yolu vasitəsilə getmişəm. Onların hamısı azərbaycanlılarındır. Gedirdik, orada bir kənd, burda bir kənd, rayon mərkəzlərinin hamısı Azərbaycanındır, orada azərbaycanlılar yaşayırdılar. Hələ mən Ermənistanın bu hissəsini deyirəm.

Məsələn, Ermənistanın digər hissəsi, yəni Gürcüstana tərəf hissəsi də var. Orada da azərbaycanlılar yaşayırdılar. Yaxud, Zəngəzuru götürək. Məsələn, Sisyan, Gorus, Qafan rayonları – indi bunların adları Ermənistanda belə adlandırılır, amma onların hamısı Zəngəzura daxil olan torpaqlardır. Orada da yaşayanların əksəriyyəti azərbaycanlılar idi. Amma niyəsə nə orada, nə də bu biri yerdə azərbaycanlılara o vaxt muxtariyyət verilmədi.

Yaxud da ki, Gürcüstanı götürək. Gürcüstan ilə Azərbaycan sərhədində Borçalı qəzası var. Orada azərbaycanlılar çox yaşayırlar. Onlar o vaxt da, indi də orada yaşayırlar. Məsələn, ola bilərdi ki, orada azərbaycanlılara da muxtariyyət veriləydi. Amma verilməyibdir. Ancaq er-

mənilərə Dağlıq Qarabağda muxtariyyət veriblər və Muxtar vilayət yaradıblar.

Bax, burada Azərbaycan xalqına xəyanət edilibdir. Burada bir mina, yəni uzun müddətdən sonra partlayacaq mina qoyulubdur.

Bu tarixin hamısı mənə məlumdur. Mən bunların bir hissəsini tarixdən oxumuşam, bir hissəsinin də canlı şahidiyəm. Məsələn, Dağlıq Qarabağda ermənilər həmişə – 1930-cu illərdə də, 1940-cı illərdə də narahatçılıq ediblər. Mənim yadımdadır, 1950-ci illərdə onlar neçə dəfə məsələ qaldırmışdılar ki, Dağlıq Qarabağı Ermənistana bağlasınlar. Amma sovet hakimiyyəti bunun qarşısını almışdı.

Götürək 1960-cı illəri. O vaxt – 1950-1960-cı illərdə mən burada Dövlət Təhlükəsizliyi Nazirliyində işləyirdim. Xatirimdədir, o vaxtlar biz bu məsələlərin qarşısını dəfələrlə almışdıq. Yadımdadır, 1967-ci ildə Dağlıq Qarabağın mərkəzində – o vaxt ona Stepanakert deyirdilər – qanlı bir hadisə oldu. Ermənilər o vaxt yığışıb üç nəfər azərbaycanlını avtomobilin içərisində yandırdılar. Mən o zaman oraya getdim, on beş gün orada oldum. Böyük bir komissiya yaradılmışdı, mən də həmin komissiyanın tərkibində idim. Dəhşətli bir vəziyyət yaranmışdı. Onda da ermənilər qalxmışdılar ki, Dağlıq Qarabağı Ermənistana birləşdirmək lazımdır.

Sonra – 1970-ci illərdə mən Azərbaycana rəhbərlik etdiyim zaman ermənilər bir neçə dəfə bu məsələni qaldırmışdılar. Amma biz onun qarşısını almışdıq. Bunu açıq demək lazımdır, biz ona görə qarşısını almışdıq ki, Moskva hökuməti də buna yol vermirdi.

Yadımdadır, 1977-ci ildə SSRİ-nin yeni Konstitusiyası qəbul olunurdu. O vaxtlar yeni Konstitusiyada hər bir respublikanın adı, səlahiyyəti göstərilirdi. O zamanlar ermənilər Moskvaya məktublar yazmışdılar ki, Dağlıq Qarabağı Ermənistanın tərkibinə keçirsinlər. O vaxt bir Konstitusiya komissiyası yaradılmışdı. Konstitusiya komissiyasının sədri Sovet İttifaqının başçısı Brejnev idi. Mən də həmin Konstitusiya komissiyasının üzvü idim. Biz bir neçə dəfə toplaşmışdıq. Mən Moskvaya, Konstitusiya komissiyasının iclasına gələndə orada bir neçə dəfə həddindən artıq məktublar, kağızlar, sənədlər çıxardılar ki, məsələni belə qoyurlar, bəlkə bu məsələyə baxaq. Mən buna qəti etiraz etdim. Sovet hakimiyyəti öz dövlət quruculuğu sistemini yaratmışdı, – təxminən 1920–30-cu illərdə yaratmışdı, onu dəyişdirmək istəmirdi. Ona görə də belə məsələlərin qarşısı alınırdı.

Ancaq təəssüflər olsun ki, Dağlıq Qarabağ erməniləri və Ermənistan 1988-ci ildə bu məsələni qaldıranda bunun qarşısı alınmadı. Bu da

hərbi münaqişəyə, qanlı müharibəyə gətirib çıxardı. Buna görə Azərbaycan xalqına sovet hakimiyyətinə qarşı böyük bir etiraz, narazılıq var idi. Bu da əsaslı, ədalətli idi. Çünki Azərbaycana qarşı ədalətsizlik edilmişdi. Birinci ədalətsizlik o vaxt, ikinci ədalətsizlik – həm xəyanət, həm cinayət 1990-cı ilin yanvarında edilmişdi.

Bunlar hamısı Azərbaycanın daxili vəziyyətini gərginləşdirmişdi. Sən yaxşı bilirsən, hamıya məlumdur, – ondan sonrakı dövrdə də torpaqlarımızı qorumaq ermənilərin qarşısını almaq əvəzinə Azərbaycanın daxilində hakimiyyət uğrunda mübarizə gedirdi.

1990-cı ildə Azərbaycanda hakimiyyət dəyişdi və dəyişilməli idi. Çünki həmin hakimiyyət Azərbaycan xalqını gətirib 20 Yanvar faciəsinə çıxardı. Ondan sonra gələn hakimiyyət düzgün siyasət aparmadı. O vaxt hakimiyyətdə Vəzirov idi. O, respublikanı qoyub Rusiyanın təyyarəsində qaçdı. Rusiyanın hərbi qüvvələri onu Moskvaya qaçırdı. Sonra isə Mütəllibov hakimiyyətə gəldi. O da anlamadı, nəticə çıxara bilmədi ki, Azərbaycan xalqının mənafelərini müdafiə etmək lazımdır. Ona görə də iki il hakimiyyətdə qala bilmədi. Onu da xalq qovdu və 1992-ci ilin may ayında o da buradan qaçmağa məcbur oldu. Onu da yenə Rusiya ordusunun hərbi təyyarəsində Bakıdan çıxardılar, ondan sonra gedib Moskvada gizlənir. Vəzirov da Moskvada gizlənir. Onlar qanlı yanvar faciəsinin günahkarlarıdır. Onlar Azərbaycan xalqı qarşısında cavab verməlidirlər. Bu gün də cavab verməsələr, sabah cavab verəcəklər. Tarix bütün bunları onlardan soruşacaqdır. Çünki onlar Azərbaycan xalqına xəyanət ediblər.

Mən hesab edirəm ki, XX əsrdə Azərbaycan xalqına 20 Yanvar xəyanəti kimi heç kəs xəyanət etməmişdir. Bunu Azərbaycan xalqının uzun illər itaət etdiyi sovet hökuməti etdi. amma buna şərait yaradan, bu hadisəni yaradan o vaxt Azərbaycanın başında duran adamlar – Vəzirov, Mütəllibov kimi adamlar olub.

Bundan sonra yenə də hakimiyyət uğrunda mübarizə tükənmədi. Mütəllibov qovuldu, hakimiyyətə başqaları gəldi. Amma bunlar bir tərəfdən hakimiyyəti saxlaya bilmədilər, digər tərəfdən də ayrı-ayrı qüvvələr yenə çəkişməyə başladılar. Bir ildən sonra Azərbaycanda ictimai-siyasi böhran, dövlət böhranı yarandı.

Sən bilirsən ki, 1993-cü ilin iyun ayında artıq Azərbaycan dağılırdı, parçalanırdı. O vaxt hakimiyyətdə olanlar hamısı qaçdı. Baş nazir, Ali Sovetin – Milli Məclisin sədri istefa verdi. Məni dəvət edib iyunun 15-də Ali Sovetə – Milli Məclisə sədr seçdilər. İki gündən sonra prezident öz kürsüsünü qoyub qaçdı. Ölkəmizin cənubunda bir dəstə Azərbaycanı parçala-

maq istəyirdi. Bilirsən ki, Surət Hüseynov və başqaları Gəncədə hakimiyyəti əllərinə almışdılar. Azərbaycanın şimalında artıq ölkəmizi çalxalayırdılar. Azərbaycan vətəndaş müharibəsi dövrü, çətin bir dövr keçirirdi.

Ondan sonra biz vəziyyəti xırda-xırda normallaşdırmağa, sabitlik yaratmağa başladıq. Ancaq daxildə olan qüvvələr, xaricdən istiqamətləndirilən qüvvələr – şübhəsiz ki, onlar xaricdən istiqamətləndirilirdilər – yenə də Azərbaycanı parçalamaq, dağıtmaq istədilər. Xatirindədir, 1994-cü ilin oktyabr ayında burada dövlət çevrilişinə cəhd oldu. Bu zaman həmin o daxili, – hakimiyyət uğrunda mübarizə aparan, – həm də xarici qüvvələrin hamısı bir yerdə idi. Qaçıb Moskvada oturan azərbaycanlılar da bu işin içində idilər. Təsadüfi deyildir ki, biz o məsələni yatırandan sonra həmin hadisənin günahkarları Surət Hüseynov, Rəhim Qazıyev və başqaları – hamısı qaçıb Moskvada gizləndilər. Onlara Moskvada sığınacaq verdilər.

Amma yenə də haqq, ədalət özünü göstərdi, onlar orada yaxalandılar, gətirildilər və ədalət məhkəməsinin qarşısında durdular.

Yaxud ondan altı ay keçməmiş, 1995-ci ilin mart hadisələri. Cinayətkar bir qrup, OMON dəstəsində cinayətkar qrupa çevrilmiş omonçular tək deyildilər. Onlar tək deyildilər, onları da xarici ölkələrin xüsusi xidmət orqanları istiqamətləndirirdi. Amma təkcə onlar yox. Həmin o mart hadisələrinə görə həbs olunanların içərisində Mütəllibovun da emissarı, Mütəllibovun da göndərdiyi adam vardı, gəlib onlarla hakimiyyət bölüşməsi aparırdı; Əbülfəz Elçibəyin də nümayəndələri vardı və Müsavat Partiyasının da nümayəndələri vardı. Yenə də Azərbaycanı dağıtmaq istəyirdilər.

Amma Azərbaycan artıq o Azərbaycan deyildi. Azərbaycan öz qüdrətini müəyyən qədər toplamışdı, – biz bunların qarşısını aldıq. Sonra da Azərbaycanın daxilində sabitliyi pozmağa çalışan qüvvələr oldu. Terror etmək cəhdləri oldu. Məsələn, indi bizim üçün tam aşkar olub, – əvvəl də aşkar idi, – amma indi tamamilə sübut olunubdur ki, 1995-ci ilin avqust, ya sentyabr ayında mən rəsmi səfərdən – Rumıniyadan, Bolqarıstandan qayıdarkən təyyarəni raketlə vurmaq istəyirdilər. Bəli, bu daxildə yenə hakimiyyət uğrunda mübarizə aparanların, eyni zamanda, xarici ölkələrin xüsusi xidmət orqanlarının göstərişi ilə idi. Onlar gözləyirmişlər ki, təyyarə vurulandan sonra bir neçə saatın içərisində ayrı-ayrı qüvvələr xaricdən Azərbaycana dolacaqlar. Bu, artıq sübut edilibdir. Başa düşürsənmi?

Ona görə də mən sənə deyirəm ki, Azərbaycanın bu müstəqillik yolu çox ağır, çətin olubdur. Ancaq biz bu yolu şərəflə keçmişik. Şübhəsiz

ki, itkilər vermişik, çox əzab-əziyyət çəkmişik. Amma bu yolu şərəflə keçmişik və xalqımızı sübut etmişik, xalqımıza inandırmışıq ki, bizim yolumuz müstəqillik yoludur və Azərbaycan müstəqil dövlət kimi yaşayır, yaşayacaqdır. Heç bir xarici qüvvə, daxildə Azərbaycanın dövlətçiyinə zidd heç bir qüvvə, dövlətçiliyi pozmaq istəyən qüvvə burada özünə yer tapa bilməyəcəkdir. Hamısı məğlub olacaqdır. Mən bunu qətiyyətlə deyirəm və Siz bütün azərbaycanlılara çatdırın.

Bax, biz bu yolla gedirik. Bir də deyirəm, bizim fəaliyyətimizin əsas hissəsi Azərbaycanın müstəqilliyini qorumaq, saxlamaq və irəliyə aparmaqdır.

Bununla yanaşı, şübhəsiz ki, biz iqtisadi məsələləri həll etməliyik. Şübhəsiz ki, bu keçid dövründə insanların bir çoxunun vəziyyəti ağırdır, çətin bir dövr keçirirlər. Bu da təbiidir. Çünki mülkiyyət forması dəyişir. Əvvəl sosialist mülkiyyəti idi, hər şey dövlətin idi. Fabriklər, zavodlar işləyirdi, insanlar da hamısı işləyirdi, məvacib alırdılar və məvaciblə yaşayırdılar. Əksəriyyəti də yaxşı yaşayırdı. Kasıblar da vardı, amma əksəriyyəti də yaxşı yaşayırdı.

Ancaq biz o sistemdən imtina etdik. Mülkiyyət forması dəyişilir, özəlləşdirmə gedir, torpaq islahatı gedir. Məsələn, artıq biz torpağı kənddə olan kəndlilərə paylamışıq. Ancaq indi o torpaqdan istifadə etmək asan deyildir. Vaxtilə bunlar dövlət tərəfindən maliyyələşdirilirdi, texnikanı dövlət verirdi, yanacağı dövlət verirdi, başqa ləvazimatları, gübrəni dövlət verirdi. Amma indi dövlət bunları verə bilməz. Çünki indi torpaq artıq şəxsi mülkiyyətdir. Kəndli bu torpağı almağına sevinir, amma ondan istifadə etmək üçün nə qədər çətinliklərlə rastlaşır. Çünki onun torpağı var, amma istənilən qədər vəsaiti yoxdur ki, o torpaqdan istifadə eləsin və gəlir götürsün, öz maddi vəziyyətini daha da yaxşılaşdırsın.

Bu il kəndlilərə, torpaq sahiblərinə şərait yaratmaq üçün mən ciddi bir fərman qəbul etdim. Kənd təsərrüfatında işləyənlərin, kəndlilərin bir çox vergiləri vardı. Biz bu vergilərin hamısını ləğv etdik, mən fərmanımla ləğv etdim.

Yaxud da, məsələn, kəndlilər yanacağı bazar qiyməti ilə alaraq torpaqda bir şey əkib-becərib satanda qoyduğu sərmayə ilə, pulla qazandığı pul başa-baş gəlir, yaxud hətta onlara zərər verir. Onda da deyir ki, mən niyə bu torpaqdan istifadə edim ki, xeyir götürmürəm. Buna görə də ona bu şəraiti yaratmaq üçün biz 70 min ton yanacaq ayırdıq ki, torpaq sahiblərinə güzəştli qiymətlərlə verilsin, onlar torpaqdan istifadə etsinlər. İndi mən bu işə nəzarət edirəm. Mənə vaxtaşırı məlumatlar verirlər ki,

bundan sonra kənddə işlər canlanıb, insanlar torpaqdan daha yaxşı istifadə edirlər. Hesab edirəm ki, bu il kənd təsərrüfatı məhsulları daha da çox artacaqdır.

Yəni, görürsən nə cür çətinliklər var! Yaxud da, biz özəlləşdirmə aparırıq. Məsələn, fabriklərin, zavodların çoxunu vermişik özəlləşdirməyə. Ancaq bunu alıb istifadə etmək üçün çoxlarının pulu, vəsaiti yoxdur. Çünki o zavodların, fabriklərin çoxu köhnədir. Onların bəziləri sovet hakimiyyəti vaxtı lazım idi, amma bu gün lazım deyildir. Məsələn, sovet hakimiyyəti vaxtı bizdə yüngül sənaye vardı. Özümüz pambıq, yun istehsal edirdik. Bəli, burada parça – mahud, başqa şeylər toxuyurduq. Onlardan fabriklərdə paltar tikir, satırdılar. Çünki təkcə Azərbaycan üçün yox. Bu malları hazırlayıb verirdilər Sovet İttifaqına, o da birini buraya, birini oraya göndərirdi. Heç kəs də fikirləşmirdi ki, bunu nə cür satacaqdır.

Məsələn, bizim ayaqqabı fabriklərimiz vardı. Mənim xatirimdədir, 70-ci illərin axırında Moskva prospektində gözəl bir ayaqqabı fabriki tikdirdim, – ola bilər, görəsən, – çox gözəl fabrik tikdirdim, müasir avadanlıq gətirdik. Amma iş bundadır ki, o vaxtlar Sovetlər İttifaqı daxilində buraxılan ayaqqabıların hamısı eyni idi. Bəziləri deyirdi ki, Leninqradda hazırlanan ayaqqabı Bakı ayaqqabısından keyfiyyətlidir, ona görə Leninqrad ayaqqabısı alaq. Amma çoxları, əksəriyyət Bakının ayaqqabısından istifadə edirdi.

İndi isə sərhədləri açmışıq, dünyanın hər yerindən ayaqqabı gətirirlər. Yadımdadır, o vaxt Çexoslovakiya ayaqqabısı yüksək keyfiyyətli ayaqqabı hesab olunurdu. Ona görə Sovet İttifaqında hamı deyirdi ki, Çexovlovakiya ayaqqabısı almışıq. Amma indi o yoxdur. Yadımdadır, orada «Batya» fabriki vardı, Batya adam adıdır, hələ Çexoslovakiyada kapitalizm vaxtından fabrik onunku idi, sonra sosialist sistemi qurulanda onlar onu yaxşı işlədirdilər və Sovet İttifaqına çoxlu ayaqqabı göndərirdilər. Amma indi İtaliyada, Almaniyada, başqa ölkələrdə o qədər yüksək keyfiyyətli ayaqqabılar istehsal edilir ki, nəinki bizim ayaqqabılar onlarla ayaqlaşa bilmir, hətta Moskvanınkı, Leninqradınkı da ayaqlaşa bilmir. Yəni bazar iqtisadiyyatına keçidin problemləri çoxdur.

Məsələn, o vaxtlar biz burada güclü elektron sənayesi yaratdıq. Elektron sənayesi yaratdıq. Elektron sənayesi nədən ötrü lazım idi? Hərbi sənaye üçün lazım idi, demək, silah, təyyarə, raketlər və s. qayırmaq üçün lazım idi. İndi o gözəl-gözəl zavodların, hansılara ki, biz milyonlarla vəsait qoymuşduq, istehsal etdiyi məhsulu satmaq çətindir. Çünki Sovetlər İttifaqının istehsal etdiyi silahlar qədər indi heç yerdə silah istifadə olunmur.

İndi orada, Rusiyada özlərininki var. Biz əvvəl bu zavodların məhsulunu Rusiyanın başqa-başqa mərkəzlərinə göndərirdik, harada ki, hərbi sənaye var idi. Amma indi onlara tələbat yoxdur.

Bax, bu, keçid dövrünün çətinlikləridir. Amma bu çətinliklərə baxmayaraq, geriyə dönüş yoxdur. Biz irəliyə gedirik və hesab edirəm ki, Azərbaycanda bazar iqtisadiyyatı inkişaf edir və edəcəkdir.

Xarici investisiyanın cəlb olunması üçün biz neft sahəsində çox böyük işlər görmüşük. Sən bunu bilirsən. 19 müqavilə imzalanıbdır. Onların iştirakçıları içərisində Amerika şirkətləri çoxdur. O cümlədən, məsələn, «Şevron» şirkətinin iqamətgahı Kaliforniyadadır. Mən Amerikaya gedəndə onlar məni çox dəvət etdilər ki, Kaliforniyaya gəlim, onlar orada yerləşirlər.

**Yaqub Zurufçu:** Siz qərar vermişdiniz ki, gələsiniz.

**Heydər Əliyev:** Bəli, bəli, amma imkan olmadı. Bu müqavilələr Azərbaycana böyük sərmayə gətirir. Azərbaycana 2 milyard dollardan artıq sərmayə qoyulubdur. Artıq biz birinci konsorsiumdan bəhrələr götürürük, neft çıxarırıq. Bu il «Çıraq» platformasından 5 milyon ton neft çıxarılıb ixrac olunacaq və bu, get-gedə artacaqdır. «Şahdəniz» neft-qaz yatağı var, bu yaxınlarda onun imkanlarını açıblar. Oradan azı 700 milyard kubmetr qaz gözlənilir. Amma deyirlər ki, bir trilyondan çox olacaqdır. Demək, biz artıq nəinki böyük neft ölkəsi, həm də böyük qaz ölkəsiyik. Biz iki-üç ildən sonra özümüzü də qazla təmin edəcəyik, amma dünyaya da qaz satacağıq. İndi fikirləşirik ki, yeni bir qaz kəməri tikək. Biz bu işlərə qısa müddətdir, – 1994-cü ildə başlamışıq. Bu ilin sentyabrında həmin müqavilənin beş ili tamam olacaqdır. Amma gör, nə qədər sərmayə gəlibdir, Azərbaycanda nə qədər dəyişikliklər olubdur.

Biz bütün başqa sahələrə də sərmayə cəlb etmək istəyirik. Düzdür, orada bizim nailiyyətlərimiz neftdəki kimi deyildir. Amma orada da işlər gedir. Orada da özəl müəssisələr yaranır, ayrı-ayrı sərmayəçilər gəlir. Doğrudur, gərək mən bu məsələlərlə, nə təhər deyərlər, yaxından məşğul olum. Xarici sərmayəçilər mənə şikayət edirdilər ki, Azərbaycanın bəzi dairələrində, yəni dövlət hökumət orqanlarındakı bürokratiya cürbəcür maneələrlə sərmayəçilərin çoxunun Azərbaycana gəlməsinin qabağını alır. Bu şikayətlər var.

**Yaqub Zurufçu:** Onu mən də bilirəm.

**Heydər Əliyev:** Görürsən, sən də bilirsən.

**Yaqub Zurufçu:** Bu gün axşam da mənə biri dedi ki, cənab prezidentlə görüşəndə bildir ki , biz buraya iş görməyə gəlirik. Amma maneçilik törədirlər.

**Heydər Əliyev:** Görürsən, bunu sən mənə deməzdən əvvəl mən sənə deyirəm. Mən bunları bilirəm. Bizim Nazirlər Kabinetinə, nazirliklərə bu barədə çox göstərişlər vermişəm. Amma çox təəssüf ki, – mən açıq deməliyəm, – bu problem hələ həll olunmayıbdır. Mən bu yaxın zamanlarda sahibkarlarla görüşəcəyəm, xarici investorlarla görüşəcəyəm. Baxacağam, bəlkə də bəzi qanunları, bəzi qaydaları dəyişdirmək lazımdır ki, xarici sərmayəçilərin Azərbaycana gəlməsini yüngülləşdirək. Bu, birincisi. İkincisi də, ayrı-ayrı adamların öz şəxsi mənafeyi üçün xarici investorları Azərbaycandan, nətəhər deyərlər, uzaqlaşdırmaq hallarının da qarşısını alaq.

Bu da çoxdur. Çünki təəssüflər olsun ki, bizim adamların bəziləri mənəviyyatca çox korlanıblar. Onlar Azərbaycanın mənafeyini güdmür, bəziləri öz mənafeyini güdür. Ona görə də xarici investor gələndə, onun qabağına öz mənafeyi üçün elə şərtlər qoyur ki, o da görür ki, şübhəsiz, bu şərtlə burada iş görə, gəlir götürə bilməz və çıxıb gedir. Belə hallar da var. Artıq bu da mənə gəlib çatıbdır. Mən bunlarla ciddi məşğul olacağam. Biz bunları, nöqsanları da aradan qaldıracağıq.

Yəni, orada yaşayan azərbaycanlılar qoy bilsinlər, – düzdür, Azərbaycanda sərmayənin cəlb olunması üçün çətinliklər var, ancaq bunlar müvəqqəti xarakter daşıyır. Çünki onlar bizim hökumətin siyasəti deyil, dövlətin siyasəti deyil, ayrı-ayrı adamların Azərbaycana xidmət etmək əvəzinə Azərbaycana zərər gətirməsinin, bəlkə də bəzi qanunların nəticəsidir. Məsələn, investorlar bəzən mənə deyirlər ki, bir məsələni həll etmək üçün gərək, nə bilim, yüz dənə imza toplayasan, yüz yerdən icazə alasan. Hər icazə alanda burada bir az gecikdirirlər, orada bir az gecikdirirlər. Başa düşürsən? Ona görə investor da deyir ki, bu nədir, axı, belə şey olmaz, sərbəst iqtisadiyyat belə olmaz!

Bununla Azərbaycanın mənafeyini qorumaq yox, Azərbaycana zərər gətirirlər. Bunların da qarşısını alacağıq. Beləliklə, Azərbaycan sərbəst iqtisadiyyyat, bazar iqtisadiyyatı yolu ilə gedir və gedəcəkdir. Qoy Kaliforniyada, Amerikada bizim soydaşlarımız bilsinlər. Bilsinlər ki, Azərbaycanın yolu budur.

Sən Azərbaycanın bugünkü reallığını da görürsən. Sən Azərbaycana gəlib-gedirsən, hər halda şəhəri görürsən. Hər halda dəyişiklikləri də görürsən. Məsələn, bu ağır dövrdə bizim özəl sektorda çox tikintilər gedir, çox işlər görülür. Bu da var. Nöqsanlar da var, amma nailiyyətlər də var.

Məsələn, bizim maliyyə sistemi indi yaxşı vəziyyətdədir. Baxmayaraq ki, nöqsanlar vardı. Məsələn, mən maliyyə nazirini işdən götürdüm, yeni nazir təyin eləmişəm. Artıq görürəm ki, yaxşı işləyir və güman edi-

rəm ki, yaxşı işləyəcəkdir. Başqa bir dəyişiklik. Məsələn, bizdə vergi müfəttişliyi çox pis vəziyyətdə idi. Neçə dəfə mən Baş Vergi Müfəttişliyinin rəisinə xəbərdarlıq etdim. Ancaq birincisi, o təşkilat zibillənmişdi, ikincisi də, çoxları vergini gizlədirdilər, demək, dövlətə zərər vururdular. Mən hələ keçən il, – deyəsən, oktyabr ayında idi, – Baş Vergi Müfəttişliyinin ərizəsinə çox ciddi xəbərdarlıq etdim, ona bir az da vaxt verdim. Başa düşürsən, mən insanlara rəhmli yanaşıram. İstəyirəm ki, insanlar öz nöqsanlarını anlasınlar, aradan götürsünlər. Amma baxıb görəndə ki, yox, bunlar düzələsi adam deyil, yaxud, sadəcə bacarıqsız adamdır, bacarığı bundan yuxarıya qalxa bilməz, – şübhəsiz ki, belə adamları dəyişirik. Məsələn, vergi müfəttişliyinin başçısını çıxartdım, yeni bir gənc adam qoymuşam. Sədalar gəlir ki, yaxşı başlayıbdır, yaxşı işləyir.

Yəni bu, həyatdır, başa düşürsünüz. Hökuməti, dövləti idarə etmək çox asan məsələ deyildir. Amma bu işlərlə biz gündə məşğul oluruq və məşğul da olacağıq.

Şübhəsiz ki, bizim hamımızı incidən, hamımızı narahat edən, hamı üçün ağır olan problem Ermənistan–Azərbaycan münaqişəsidir, bunun nəticəsində Azərbaycanın torpaqlarının 20 faizinin işğal olunmasıdır, bir milyondan artıq soydaşlarımızın yerindən-yurdundan didərgin düşməsidir, çadırlarda yaşamasıdır.

Düzdür, bizim böyük bir nailiyyətimiz odur ki, atəşi dayandırdıq. Beş ildir ki, qan tökülmür. Beş ildir ki, atəşkəs şəraiti yaratmışıq. Əgər biz bu atəşkəs şəraitini yaratmasaydıq, iqtisadiyyatda, həyatımızda bu dəyişiklikləri edə bilməzdik. Bir tərəfdən müharibə apar, insanları gündə göndər oraya, hər gün şəhidlər qəbul elə, o biri tərəfdən də başqa işləri gör – bu, mümkün deyildir! Mümkün deyildir! Ona görə 1994-cü ilin mayında biz atəşkəsə razı olduq – Ermənistan da razı oldu, biz də razı olduq. Buna riayət edirik. Mən dəfələrlə bəyan etmişəm və bu gün də deyirəm ki, biz buna riayət edəcəyik. Riayət edəcəyik ki, məsələni sülh yolu ilə həll edək.

Doğrudur, bu da asan deyildir. Çünki Ermənistan tərəfi bizim torpaqları işğal etdiyinə görə, şübhəsiz ki, öz iddialarından əl çəkmir. Onlar Dağlıq Qarabağı hələ 1988-ci ildə işğal ediblər. Dağlıq Qarabağda Azərbaycanın hakimiyyəti 1988-ci ildən tamamilə fəaliyyətini dayandırıbdır. Amma Dağlıq Qarabağın ətrafında sırf azərbaycanlılar yaşayan, Dağlıq Qarabağa mənsub olmayan rayonlarımızı da işğal ediblər. İşğal etdiklərinə görə onlar öz iddialarından əl çəkmirlər.

Danışıqlar aparırıq. Bilirsən ki, artıq iki dəfədir – həm Vaşinqtonda, həm də Cenevrədə – Ermənistan prezidenti Robert Koçaryanla görü-

şüb çox geniş və gərgin danışıqlar aparmışam. Görünür ki, bu danışıqları da aparmaq lazımdır, bir yol tapmaq lazımdır. Yəni o tərəf də dirəşsin, bu tərəf də dirəşsin, hər kəs bir addım eləsin – onda heç bir məsələ həll olunmayacaqdır.

Məsələn, Cenevrədən qayıdandan sonra mən dedim ki, biz hər iki tərəfdən kompromislər axtarırıq. Bunun özü yaxşı haldır. Güman edirəm ki, əgər o tərəfdən də, bu tərəfdəndə kompromis olmasa, məsələni həll etmək çox çətin olacaqdır. Ancaq mən inanıram – inanıram ki, biz bu məsələni həll edəcəyik. İnanıram ki, biz işğal olunmuş torpaqları azad edəcəyik və inanıram ki, ağır vəziyyətdə yaşayan soydaşlarımız öz yerlərinə-yurdlarına qayıdacaqlar.

Ancaq iş bundadır ki, – sən Amerikada, Kaliforniyada yaşayırsan, – ermənilərin təbliğatı nə qədər güclüdür, bilirsən.

**Yaqub Zurufçu:** Çox güclüdür.

**Heydər Əliyev:** Mən bu dəfə Vaşinqtona gələndə əvvəlcədən bir proqram düzəldilmişdi ki, Kaliforniyaya gedim. Yadındadır, hələ mən gəlməmişdən üç ay qabaq orada ermənilər nə qədər hay-küy qaldırmışdılar. Qəzetlərdə yazırdılar: «Biz Heydər Əliyevi Kaliforniyaya buraxmayacağıq». Yəqin ki, sən bunları qəzetlərdən bilirsən.

Amerikada ermənilərin əksəriyyəti Kaliforniyada yaşayır və Kaliforniya Amerikanın ən zəngin bir yeridir. Orada olan ermənilər də hamısı zəngindir, – sən bilirsən, – Amerikanın hökumətinə təsir edirlər, Konqresdə onların tərəfdarları çoxdur. Bu tərəfdarlar da bu gün yaranmayıbdır. Bunlar on illərlə yaranıbdır. Vaxtilə Amerikada Azərbaycanı tanıyan yox idi. Amma erməniləri tanıyan həmişə olubdur. Çünki ermənilər yüz ildən artıqdır ki, Amerikada yaşayırlar, bəlkə də ondan da çox.

**Yaqub Zurufçu:** Dövlətdə çox yerləri var.

**Heydər Əliyev:** Dövlətdə çox yerləri var. Təkcə Amerikada yox, Fransada da, Avropanın bütün ölkələrində. Hansı ölkəni görürsən-götür, orada erməni var və ermənilər də hər yerdə təsirlidirlər, güclüdürlər.

Onların təbliğatı da çox güclüdür. Ermənının xüsusiyyəti belədir ki, heç Dağlıq Qarabağın nə olduğunu bilməyən adam, nəsli iki yüz il Amerikada, Kaliforniyada yaşayan adam Dağlıq Qarabağ haqqında düşünür. Amma təəssüf ki, bizim Azərbaycanlılarda belələri azdır. Doğrudur, yoxsa yox? Düz deyirəm yoxsa yox?

**Yaqub Zurufçu:** Bəli. Əlbəttə, cənab prezident. Onu deyim ki, orada azərbaycanlılar şah dövründə yaşamış azərbaycanlılardır. Məndən

yaxşı bilirsiniz ki, şah zamanında yaşamış azərbaycanlılara imkan verilməyib ki, onlarda milli hisslər yaransın. Buna görə onlar özlərini milli məsələdən bir az uzaq göstərirlər.

**Heydər Əliyev:** İndi də edək? Amma bunlar Azərbaycanlıdır, biz onlara ümid bəsləyirik. Amma əgər onların milli hissləri yoxdursa, bu da bizim, nə təhər deyərlər…

**Yaqub Zurufçu:** Amma indi günbəgün düzəlir. O hadisədən 20 il keçib, uşaqları ki, ərsəyə gəliblər, milli hissləri başa düşürlər.

**Heydər Əliyev:** Başa düşürlər ki, hansı millətə mənsubdurlar.

**Yaqub Zurufçu:** Ona görə mən çox çalışırdım ki, Sizinlə görüşəm. Doğrudan da, Sizdən çox razıyam ki, bunları açıqladınız.

**Heydər Əliyev:** Bəli, sən orada onlara çatdır. Sən özün dedin ki, orada 300-400 minə qədər azərbaycanlı yaşayır. Elədirmi?

**Yaqub Zurufçu:** Kaliforniyada ən azı 400 min nəfər azərbaycanlı yaşayır.

**Heydər Əliyev:** Yalnız Kaliforniyada, ya başqa yerlərdə?

**Yaqub Zurufçu:** Yox, ancaq Kaliforniyada.

**Heydər Əliyev:** Kaliforniyada. Yaxşı, orada erməni nə qədər yaşayır?

**Yaqub Zurufçu:** Los–Ancelesdə 500 min erməni yaşayır.

**Heydər Əliyev:** 500 min. Yaxşı, say etibarilə o qədər fərqli deyildir. Elədirmi? Ancaq ermənilər nə iş görür? İndi mən səndən soruşuram. Məsələn, mən Vaşinqtona gələndə bir proqram düzəldilmişdi ki, Kaliforniyaya gəlim. Ermənilər mənim oraya gəlməyimin əleyhinə o cür qalxdılar. Azərbaycanlılar öz sözlərini dedilər, yoxsa yox?

**Yaqub Zurufçu:** Bəli, bəzi insanlar televiziyada çıxış etdilər. Mən özüm də gördüm. Özüm də bir dəfə radio ilə çıxış etdim ki, bu, şəxsi məsələ, şəxsi proqram deyildir. Bu dövlət səviyyəsində tədbirdir, prezident buraya gəlməlidir və buna heç bir maneə görmürəm. Amma ümumiyyətlə, ermənilər belə düşünə bilmirdilər. Çünki, necə deyərlər, şəxsi mənafelərini çox nəzərə alırlar.

**Heydər Əliyev:** Necə yəni düşünə bilmirlər? Sadəcə, onlarda milli hiss çox güclüdür. Mən Kaliforniyaya gələcəkdim, sadəcə, imkanım olmadı. Gəlib o ermənilərlə üz-üzə duracaqdım onlar orada mənim əleyhimə nə qədər mitinq eləsəydilər, yaxud da mənə daş atsaydılar, mən onların qabağına çıxacaqdım. Çıxacaqdım və deyəcəkdim ki, siz ədalətsizsiniz, siz Amerika kimi inkişaf etmiş, demokratiyada inkişaf etmiş bir dövlətdə yaşayırsınız, Amerikanın vətəndaşlarısınız, amma nə qədər ədalət-

sizsiniz! Mən bunları deyəcəkdim. Amma mənim proqramım imkan vermədi, ona görə də oraya gələ bilmədim. Ancaq inşaallah, gələcəyəm! Mən arzu edərdim ki, gəlib orada azərbaycanlılarla da yaxşı görüşə bilim.

**Yaqub Zurufçu:** İnşaallah, çox gözəl olardı.

**Heydər Əliyev:** Amma istəyirəm ermənilərlə də üz-üzə durum, sözlərimi onlara deyim, qoy onlar da mənə sözlərini desinlər. Onların haqqı yoxdur. Amma onların hər yerdə tərəfdaşları çoxdur. Konqresdə tərəfdaşları doludur. İndi burada bizim bəzi müxalifət qəzetləri yazırlar ki, niyə bu qədər keçmədi? Son üç-dörd ildə Amerikanın Senatında, Konqresində bizim tərəfdaşlarımız sıfırdan, ola bilər ki, 50-60 faizə çatıbdır. Sıfırdan! Biz bunu qısa müddətdə eləmişik. Ancaq hələ vaxt, zaman lazımdır onlara sübut edək ki, bəli, onların əksəriyyətinin beyinləri elə dolub ki, guya Ermənistan – Azərbaycan münaqişəsinin günahkarı Azərbaycandır. Onların beynini elə doldurublar ki, guya azərbaycanlılar Dağlıq Qarabağda erməniləri incidiblər, nə bilim, soyqırımı ediblər. Amma əsilində bu, yalandır.

Mən Azərbaycana 14 il başçılıq etdiyim zaman bunu dəfələrlə demişəm, bu gün də deyirəm: ermənilər Dağlıq Qarabağda Azərbaycanın bütün bölgələrində olan insanlardan yaxşı yaşayırdılar. 1970-ci illərdə və 1985-ci ilə qədər Dağlıq Qarabağın iqtisadi inkişaf sürəti Azərbaycanın ümumi inkişaf sürətindən nə qədər üstün idi. Amma ona baxmayaraq onlar yenə də «bizə Ermənistan lazımdır» dedilər.

Hansı ölkədə bizim diasporumuz var idi ki, biz onlarla əlaqə saxlayaq? Amma hələ o vaxt, sovet hakimiyyəti vaxtında mən dəfələrlə Ermənistana getmişdim, onların bayramlarında iştirak etmişdim. Orada bildirirdilər ki, bu, Amerikadan, bu, Fransadan, Avropanın digər ölkələrindən gələn erməni nümayəndə heyətləridir – xarici ölkələrdən ermənilər Ermənistana gəlirdilər. Amma bizə başqa ölkələrdən bir azərbaycanlı gəlirdimi? Heç kəs gəlmirdi. Ona görə də onlar uzun illər öz diasporları, erməni lobbiləri ilə əlaqədar olublar və əlbəttə, müstəqillik əldə edəndən sonra bu əlaqələr genişlənibdir. Şübhəsiz ki, münaqişəni həll etmək üçün bütün bunlar bizə çox çətinliklər yaradır. Amma bunlara baxmayaraq, mən inanıram ki, biz bu məsələni də həll edəcəyik.

Beləliklə, Azərbaycanın çox gözəl gələcəyi vardır. Azərbaycan bir demokratik, hüquqi dövlət, demokratik, dünyəvi cəmiyyət, sivilizasiyalı ölkə kimi günü-gündən inkişaf edəcəkdir və Azərbaycan xalqının rifah halı günü-gündən inkişaf edəcəkdir və Azərbaycan xalqının rifah halı günü–gündən yaxşılaşacaqdır.

Mənim arzum nədir? Arzum budur ki, azərbaycanlılar harada olurlarsa-olsunlar, onlarda milli hiss daha da çox oyansın. Sizin də, bizim hamımızın da borcu ondan ibarətdir ki, Azərbaycandan kənarda yaşayan azərbaycanlıların milli hissiyyatlarını oyadaq. Nəinki təkcə oyadaq ki, onlar yuxudan oyansınlar, həm də onlar güclənsinlər. Bu millilik bizi birliyə gətirir, yaxınlaşdırır. Bu millilik dövlətimizin əsasını yaradıbdır.

Buna görə də xahiş edirəm, sən mənim bu sözlərimi televiziya vasitəsilə çatdırasan. Heç olmasa Kaliforniyada yaşayan azərbaycanlılar qoy məni eşitsinlər, mənim bu sözlərimi eşitsinlər. Mən arzu edirəm ki, onlar Azərbaycana gəlsinlər, Azərbaycanı görsünlər. Görsünlər ki, azərbaycanlıların da müstəqil ölkəsi, dövləti vardır. Mən deyirəm, – bu, son əsrlərdə ilk dəfədir. Özü də bu dövlət yaşayır və yaşayacaqdır, biz artıq dünya birliyində özümüzə yer tutmuşuq. İndi Azərbaycanla hesablaşırlar. Azərbaycan bütün beynəlxalq təşkilatlarda öz mövqeyini göstərir. Azərbaycana hörmət, ehtiram vardır. Bunlar hamısı hər bir azərbaycanlını ruhlandırmalıdır, hər bir azərbaycanlıda milli hissləri daha da gücləndirməlidir. Mən xahiş edirəm, bunları çatdırasınız.

Əgər sən mənim bu dediklərimi Kaliforniyada yaşayan azərbaycanlılara televiziya vasitəsilə bir dəfə yox, bir neçə dəfə çatdırsan və onlarla görüşlərdə göstərsən, bəlkə də biz səninlə bir şeyə nail ola bilərik.

**Yaqub Zurufçu:** Cənab prezident, mən məmnuniyyətlə çalışacağam ki, Sizin bu dediklərinizi yayam. Amma ümumiyyətlə orada Amerika televiziyaları – Ey-Bi-Si, SNN televiziya kanalları da gözləyirlər ki, Sizinlə bu müsahibəni ingilis dilinə tərcümə edib versinlər.

**Heydər Əliyev:** Deməк, həmin televiziya kanalları da bu müsahibəni verəcəklər?

**Yaqub Zurufçu:** Bəli. Bu, 100 faiz olacaqdır. Sizə dərin minnətdarlığımı bildirirəm ki, mənə vaxt ayırdınız və bu məsələləri çox gözəl açdınız. Azərbaycanlılar, hətta amerikalılar da biləcək ki, Azərbaycanın gələcəyi nədir və nə etməlidir.

Mən Sizinlə bu görüşümə çox şadam. Azərbaycan xalqına bu ümidlə çox gözəl gələcək arzulayıram. Sizinlə görüşmək mənim üçün böyük fəxrdir. Arzum budur ki, gələcəkdə də Sizinlə görüşəm, xalqımızın bir övladı, nümayəndəsi və bir insan kimi Azərbaycanı Amerikada təmsil edəm. Bu, mənim böyük arzumdur, bilirəm ki, Sizin də arzunuzdur. Mən həmişə belə olacağam və heç vaxt da bu yoldan geri dönməyəcəyəm.

**Heydər Əliyev:** Sağ olun.

## BAKIDA KLASSİK MUSİQİ FESTİVALININ AÇILIŞI

*19 sentyabr 1999-cu il*

Sentyabrın 18-də Respublika sarayında «Musiqinin böyük İpək yolu» Birinci Bakı klassik musiqi festivalının açılışı olmuşdur.

Mədəniyyət Nazirliyinin, «Azərbaycan mədəniyyətinin dostları fondu»nun və Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyasının təşəbbüsü ilə təşkil olunmuş festivala ABŞ-dan, Böyük Britaniyadan, Fransadan, Yaponiyadan, Türkiyədən, İsraildən və Rusiyadan görkəmli incəsənət ustaları, mədəniyyət xadimləri, tanınmış musiqiçilər gəlmişdilər.

Mədəniyyət naziri Polad Bülbüloğlu mərasimi açaraq Prezident Heydər Əliyevin fərmanına əsasən hər il ölkəmizdə keçirilən milli musiqi günü ilə əlaqədar təşkil edilmiş bu festivalın əhəmiyyətindən danışdı, tədbirin əsas təşkilatçılarından olan «Azərbaycan mədəniyyətinin dostları fondu»nun sədri Mehriban xanım Əliyevanı, eləcə də xaricdən gəlmiş qonaqları salamladı. Prezidentin İcra Aparatının humanitar siyasət şöbəsinin müdiri Fatma Abdullazadə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin festival iştirakçılarına təbrik məktubunu oxudu.

Bakı Musiqi Akademiyasının rektoru, xalq artisti, professor Fərhad Bədəlbəyli, dünya şöhrətli skripkaçı Dmitri Sitkovetski çıxış edərək Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəyovun doğum günündə paytaxtımızda belə mötəbər musiqi bayramının keçirilməsini yüksək qiymətləndirdilər.

Natiqlər bir həftə davam edəcək festivalın təşkilatçılarına, eləcə də sponsorlara – «Azərbaycan hava yolları» Dövlət Konserninin, «Bi-Pi Amoko» Neft Şirkətinin, Almaniyanın «Lüfthanza» şirkətinin və digər şirkətlərin rəhbərlərinə dərin minnətdarlıqlarını bildirdilər.

Sonra Azərbaycanın və xarici ölkələrin tanınmış musiqiçilərinin iştirakı ilə böyük konsert oldu. Əməkdar kollektiv – Üzeyir Hacıbəyov adına Dövlət simfonik orkestrinin və Dövlət xor kapellasının müşayiəti ilə Azərbaycan və dünya bəstəkarlarının klassik əsərləri ifa edildi.

Mərasimdə Milli Məclis sədrinin birinci müavini Arif Rəhimzadə, xarici ölkələrin respublikamızdakı səfirləri və digər rəsmi şəxslər iştirak edirdilər.

## «MUSİQİNİN BÖYÜK İPƏK YOLU» BİRİNCİ BAKI KLASSİK MUSİQİ FESTİVALINA

*Bakı şəhəri*
*18 sentyabr 1999-cu il*

Hörmətli festival iştirakçıları!

Sizi – müstəqil Azərbaycanın paytaxtı Bakı şəhərində təşkil olunmuş klassik musiqi festivalının iştirakçılarını səmimi qəlbdən salamlayıram.

Musiqi ayrı-ayrı dillərdə danışan, müxtəlif inkişaf yolları keçmiş, bir-birindən fərqlənən mənəvi və maddi dəyərlərə malik xalqların ən gözəl qarşılıqlı anlaşma və ünsiyyət vasitəsidir. O, hər bir ölkədə xalqın mənəvi aləminin parlaq ifadəsi olmaqla onun dünyada tanınmasında, beynəlxalq əlaqələrinin genişlənməsində mühüm rol oynayır. Sizin festivalınız da bu ali məqsədə xidmət edir.

Sevindirici haldır ki, siyasətçilərin və iqtisadçıların üçüncü minillik üçün xüsusi əhəmiyyət kəsb edən tarixi İpək yolunun bərpası ilə bağlı səylərinə bu gün sənət adamları da qoşulurlar. Böyük Britaniyadan Yaponiyaya qədər tarixi İpək yolu ölkələrini təmsil edən görkəmli musiqiçilərin birgə səyləri ilə qədim Azərbaycan torpağında həyata keçirilən bu tədbir mədəniyyətin yüksək humanist ideallarının təntənəsini, Azərbaycanın sülhə, dostluğa və əməkdaşlığa həmişə hazır olduğunu nümayiş etdirir.

Festivalınızın keçirilməsi respublikamızda artıq ənənəyə çevrilmiş Üzeyir musiqi gününə təsadüf edir. Bu gün musiqi mədəniyyətimizin ən görkəmli simalarından biri Üzeyir bəy Hacıbəyovun xatirəsini anma günüdür. XX əsrin əvvəllərində Azərbaycan milli musiqisinin dünya professional musiqi sənəti ilə qovuşması yolunda misilsiz xidmətlər göstərmiş bu dahi Azərbaycan bəstəkarının nə dərəcədə uzaqgörən, onun sənət aləmində seçdiyi yolun nə dərəcədə doğru olduğunun əsrin sonunda bir daha şahidi oluruq. Bu, Üzeyir dühasının təntənəsidir. Bu günlərdə biz müstəqil Azərbaycan Respublikasının öz neft sərvətlərindən səmərəli istifadə edilməsi yolunda müstəsna əhəmiyyəti olan «Əsrin müqaviləsi»nin imzalanmasının beşinci ildönümünü də təntənəli surətdə qeyd edirik. Bu

iki hadisənin bir-biri ilə rəmzi bağlılığı vardır. Azərbaycanda XX əsrin əvvəlində neft sənayesinin sürətlə inkişaf etməsi bütün sahələrdə olduğu kimi, musiqi mədəniyyəti sahəsində də böyük irəliləyişə səbəb olmuşdur. Əslində, ilk nəzərdən bir-biri ilə heç bir əlaqəsi olmayan «neft» və «musiqi» məfhumlarının belə qarşılıqlı təsiri ölkəmizin iqtisadi, elmi və mədəni inkişafında böyük rol oynamışdır.

İnanıram ki, XXI əsrin astanasında keçirilən bu əsil musiqi bayramı Azərbaycan musiqi mədəniyyətinin, xüsusilə ifaçılıq sənətinin sürətlə inkişafına təkan verəcək, xalqlarımızın daha da yaxınlaşmasına xidmət edəcəkdir.

Festivalınıza böyük uğurlar arzulayıram, hər birinizə möhkəm can-sağlığı, xoşbəxtlik və sənət yollarında yeni-yeni nailiyyətlər diləyirəm.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## GÜRCÜSTAN KİNEMATOQRAFÇILAR İTTİFAQININ KATİBİ LOMER AXVLEDİANİNİ VƏ KİNOREJİSSOR VAQİF MUSTAFAYEVİ QƏBUL EDƏRKƏN

*27 sentyabr 1999-cu il*

Azərbaycan Prezidenti Heydər Əliyev 1999-cu il sentyabrın 27-də Prezident sarayında Gürcüstanın xalq artisti, Gürcüstan Kinematoqrafçılar İttifaqının katibi, kinooperator Lomer Axvledianini və tanınmış kinorejissor Vaqif Mustafayevi qəbul etdi.

Prezident Heydər Əliyev qonağa müraciət edərək dedi:

– Lomer Bidzinoviç, Sizi Azərbaycanda salamlayıram. Azərbaycanla Gürcüstan arasında, o cümlədən də incəsənət, mədəniyyət sahəsində inkişaf edən və genişlənən əlaqələrin çox böyük əhəmiyyəti var. Buna görə də Gürcüstanın mədəniyyət nümayəndələrinin Azərbaycanda, eləcə də Azərbaycanın mədəniyyət nümayəndələrinin Gürcüstanda hər bir görüşü münasibətlərimizin inkişaf etməsi və möhkəmlənməsi işinə müəyyən töhfədir.

Mənə dedilər ki, Siz bir neçə gündür buradasınız. Mən buna, eləcə də bu gün Sizinlə görüşmək imkanımın olmasına çox şadam.

Lomer Axvlediani dövlətimizin başçısına təşəkkür edərək dedi:

– Sizinlə görüşmək, habelə çox mühüm əsər üzərində işləmək üçün buraya dəvət edilməyim məndən ötrü böyük şərəfdir.

Demək istəyirəm ki, təxminən on beş dəqiqə əvvəl, biz buraya gələndə yanında uşaq olan ziyalı bir xanım rejissor Vaqif Mustafayevə yaxınlaşdı və onunla hərarətlə danışmağa başladı. Mən Azərbaycan dilini, təəssüflər olsun, hələlik bilmirəm, lakin bir müddətdən sonra biləcəyəm. O xanım onunla çox həvəslə, maraqla danışdı, sonra da sağollaşıb getdi. Vaqif onun dediklərini mənə tərcümə etdi. O xanım ona “Heydər Əliyev” filminə görə çox “sağ olun” deyib soruşdu: Bəs nə üçün filmin davamı yoxdur? Əlbəttə, Vaqif söz verdi ki, filmin davamı olacaqdır.

Klassik variantda adətən belə olur: varislik və irsilik atadan oğula keçir. Məndə isə əksinə oldu. Artıq ekrana çıxan bu filmin dörd seriyasını oğlum çəkmişdir. İndi isə mənə bu filmi davam etdirmək şərəfi göstərilibdir.

**Heydər Əliyev:** Bu, çox xoşdur.

**Lomer Axvlediani:** Mənə də çox xoşdur. Çünki bu film nümayiş etdirilərkən onun necə qarşılandığını gördüm. Onda mən mehmanxanada idim və gördüm ki, adamlar televizora baxmağa necə tələsirdilər. Maraq çox böyük idi.

**Heydər Əliyev:** Nə deyirəm, bunları eşitmək xoşdur.

Bəli, bu fürsətdən istifadə edərək, tariximizin müəyyən mərhələlərini olduğu kimi, necə deyərlər, sənədlər əsasında canlandırmaq üçün çəkdiyi böyük zəhmətə görə gözəl kinorejissorumuz Vaqif Mustafayevə təşəkkürümü bildirmək istəyirəm. Axı, kimdən və nədən bəhs etməsindən asılı olmayaraq, tarixi səpkili sənədli filmlər çox böyük əhəmiyyətə malikdir.

Əlbəttə, biz bədii kinonu yüksək qiymətləndiririk, hamımız uşaqlıqdan, ola bilsin, kinofilmlərin böyük təsiri ilə böyüyüb başa çatmışıq. Məsələn, mən yaşlı nəslin adamıyam, xatirimdədır, səssiz kinoya baxmağa necə böyük həvəslə gedirdik, sonra səsli kino meydana gəldi – bu, bizim üçün hadisə idi. Sonra uzun müddət kinofilmləri qara-ağ təsvirdə göstərirdilər, nəhayət, rəngli kinofilmlər meydana gəldi – bu da böyük hadisə idi. Buna görə də o illərdə kino insanların, onların xarakterinin formalaşmasına, mənəvi dəyərlərin formalaşmasına həqiqətən çox böyük təsir göstərirdi. Biz bunu unuda bilmərik, bunu həmişə qiymətləndirməliyik.

Televiziya meydana gəldikdən sonra kino, əgər belə demək mümkünsə, tədricən sıxışdırılmağa başladı. Buna baxmayaraq, mənə məlumdur ki, bir çox ölkələrdə adamlar əvvəlki tək kinoteatrlara gedir, filmlərə baxır, onlara böyük maraq göstərirlər. Buna elə bizim Azərbaycanda da tədricən qayıdırlar.

Bilirsiniz, keçmişdə mən incəsənətə, mədəniyyətə, o cümlədən kinematoqrafa öz münasibətimi dəfələrlə bildirməli olmuşam. Özü də bunu mən təkcə işimə, yüksək vəzifə tutduğuma görə deyil, həm də ürəkdən edirdim. Mədəniyyət və incəsənət kiçik yaşlarımdan qəlbimdə xüsusi yer tutur. Bəlkə də gənclik illərində arzum rəssam olmaq, yaxud teatra getmək idi. Amma qismət başqa cür oldu. Ona görə də bunların hamısı qəlbdən gəlir.

**Lomer Axvlediani:** Siz həyatda rejissor olmusunuz, bu isə daha mühümdür.

**Heydər Əliyev:** Buna görə də 30–40 il əvvəl olduğu kimi, yenə də deyirəm ki, teatr yaşayır və yaşayacaqdır. Çünki kino, sonra isə üstəlik televiziya meydana gəldikdə teatra maraq azaldı. Bununla belə, teatrı heç nə əvəz edə bilməz. Heç nə. Ona görə ki, teatrda insan canlı adamlarla – bu və

ya digər vəziyyəti səhnədə canlandıran aktyorlarla bilavasitə ünsiyyətdə olur. Bunu kinematoqraf haqqında da demək olar. İncəsənətin yeni nə kimi növləri meydana gəlsə də, kinematoqraf öz əhəmiyyətini heç zaman itirməyəcəkdir. Odur ki, bədii kino, bədii əsərlər indi televiziya ilə, digər üsullarla yaradılan qalan bütün lentlərdən, şübhəsiz, qat-qat yüksəkdir.

Lakin bir daha ona qayıdıram ki, sənədli kino xüsusi əhəmiyyətə malikdir. Əlbəttə, adamlar bədii filmə baxarkən gördüklərinə inanır və bunu gerçəklik hesab edirlər. Təbiidir ki, bu, əksər hallarda gerçəkliyin təqlidi deyil, əks olunmasıdır. Bu, gerçəkliyin filmin yaradıcısının mövqeyindən əks etdirilməsidir. Bununla yanaşı, – mən yenə də öz hissiyyatlarımı, təəssüratımı deyirəm, – hər hansı bədii filmə baxış həmişə çox böyük təəssürat buraxırdı, həmişə inanırdım ki, bu, məhz belədir, bu, həqiqətdir və sair. Mən bu gün də belə hesab edirəm. O vaxtlar bu cür düşünmürdüm, amma indi bax belə fikirləşirəm – deyən adamlarla əsla razılaşa bilmərəm. Mən elə indi də belə düşünürəm.

Ancaq, bir daha deyirəm, əlbəttə, bədii, peşəkarlıq səviyyəsi layiqincə olduqda sənədli kino xüsusi dəyər kəsb edir. Ona görə də indi, məsələn, XX yüzillik ərzində bizdə neft sənayesinin necə inkişaf etdiyini göstərəndə, əsrin əvvəllərinə aid hər hansı sənədli kadrları göstərəndə, bunlar hətta bir an, hətta bir saniyə, bir dəqiqə çəksə də, bir görün, necə təəssürat bağışlayır!

Dünən axşam mən "Əsrin müqaviləsi"nin imzalanmasının beşinci ildönümünə həsr edilmiş televiziya filminə baxdım. Onu Azərbaycan televiziyası çəkmişdir. Söz düşmüşkən, çox yaxşı filmdir, xoşuma gəldi. Bunun necə olduğuna baxmaq mənə çox maraqlı idi, hərçənd bütün bunlar gözlərim qarşısında baş vermişdir. Amma Azərbaycan neftçilərinin "Neft daşları"nı necə kəşf etdikləri barədə, 1949-cu ildə, – yəqin, biz tezliklə bu tarixi də qeyd edəcəyik, – dənizin ortasında dünyada ilk dəfə neft fontanı vurduqda onların necə sevindikləri barədə 50 il əvvəl çəkilmiş və bəlkə də çox gözəl olmayan qara-ağ təsvirli kadrlar göstərildikdə, olduqca sevindim, xüsusi hisslər keçirdim, halbuki həmin kadrları keçmişdə dəfələrlə görmüşdüm.

Bunlarla yanaşı, mənim burada işlədiyim 70-ci illər dövrünə aid, neft mədənlərinə, neft sənayesi ilə bağlı zavodlara getməyim haqqında bəzi sənədli kadrları da göstərirdilər. Bunlara baxmaq mənim üçün də maraqlı idi. Hərçənd, təkrar edirəm, mən çox şeyləri xatırlayıram. Amma bunların mənim xatirimdə olması bir şeydir, əyani surətdə görmək isə başqa şeydir.

Ona görə də sənədli kino böyük işdir və bu işlə məşğul olan sənətkarlar böyük iş görürlər.

Siz Roman Karmenin “Neft daşları” haqqında çəkdiyi “Xəzəri fəth edənlər” adlı məşhur kinofilmini xatırlayırsınızmı? Necə gözəl film idi! Karmen sənədli kinonun böyük ustadı idi.

Gürcüstanda sənədli kino ilə neçə-neçə nəsil məşğul olmuşdur və məşğul olur. Azərbaycanda yeni, gənc kadrlar böyüyür.

Mən Moskvada Siyasi Büronun üzvü və Nazirlər Soveti sədrinin birinci müavini işləyərkən bir çox sahələrlə yanaşı, Mədəniyyət Nazirliyi və Dövlət Kinematoqrafiya Komitəsi də daxil olmaqla mədəniyyətə də kuratorluq edirdim. Buna görə də bir çox kinematoqrafiya xadimləri ilə görüşməli olurdum. Bir dəfə görkəmli və məşhur kinematoqrafçılar müraciət edərək dedilər ki, bilirsinizmi, bizə dəstək, kömək lazımdır, biz inkişafın yeni mərhələsindəyik. Nazirlər Soveti sədrinin birinci müavini kimi mən bu məsələlərlə bilavasitə məşğul olduğuma görə, həmin vəzifəni öz üzərimə götürdüm. O vaxtlar ölkə rəhbərliyinin belə bir ümumi qərarı vardı ki, Sovetlər İttifaqında kinematoqrafiyanı inkişafına dair tədbirlər işləyib hazırlanmalıdır. Mən bunu böyük məmnunluqla edirdim və ən görkəmli kino ustaları ilə dəfələrlə görüşməli, fikir mübadiləsi aparmalı olurdum. Onların bir çoxu artıq dünyasını dəyişmişdir, ancaq mən onlarla görüşlərimi böyük səmimiyyətlə xatırlayıram.

Mən qəti bir sənəd hazırlamaq və onu, o vaxtlar edildiyi kimi, Nazirlər Sovetinin, Siyasi Büronun müzakirəsinə çıxarmaq üçün bu məsələni, necə deyərlər, lazımınca öyrənir, daha geniş dairə ilə görüşmək istəyirdim. Onda mən Dövlət Kinematoqrafiya Komitəsinə getdim və komitənin sədri Filipp Yermaşdan xahiş etdim ki, təcrübəli, nüfuzlu adamları toplasın, azad, sərbəst, qeyri-rəsmi söhbət aparaq, hazırladığımız sənəd onların maraqlarına, tələblərinə nə dərəcədə uyğun gəldiyini, bütün bunların kinematoqrafiyaya həqiqətən real kömək olub-olmayacağını bilək.

Xatirimdədir, biz komitənin kollegiyasının iclasında bir neçə saat müzakirə apardıq. Əslində, mən onları dinləyirdim, hər bir kəsin rəyini bilmək mənim üçün vacib idi. Sonra mən mövqeyimizin konsepsiyasını – ölkəmizdə kinematoqrafiyanın inkişafına yeni təkan vermək üçün nə kimi tədbirlər nəzərdə tutduğumuzu şərh etdim. Onlar bunu böyük sevinclə qarşıladılar və hətta inanmırdılar ki, biz bunu edə bilərik.

Xatirimdədir, o vaxt axırıncı, ya da axırdan ikinci sırada bizim İbrahimbəyovla birlikdə Sizin Şengelaya da oturmuşdu. Birdən o, qalxıb dilləndi: – Dediklərinizin, nəzərdə tutduqlarınızın hamısı Gürcüstan üçün

də olacaqmı? Orada böyük maddi-maliyyə yardımı və bir çox başqa tədbirlər nəzərdə tutulurdu. Mən dedim ki, əlbəttə, Gürcüstan üçün də olacaq, Azərbaycan üçün də olacaq, hamı üçün olacaqdır.

Filmlər haqqında yox, kino haqqında xatirələrim çoxdur. Filmlərə hər bir kəs baxır. Amma kinematoqrafla iş baxımından xatirələrim çoxdur. Odur ki, bu gün sizinlə görüşmək mənə xoşdur.

Sənədli kinodan danışarkən demək istəyirəm ki, Sizin filminizə baxmaq, əlbəttə, mənə çox xoş idi. Ona görə yox ki, mənim keçmiş həyatım və fəaliyyətim barədə sənədli kadrlar nümayiş etdirilir. Yalnız ona görə ki, təkcə mənim üçün yox, ən çox da mənim üçün yox, məhz xalqım üçün həqiqətən çox mühüm olan elə faktlar var ki, onları nə sözlə, nə məqalə ilə, nə də kitabla sənədli kinokadrlardakı kimi çatdıra bilməzsən.

**Lomer Axvlediani:** Elə bilməyin ki, sözünüzü kəsirəm, icazənizlə demək istərdim ki, bax bu, Vaqifin çəkdiyi həmin filmin ən fərqləndirici xüsusiyyətlərindən biridir. Sizin sözlərinizi qismən təkrar edəcəyəm, filmdə elə bir forma tapılmışdır ki, o, ötüb keçmiş vaxtı tamamilə canlandırır. Özü də sözlərlə deyil, məhz təsviri vasitələrlə. Ümumiyyətlə, belə şeylər çox nadir hallarda olur, Mən hətta elə bir film xatırlamıram ki, o, əhval-ruhiyyəni, zamanı sözlərsiz belə dəqiq canlandırsın, qəhrəmandan söhbət açsın. Bu, çox yüksək səviyyədir, film çox böyük təəssürat bağışlayır. Mən peşəkarlıq baxımından deyirəm. Bayaq dediyim kimi, adamların bu filmə necə baxdıqlarının şahidi olmuşam və bunu görmüşəm. Təkcə ona görə baxmırdılar ki, böyük və sevimli lider haqqında filmə tamaşa edirdilər, həm də ona görə baxırdılar ki, bu liderlə bağlı olan dövrü də görürdülər. O dövr ötüb keçmişdir və filmdə çox təsirli göstərilmişdir. Sizi inandırım ki, çox təsirlidir. Bunu deməyə hər halda haqqım var, çünki bu işdə hələlik bilavasitə iştirak etməmişəm.

**Heydər Əliyev:** Hətta iştirak etmiş olsaydınız da, hər halda mən Sizin fikirlərinizlə razılaşardım.

Bilirsiniz, orada bu baxımdan maraqlı cəhətlər həqiqətən çoxdur. Özü də təkcə mənim üçün yox, xalqımız üçün də, indiki və gələcək nəsillər üçün də. Qoy onlar bilsinlər ki, nə vaxt və nələr olubdur. Çünki insan yaddaşı çox qısadır. İnsan keçmişi çox tez unudur. Məsələn, bu filmin kadrları o vaxtları, Sizin dediyiniz kimi, çox yaxşı əks etdirir. Bununla belə, açığını deyəcəyəm, mən bugünkü işlə məşğul olarkən o vaxtlar nələr baş verdiyi barədə heç vaxt düşünməmişəm. Bu, mənim özümə də maraqlıdır. Çox şeyləri yada saldı. Axı, mən də insanam və heç də hər şeyi xatırlamıram.

Ona görə də bu, mənim üçün çox maraqlı idi.

Açığını deyim ki, sənədli kadrların əksəriyyəti Moskvada çəkilənlərdir. Burada nə isə saxlanıb, nə isə yox. Təəssüf ki, bizdə belə dövrlər də olub, 1987-ci ildə mən Moskvada bütün vəzifələrdən istefaya getdikdən sonra və bir neçə il hücumlara məruz qaldığım vaxt, mənə məlum olduğuna görə, burada bəzi sənədli kadrlar məhv edilmişdir. Halbuki maraqlı şeylər çox idi. Hər halda 14 il respublikaya rəhbərlik etmişdim, burada qaynar, çox fəal həyat olmuş, istər beynəlxalq, istər ümumittifaq, istərsə də Azərbaycan xarakterli çox hadisələr baş vermişdi, iqtisadiyyatın, mədəniyyətin bütün sahələrində əməli işlər görülürdü və sair. Çox işlər olmuşdur. Deyirlər ki, heç də bütün kadrlar saxlanılmayıb, bəzi bədxah insanlar onları məhv ediblər.

Amma belə düşünürəm ki, hələ axtarmaq, xüsusən də Moskvada axtarmaq olar. Məsələn, BAM-a səfər haqqında kadrların tapılmasını çox istərdim. Bunu ona görə xatırlayıram ki, bildiyiniz kimi, 1974-cü ildə Sovet hökuməti Baykal–Amur Magistralının – Uzaq Şərqədək, düz Vladivostokadək dəmir yolu çəkilməsi haqqında, o vaxtlar deyildiyi kimi, tarixi bir qərar, – bu, həqiqətən tarixi qərar idi, – qəbul etmişdi. Mövcud olan Rusiya–Çin yolu hələ çarın, imperatorun dövründə çəkilmişdi. Bu yoldan istifadə olunurdu, amma o, həmin regionun iqtisadi tələblərini ödəmirdi. Halbuki Rusiyanın həmin hissəsində olduqca böyük ehtiyatlar, olduqca böyük təbii sərvətlər var. Ona görə də bu yol çox gərəklidir və hesab edirəm ki, düzgün qərar qəbul olunmuşdu.

BAM ümumxalq tikintisi elan edilmişdi. Yəqin ki, Siz orada Gürcüstanın sahəsi olduğunu xatırlayırsınız. Azərbaycanın öz stansiyası var idi və onu inşa etmişdi. Onun adı yadımdan çıxıb, lakin mən orada olmuşdum. Hər respublikanın öz sahəsi vardı. Bundan əlavə, oraya böyük qüvvələr cəmləşdirilmişdi. 1982-ci ilin axırlarında mən Moskvaya gəldikdə nəqliyyata bütün dəmir yol, aviasiya, dəniz, avtomobil nəqliyyatına, habelə nəqliyyat tikintisinə də başçılıq etmək vəzifələri mənə həvalə olundu. Belə ki, nəqliyyat imkanlarının istismarı bir işdir, nəqliyyat vasitələri yaradılması isə başqa işdir.

Mən Siyasi Büronun BAM üzrə komissiyasının sədri təyin edildim. Məndən əvvəl də sədrlər olmuşdu, ancaq onlar getmişdilər.

BAM 1972-ci ildən inşa edilirdi və 1984-cü ildə mən 10 gündən artıq müddətdə BAM-da səfərdə oldum – qatarla Moskvadan Vladivostoka qədər getdim. Bu, birbaşa səfər deyildi, biz dayana-dayana gedirdik. Sovet İttifaqı nazirlərinin, mütəxəssislərinin çox böyük bir qrupu mənim-

lə birlikdə idi, çünki tikinti yubadılırdı, artıq 10 il keçmişdi və BAM 1984-cü ildə istismara verilməli idi. Buna görə də oraya gedib baxmaq, əslinə qalsa, mənim təşəbbüsüm idi. Mən Vladivostokdan təyyarə ilə qayıtdım, oraya isə biz xüsusi qatarla getmişdik, proqramımız vardı.

Bu, böyük söhbətdir, indi vaxtınızı almaq istəmirəm. Bu, həyatımda mənim üçün ən maraqlı səfər idi. Mən maraqlı çox şey gördüm və hesab edirəm ki, çox böyük və faydalı iş gördüm. Başlıcası isə, mən oradan qayıdıb, Siyasi Büronun iclasında məlumat verib deyəndə ki, BAM nəinki bu il, nəinki gələn il, hətta beş ildən sonra da başa çatdırılmayacaq, onların hamısı şok vəziyyətinə düşdü – heç belə şey olar? Axı, bizə indiyədək belə məlumat verməmişdilər və sair. İki saat ərzində mən məlumat verdim və vəziyyətin necə olduğunu izah etdim, göstərdim. Xüsusən də çox uca dağların altından keçən və Severomuysk adlanan tunel barədə danışdım.

Yaxşı yadımdadır ki, tunelin layihədə nəzərdə tutulan uzunluğu 15 kilometrdir. O uca dağları bu tunelsiz keçmək mümkün deyildi. Məlum oldu ki, bu tunelin çəkilməsi son dərəcə çətindir. İş o yerə çatmışdı ki, bir çox mütəxəssislər, akademiklər artıq deyirdilər ki, Severomuysk tunelini inşa etmək lazım deyil, çünki ora çox seysmik zonadır, orada onsuz da çox böyük zəlzələ baş verəcək və sair. Halbuki Severomuysk tuneli olmadan BAM da ola bilməzdi.

Qazma işləri həm bu, həm də digər tərəfdən – Şərqdən və Qərbdən aparılırdı. Təsəvvür edirsinizmi, mən tunelə girdim və onların qazma işləri apardıqları yerədək həm bu, həm də digər tərəfdən piyada getdim. Amma, təəssüflər olsun ki, 10 il ərzində həm bu, həm də digər tərəfdən vur-tut 7,5 kilometr qazılmışdı. Əslində isə hələ bir o qədər də qazılmalı idi.

Adamlar necə ağır şəraitdə işləyirdilər! Biz gedirdik, su isə dizimizə çıxırdı. Adamlar, bax, belə şəraitdə işləyirdilər. Hər tərəfdən su sızıb axırdı. Yeri gəlmişkən, o vaxtdan məndə nadir fotoşəkillər qalmışdır.

Əlbəttə, mən adamların necə işləməsinin böyük təsiri altında idim. Bununla belə, düşünürdüm ki, nə üçün indiyədək heç kim bu məsələni müzakirə etməyibdir.

Sözün qısası, Siyasi Büroya məlumat verdim və sair. Bu, ayrı bir işdir, onu saatlarla söyləmək lazımdır. Bu barədə ona görə danışıram ki, BAM-ı ilk gündən lentə çəkən kinooperatorlar bizimlə getmişdilər. Familiyalarını unutmuşam, lakin onlar məşhur sənədli film ustaları idilər, 1974-cü ildə ilk gündən başlayaraq BAM-ı çəkir, onun tikintisinin salna-

məsini yaradırdılar. Bütün o günlər ərzində onlar bizimlə birlikdə oldular. Onlar olduqca çox şey çəkmişlər.

**Vaqif Mustafayev:** Mən bunu öyrənərəm.

**Heydər Əliyev:** Bəli, familiyalarını öyrənin. Onlar çox böyük miqdarda material toplayıblar. Doğrudur, BAM indiyədək başa çatdırılmadığından onlar öz filmlərini, məncə, təhvil verə bilməmişlər, yaxud onun ayrı-ayrı hissələrini vermişlər. Amma onlar hər şeyi çox fəallıqla çəkirdilər. Əlbəttə, mən onlarla söhbət edirdim, onlar heyran qalmışdılar və deyirdilər: – Biz 10 ildir BAM-ı gəzib-dolaşırıq, 10 ildir çəkilişlərlə məşğuluq, amma heç vaxt bu səfərdəki qədər material toplamamışıq.

Mən qayıtdıqdan sonra onlar bu səfər haqqında xüsusi sənədli film buraxmaq üçün mənə müraciət etdilər. Özü də onlarda çoxlu material vardı. Lakin mən buna razı olmadım, açığını deyəcəyəm, nəyə görə. Çünki iş elə gətirmişdi ki, 1974-cü ildən bəri, yəni 10 ildə Sovetlər İttifaqının rəhbərliyindən, Siyasi Bürodan, Nazirlər Sovetinin rəhbərliyindən heç kim BAM-da olmamışdı, oraya gedib baxmamışdı. Nəqliyyat tikintisi naziri, mərhum Sosnov İvan Dmitriyeviç, – o, səfərdə həmişə mənimlə idi, məlumat verirdi və bu məlumat Kremldəkilərin xoşuna gəlirdi. Siyasi Büroda, Sovetlər İttifaqının yüksək dairələrində mənim şəxsiyyətimə onsuz da çox qısqanclıqla yanaşıldığı, üstəlik Dövlət Kinematoqrafiya Komitəsinə rəhbərlik etdiyim bir vaxtda bu cür filmin buraxılmasına icazə verilməsini, şübhəsiz, belə qiymətləndirərdilər ki, guya mən özümü gözə soxuram və sair. Mən dedim, yox, lazım deyildir. Siz ayrı-ayrı parçalardan müxtəlif kinojurnallarda istifadə edə bilərsiniz, ancaq belə düşünürəm ki, biz BAM-ın tikilib başa çatdırılacağını görəcəyik, artıq onda siz də filmi hazırlayarsınız və bu səfər də orada öz yerini tutar.

Mən bunu indi, burada sənədli kinodan söhbət getdiyinə görə xatırladım. Əlbəttə, bunlar nadir materiallardır. Özü də təkcə bizim səfərimiz barədə olan materiallar yox. Biz səfərdə 10 gün olmuşduq, onlar isə 10 il getmişdilər. Yəqin, sonralar da getmişdilər. Çünki 1984-cü ildən sonra mən bu problemlə 1987-ci ilədək, istefaya gedənədək məşğul oldum və işimiz çox-çox irəlilədi. Sonra hər şey getdi...

Bu yaxınlarda BAM-çılar yolun inşasının 25-ci ildönümünü qeyd etdilər. Tında adlı bir şəhər var – o, Uzaq Şərqdə, Amur vilayətindədir. Əslində, bu şəhər xüsusi olaraq BAM üçün salınmışdır. Onun inşası da BAM-ın tikintisindən başlanmışdır. Maraqlı, gözəl şəhərdir. Mən orada iki gün yaşadım, çoxlu müşavirə keçirdim. Sonra biz yolumuza davam edərək Uzaq Şərqə getdik.

Bax, mən oradan xəbər aldım ki, Tındada onlar BAM-ın 25-ci ildönümünü qeyd edirlər. Onların məni xatırlaması, mənə dəvət göndərməsi mənim üçün xoş idi. Təbii ki, oraya getmək imkanım yoxdur və mən onlara səmimi təbrik məktubu göndərdim.

Odur ki, Vaqif, kinoarxivlərdə yaxşı axtarışlar aparılsa, olduqca çox material tapmaq olar. Mən bunu özüm üçün demirəm. Ola bilsin ki, indi sizinlə görüşməsəydim, bütün bunları xatırlamazdım. Sizdən ayrılandan 10 dəqiqə sonra isə başım tamam digər işlərə qarışacaq və bunu yenə iki-üç il unudacağam.

**Lomer Axvlediani:** Amma biz ümidvarıq ki, Sizə üç il unutmağa imkan verməyəcəyik, çünki Sizi bir neçə dəfə narahat etməyimizə şad olacağıq. Sizin bir neçə belə söhbətiniz isə bizi düzgün yola yönəldəcək ki, Vaqifin görməyə hazırlaşdığı qalan işlər daha maraqlı olsun.

**Vaqif Mustafayev:** Cənab Prezident, əvvəla, mənə belə şərəf göstərildiyinə, Sizin haqqınızda bu dörd seriyanı çəkmək imkanı yaradıldığına görə Rəfael Allahverdiyevə təşəkkürümü bildirmək, mənim təklifimi qəbul edib filmi çəkmək üçün gəldiyinə görə Lomera minnətdarlıq etmək, onun oğluna təşəkkür etmək istərdim. Burada varislik həm də başqa mənadadır. Məsələ bundadır ki, Lemor mənim müəllimim olan Eldar Ryazanovla film çəkirdi, indi isə onun şagirdi ilə çəkəcəkdir.

Deməliyəm ki, bu filmi yaratmaq çox çətin idi. Nəyə görə? Ona görə ki, olduqca çox material vardı. Moskvaya aid materialı biz Moskvadan gətirdik. Naxçıvana aid materialı biz əsasən Türkiyədən götürmüşük, çünki öyrənmişdim ki, əvvəllər televiziya oraya, Naxçıvana öz əməkdaşlarını göndərmirdi.

**Heydər Əliyev:** Əvvəllər Azərbaycan televiziyası Naxçıvanı tamamilə inkar edirdi. Bu yaxşıdır ki, Türkiyədən materiallar götürmək ağlınıza gəlmişdir, çünki Türkiyə televiziyası Naxçıvana tez-tez gəlirdi...

**Vaqif Mustafayev:** Biz oradan materialları satın aldıq və mənə elə gəlir ki, əlimizə çox maraqlı materiallar düşdü. Amma bütün bu materiallardan istifadə etmək çox çətin idi. Biz cəmi dörd seriya çəkdik, orada isə hələ nə qədər material var, nə qədər adam danışmaq istəyirdi. Bütün Moskva, hətta avtomobil sürücüləri də danışmaq istəyirdilər. Onlardan biri Sizin keçmiş sürücünüz idi, o deyirdi ki, Kremldə başqa belə bir şəxsiyyət görməmişəm. Kutapin danışdı, Yakovlev lap çox danışdı. O, gözəl sözlər söylədi – Heydər Əliyev özü barəsində haqq-ədaləti bərpa etmişdir. Mənim üçün çox maraqlı olan budur ki, Yakovlevin danışığında, – Siz bir diqqət yetirin, – onun Qorbaçova sadiqliyi ilə öz alicənablığı arasında bir

tarazlıq var. Hər halda, alicənablıq daha çoxdur. O, konkret olaraq Qorbaçovun adını çəkmir, amma bununla belə deyir ki, bu işlər qəsdən buradan – Kremldən qurulurdu, Kremldə isə Qorbaçov otururdu.

Bütün bunlar çox xoşdur. Biz tədqiqatlara xüsusi diqqət yetirdik. Çernyayevin kitabını əldə etdik, sonra Yakovlevlə görüşdük, o dedi ki, bu sənədlər məndə idi, sonra Puqoya verdilər. Həm də bütün bunlar tədqiqat kimi aparılırdı. Ona görə ki, təkcə bir ifadə – "Əliyevin ayağının altını qazırıq" ifadəsi, "qazırıq" sözü onu göstərir ki, bunlar çirkin işlərdir.

**Heydər Əliyev:** Bəli. Yeri gəlmişkən, mən Çernyayevin bu kitabını görməmişdim. Onu mənə Rəfael verdi. Çernyayev isə Qorbaçovun çox yaxın köməkçisi idi. Sonra, Qorbaçov daha Sovetlər İttifaqının prezidenti olmayanda da Çernyayev həmişə onunla birlikdə idi. Görünür, onlar sonralar ayrılmışlar.

**Rəfael Allahverdiyev:** O, indi də oradadır. Raisa Qorbaçova dəfn edilərkən orada idi.

**Heydər Əliyev:** Eləmi? Bu, onun çox yaxın adamıdır. Amma, görünür, obyektiv yazır, o, öz gündəliyini yazır. Şahnazarovla birlikdə Qorbaçovun yanına necə getdiklərindən yazır. Qorbaçov Şahnazarovu bağrına basaraq, onu 64 illiyi münasibətilə təbrik etmiş və sonra demişdir – Əliyevin ayağının altını qazırıq, qazırıq və bu, Rəşidovun işindən də betər bir iş olacaqdır. Fikir verin. Onlar həqiqətən qazırdılar, özü də necə qazırdılar. Rəşidov vəfat etmişdi və onun ölümündən sonra qazmağa başlamışdılar. Ən dəhşətlisi isə bunu Siyasi Büroda müşahidə etmək idi. Mən bir neçə dəfə hiddətləndim, öz fikrimi bildirdim, amma nə etmək olardı. İnsan ölüb gedib, di gəl ki, onun ölümündən sonra da qazırlar, qazırlar, qazırlar. Elə dəhşətli işlər, əxlaqa, mənəviyyata zidd işlər görürdülər ki, bunlara dözmək sadəcə, mümkün deyildi. Onda mən Siyasi Büronun tərkibində idim və bir neçə dəfə etiraz edib dedim ki, belə olmaz. Amma, demə, onlar sonra... Qazmağı qərara alıblarmış.

**Vaqif Mustafayev:** Prinsipcə, bir kinematoqrafçı kimi mənə elə gəlir ki, Qorbaçovla Sizin əhvalatınız Motsartla Salyerinin əhvalatıdır. Kimin Motsart, kimin isə Salyeri olduğu aydındır, ancaq sonluq ayrıdır – Motsart qalib gəlir.

Cənab Prezident, deməliyəm ki, sözün düzü, mən bütün bunları bilmirdim. Yəni, filmi çəkərkən mən, – açığını deyim, məni sözü elə-belə deməyən adam kimi tanıyırlar, – başa düşdüm ki, Siz nəinki XX yüzilliyin böyük adamlarından birisiniz, mən Sizi XX yüzilliyin ən böyük adamı sayıram. Hesab edirəm ki, Sizin tərcümeyi-halınız bədii film yaradılması-

na layiqdir və artıq bunu etmək lazımdır. Ona görə ki, danışılanların heç də hamısını sənədli kino vasitəsilə çatdırmaq mümkün deyildir.

Məsələn, Sizin Bakı hava limanına gəlişiniz, – Rəfael müəllimin söylədiyi kimi, – Sizi hədələyirdilər, maşın yaxınlaşdı...

**Heydər Əliyev:** Mən Moskvadan buraya qayıdanda?

**Vaqif Mustafayev:** Bunu bədii kino vasitəsilə çatdırmaq olar.

**Heydər Əliyev:** Ümumiyyətlə, o, doğru deyir. Bu epizod bir film üçün tamamilə kifayətdir – mən Moskvadan necə çıxıb getmək istəyirdim, orada yolumu necə kəsirdilər, hətta ona da əl atdılar ki, məni təkcə qorxutmaq naminə bir insanı – bir qrup ziyalının hava limanında görüşünü təşkil etməyə hazırlaşan jurnalist Xanbabayevi öldürdülər. Mənə bundan sonra da çıxıb getməyə imkan vermirdilər. Mən təyyarəyə bileti qeyri-leqal aldım, hava limanına qeyri-leqal getdim, buraya gəldim. Rəfael və digər dostlarım avtomobili təyyarənin yanına sürdülər və dedilər – tez oturun. Mən dedim – nə olub ki? Onlar cavab verdilər – orada adamları Sizə qarşı toplayıblar. Amma biz onları, necə deyərlər, aldatdıq. Necə sürətlə gedirdik, çünki hər yerdə yolumuzu kəsirdilər, məni tutub saxlamaq istəyirdilər. Bu, Rəfaelin avtomobili idi. Yeri gəlmişkən, onun sürücüsü yadımdadır, o, maşını necə cəsarətlə sürürdü. O, sonralar rəhmətə getdi. Çox alicənab adam idi. Burada məni az qala həbs etmək istəyirdilər, sadə bir insan olan bu adam isə öz həyatını təhlükə qarşısında qoyaraq məni maşında aparırdı.

**Lomer Axvlediani:** Belə şeyi uydurmaq istəsən də, heç vaxt fikirləşib tapa bilməzsən.

**Vaqif Mustafayev:** Biz filmdə bu səhnəni əks etdirmişik. Lakin bütün bunları bədii vasitələrlə başqa cür etmək olar. Zənnimcə, bədii obrazı hökmən yaratmaq lazımdır. Çünki hesab edirəm ki, Azərbaycanda prezident yox idi. Axı, başqa bir adamı tamam başa düşdükdə, belə nümunə olduqda, belə hadisə baş verdikdə, Azərbaycanda belə bir şəxsiyyət olduqda – bax, onda bu insan, məsələn, Hemenquey kimi hərəkət etmişdir. Lakin Azərbaycanda belə bir şəxsiyyət olmadıqda, onda, Sizin dediyiniz kimi, gələcək nəsillər üçün, indi görüb götürməli olanlar üçün hökmən çəkmək lazımdır.

Misal üçün, görünür az adam bilirdi ki, Siz Moskvada 19 nazirliyə rəhbərlik edirdiniz. Burada isə birisi mənzil-istismar kontorunu idarə edə bilmir, amma prezident olmaq istəyir. Belələri də var.

**Heydər Əliyev:** Özü də mən müxtəlif profilli nazirliklərə rəhbərlik edirdim.

**Lemor Axvlediani:** Mədəniyyətdən tutmuş dəmir yolunadək.

**Heydər Əliyev:** Bütün nəqliyyata. Yeri gəlmişkən, deməliyəm ki, Sovetlər İttifaqında dəmir yolu ən mürəkkəb sahələrdən biri və dünyada ən uzun dəmiryolu idi. Ən uzun. Orada problem olduqca çox idi. Lap çox idi.

Rusiyanın yanacaq və energetika naziri Viktor İvanoviç Kalyujm "Əsrin müqaviləsi"nin beşilliyi ilə əlaqədar bu yaxınlarda burada oldu. Mən onu ilk dəfə idi görürdüm. Demə, həmin illərdə o, Tomskda işləyirmiş. O, Əliyevin necə selektor müşavirələri keçirdiyini xatırladı. Amma çoxları selektor müşavirəsinin nə olduğunu yəqin ki, bilmir.

Bu o deməkdir ki, Sovetlər İttifaqının bütün nöqtələri radio ilə qoşulur, hər bir nöqtəyə vilayətin, şəhərin, rayonun dəmir yol nəqliyyatının rəhbərləri, yolların, sahələrin rəisləri toplaşırlar. Vəziyyət araşdırılır, məsələn, Kemerovo dəmiryolunun rəisinə söz veririk, o, bir məlumat verir. Məndə isə başqa material var, mən suallar verir, tənqid edirəm və s. Ümumiyyətlə, bu, maraqlı prosesdir. Bunun nə demək olduğunu əvvəllər mən özüm də bilmirdim.

Budur, Kalyujm deyir ki, həmin selektor müşavirələri indiyədək yadımızdadır. Biləndə ki, səhər saat 9-da müşavirə olacaq, hamı bunu gərginlik içində gözləyirdi – nə olacaq, necə olacaqdır? Bəzən kimisə işdən çıxarmaq, kimisə cəzalandırmaq lazım gəlirdi. Bir sözlə, dəmiryol nəqliyyatı çox nəhəng idi. Dəniz nəqliyyatı, hava, çay, avtomobil nəqliyyatı da böyük idi.

Bu, nəqliyyat kompleksidir. Digərləri bütün mədəniyyət, təhsil kompleksi idi. O vaxtlar üç Təhsil Nazirliyi vardı – ali təhsil, maarif və texniki-peşə təhsili nazirlikləri. Sonra elm, səhiyyə – burada da Səhiyyə Nazirliyi və Tibb Sənayesi Nazirliyi vardı. Yüngül Sənaye, Xalq İstehlakı Malları İstehsalı. Sovetlər İttifaqının Yüngül Sənaye Nazirliyi ən böyük nazirlik idi. Xalq istehlakı malları istehsal edənlər isə müxtəlif sahələrə aid idilər. Ticarət – Ticarət Nazirliyi və digər bütün baş idarələr, özü də onların hamısı xaraktercə müxtəlif idi. SSRİ Nazirlər Sovetinin tarixində hələ heç vaxt elə olmamışdı ki, bir nəfər bu qədər yük çəksin.

**Vaqif Mustafayev:** Cənab Prezident, ona görə də yenə demək istəyirəm ki, bu materialdan istifadə etmək çox çətin idi. Bir o qədər, bəlkə də daha çox material hələ qalmışdır. Əlbəttə, biz Sizin iştirakınızla heç olmasa daha iki seriya hazırlamaq istəyirik, bütünlükdə isə 12 seriyalı sənədli film yaratmaq fikrindəyik. Lakin bunlar da Sizin gördüyünüz işlərin ancaq bir hissəsini əhatə edəcək, hamısı olmayacaqdır. Ona görə ki,

Türkiyədə Dəmirəl danışmışdır, Doğramacı danışmışdır, bu məqamlar da qalıbdır.

Nə demək istəyirəm? Mən 1982-ci ildə Moskvada kurslara daxil oldum. Direktorumuz Kokareva idi. O, əvvəllər SSRİ Dövlət Kinematoqrafiya Komitəsinin baş redaktoru olmuşdu. Kurslarda oxuyan uşaqlar isə qətiyyən heç nəyi bəyənmirdilər, elə bir film olmurdu ki, hamımızın xoşuna gəlsin. Heç kimi, heç bir rəhbərliyi tanımırdıq. Bir dəfə mən məşğələyə gələndə müəllim dedi – hamı ayağa qalxsın. Mən soruşdum ki, onlar nə üçün ayağa qalxıblar? Direktor dedi – Vaqif Mustafayev, Heydər Əliyeviçin Moskvada olması münasibəti ilə Sizi təbrik edirik. Heç bilmirdim özümü necə aparım, onlar isə ayaq üstə qalmışdılar. Onların hamısı institutu bitirdikdən sonra gəlmişdilər – biri Minskdən, digəri Bolqarıstandan, Kaydanovski... Mən yanlarından ötüb dedim – əyləşin, əyləşin. Bu, çox xoş idi.

Sizin haqqınızda film çəkmək ideyasının nə vaxt yaranmasından danışım. Qəribə olsa da, Sizə qarşı qara-qışqırıq saldıqları, ayaqlarını yerə döydükləri, danışmağınıza maneçilik törətdikləri və s. Həmin sessiyanı görəndə məndə elə bir hiss vardı ki, az qalırdı televizora girim. Başa düşürdüm ki, artıq onların hamısı uduzubdur. Mən Rəfael müəllimə demişəm ki, Sizin natiqlik məharətiniz haqqında film çəkmək lazımdır. Ona görə ki, Siz orada mikrofona yaxınlaşaraq eyni bir cümləni iki dəfə təkrar edirsiniz, bundan sonra salondakılar bilmirlər ki, özlərini necə aparsınlar. Bu, komissiya yaradılması təklif ediləndə olmuşdu. Siz soruşdunuz – hansı komissiyanı yaratmaq istəyirsiniz? Kiçik bir pauzadan sonra bir daha soruşdunuz – hansı komissiyanı yaratmaq istəyirsiniz? Vəssalam. Bu, əsilində 15 söz deməyə bərabər idi.

Mən bu salona baxırdım – axı, mən montaj edirəm, bütün bunların hamısını iri planda görürəm, – Siz eyni bir cümləni təkrar etməklə bütün salonu karıxdırdınız. Sizin haqqınızda film çəkmək fikri bax, onda ağlıma gəldi. Çünki başa düşdüm ki, Azərbaycan xalqının... Əvvəllər necə olurdu? Məsələn, 60-70-ci illərdə hər evdə divardan Heminqueyin, Mayakovskinin, Blokun və başqalarının portreti asılırdı. Yəni, biz qəhrəmanları kənarda axtarırdıq. Mən isə hesab edirəm ki, – elə görünməsin, təmtəraqlı sözlər söyləyirəm, yox, mən normal sözlər deyirəm, övladlarımız xoşbəxtdir və gələcək nəsillər xoşbəxt olacaqlar ki, onların öz qəhrəmanı var. Düzünü deyirəm. Mən belə adamam, hamı məni tanıyır, heç vaxt nəyinsə xatirinə yalan danışan deyiləm. Həyatımda hələ elə bir hal olmayıb ki, mən rəhbərlərdən hər hansı biri haqqında danışım.

**Heydər Əliyev:** Sağ ol.

**Vaqif Mustafayev:** Siz sağ olun, cənab Prezident.

**Heydər Əliyev:** Çəkdiyiniz əməyə görə sağ olun, bu işə səmimi, ürəkdən yanaşdığınıza görə sağ olun. Sizin axırda dediklərinizi başa düşürəm. Belə olmasaydı, Sizə bu qədər sifarişlər verilməzdi. Öz duyğularınız və öz fikriniz olmasaydı, Siz heç nə edə bilməzdiniz. Yeri gəlmişkən, belə bir film olduğunu, – axı, mən bunu qətiyyən bilmir və təsəvvür etmirdim, – mənə deyəndə, Allahverdiyev məndən bu filmə baxmağı dəfələrlə xahiş edəndə dedim ki, mənim baxmağım nəyə gərəkdir, nə çəkmisinizsə, onu da göstərin, mən ki, ona hansısa düzəlişlər etməyəcəyəm. Siz azad sənətkarsınız, nə etmisinizsə, onu da etmisiniz. Vaqif Mustafayev nə çəkibsə, qoy onu da göstərsin.

**Vaqif Mustafayev:** Lomer də şəxsiyyət haqqında hələ heç vaxt film çəkməmişdi, imtina edirdi. Mən də imtina edirdim. Amma daha burada... Bu, mənim üçün böyük şərəfdir.

**Lomer Axvlediani:** Bir halda ki, söhbət Vaqifdən, onun filmindən düşdü, onda icazə versəniz deyərəm ki, son bir çox illər ərzində mən kino əsərindən belə təəssürat almamışam. Mən bunu məni dinləyənlərin və ya dinləyəcək hər bir kəsin qarşısında tam vicdanla deyirəm.

Yarım saatlığa vaxt tapsanız, Vaqıfın “Hər şey yaxşılığa doğru” adlı qısametrajlı bir filmi var, Siz ona baxın. Mən təmtəraqla danışmağı sevmirəm, lakin tam məsuliyyətlə deyirəm ki, onun insani və vətəndaş müdrikliyi qarşısında baş əyirəm. Bu, cəsurluqdur. Material belədir. Bəri başdan Sizə danışmaq istəmirəm, bu filmdən alacağınız zövqü sadəcə olaraq təsəvvür edirəm. Vaqifin bu filmdə etdikləri misilsizdir, bu, böyük sənətdir. Orada daim söhbət ölümdən gedir. Amma bu mövzunun öhdəsindən belə şərəflə gəlmək, heç kimin xətrinə dəyməmək, yumor hissləri doğurmaq və əsil pasifist olmaq, sənətin belə yüksək səviyyəsinə qalxmaq... Sözün düzü, mən çox baxıram, çox çəkirəm, amma çoxdandır filmlər mənə belə böyük təsir bağışlamamışdır. Bunu məsləhət verməyə cürət etmək kimi qəbul etməyin, mən Sizə sadəcə olaraq tövsiyə edirəm.

**Heydər Əliyev:** Hökmən baxacağam. Əlbəttə, Siz məndə maraq oyatdınız, təbliğat aparmaq lazım deyil.

**Lomer Axvlediani:** Çox yüksək səviyyədə çəkilmişdir. Bütün bu bir neçə gündə məni heyrət bürümüşdür ki, sənət adamı ölümlə, münaqişə ilə, insan münasibəti ilə bağlı belə gərgin süjetli filmi belə yüksək sənət səviyyəsində çəkə və müharibəyə, ölümə mənfi münasibət hissləri oyada bilər.

**Heydər Əliyev:** Sağ olun, sağ olun, hökmən baxacağam.

**Vaqif Mustafayev:** Mən bu film barədə təkcə bir kəlmə deyəcəyəm. Oberhauzendə keçirilən nüfuzlu festivalda bu film birdən-birə dörd mükafat qazanmışdır. Demək istəyirəm ki, əvvəllər Qarabağa dair filmi yaxına belə buraxmırdılar, qalsın ki, ona dörd mükafat versinlər. Cənab Prezident, bu da Sizin xidmətinizdir ki, Qarabağa dair filmlərimizə artıq baxırlar. Halbuki belə filmləri qəbul etmirdilər. 1991–1992-ci illərdə Qərbdə soruşurdular – film nə barədədir? Qarabağ haqqında? Yox, bizə belə film lazım deyil. Baxın, Siz nə qədər işlər görmüsünüz, nə qədər danışmısınız, nə qədər işlər görürsünüz ki, artıq bizi dinləyirlər, bizim filmlərə baxırlar. Buna görə də bizim filmə baxdılar, qiymətləndirdilər və dörd mükafat verdilər. Bu da Sizin xidmətinizdir.

Ümumiyyətlə, incəsənətlə bağlı olan nə varsa, hamısı Sizin xidmətinizdir. Özü də təkcə Azərbaycanda yox. Axı, mən materiallarla tanışam, açıq materiallara da bələdəm, yasaq edilmiş materiallara da. Sovetlər İttifaqında bütün kino sahəsinə Siz rəhbərlik edirdiniz. Filmdə bu da var. Kinomuzda nə varsa, hamısını, hətta avadanlıq alınmasını da Siz etmisiniz. O vaxtlar nə almışdınızsa, indiyədək qalan yalnız bunlardır.

**Heydər Əliyev:** Sağ ol. Bu filmə görə, çəkdiyin əməyə görə və səmimi, xeyirxah keyfiyyətlərinə görə sənə bir daha təşəkkür edirəm.

Görüşün sonunda Vaqif Mustafayev “Heydər Əliyev” filminin kasetini dövlətimizin başçısına təqdim etdi.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV QƏRB–ŞƏRQ ÜÇÜNCÜ BAKI–KİNOFESTİVALININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

*8 oktyabr 1999-cu il*

Azərbaycan prezidenti Heydər Əliyev oktyabrın 8-də Prezident sarayında həmin gün Bakıda açılmış Qərb–Şərq kinofestivalının iştirakçılarını qəbul etmişdir.

**Dövlətimizin başçısı Heydər Əliyev qonaqlara müraciət edərək dedi:**

– Sizi Azərbaycanda ürəkdən salamlayıram. Şadam ki, Azərbaycanda kinofestivallar keçirilməsi ənənəsi artıq təşəkkül tapmışdır. Bütün bunlar çox şeyə dəlalət edir. Ona dəlalət edir ki, Azərbaycanda cəmiyyət, xalq kinonu sevir və kinoya marağı itirməyiblər. Bu həm də ona dəlalət edir ki, kino sənəti xadimləri ölkəmizə daim diqqət yetirirlər. Bunların hər ikisi bizə, xüsusən mənə çox xoşdur. Buna görə də şadam ki, siz Bakıda, Azərbaycanda kinofestival keçirməyi yenidən qərara almısınız. Əminəm ki, tamaşaçılar, kino həvəskarları sizin festival kino nümayişlərinə, eləcə də bu gün Respublika sarayında festivalın açılışına böyük maraqla gələcəklər. Yəqin ki, sizin bir çoxunuz əvvəllər Azərbaycanda olmuşdur, ola bilsin, kimsə buraya ilk dəfə gəlmişdir. Fərqi yoxdur, zənnimcə, burada olmuşlar da, burada ilk dəfə olanlar da buraya gəlməklərindən razı qalacaqlar. Ölkəmiz yaxşı ölkədir, xalqımız qonaqpərvərdir, Bakı gözəl şəhərdir. 8 il əvvəl əldə etdiyimiz dövlət müstəqilliyi şəraitində Azərbaycan böyük çətinliklərdən keçərək yaxşı nəticələrə nail olmuşdur.

Əvvəla, sizə yəqin maraqlıdır ki, Azərbaycanda incəsənətə, mədəniyyətə, kinoya, teatra, musiqiyə maraq getdikcə artır, ölkəmizin mədəniyyət xadimləri həm cəmiyyətin, həm də dövlətin qayğı və diqqəti ilə əhatə olunmuşlar, əlbəttə ki, mümkün dərəcədə Müstəqillik illərində Azərbaycan həm daxili, həm də xarici xarakterli çox mürəkkəb proseslər yolu keçmişdir. Əlbəttə, Azərbaycan üçün ən ağır olan budur ki, o, artıq 12 ildir ölkəmizin ərazisinin bir hissəsinə – Dağlıq Qarabağa Ermənistanın iddialarına görə Ermənistanla münaqişəyə cəlb edilmişdir. 1988-ci ildə başlayan bu münaqişə genişlənərək böyük müharibəyə çev-

rilmiş, hərbi əməliyyatlar getmiş, çox qanlar tökülmüş, çox insanlar həlak olmuş və müxtəlif məlum səbəblərə görə erməni silahlı birləşmələri Azərbaycan ərazisinin bir hissəsini işğal etməyə müvəffəq olmuşdur. Bu, Ermənistanın göz dikdiyi Dağlıq Qarabağ ərazisi və Dağlıq Qarabağ ətrafındakı rayonlardır. Bu, Azərbaycan ərazisinin birlikdə götürdükdə 20 faizidir.

Həmin rayonların sakinləri olan azərbaycanlılar öz yaşayış yerlərindən qovulmuş və uzun illərdən bəri çox ağır şəraitdə, əksəriyyəti də çadırlarda yaşayırlar.

1994-cü ilin mayında biz Ermənistanla atəşkəs haqqında razılaşma əldə etdik. İndi müharibə getmir, döyüş əməliyyatları aparılmır, qan tökülmür, hər iki tərəf atəşkəs rejiminə əməl edir, lakin tam sülh də yoxdur. Bütün bu illər ərzində biz münaqişəni dincliklə nizama salmağa çalışırıq. Amma təəssüf ki, biz buna erməni tərəfinin qeyri-konstruktiv mövqeyi nəticəsində hələlik nail ola bilməmişik.

Əlbəttə, bu, gənc müstəqil dövlət üçün böyük yükdür və respublikanın iqtisadi, sosial vəziyyətinə təbii olaraq ciddi təsir göstərir.

Ötən bu illərdə bizdə daxili xarakterli digər ciddi çətinliklər də olmuşdur. Təəssüf ki, keçmiş Sovet İttifaqının respublikaları ilə müqayisədə, heç yerdə Azərbaycandakı kimi hakimiyyət uğrunda daxili silahlı mübarizə getməmişdir. Müxtəlif qrupların, siyasi qüvvələrin və ya ayrı-ayrı adamların silahlı dəstələri Azərbaycanda daxili siyasi vəziyyəti çətinləşdirir, təbii ki, qayda-qanunu və adamların rahatlığını pozurdular.

Azərbaycana bu hadisələr də böyük ziyan vurdu. Buna görə də hakimiyyət dəyişirdi. Bu, bir dəfə 1992-ci ildə, sonra isə 1993-cü ilin iyununda baş vermişdir, o vaxt respublikada vətəndaş müharibəsi başlanmışdı və Azərbaycan fəlakət, parçalanmaq həddində idi. Biz bunun qarşısını almağa müvəffəq olduq. Lakin hakimiyyəti ələ keçirməyə can atan, bir sıra hallarda kənardan qızışdırılan qüvvələr ayrı-ayrı dövlətlərin xüsusi xidmət idarələrinin köməyi ilə fəaliyyətini yenə də davam etdirirdilər. Bu gün oktyabrın 8-dir, oktyabrın 4–5-də isə Azərbaycanın yenidən fəlakətlə üzləşdiyi vaxtdan beş il ötmüşdür. O vaxt silahlı yolla dövlət çevrilişi etmək üçün çox ciddi cəhd göstərilmişdir. Xalqın iradəsi və gücü ilə bu cəhdi boşa çıxarmaq mümkün oldu.

Son günlər televiziyamız o günlərin televiziya kadrlarını göstərmişdir. Biz bunların hamısını yaşadıq, mən özüm hadisələrin mərkəzində oldum, buna baxmayaraq, bir daha düşünürsən – biz necə ağır günlər keçirdik. Axşamdan xeyli keçmiş mənim televiziya ilə çağırışımla xalq, yə-

qin, yarım milyondan artıq adam Prezident sarayının ətrafına toplaşdı və öz dövlətini müdafiə etdi.

Lakin iş bununla bitmədi. Vəziyyəti qaydaya salmaq üçün bir çox digər tədbirlər görmək lazım gəldi. Yarım ildən sonra biz hakimiyyəti devirməyə çalışan adamların silahlı çıxışı ilə bir daha qarşılaşdıq. Onun da qarşısı alındı.

Bir sözlə, o illərdə həyatımız ağır, mürəkkəb olmuşdur. Lakin hətta o ağır və mürəkkəb vaxtlarda da biz mədəniyyəti, mədəni ənənələrimizi heç zaman unutmurduq. Hətta o ağır illərdə də biz görkəmli mədəniyyət ustalarımızın – yazıçıların, şairlərin, bəstəkarların yubileylərini keçirirdik, çox böyük konsert-gecələr olurdu, teatr müntəzəm işləyirdi.

Ancaq bütün bunlar artıq arxada qalmışdır. İndi Azərbaycanda ictimai-siyasi vəziyyət sabitdir, biz xalqın sakit yaşaması üçün şərait yaratmışıq.

Bu baxımdan Azərbaycan bizi əhatə edən ölkələrlə müqayisədə hazırda bəlkə də ən sakit ölkədir.

Bizdə iqtisadiyyat da inkişaf edir. Siz bunu hətta şəhərin görkəminə əsasən də hiss edə bilərsiniz. Bakı şəhəri öz gözəlliyi ilə həmişə məşhur olmuşdur və biz bununla həmişə fəxr etmişik. Lakin son illərdə, bizdə azad sahibkarlığın, bazar iqtisadiyyatının inkişaf etdiyi, iqtisadi və sosial islahatlar aparıldığı dövrdə şəhər daha yeni görkəm alır.

Bu yaxınlarda Rüstəm İbrahimbəyov mənə dedi ki, bir neçə ay əvvəl şəhərin mərkəzindəki "Azərbaycan" kinoteatrı, – yeri gəlmişkən, o, kino həvəskarlarının neçə-neçə nəslinin olduğu yerdir, – yenidən qurulmuş, modernləşdirilmiş, burada heç zaman olmayan şeylər yaradılmışdır.

**Rüstəm İbrahimbəyov** (kinodramaturq, Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri): Biz hey gözləyirik ki, Siz haçansa vaxt tapacaqsınız...

**Heydər Əliyev:** Vaxt tapmaq istəyirəm, istəyirəm.

Mən o kinoteatrı xatırlayıram. Gənclik illərində biz kinonu sevirdik, o vaxtlar kino teatrla birlikdə axşamlar adamların getdiyi başlıca yer idi. Xatirimdədir, orada foyedə həmişə estrada orkestri çalırdı, biz gəlib musiqini dinləyirdik, sonra da salona daxil olub filmə baxırdıq. Doğrudur, bəzən bilet tapmaq çətin olurdu. Yadımdadır, mən dəfələrlə növbədə dayansam da bilet ala bilməmişdim, bəzən əldən alırdım. Odur ki, bu kinoteatr, eləcə də Bakıdakı bir çox kinoteatrlar mənə çox yaxşı məlumdur. Mənim gəncliyim Bakıda keçmişdir.

Rüstəm deyir ki, Siz nəyi gözləyirsiniz – mən mütləq gələcəyəm. Elə bunun özü yenilik əlamətləridir. Bu, sizə əziz ola biləcək bir misaldır, çünki bu, sizi qalan hər şeydən yəqin daha çox maraqlandırır. Lakin belə misallar bizdə çoxdur.

Bütün bunlardan danışarkən əsas fikrə bir daha qayıdıram ki, Azərbaycanda biz hamımız incəsənətin, kinonun, mədəniyyətin böyük pərəstişkarlarıyıq. Formalar dəyişir, indi televiziya çox böyük yer tutur, amma kino öz əhəmiyyətini itirmir. Deyirlər ki, bir çox ölkələrdə, o cümlədən keçmiş Sovet İttifaqının respublikalarında baş vermiş kinodan uzaqlaşma artıq dayanmışdır, əksinə, kinoteatrlara axın var.

Bilirəm ki, indi bəzi Qərb ölkələrində kinoteatrlara bilet tapmaq, əvvəllər bizdə olduğu kimi çətindir. Halbuki orada da televiziya var, bəlkə də bizdə olduğundan da artıqdır. Proqramlar da bizdə olduğundan çoxdur, buna baxmayaraq, adamlar kinofilmi təkcə televizorda deyil, ekranda da görmək istəyirlər. Buna görə də sizin peşəniz yaşayır və yaşayacaqdır.

Məruz qaldığınız çətinliklər məlumdur. Mən sizə bizim çətinliklərimizdən danışdım, onlar sizin çətinliklərinizdən daha mürəkkəbdir. Amma gərək nikbin olasan, irəliyə baxasan və düşünəsən ki, hər şey getdikcə daha yaxşı olacaqdır. Zənnimcə, məhz bu fikirləri Bakı festivalı da nümayiş etdirəcək, bir daha təsdiqləyəcəkdir. Mənə elə gəlir ki, siz festivaldan məmnunluq duyacaqsınız. Lakin mən vətəndaşlarımız barədə daha çox düşünürəm, onlar kino xadimləri ilə film vasitəsilə deyil, canlı olaraq görüşməkdən böyük zövq alacaqlar. Bu, həmişə xoşdur, zənnimcə, bu dəfə də belə olacaqdır. Sizə böyük uğurlar arzulayıram.

Kinofestivalın iştirakçıları prezident Heydər Əliyevin sözlərini alqışlarla qarşıladılar.

**Bundan sonra Rüstəm İbrayimbəyov dedi:**

– Cənab prezident, vaxt tapıb bizi qəbul etdiyinizə görə Sizə çox minnətdarıq. Bu cür görüşlər kinematoqraf üçün çox vacibdir. Asanlıqla yada sala bilərik ki, perspektivli ideya və təşəbbüslər məhz bu cür görüşlərdə meydana gəlmişdir. Məsələn, üç il bundan əvvəl belə görüşlərdən birində Siz bu festivalı dəstəklədiniz, Bakıda beynəlxalq festival keçirmək ideyası dəstəkləndi və birinci festival üçün hətta büdcədən pul ayrıldı. Sonra biz "Filipp Morris" Şirkəti ilə əlaqə yaratdıq və ikinci festival, habelə indiki festival onların sponsor yardımı ilə keçirilir. Ümidvaram ki, bu gözəl ənənə davam etdiriləcək və Şərqi Avropa üzrə vitse-prezident cənab Uayt başda olmaqla "Filipp Morris" Şirkəti nümayəndə

heyətinin əməkdaşlığımızın perspektivləri barədə fikrini dinləmək çox maraqlı olacaqdır.

Əvvəlki illərdə olduğu kimi, yenə də festivalın əsasını Avrasiya ölkələrində çəkilmiş filmlər təşkil edir. Bunlar müxtəlif festivallarda göstərilmiş ən yaxşı filmlərdir. Çox yaxşı olar ki, bakılılar bu filmləri görsünlər.

Lakin indi bu festivalın coğrafiyasını bir qədər genişləndirmişik. Proqrama ABŞ, Türkiyə, İsrail filmləri də daxil edilmişdir. Onların nümayəndələri indi buradadırlar.

Bu, Sizin dəfələrlə nəzərə çarpdırdığınız kimi, onunla bağlıdır ki, Azərbaycan Şərqin və Qərbin böyük mədəni ənənələrinin qovuşduğu sərhəd ölkəsidir və burada bu əməkdaşlıq çox səmərəli şəkildə həyata keçirilir. Bu həm də Böyük İpək yolunun bərpası üçün diqqətəlayiq təşəbbüsdür. Bununla əlaqədar olaraq cari ildən festival "Şərq–Qərb" adlanır – biz meyilləri, təmayülləri təhlil və müqayisə etmək üçün Şərq və Qərb kinematoqraflarının nümayəndələrini bir növ dəvət edirik.

Festival çərçivəsində ilk dəfə olaraq "Fridom" festival proqramı da iştirak edəcəkdir. Bu festivalın əsası Amerika Kino Fondu tərəfindən qoyulmuşdur, fondun prezidenti cənab Heri Mak–Vey buradadır. Bu festivalın proqramı da "Filipp Morris" Şirkətinin yardımı ilə keçirilir. Biz əməkdaşlığı bundan sonra da davam etdirəcəyik.

Festivalımız "Dağıdılmış körpülər" filmi ilə açılır. İstərdik ki, bu filmə Birləşmiş Ştatlarda da baxsınlar. Çünki o, Amerika–Azərbaycan filmidir. Onun rejissoru Rafiq Puyya burada oturmuşdur. Yadınızdadır, Siz Naxçıvanda işləyərkən biz onunla birlikdə yanınıza gəlmişdik.

Biz çox təəssüflənirik ki, Siz bu gün həmin filmə baxa bilməyəcəksiniz. Bilirik, çox məşğulsunuz, ancaq ümid edirik ki, 10 gün ərzində bu filmi Sizə bəlkə də göstərdilər, belə ki, film 1991-ci ildən bəri ən yeni tariximizin bütün mühüm problemlərini, o cümlədən Qarabağ problemini əhatə edir. Bu, çox maraqlı, geniş vüsətli filmdir.

**Heydər Əliyev:** Mən bu filmə hökmən baxacağam.

**Rüstəm İbrahimbəyov:** Beynəlxalq festivalı uğurla keçirmək üçün hər hansı ölkəyə çox şərtlər gərəkdir. Lakin bir labüd şərt var – ölkənin özündə az-çox güclü və maraqlı kinematoqraf olmalıdır. 1993-cü ildə kinematoqrafiyamıza dövlət yardımı, – bu yardım əvvəllər dayandırılmışdı və bir neçə il biz film çəkə bilmədik, – bərpa edildikdən sonra kino haqqında qanun qəbul edildi: O, dövlət yardımını qanuniləşdirdi, son bir neçə ildə biz dörd bədii film çəkməyə müvəffəq olduq. Onlardan ikisini

Eldar Quliyev yenicə başa çatdırmışdır. Çox maraqlı filmlərdir. Bundan əvvəl Rasim Ocaqov çəkdiyi filmi başa çatdırmışdı. İki filmimiz artıq festivalları gəzib dolaşır və çox yüksək qiymətləndirilir. Bunların hamısı dövlətin yardımı, kino haqqında qanun sayəsində mümkün olmuşdur.

Əlbəttə, çox əhəmiyyətlidir ki, bir çox ölkələrdən fərqli olaraq, Azərbaycanda kinematoqrafın idarə edilməsi üzrə dövlət orqanı mövcuddur. Bu, çox vacibdir, çünki təcrübə göstərmişdir ki, həmin orqanın ləğv edildiyi ölkələrdə bu, kinematoqrafın təşkilinin pozulmasına gətirib çıxarır.

Ümidvaram ki, həmkarlarım bütün bunlar barəsində öz fikirlərini söyləcəyəklər. Mən isə Sizdən xahiş edərdim ki, – bilirəm, səfərə gedirsiniz, – oktyabrın 14-də əgər mümkün olarsa festivalın bağlanışına gələsiniz. Siz gəlsəniz biz çox şad olardıq. Türkiyədən Türkan Şoray, Moskvadan Mixail Ulyanov və başqaları buraya gələcəklər, çox təntənəli bağlanış mərasimi olacaqdır. Gələ bilsəydiniz, biz çox şad olardıq.

**Heydər Əliyev:** Sağ olun. Bilirsiniz, siz mənim bugünkü vəziyyətimi nəzərə almalısınız. İndi məni Yaponiyanın böyük bir nümayəndə heyəti gözləyir. Mən onunla görüşməliyəm. Sonra mənim daha bir görüşüm var. Odur ki, bu gün gecə yarısınadək bütün vaxtım proqramlaşdırılıbdır. Buna görə də gələ bilmirəm. Bilirsiniz ki, əvvəllər mən həmişə belə tədbirlərə məmnuniyyətlə gedirdim. Ayın 10-da mən həqiqətən üçgünlük səfərə gedirəm. Ayın 14-də burada olsam, sizin xahişinizi yerinə yetirməyə çalışacağam.

**Endrü Uayt** (“Filipp Morris” Şirkətinin vitse-prezidenti): Cənab prezident, mənim adım Endrü Uaytdır, mən “Filipp Morris” Şirkətindənəm, biz indiki festivalın sponsoruyuq. Şirkətimizin prezidenti, bu gün Sizinlə görüşəcəyimi bilərək, məndən xahiş etdi ki, onun ən səmimi hisslərini Sizə çatdırım.

Keçmiş Sovet İttifaqı məkanında bu ilk ölkədir ki, burada biz kinofestival keçirilməsinə sponsor yardımı göstəririk. Mənə çox xoşdur, mən fəxr edirəm ki, belə gözəl nümayəndə heyətinin əhatəsindəyəm. Bu gün axşam bu festivalın açılışında məmnuniyyətlə iştirak edəcəyəm. Zənnimcə, bütün bu günlər yaddaşımızda unudulmaz günlər kimi qalacaqdır. Hər şeyə görə Sizə təşəkkür edirik.

**Heydər Əliyev:** Sağ olun.

**Heri Makvey** (Amerika Kino Fondunun prezidenti): Cənab prezident, mənim təşkilatım – Amerika Kino Fondu yazıçılar və film prodüserləri tərəfindən təşkil olunmuşdur. Biz öz fondumuzu demokra-

tiya ideyalarını, tarixi filmlər vasitəsilə inkişaf etdirmək və yaymaq üçün yaratmışıq. Biz tarixi oxumuşuq və Sizin liderliyinizin bu ölkə üçün, bütün dünya üçün necə böyük əhəmiyyətə malik olduğunu əlbəttə, bilirik. Bütün kinematoqraf üçün gördüyünüz işlərə görə biz Sizə təşəkkür edirik.

Burada keçirəcəyimiz festival keçmiş Sovet İttifaqı və Şərqi Avropa məkanında təşkil edilmiş festivallardan, məncə, ən yaxşısı olacaqdır. Əlbəttə, bu festivalı məhz Bakıda keçirməyimiz, ən yaxşı filmlərin istehsalçılarının məhz buraya toplaşması təbiidir. Rüstəm İbrahimbəyovun seçdiyi ən yaxşı Azərbaycan filmlərini götürüb gələn ilin fevralında Hollivudda göstərməyi planlaşdırırıq. Biz təntənəli təqdimat mərasimi keçirəcəyik və belə düşünürəm ki, bu, Azərbaycanın Birləşmiş Ştatlardakı dostlarını ruhlandıracaqdır. Düşünürəm ki, Siz Birləşmiş Ştatlara gəldikdə biz Nyu–Yorkda, Vaşinqtonda və ya Los–Ancelesdəki bu şouları Sizə nümayiş etdirə biləcəyik.

Əlbəttə, bütün dostlarıma – Azərbaycanda təmsil olunmuş “Filipp Morris” Şirkətinə, cənab Pol Omahoniyə, İlqar Kərimova və şirkətin vitse-prezidenti Endrü Uayta təşəkkür etmək istəyirəm. Onların maliyyə yardımı olmasaydı, bu festival baş tutmazdı. Bilirəm ki, Siz respublikanın mədəni hadisələri ilə həmişə maraqlanmısınız və bu hadisələri həmişə dəstəkləmisiniz. Buna görə Sizə təşəkkür edirəm.

**Heydər Əliyev:** Sağ olun.

**Nikolay Vaşşenko** (Rusiya hökuməti mədəniyyət şöbəsinin müdiri): Çox hörmətli Heydər Əliyeviç, keçən il Sizinlə görüşüm xatirimdədir, ona görə də bu il də gəlmək dəvətini məmnuniyyətlə qəbul etdim. Burada gördüklərimizə görə sağ olun. Şəhər həqiqətən dəyişir, ölkə dəyişir.

Həmkarlarımın – Azərbaycan kinematoqrafçılarının bu qısa müddətdə həyata keçirməyə müvəffəq olduqları prinsipcə bir neçə mühüm məqam var. Təbii olaraq, çox vacibdir ki, dövlət kino-strukturu, müstəqil kinostruktur mövcuddur. Çox vacibdir ki, kino haqqında qanun qəbul edilmişdir. Məncə, ən mühüm və ən prinsipial məqam ondan ibarətdir ki, mədəniyyət və incəsənət kimi mudafiə edilməyən sahə dövlət başçısının bilavasitə himayəsi altındadır. Buna görə də Sizə möhkəm cansağlığı, Azərbaycan dövlətinə çiçəklənməyi arzu etmək və ümidvar olduğumu söyləmək istərdim ki, gələn il, eləcə də sonrakı illərdə biz qonaqpərvər torpağınızda yenidən görüşə biləcəyik.

**Heydər Əliyev:** Çox sağ olun. Sizi gələn ilə də dəvət edirəm.

**Emil Lotyanu** (kinorejissor, Moldova): Əziz Heydər Əliyeviç, Sizi üçüncü dəfə, – atalar üçədək deyib, – məmnuniyyətlə bu gün görmək

şərəfinə malikəm. Bu, birinci dəfə təxminən 20 il əvvəl olmuşdur, Siz 1981-ci ildə Aktyor evində kinematoqrafçıların qurultayında çıxış edirdiniz. Mən bu ittifaqda ilk dəfə olaraq elə bir lider gördüm ki, 15 dəqiqə onu salonda saxladılar və camaat ucadan Sizin adınızı çəkirdi. Onda dedim – mən millətin liderini gördüm. Sizi ikinci dəfə gözəl kino günündə, oktyabrda, Moskvada, "Oktyabr" kinoteatrında Siz müşavirə keçirərkən gördüm. Sizi üçüncü dəfə bu gün görürəm.

Siz Azərbaycanda xalqın kinoya məhəbbətindən və münasibətinin əhəmiyyətindən danışdınız. Respublika prezidentinin kinonu sevməsi çox gözəl haldır. Əgər Siz prezident olmasaydınız, mən Sizə daha çox yaxşı sözlər deyərdim. Qorxuram ki, Siz bunu yaltaqlıq kimi qəbul edəsiniz. Amma deməliyəm ki, Sizin kimi qəddi-qamətə malik aktyorlar kino aləmində az olmuşdur. Hər halda, bilirəm ki, dünya kinosunda bunlar Pol Nyuman, Jerar Filip və bizdə Batalovdur. Buna görə də biz artistlərimizə deyirik – məğrur, sabit və gözəl olan bu əla kişi qəddi-qamətinə malik olmağı öyrənin.

Sizin işiniz çox mürəkkəbdir. Sizə, Azərbaycana, həmkarlarıma arzu etmək istəyirəm ki, neftdən əlavə, neçə-neçə gözəl filmlər də bu ölkənin Heydər Əliyev epoxasının sərvəti olsun. Sizə ən xoş arzularımı bildirirəm.

**Heydər Əliyev:** Sağ olun. Bilirsiniz, Siz məndə özüm üçün çox əziz xatirələri oyatdınız. Doğrudur, insan çox şeyi unudur. Həyatda mən də çox şeylər görmüşəm və çox şeyləri unutmuşam. Amma kimsə nəyisə xatırlatdıqda bu, çox xoş olur. Budur, Siz bizim üç görüşümüzü yaxşı yadda saxlamısınız. İndi mən özüm də xatırladım ki bu, həqiqətən olmuşdur. Xüsusən onu da xatırladım ki, Dövlət Kinematoqrafiya Komitəsində görkəmli kinematoqrafçıların böyük bir qrupu ilə görüşmüşdüm. O vaxtlar Sov.İKP MK Siyasi Bürosunun üzvü və Nazirlər Sovet sədrinin birinci müavini kimi mən Kinematoqrafiya Komitəsinin kuratoru idim və Sovet İttifaqında kinematoqrafın inkişafı tədbirləri haqqında böyük bir qərar – sənəd hazırlamışdım.

Mən bunun üzərində uzun illər işləmişdim. Sənədin təxmini variantı hazır olduqda mən əvvəlcə baş mütəxəssislərlə məsləhətləşmək istədim. Özü də mən onları Kremlə yanıma dəvət etmədim, Filipp Yermaşdan onları Dövlət Kinematoqrafiya Komitəsinə toplamağı xahiş etdim, dedim ki, mən oraya gələcəm və biz danışıb müzakirə edərik. Yadımdadır, müzakirə bir neçə saat getdi. Orada bir çox böyük kino xadimləri var idi, onlardan bəziləri artıq dünyasını dəyişmişdir. Şadam ki, Siz, Rüstəm,

orada olanlar bu gün buradasınız. Mən bu görüşü yadımda saxlamışam və deməliyəm ki, bu görüş mənə çox şey verdi. Mən bundan sonra hazırladığımız sənədlər üzərində həmkarlarımla dəfələrlə işlədim. Artıq bundan sonra bütün Sovet İttifaqının kino xadimlərini "Oktyabr" kinoteatrına topladılar, mən orada böyük çıxış etdim. Mən bunu xatırlayıram.

Əlbəttə, mən sənətşünas deyiləm, kinoşünas deyiləm, amma bu çıxışı çox ciddi hazırlamışdım və zənnimcə, pis olmadı.

Siz nədənsə qədd-qaməti xatırladınız. Bununla da mənə daha bir şeyi xatırlatdınız, qoy bu, mənim tərəfimdən təvazökarsızlıq kimi səslənməsin. Məni Moskvaya keçirdikdə mən Siyasi Büroda işləyirdim, onun uzvü idim. Bir dəfə Amerika jurnalında mənim haqqımda məqalə verildi. Orada çox şey yazılmışdı. Orada yazılmışdı ki, Siyasi Büronun bu yuxuya getmiş uzvləri arasında Əliyev zahirən Hollivud aktyorunu xatırladır. Bunu ilk dəfədir deyirəm, məni başa düşün. O jurnal mənim arxivimdə saxlanılır. Əgər Siz qəddi-qamətdən danışmasaydınız, mən bunu xatırlamazdım. Demə, Amerika Birləşmiş Ştatlarının müşahidəçiləri kimi, Siz də hər şeyə diqqət yetirirsiniz.

**Hocaqulu Narlıyev** (rejissor, Türkmənistan): Heydər Əliyeviç, xalq uzun müddət ərzində həll edə bilmədiyi böyük problemlə qarşılaşdıqda, sonra bu problem həll edildikdə deyirlər – Allah bilir, görür və hər şeyi ədalətlə həll edir. Mən Azərbaycan barədə düşünəndə o günləri – ölkəniz üçün ağır vaxtların başlandığı, prezidentlərin dəyişildikləri, vətəndaş müharibəsinin, Qarabağ probleminin başlandığı günləri xatırlayıram. Mənə elə gəlir ki, o rejim Azərbaycan xalqı üçun çox böyük problemə çevrilmişdi. Lakin Azərbaycan xalqı kimə muraciət etməyi bilirdi. O, Sizi Naxçıvanda tapdı, Sizə müraciət etdi və bununla da özünün bütun problemlərini həll etdi. Biz buna sevinirdik. Çox sağ olun. Zənnimcə, Siz çox ağır şəraitdən çıxış yolu tapmağa qadir rəhbərə xas böyük siyasi nümunə, vətəndaş nümunəsi göstərdiniz.

Belə bir türkmən atalar sözü var – Xalqa xoşbəxtlik üz verdikdə birinci olaraq sənət adamları və quşlar gəlirlər. Misal üçün götürək elə Sizin kinonu. Çox sağ olun ki, kino haqqında bu qanunu qəbul etmisiniz. Bu, böyük işdir. Artıq nəticələr var. Bu il mənə "Avrasiya" teleforumunda gənc Azərbaycan rejissoruna mükafat təqdim etmək şərəfi nəsib oldu. O, həmin mükafata Sizin gözəl həmyerliniz Rostropoviç haqqında gözəl film çəkdiyi üçün layiq görülmüşdür. Anapada yenicə başa çatmış festivalda Sizin daha bir filminiz ssenariyə görə mükafat almışdır. Azərbaycan kinosu dünyada məşhurluq səviyyəsinə yenidən çıxır.

Siz bilirsiniz ki, Moskvada bütün 15 respublikanı öz tərkibində saxlayan yeganə bir təşkilat – Kinematoqrafçılar İttifaqı var. Ona Rüstəm İbrahimbəyov rəhbərlik edir. O, həmin təşkilata çoxdan məharətlə, müdrikliklə və cəsarətlə rəhbərlik edir. Bütün bunlara görə təşəkkür etmək istəyirəm. İndi burada festival keçirilməsi də, zənnimcə, belə bir zəruriyyətin aydın başa düşülməsinin nəticəsidir ki, xalq incəsənətsiz yaşaya bilməz. Xalqı bu sevincdən ancaq anlamaz adamlar məhrum edə bilər. Bunu başa düşənlərə çox sağ olun deyirik.

**Heydər Əliyev:** Sağ olun. Sizi dinləmək mənə xoş idi, çünki Türkmənistan yaxın qonşumuzdur, biz dostuq, ümumi tarixə, ümumi keçmişə, ümumi köklərə malikik. Türkmənistanın uğurları bizi həmişə sevindirmişdir. Siz bilirsiniz ki, gözəl Azərbaycan və türkmən kinorejissoru Əjdər İbrahimov azərbaycanlıdır, amma Türkmənistanda doğulub boya-başa çatmış, öz fəaliyyətinə orada başlamış, sonra Moskvada "Mosfilm"də işləmişdir. Yeri gəlmişkən, o, mənim yaxın dostum idi, ona çox hörmət edirdim. Moskvada istefada olduğum, daha dəqiq desək, məni gözdən-nəzərdən salmağa can atdıqları, çox ağır şəraitdə yaşadığım, mənimlə çox az adamın əlaqə saxladığı vaxtlarda Əjdər İbrahimov həftədə azı bir dəfə axşam zəng edir, hal-əhval tuturdu. Mənim necə yaşamağımla maraqlanırdı. Biz onunla görüşürdük. O, vəfat etdikdə mən göstəriş verdim, biz onu buraya gətirdik və Bakıda, Fəxri xiyabanda dəfn etdik, lazım olan bütün işləri gördük.

Bir fikir verin, o, həm türkməndir, həm də azərbaycanlı, sovet kinematoqrafı uçün də çox şey etmişdir. Bir sözlə, türkmən və Azərbaycan xalqları arasında yaxınlıq və dostluq olduğunu təsdiqləmək üçün çox misallar çəkə bilərik. İndi mən çox istərdim ki, bu dostluq çox möhkəmlənsin, inkişaf etsin. Bundan ötrü bizim çox böyük imkanlarımız var.

Yeri gəlmişkən, sizdə çox yaxşı kino xadimləri var idi. Əlbəttə, ən yaxşısı Sizsiniz, lakin başqaları da olmuşdur. Xatirimdədir, o vaxtlar Moskvada, "Oktyabr" kinoteatrında çox yaraşıqlı bir qadın çıxış etdi. Bu, Aymedova idi.

**Rüstəm İbrahimbəyov:** O buradadır.

**Heydər Əliyev:** Buradadır? (Turkmənistanlı aktrisa Maya Aymedovaya muraciətlə) Yadınızdadırmı? O, indi də çox yaraşıqlıdır. Halbuki nə qədər vaxt keçmişdir. Bu, 1984-cü ildə olmuşdur, o vaxtdan 15 il ötmüşdür. Siz dəyişməmisiniz.

**Svetlana Toma** (aktrisa, Rusiya): Sizdən böyük bir xahişim var. Mən aktrisayam. Bu gün burada, Sizinlə görüşdə olmağım mənim

üçün ağlasığmaz şərəfdir. Buna görə də çox istərdim ki, mənim– üçün bu çox əlamətdar gündən arxivimdə bir yadigar qalsın. Sizdən bir xahişim var – mən öz fotoaparatımı xüsusi olaraq gətirmişəm, çünki Sizinlə şəkil çəkdirməyi çox istəyirəm. İcazə verirsinizmi?

**Heydər Əliyev:** Əlbəttə, amma onda gərək hamı ilə birlikdə şəkil çəkdirək.

**Yerdən:** Axı, o, ayrıca, sonra da hamı ilə birlikdə şəkil çəkdirmək istəyir.

**Heydər Əliyev**: Nə deyirəm, bir halda ki, bu Sizin təşəbbüsünüzdür.

Prezident Heydər Əliyev kinofestivalın iştirakçıları ilə xatirə şəkli çəkdirdi. Onlar dövlətimizin başçısına görüşə görə çox böyük təşəkkürünü bildirdi, möhkəm cansağlığı arzuladılar.

Qəbulda Prezidentin İcra Aparatının humanitar siyasət şöbəsinin müdiri Fatma Abdullazadə iştirak edirdi.

## CƏLİL MƏMMƏDQULUZADƏNİN EV-MUZEYİNİN AÇILIŞ MƏRASİMİ

*Naxçıvan*
*13 oktyabr 1999-cu il*

Mərasimi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov açdı.

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN SƏDRİ VASİF TALIBOVUN ÇIXIŞI

– Möhtərəm zati-aliləri!

Hörmətli qonaqlar və mərasim iştirakçıları!

Biz Azərbaycan bədii fikrinin inkişafı tarixində misilsiz xidmətləri olan qüdrətli nasir, dramaturq, publisist və fəal ictimai xadim Cəlil Məmmədquluzadənin anadan olduğu evdə onun muzeyinin açılışına toplaşmışıq. Ölməz sənətkarın doğulub boya-başa çatdığı bu ev möhtərəm Prezidentimizin "Cəlil Məmmədquluzadənin Naxçıvan şəhərində ev-muzeyinin yaradılması haqqında" 1998-ci il 19 iyun tarixli sərəncamı ilə əsaslı bərpa olunmuş, qədim memarlıq sənətinin incəliklərini özündə əks etdirən bir muzeyə çevrilmişdir.

Möhtərəm Prezident!

Mirzə Cəlilin şəxsiyyətinə və irsinə daim göstərdiyiniz diqqət və qayğıya, ev-muzeyinin yaradılması ilə bağlı imzaladığınız sərəncama görə Naxçıvan Muxtar Respublikasının ziyalıları və əhalisi adından sizə dərin minnətdarlığımızı bildiririk.

Cəlil Məmmədquluzadə yaradıcılığı elə bir zəngin xəzinədir ki, onun yanından etinasız keçmək qeyri-mümkündür. Xalqın taleyinə, adamların ağrı-acısına qəlbən yanan ölməz sənətkarın yazdığı hər bir kiçik əsər dövrün, zamanın mövcud bəlalarını əks etdirən canlı tabloya bənzəyir. Bu əsərlərdə Azərbaycan mühiti təbii və real cizgilərlə qələmə alınmışdır. Məhz buna görə də böyük ədibin bütün dövrlərdə müasir səslənən əsərləri Azərbaycan ədəbiyyatı tarixində özünə layiqli yer tuta bilmişdir.

Möhtərəm Prezident, xahiş edirik, Azərbaycan ədəbiyyatının klassiki, görkəmli yazıçı və dramaturq Cəlil Məmmədquluzadənin xatirəsini əbədiləşdirən bu ev-muzeyinin açılışı münasibətilə keçirilən mərasimdə də Siz öz tövsiyə və tapşırıqlarınızı verəsiniz.

**Prezident Heydər Əliyev:** Mən tapşırıqlarımı verəcəyəm. Məndən əvvəl qoy akademik Bəkir Nəbiyev danışsın.

## AKADEMİK BƏKİR NƏBİYEVİN ÇIXIŞI

– Hörmətli cənab Prezident!

Möhtərəm naxçıvanlılar!

Əziz azərbaycanlılar!

Bu gün təkcə Naxçıvan torpağı üçün yox, bütün Azərbaycan üçün həqiqətən çox böyük bayram günüdür. Azərbaycan Prezidentinin diqqət və qayğısı nəticəsində bu gün biz böyük, dahi Azərbaycan ədibi, mütəfəkkiri, mühərriri, nasiri Cəlil Məmmədquluzadənin doğulduğu, boya-başa çatdığı evin, xatirə muzeyinin açılışı münasibətilə buraya toplaşmışıq. Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatının tarixində ən böyük mərhələlərdən birinin, xüsusən XX əsr ictimai fikrimizin ən uca məqamının yaradıcısı və təmsilçisidir. O, bu adla da Azərbaycan ədəbiyyatının tarixinə daxil olmuşdur.

Belə məclislərdə çox danışmaq olmur. Amma bir mətləbi qeyd etməyə bilmərəm. O da bundan ibarətdir ki, həmin bu ev-muzeyinin yerindəki mənzildən günlərin birində Cəlil Məmmədquluzadə Naxçıvanda ürəyi istədiyi həkim tapa bilmədiyinə görə öz naxoş arvadını müalicə olunmaq üçün Tiflis şəhərinə götürüb getmişdi. Bəlkə də çoxları bunu bilir – onun səfəri bu cəhətdən o qədər də uğurlu olmamışdı: ədibin naxoş arvadı sağalmamışdı. Amma Azərbaycan ədəbiyyatının və ictimai fikrinin tarixində onun Tiflis səfəri ilə əlaqədar yeni bir günəş doğdu. O, Tiflis şəhərində özünün həmyerlisi Məhəmməd Ağa Şahtaxtlının nəşr etdiyi “Şərqi-rus” qəzetinin səhifələrində özünün çox əlamətdar ilk əsərlərini bir-birinin ardınca dərc etdirdi və beləliklə də Azərbaycan ədəbiyyatı tarixinin Cəlil Məmmədquluzadə səhifəsinin – çox parlaq, mənalı, zəngin bir səhifəsinin əsası qoyulmuş oldu.

Əzizlərim, Cəlil Məmmədquluzadənin çox böyük arzuları vardı. O arzulardan biri də öz vətənini – Naxçıvanı, Azərbaycanı, cəmi müsəlman Şərqini tərəqqidə, inkişafda görmək, ziyalılarımızın ətrafa nur saçdığını

görmək idi. Bu gün mən böyük məmnuniyyət duyğusu ilə etiraf edirəm ki, Mirzə Cəlilin ən böyük arzularından biri həyata keçirilmişdir. Bakıda Cəlil Məmmədquluzadənin heykəli, onun haqqında sizə məlum olan əsərlər vardır. Nizami muzeyinin qabağında məşhur altı heykəldən biri də Cəlil Məmmədquluzadənindir.

Bu gün isə ədibin doğulub boya-başa çatdığı, havasından, suyundan faydalandığı və ətrafındakı ağsaqqallardan, qocalardan müdriklik dərsi aldığı Naxçıvanda onun özünün ev-muzeyinin açılışında iştirak edirik.

Möhtərəm Prezident mənə həvalə etdi, – bu, çox məsul bir çıxışdır. Elə bilirəm ki, mən də fürsətdən sui-istifadə etməməliyəm. Çox sağ olun, cənab Prezident!

Sonra xalq yazıçısı Hüseyn İbrahimova söz verildi.

## XALQ YAZIÇISI HÜSEYN İBRAHİMOVUN ÇIXIŞI

– Möhtərəm cənab Prezident!

Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişafında onun qədim torpaqlarından biri olan Naxçıvanın xüsusi çəkisi, xüsusi xidməti vardır. Bu torpaq Azərbaycan xalqına çox böyük, görkəmli alimlər, yazıçılar, şairlər, dövlət xadimləri, sərkərdələr vermişdir. Ancaq bunların içərisində Cəlil Məmmədquluzadənin xüsusi yeri vardır. Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatında demokratik, satirik ədəbiyyatın banilərindən biridir, ilk satirik yazıçımızdır. Mən o "ilk" sözünü xüsusilə vurğulayıram. Hüseyn Cavid Azərbaycan ədəbiyyatında ilk mənzum pyeslər yazan romantik, filosof şairimizdir. Məmməd Səid Ordubadi Azərbaycan ədəbiyyatında ilk monumental nəsr əsərlərinin, romanların müəllifidir. Mən bu "ilk" sözünü ona görə deyirəm ki, bu torpaqda, bayaq dediyim kimi, ilk addım atan çoxlu alimlər, yazıçılar, görkəmli şəxsiyyətlər olmuşdur.

Cəlil Məmmədquluzadənin ədəbiyyatımızda xüsusi yeri vardır. Ona görə ki, o, əsl xalq yazıçısı idi. O vaxt "xalq" sözü yazıçıların adının qabağına dövlət başçısının, hökmdarın, yaxud da başqa bir böyük şəxsiyyətin fərmanı ilə yazılmırdı. Adı onlar özü qazanırdı. Bu da "mirzə" sözüdür. Mənim fikrimcə, əqidəmə görə "mirzə" sözü o vaxt xalq tərəfindən verilmişdi. Məsələn, Mirzə Cəlil, Mirzə Fətəli Axundov, Mirzə Ələkbər Sabir, Mirzə Şəfi Vazeh və başqalarını əsil xalq yazıçıları, şairləri hesab edirəm. Bunların içərisində Cəlil Məmmədquluzadənin xüsusi yeri var. Ona görə ki, əsil xalq yazıçısı olubdur. Əgər onun əsərlərini nəzərdən keçirsəniz gö-

rərsiniz ki, əksəriyyəti sadə adamların həyatından alınan mövzulardır. Naxçıvanda olan kəndlərin bəzilərinin adını – İtqapan kəndini, Qaraçuxu ayrı cür işlədibdir. Adamları Novruzəli, Qönçəbəyim, Şirəli və bu kimi kənd adamlarının, sadə adamların adları ilə yazıbdır. Cəlil Məmmədquluzadə ayrı heç bir şey yazmasaydı, Məhəmməd Ağa Şahtaxtlının "Şərqi-rus" qəzetində dərc etdirdiyi təkcə "Poçt qutusu" hekayəsi ilə ədəbiyyatımızda görkəmli bir yer tutardı. O, əgər başqa heç bir şey yazmasaydı, təkcə "Ölülər" əsəri ilə ədəbiyyatımızda böyük yer tutardı və o, şah əsərini yaratmaqla dramaturgiyamızın banisi hesab olunardı.

Hörmətli Prezidentimiz dedi ki, mən bir az qısa danışım. Ona görə də qısa danışmaq istəyirəm. Bütün bunların hamısını gətirib ona bağlayıram ki, bizim Naxçıvana çox böyük qayğı vardır. Onun yetirdiyi böyük adamlara, şəxsiyyətlərə böyük diqqət, qayğı vardır. Özü də bu qayğını bu torpağın yetirdiyi ən böyük şəxsiyyət, bu torpağın yetirdiyi başqa şəxsiyyətlərə göstərir.

Hörmətli Prezidentimiz, Naxçıvan Muxtar Respublikasının 75 illiyinin belə yüksək dövlət səviyyəsində keçirilməsi, Sizin burada iştirak etməyiniz naxçıvanlılara, bu torpağın yetirdiyi böyük şəxsiyyətlərə, onların müqəddəs, əziz xatirələrinə, o cümlədən Cəlil Məmmədquluzadənin əziz xatirəsinə Sizin göstərdiyiniz böyük hörmət və ehtiramdır. Mən buna görə bütün naxçıvanlılar, ağsaqqallar, ziyalılar, qələm yoldaşlarımın adından Sizə öz minnətdarlığımı bildirirəm. Səməd Vurğunun dediyi kimi, Sizə dünyada ən şirin nemət olan cansağlığı arzu edirəm.

Mən Sizə teleqram vuranda yazmışdım ki, ikinci bir xalq tanımıram ki, öz Prezidentini Azərbaycan xalqı sevən qədər sevsin. Siz xəstə olanda hamının gözü televiziya ekranlarında, radioda idi. O vaxtdan Sizi görməmişəm. Maşallah, yaxşısan və arzu edirəm, həmişə belə qalasan.

O gün Siz Naxçıvana gələndə üzərrik yandırırdılar.

Mənim ən çox xoşuma gələn bizim xalqın o adətidir. Bunu kim fikirləşmişdisə, çox ağıllı düşünmüşdü. Sizə üzərrik lazımdır. Çünki Siz bu xalqa lazımsınız. Bizim mədəniyyətimizə, incəsənətimizə, böyük dayaqsınız. Allah Sizə uzun ömür versin!

**Prezident Heydər Əliyev:** Yazıçılardan yenə danışmaq istəyən varmı? Əkrəm Əylisli, buyur gəl. Hardasan, neçə gündür səni görmürəm. Bəlkə boyun balacadır, ona görə görünmürsən. Buyur, danış.

## XALQ YAZIÇISI ƏKRƏM ƏYLİSLİNİN ÇIXIŞI

Hörmətli cənab Prezident!

Mənim yadıma 70-ci illər düşür. O vaxt Moskvada “Görkəmli adamların həyatı” deyilən kitablar seriyası var idi. Yəni məşhur, yaxşı adamların həyatından bəhs edirdi. O vaxt biz orada çalışdıq ki, Cəlil Məmmədquluzadə, bir azərbaycanlı haqqında o seriyadan kitab buraxaq. Mənə dedilər ki, sən bunu yaza bilərsənmi? Mən də Cəlil Məmmədquluzadə ilə bağlı ürəyi dolu bir adamam. Dedim, əlbəttə, yazaram. Dedilər ki, müqavilə bağlayırıq, sən bunu yaz. Mən gəldim, oturdum və fikirləşdim. Birinci onu fikirləşdim ki, Mirzə Cəlil, cəhalət ocağı adlandırdığı, yəni cahilliyinə, geriliyinə qarşı, müasirliyə qovuşmayan adamlarına qarşı mübarizə aparan ayıq zəkalı bir insan, Naxçıvandan nə apara bilərdi? Ağlıma gəldi ki, Mirzə Cəlil Naxçıvandan işıq apara bilərdi. Mirzə Cəlil bu işığı bu torpaqdan qəlbinə doldurub, aparıb illər boyu Azərbaycan xalqının həyatına damcı-damcı damızdırmış böyük bir şəxsiyyətimizdir.

Mənə elə gəlir ki, buradakı bütün adamlar Mirzə Cəlil amalından doğulmuş insanlardır. O, bizim amalımızı bu gün də, bəlkə bizim özümüzdən də fəal, qüdrətli şəkildə, dahiyanə surətdə aparan, davam etdirən, Azərbaycan torpağının yetirdiyi və yaşatdığı əbədi bir zəka ocağıdır.

Mən sizə bir məqamı da demək istərdim. Bizim indiki hörmətli Prezidentimiz Azərbaycana qayıtdı. Ona Bakıda yer vermədilər və o, Naxçıvana qayıdanda mən orada bir söz dedim. Dedim ki, yəqin işıq yığmağa gedir, Mirzə Cəlilin yığdığı işıqdan qəlbinə doldurmağa gedir. Mən yenə bu fikirdəyəm ki, əgər Siz o vaxt gəlib Bakıda qalsaydınız, bu torpağa qədəm basmasaydınız, bu torpağın o işığından qəlbinizə doldurmasaydınız, inandırıram ki, Siz bütün qüdrətinizlə, fitri istedadınızla bir yerdə, o işıqsız bu fəlakətlərin içindən, bu qarışıq zəmanədən bəlkə də baş çıxara bilməzdiniz. Bu işığı Sizə bu torpaq bir daha verdi. Bu, tale işığıydı. Bu, Sizin tərcümeyi-halınızın işığı idi. Gəldiniz, işıqdan yığdınız, qəlbinizə doldurdunuz və bu işıq Sizə imkan verdi, kömək etdi ki, Azərbaycanın həyatında qaranlıqlaşmış nöqtələrə təzədən işıq salasınız. O işıq Mirzə Cəlilin işığıdır. Bizim hamımız o işığa əbədi minnətdar olmalıyıq.

Mən düzünü deyirəm Sizə. Bir vaxt mən özlüyümdə dahiləri cərgəyə düzürdüm. Bizim üç dahimizdən biri Mirzə Fətəli Axundovdur – müasir ədəbiyyatımızın banisidir, bu gün də aktuallığını saxlayan böyük sənət-

kardır. Eyni zamanda Mirzə Cəlili və Sabiri böyük sənətkarlar hesab edirdim. Amma dahiliyə gələndə gözümün qabağını Tolstoy, başqaları tuturdu. Zaman göstərdi ki, bunlar, adını çəkdiyim sənətkarlarımız dahi imiş. Mən bu sənətkarları dahi olaraq qəbul etdim.

Mənə elə gəlir ki, bu böyük ürəklərdən aldığımız işıq bizi heç vaxt heç bir qaranlığın qarşısında təslim olmağa qoymaz. Biz o işığı almışıq. Bir daha təkrar edirəm ki, bizim sevimlimiz, bu saat həyatımızın qaranlıq nöqtələrini hər gün işıqlandırmağa çalışan və o qaranlıqların çoxunu yarıb keçən əziz Prezidentimiz o işıqdan alıbdır. Hamımız o işığa bağlıyıq. Yaşasın, var olsun o işıq və Siz! Sağ olun.

## XALQ ŞAİRİ QABİLİN ÇIXIŞI

– Əziz Prezidentimiz Heydər müəllim!

Əziz dostlar!

Möhtərəm Naxçıvan camaatı!

Cəlil Məmmədquluzadənin, dahi Mirzə Cəlilin tərcümeyi-halını oxuyan adamlar bilir ki, o tərcümeyi-hal bu sözlərlə başlayır ki, gözümü dünyaya açanda ilk eşitdiyim səs, ilk eşitdiyim sözlər "Allahu-Əkbər" olubdur.

Çox adamlar deyir ki, sovet dövründə, sosializm dövründə Mirzə Cəlilin bu sözlərini Allahı ələ salan, Allahın əleyhinə gedən bir mövqedən təhlil edirlərmiş. Ancaq tarix, münasibətlər və Mirzə Cəlilin yaradıcılığı göstərir ki, o, eşitdiyini deyibdir. O, həqiqəti deyibdir. O, xalqının, atasının, anasının, valideynlərinin, babalarının, bu torpağın yetirmələrinin sözünü, səsini eşidibdir.

Mən bu günlər böyük mədəniyyət ocaqlarının, məscidlərin, litseyin, Zərifə xanımın adını daşıyan poliklinikanın açılışında və böyük bir sarayda Prezidentimizin hər cəhətdən – ictimai, siyasi, insani cəhətdən dərin məzmunlu bir saat qırx beş dəqiqəlik çıxışını, onun öz müəllimlərinin adını çəkməsini müşahidə etdikcə deyirdim ki, kaş Mirzə Cəlil diriləydi! Mirzə Cəlil o dövrlərdə deyirdi ki, zaman gələcək, sizi lənətləyəcək və deyəcəklər: Ölülər, ölülər. İndi ölülər yoxdur. İndi dirilər var. İndi Mirzə Cəlilin arzuları yerinə yetir. Mənim bu sözlərim köhnə sözlərə oxşayır ki, arzular çiçəklənir. Əslində, həqiqətən belədir. "Arzular çiçəklənir" çox standart, şablon bir sözdür. Amma mənim bu gün dediyim arzular çiçəklənir, fikirlər, düşüncələr aydınlaşır.

Müstəqil ölkəmizin bu qədim Naxçıvan torpağının qürurunu, biz getdik, “Əshabu-kəf”i ziyarət etdik, – o canlı simfoniyanı gördük. O təbiət mənzərələri ilə Mirzə Cəlilin arzuları həmahəngdir. Bu gün həyata keçirilən tədbirləri, hörmətli Prezidentimizin öz beşiyində, öz torpağında, xalqının içində görünməyini, sərbəstliyini xüsusi alqışlayırıq.

Mirzə Cəlilin doğulduğu bu torpaqdakı ev-muzeyi mübarək olsun! Bizim qürurumuzun, dahimizin ocağı ömür boyu yaşasın, həmişə nurlu və işıqlı olsun!

Sonra Azərbaycan Prezidenti Heydər Əliyev mərasimdə nitq söylədi.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

– Əziz dostlar, xanımlar, cənablar, bacılar, qardaşlar!

Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin görkəmli nümayəndələri, alimlər!

Üç gündür ki, Naxçıvandayıq. Burada Naxçıvanın Muxtar Respublika kimi yaranmasının 75-ci ildönümünü təntənə ilə qeyd edirik. Mən bu üç gün ərzində bəlkə də son aylarda bu qədər enerji ilə işləməmişdim, bu qədər ayaqüstə durmamışdım, insanlarla bu qədər əlaqədə olmamışdım. Çünki bilirsiniz ki, mən Amerikada cərrahiyyə əməliyyatı keçirəndən sonra həkimlər mənə göstəriş vermişdilər ki, çox ciddi rejimdə olmalıyam. Mən bu rejimi çoxdan pozmuşam. Amma bu günlərdə tamamilə pozmuşam. Nə üçün əl çalırsınız, rejimi pozduğuma görə? Əksinə, siz gərək deyəydiniz ki, rejimi pozmayın, biz sizə məsləhət görmürük. Çünki niyə, mənim çiyinlərimdə ağır yük var, Azərbaycan xalqının, müstəqil Azərbaycanın Prezidenti kimi məsul bir yük var. Mən bu yükü üzərimə götürərkən, çiyinlərimə alarkən dərk edirdim ki, bu, asan məsələ, asan iş deyil.

Xüsusən, xatırlayın, 1993-cü ildə Azərbaycanın o vəziyyətində mən buradan, Naxçıvandan Bakıya dəvət olundum və getdim. O vaxt Naxçıvanın da nə qədər ağır vəziyyətdə olduğunu görürdüm. Ancaq Bakının o qədər ağır vəziyyətdə, Azərbaycanın da o qədər ağır vəziyyətdə olduğunu təsəvvür edə bilmirdim. Amma gəldim, gördüm. Bilirsiniz ki, mənə təklif olunan vəzifəyə bir neçə gün razılıq vermədim. Ancaq düşündüm, fikirləşdim ki, bizim bu millət, dövlət, ölkə, Azərbaycan dağılır, parçalanır. Bəs nə olacaq? Xalqımız nə olacaq? Şübhəsiz ki, xalq heç vaxt ölməz.

Mən dünən dedim, – Naxçıvan Azərbaycanın bir parçası kimi və vaxtilə Atabəylər hakimiyyəti dövründə Azərbaycanın paytaxtı və mərkəzi kimi dəfələrlə hücumlara məruz qalıbdır, yerlə yeksan olubdur, kül olubdur. Amma qalxıbdır, yaşayıbdır. Ancaq xalqı öldürmək mümkün deyildir. Xalqı əzmək, sındırmaq, onun inkişafını böyük bir zaman çərçivəsində dayandırmaq mümkündür və mümkün olubdur. Bizim xalqımız öz çoxəsrlik tarixində bunların hamısını görübdür.

Bunları düşünərkən mən fikirləşdim ki, indi xalqı bu vəziyyətdə qoymaq olmaz. Ona görə də mən, xatirinizdədir ki, iyunun 15-də bu vəzifəni öz üzərimə götürdüm. Bir halda ki, götürdüm, bunu daşımalıyam – xəstəyəm, xəstə deyiləm. İndi xəstə deyiləm. Amma ürəyimdə cərrahiyyə əməliyyatı aparıblar. Bu, asan bir iş deyildir. İndi burada elə bir adam tapılmaz ki, ürəyində cərrahiyyə əməliyyatı aparılmış olsun. Amma mənim ürəyimdə ediblər. Bundan sonra, təbiidir ki, həkimlər mənə deyirdilər ki, altı ay gündə iki saatdan artıq işləməməlisən, bir il də tamamilə rejimdə olmalısan. Mən bunları pozdum. Allah da mənə kömək edir. Bu məsuliyyəti üzərimə götürərək, bu gün də bu qədər, belə gərgin işləyərək həmişə düşünmüşəm: bizim ulu babalarımız, əcdadlarımız, bizdən əvvəlki nəsillər Azərbaycanı yaradıblar, yüksəldiblər, Azərbaycan xalqını inkişaf etdiriblər. Xüsusən, Azərbaycanın mütəfəkkir, uzaqgörən insanları, – onların içərisində şübhəsiz ki, yazıçılar, alimlər, mütəfəkkirlər də, Şərqin hər tərəfi əhatə etdiyi bir yerdə, Azərbaycan da Şərqin içərisində olduğu bir məkanda Azərbaycanı daha çox inkişafa və mədəniyyətə, daha çox dünyəviliyə aparıblar.

Mən dünən çıxışımda dedim, bu gün də deyirəm, – Azərbaycan bizi əhatə edən istər uzaq, istər yaxın – bütün Şərq ölkələrindən bu gün fərqlənir. Nəyə görə fərqlənir? Əgər bizim ulu babalarımız, əcdadlarımız Azərbaycanda mədəniyyəti, elmi, dünyəviliyi, tərəqqini yaratmasaydılar, onu inkişaf etdirməsəydilər, bəli, Azərbaycan belə olmazdı. Azərbaycanda insanlar bu gün də çadra altında olacaqdılar. Azərbaycan öz milli ənənələrini, dəyərlərini, dini dəyərlərini qoruyaraq, saxlayaraq, inkişaf etdirərək eyni zamanda dünyəvi mədəniyyətə doğru gedibdir. Azərbaycan xalqının buna nail olmasında Azərbaycanın böyük simalarının, o cümlədən dahi insan Cəlil Məmmədquluzadənin – Mirzə Cəlilin xüsusi xidməti və rolu olubdur.

Əgər Cəlil Məmmədquluzadə kimi şəxsiyyət dünyaya gəlməsəydi, öz fəaliyyətini göstərməsəydi, əgər "Molla Nəsrəddin"jurnalı yatmış insanları qaranlıqdan çıxarmağa çalışmasaydı, əgər onun "Ölülər" əsəri insanla-

rın gözünü real dünyaya açmasaydı xalqımız bu qədər inkişaf edə bilməzdi. Bu sözlər təkcə Cəlil Məmmədquluzadəyə aid deyil, bizim çox dahilərimizə aiddir. Ancaq biz bu gün məhz Mirzə Cəlilin evinə gəlmişik və burada onun xatirəsini yad edirik. Ona görə də mən bu sözləri deyirəm.

Bəli, Azərbaycanın dahi insanları çoxdur. Əkrəm Əylisli bir yazıçı kimi onlardan üçünün adını çəkdi. Amma mən onların, yüzlərinin adlarını çəkə bilərəm. Azərbaycanın böyük tarixini götürsək, lap müasir tarixini götürsək, XX əsri, XIX əsri götürsək belə şəxsiyyətlər çoxdur.

Azərbaycanın zənginliyi bir də ondan ibarətdir ki, ölkəmiz elə insanlar yetiribdir ki, bu insanlar kütləni, xalqı oyada bilib, qaldıra bilib, onlarda milli ruhu inkişaf etdirə bilib, milli ruhu canlandıra bilib və millətimiz millət olub, millətimiz inkişaf edibdir.

Cəlil Məmmədquluzadənin yaradıcılığı həqiqətən unudulmayıbdır. Ancaq hesab edirəm ki, onun fəaliyyətinə, yaradıcılığına nə qədər yüksək qiymət versək də, yenə də onun borcundan çıxa bilmərik.

Görülən işlərin sırasında, xatirimdədir, mən 70-ci illərdə Bakıda bizim bir neçə ədəbiyyat, musiqi, mədəniyyət xadimlərinin ev muzeylərinin açılması haqqında qərarlar qəbul edərkən Cəlil Məmmədquluzadənin Bakıda ev muzeyinin açılması haqqında da qərar qəbul etdim. Orada işlədiyim dövrdə bir neçəsini mən yarada bildim. Üzeyir Hacıbəyovun, Səməd Vurğunun ev muzeylərini yaratdım. Bülbülün, Cəfər Cabbarlının ev muzeylərini yaratdım və Cəfər Cabbarlıya böyük heykəl ucaltdım. Amma gedəndən sonra işlərim yarımçıq qaldı.

Yarımçıq qalan işlər çox idi. Ancaq bu sahədə – mədəniyyət sahəsində məni həmişə narahat edən bir də o idi ki, mən 1981–82-ci illərdə böyük cəsarət göstərərək Hüseyn Cavidin cənazəsini Sibirdən Azərbaycana gətirdim. Bakıya gətirdik. O vaxt orada iştirak edən hörmətli elm və mədəniyyət xadimlərimizlə məsləhətləşirdik. Əksəriyyət belə fikirdə idi ki, Hüseyn Cavidin cənazəsini Bakıda, Fəxri xiyabanda torpağa vermək lazımdır. Mən isə dedim – yox, onu Naxçıvana aparmaq lazımdır.

Fəxri xiyabanda dahilərimiz yan-yanadır, hamısına böyük hörmət var. Amma Hüseyn Cavid həm əsərlərinə görə, həm də əqidəsinə görə o qədər ağır cəzalandığına görə və bütün xidmətlərinə görə, güman edirəm ki, xüsusi bir abidəyə layiqdir. Ona görə də qoy qədim Azərbaycan diyarı Naxçıvanda əcdadlarımız tərəfindən yaradılmış abidələrlə yanaşı, bizim yaratdığımız bir abidə də olsun. Əcəmi Naxçıvaninin Möminə Xatun abidəsi ilə yanaşı, bizim dövrümüzün də bir abidəsi olsun. Bir də ona görə ki, Cavid bu torpaqda doğulubdur. Azərbaycanın müxtəlif bölgələ-

rində doğulmuş adamların hamısı Bakıda torpağa verilsə, onda bəs Azərbaycanın başqa yerləri kasıb olacaq axı.

Hamı mənimlə razı oldu. Gətirdik buraya və o vaxt mən elan etdim ki, onu adi qəbiristanda yox, Naxçıvan şəhərinin mərkəzində, öz ata-baba evinin yanında, – ora elə şəhərin mərkəzi idi, – torpağa verək və böyük bir abidə yaradaq. Amma bilirsiniz ki, bundan sonra mən Azərbaycanı tərk etdim. Mən gedəndən sonra hər şey qaldı. Məni yandıran bu idi. Buna görə də mən o vaxt düşünürdüm, – bəlkə də səhv etdim, bəlkə də lazım deyildi, bəlkə də elə Fəxri xiyabanda olmalı idi. Düşünürdüm, maraqlanırdım Naxçıvanda bir abidə yarandı? Yox, yox.

1990-cı ilin isti yayı – iyun ayı idi. Buraya gəldim, məni çox hərarətlə qarşıladılar. Əkrəm Əylisli gəlmişdi, gedib o həyətdə söhbət edirdik – bacımın xırda bir koması vardı, yadındadır? Orada bir balaca nəfəs alandan sonra dedilər ki, meydana Naxçıvanın hər yerindən adamlar toplaşıb. Həqiqətən, yüz minə qədər adam toplaşmışdı, onlarla görüşmək lazım idi. Dedim, yox, onlarla görüşməzdən qabaq mən gərək Hüseyn Cavidin məzarını, qəbrini ziyarət edim. Gedib nə gördüm – bir başdaşı var, başqa heç bir şey yoxdur. Qəlbim daha da incidi.

Naxçıvanda işləyirdim. Demək olar ki, bütün ağır işlərlə bərabər fikirləşirdim ki, nə edim, öz niyyətimi necə yerinə yetirim. Yerli memarlar bir-iki layihə yaratdılar. Amma vəsait yox, başqa şey yox, Naxçıvanın özünü sıxırlar, qoymurlar. Və belə oldu ki, getdim. Demək, Allah mənim tərəfimdə imiş. Getdim və Bakıya gəlib bir neçə işləri qurtarandan sonra 1982-ci ildə qəbul etdiyim həmin qərarın həyata keçirilməsinə nail oldum. İndi Hüseyn Cavidin məqbərəsini gedib gördünüz.

Gəlib öyrəndim ki, Mirzə Cəlilin Bakıda ev muzeyi yaranmayıbdır. Bu o qədər çətin bir şey deyildi. Göstəriş verdim, təmir etdilər, hazırladılar. O vaxtları, mənim vaxtımda bunu mən niyə yerinə yetirə bilmədim? Çünki onun qohumları orada yaşayırdılar və onlara ev vermək lazım idi ki, çıxsınlar. Onlara da ev verdik, birini, ikincisini verdik, üçüncüsünü də verdik. Bəziləri çıxdı, amma biri çıxmadı. Qabilin yadındadır. Elə Cəfər Cabbarlının ailəsi də mənim başıma o işləri gətirdi. Cəfər Cabbarlının evini azad etmək istəyirdim. Oğlu deyirdi ki, mən buradan çıxmaram ki, çıxmaram. A kişi, şəhərin mərkəzində sənə yaxşı ev veririk. O deyirdi ki, dağlı məhəlləsindən çıxmaram. Yaxşı, o vaxtkı Lenin meydanında – indi Azadlıq meydanıdır – yaxşı binalardan birində ev verdik, ikincisini verdik, üçüncüsünü verdik... Sonra qızı Gülara xanımın köməyi ilə bunları birtəhər yola gətirdik, orada Cəfər Cabbarlının ev muzeyini düzəltdik.

Burada da belə bir hadisə ilə rastlaşdıq və bu məsələni mən həll edə bilmədim, yəni çıxıb getdim, qaldı – o vaxtdan, mən gedəndən Azərbaycana yenidən qayıdanadək qaldı. Mən gəlib Bakıda Cəlil Məmmədquluzadənin ev muzeyini yaratdım. Bunu, şübhəsiz ki, burada da etmək istəyirdim. Mən burada Hüseyn Cavidin ev muzeyini Azərbaycanda işləyərkən yaratmışdım. Ancaq 1990-cı ildə Naxçıvana gələrkən gedib gördüm ki, bərbad vəziyyətdədir və ətrafı da, məni bağışlayın, üzr istəyirəm, naxçıvanlılar bilirlər, zibillik idi. Ora keçmək mümkün deyildi. Amma Cəlil Məmmədquluzadənin buradakı ev muzeyini mən o vaxt təşkil edə bilməmişdim. Bu da mənim arzum idi. Bu arzuma da çatdım. İndi sizinlə birlikdə Cəlil Məmmədquluzadənin Naxçıvanda, doğulduğu, yetişdiyi bu torpaqda, yaşadığı evin qarşısına gəlmişik və burada yaradılmış muzeyi birlikdə açırıq.

Burada deyildi, – Naxçıvan böyük, dahi insanlar yetirmişdir. Naxçıvan torpağı doğrudan da çox qəribə bir torpaqdır. Amma Cəlil Məmmədquluzadənin doğulduğu bir kənd də var – Nehrəm kəndi. Orada doğulubdur, dünyaya gəlibdir. O kənd çox qəribə bir kənddir. Həqiqətən çox mövhumatcıl bir kənddir, dinə çox bağlı kənddir. Amma eyni zamanda, təsəvvür edin, o kənddə doğulmuş adam – onun atası Məmmədqulu kişi öz oğlunu o kənddən ayırır, Qori seminariyasına, bura, Naxçıvana oxumağa göndərir. Bu kənd qeyrətli insanlar kəndidir. Mən o kəndi həmişə sevmişəm. Xatirimdədir, 40-cı illərdə mən Naxçıvanda yaşayanda Cəlil Məmmədquluzadənin qızı Münəvvər xanım burada idi, mən onunla dəfələrlə görüşürdüm. Mən gənc idim, onunla yaş fərqim böyük idi. Ancaq Cəlil Məmmədquluzadəyə görə onu daha yaxından tanımaq, öyrənmək üçün çalışırdım, görüşürdüm. O vaxt onunla görüşmək də asan deyildi. O, SSRİ-nin deputatı idi. Ancaq görüşürdüm.

Bu kənd qəribə bir kənddir. Elə Cəlil Məmmədquluzadə kimi şəxsiyyəti dünyaya gətirdiyinə görə bu Nehrəm kəndi xüsusi hör-mətə layiqdir. Amma təkcə ona görə yox. Orada həmişə çox qəhrə-man insanlar yaşayıb. Oranın xüsusi mühiti var. Məlumdur ki, 1918-ci ildə erməni daşnakları Naxçıvana hücum edib naxçıvanlıları qıran zaman, Andronikin ordusu buradan keçən zaman nehrəmlilər onun dərsini vermişdilər. Nehrəm belə qəhrəman insanların kəndidir. Mən bunu bir daha öz həyatımda hiss etdim.

1987-ci ildə mən Moskvada istefaya gedəndən sonra həyatımda çox ağır dövr başlandı. Bu dövrdə, məlumdur, mənim əleyhimə nə qədər böhtanlar, yalanlar yaymağa çalışdılar. Həm Moskvada, təəssüflər olsun ki, Azərbaycanın özündə də. Bu ağır dövrü mən yaşadım. Ancaq Naxçıvan

əhalisi, xüsusilə nehrəmlilər o vaxt mənim arxamda möhkəm dururdular. Bir neçə faktlar var. Hamısını demək istəmirəm. Amma birini demək istəyirəm. Mənə ikinci dəfə Sosialist Əməyi Qəhrəmanı adı verilmişdi və ona görə də o vaxtkı Sovet İttifaqının Ali Sovetinin qərarı ilə iki dəfə Sosialist Əməyi Qəhrəmanı adı alan şəxslərin sağlığında onların heykəli, büstü qoyulurdu. Bu qərar ilə Naxçıvanda mənim büstüm qoyulmuşdu. O vaxtlar, mənim əleyhimə işlər gedən zaman buradakı bəzi yaltaqlar, o cümlədən Bakıda xalqına xain olan insanlar Moskvaya yaltaqlıq etmək üçün deyirdilər ki, Heydər Əliyevin büstü dağıdılsın. Baxmayaraq ki, SSRİ-də heç bir yerdə qurulan büstlərin biri də dağıdılmadı, hamısı durur. Amma burada bu addımı atmaq istəmişdilər.

Ermənilər bura hücum edən zaman, – məlumdur ki, Moskvada mənim hakimiyyətdən getməyimin səbəbkarlarından biri də erməni lobbisi oldu, ermənilər oldular, – ermənilərin gecə gəlib bu büstü dağıtmaq istəməsi təhlükəsi olmuşdu. Nehrəmlilər aylarla gecə-gündüz orada növbə çəkmişdilər və büstü qoruyub saxlamışdılar. İş onda deyil, o büstü dağıda da bilərdilər. Həyatdan o qədər incimişdim ki, mən sizə açıq deyirəm, xidmət etdiyim hakimiyyətdən, o partiyadan o qədər incimişdim ki, mənim üçün fərqi yox idi – büst var, yoxdur. Mən ümumiyyətlə, – sabah yaşayacağam, yaşamayacağam, – belə bir psixoloji vəziyyətdə idim. Mənim üçün bunun fərqi yox idi. Amma insanların sədaqətliliyinə, mərdliyinə baxın. Bunun əsas təşkilatçısı nehrəmlilər olmuşlar. Ona görə Mirzə Cəlil öz xalqına millətinə nə qədər sədaqətli olduğu kimi, nehrəmlilər də həm Mirzə Cəlil irsinə, həm Azərbaycan xalqına, həm Azərbaycan dövlətinə və onların sevdiyi insanlara o qədər sədaqətlidirlər. Mən bu sözləri bu gün nehrəmlilərə böyük hörmət və ehtiram hissi ilə deyirəm.

Bilirsiniz, mən xoşbəxt günlərimdən birini yaşayıram. Nə üçün? Çünki arzuma çatmışam. Çünki Mirzə Cəlilin ev-muzeyini yaratmaq istəmişəm, bunu da yaratmışam. Azərbaycanın mötəbər adamları ilə bir yerdəyəm və bunu bir yerdə açırıq. Allah Mirzə Cəlilə rəhmət eləsin. Mirzə Cəlilin irsi, şəxsiyyəti, xidmətləri Azərbaycan xalqının qəlbində əsrlərlə yaşayacaqdır.

Azərbaycan Prezidenti Heydər Əliyev mərasimdən sonra Cəlil Məmmədquluzadənin ev-muzeyi və onun eksponatları ilə tanış oldu.

## NAXÇIVANDA MÖMÜNƏ XATUN TÜRBƏSİNİ ZİYARƏT EDƏRKƏN

*14 oktyabr 1999-cu il*

Naxçıvan Muxtar Respublikasının 75 illik yubiley təntənələrində iştirak edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1999-cu il oktyabrın 14-də Naxçıvan şəhərində milli memarlığımızın möhtəşəm abidələrindən biri olan, Şərq memarlığının incilərindən sayılan, XII əsrdə görkəmli memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin yaratdığı Mömünə Xatun türbəsini ziyarət etdi.

Muxtar respublikanın əməkdar mədəniyyət işçisi Arif Qədimov türbə və Atabəylər dövlətinin, ümumiyyətlə Naxçıvanın tarixinə dair son vaxtlar burada yaradılmış ekspozisiya haqqında Prezidentə ətraflı məlumat verdi.

Prezident Heydər Əliyev bu nadir abidəyə hələ gənc yaşlarında böyük maraq göstərdiyini xatırlayaraq dedi:

– Yadımdadır, mən burada yaşayan zaman, gənc vaxtımda, məktəbdə oxuyanda gəlib bunun ətrafında gəzirdim. Məktəbdə oxuyanda çoxlu rəsm çəkirdim, buna həvəsim vardı, rəssam olmaq istəyirdim. Onda memar nə olduğunu heç başa düşmürdüm. Ancaq rəsm çəkdiyimə görə axtarır, gözəl yerləri çəkirdim. Məsələn, Haçadağı, Naxçıvanın başqa yerlərini çəkirdim. Mömünə Xatun türbəsini bir neçə variantda çəkmişəm. Çox təəssüf edirəm, mən Bakıya, oradan Leninqrada, Moskvaya gedəndən sonra buradakı kitablarım, çəkdiyim şəkillər hamısı dağıldı. Təəssüf edirəm. Akvarellə çəkilmiş çox gözəl şəkillərim vardı.

Dövlətimizin başçısına belə bir məlumat verildi ki, sərdabədə dəfn olunanların məzarlarının başdaşları vaxtilə oğurlanıb aparılmışdır. İndi bunları şərti də olsa bərpa etmək nəzərdə tutulur.

Prezident Heydər Əliyev Naxçıvan Ali Məclisinin sədri Vasif Talıbova tapşırıq verdi ki, onları qiymətli mərmərdən, çox gözəl düzəldin. Nə qədər vəsait lazımsa, ayırmağa hazıram.

Azərbaycan Prezidenti Heydər Əliyev türbə və buradakı ekspozisiya haqqında ətraflı məlumat verən Arif Qədimovun fəaliyyəti ilə maraqlandı, ona təşəkkürünü bildirdi və nitq söylədi.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ:

– Sən bu gün çox gözəl məlumat verdin, çox sağ ol, təşəkkür edirəm. Ancaq, əlbəttə ki, məni incidən odur ki, bizim xalqımız öz tarixini, mədəniyyətini – zəngin tarixini, zəngin mədəniyyətini, zəngin tarixi köklərini keçən əsrlərdə də, ondan sonrakı dövrdə də, indi, XX əsrdə də, birincisi, öz xalqına göstərə bilməyib, ikincisidə dünyaya göstərə bilməyibdir.

Bu baxımdan, məsələn, mərhum akademik Ziya Bünyadovun əsəri, deyə bilərəm ki, Azərbaycan tarixində yazılmış ən qiymətli əsərlərdən biridir. Azərbaycanda işlədiyim zaman bu əsərə görə ona Dövlət mükafatı verdim. Bu əsərə qədər Atabəylər dövləti və Azərbaycanın XII əsrdəki dövlətçilik tarixi məlum deyildi. Bizə məlum olmayanda, kimə məlum olacaqdı?

Ona görə də hesab edirəm ki, Ziya Bünyadov böyük bir tarixi ixtira edibdir. Bunu bir gündə etməmişdir. Bunu tədqiq, təhlil etmək, yazmaq, meydana çıxarmaq asan məsələ deyildi. Ziya Bünyadov həyatdan getdi. Yaşadığı zaman da mən onu həmişə qiymətləndirmişdim. Ancaq ola bilər ki, bizim xalqımız Azərbaycan tarixinin, qədim tariximizin tədqiqində, kitablar yazılmasında hələ ona lazımi qiymətini verməyibdir. Ona görə də mən təntənəli iclasda danışarkən Atabəylər dövləti haqqında dedim.

Sizə düzünü deyim ki, Atabəylər dövləti haqqındakı məlumatlarımın hamısı Ziya Bünyadovun kitablarından aldığım məlumatlardır. Ondan əvvəl bunu eşitmişdim. Amma məlumatım yox idi. Əgər mənim məlumatım yox idisə, demək, digərlərinin məlumatı heç yox idi. Ona görə bu gün biz mərhum Ziya Bünyadova, böyük alimimizə bir daha, bir daha minnətdarlığımızı bildirməliyik. Allah ona rəhmət eləsin. Onun irsini, tarixçilik, tədqiqatçılıq fəaliyyətini davam etdirmək lazımdır. Mən bu sözləri deyirəm, televiziya da yazır, Azərbaycanın hər yerinə də yayılacaqdır. Mən bu gün buradan Azərbaycanın tarixçilərinə, Elmlər Akademiyasına öz göstərişlərimi verirəm: tarixçilərimiz Ziya Bünyadov tarixçilik məktəbi – Azərbaycanın qədim tarixi, orta əsrlər tarixi sahəsində onun kimi fəaliyyət göstərsinlər və belə dəyərli əsərlər yaratsınlar. İkincisi, təbiidir ki, Atabəylər dövlətinin Azərbaycan dövlətçiliyini yüz il

dünyaya nümayiş etdirməsini, Atabəylər sülaləsinin, nəslinin Azərbaycan tarixində nə qədər böyük yer tutduğunu bu gün biz dərk etməliyik. Amma bunu indiyə qədər dərk etməmişik.

Sən gözəl xəritə göstərdin ki, Atabəylər dövlətinin sərhədi necə idi. Həqiqətdə də belədir. O, bugünkü Azərbaycandan da böyük bir ərazi idi. Bugünkü Azərbaycanın böyük bir hissəsi həm Naxçıvan tərəfdə olan hissəsi, həm də Araz çayının o tərəfindəki hissəsi Azərbaycan dövləti, Atabəylər dövləti olubdur. Ona görə də biz buna tarixi qiymət verməliyik.

Bu baxımdan onlar Mömünə Xatun türbəsini, şübhəsiz ki, özlərinin böyük insani keyfiyyətlərinə görə yaradıblar. Onlar müdrik insanlar olublar. Əgər o müdriklik, böyük zəka, ağıl olmasaydı, məsələn, Şəmsəddin Eldəniz öz həyat yoldaşına bu cür türbənin yaradılmasına qərar qəbul etməzdi. Gör nə qədər ağıllı insan olubdur. O nəsil nə qədər ağıllı olubdur ki, onun oğlu bunu davam etdirib və bizim tariximizi göstərən bu qədər əzəmətli memarlıq abidəsi, tariximizi təsdiq edən abidə yaranıbdır.

Əlbəttə, bu abidənin qiyməti yoxdur. Məsələn, çox vaxt, elə bu gün də bunu gözəl memarlıq abidəsi kimi təbliğ edirlər. Bu, təbiidir, doğrudan da belədir. Dağılanlar dağılıb, amma qalanlar içərisində Mömünə Xatun məqbərəsi XII əsrdə, orta əsrlərdə Azərbaycanın nə qədər zəngin mədəniyyəti olduğunu, doğrudan da böyük memarlıq məktəbi olduğunu göstərir. Sən də dedin, biz də bilirik ki, Əcəmi Naxçıvani və onun yaratdığı məktəb təkcə Naxçıvanı əhatə etmir, Şərq aləminin böyük bir hissəsində onun memarlıq üslubu, memarlıq məktəbi davam edib, böyük əsərlər yaradıbdır.

Ancaq hesab edirəm ki, bu abidənin memarlıq qiyməti ilə bərabər, bizim üçün bəlkə daha da böyük qiyməti Azərbaycanın qədim dövlət olmasını göstərməsidir. Bu, təkcə memarlığın zənginliyini yox, dövlətçiliyin nə qədər zəngin olduğunu, nə qədər möhkəm olduğunu da göstərir. Əgər dövlətçilik o qədər yüksək səviyyədə olmasaydı, onlar bu cür abidənin yaradılması üçün qərar qəbul elə bilərdilərmi?

Elə XX əsri götürün. Məsələn, böyük dövlətlər var, amma böyük abidələr yarada bilmirlər, çünki imkanları yoxdur. Amma Atabəylər həm imkanlı olublar, həm də tarixə, gələcəyə böyük irs qoyublar. O yazı da təsadüfi deyildir. Burada heç bir şey təsadüfi deyildir. Onu bizim üçün yazıblar. Bəli, bizim üçün yazıblar, gələcək nəsillər üçün yazıblar.

Ona görə də hesab edirəm ki, son illərdə gördüyünüz iş yüksək qiymətə layiqdir. Mən bunu çox yüksək qiymətləndirirəm, çox məmnun olduğumu bildirmək istəyirəm. Bu işi davam etdirmək lazımdır. Bu işi da-

vam etdirmək üçün nə qədər vəsait lazım olsa, Naxçıvanın başçısına, Ali Məclisin sədrinə deyirəm, – mən bunu əsirgəməyəcəyəm. Çünki bu, bizim müstəqil dövlətimiz üçün, gələcək nəsillər üçün çox lazımdır.

Sənin bu işə həvəsin, ona bu qədər qəlbdən yanaşmağın, birincisi, həqiqətən vətənpərvər insan olduğunu, vətənpərvər azərbaycanlı olduğunu göstərir, eyni zamanda belə işləri görməyə qadir olduğunu göstərir. Mən çox məmnunam ki, sənin kimi adamlar var.

Sənin kimi adamlar nə qədər çox olsa, öz tariximizi, mədəniyyətimizi, dövlətçiliyimizi daha da geniş tədqiq, təhlil edə, millətimizə, xalqımıza göstərə, təbliğ edə bilərik və dünyaya göstərə bilərik.

Bu, indi bizə əvvəlkindən daha da çox lazımdır. Çünki biz müstəqil dövlətik. Azərbaycan xalqı öz müstəqilliyini alıb, Azərbaycan dövləti öz milli, mənəvi dəyərlərini qiymətləndirərək, şübhəsiz ki, daha da yüksələcəkdir.

Mən sənə təşəkkür edirəm. Buradaca sənə "Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi" adı verirəm. Bu, birincisi. İkincisi, sən o kitabı hazırla, məşğul ol, nəşr üçün hazırlayıb verin. Hesab edirəm ki, sən bu kitabı elmi dərəcə almaq üçün təqdim eləməlisən. Güman edirəm ki, bizim alimlər sənin kitabını və gördüyün işləri mənim kimi yüksək qiymətləndirərlər. Hesab edirəm, bu kitaba, bu tədqiqatlara görə sən elmlər doktoru adına layiqsən.

Mən çox sevinirəm ki, bu gün buraya gəldik. Yenə də deyirəm, uşaq vaxtı bu abidənin ətrafını gəzmişəm, baxmışam, görmüşəm, onu sevmişəm. Bir neçə dəfə demişəm – əvvəlcə rəssam olmaq istəyirdim, sonra isə memarlığa meyilim, memarlıq fakültəsinə daxil olmağım, memarlıq təhsili almağım bəlkə də elə bunlarla bağlı idi. Bunları görərək, bunların təsiri altında bu sənəti sevmişəm.

Ancaq sən Naxçıvandakı iki abidəni də dedin. "Qarabağlar" abidəsini də unutmamaq lazımdır, başqalarını da.

**Vasif Talıbov:** Sizin tapşırığınızla Bakıdan, neft şirkətindən gəlmişdilər. Buranın da, "Qarabağlar" türbəsinin də bərpası üçün layihə-smeta sənədlərini hazırlayıblar. Özləri bərpa etdirəcəklər.

**Heydər Əliyev:** Bizim Dövlət Neft Şirkəti? İlham, bu iş sənə həvalə olunur. Mən çox məmnunam ki, siz belə təşəbbüs göstərmisiniz. Bu məsələni öz əlinizə götürün. Özün bu işlə məşğul ol, bütün layihələrə bax. Nə qədər vəsait lazımsa, Dövlət Neft Şirkəti ayıra, təmin edə bilər.

Çox sağ olun. Sənə, sənin kimi azərbaycanlılara təşəkkür edirəm.

## A.F.QƏDİMOVA "ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

*17 oktyabr 1999-cu il*

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Qədimov Arif Firidun oğluna "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilsin.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 oktyabr 1999-cu il*

## AZƏRBAYCAN PREZİDENTİ BİR QRUP YAZIÇI VƏ ŞAİRİ QƏBUL ETMİŞDİR

*Prezident sarayı*
*10 noyabr 1999-cu il*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev xalq yazıçıları Anarı, Hüseyn Abbaszadəni, xalq şairləri Bəxtiyar Vahabzadəni, Qabili və Fikrət Qocanı qəbul etmişdir. Şair və yazıçıları səmimiyyətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev dedi:

– Çoxdandır görüşmürük. İndi siz təşəbbüs göstərmisiniz, mən də sizin təşəbbüsünüzü qəbul etmişəm. Amma görüşmürük ona görə yox ki, görüşmək istəmirik, yaxud ehtiyac yoxdur. Sizin də işiniz çoxdur, amma mənim işim daha da çoxdur. Siz bunu bilirsiniz. İndi mən sizi dinləmək istəyirəm. Çünki siz mənə məktub yazmısınız və məndən xahiş etmisiniz ki, sizə nəsə izah edim. Ona görə mən sizi dinləyirəm.

**Prezident Heydər Əliyevə təşəkkürünü bildirən xalq yazıçısı Anar dedi:**

– Cənab Prezident, bu məktubun yazılması səbəblərini mən bir az izah etmək istəyirəm. Biz hamımız başa düşürük ki, danışıqlar gizli gedir, o danışıqların çox məqamlarını hələ açıqlamaq vaxtı deyildir və açıqlamaq da olmaz. Biz onu da başa düşürük ki, bu elə bir şəraitdir ki, müəyyən güzəştlərsiz olmaz. Yəqin ki, o tərəf də, bizim tərəf də müəyyən güzəştlərə getməli olacaqdır. Amma bununla bərabər, ictimaiyyətdə bir nigarançılıq vardır. Bizə çoxlu telefon zəngi edirlər, məktub yazırlar, Yazıçılar Birliyinə gəlirlər. Biz müəyyən dərəcədə, imkan daxilində bu danışıqlar haqqında hörmətli Prezidentimizdən bir açıqlama istəyirik ki, biz nə həddə qədər güzəştə gedə bilərik? Yəni Azərbaycanın ərazi bütövlüyünə xələl gətirəcək bir şey olmayacaq ki? Biz də hamıya cavab veririk ki, bizim Prezidentimiz heç bir vaxt Azərbaycanın mənafeyinə uyğun olmayan bir sənədə qol çəkməz. Amma bununla bərabər, istərdik ki, Siz bir daha, imkan daxilində bunu müəyyən hüdudlarda açıqlamaq olarsa açıqlayasınız.

Doğrusu, ikinci bir tərəf də odur ki, biz istəyirik o danışıqlarda Siz yalnız müxalifətin yox, – müxalifətin öz işidir, – sizi dəstəkləyən ziyalıların da mövqeyini danışıq apardığınız tərəfə çatdırasınız ki,

ziyalılar da, geniş ictimaiyyət də məhz bu məsələ ilə maraqlanırlar, bu məsələnin ümumiyyətlə Azərbaycanın mənafeyinə toxunmayacaq bir şəkildə imzalanmasının tərəfdarıdırlar. Bizim məktubumuzun səbəbi də bu idi.

Əvvəla, bağışlayın, mən bir az gec deyirəm, birinci bunu deməliydim: Sizi Beynəlxalq Atatürk Sülh Mükafatını almağınız münasibətilə təbrik edirik. Mükafatı alanda təbrik etmişdik, amma bir də təbrik edirik. İkincisi, bu görüşə görə təşəkkür edirik ki, vaxt tapıb bizi qəbul etmisiniz. Mənə elə gəlir ki, məqsədimiz bundan ibarət idi. Bunları Sizə demək istəyirdik.

**Xalq şairi Bəxtiyar Vahabzadə:**

– Anar müəllim çox gözəl dedi. Bilirsiniz, mən hərdən görüşəndə Sizə məktublar təqdim edirəm – mənə gələn məktubları. İnanın ki, hər gün evə beş-on adam gəlir. Əvvəllər başqa şey üçün gələrdilər. Gələrdilər ki, "mənə iş düzəlt, ya məhkəməyə düşmüşəm, ya oğlum məktəbdən kəsilib" və sairə. Ümumi məişət söhbətlərinə aid xahişlər. Amma son zamanlar – Sizin Cenevrədəki, Sədərəkdəki görüşlərinizdən sonra məktubların məzmunu əsasən ondan ibarətdir ki, biz nigaranıq, necə olacaq, nə təhər olacaqdır. Sizi inandırıram, yolla, küçə ilə piyada əlli addım getmək mümkün deyildir. Camaat müraciət edir ki, Siz bilirsiniz. Özü də bunlar elə güman edirlər ki, biz hər gün Sizin yanınızdayıq. Ona görə biz narahat idik. Yazıçılar Birliyində bir yerdə oturduq və dedik ki, Prezidentə müraciət edək.

Düzdür, Fatma xanım da mənə dedi ki, bunlar hələ ilk addımlardır. Hələ bu məsələdə müəyyən bir qərara gəlinməyibdir. Fatma xanım bunu izah etdi. Biz də elə başa düşürük ki, bunlar hələ müəyyən dövrdə gizli saxlanılmalıdır. Amma camaatın belə narahatlığı bizi də vadar etdi ki, Sizə müraciət edək, Siz tam olmasa da, heç olmasa müəyyən bir açıqlıq verəsiniz ki, camaat da bilsin.

**Heydər Əliyev:** Yaxşı. Daha nə demək istəyirsiniz?

**Xalq yazıçısı Hüseyn Abbaszadə:**

– Möhtərəm Prezident, bu hadisə ilə əlaqədar son zamanlar bizi küçədə, yolda saxlayıb soruşurlar ki, bu işlər necədir, güzəşt nədən ibarətdir? Deyin, biz bilək. Vallah, billah, bilin ki, biz də bilmirik. Amma güzəşt məsələsi var. Bu güzəştləri bilmək istəyirik. O güzəştlərdə bizim ərazi bütövlüyümüz təmin olunurmu, Azərbaycana zərər dəyəcəkmi? Biz də deyirik, inanmırıq ki, bizim Prezidentimiz Azərbaycanın mənafeyinə zidd olan bir sənədə qol çəksin. Onlar evə zəng edirlər, Yazıçılar

Birliyinə gəlirlər, hər yerdə soruşurlar. Deyirlər ki, axı, biz onlara kifayət qədər güzəşt etmişik, ən yüksək status verməyə hazırıq.

Cənab Prezident, müxtəlif söz-söhbət gəzir. Özü də bunları çaşdıran ələlxüsus Azarbaycandan kənarda çap olunan materiallar və Rusiya televiziya və radiosunun verdiyi, yaydığı məlumatlardır. Məsələn, "Nezavisimaya qazeta"da, "Den" və başqa qəzetlərdə onlar bəzi şeylər yayırlar. Bütün bu informasiyalar adamları çaşdırır. Biz də Sizdən xahiş edirik ki, camaatı sakit etmək üçün mümkün qədər, nə mümkünsə deyəsiniz.

**Heydər Əliyev:** Qabil, sən nə demək istəyirsən?

**Xalq şairi Qabil:**

– Əvvəla, mən də Anar müəllim kimi, hamımız kimi, – düzdür, mən televiziya vasitəsilə Sizi təbrik etmişəm, amma üzbəsurət təbrik etməmişəm, – Sizi Beynəlxalq Atatürk Sülh Mükafatı almağınız münasibətilə təbrik edirəm.

Hörmətli Prezidentimiz, mən Sizə həmişə Heydər müəllim demişəm. Məhz müəllim demişəm. Bunun bir minnəti yoxdur. "Müəllim" öyrədən deməkdir. Ona görə də biz öyrənənik. Öyrənənin öyrədənin başına ağıl qoymağa mənəvi ixtiyarı yoxdur. Bizim o müraciətimiz ancaq can yanğısıdır. O heç məsləhət də deyil. Nəticəsi elə odur.

Məsələn, camaat elə bilir ki, mən hər gün Sizinlə görüşürəm, oturub çay içirəm. Amma başa düşmürlər ki, elə deyildir.

**Heydər Əliyev:** Hərdənbir görüşürsən.

**Qabil:** Bəli, camaat elə bilir ki, mənə nə desələr, o dəqiqə Sizə çatdıra bilərəm. Elə bilirlər ki, biz ixtiyar sahibiyik. Amma camaatın bu təsəvvürü yanlış deyil. Ona görə ki, bizim Azərbaycan xalqı həmişə şairi ilə, yazıçısı ilə fəxr edibdir, – mən o qrafomanları və s. nəzərdə tutmuram, – dərdini, sözünü ona deyib, onun üstünə gəlibdir. Tanıdığına, etibar etdiyinə, əsərlərinə, çıxışlarına görə. Ona görə də biz Sizə bu müraciəti dostyana, məhrəmanə, böyük bir səmimiyyət pərdəsi ilə yazmışıq, qol çəkmişik.

Sizə onu deyim ki, Sizin öz sözləriniz bizə imkan verir. Məsələn, Siz bütün çıxışlarınızda deyirsiniz ki, sülh, sülh, sülh yolu ilə. Lap axırda deyirsiniz ki, əgər bunların hamısından əlimiz üzülsə, heç bir şey mümkün olmasa, biz müharibə, hərb yolu ilə torpaqlarımızı azad edəcəyik. Camaat da fikirləşir ki, bir halda Prezidentimiz sözünün sonunda deyir ki, torpaqlarımızı hərb yolu ilə azad edəcəyik, onda bəs bu ordunun – heç olmasa gizli şeylər qalsın, istəmirik və istəyə də bilmərik – vəziyyəti yaxşıdırmı, hazırdırmı? Ordumuzun haqqını, çörəyini, paltarını kəsənlərlə, əliəyrilərlə necə mübarizə aparılır?

Siz göstəriş vermisiniz, orduda işləri komissiya yoxlayıb Sizə məlumat veribdir. İndi, türkün sözü, ucundan-qulağından bəlkə biz də bir şey bilək, məsləhətinizlə camaata deyək. Mən çıxışımda da demişəm ki, – Sizdən uzaq-uzaq olsun, – Allahın bir çobanı – çobana bizim hörmətimiz var, zəhmətkeşdir – üstündə gəzdiyi, qoyun otardığı torpağın bir qarışını vermədiyi halda, necə ola bilər ki, ölkənin, xalqın qarantı olan böyük bir şəxsiyyət, necə deyərlər, əlli, yüz diplomatı, aşıqlar demişkən, bağlayıb yola salan adam gərəksiz bir şeyə qol çəksin, xalqa sərf etməyən bir sənədə qol çəksin?

Bağışlayın, başınızı ağrıdıram. Siz bir dəfə Dövlət Neft Şirkətinin prezidentinə əsəbiləşdiniz və dediniz ki, axı, hələ bu "Mirvari", "Lənkəran" yataqları bir yana qalsın, indi çıxan neft hara gedir? O da nəm-nüm etdi, qaldı belə. İndi onu camaat da soruşur. Mənim bir şeirim var. Deyirəm ki,

Bütün qolbaqları, bilərzikləri,
Satıb tanka verək, tüfəngə verək.

Bu, şairanə bir sözdür. Ordumuzun möhkəmlənməsi, güclənməsi, – Sizin sözünüzün qüvvəti, – çox vacib bir məsələdir. Torpağımızı, vətənimizi, millətimizi qorumaq üçün lazımdır. Bütün bu məsələlər haqqında camaat bilmək istəyir, məlumat istəyir.

Bir az böyük çıxmasın, indi üzümüzə gülürsünüz, bizə şərait yaradırsınız. Biz də bir az həyəcanlanırıq. Bu söhbətlərlə bağlı mümkün qədər, nəyi lazım bilirsiniz, cavab verəcəksiniz. Bunlar yaxşı olacaqdır.

Mən bir şey deyim. Günlərin bir günü Hacı Zeynalabdin Tağıyevə gəlib deyirlər ki, ay Hacı, fil qulağında yatmısan. Deyir, nə olub? Deyir ki, əşi, Mayılov teatr tikir. Deyir, səsini çıxarma, qoy tiksin. Burada qalacaq, bu torpaqda qalacaqdır. Goruna, Ermənistana aparmayacaqdır.

İndi burada biz baxırıq – elə yerlər var ki, imarətlər tikilibdir. Mən demirəm ki, onları sabah əllərindən alın. Yox. Düzdür, torpaqda qalacaqdır. Amma o qaçqınların, köçkünlərin, o əsgərlərin gözü həmin imarətlərdədir ki, bəlkə o imarətlərin hesabına, oraya qoyulan xərclərə bizim yaralılarımız, qaçqınlarımız, az təqaüd alanlarımız, evsiz-eşiksizlərimiz təmin oluna. Mən demirəm ki, nəzarət qoyulsun. Hər halda dövlət büdcəsində böyük dəyişikliklər apardınız, nazirliyin aparatını, rəhbərliyini dəyişdiniz. Maşallah, Sizin diqqətiniz, hafizəniz, nəzarətiniz – bunlar hamısı vardır. Amma yenə də bunlar hamısı daha müntəzəm, mütəşəkkil olsa yaxşı olar.

Sizə cansağlığı arzu edirik, təşəkkür edirik. Sizin bizi buraya dəvət etməyiniz müraciətimizə elə birinci münasibətdir, müraciətə cavabdır.

**Xalq şairi Fikrət Qoca:**

– Mən də təbrikə qoşuluram. Mən Sizi mükafat almağınız münasibətilə təbrik etmişəm. O vaxt dediniz ki, həmin mükafatı almağa türk ordusu da təqdim olunmuşdur. Bunu Siz almısınız. Yəni biz bir orduya bərabər insana öyüd-nəsihət vermək fikrində deyilik. Sizin bu dövlətin, Azərbaycan Respublikasının üzərində o qədər zəhmətiniz vardır ki, onu məndən, hamımızdan çox qorumağa Sizin haqqınız vardır və bilirik ki, Siz onun bir daşından da keçməzsiniz.

Bu söz-söhbət bağlı gedirsə, deməli, belə olmalıdır. Çünki üz-üzə gələn adamlar, əlbəttə, – bir addım bu atanda bir addım da o birisi atır. Ümumiyyətlə, əgər danışıq yoxdursa, kompromis yoxdur. Danışıq varsa, kompromis də olmalıdır. Bu, məlumdur. Biz bunu yaxşı bilirik. Amma camaatın bir hissəsi var ki, bu sözsüzlükdən, səssizlikdən şayiələr yaymağa başlayırlar. Məncə, bizi kənarda istəməyənlərdən çox, içimizdə istəməyənlər vardır və bundan istifadə edənlər vardır.

**Heydər Əliyev:** Sözün çox düzdür.

**Fikrət Qoca:** Bundan istifadə edirlər. İstədik ki, bu sözlərin qabağına hər kəs bacardığı bir daş qoysun. Bu günlər qəzetlərin birində bizə yazıblar ki, “kor şairlər də dilləndi”. Bu, belədir. Bunların mənəviyyatı budur.

Cənab Prezident, bilirik, belə danışıq olmaz – yəni, məgər 8 milyon yığışıb danışmaq üçün Ermənistana gedəcəkdir? Bu, mümkün olan iş deyildir. Bu danışıqları bir adam aparmalıdır. Biz də Sizə səs vermişik, Sizə inanırıq və bilirik ki, bunu Sizdən yaxşı apara bilən olmayacaqdır. Yəni, biz məktubu bu mənada yazmışıq.

Cənab Prezident, vaxtınızı alıb ikinci dəfə Sizə müraciət etməyim deyə, mən “Qobustan” jurnalının təzə nömrəsini Sizə vermək istəyirəm. Bu, Naxçıvan Muxtar Respublikasının 75 illiyinə həsr olunubdur. Həm də “Qobustan”ın 30 illiyi tamam olur. Müəlliflərin də hamısı naxçıvanlılardır.

**Heydər Əliyev:** Çox gözəl.

**Fikrət Qoca:** Cənab Prezident, ikinci bir məsələni də demək istəyirəm. Qış mövsümü başlayır. Dünən Siz Fransa nümayəndə heyətini qəbul edəndə də dediniz ki, yağışlar başlayıbdır, qaçqınlar indi nə əziyyət çəkirlər.

**Heydər Əliyev:** Bəli, dünən danışırdım. Ona qulaq asdınız?

**Fikrət Qoca:** Bəli, cənab Prezident. Ağdaşda baş vermiş zəlzələ nəticəsində dağıntılar olmuşdu. Dağılmış evlərin divarları tikilib, am-

ma pəncərələri yoxdur. Dünya tarixində birinci hadisədir ki, 7 bal gücündə zəlzələ nəticəsində insan tələfatı olmadı. Yəni bu, bütün zamanlar üçün rekorddur. Evlər uçub dağılıbdır, amma sağ qalanlar indi evsiz qalıblar.

**Heydər Əliyev:** Yaxşı.

**Qabil:** Heydər müəllim, bir sözüm də vardır. Anar müəllim bilir. Deyəsən, o siyahı Sizdə də vardır. Bizim Fikrət Sadıq adlı bir şairimiz var. Onun 70 yaşı tamam olacaqdır. Çox gözəl bir şairdir. Hərçənd, bu sözü eşidib başqaları da deyəcək ki, mənim adımı niyə çəkmədin. İstərdim ki, fəxri təqaüdçülər siyahısına onu da daxil edəsiniz. Onun buna çox ehtiyacı vardır. Bizim çox gözəl, zərgər şairlərimizdən biridir.

**Heydər Əliyev:** Yaxşı, fərman hazırlanacaq.

**Anar:** Cənab Prezident, mən də bir xahiş etmək istəyirəm. Cavan yazıçıların təqaüdü haqqında Sizə yazıb vermişik.

**Heydər Əliyev:** Ona da baxacağam.

**Anar:** Onlar gözləyirlər. Çox xahiş edirəm.

Prezident Heydər Əliyev görüş iştirakçılarını diqqətlə dinlədikdən sonra dedi:

– Mən sizi çox məmnuniyyətlə dinlədim. Sizinlə görüşümdən çox məmnunam. Çünki siz bilirsiniz ki, mənim ədəbiyyat, elm, mədəniyyət, incəsənət xadimlərinə xüsusi hörmətim var, xüsusi münasibətim var və keçən zamanlarda da Azərbaycana başçılıq edərkən, indi də, bu son altı ildən artıq müddətdə mən bütün başqa işlərlə yanaşı, bizim ədəbiyyat, incəsənət, mədəniyyət xadimlərinə nə qədər mümkündür, o qədər də diqqət, qayğı göstərməyə çalışıram. Bəlkə də indi siz bunu yəqin ki, etiraf edərsiniz. Keçmiş Sovetlər İttifaqına mənsub olmuş ölkələrin çoxunda belə deyildir.

Ona görə də sizinlə görüşməyim mənim üçün də çox maraqlıdır. Ancaq bilin, mənim bir dəqiqə də vaxtım yoxdur. Məsələn, sizinlə mən bir az əvvəl görüşməli idim. Ancaq iki-üç təcili məsələ mənə imkan vermədi. Bəzən də belə olur ki, axşam saat 10-a, 11-ə qədər burada oturmağa məcbur oluram. Buna baxmayaraq mən bu gün sizinlə görüşürəm və sizinlə söhbət etməyə hazıram.

Siz mənə məktub yazmısınız. Bu, təbiidir. Çox sağ olun və indi nə mümkündür, mən sizə deyəcəyəm. Ancaq mən hesab edirəm ki, sizin tərəfinizdən bir şey düzgün olmayıbdır. Məktubu mənə göndərmisiniz. Mənə çatmamış, siz bunu müxalifət qəzetlərində dərc etdirmisiniz. Bu, nə qədər düzgündür? İndi özünüz bilin. Mən hesab edirəm ki, bu, düzgün

deyildir. Əgər siz Prezidentə müraciət edirsinizsə, Prezident məktubu alacaq, baxacaq və sizi də dəvət edəcəkdir. Amma məktub mənə çatmamış, səhər mən baxıram – müxalifət qəzetlərində məktubun məzmunu yazılıbdır. Sonra gəlib işdə soruşuram, deyirlər ki, dünən axşam saat 9-da bu, bizim Ümumi şöbəyə gətirilib təhvil verilibdir və biz də bunu səhər Sizə təqdim edəcəkdik. İndi olan-olub, keçən keçibdir. Mən sizdən heç izahat da istəmirəm.

Ancaq mən hesab edirəm ki, bizim aramızda olan səmimi münasibətlər, dostluq münasibətləri elədir ki, siz həmişə mənə müraciət edə bilərsiniz – məktubla da, telefonla da. Heç narahat olmayın, mən həmişə sizi dinləyə bilərəm. Baxmayaraq ki, – yenə deyirəm, – mənim vaxtım azdır. Amma sizin məktub mənə gəlməmiş bunu elan etməyiniz o qədər də etik deyildir. Mən bu sözü sizə deməliyəm. Siz bilirsiniz ki, mən çox açıq adamam, fikrimi də həmişə açıq deyirəm.

Bəli, mən 1993-cü ildə buraya gələndən Azərbaycanı bu bəladan, bu faciədən qurtarmağa çalışıram. Siz bunların, ola bilər ki, az hissəsini bilirsiniz. Məsələn, o görüşü ki, televiziyada verirlər. Yaxud da, televiziyada görürsünüz ki, mən onunla, ola bilər, yarım saat danışıram, amma televiziyadan sonra bir-iki saat da mətbuatsız danışıram. Eləsi də var ki, bu görüşlər televiziyada da verilmir, mətbuata da verilmir.

Əmin ola bilərsiniz ki, 1993-cü ilin payızından mən artıq başladım bu işlərə girişməyə. Azərbaycanın daxilində vəziyyəti bir az sabitləşdirərək mən gecə-gündüz bu məsələ ilə məşğul oluram. Ancaq məsələ həddindən ağır, çətin məsələdir. Ona görə ki, bu münaqişə 1988-ci ildən başlayıbdır və o vaxtdan Dağlıq Qarabağ Azərbaycanın hakimiyyətindən çıxıbdır. Bunun tarixini siz yaxşı bilirsiniz. 1989-cu ildə Moskvanın qərarı ilə Dağlıq Qarabağın idarə edilməsi üçün xüsusi bir idarə yaradılanda, demək, Dağlıq Qarabağ tamamilə Azərbaycanın tərkibindən çıxdı. Ondan sonra idarə ləğv edildi, amma Dağlıq Qarabağ Azərbaycanın tərkibində olmayıbdır. 12 ildir Dağlıq Qarabağ Azərbaycanın tərkibində deyildir və Ermənistanla birbaşa bağlıdır. Səbəblərini siz yaxşı bilirsiniz. Bu səbəblərdən ermənilər 1988-1989-cu illərdə azərbaycanlıları oradan çıxardılar. Amma son olaraq bunlar 1992-ci ildə bir neçə yerdə qalmışdılar, oradan da çıxardılar. Ondan sonra Dağlıq Qarabağda bir azərbaycanlı da yaşamır. Ancaq Dağlıq Qarabağın ətrafında bizim yeddi rayonumuz, özü də böyük rayonlarımız, sırf azərbaycanlılar yaşayan rayonlarımız Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. O qaçqınlar da bir milyona qədərdir. Onlar nə qədər ağır şəraitdə yaşayır, – siz bunu bilirsiniz.

Bilirsiniz, məni bu dərd gecə-gündüz yandırır və indiyə qədər nə mümkündür, əlimdən gələni eləmişəm. Mən bunu cəsarətlə deyirəm, bəlkə də heç kəs mənim kimi bu qədər bu məsələ ilə məşğul ola bilməzdi. Nə üçün? Çünki belə məsələlərlə məşğul olmaq üçün birincisi, siyasi təcrübə lazımdır; ikincisi, diplomatiya təcrübəsi lazımdır; üçüncüsü, iradə lazımdır; dördüncüsü, vətənə, torpağa, millətə səmimi bağlılıq lazımdır; beşincisi, öz canını, öz həyatını bu işə sərf etmək lazımdır. Bəlkə başqaları da vardır. Amma bütün bu xüsusiyyətlər məndə cəmdir və ona görə də mən bu danışıqları aparmışam.

Təsəvvür edin, 1992-ci ildə Helsinkidə ATƏT-in zirvə görüşü oldu. Azərbaycan nümayəndə heyəti Azərbaycanın o vaxtkı prezidenti Elçibəy başda olmaqla bu zirvə görüşündə iştirak edirdi. Orada bir qərar qəbul olunmadı, heç bu barədə söhbət də getmədi. Ola bilər, danışıq oldu, amma bir yerdə bir maddə yazılmayıbdır. 1992-ci ildən bununla ATƏT və ATƏT-in Minsk qrupu məşğuldur. Siz bilirsiniz.

1994-cü ilin dekabr ayında Budapeştdə ATƏT-in zirvə görüşü oldu. Mən o vaxta kimi nə qədər danışıqlar apardım – Amerikanın Prezidenti ilə, Fransanın Prezidenti ilə, İngiltərənin Baş naziri ilə, Rusiyanın Prezidenti ilə. Hələ başqalarını demirəm. Bizə yaxın olan Türkiyənin Prezidenti həmişə bizimlə bərabər idi. Nəhayət, biz 1994-cü ilin dekabr ayında Budapeşt zirvə görüşündə bu məsələni çox köklü olaraq gündəliyə saldıq və ATƏT-in xüsusi olaraq sülhməramlı dəstələr yaratması qərara alındı. Orada Amerika ilə Rusiya bir neçə öz məsələlərini güzəştə gedərək belə qərar qəbul olundu ki, bu, qəbul edilsin. Bu, məsələnin sülh yolu ilə həll olunması üçün artıq bir irəliləmə idi.

1996-cı ilin dekabrında Lissabon zirvə görüşündə 23-cü maddə var idi. Sonra oldu 22-ci maddə. Bilirsiniz ki, hər bir zirvə görüşündə siyasi bəyannamə qəbul olunur. İndi də İstanbulda siyasi bəyannamə qəbul olunacaq və bir neçə başqa sənəd də qəbul ediləcəkdir. Deməк, o bəyannamədə münaqişələr və başqa məsələlər əks olunur. Oraya biz Azərbaycanın mənafelərini təmin edən maddə salmışdıq və bunu da biz Minsk qrupunda hazırlamışdıq. Hazırlıq da əvvəl Helsinkidə keçmişdi, sonra da Vyanada keçmişdi və Minsk qrupunun üzvləri də bununla razı olmuşdular. Ancaq Ermənistan buna etiraz etdi. Çünki burada yazılırdı ki, Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır, Dağlıq Qarabağa Azərbaycanın daxilində status verilməlidir, Dağlıq Qarabağın təhlükəsizliyi təmin olunmalıdır – bunların hamısı bu maddədə var idi.

Ermənistan bunun əleyhinə çıxdı. ATƏT-in də qanunudur – konsensus: əgər bir dövlət etiraz edirsə, bu qərar qəbul olunmur. Bizdə nə qədər böhranlı vəziyyət yarandı. Mən orada nə qədər, neçə adamlarla görüşdüm. Yəni dövlət başçıları ilə. Deyirdilər ki, həqiqətən, biz sizi dəstəkləyirik. Hamısı dedi ki, düzdür, biz sizi dəstəkləyirik, ancaq biz konsensus prinsipini poza bilmərik. Əgər Ermənistan buna razı deyilsə, biz bunu bəyannamədən çıxarmalıyıq. Nə edək? Bir dənə yüngül, mənasız bir şey yazılırdı. Heç kəsin təsəvvürünə gələ bilməzdi ki, Azərbaycanın prezidenti – xırda, kiçik bir respublikanın prezidenti və ağır vəziyyətdə olan bir ölkənin prezidenti bu qədər cəsarətli addım atsın. Bu da nədən ibarət oldu? Mən öz səlahiyyətlərimi bilirdim. Əgər Ermənistan hansısa maddəyə veto qoyursa, mən də hansısa maddəyə veto qoya bilərdim. Amma orada elə bir maddə yox idi ki, mən bunun əvəzinə ona veto qoyum. Mən isə götürdüm bütün bəyannaməyə veto qoydum. Təsəvvür edirsiniz?!

Demək, belə çıxırdı ki, iki gün ərzində ATƏT-in zirvə görüşü keçib və adamlar artıq bir neçə saatdan sonra dağılmalıdır, görüş qurtarır. Mən axşam buna veto qoydum. Səhər tezdən mənimlə görüşlər başladı. Əvvəl bütün dövlət başçıları ilə görüşə mən gedirdim. İndi onlar bir-bir mənim yanıma gəlirdilər. Özü də ki, ən böyük dövlətlərin başçıları. Ən böyük bir dövlətin başçısı mənə dedi ki, siz niyə belə edirsiniz, nədən ötrü belə edirsiniz? Dedim, bəs əlacımız nədir? Başqa əlacımız yoxdur. Siz nə üçün Ermənistana təsir edə bilmirsiniz ki, Azərbaycanın bu ədalətli təklifi orada əks olunsun? O mənə dedi ki, bilirsiniz, konsensus prinsipi vardır. Dedim, çox sağ olun, mən də bu konsensus prinsipindən istifadə edirəm. Mənə bir söz deyə bilmədi.

Ondan sonra başladılar mənə yalvarmağa ki, bunu götür. Dedim, götürməyəcəyəm. Nə edirsinizsə – edin, götürməyəcəyəm. Mən buradan çıxıb gedirəm, mən burada ədalət görmürəm, bu ATƏT-də ədalət görmürəm, çıxıb gedirəm. Məcbur oldular, həmin bu maddələr ki, orada yazılmışdı, onu götürüb ayrıca, geniş bir sənəd kimi qəbul etsinlər. O da sədrin bəyanatı kimi qəbul olundu. Amma buna da səs vermək lazım idi. Onu da sədr elan edə bilməzdi. 54 dövlətdən 53-ü buna səs verdi. Demək, 53-ü bizim mövqeyimizi müdafiə etdi. Bir Ermənistandan savayı.

Doğrudur, burada müxalifət bunu məğlubiyyət kimi qiymətləndirdi. Müxalifət qaraya ağ deyir, ağa qara deyir. Bu, təbiidir. Mən buna, necə deyərlər, heç təəccüblənmirəm. Amma Ermənistanda matəm oldu. O vaxtdan üç il keçibdir. Biz o prinsiplərin həyata keçirilməsinə

çalışırıq. Həmin o 53 dövlət ki, bunu dəstəkləyibdir, onların vasitəsilə, onlarla görüşərək, onlardan xahiş edərək Ermənistana bunu qəbul etdirə bilmirik.

Siz bilirsiniz, Rusiyanın xarici işlər naziri sentyabrın əvvəlində burada olmuşdur. Əgər televiziyada gördünüzsə, qəzetlərdə də yazılıb, – mən ona nə qədər kəskin sözlər dedim. Ondan sonra Amerika Prezidentinin bu məsələlər üzrə xüsusi səfiri Kavano buraya gəlmişdi, – ona nə qədər kəskin sözlər dedim. Fransa Minsk qrupuna yeni səfirini təyin edibdir. Dünən ona nə qədər kəskin sözlər dedim. Ondan əvvəlkilərə də. Götürün, qəzetdən oxuyun.

**Bəxtiyar Vahabzadə:** Cənab Prezident, yadımızdadır.

**Heydər Əliyev:** Rusiyanın xarici işlər naziri, ola bilər ki, televiziya qarşısında o cür kəskin sözləri ömründə heç vaxt eşitməmişdi. Başa düşürsünüz!

Arada Çernomırdin bura gəldi. Artıq o, Baş nazir deyildi. Amma Yuqoslaviya məsələsini həll etmək üçün Yeltsin onu səlahiyyətli nümayəndəsi təyin etmişdi. Bu da bütün MDB ölkələrini gəzib bizim fikirlərimizi öyrənmək üçün gəlmişdi. O, neçə il Baş nazir olmuşdu. Mən ona neçə dəfə demişdim ki, Azərbaycana gəl. Gələ bilməmişdi, vaxtı olmamışdı. Yuqoslaviya məsələsi qaldı kənarda, bütün mətbuatın qarşısında mən bunu əvvəldən axıra qədər ittiham etdim – Dağlıq Qarabağ məsələsi ilə əlaqədar.

O, bilmirdi nə etsin. Sonra gedib başqa bir MDB dövlətinin prezidenti ilə görüşündə – o, buradan sonra onun yanına getmişdi – demişdi ki, Heydər Əliyev məni elə bir vəziyyətə qoydu ki, bilmirəm nə edim. Çünki bütün mətbuatın qarşısında mənə o cür sözlər dedi, mən ona heç bir cavab verə bilmədim.

Yaxşı, bundan artıq nə etmək olar? Mən əlimə ağac alıb bunların başını yarmayacağam ki! Ya tapança alıb bunları öldürməyəcəyəm ki! Başa düşürsünüz?!

İndi həmin o Lissabon zirvə görüşünü götürək. O vaxta qədər Minsk qrupunda Rusiya hakim idi. Mən məsələni qoydum ki, artıq belə olmaz, gərək Amerika Birləşmiş Ştatları da Rusiya ilə bərabər həmsədr olsun. Amerika Birləşmiş Ştatları ilə danışdıq və söz verdilər ki, əgər onlar həmsədr olsalar bu işi irəliyə apara biləcəklər. Biz bu təklifi verdik. Rusiya və Ermənistan Amerika Birləşmiş Ştatlarının əleyhinə çıxdılar. Mən dedim ki, yox. Amerika Birləşmiş Ştatlarının nümayəndələri də bizə deyirlər ki, siz möhkəm durun.

Fransanın namizədliyini verdilər. Yanvar ayının 11-12 idi. Fransanın Prezidenti Jak Şirak məni rəsmi səfərə dəvət etmişdi. O vaxt da bu məsələ həll olunurdu. Mən gəldim, Prezident sarayında – Yelisey sarayında o, məni təmtəraqla qəbul etdi və danışıqlar apardı. Danışıqlarımızın yarısı bunun üstündə oldu ki, siz niyə bizim həmsədr olmağımızı istəmirsiniz? Təsəvvür edin, Fransanın Prezidenti kimi çox hörmətli, dünya siyasətində böyük bir yer tutan adama – mən onun qonağı olduğum halda üzbəüz dedim ki, biz sizə inanmırıq. Çünki burada ermənilər çoxdur, ermənilərin burada təsiri çoxdur. Biz sizə inanmırıq. Siz istəyirsiniz inciyin, istəyirsiniz inciməyin. O, mənə nə qədər dedi ki, biz Ermənistanla dostuq, bizim dostluğumuzun 300 illik tarixi vardır – bunlar həqiqətdir, amma biz Azərbaycanla da dost olmaq istəyirik və bu işə kömək etmək istəyirik. Başa düşürsünüz? Mən dedim, yox. Bunu kim edə bilər? Təsəvvür edirsiniz!

Sonra mənə ordan-burdan bəzi sözlər də dedilər. Xarici işlər naziri ilə görüşəndə o mənə dedi ki, siz düz etmədiniz, yaxşı deyil, filan. Ancaq dedim, yox, Amerika olmalıdır. Sonra nə oldu? Sonra elə oldu ki, məcbur oldular mənim də təklifim qəbul edilsin, Rusiya ilə Ermənistanın da təklifi qəbul edilsin. Üç həmsədr olsun. Yəni burada kompromis oldu: Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa.

Doğrudur, indi mən ədalət naminə demək istəyirəm ki, bəlkə də o vaxtlar mən səhv edirdim. Çünki Fransanın Prezidenti Jak Şirak sonralar bütün hərəkətləri ilə sübut etdi ki, həqiqətən o, bu məsələnin həll olunmasına kömək etməyə çalışır. O mənə deyirdi ki, "biz Ermənistanla dostuq. O sözləri ki, biz Ermənistana deyə bilərik, heç kəs deyə bilməz. Ona görə siz nahaq bizdən imtina edirsiniz". Mən bu həqiqəti sonra gördüm və çox məmnunam ki, indi prezident Jak Şirakla mənim şəxsi dostluğum yaranıbdır. Bəlkə o vaxtlar mən səhv etmişdim. Ancaq bəlkə də elə mənim bu hərəkətim ona gətirdi ki, indi üç həmsədr vardır – dünyanın üç böyük dövlətindən həmsədr vardır. Amerika söz verdi, Fransa söz verdi, Rusiya da həmişə deyir ki, edəcəyik. Üç il keçibdir.

1997-ci ildə paket təklifi verdilər, – yəni işğal olunmuş torpaqların azad olunması ilə bərabər, Dağlıq Qarabağın statusu məsələsi müəyyən edilsin. Bu, bizi qane etmirdi. Amma biz fikirləşdik ki, nə edək, heç olmasa bunu qəbul edək. Əlimizdə də Lissabon sammitinin sənədi var idi. Mən Amerika Birləşmiş Ştatlarına getdim, avqustun 1-də Ağ evdə Prezident Bill Klintonla görüşdüm. Onlar dedilər ki, çox yaxşı ki, bu təklifi qəbul etmisiniz, amma bunu bəyan edin. Mən Ağ evdəki nitqimdə bunu bəyan etdim. Amma Ermənistan həmin təklifi qəbul etmədi.

Sonra Minsk qrupu yeni bir sənəd hazırlayıb sentyabr ayında bizə verdi. Bu sənəddə münaqişənin mərhələ-mərhələ həll edilməsi nəzərdə tutulurdu: demək, birinci mərhələdə – işğal olunmuş torpaqlar azad olunur, ikinci mərhələdə isə Dağlıq Qarabağın statusu məsələsi müəyyən edilməlidir. Biz bunu qəbul etdik. Ədalət naminə demək lazımdır ki, Ermənistanın o vaxtkı prezidenti Ter-Petrosyan da buna müsbət münasibət göstərdi. Hətta biz oktyabr ayında Strasburqda olarkən rəsmi surətdə birgə bəyanat verdik ki, biz bu təklifi prinsip etibarilə qəbul edirik.

Ter-Petrosyan bu təklifin qəbul olunması üzərində durdu. Yəqin bilirsiniz, – o, "Nezavisimaya qazeta"da böyük bir məqalə dərc etdirdi. Dedi ki, mən bu təklifi axıradək həyata keçirəcəyəm.

Mən o məsələlərdən danışıram ki, bunları indiyədək mətbuatın qarşısında heç kəsə deməmişəm.

1997-ci il qurtardı, 1998-ci ilin əvvəlində mən eşitdim ki, Ter-Petrosyan Parisə gedibdir. Mən Fransa Prezidenti Jak Şiraka telefon etdim, onunla danışdım, soruşdum ki, vəziyyət necədir? Jak Şirak bildirdi ki, Ter-Petrosyan öz qərarının üzərində dayanır, mən də demişəm ki, düz edirsən. Əlavə etdi ki, Ter-Petrosyan mənim dostumdur – həqiqətən də onların keçmişdən dostluğu var idi – o, təxminən ayın 10–11-dək Təhlükəsizlik Şurasının iclasını keçirəcək, bu qərarı qəbul edəcək və ondan sonra işlər başlanacaq, mən sənə zəng edəcəyəm.

Ondan sonra nə oldu? Ermənistanda müxalifət qüvvələri Ter-Petrosyana təzyiq etməyə başladılar. Birinci növbədə Robert Koçaryan, sonra müdafiə naziri və başqaları onun əleyhinə çıxdılar. Ter-Petrosyan və onun bir neçə tərəfdarı istefa verdilər. Bu məsələdə böhran yarandı. Ter-Petrosyan da bildirdi ki, bir halda mən Ermənistana neçə illərdir başçılıq edirəm, münaqişənin bu təkliflər əsasında həllinə razılıq verirəm. Əgər siz bunu qəbul etmirsinizsə, mən artıq burada otura bilmərəm.

Ter-Petrosyan istefa verərək dedi ki, müharibə partiyası qalib gəldi, sülh partiyası məğlub oldu. O, vəzifədən getdi. Ermənistanda vəziyyət dəyişdi. Minsk qrupu fəaliyyətini dayandırdı ki, gözləyək, Ermənistanda prezident seçkiləri keçirilsin. Orada prezident seçkiləri oldu, yeni prezident seçildi. Bundan sonra Minsk qrupu bildirdi ki, bir az da gözləyək, yeni prezident öz işlərini sahmana salsın. Biz də gözlədik.

Ondan sonra, 1998-ci ildə mən Ermənistanın yeni prezidenti ilə Moskvada görüş keçirdim, gördüm ki, vəziyyət çox çətindir. Xatirimdədir, 1998-ci ildə biz Yaltada Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı-

nın üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak etdik. Bizim dostumuz, Türkiyənin Prezidenti Süleyman Dəmirəl də orada idi. O da Ermənistan Prezidenti Robert Koçaryanla orada görüşdü və sonra dedi ki, yox, çətin məsələdir.

Beləliklə, 1998-ci il tamamilə boş qaldı. Rusiyanın 1998-ci ildə hazırladığı layihəni – "ümumi dövlət" layihəsini bizə təqdim etdilər. Biz bunu qəbul etmədik, amma Ermənistan dərhal qəbul etdi. Təsəvvür edin, Minsk qrupunun ondan əvvəl hazırladığı bütün təklifləri Ermənistan rədd etmişdi və Minsk qrupu da geri çəkilmişdi. Amma son təklifi verdilər, biz onu qəbul etmədik, Ermənistan qəbul etdi. Minsk qrupu bizə təzyiq etməyə başladı ki, siz bunu qəbul edin. Onların nümayəndəsi dəfələrlə buraya gəlib-getdi. Mən bildirdim ki, xeyr, biz bunu qəbul edə bilmərik. Sonra Amerika Konqresində çıxışlar etməyə başladılar ki, nə üçün Azərbaycan Minsk qrupunun təklifini qəbul etmir, Ermənistan qəbul edir? Əcəba, Ermənistan Minsk qrupunun təkliflərini qəbul etməyəndə niyə bir adam durub demədi ki, Ermənistan nə üçün belə edir? Amma Azərbaycan bircə dəfə təklifi qəbul etməyəndə, bizim başımıza nə işlər gəlir. Təəssüflər olsun ki, müxalifət qüvvələri özlərini çox ədalətsiz, bəzən də çox vicdansızcasına aparırlar, görülən hər işə qara yaxırlar.

Bilirsiniz, düzgün başa düşün, mən burada öz fəaliyyətimi şişirtmək istəmirəm. Bu işləri mən görürəm. Bəli, mən Amerika Prezidenti Bill Klintonla bu barədə altı dəfə söhbət etmişəm. Fransanın, Almaniyanın, İngiltərənin dövlət başçıları ilə bu barədə dəfələrlə söhbət aparmışam. Rusiyanın Prezidenti ilə həddindən artıq söhbətlərimiz olubdur.

MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşləri keçirilir. Həmin görüşlər qapalı olur. Bəziləri deyirlər ki, Heydər Əliyev nə üçün Azərbaycanı MDB-nin üzvü etdi? Vaxtilə Azərbaycan MDB-nin üzvü deyildi, biz nə qədər zərərlər çəkmişik, mən onları da sizə deyəcəyəm. Biz MDB-nin üzvü olmayanda orada nə olduğunu bilmirdik. Halbuki, Ermənistan da, başqa respublikalar da bu birliyin üzvü idilər. Amma biz kənarda durmuşduq. Biz MDB-yə üzv olduq, öz sözümüzü deyə bildik.

1993-cü ilin dekabr ayında Azərbaycan MDB-nin üzvü olan kimi Aşqabadda keçirilən zirvə görüşündə mən böyük bir bəyanat verdim. Bütün dünyaya yayılan həmin bəyanatda dedim ki, mən bu MDB-ni təşkilat hesab etmirəm. Çünki bir təşkilatın üzvü olan iki dövlət əgər bir-biri ilə müharibə aparırsa, bu ittifaq ola bilməz. Sizə onu da deyim ki, mənim o vaxtkı çıxışım sanki heç olmamışdı. Yəni nə Boris Yeltsin, nə də digər dövlətlərin başçıları ona qulaq asmadılar. Əlimdən o gəldi ki, yazı-

lı surətdə olan həmin çıxışımın mətnini bütün dünyaya yaydım. Mən bir neçə dəfə o cür bəyanat vermişəm.

Bilirsiniz ki, MDB-nin zirvə görüşlərindəki çıxışların hamısı, protokollar mətbuatda dərc olunmur. Amma onların hamısı məndə var. Mən onları tanış olmaq üçün sizə verə bilərəm. Elə bir iclas yoxdur ki, mən orada Rusiyanı günahlandırmayım ki, siz Ermənistanla Azərbaycana birtərəfli münasibət göstərirsiniz, siz Ermənistanı silahlandırırsınız, siz bu münaqişəni həll etmək üçün lazımi tədbirlər görmürsünüz.

Başa düşürsünüz, bunları orada demək üçün cəsarət, bilik və dil lazımdır. Mən bunları heç kəsdən də qorxmayaraq, çəkinməyərək edirəm. Bilirəm ki, dediyim bütün bu sözlər mənim, eyni zamanda Azərbaycanın əleyhinə əks təsir yaradır. Bu da təbiidir. Ancaq başa düşürsünüz, mənim prinsipial mövqeyim vardır. Bax, indi vəziyyət belədir.

Belə bir vəziyyətdə nə etmək lazımdır? Aprel ayında mən Amerikada olanda ABŞ-ın xarici işlər naziri Olbrayt məsləhət gördü ki, Koçaryanla görüşək. Görüşdük, danışdıq. Ondan sonra da bir neçə dəfə görüşlər keçirdik. Mən hesab edirəm ki, bu görüşlər faydalıdır.

Ancaq mən bu görüşlərin məzmunu haqqında heç bir şey deyə bilmərəm, heç kəsə deyə bilmərəm. Nə üçün? Çünki hələ bunun bir nəticəsi gəlməmişdir. Biz hər hansı bir nəticəyə gələ bilsək, heç kəs narahat olmasın, bu, birinci növbədə Azərbaycanın elə sizin kimi ziyalıları, ağsaqqal adamları qarşısında qoyulacaqdır. İkinci, bütün ictimaiyyətə çatdırılacaqdır. Üçüncü, Məclisdə müzakirə olunacaqdır. Dördüncü, referendum keçiriləcəkdir. Bunların heç birisi prezident tərəfindən özbaşına edilə bilməz.

Ona görə də, bilirsiniz, bu narahatlığın heç bir əsası yoxdur. Amma sizi rahat etmək üçün demək istəyirəm ki, müxalifət gündə qəzetlərdə yazır ki, İstanbulda, nə bilim, saziş imzalanacaqdır, nə olacaqdır, ayın 14-də mitinq keçirmək istəyirlər, keçirsinlər, – İstanbulda heç bir şey imzalanmayacaqdır. Amma mən bunu niyə sizə, yaxud başqalarına deməliyəm? Mən prezidentəm, məni xalq seçib, mən üzərimə məsuliyyət götürmüşəm. Bəli, mən üzərimə məsuliyyət götürmüşəm, amma müxalifət heç bir məsuliyyət daşımır, Azərbaycanı dağıtmaqdan başqa.

İstanbulda Bakı–Ceyhan haqqında müqavilə imzalanacaqdır. Onu da sizə çatdırıram ki, biz bu barədə nə lazımsa eləmişik. Amerika da buna çox maraqlıdır. Bilirsiniz ki, bu, Türkiyə üçün böyük bir hadisədir. Bizim nümayəndələr iki-üç aydır ki, Ankarada oturublar. Amma indi, son vaxtlarda bəzi maneçiliklər var. Bu gün Amerikanın səfiri yenə mənim

yanıma gəlmişdi, onunla danışırdım. Maneçiliklər var. Bəzi elə şeylər var ki, biz onları qəbul edə bilmərik. Siz onlara deyin ki, biz bunu qəbul edə bilməyəcəyik. Biz öz mənafelərimizdən, nə təhər deyərlər, kiminsə hesabına keçə bilmərik. Buna görə mən onlara demişəm ki, siz bu işdə maraqlısınız, gedin, təmin edin, bütün maddələr düzgün təmin olunsun. Güman edirəm, olacaqdır, bu müqavilə imzalanacaqdır.

Bilirsiniz, bu zirvə görüşünün öz sənədləri var. Birincisi, siyasi bəyannamədir. Siyasi bəyannamədə yəqin ki, Ermənistan–Azərbaycan münaqişəsi haqqında nəsə yazılacaqdır, indi biz onun üzərində işləyirik. İkincisi, XXI əsrə aid xartiya. Üçüncüsü isə Avropada adi silahlar haqqında. 90-cı ildə NATO ilə Varşava paktı arasında bir müqavilə imzalanıbdır. 92-ci ildə Varşava paktı da dağılıbdır. Burada müəyyən dəyişikliklər əmələ gəlib, mən bunu da sizə deyəcəyəm ki, biləsiniz. Bu dəyişikliklərdən Azərbaycan çox zərər çəkibdir.

Dörd ildir ki, Amerika Birləşmiş Ştatları bizimlə danışıq aparır və bəzən də təzyiq edirlər ki, razılıq verək ki, müasir vəziyyətə uyğunlaşdırılmış müqaviləyə imza atılsın. Lissabon sammitindən öncə, iki-üç ay qalmış, Amerika dövlətinin yüksək vəzifəli nümayəndələri buraya gəldilər. Bizim nümayəndələr oraya gediblər, danışıqlar apardıq. Gördük ki, bu, bizim zərərimizədir, biz buna yol vermərik. Təkcə biz bunun qarşısında durduq. Lissabon sammitində məndən nə qədər xahiş elədilər ki, siz öz etirazınızı götürün, qalan hamısı imzalamağa hazırdır. Orada da əsasən Rusiya ilə Amerika arasında söhbət gedir. İndi daha Varşava paktı yoxdur, söhbət Rusiya ilə Amerika arasında gedir. Eləmədik. Üç il keçibdir ki, eləməmişik.

İndi yenə də Vyanada danışıqlar gedir, İstanbulda danışıqlar gedir. Biz hələ razılıq verməmişik. Bu mövzunu da sizə deyəcəyəm, bu, bizim üçün nə faciədir – bunu da sizə deyəcəyəm. İndiyə qədər heç kəsə deməmişəm, amma sizə deyəcəyəm.

İndi əgər bu qərar qəbul olunsa, imzalanacaqdır. Bunlar sammitin qərarlarıdır. Amma vaxtdan istifadə edib, Bakı–Cehyan müqaviləsini də orada imzalamaq istəyirik. Çünki Amerika Prezidenti də orada iştirak etmək istəyir. Şübhəsiz ki, Türkiyənin, Azərbaycanın, Gürcüstanın prezidentləri də iştirak etmək istəyirlər. Biz çalışırıq ki, bu sənəd imzalansın.

Bir məsələ də var – Türkmənistandan Türkiyənin qaz kəməri çəkilməsi. Biz buna razılıq vermişik. Ancaq burada bizim də öz mövqelərimiz var. Mövqelərimiz bundan ibarətdir ki, qaz kəməri Azərbaycandan, Gürcüstandan keçəcək, üç-dörd ildən sonra özümüzün həddindən çox qa-

zımız olacaqdır, bu qazı dünya bazarına çıxarmalıyıq. Bunu təkcə biz demirik, bizimlə bərabər şirkətdə işləyən adamlar deyirlər.

Əgər bu kəmər haqqında indi qərar qəbul olunsa, bir il onun layihəsinin hazırlanmasına gedəcək, bir üç il də tikilməsinə. O vaxt bizim də ixrac etməyə qazımız olacaqdır. İstəyirik ki, bu qaz kəmərində bizim də yerimiz olsun, yəni biz də öz qazımızı bu kəmərlə ixrac edə bilək. Ancaq bizə deyirlər, yox, elə Türkmənistanın qazı ixrac olunsun. Biz burada da toqquşmuşuq, başa düşürsünüzmü?

Bizim dostumuz Türkiyə deyir ki, siz bunu aradan götürün, belə imzalayaq. Amma biz öz mənafelərimizi qoruyuruq. Bu detalları heç kəs bilmir, ancaq biz bunların üzərində gecə-gündüz işləyirik. Əziz dostlar, gecə-gündüz işləyirik!

Ola bilər, orada müqavilə yox, bir bəyannamə, çərçivə niyyət protokolu imzalansın. Bunlar ola bilər, – bu, sammitdən kənar şeydir.

Amma Ermənistan–Azərbaycan sazişi, – hansını ki, müxalifət salıb dillərə və sizi də narahat edir, – indi belə bir saziş imzalanmayacaq. Bundan tamamilə arxayın olun.

Mən sizin fikirlərinizi diqqətlə dinlədim. Mən razı deyiləm ki, guya bu dəqiqə Azərbaycanın bütün əhalisi bundan narahatdır. Bu fikirlə razı deyiləm. Bilirsiniz, beş adam, altı adam sizin yanınıza gəlir, üç adam onu çatdırır. Azərbaycanda bu işi bu vəziyyətə gətirən Azərbaycanın müxalifətidir. Müxalifət qəzetləri çoxdur, bilirsiniz – və özlərini çox yaramaz aparırlar. Bütün etik normaları aşıblar, hər şeyi pozublar.

İndi sizə deyiblər ki, yazıçılar kordur, siz inciyirsiniz, elədirmi?

**Anar:** Elə gündə belə şeylər yazırlar.

**Heydər Əliyev:** Siz inciyirsiniz. Amma siz götürün o qəzetləri, bir statistika aparın. Məsələn, "Yeni Müsavat" qəzetində Heydər Əliyev haqqında neçə dənə böhtan məqaləsi gedibdir. "Azadlıq" qəzetində neçəsi gedib, o birisində neçəsi gedibdir. Mən tapşıraram, Dilarə xanıma deyərəm, bir həftəninkini götürsün, sonra sizə məlum edər. Hamısını bir yerə yığsaq, Heydər Əliyevin əleyhinə gündə yüzə yaxın yalan, böhtan, iftira, uydurmalar yazırlar. Bəs mən insan deyiləmmi, can deyiləmmi? Bəs mən necə dözürəm və nə üçün dözürəm?

Bilirsiniz, mən Azərbaycan qarşısında xidmətlərimi etmişəm. Birinci, keçmiş zamanda etmişəm, ikinci də 93-cü ildən bu yana qədər xidmətlərimi etmişəm. Hamınız da bilirsiniz ki, 93-cü ildə mən buraya gəlməsəydim bu gün Azərbaycan dağılmışdı, yox idi. Mən də öz xoşuma gəlmədim, gəlmək də istəmirdim, siz bunu bilirsiniz. Bu da məlumdur. Mən

o vaxt Naxçıvanda oturarkən, Xalq Cəbhəsi hakimiyyəti bizi əzdiyi zaman mən Xalq Cəbhəsinə müxalifətdə deyildim. Bunu heç kəs deyə bilməz. Bəli, o vaxt mən Mütəllibov hakimiyyətinə müxalifətdə idim. Siz bunu bilirsiniz, gəlib parlamentdə də çıxışlar elədim.

Amma Xalq Cəbhəsinin hakimiyyətə gəlməsinə mən müəyyən qədər kömək etdim, bu da məlumdur. Kömək etdim, bir il hakimiyyətləri vaxtında onların əleyhinə bir dənə də söz demədim, bir yerdə çıxış eləmədim, bir dəfə parlamentə gəlmədim. Çünki Naxçıvanın öz dərdləri vardı. Amma onlar bir dəfə – 92-ci ilin oktyabr ayında silahlı dəstələrlə məni devirmək istədilər. Sonra da, faktlar var, orada bir nəfər dəlinin əlinə avtomat vermişdilər, Yerevanda olan hadisə 93-cü ilin əvvəllərində Naxçıvanda baş verməli idi – Məclisin zalına girib məni güllələməli idi. Hələ mən bilməmişdən bir neçə adam bunu bildi, bir təhərlə o adamı döndərdilər və məsələni açdılar, mən bu xatadan qurtardım.

Bunu Xalq Cəbhəsi elədi.

93-cü ildə mən Bakıya gəldim. Təsəvvür edin, Surət Hüseynov buraya gəlirdi, mən gəlməsəydim nə olacaqdı? Hakimiyyəti götürəcəkdi! Mən də niyə gəldim, – siz məndən xahiş etdiniz, xalq xahiş etdi. Amma indi deyirlər ki, Heydər Əliyev gəlib hakimiyyəti zəbt edibdir. Görün nə qədər yalandır!

Əgər Əbülfəz Elçibəy və parlamentin sədri İsa Qəmbərov, baş nazir Pənah Hüseynov mənə müraciət etməsəydilər və təkidlə məni Azərbaycana dəvət etməsəydilər, nə qədər siz ziyalılar, o birisilər, bu birisilər xahiş etməsəydi, özbaşıma buraya dünyasında gəlməzdim. Çünki belə çıxacaqdı ki, mən gəlib onları yıxmaq istəyirəm. Mən bunu etməzdim.

Siz bilirsiniz, bunlar hamısı məlumdur. Mən iyun ayının 9-da buraya gəldim, bu şeylərə etiraz etdim. İyun ayının ancaq 15-də mənim seçilməyimə razılıq verdim. Razılıq verdim, getdim Gəncəyə, vəziyyəti gördüm. Gördüm ki, Azərbaycan dağılır. Artıq Azərbaycanın yarısı Azərbaycan hökumətinin əlindən çıxmışdı. Lənkəranda bir "Cümhuriyyət" yaranmışdı. Mən gəldim, nə təhər deyərlər, özümü atdım odun içinə, nə olar-olar! Amma mənim əleyhimə neçə dəfə terrorlar hazırladılar. Mən ki, onların xahişi ilə gəldim burada vəziyyəti düzəltməyə, bir ay sonra hamısı mənə qarşı müxalifətə keçdilər. Belə şey yaraya bilərmi? Niyə siz məni buraya dartdınız, niyə məni buraya gətirdiniz, sonra niyə mənə müxalif oldunuz?

Fakt var, adam var ki, indiyə qədər həbsxanada yatır – avqust ayında Ərzurum Universitetinin bir tələbəsini gətirib Naxçıvanda bir

ay hazırlıq keçmişdilər, sonra iki dəfə Kələkiyə, Əbülfəz Elçibəyin yanına aparmışdılar. O, burada məni güllələməli idi. O vaxt mən hələ parlamentdə oturardum. Allah məni saxladı, onlar tutuldular. Bundan başqa faktlar da vardır.

Surət Hüseynov sizi yıxmaq istəyirdi. O, oktyabr ayında Azərbaycanda yeni dövlət çevrilişi etmək istəyirdi. Siz harada idiniz, niyə gəlib mənə kömək etmədiniz, mənim əlimdən tutmadınız? Xalq, siz gəldiniz, çox sağ olun. Millət hamısı mənim tərəfimdə idi. Amma onlar kənarda durmuşdular ki, qoy vursunlar, görək nə olar, sonra nə edərik. Bilirsiniz, burada əqidə yoxdur, bu, həmin insanlarda hakimiyyət xəstəliyidir.

Yaxud, Rövşən Cavadovun dəstəsini götürün. Təkcə Rövşən Cavadov deyildi, – məlumdur ki, oktyabr hadisələrində də, mart hadisələrində də xarici xidmət orqanları iştirak edirdilər. Bəxtiyar müəllim yaxşı bilir, mən həm oktyabr hadisələrində, həm də mart hadisələrində ondan nə qədər xahiş etdim ki, vasitəçilik etsin. Amma sonra nə məlum oldu? Məlum oldu ki, bəli, bunlar Əbülfəz Elçibəylə danışıq aparıblar, o bu işə razılıq veribdir. Həmin o Dəmirkol və başqaları neçə dəfə Kələkiyə gedibblər. Müsavatın nümayəndəsi Tofiq Qasımov bu işdə iştirak edibdir, başqaları da iştirak ediblər.

İndi belə bir faciəvi vəziyyət yaranır ki, burada həm Moskvanın, həm Türkiyədən bəzi dairələrin, həm də bunların əli var imiş. Yaxşı, Allah bu canı mənə veribdir, nə vaxt istəsə alacaqdır. Bu hadisə baş versəydi, indi siz təsəvvür edin, nə olacaqdı? Yaxşı, bunun qarşısını aldıq. Başqa terror hadisələri də var, mən onları demək istəmirəm.

Milli Təhlükəsizlik Nazirliyi bu gün mənə məlumat çatdırdı, yəqin onlar onu yayıblar. Surət Hüseynov 1996-cı ildə Moskvada böyük bir qrup yaradıb yenidən dövlət çevrilişinə cəhd etmək istəyirdi. Şübhəsiz ki, o bunu Mütəllibovla, Rəhim Qazıyev ilə birlikdə etmək istəyirdi. Biz o vaxt orada onun qarşısını aldıq. Bilirsiniz ki, 1996-cı ildə bir tərəfdən "OMON" dəstəsinin, digər tərəfdən isə Surət Hüseynovun dəstəsinin üzvləri Dağıstandan keçib gəlib Qazaxda oturmuşdular.

İndi onlardan birini – o, killerlə danışmışdı ki, Heydər Əliyevi nə cür öldürmək lazımdır – bu günlərdə yaxalayıblar. İndi o ifadə verir. Bu gün bu barədə məlumat yayılacaqdır.

**Bəxtiyar Vahabzadə:** O adam azərbaycanlıdır?

**Heydər Əliyev:** Bəli, başa düşürsünüz, azərbaycanlıdır, Surət Hüseynovun bacanağıdır. Yaxşı, indi mənə nə lazımdır ki, bir canım var,

oturum orada, burada məni güllələyəcəklər, orada mənə, nə bilim, bomba, burada raket atacaqlar. Mənə nə lazımdır?

Özümün də 76 yaşım var. Mən bu gün buradan çıxıb gedə bilərəm, gedib evdə otura bilərəm. Mənə başqa heç bir şey lazım deyil. Ancaq bilirsiniz, mənim üzərimə məsuliyyət düşübdür. Mən bu məsuliyyəti dərk edirəm və xalqın qarşısında cavabdehəm. Ona görə də mən gecə-gündüz çalışıram ki, Azərbaycanın bütün problemlərini həll edim.

Məsələn, biz iqtisadi islahatlar aparırıq. Beynəlxalq Valyuta Fondu MDB-nin üzvü olan ölkələr içərisində bizi, iqtisadi nəticələrimizi nümunə göstərir. Ancaq müxalifət qəzetləri yazırlar ki, camaat belə gəldi, belə getdi.

Bizdə ac da, dilənçi də – hamısı var. Amma MDB-nin üzvü olan bütün başqa ölkələrdən fərqli olaraq bizdə bir milyon işləməyən qaçqın, çadırlarda yaşayan insanlar var. Mən gecələr onların dərdindən yata bilmirəm. Müxalifətdə olanlardan biri gedib həmin qaçqınlarla görüşübmü, çadırlarda olubmu, onların vəziyyətini görübmü? Görməyiblər, amma mən dəfələrlə görmüşəm.

Mən Azərbaycanın bütün milli mənafelərini daim sevmişəm, ona xidmət göstərmişəm və bundan sonra da göstərəcəyəm. Amma indi müxalifətin bu "Qarabağ kartı"ndan istifadə edib özünü xalqa göstərməsi, bilirsiniz, əhəmiyyətsiz bir şeydir. Xalq heç vaxt onları dəstəkləməyəcəkdir və onlar bundan heç bir şey əldə edə bilməyəcəklər. Mənə başqa yerlərdən məlumatlar var ki, Heydər Əliyevdən canlarını qurtarıb buranı dağıtmaq üçün onların yeganə yolu terrordur. İndi terrorun da nə mümkündür, qarşısını alırıq. Nə vaxt qarşısını ala bilməriksə, dəfələrlə demişəm, mən xalqımın yolunda şəhid olmağa hər dəqiqə hazıram.

Biz 907-ci maddənin ölkəmizin üzərindən götürülməsi üçün neçə illərdir çalışırıq. Amerika Birləşmiş Ştatları SSRİ-dən ayrılmış, müstəqillik qazanmış dövlətlərin hamısına yardım edir. Məsələn, 2-3 gün bundan öncə qərar çıxıbdır, Amerika Ermənistana 90 milyon, Gürcüstana da təxminən o qədər yardım edir, başqa yardımlar da edir.

1993-cü ildən 907-ci maddəyə embarqo qoyulubdur. Niyə, bu, kimin günahından olubdur? Həmin Xalq Cəbhəsi hakimiyyətinin günahıdır. Onlar hakimiyyəti səs-küylə, özləri demişkən, tanklarla əllərinə aldıqları kimi, bir ilin içərisində o qədər də ağılsız işlər görüblər. O vaxt onlar Bakı–Yerevan dəmir yolunu bağladılar. Xalq Cəbhəsində İbrahim İbrahimov var, – o, Naxçıvanda Zeynəddin kəndinin müəllimi idi, indi "böyük siyasi xadim" olubdur. O, Naxçıvana gəldi, gördüm ki, orada

Xalq Cəbhəsinin silahlı dəstələri ilə təbliğat aparır. Mən onu yanıma dəvət etdim. O vaxt mən Naxçıvanda Ali Məclisin sədri idim. Mən ondan soruşdum ki, nə etmək istəyirsiniz? Cavab verir ki, bəs biz yolu bağlayacağıq. Dedim ki, ay kişi, siz bir başa düşün, bu yolu bağlamaqla nə əldə edəcəksiniz? Bildirdi ki, yox, biz yolu bağlamaqla Ermənistanı əzəcəyik. Dedim ki, siz ağılsız adamlarsınız, Ermənistanı əzə bilməyəcəksiniz. Təsəvvür edin, siz Naxçıvanı pis vəziyyətə qoyacaqsınız. Sözümə baxmadılar.

Xatirimdədir, ondan bir neçə gün sonra Murtuz Ələsgərovla Fəraməz Maqsudov Naxçıvana gəlmişdilər. Onlar keçmişdə Xalq Cəbhəsi ilə əlaqədə olan adamlardır. Gedib Naxçıvanda Xalq Cəbhəsinin üzvləri ilə görüşüb danışmışdılar, sonra mənim yanıma gəlmişdilər. Mənə bildirdilər ki, onlar yolu bağlayırlar. Soruşdum ki, bəs siz nə dediniz? Cavab verdilər ki, biz də söylədik, Naxçıvan çox ağır vəziyyətə düşəcək, amma dedilər ki, yox, nəyin bahasına olursa-olsun yolu bağlayacağıq, lazım gəlsə burada it əti, pişik əti yeyəcəyik, amma Ermənistanı əzəcəyik.

Mən İbrahim İbrahimovu yanıma çağıraraq dedim ki, siz nə düşünürsünüz, Naxçıvanı daha ağır vəziyyətə salmaq istəyirsiniz? Cavab verdi ki, narahat olmayın, biz 3 aydan sonra Dağlıq Qarabağı da alacağıq, Yerevana da gedib çatacağıq, hər şeyi edəcəyik, ondan sonra Naxçıvanın vəziyyəti düzələcək, siz 3-4 ay dözün. İndi görün, onlar nə qədər ağılsız adamlardır. Azərbaycanı belə adamlar idarə edirdilər.

Həmin yolun bağlanmasının günahkarı Xalq Cəbhəsi hakimiyyətidir ki, biz 7 ildir bütün yardımlardan məhrumuq. Mən nə qədər çalışsam da heç bir şey edə bilmərəm. Mən konqresmenlərin, ola bilər, 70 faizi ilə – həm respublikamıza səfərə gələn zaman, həm də Amerikada – danışmışam. Mən Klintonla danışıram, hər dəfə deyir ki, bəli, bu maddə götürülməlidir, ancaq götürmür. Deyir ki, bu məsələdə ermənilər mənə təzyiq edirlər. O, bunu mənə açıqca deyir.

Yaxşı, Azərbaycanı bu vəziyyətə salan kimdir? Onlardır – müxalifətdir. Onlar məsuliyyət daşımalıdırlar. Amma indi durub guya Azərbaycanın mənafelərini müdafiə edən olublar.

İkinci məsələ. Mən sizə dedim ki, Avropada adi silahlar haqqında 1990-cı ildə bağlanmış müqavilənin uyğunlaşdırılmış variantı İstanbul zirvə görüşündə imzalanmalıdır. Biz, Azərbaycan buna veto qoymuşuq. Amerika isə bu sənədin imzalanmasını istəyir. Çünki Amerika bu sənədi yenidən imzalamasa, Rusiya bu müqavilədən çıxa bilər. Rusiya bu müqavilədən çıxsa, onda bütün nəzarət itəcəkdir. Bu, nədən ibarətdir? Demək,

1990-cı ildə müəyyən ediblər ki, NATO və Varşava paktı harada, nə qədər adi silah saxlaya bilər. Adi silah nədir? Tankdır, zirehli döyüş maşınlarıdır, toplardır, xırda, adi təyyarələrdir. Yəni Varşavada bu qədər, Rusiyanın filan ərazisində bu qədər, burada bu qədər, orada o qədər ola bilər, NATO filan ölkədə bu qədər saxlaya bilər. 1990-cı ildə imzalanmış müqaviləyə əsasən bu, belə ola bilər.

1991-ci ilin sonunda Sovet İttifaqı dağıldı. 1992-ci ildə Varşava müqaviləsi artıq yox idi. Amerikalılar da, ruslar da narahat oldular. 1992-ci il mayın 15-də MDB-nin üzvü olan ölkələrin dövlət başçıları Daşkənddə toplaşdılar ki, keçmiş Sovetlər İttifaqında 1990-cı ildə imzalanmış müqaviləyə görə yerləşdirilmiş silahların harada, hansı respublikada nə qədər olduğunu müəyyən etsinlər.

Siz 1992-ci il mayın 15-də Azərbaycanda nə kimi hadisələr baş verdiyini bilirsiniz. O vaxt Mütəllibovu yenidən hakimiyyətə gətirmək istəyirdilər. Xalq Cəbhəsi gəlib onu burada hakimiyyətdən saldı. MDB dövlətlərinin başçıları isə Daşkənddə toplaşmışdılar. O, bir gündə olmayıbdır. Azərbaycanın ekspertləri oraya gediblər. Onlar sübut ediblər ki, Azərbaycan Ermənistanla, Gürcüstanla bərabər ola bilməz. Azərbaycanın ərazisi də onlardan iki dəfə böyükdür, əhalisi də çoxdur. Ona görə də Azərbaycanın adi silahlar saxlamaq barədə kvotası da onlardan üstün olmalıdır. Orada danışıq aparıblar ki, – həmin ekspertlər indi sağdırlar – təxminən 400 tank, təxminən o qədər də "BMP" və müvafiq olaraq başqa silahlar olsun. Oraya kim gedibdir? Rəhim Qazıyev, Abbas Abbasov. Sonra araşdırdıq ki, həmin sənədə daha kim imza atıbdır? Burada bir Əzizbəyov olubdur, Nazirlər Soveti sədrinin müavini işləyibdir, imza onun imzasıdır. Ekspertlər bunu razılaşdırıblar ki, Gürcüstanınkı 220, Ermənistanınkı 220 olsun, amma Azərbaycanınkı 400, ya 415, ya da 420 olsun. Rusiyanın müdafiə naziri Qraçov Rəhim Qazıyevlə sövdələşiblər. Rəhim Qazıyev gedib razılıq verib ki, 220, yəni Ermənistanla, Gürcüstanla bərabər olsun. Bəs bu, Azərbaycana xəyanət deyilmi? Bu xəyanəti kimlər ediblər?

Niyə biz bunun yenidən imzalanmasının indiyə qədər əleyhinəyik? Deyirik ki, bizim kvotalarımızı artırmaq lazımdır. Buna ruslar da, amerikalılar da razı olmurlar. Bəlkə, amerikalılar razı olardılar. Ruslar isə deyirlər ki, onda biz müqavilədən çıxacağıq. Başa düşürsünüzmü, nə qədər mürəkkəb vəziyyət yaranıbdır. Ruslar bir dəfə də olsun bizə müraciət etməyiblər ki, siz bu müqaviləni imzalayın. Amma amerikanlar dəfələrlə müraciət ediblər.

Görün indi necə vəziyyət yaranıbdır. Azərbaycanın kvotası bu qədər, Ermənistanın da kvotası o qədər. Müqaviləyə görə Rusiya, təkcə Rusiya yox, hansısa bir ölkə başqa bir ölkənin ərazisində əgər razılıq olsa, istədiyi qədər həmin silahlardan yerləşdirə bilər. Yaxud, bir ölkə öz kvotasının bir hissəsini başqa bir ölkəyə verə bilər. Ona görə də indi bu 220-dən başqa, Rusiya təxminən 160–170-ni də gətirib Ermənistanda yerləşdiribdir. Başa düşürsünüz, bu barədə Ermənistan ilə Rusiyanın razılığı vardır.

Dağlıq Qarabağda olan silahlar nəzarətdə deyildir. Bilirsiniz ki, orada da silahlar həddindən artıq – Ermənistandakından da, bizimkindən də çoxdur. Biz deyirik ki, oradakı silahlar nəzarət altında deyildir. Bildirirlər ki, ora sizin ərazinizdir, istəyirsiniz sizin ölkənin üstünə yazaq. Başa düşürsünüzmü? Biz deyirik ki, axı bu bizə tabe deyil. Onlar söyləyirlər ki, onda siz deyin bu, Ermənistanındır, biz gedib onların üstünə yazaq. Biz də deyə bilmirik ki, bu ərazi Ermənistanındır. Siz bunu başa düşürsünüz, yoxsa yox?

**Hüseyn Abbaszadə:** Oyun çox möhkəm oyundur.

**Anar Rzayev:** Oyun deyil, cığallıqdır.

**Heydər Əliyev:** Cığallıq deyəndə, hərə öz mənafeyini müdafiə edir. Amma əgər biz həmin 1992-ci ildə bir dövlət kimi gedib orada öz mövqeyimizi göstərsəydik bizim ekspertlərin hazırladığı təklifi qəbul edərdilər. O vaxt orada elə bir şey yox idi, həmin təklif qəbul olunurdu. Amma Rəhim Qazıyev və Qraçov sövdələşiblər. Siz bilirsiniz ki, Rəhim Qazıyev də burada prezident olmaq istəyirdi.

Həmin o çevrilişdə o da hakimiyyəti əlinə keçirmək istəyirdi. Deyirlər ki, onlar guya ona söz veribmişlər ki, biz sənə kömək edəcəyik.

Bax, bizim üzərimizdə iki belə ağır yük durur. Onlardan biri 907-ci maddədir, ikincisi isə budur. Bunların ikisi də 1992-ci ildə o vaxtkı hakimiyyətin günahından başımıza gəlibdir.

İndi başqa problemlər də vardır. Bu cür günahlar etmiş, Azərbaycana bu cür xəyanət etmiş adamlar bu gün gəlib özlərini "Azərbaycanın xilaskarı" kimi elan edirlər və ölkəmizdə həqiqətə tamamilə uyğun olmayan təbliğatlar aparırlar.

Təbiidir ki, onların yazdıqları müəyyən adamlarda narahatlıq törədir, fikir oyadır. Bəziləri onların yazdıqları ilə razı olurlar. Sizin də narahatlığınız təbiidir. Çünki deyirsiniz ki, sizə müraciət ediblər. Amma bunların hamısı yersizdir.

Mən nə etməliyəm? Deyirlər ki, gəlin müharibə aparaq. Mitinqdə deyiblər ki, Dağlıq Qarabağa mədəni muxtariyyət vermək lazımdır. İndi

ATƏT-in sədri Norveçin xarici işlər naziridir. Yaxın vaxtlarda o, buraya gəlmişdi. İstanbul zirvə görüşündən sonra Avstriyanın xarici işlər naziri ATƏT-in sədri olacaqdır. Mən onların ikisi ilə də görüşmüşəm. Onlar Ermənistanda da, Azərbaycanda da olublar. Deyirlər ki, məsələni həll etməlisiniz. Deyirəm, nə cür? Bildirirlər ki, düzdür, Ermənistan Dağlıq Qarabağa müstəqillik istəyir, olmaz. Amma siz gərək onlara müstəqillikdən bir az aşağı, özünüidarəetmədən də yuxarı bir status verəsiniz. Həm də onlar bunu mənim beynimə yeritmək istəyirlər. Deyirəm ki, axı, dünyada belə status yoxdur.

Bunu onlar deyirlər. İndi, bu cür vəziyyət olan halda, sən çıxasan mitinqdə, necə deyərlər, əldəqayırma bir qətnamə qəbul eləyəsən, içində də bir dənə mənalı söz olmaya. Yazasan ki, "Dağlıq Qarabağa ancaq mədəni muxtariyyət vermək olar". Bu, nə qədər ağılsızlıqdır və reallıqdan nə qədər də kənardır.

Mən 14 il Azərbaycana başçılıq eləmişəm. Dağlıq Qarabağ Muxtariyyətinin 1923-cü ildən yaranmasının tarixini çox yaxşı bilirəm. 1923-cü ildə Dağlıq Qarabağa muxtariyyət verilməsi Azərbaycanın başına bir bəla olub, bilin. Düzdür, o vaxtlar buranı Ermənistana vermək istəyirdilər. Azərbaycanın rəhbərləri çalışıblar və nəhayət, nail olublar ki, o, Azərbaycanda qalsın. Qalmalı idi, amma muxtariyyət yox!

1923-cü ildə verilən o muxtariyyət Azərbaycanın içinə qoyulmuş bir bombadır, nə vaxtsa partlamalı idi. Sovet hakimiyyəti vaxtı bu, dəfələrlə qaldırılıbdır. Mənim xatirimdədir, – hələ burada başçı deyildim, dövlət Təhlükəsizliyi Komitəsində idim, Vəli Axundov burada başçılıq edirdi,– bu məsələni iki dəfə qaldırmışdılar. Mən bu işlərdə iştirak edirdim, biz bunun qarşısını böyük çətinliklə aldıq. Çünki ildə bir dəfə, yaxud da, nə bilim, iki dəfə Ermənistanın 100-150 ən görkəmli adamları, dünyada, Moskvada yaşayan adamları yazırdılar ki, "Dağlıq Qarabağı Ermənistana vermək lazımdır".

Yadımdadır, 1966-cı, ya 67-ci ildə idi, Moskvadan bir qərar gəldi. O vaxt Axundov məni çağırdı. SOV.İKP MK-nın qərarı idi, yazmışdılar ki, "Azərbaycan KP MK-ya – Axundova, Ermənistan KP MK-ya – Koçinyana tapşırılsın ki, bu məsələni müzakirə edib məruzə etsinlər". Bu, nə deməkdir? Deməli, Azərbaycanın məsələsini həll etməyi Ermənistana tapşırırlar. Elə bununla da onu həll edirdilər, – yəni "siz gedin, onlarla bu məsələni həll edin". O deyəcək ki, mənim olmalıdır, biz də deyəcəyik ki, yox.

Oturduq, məsləhətləşdik. Mən ona dedim ki, bilirsiniz, siz Moskvaya getməli və Brejnevlə görüşməlisiniz. Getdi və Brejnevi başa saldı. Brejnev anladı və özü o qərarı ləğv elədi. Bu, 67-ci ildə olan hadisədir.

67-ci ildə Stepanakertdə, – indi biz ona Xankəndi deyirik, – üç nəfər azərbaycanlını maşının içində, şəhərin ortasında avtomobili yıxıb üstünə benzin tökərək yandırdılar. Mən onda "KQB"-nin sədri kimi oraya getmişdim, Nazirlər Sovetinin sədri Əlixanov da qrupa başçılıq edirdi. Mən 15 gün orada qalmışam, o vəziyyəti görmüşəm. Başa düşürsünüzmü? Amma nə oldu? Heç bir şey etmək mümkün olmadı. Dağlıq Qarabağ həmişə Azərbaycanda xüsusi bir statusa malik idi və həmişə də Ermənistana daha çox tabe idi, nəinki Azərbaycana.

Mən işlədiyim zaman bir çox tədbirlərin nəticəsində bu vəziyyəti dəyişdirdim. Məsələn, mən oraya dəmir yolu çəkdirdim. Sonra, mən burada olmayanda, bəzi adamlar məni günahlandırırdılar ki, Heydər Əliyev niyə dəmir yolu çəkdirdi. Dəmir yolu Ağdama qədər gəlmişdi, oradan da 11 kilometr dəmir yolunu çəkmirdilər. Bu, nə demək idi? Demək, onların əlinə əsas vermək lazım idi. Bir neçə fabrik tikmişdik. Dedilər ki, institut açaq, açdıq, amma o şərtlə açdım ki, orada erməni, rus fakültələri ilə bərabər, Azərbaycan fakültəsi də olsun.

Bu şeylərlə mən onların Azərbaycana bağlılığını müəyyən qədər təmin edirdim və mənim də orada təsirim çox böyük idi. Ancaq mən Azərbaycandan gedəndən sonra, təəssüf ki, 88-ci ildə olan hadisələrdən sonra xırda-xırda başladılar. Dağlıq Qarabağa nəzarəti azaltdılar və onlar da bunu etdilər.

**Anar:** Cənab Prezident, Siz dediniz, mənim də yadımdadır. Siz birinci katib seçiləndən sonra Dağlıq Qarabağ haqqında qərar oldu. Sovet dövründə Dağlıq Qarabağda erməni millətçiliyi haqqında heç vaxt bu kəskinlikdə qərar olmamışdı.

**Heydər Əliyev:** Tamamilə düzdür. Amma sizə onu da deyim ki, bu, bizim üçün asan deyildi. Çünki Moskva burada daim erməniləri müdafiə edirdi. Daim. Məsələn, sizə bir şey deyim. Naxçıvan muxtar respublika idi, orada Vilayət Partiya Komitəsi vardı. Naxçıvanda heç bir faiz rus yox idi, amma Naxçıvanda həmişə ikinci katib rus olubdur.

**Yerdən:** Radayev.

**Heydər Əliyev:** Radayev sonranın işidir. Mən 40-cı illəri deyirəm, 50-ci, 60-cı illəri deyirəm. Amma Dağlıq Qarabağda yox, hamısı erməni idi. Başa düşürsünüzmü?

**Anar:** Ancaq İcraiyyə Komitəsinin bir müavini azərbaycanlı idi.

**Heydər Əliyev:** Qulaq as. Mən ilk dəfə Dağlıq Qarabağda ikinci katibi rus seçirdim ki, heç olmasa bir az fəaliyyət göstərsin. Belə idi ki, bu, Naxçıvanda qanuni bir şeydir, amma burada yox, ola bilməzdi. Bax, Moskvanın münasibəti belə idi.

Məsələn, götürək təhlükəsizlik orqanlarını. Dağlıq Qarabağda dövlət təhlükəsizliyi idarəsinin başçısı həmişə erməni idi. Amma Naxçıvanda? Mən Naxçıvanda erməni də görmüşəm, rus da görmüşəm, yəhudi də görmüşəm, azərbaycanlını isə çox nadir. Mən isə hələ Mərkəzi Komitəyə keçməmiş, "KQB" sədri olan kimi oradan ermənini götürdüm və bir rus təyin elədim. Bildim ki, azərbaycanlı təyin etmək mümkün deyildir, rus təyin elədim. Vilayət Soveti sədrinin birinci müavinini azərbaycanlı təyin elədim.

Amma mən sizə nə deyə bilərəm? Azərbaycanlıları oraya işləməyə göndərirdim, altı aydan sonra gəlib deyirdilər ki, bizi geri çağır, çətindir. Dözmürdülər. Ermənilər hər şeyə dözürdülər, amma onlar dözmürdülər.

Başa düşürsünüzmü, ona görə də Dağlıq Qarabağ sadə bir yer deyildir. Burada Moskva erməniləri daim müdafiə edirdi. Mən sizə bir fakt deyim, bunu heç vaxt yadımdan çıxara bilmirəm. Mərkəzi Komitədən sektor müdiri mənə telefon etmişdi ki, bilirsiniz, Daşkəsən filiz kombinatının baş mühəndisi ermənidir, onu işdən çıxarıblar. Deyirəm nə olsun ki, oranın baş mühəndisi ermənidir, işdən çıxarıblar. Erməni olduğuna görə işdən çıxarmayıblar ki. Bir də ki, bizim nomenklaturamız deyil ki. Deyirəm ki, bunu sən haradan bildin? Deyir ki, universitetin bir-iki erməni professoru gəlib mənim yanıma, etiraz edirlər. Başa düşürsünüzmü?

Məni yenicə birinci katib seçmişdilər – bir, yaxud iki ay idi. Ermənilər həmin Daşkəsəndə, Bayan kəndində bir daşnak abidəsi qoymuşdular.

**Bəxtiyar Vahabzadə**: Yadımdadır, katibi də çıxardılar.

**Heydər Əliyev**: Oranın da birinci katibi gecə gəlib onu uçurub dağıtmışdı. Mən də cəmisi iki ay idi işləyirdim. Əşi, bizim başımıza nə gətirmədilər? Mən o katibi işdən çıxardım, qərar qəbul elədik.

Bilirsiniz, mən bu dərdlərin hamısını çəkmişəm. Bilirəm, hamısını bilirəm. 88-ci ildə də bir tərəfdən Azərbaycanın rəhbərləri, nə təhər deyərlər, səriştəsizlik göstərdilər, ikinci tərəfdən də ki, Moskva bunun qarşısını ala bilərdi. İndi ilə o vaxt arasında fərq var. O vaxt sovet hökuməti idi, özü də onun güclü dövlət strukturu vardı, onu dəyişmək mümkün deyildi. Bir faktı da sizə deyim. 77-ci ildə SSRİ-nin yeni Konstitusiyası qəbul olunurdu. Konstitusiya komissiyası təyin olunmuşdu, sədri Brejnev idi, biz də onun üzvü idik, mən də Azərbaycanın nümayəndəsi idim.

Vaxtaşırı komissiyanın müzakirələri keçirdi. Bunları da o vaxt mərkəzi komitənin katibi vardı – akademik Ponomaryov – o aparırdı. Brejnev o qədər iştirak eləmirdi. Bir dəfə Moskvaya, komissiyanın iclasına gəldim. Gördüm, xeyli ərizə gəlib ki, "Dağlıq Qarabağı Azərbaycanın tərkibindən çıxarıb Ermənistana vermək lazımdır". Gördüm ki, Pono-

maryov deyir bunu komissiyanın müzakirəsinə qoymaq lazımdır – ermənilər ona da təsir göstərirdilər. Elə bu faktın özü ki, komissiyanın müzakirəsinə buraxılsın, başa düşürsünüzmü, bu nə deməkdir?

Hələ komissiyanın iclasından bir gün qabaq mən buna nə qədər etiraz elədim, gördüm yox... yenə də getdim rəhmətlik Brejnevin yanına. Ona dedim ki, bu nədir, belə şey ola bilməz! O, telefonu götürüb Ponomaryova zəng elədi ki, çıxar onu.

Nə qədər belə hallar, belə şeylər olubdur. Başa düşürsünüzmü? Mən Dağlıq Qarabağın vəziyyətini 50-ci illərdən özüm görürəm. Amma o vaxta qədər, 23-cü ildən 50-ci ilə kimi olan tarixi də mən yaxşı bilirəm. 14 il burada rəhbərlik edib, 5 il də Moskvada olduğum zaman bunların hamısını bilirəm. Bu, asan məsələ deyildir. Onları həmişə müdafiə ediblər – həm Rusiya, həm Avropa, həm Amerika. Başa düşürsünüzmü? Amma bizi kimdir müdafiə edən?

Türkiyədə Ermənistanla sərhədlər bizə görə bağlıdır. Amma bizim dostumuz Süleyman Dəmirəl mənə keçən il də danışmışdı, bu il də danışdı. Qarsın bələdiyyəsi, – deyir, orada da əsasən azərilərdir, – təklif verib ki, yol açılmalıdır ki, biz ticarət eləyək. Lap bu dəfə mənə danışıb, – deyir getdim oraya, onları yığıb dedim ki, ay balam, siz azərilərsiniz. Orada bir milyon azərini yerlərindən çıxarıblar. Biz bunu edə bilmərik, siz niyə belə edirsiniz?

Bəli, orada yerli bələdiyyə ticarət naminə birinci dəfə deyil ki, bu məsələni qaldırır. Amma təkcə bələdiyyə deyil, başqaları da qaldırırlar. Orada hökumət – şübhəsiz ki, prezident də, baş nazir də, başqaları da çox prinsipial mövqe tuturlar. İndiyə qədər onların Ermənistanla diplomatik əlaqələri yoxdur və indiyə qədər də sərhədləri açmayıblar.

Bir budur, bundan artıq başqa bir şey yoxdur. Çox ağır bir problemdir. Deyirlər ki, gəlin müharibə edək. Burada soruşursunuz ki, bizim ordumuz necədir? Mən sizə deyirəm, ordumuz var və müharibə etməyə qadir ordumuz var. İndi danışırlar ki, orduda yeyinti də var, filan da var. Mən komissiya təşkil eləmişəm, yoxlayırlar, hələ nəticəsini almamışam. Güman edirəm ki, bunlar da var. Təəssüf ki, bizim bugünkü reallığımız bundan ibarətdir. Çox təəssüf ki, bunlar da var.

Sən deyirsən ki, burada evlər, nə bilim, binalar tikiblər, filan ediblər, feşməkan ediblər. Görürəm, buna görə ürəyin ağrıyır ki, qaçqınlar çadırda yaşayır, bunlar evlər tikiblər.

Siz hamınız yaxşı bilirsiniz ki, mən hələ sovet vaxtı, 70-ci illərdə vəzifəli şəxslərin bağ evləri tikməsini qadağan etmişdim, yadınızdadır? Niyə

qadağan etmişdim? Başqa respublikalarda hər yerdə tikirdilər. Çünki vəzifəli şəxsin o cür bağ evi tikməyə qanuni vəsaiti yoxdur. Demək, əgər bunu tikirsə, haradansa qanunsuz istifadə eləyir. Ona görə də mən bunları qadağan etmişdim. Vəzifəli şəxslərə şəxsi avtomobil almağı qadağan etmişdim. Bir neçə zavod direktorunu, MK-nın işçilərini buna görə işdən çıxardım, cəzalandırdım.

Mənim bu ciddi tədbirlərim nəyə yönəlmişdi? Azərbaycanda qanun-qayda yaratmağa, rüşvətxorluq, vəzifədən sui-istifadə və korrupsiya ilə mübarizəyə. Bunu Sovetlər İttifaqında qaldıran mənəm. Mən Moskvaya, Siyasi Büroya gələndən bir-iki ay sonra iclasların birində dedim ki, bilirsiniz, mən Azərbaycanda bağ evlərini və s. qadağan eləmişəm, amma burada görürəm ki, bəzi nazirlərin, hətta Siyasi Büro üzvlərinin ailələri Moskva ətrafında bağ evləri tikirlər. Gəlin bu barədə fikir mübadiləsi aparaq. Biri oradan düşdü mənim üstümə, biri buradan. Sabahısı gün girdim Andropovun yanına, – o da belə fikirdə olan adam idi, mən sizə deyim, ona görə belə cəsarətlə dedim ki, bilirdim, o, belə fikirdə olan adamdır. Bizim buradakı tədbirlərimizi həmişə dəstəkləyirdi, – dedi görürsünüzmü, neçə nəfər adam Sizin əleyhinizə çıxdı? Biz bunları niyə öz əleyhimizə qaldıraq?

Amma mən burada heç nədən qorxmurdum. Sonra nə oldu? Mən istefa verəndən sonra, əziz Qabil dostum, burada mənim əleyhimə cürbəcür yalanlar, iftiralar başlandı. Gördüm ki, "Kommunist" qəzetində, – Moskvada bu qəzetləri biz də alırdıq, bir böyük səhifə yazı çıxıb: "Qadağalar".

**Bəxtiyar Vahabzadə**: Əfəndiyev...

**Heydər Əliyev:** Yox, yox, Vaqif Əfəndiyev sonranın işidir. Bir böyük səhifə – "Qadağalar". Onu yazan da indi Kommunist Partiyasının başçılarından biridir, o vaxt "Kommunist" qəzetinin redaktoru idi – Ramiz Əhmədov.

**Qabil**: Sonra "Əliyevşina" da getdi.

**Heydər Əliyev:** "Əliyevşina" sonra, yanvar hadisələrindən sonra getdi. Bu, 89-cu ildə getdi, başa düşürsünüzmü. Yəhudilər, ermənilər "Literaturnaya qazeta"da mənim əleyhimə bir məqalə dərc elədilər. Azərbaycanda onu yayırdılar. Nəyə görə? Çünki mən rüşvətxorluqla, korrupsiya ilə mübarizə aparırdım, vəzifəsindən sui-istifadə eləyənlərlə mübarizə aparırdım. Mən bunları aparırdım və bunların da qurbanı oldum. Burada qəzetlərdə, filanda mənim əleyhimə nə qədər çıxışlar oldu.

Amma "Əliyevşina"nı Vəzirov düzəltmişdi, Qorbaçovla birlikdə. 90-cı ildə yanvar hadisələri zamanı,– bunu dəfələrlə demişəm, bilirsiniz, özü də xəstə idim, "Barvixa" sanatoriyasında idim, axşam eşitdim ki, Bakıda bu hadisələr olub, səhərisi gün gəldim evə. Daimi nümayəndəliklə əlaqə saxladım, gedəndən də əlaqəm yox idi. Çünki orada da Vəzirovun adamları işləyirdilər, onlar məni heç yaxın qoymurdular. O binanı mən tikmişəm, orada səfirliyi mən yaratmışam. Amma məni oraya yaxın qoymurdular. Qoymurdular, mən də getmirdim.

Amma onda getdim. Beş-altı min adam yığışmışdı. Orada kəskin çıxış elədim – Qorbaçovun əleyhinə, bütün bu təcavüzün əleyhinə. Ondan iki-üç gün sonra məni həbs etmək istədilər.

Yanvarın 21-də bu oldu, 4 fevralda "Əliyevşina" məqaləsi çıxdı. O məqaləni də Əbdürrəhman Vəzirov və onun buradakı yaxın adamları Qorbaçovun göstərişi ilə hazırlamışdılar. Götürün, baxın, – Qorbaçovun köməkçisi var, Çernyayev, o öz gündəliyini nəşr etdiribdir, – kitab elə mənim stolumun üstündədir. Birinci səhifələrindədir, götürün baxın ona. Qorbaçovun ən yaxın adamlarındandır, bu gün də Qorbaçovun yanındadır.

Yazır: Filan gün. Biz səhər Şahnazarovla bərabər getdik Qorbaçovun iş otağına. Qorbaçov Şahnazarovu qucaqlayıb öpdü və 64 yaşı münasibətilə onu təbrik etdi. Sonra Dağlıq Qarabağ məsələsi barəsində söhbət getdi. Dedik, bəs nə olacaq? Qorbaçov da dedi ki, tədbirlər görürəm, Azərbaycan belə eləyir, Ermənistan elə eləyir. Sonra soruşduq ki, bəs Əliyev? Burada yazılıbdır. Qorbaçov deyir ki, "eşib axtarırıq, çox güclü şəkildə axtarırıq və Əliyev barəsində elə material çıxaracağıq ki, Rəşidov haqqındakından daha pis olacaqdır".

Başa düşürsünüzmü, bu, 88-ci ildə olan məsələdir. Məni orada da didirdilər, burada da mənim, nə təhər deyərlər, çörək verdiyim adamlar məni didirdilər. Nəyə görə? Həmin bu şeylərə görə – bu cür cinayətkarlarla, vəzifəsindən sui-istifadə edənlərlə mübarizə apardığıma görə.

Qabil müəllim, ona görə mən bu gün də bu şeylərin əleyhinəyəm. Ancaq mən bu gün yenidən belə bir qanun qəbul eləyə bilmərəm. Onda dünya qalxacaq mənim əleyhimə. Çünki sahibkarlar var, iş adamları var. Burada sahibkarlara şərait yaradılmalıdır, şəxsi biznes olmalıdır. Biz qanun çıxarmışıq ki, kim haradasa, nə iş görürsə, nə qədər pul xərcləyirsə, onun mənbəyini soruşmağa ixtiyarımız yoxdur. Çünki bazar iqtisadiyyatı yaratmalıyıq.

Amma mən daxilən hesab edirəm ki, lap sənin pulun da varsa, Azərbaycanın belə bir vəziyyətində sən özünə o cür saraylar tikməməli-

sən. Mən bu fikirdəyəm. Amma nə edim ki, o vaxt buna görə, bu mövqeyimə görə cəzalandırıldım, indi də əlim-qolum bağlıdır, çünki bazar iqtisadiyyatına gedirəm. Amma mən sənin fikrinlə tamamilə razıyam.

İndi ona gəlirəm ki, siz deyirsiniz müharibə edək, yaxud da ki, deyirlər müharibə edək. Mən də demişəm, bəli, əgər olmasa, müharibə edəcəyik. Ordumuz var, özümüzü qorumağa, müharibə etməyə qadir ordumuz var. Amma yenə də deyirəm, onun içində yaramaz işlər də var, yeyinti və s. də var. Bu, indi Azərbaycanda hər yerdə var, təkcə Azərbaycanda yox, başqa yerlərin hamısında var. Bununla bərabər, ordumuz var.

Ancaq indi kim müharibəni dəstəkləyəcəkdir? Kim? Heç kəs. Yuqoslaviya kimi böyük bir dövlət Kosovodakı albanları etnik təmizləməyə başladı. Nə qədər onunla danışıqlar apardılar. İki-üç ay NATO gah Parisdə, Rambuyedə, gah nə bilim, harada, harada danışıqlar apardı. O, bu fikrindən əl çəkmədi. Nə elədilər? NATO yığışdı, neçə milyardlar xərcləndi, Konqresdən pul götürüldü. Yuqoslaviyanı bombardman elədilər, dağıtdılar.

Orada müsəlmanları müdafiə etməkdən söhbət getmirdi, onu bilin. Yox, heç ruslara qarşı da deyildi. Orada prinsip var – insan haqlarının pozulması, etnik təmizləmə. Bu dəqiqə Amerika bu prinsipin həyata keçirilməsini birinci növbəli məsələ hesab edir. İstanbulda qəbul ediləcək bəyannamədə bu, çox geniş yer tapıbdır.

İndi mən sizdən soruşuram. Gərək müharibə eləyək, qan tökək, insanlar qırılsın. Ağdamı azad elədik, Füzulini azad elədik, getdik Cəbrayılı azad elədik, ondan sonra Zəngilanı azad elədik, Kəlbəcəri azad elədik. Buna hələ nə qədər qanlar töküləcək, nə qədər vəsait gedəcək, nə olacaq, – bunu Allah bilir. Onların da ordusu var, bizimkindən az deyildir. Keçən müharibə onların da gücünü, bizim də gücümüzü göstərdi.

Amma edə bilərik. Gəldik durduq Dağlıq Qarabağın sərhəddində. Nə edəcəyik? Gedib erməniləri qıracağıq? Bütün dünya düşər bizim üzərimizə. Serblər, Miloşeviç albanları oradan çıxaran zaman onun başına nə iş gətirdilər? Müsəlmanın dalında heç duran yoxdur, başa düşürsənmi? Yenə də deyirəm, albanların müsəlman kimi dalında durmayıblar. Albanlara da dünyada sən deyən elə bir dəstək verən adam yoxdur. Amma erməniləri bütün dünya dəstəkləyir.

**Bəxtiyar Vahabzadə**: Üzr istəyirəm. O vaxt azərbaycanlıları oradan köçürəndə mən də Qarabağa getmişdim. Ermənilər azərbaycanlıları oradan döyə-döyə çıxarırdılar.

**Heydər Əliyev:** Amma bir adam bir şey eləmədi, bir şey demədi. Bəli, Ermənistan faktiki olaraq Dağlıq Qarabağda etnik təmizləmə aparıbdır.

**Anar:** Ermənistanda da aparıbdır.

**Heydər Əliyev:** Ermənistanda aparıbdır. Dağlıq Qarabağın ətrafında olan təmiz azərbaycanlı rayonlarında da etnik təmizləmə aparıbdır. Amma buna görə bir adam onları qınamır, bir dövlət qınamır. Türkiyədən və İrandan savayı, dünyada bir dövlət Ermənistanı təcavüzkar dövlət kimi tanımayıbdır. Başa düşürsünüz, ya yox?

**Anar:** Heç İran da tanımayıbdır, həm də ticarət edir, əlaqələri var.

**Heydər Əliyev:** İran tanıyır, İslam Konfransı Təşkilatı da tanıyır. İslam Konfransı Təşkilatı yeganə yerdir ki, biz orada Ermənistanın Azərbaycana təcavüzü haqqında qətnamələr çıxarırıq. Amma o qətnamələr də orada qalır.

Reallıq bundan ibarətdir, əzizlərim, bundan ibarətdir. Siz bunu düşünün. Dünyanın reallığını düşünün. Bu reallığı çoxları bilmir, amma mən bunu bilirəm. Bu reallıqla hesablaşmaq lazımdır, başa düşürsünüzmü?

Nə mümkündürsə dedim və hesab edirəm ki, bilmədiyiniz şeyləri də sizə dedim.

**Bəxtiyar Vahabzadə**: Bayaq bir söz dediniz, dediyinizdə də həqiqət var. Amma məsələ ondadır ki, biz o məktubu, səhv eləmirəmsə, saat 12-də göndərmişdik.

**Anar:** Biz konkret olaraq heç bir qəzetə göndərməmişik. “Turan” agentliyi həm iqtidar qəzetlərinə, həm də müxalifət qəzetlərinə paylayıbdır.

**Bəxtiyar Vahabzadə:** Anar müəllim, hələ bundan başqa mən zəng elədim rəsmi dövlət qəzetlərinə. Amma mənə etiraz elədilər ki, bizə gərək deyələr ki, çap eləyək. Amma bizim birinci müraciətimiz “Xalq qəzeti”nə olubdur. Özü də mən eləmişəm. Biz qətiyyən o biri qəzetlərə verməmişik, bilmirəm nə təhər olubdur.

**Anar:** “Turan” agentliyi paylayıbdır.

**Heydər Əliyev:** Eybi yoxdur, bu, əhəmiyyətsiz bir şeydir. Mən sadəcə olaraq bunu dedim. Bu, mənim üçün o qədər əhəmiyyətli deyil, qətiyyən əhəmiyyətli deyildir. Bu da sizi narahat eləməsin. Onsuz da qəzetdə olsa da, olmasa da, mən sizi dəvət edəcəkdim.

Ümumiyyətlə, mənim indi vaxtım yoxdur. Təkcə sizinlə yox, daha geniş ziyalı qrupları ilə görüşəcək, danışacağam. Yenə də deyirəm, aparılan danışıqlar gizli gedir. Əgər gizli olmasa, bu danışıqlar aparıla bilməz.

Ancaq nə vaxt ki, hansı bir nəticə əldə olunacaq, o nəticə mütləq sizə təqdim ediləcəkdir. Xalq bunu qəbul etsə, o, həyata keçiriləcəkdir. Qəbul etməsə, həyata keçirilməyəcəkdir.

Müharibə haqqında demək istəyirəm ki, bəli, müharibə aparmağa bizim gücümüz var. Amma dünyanın bugünkü reallığı onu göstərir ki, biz məsələni sülh yolu ilə həll etməliyik.

**Anar:** Bu görüş üçün və çox ətraflı məlumat verdiyiniz üçün Sizə təşəkkür etmək istəyirəm. Sizin dediklərinizin bir qismini bilirdik, çünki televiziyanı izləyir, qəzetləri oxuyuruq. Bu işdə Sizin nə qədər böyük çətinliklərlə rastlaşdığınızı bilirik. Mənim də şəkər xəstəliyim var, xüsusilə son günlər Rusiya televiziyasındakı verilişlərə baxanda o xəstəlik bir az da artır. Amma Sizi görəndə, elə bil ürəyimdən tikan çıxdı – necə lazımdısa, hamısını dediniz. Çünki doğrudan da axı, məntiq var. Azərbaycan Çeçenistanla həmsərhəd ölkə deyildir. Dağıstan Rusiyanın ərazisidir. Əgər sən Dağıstanda öz ərazinə nəzarət edə bilmirsənsə, bunu bizdən niyə tələb edirsən? Aydındır ki, bunlar nə oyunlardır, nə üçün edilir. Biz bunların hamısını başa düşürük. Ona görə Sizin vəziyyətinizi də başa düşürük.

Amma tale belədir. Sizin taleyiniz bu cür gətirib, Siz bu çətin missiyanı xalq üçün boynunuza götürmüsünüz, gərək axıra qədər çatdırasınız və bizi bu bəladan qurtarasınız. Mən əminəm ki, bu, belə də olacaqdır.

Bir məsələni Sizin nəzərinizə çatdırmaq istəyirəm. Biz Qarabağ problemindən danışanda ərazi bütövlüyümüzdən danışırıq. Bu, beynəlxalq hüququn qəbul elədiyi bir maddədir. Amma ikinci maddə də insan haqlarının qorunmasıdır. 200 min azərbaycanlı Ermənistandan qovulub, nə qədər də adam Dağlıq Qarabağdan.

**Heydər Əliyev:** İndi Ermənistan adlanan torpaqdan əsrin əvvəlindən azərbaycanlılar axışıb Azərbaycana gəliblər. 18-ci ildə çoxları köçüb gəliblər, ondan qabaqkı dövrlərdə də gəliblər. 48-ci ildə 200 minə qədər azərbaycanlı deportasiya olunubdur. O vaxt Ermənistan məsələ qoydu ki, xaricdən ermənilər öz torpaqlarına qayıtmaq istəyirlər, – repatriasiya, yadınızdadır, – torpağımız yoxdur. Ona görə də qərar çıxdı və Azərbaycanın başçıları da, Mircəfər Bağırov da o qərara razılıq vermişdi. Amma təşəbbüskar Ermənistan tərəfi idi. Qərar çıxdı ki, bir çox rayonlardan azərbaycanlıları deportasiya etsinlər. Onun 50 illiyi ilə əlaqədar mənim fərmanım var, siz onu oxumusunuz. Bəli, azərbaycanlıları gətirdilər, özü də necə – yük vaqonlarında gətirib tökdülər Mil, Muğan düzünə, susuz yerlərə. Adamların çoxu qırıldı. Xocalı soyqırımı. Yaxud da Dağlıq Qarabağdan azərbaycanlılar çıxarılıb, onların haqları pozu-

lubdur. Dağlıq Qarabağın ətrafında olan yerlər işğal edilib, oradan Azərbaycanlılar zorla çıxarılıb, onların haqları pozulubdur.

Elə bunlar özü tamamilə kifayətdir sübut eləyək ki, insan haqları pozulubdur. Amma təəssüf ki, insan haqları cəmiyyətlərində də hər şey subyektivdir. Mən bunu sizə açıq deyirəm.

**Bəxtiyar Vahabzadə:** Heydər müəllim, bir məsələ məni çox narahat edir. Qəzetləri oxuyuram, hamımızın vətənidir, hamımız bu barədə düşünürük. Birləşmiş Millətlər Təşkilatının dörd qətnaməsi olubdur: Şuşa haqqında, Kəlbəcər haqqında... ermənilər qeyd-şərtsiz oradan çıxmalıdırlar. Bunları niyə saya salan yoxdur?

**Heydər Əliyev:** Bunu neçə dəfə demək olar? Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində mən bunu demişəm, ATƏT-in bütün iclaslarında demişəm, hər yerdə demişəm. Ermənistan yerinə yetirmir. Bizə də deyirlər ki, Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnaməni icra etmək mexanizmi yoxdur.

**Bəxtiyar Vahabzadə:** Mənim yadımdadır, Siz bir dəfə Amerikada dediniz ki, bu qətnamələr var, nəyə görə yerinə yetirilmir? Kofi Annandan əvvəlki baş katib idi, dedi ki, biz qətnamə qəbul edirik, amma yerinə yetirmək mexanizmi bizdə deyildir. Bu, mənim yadımdadır.

**Heydər Əliyev**: Bəli, sən mənimlə getmişdin, orada çıxışımda bunları dedim. Allaha şükür ki, sən bunu özün eşitdin. Bu, 94-cü ildə idi. Mən ilk dəfə Birləşmiş Millətlər Təşkilatının Baş məclisinə getdim, orada çıxış etdim. Sən də zalda oturmuşdun.

**Bəxtiyar Vahabzadə:** Zalda deyildi, balaca otaqda idi. Məni də çağırdınız.

**Heydər Əliyev:** Mən çıxışımı deyirəm. Amma balaca otaqda ki, onunla danışırdım, sən də orada iştirak edirdin.

**Bəxtiyar Vahabzadə:** Həsən Həsənov idi, mən idim, bir də o kişi idi.

**Heydər Əliyev:** Butros Qali. Sonra buraya da gəldi.

**Bəxtiyar Vahabzadə**: Adam təəccüb edir, elə bil bu qərarları heç bunlar verməyiblər.

**Heydər Əliyev:** Bəxtiyar müəllim, dünya belədir. Bu dünyanın reallığını bilməyən adamlar çox səhvlər edirlər.

**Bəxtiyar Vahabzadə:** Bilirsiniz, bizə müraciət edirlər...

**Heydər Əliyev:** Mənim məsləhətim belə ola bilər. Deyirlər ki, danışıqlar aparır, biz bilmirik. Siz izah edin ki, heç bir ölkə gizli danışıqlar aparanda heç kim bilmir. Fələstinlə İsrail arasında ilk dəfə müqavilə

imzalananda Norveçdə – Osloda danışıqlar elə getmişdi ki, heç onların orada görüşdüklərini də bilməmişdilər. Nəticəyə gələndən sonra elan etdilər. Bundan sonra hamı bildi ki, onlar Norveçdə baş nazirin vasitəçiliyi ilə görüşüblər.

Mən Koçaryanla görüşürəm, iki saat, bəzən üç saat danışırıq, mübahisə edirik. Gəlib deyim ki, mən nə dedim, o nə dedi?

**Qabil:** Heydər müəllim, ümidimiz sülhə qalıbdır. Sülhün bayrağına, Sizin yüksək səviyyəli diplomatik səylərinizə, danışıqlarınıza qalıbdır. Camaat buna inanır.

**Heydər Əliyev:** Elə ona görə də mən özümü fəda edirəm ki, bəli, bilirəm, Azərbaycan xalqını bu bəladan, faciədən qurtarmaq lazımdır. Azərbaycanın böyük iqtisadi potensialı, böyük təbii sərvətləri var. Azərbaycan güclü dövlət ola bilər, Azərbaycan iqtisadi cəhətdən inkişaf etmiş dövlət ola bilər və olacaqdır. Bunun üçün də – başqa tədbirlər ki, görürük, müqavilələr imzalamışıq, islahatlar aparırıq və s. – bunlarla yanaşı, sülh olması lazımdır. Lazımdır ki, Ermənistanla Azərbaycan arasında münaqişə qurtarsın. Ondan sonra, mən sizə deyim ki, Azərbaycan nəinki bölgədə, bəlkə də böyük bir regionda ən inkişaf etmiş dövlət olacaqdır. Çünki bizim böyük imkanlarımız var, bizim coğrafi vəziyyətimiz çox əlverişlidir.

Məsələn, Bakı–Ceyhanın nə qədər xeyri olacaqdır. Yaxud, elə Türkmənistan qazının buradan gəlib keçməsi ilə biz ondan tariflər alacağıq. Amma özümüzün də nə qədər imkanlarımız var. Biz özümüz təsəvvür edə bilmirdik ki, bu qədər qaz yatağımız var. Mən bir dəfə sizə danışmışam. "Şahdəniz" yatağı haqqında müqaviləni imzalayanda, – bu, sayca üçüncü müqaviləmiz idi, yaxşı yadımdadır, 96-cı ilin iyun ayı idi, Rəsul Quliyev, – hansı ki, indi üç ildən artıqdır oturub Nyu–Yorkda, Azərbaycana qarşı cürbəcür təxribat, çirkin, həddindən artıq ədəbsiz işlər görür. Həddindən artıq. Mən ədəbsiz insanlar görmüşəm, amma sizə deyim ki, bu qədər ədəbsiz insan tariximdə görməmişəm, – bunun imzalanmasına etiraz elədi. Dedim ki, sən necə etiraz edirsən, – birincisi, müqavilə hazırdır, ikincisi, sən neft şirkətini əlinin altında saxlayırsan. Bu günə kimi müqavilə hazırlanıb, sən də bunun şərtlərini bilirsən. Bilirsən ki, bu nədir. İndi bunun imzalanmasına bir həftə qalıb, sən bunu pozmaq istəyirsən. Nə cür ola bilər? Dedi yox, o yan, bu yan.

Bunu bir dəfə danışmışam. Neft şirkətinin bütün rəhbərlərini, mütəxəssisləri, Rəsul Quliyevi, Nazirlər Kabinetinin rəhbərlərini – Fuad Quliyevi və birinci müavin Rasizadəni burada zala yığdım. Dedim ki, de

sözlərini. Başdan-ayağa cəfəngiyat danışdı. Onun ən yaxın dostları – Natiq Əliyev, Xoşbəxt Yusifzadə, o biri müavinlər, Zeynalov var, gərək ki, Bəxtiyar müəllimin qohumudur, – hamısı durdular onun üzünə ki, sənin dediyin bu sözlər əsassızdır.

Məqsədi nə idi? Məqsədi Azərbaycanı dağıtmaq idi. Bilirdi ki, artıq birinci müqavilə nə gətirəcəkdir. Bilirdi ki, bu müqavilələr belə getsə, bunlar Azərbaycana nə gətirəcəkdir. Amma o istəyirdi ki, Azərbaycan üçün pis olsun və beləliklə də istədiyinə nail olsun. Düzdür, mən o vaxt onu o qədər də anlaya bilmirdim ki, o, bu cür fikirli adamdır. Mən bunu anlaya bilmirdim. Amma sonra hər şey mənə aydın oldu.

Biz müqaviləni imzalayanda geoloqlarımız proqnoz vermişdilər ki, həmin yataqda – "Şahdəniz" yatağında 400 milyard kubmetr qaz olacaq, amma indi deyirlər ki, 1 trilyondan artıq olacaqdır. Başqa bir yataq da var, deyirlər oranın ehtiyatı 3 trilyon olacaqdır. Ona görə də biz indi narahatıq – bu qədər qazı olan ölkə gərək bunu satsın. Nefti satmaq belədir ki, onu dəmir yolu ilə də, başqa yolla da aparıb satmaq olar. Amma qazı satmaq üçün mütləq boru kəməri lazımdır. Biz bu işlərlə məşğuluq. Azərbaycan üçün dörd il, beş il, altı, yeddi il vaxt lazımdır. Bəlkə o vaxta qədər mən olmayım, ancaq mən Azərbaycanın gələcəyini təmin edirəm. Xalqımızın gələcəyini təmin edirəm. Mənim, sənin, onun övladlarının, nəvələrinin gələcəyini təmin edirəm.

Amma mənə o tərəfdən də mane olurlar, bu tərəfdən də. Bunu bilin, nə qədər cəhd eləsə də, heç kəs mənə maneə ola bilməz. Mən öz işimi görürəm və görəcəyəm. Mənim işim də Azərbaycan xalqına sədaqətlə xidmət etməkdir.

**Yerdən:** Çox sağ olun.

**Anar:** Cənab Prezident, bu, bizim qurultayın kitabıdır. Siz söz vermişdiniz ki, Yazıçılar Birliyinə təqdimatına gələcəksiniz.

**Heydər Əliyev**: Nə vaxt istəyirsinizsə, gəlim.

**Anar:** Biz həmişə istəyirik. Siz haçan desəniz.

**Heydər Əliyev:** Gəl belə edək, bu ay biz sammitlə məşğuluq. Dekabr ayının əvvəllərində mənə xəbər ver, gəlib iştirak edim. Çox böyük məmnuniyyətlə.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV MSTİSLAV ROSTROPOVİÇİ QƏBUL ETMİŞDİR

*Prezident sarayı*
*22 noyabr 1999-cu il*

Azərbaycan Prezidenti Heydər Əliyev dahi maestro, həmyerlimiz Mstislav Rostropoviçi qəbul etdi.

**Dövlətimizin başçısı və dahi musiqiçi bir-birini köhnə dostlar kimi səmimi salamladılar. Sonra Prezident Heydər Əliyev dedi:**

– Əzizim Slava, – biz Sizə bu cür müraciət etmək barədə razılığa gəlmişik, – şadam ki, Siz yenidən doğma torpaqda, Azərbaycandasınız. Bilirsiniz ki, biz Sizi burada qarşılamağa həmişə şadıq. Xoşdur ki, Siz sözünüzə əməl edirsiniz. Bu, ən başlıcasıdır.

Sözün düzü, Siz hər il Azərbaycana gəlmək və burada ustad dərsləri keçmək, başqa işlərlə məşğul olmaq niyyətində olduğunuzu bildirdikdə, şübhəsiz ki, mən bunu çox böyük məmnunluqla və böyük fərəhlə qarşılamışdım. Amma düşünürdüm ki, Siz bu qədər məşğul olduğunuz halda, bütün dünyanı əhatə edən iş cədvəliniz çox sıx olduğuna görə, – bir gün bir ölkədə, başqa gün ayrı ölkədə, üçüncü gün üçüncü ölkədə olursunuz, – bunlar qeyri-real haldır. Ancaq Siz sözünüzə əməl edən adamsınız. Sübut edirsiniz ki, Siz planlaşdırdığınızı yerinə yetirirsiniz. Mən buna çox şadam. Bu, bizim üçün, ictimaiyyətimiz üçün, – özü də təkcə musiqi ictimaiyyətimiz üçün yox, – böyük sevincdir, böyük hadisədir.

Siz bizim həmyerlimizsiniz, sizi Azərbaycanla çox şey bağlayır. Amma sizinlə Azərbaycan arasında qarşılıqlı münasibətlərdə böyük fasilə olmuşdu. Buna görə də çoxları bütün bu işi müəyyən dərəcədə unutmağa başlamışdı. Lakin burada Sizin yubileyinizi qeyd etmək üçün mənim dəvətimlə buraya gəldiyiniz vaxtdan bəri öz vətəninizlə, doğma torpağınızla münasibətlərinizdə yeni mərhələ başlandı. Şadam ki, bu mərhələ çox gözəl nəticələr verir və nəzərdə tutulmuş nə varsa, hamısı həyata keçir, yerinə yetirilir. Bu, olduqca xoşdur.

İndi bizim insanlar müxtəlif televiziya kanalları ilə gah bir, gah da digər ölkədə Sizin ifanızı görərkən deyirlər – bax, bizimkidir, bizimkidir! Yeri gəlmişkən, bu yaxınlarda Berlin divarının uçurulmasının on illiyi

qeyd edilərkən, – bu isə çox böyük hadisə idi və biz onu ancaq televiziya ilə müşahidə edə bildik, – orada çox böyük orkestrin Sizin rəhbərliyiniz altında çaldığını, Sizin özünüzün ifanızı gördükdə, açığını deyim, mən heyran qalır və fəxr edirdim ki, Slava yenə də böyük şöhrətə malikdir. Mən bütün bunları televiziya ilə gördükdə çox şad oldum.

Yaxşı ki, Siz bizə yenə də gəldiniz, biz üz-üzə oturub söhbət edə bilərik. Əlbəttə, Sizin nəinki söhbətinizi, həm də musiqinizi dinləyə bilərik. Mən sizi salamlayıram.

Maestro Mstislav Rostropoviç ölkəmizin rəhbərinə səmimi təşəkkür edərək dedi:

– Bilirsinizmi, sözümə nə üçün əməl edirəm? Ona görə ki, necə deyirlər, kişi, əsil kişi belə olmalıdır. Bax, buna görə.

**Heydər Əliyev:** Siz əsil kişisiniz. Bizim Azərbaycanda kişi sözü çox tutumlu sözdür. Bir var ki, "kişi" sözünü elə-belə deyəsən. Amma sözün əsil mənasında "kişi" o deməkdir ki, bu adam sözü bütöv adamdır, sözünün sahibidir, kişilərə xas hər cür ləyaqətə, keyfiyyətlərə malikdir, sözü ilə əməli birdir.

**Mstislav Rostropoviç**: Əlbəttə, deməliyəm ki, buraya bir həftəliyinə gəldiyimə hamı təəccüblənir. Mən buraya gəlmək üçün bir neçə konsertimi təxirə salmışam. Amma sözümə əməl edirəm.

Berlin divarının dağılması yubileyindən sonra çox çətin dövrüm oldu. Fransada – Lilldə iki konsert, Parisdə bir konsert verdim, bundan sonra İsraildə konsertlə çıxış etdim, oradan Monakoya yollandım, burada daha bir ordenlə təltif olundum. Lakin konsertlərdə çıxış edərkən düşünürdüm – Allaha şükürlər olsun ki, tezliklə Bakıya gedəcəyəm. Odur ki, bizim, Azərbaycan aviasiya şirkətinin təyyarəsinə minəndə bu, mənim üçün bayramdır.

Buraya gəlib köhnə dostlarımın hamısını gördüm, elə bu gün ustad dərsi keçdim. Sizdə çox istedadlı uşaqlar var, çox istedadlı. Yadınızdadırmı, o vaxt mən burada olarkən bir skripkaçı qız ifa etdi? Zənnimcə, o, Sizin köməyinizlə pul aldı ki, gedib Amerikada oxusun.

**Heydər Əliyev**: Bəli. Onun adı nə idi? Rakçeyeva.

**Mstislav Rostropoviç**: Sentyabrın 23-də mən Nyu–Yorkda yeni mövsümü açarkən, – orada böyük bayram idi, – mən onu tapdım. O, Culian məktəbində oxuyur və böyük uğurlar qazanır. Mən orada hamıya dedim ki, bu qızdan muğayat olun, mənim qarşımda hesabat verəcəksiniz.

Gördüyünüz kimi, hər şey yaxşıdır. Musiqi sarıdan sizdə burada hər şey olduqca yaxşıdır.

**Heydər Əliyev**: Şübhəsiz ki, Sizin dərsləriniz, ustad dərsləri, bəlkə də kimlərəsə göründüyü kimi, adi bir iş deyildir.

**Mstislav Rostropoviç**: Bu dərslər konsertlərdən çətindir.

**Heydər Əliyev**: Məhz Sizin ustad dərsləriniz çox görkəmli işdir. Ona görə də kim Sizin şagirdiniz olmaq və sizdən mümkün olan hər şeyi öyrənmək şərəfinə nail olursa, bu, onun üçün, şübhəsiz, böyük səadətdir. Sizinlə musiqidə təmasda olanlar üçün, – əlbəttə, istedadı varsa, Siz isə istedadsız adamları yaxın buraxmazsınız, – gələcəyə yol açılır.

Sizin proqramınızı bilirəm, yaxşı proqramdır. Əlbəttə, mən həmişə istəyirəm ki, Siz burada daha çox olasınız.

**Mstislav Rostropoviç**: Ayın 29-da Amsterdamda məşqim var. Buradan, Bakıdan Parisə, oradan isə dərhal Amsterdama gedəcəyəm.

**Heydər Əliyev**: Slava, bir sözlə, mən şadam.

Yeri gəlmişkən, biz Jak Şirakla İstanbulda görüşərkən hər ikimiz Sizi xatırladıq.

**Mstislav Rostropoviç**: Bəs o, buraya nə vaxt gələcəkdir?

**Heydər Əliyev:** O, gəlməyə hazırlaşırdı. Onun Ermənistana da, Gürcüstana da, Azərbaycana da səfəri nəzərdə tutulmuşdu. Lakin Ermənistanda Ter-Petrosyan istefaya getdikdən və indiki Prezident seçildikdən sonra o, mənə zəng vurub dedi: "Sözün düzü, mən artıq belə bir vəziyyətdə gələ bilmərəm. Əgər sizə gəlsəm və Ermənistana getsəm, bu, başa düşülməz. Bununla bərabər, indi Ermənistana səfərim sadəcə, alınmır". Buna görə də o, səfərini təxirə salmışdır. Bilirsinizmi, o, ideal insandır, alimdir. Onunla nə qədər çox ünsiyyətdə oluramsa, necə səmimi və açıq qəlbli insan olduğuna bir o qədər çox əmin oluram. Bundan əlavə, böyük təcrübəyə malik görkəmli dövlət xadimi, siyasi xadimdir. O, sadəcə olaraq səmimi, həm də sözü bütöv insandır. O, mənə zəng vurdu və bunu izah etdi. Mən başa düşdüm və hesab edirəm ki, onun səfəri üçün şərait yaranmasına vaxt gərəkdir. O isə gələcəkdir.

Biz onunla İstanbulda görüşdük. Həmişəki kimi, yenə də çox ətraflı, çox səmimi və dostcasına söhbətimiz oldu. Biz onunla Sizi xatırladıq.

Mən İtaliyanın sabiq Baş naziri Roman Prodi ilə görüşəndə də Sizi xatırladım. Parisdə Sizin yubileyinizdə biz onunla birlikdə olmuşduq, yanaşı oturmuşduq. İndi o, Avropa Birliyinin bütün iqtisadi məsələləri həll edən Avropa Komissiyasının sədridir. İndi həmin vəzifədədir – bu, böyük beynəlxalq vəzifədir. Mən onunla əvvəlcə Romada, o, Baş nazir olarkən görüşmüşdüm. Sonra isə biz Parisdə, Sizin 70 illiyinizi qeyd edərkən gö-

rüşdük. İndi də İstanbulda görüşdük. Mən ona Slavanın yubileyindəki görüşümüzü xatırlatdıqda, o, sevindi.

**Mstislav Rostropoviç**: O, çox mehriban insandır.

Siz bilirsinizmi ki, Jak Şirak buraya gəlməli olarkən mən ondan Parisdə məktub aldım. O, məni Fransa nümayəndə heyətinə rəsmən daxil etmişdi. Mən onda düşündüm ki, biz muzey...

**Heydər Əliyev**: Lakin bu, olacaqdır.

**Mstislav Rostropoviç**: Mən onun yadına salaram.

**Heydər Əliyev**: Vaxt gələcək və bu da olacaqdır.

**Mstislav Rostropoviç**: Heydər Əliyeviç, Sizə ağrılı bir sual vermək olarmı? Bilirsinizmi, burada qaçqınlar olmasından çox üzülürəm. Bu məsələnin həllinin bir perspektivi varmı?

**Heydər Əliyev**: Bilirsinizmi, Slava, bu, ağrılı məsələdir, mənim ürəyimdə bir yaradır.

**Mstislav Rostropoviç**: Mənim də ürəyimdə.

**Heydər Əliyev**: Bu, mənim ürəyimdə bir yaradır. Doğrudur, aprel ayında ürəyimdə cərrahiyyə əməliyyatı apardılar, özü də çox uğurla. Bu yara sağaldı. Amma qaçqınların taleyi və vəziyyəti ilə, Azərbaycanın indiki ağır vəziyyəti, ərazimizin 20 faizinin işğal edilməsi, öz yerlərindən qovulmuş bir milyon insanın olması ilə bağlı yara isə qalmaqdadır. İnanın ki, mən bu barədə nəinki gecə-gündüz düşünürəm, fikirləşirəm, həm də mümkün olan hər şeyi edirəm. İstanbulda Prezident Jak Şirak ilə görüşlərimiz zamanı söhbətimizin 95 faizi məhz bu məsələyə aid idi. Bu, Prezident Klintonla, Almaniyanın kansleri Şröderlə, Avropa Komissiyasında həmin məsələ ilə məşğul olan Roman Prodi ilə, Türkiyə Prezidenti Süleyman Dəmirəllə, İstanbulda görüşdüyüm digər dövlət başçıları ilə söhbətlərimizin də əsas mövzusu idi.

Lakin mən yenə də ümidlə yaşayıram. Son günlər bizdə yağışlar yağır. Elə leysan olmuşdu ki, Suraxanıda Ramana kəndini, başqa yerləri su basmışdı. Mən bərpa işləri görülməsi üçün xüsusi olaraq vəsait ayırmışam. Dünəndən bəri leysan yağış yağır. Əlbəttə, hər bir insan bundan əziyyət çəkir. Amma Siz çadırlardakı adamların vəziyyətini təsəvvür edirsinizmi? Göydən tökülən bu qədər suyu çadır necə saxlaya bilər? Buna görə də vəziyyət çox ağırdır.

Buna baxmayaraq, mən nikbin əhval-ruhiyyədəyəm. Hesab edirəm ki, biz razılaşmaya nail ola biləcəyik. Mən qarşıma belə bir məqsəd qoymuşam – Ermənistanla Azərbaycan arasında sülh, sülh yaratmaq. Hətta İstanbulda mən Cənubi Qafqazda, yəni Gürcüstanda, Azərbaycanda və

Ermənistanda təhlükəsizlik və sülh paktı yaradılması haqqında çox böyük ideya irəli sürdüm. Təbii ki, şərt qoydum ki, bu pakt nə deməkdir, hansı tələbləri əhatə edir. Mən belə bir paktla çıxış edirəm.

Yəni böyük itkilər verməyimizə, ərazimizin işğal edilməsinə, insanların altı ildən artıq bu çadırlarda yaşamasına və sairəyə baxmayaraq, mən sülhə nail olmağa çalışıram. Əlbəttə, ədalətli sülhə. Bununla əlaqədar son vaxtlar Ermənistan Prezidenti Koçaryanla bir neçə bilavasitə, şəxsi görüşüm olmuşdur.

**Mstislav Rostropoviç:** Bax, bu, çox vacibdir.

**Heydər Əliyev:** Yeri gəlmişkən, bu, İstanbul zirvə görüşü də Qərbdə, Amerikada çox yüksək qiymətləndirilmişdir. Onlar hesab edirlər ki, məsələnin həlli üçün bu, indiyədək görülmüş işlərdən bəlkə də daha çox fayda gətirəcəkdir. Ümumiyyətlə, biz bütün imkanlardan istifadə edirik. Minsk qrupu var, bildiyiniz kimi, onun həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransadır. Son il ərzində onlar öz işini zəiflətmişlər, mən İstanbul zirvə görüşündə onları tənqid etdim. Sonra, görüşlərimiz zamanı razılığa gəldik ki, – yeri gəlmişkən, bu, qəbul etdiyimiz sənəddə də yazılmışdır, – onlar danışıqlar prosesinə yenidən başlamalıdırlar. Biz o kanaldan da, bu kanaldan da istifadə edəcəyik. Görək nə olacaq. Mən ümid edirəm.

**Mstislav Rostropoviç**: Bilirsinizmi, rəsm əsərlərini Almaniyaya verməyinizlə əlaqədar xoş məramlı hərəkətinizi artıq indinin özündə çox yüksək qiymətləndirirlər. Çox yüksək qiymətləndirirlər. Hesab edirəm ki, bu, xoş məramın ifadəsi olan gözəl hərəkətdir və dövlət rəhbəri kimi Sizin ürəyinizin genişliyini göstərir. Belə bir hərəkət hökmən olmalıdır. Gərək qaytarmağı bacarasan. Necə ki, Siz rəsm əsərlərini qaytardınız, eləcə də Ermənistan torpaqları sizə qaytarmalıdır.

**Heydər Əliyev:** Bəli, kansler Şröder bunu çox yüksək qiymətləndirdi. Bilirsiniz ki, o əsərlərin bir hissəsi oğurlanmışdır və Nyu–Yorkda, məhkəmədədir, bizdə nə vardısa, hamısını verdik. Mən ona xüsusi məktub yazdım, bu məsələ barəsində sərəncam vermişəm. 1947-ci ildən bəri bizim muzeydə nə saxlanırdısa, biz hamısını Almaniyaya, Bremen Muzeyinə verdik.

**Mstislav Rostropoviç**: Gözəl hərəkətdir. Böyük insanın, böyük rəhbərin hərəkətidir. Deməliyəm ki, bir işi gördükdə və bir şeyi verdikdə bu, adamları düşündürür ki, başqaları da bu cür hərəkət etməlidir.

**Heydər Əliyev:** Doğrudur.

**Mstislav Rostropoviç:** Sizin belə bir nümunə göstərməyiniz çox mühümdür. Çox mühümdür.

**Heydər Əliyev**: Bakı–Ceyhan neft kəmərinə dair mühüm bir layihə imzalamağımız İstanbulda bizim üçün böyük bir tarixi hadisə oldu. Yeri gəlmişkən, biz bununla beş il məşğul olmuşduq, çox əngəllərlə, çətinliklərlə rastlaşdıq. Biz onların hamısını dəf etdik.

Bu layihənin müəllifi, arxitektoru Azərbaycandır. Əgər 1994-cü ildə biz 'Əsrin müqaviləsi" adlandırılan həmin böyük müqaviləni imzalamasaydıq, təbii ki, onda heç nədən söhbət gedə bilməzdi. Biz müqaviləni imzaladıq, bəyan etdik ki, olduqca böyük neft ehtiyatları var və bu nefti 1997-ci ildən bəri çıxarırıq, onu iki boru kəməri – Şimal və Bakı–Supsa marşrutları ilə ixrac edirik. Doğrudur, indi Şimali Qafqazdakı hadisələrlə əlaqədar Şimal marşrutunda çətinliklər var. Digər marşrut Bakı–Supsadır. Lakin böyük neftin ixracı üçün bizə əsas, böyük neft kəməri lazım idi. Biz bu işlə beş il məşğul olduq və onu axıra çatdırdıq, təntənəli şəraitdə sənəd imzaladıq. Onu Klinton da imzaladı. Bütün bu illər ərzində o, bizi nəinki dəstəkləmiş, həm də bu layihənin real olması üçün hər şey etmişdir. Biz onu imzaladıq, bu, böyük hadisədir.

**Mstislav Rostropoviç**: Yəni, ümid edirəm ki, pul daha çox olacaqdır.

**Heydər Əliyev**: İndi biz bu boru kəmərinə 2 milyard 400 milyon dollar vəsait qoyacağıq. Gələcəkdə isə, şübhəsiz... Yeri gəlmişkən, biz iri qaz yatağı aşkara çıxarmışıq. Yəqin ki, bir neçə ildən sonra biz həm də qaz ixracçısı olacağıq. İmzaladığımız müqavilələrdə Azərbaycana 15 il ərzində təxminən 60 milyard dollar sərmayə qoyulması nəzərdə tutulur. Təbii ki, bu qədər vəsait qoyulduğu halda, daha çox gəlir götürmək lazımdır. Əks təqdirdə sərmayə qoymağın nə mənası var?

Biz bütün bunları gələcək üçün edirik. Ola bilsin ki, mən bütün bunları görməyəcəyəm, çünki vaxt gedir, yaş özünü göstərir. Amma mən bunu özüm üçün etmirəm, xalq üçün, gələcək nəsillər üçün, müstəqil Azərbaycan üçün edirəm. Bu işlər uğurla gedir və mən buna şadam.

**Mstislav Rostropoviç**: Sizi ürəkdən təbrik edirəm.

**Heydər Əliyev:** Sağ olun.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV GÖRKƏMLİ MUSİQİÇİ MSTİSLAV ROSTROPOVİÇİN İŞTİRAKI İLƏ KONSERTDƏ OLMUŞDUR

*Respublika sarayı*
*26 noyabr 1999-cu il*

Azərbaycan Prezidenti Heydər Əliyev konsertdə iştirak edirdi. Salona toplaşanlar dövlətimizin başçısını hərarətlə qarşıladılar.

Konsertin əvvəlində dirijor, respublikanın xalq artisti Rauf Abdullayevin idarəsi ilə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında Qara Qarayevin "İldırımlı yollarla" baletindən Adajio səsləndi. Sonra maestro məşhur bəstəkar Dmitri Şostakoviçin ona həsr etdiyi violençel ilə orkestr üçün birinci konsertini ifa etdi.

Konsertin ikinci hissəsində maestro orkestrə dirijorluq etdi, Dmitri Şostakoviçin birinci simfoniyası səsləndi.

Prezident Heydər Əliyev fasilə zamanı maestro ilə görüşdü. Dövlətimizin başçısı parlaq ifasına görə Mstislav Rostropoviçi səmimi təbrik etdi.

Maestro xatırlatdı ki, Şostakoviçin həmin konserti dünya miqyasında ilk dəfə qırx il bundan əvvəl onun ifasında səslənmişdir. O, Dmitri Şostakoviçin Azərbaycanla sıx əlaqəsinin olduğunu vurğuladı.

Sonra Mstislav Rostropoviç konsertə gəlmiş fransalı qonaqları – Mstislav Rostropoviç adına Fransa rəqs, teatr, dram və musiqi məktəbinin rəhbərlərini, habelə Fransa parlamentinin senatoru cənab Jan Buayeni dövlətimizin başçısına təqdim etdi.

Prezident Heydər Əliyev dedi:

– O, bizim dostumuz, Azərbaycanın dostudur, parlamentdə Fransa–Azərbaycan dostluğu qrupunun sədridir. Biz onunla çoxdan tanışıq. Mən onu 1994-cü ilin yanvarında Fransaya ilk səfərim vaxtından xatırlayıram. O, həmin vaxtdan etibarən ölkəmizə gəlir.

Dövlətimizin başçısı görüş iştirakçıları ilə xatirə şəkli çəkdirdi.

Sonra Prezident Heydər Əliyev qonaqları Azərbaycan adətincə çay süfrəsinə dəvət etdi.

## AZƏRBAYCAN RESPUBLİKASININ ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT XADİMLƏRİNƏ FƏRDİ TƏQAÜDLƏR VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"Azərbaycan Respublikasının ədəbiyyat və incəsənət xadimlərinə dövlət qayğısının artırılması haqqında" Azərbaycan Respublikası prezidentinin 10 noyabr 1997-ci il tarixli 641 saylı fərmanına uyğun olaraq qərara alıram:

1. Azərbaycan xalqı qarşısında böyük xidmətləri olan
CƏLİLOVA Roza İsmayıl qızına
İMANOV Lütfiyar Müslüm oğluna
MƏMMƏDOV Əli Əsgər Cəfər oğluna
SADIQOV Fikrət Abbas oğluna (Fikrət Sadıqa)
ŞƏRİFOVA Firəngiz Abbas Mirzə qızına
TİTORENKO Mariya Sergeyevnaya Fərdi təqaüdlər verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu səramcandan irəli gələn məsələləri həll etsin.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 dekabr 1999-cu il*

## AZƏRBAYCAN DÖVLƏT AKADEMİK OPERA VƏ BALET TEATRININ BALET TRUPPASININ İŞÇİLƏRİNİN SOSİAL TƏMİNATINI YAXŞILAŞDIRMAQ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan mədəniyyətinin inkişafında, milli və dünya klassik balet əsərlərinin təbliğində Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppasının rolunu nəzərə alaraq, onun işçilərinin sosial təminatını yaxşılaşdırmaq məqsədi ilə qərara alıram:

1. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppasının işçilərinin aylıq vəzifə maaşları 2000-ci il yanvar ayının 1-dən orta hesabla 5 dəfə artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə birlikdə bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 dekabr 1999-cu il*

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV NƏBİ XƏZRİNİN "BURLA XATUN" PYESİNİN TAMAŞASINDA OLMUŞDUR

*Milli Dram Teatrı*
*12 dekabr 1999-cu il*

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında xalq şairi Nəbi Xəzrinin anadan olmasının 75 illiyi münasibətilə onun "Burla xatun" ikihissəli mənzum epik hekayətinin (pyesinin) yeni quruluşda tamaşası göstərilmişdir.

Azərbaycan prezidenti Heydər Əliyev tamaşada olmuşdur.

**Tamaşadan sonra Azərbaycan prezidenti Heydər Əliyev yaradıcı kollektivin üzvləri ilə səhnə arxasında görüşdü, gözəl ifalarına görə onları təbrik edərək dedi:**

– Axşamınız xeyir olsun. Sizi təbrik edirəm. Yeni bir əsər yaratmısınız. Doğrudur, deyirlər ki, vaxtilə bu əsər Azərbaycan Milli Dram Teatrının səhnəsində qoyulubdur. Ancaq eyni zamanda, bildiyimə görə bu, yeni bir quruluşda qoyulubdur. Mən ilk dəfədir görürəm. Çox dəyərli əsərdir.

Təbiidir ki, hər bir səhnə əsərinin əsası yazılmış pyesdir. Bizim hörmətli şairimiz, yazıçımız, dramaturqumuz Nəbi Xəzri, hesab edirəm ki, çox böyük zəhmət çəkibdir və tariximizin qədim dövrünə aid olan, millətimizin kökünü tanıdan hadisələri öz qələminə alıbdır. Bu, çox qiymətlidir. Çünki tarixi keçmiş haqqında əsərlər yazılması və xüsusən bədii əsərlər, ədəbiyyat əsərləri yaranması çox vacibdir.

Təəssüf etmək lazımdır ki, bizim xalqımızın tarixşünaslıq tarixi o qədər də böyük deyildir. Təbiidir, keçmişdə bizim tarixşünaslar xalqımızın tarixinin ayrı-ayrı dövrlərini yazıblar və bizim üçün bu barədə ən ulu olan da "Kitabi–Dədə Qorqud"dur. Bu, Azərbaycan xalqının, türklərin dərin köklərinin çox dəyərli nümunəsidir. Ancaq məlumdur ki, "Kitabi–Dədə Qorqud" uzun illər öyrənilməyib, təhlil olunmayıb, tədqiq edilməyibdir. Bir dövrdə bu, qadağan olubdur. O biri zamanlarda isə bəzilərinin buna bəlkə də gücü çatmayıbdır. Çünki bu, mürəkkəb bir işdir. Ancaq bizim qədim tariximizə aid olan əsərlərin – həm tarixi-elmi

əsərlərin çox böyük qiyməti var, həm də bədii əsərlərin çox qiyməti vardır. Bədii əsərlər tarixin müəyyən dövrünü əks etdirərək geniş kütlələrə, xalqımızın geniş dairəsinə daha da çox məlumatlar verir. Ona görə də şəxsən mən tarixi keçmişimizə həsr olunmuş əsərlərə, ya roman olsun, ya poema, ya səhnə əsəri – bunlara mən həmişə yüksək qiymət vermişəm və bu gün də çox yüksək qiymət verirəm.

Biz "Kitabi–Dədə Qorqud"un 1300 illik yubileyi haqqında qərarlar qəbul edəndə gördük ki, bizim tədqiqatçılarımız da var, ayrı-ayrı dövrlərdə tədqiqat aparıblar, elmi əsərlər yazıblar və bizim mədəniyyət xadimlərimiz də, ədəbiyyatçılarımız da, şairlərimiz, yazıçılarımız da əsərlər yazıblar. Ancaq bunlar hamısı azdır. Çünki "Kitabi–Dədə Qorqud" elə bir zəngin xəzinədir ki, onun bugünkü nəsillərə və gələcək nəsillərə aydın, açıq və anlanıla bilən şəkildə çatdırılması, birinci – zəhmət tələb edir, ikincisi də istedad çox vacibdir. Bu baxımdan, hörmətli Nəbi Xəzrinin çəkdiyi zəhməti mən xüsusi qiymətləndirirəm.

Bilirəm, Nəbi Xəzri vaxtilə – hələ 70-ci illərin əvvəllərində bunu poema kimi yazıbdır. Sonra bunu mənzum drama çeviribdir və indi biz "Dədə Qorqud"un 1300 illik yubiley tədbirlərini keçirərkən bu əsərin müasirliyi, bu gün üçün və gələcək üçün çox vacib olduğu aşkar oldu. Mən çox məmnunam ki, bizim Milli Dram Teatrımız bu əsəri hazırlayıb, səhnəyə qoyub indi geniş kütlələr, xalqımız, millətimiz, birincisi, "Dədə Qorqud"la tanış olurlar, ikincisi də Nəbi Xəzrinin əsəri ilə tanış olurlar. O tərəfdən də, bu tərəfdən də bu, bizim cəmiyyətimiz üçün, xalqımız üçün çox dəyərlidir, əhəmiyyətlidir. Ona görə mən hörmətli şairimiz Nəbi Xəzrini təbrik edirəm və onu qiymətləndirirəm ki, hələ 30 il bundan öncə o öz yaradıcılığını bu mövzuya yönəldib və əsər yazıbdır.

O illər "Kitabi–Dədə Qorqud" çox az tanınırdı və az tədqiq olunurdu. Ancaq 70-ci illərdə bizim bir çox tarixçilərimiz, tədqiqatçılarımız əsərlər yazmağa başladılar. Nəbi Xəzrinin əsəri çox dəyərlidir. Sonra yazıçı Anar bir kinofilm yaratdı. Beləliklə, "Kitabi–Dədə Qorqud"un Azərbaycan xalqı üçün, millətimiz üçün demək olar ki, yenidən dünyaya gəlməsi başlandı. Ancaq sonra isə bir fasilə əmələ gəlmişdi. 70-ci illərdə bu yaradıcılıq hissləri birdən püskürdü, ancaq sonra – 80-ci illərdə və 90-cı illərdə bu mövzu bir az yatmışdı. İndi biz yubiley haqqında qərarlar qəbul edəndən sonra həm keçmişdə yazılmış əsərlər yeniləşir, cavanlaşır, meydana çıxır, həm də yeni əsərlər yaranır. Nəbi Xəzrinin bu əsərini Milli Dram Teatrında səhnəyə qoymağınızı mən yüksək qiymətləndirirəm. Yaxşı yaratmısınız.

Təbiidir, əsər mürəkkəbdir. Ümumiyyətlə, “Dədə Qorqud” özü-özlüyündə mürəkkəbdir. Çünki çox qədim bir dövrün yazılarıdır. Bugünkü insanlar, bugünkü nəsil onun hamısını birdən dərk edə bilmir, həzm edə bilmir. Ona görə mürəkkəbdir və bu gün mən sizin bu tamaşaya baxarkən də gördüm ki, bunu bir dəfə yox, gərək bir neçə dəfə görəsən ki, dərinliyini tamamilə hiss edəsən. Mürəkkəbdir. Ancaq həm bunun mənzum şəkildə yazılması həmişə insanlara, tamaşaçılara daha da çox təsir edir, həm də sizin bu mövzunu çox məharətlə səhnədə açmağınız və göstərməyiniz, – təbiidir ki, rejissorun da, aktyorların da yaradıcılığının nəticəsində, – siz belə bir qeyri-adi tamaşanı meydana gətirmisiniz. Bunlar hamısı böyük yaradıcılıq nailiyyətləridir və bizim teatrın bugünkü mərhələsində onun inkişafı üçün dəyərli bir töhfədir. Mən həm Nəbi Xəzrini təbrik edirəm, həm də sizi – bu əsəri bilavasitə səhnəyə çıxaranları təbrik edirəm. Rejissor bilmirəm kimdir.

**Nəbi Xəzri:** Vaqif Əsədovdur.

**Heydər Əliyev:** Rejissor orijinal bir forma tapıbdır. Doğrusu, bunu heç təsəvvür etmək mümkün deyildi ki, səhnədə heç bir şey yoxdur. Hamısı bu palazın, paltarın altında gedir.

**Nəbi Xəzri:** Cənab prezident, mən özüm də bunu əvvəlcə həzm edə bilmirdim.

**Heydər Əliyev:** Heç bir şey yoxdur, hamısı bunun altında gedir. Burada nə bir dekorasiya var, nə filan var. Deyəsən, bir balaca rəqs var idi, amma çox az. Mahnı da bir az var idi, o da az idi. Ona görə də bu, böyük bir faciə təsəvvürü yaradır. Həqiqətən də bu, faciəvi bir əsərdir və belə də olmalıdır. Ancaq sizin tapdığınız bu müasir forma – hansı ki, keçmiş zamanlarda olmazdı – öz-özlüyündə də sizin yaradıcılıq axtarışlarınızın nəticəsidir. Mən bunu müsbət qiymətləndirirəm. Yaxşı haldır.

Bilirsiniz, bir var keçmiş klassik teatrın ənənələri, bir də var ki, o klassik teatrın ənənələrini müasir zövqə, müasir tələblərə uyğunlaşdırmaq. Siz buna nail olmusunuz və çox güclü təsir bağışlayır. Bəzən də insanı hətta qorxudur. Belə hissiyyatlar yaradır.

Mən bilirəm ki, bu, böyük zəhmət tələb edir. Hamınız zəhmət çəkmisiniz. Amma bunun altında necə nəfəs alırdınız – onu bilmirəm. Hər halda bu, eyni zamanda fiziki dözümlük tələb edən bir formadır. Siz bunu da göstərdiniz, bunu da edə bildiniz. Siz bu gün salona toplaşan tamaşaçıları, o cümlədən məni doğrudan da sevindirdiniz.

Mən sizi təbrik edirəm. Hər birinizə yeni yaradıcılıq uğurları arzulayıram. Nəbi Xəzri də hələ gəncdir, yazır. Deyəsən, 75 yaşı tamam olur, ya tamam olacaqdır.

**Nəbi Xəzri:** Cənab prezident, elə bu gün tamam olur.

**Heydər Əliyev:** Təbrik edirəm.

**Sənubər İsgəndərova:** Hörmətli prezident, biz bu gün Nəbi müəllimin 17 yaşını qeyd etdik.

**Heydər Əliyev:** Əlbəttə ki, sizin kimi gözəl qızlarla bir yerdə çalışan həmişə belə cavan qalar. Nəbi Xəzri heç dəyişilmir. Mən onu 20 il qabaq da belə görmüşəm.

**Nəbi Xəzri:** Cənab prezident, mən bunların hamısını Sizdən öyrənirəm.

**Heydər Əliyev:** Elə 20 il bundan qabaq da səni belə görmüşəm. Deməк, bunun səbəbi odur ki, həm sizin kimi yaradıcılardan, həm də, yenə deyirəm, belə gözəl qızlardan ruh, ilham alır. Ona görə də həm cavan qalıbdır və cavandır, həm də yazır və güman edirəm, yazacaqdır. Mən çox məmnunam ki, Nəbi Xəzrinin 75 yaşı tamam olan gün siz bu əsəri səhnəyə qoymusunuz və məni də dəvət etmisiniz. Bu, bir növ, Nəbi Xəzri üçün yubiley tamaşasıdır. Təbrik edirəm və ümidvaram ki, bundan sonra da hələ çox dəyərli əsərlər yaradacaqsan.

Teatrın 125 illik yubileyi qeyd olunur. Bu, yaxşı haldır ki, müəyyən vaxt gedir. Çünki yubileyi elan edəndən bir-iki ay sonra böyük bir mərkəzi mərasim keçirirsən, ondan sonra hamı soyuyur. Amma gərək soyumasın. Teatr gərək yeni-yeni əsərlər yaratsın. Bizim teatrımız həmişə xalqımızın fəxridir. Mən bunu dəfələrlə öz danışıqlarımda demişəm və Avropa ölkələrinin dövlət başçıları ilə, yaxud nümayəndələri ilə görüşlərimdə bunu xüsusi qeyd edirəm. Çünki bu, Azərbaycan xalqının dünyəvi xalq olduğunu göstərir. Bu, qeyri-təbii bir şeydir. Çünki bizim Azərbaycan xalqı islam dininə mənsub olan xalqdır və islam dini də indiyə qədər heç bir yerdə dünyəvi teatr yaratmayıbdır. Bir Azərbaycandan savayı. İndi çox şey yaranıbdır. Amma 125 il bundan öncə Azərbaycanda dünyəvi teatrın yaranması və əsərlərin yaranması, əsərlərin səhnəyə qoyulması bizim xalqımızın heç də Avropa dəyərlərindən geri qaldığını göstərmir, əksinə, onunla bərabər olduğunu göstərir.

Bu, çox gözəl nümunədir. Şübhəsiz, başqa nümunələr də vardır ki, bizim xalqımızın ümumbəşəri dəyərlərdən həmişə bəhrələndiyini göstəribdir. Ancaq Azərbaycanın dünyəvi teatrının 125 il bundan öncə yaranması, hesab edirəm ki, çox böyük nailiyyətdir və bizim xalqımızı

bütün dünyada bir dünyəvi xalq kimi gəstərir. Ona görə mən teatrı sevmişəm, sevirəm və bundan sonra da sevəcəyəm. Belə bir mahnı var – "Sən sevməsən də mən sevirəm".

Mən sizin zəhmətinizi bilirəm. Çox ağır zəhmətdir. Həmişə demişəm, aktyor sənəti kimi zəhmətkeş sənət yoxdur. Heç neftçilərin də sənəti bu qədər zəhmət tələb edən deyil. Yaxud da ki, yerin altından kömür çıxaranların və başqalarının da. Ancaq təbiidir, bu sənətə təsadüfi adamlar gələ bilməzlər. Bu sənətə ancaq sənəti sevənlər gələ bilər, sənətə aşiq olanlar gələ bilər. Müəllim olmaq, həkim olmaq, yaxud mühəndis, aqronom, iqtisadçı olmaq və başqa işlər elədir ki, kütləvi xarakter daşıyır. Təbii, orada da istedadlı adamlar olmalıdır. Amma incəsənət belədir ki, bunun uçün həm gərək istedad olsun, həm də incəsənətə bağlılıq, sevgi olsun. Xüsusən teatr kimi bir incəsənət növü. Teatrda gərək səhnədə hazırlaşasan, bir, iki, on, on beş dəfə məşq edəsən. Sonra bir dəfə çıxasan səhnəyə, camaata bunu göstərəsən. Təbii ki, bu, çox ağır bir prosesdir. Siz də bu işin fədailərisiniz. Mən istəyirəm ki, siz həmişə fədai olasınız. Teatrımız yaşasın, inkişaf etsin və daha da yüksəlsin.

Azərbaycan teatrı çox zəngin şəxsiyyətlər yetişdirmiş bir teatrdır. O şəxsiyyətləri siz də tanıyırsınız, biz də tanıyırıq. Mənim özüm, demək olar ki, onların əksəriyyətini səhnədə görmüşəm. Məsələn, bir Ərəblinskini görməmişəm. Abbas Mirzə Şərifzadəni də görmüşəm, Ülvi Rəcəbi də görmüşəm. Sidqi Ruhullanı yəqin siz də görmüsünüz. Mirzağa Əliyevi də görmüşəm, Mərziyə Davudovanı da görmüşəm, Fatma Qədrini də görmüşəm, Ələsgər Ələkbərovu da görmüşəm. Bunların hamısını mən səhnədə görmüşəm. Bunların hər biri Azərbaycan mədəniyyətinin çox böyük şəxsiyyətləridir. O dövrdə, XX əsrin əvvəllərindən başlayaraq teatr belə böyük şəxsiyyətlər yetiribdir. Bu, Azərbaycan tarixinin böyük, parlaq bir səhifəsidir. Lazımdır ki, teatr həm bu gün üçün, həm də gələcək üçün belə şəxsiyyətlər yetişdirsin. Güman edirəm, sizin içərinizdə belələri var və o səviyyəyə, yəni o ucalığa çatmağa imkanı olanlar da vardır. Mən arzu edirəm ki, belələri çox olsun.

Bir daha sizi təbrik edirəm. Sizin hər birinizə cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Sağ olun.

Xalq şairi Nəbi Xəzri dövlətimizin başçısına müraciətlə dedi:

– Hörmətli prezidentimiz, mənim bir neçə kəlmə sözüm var. Birincisi, bütün kollektiv adından Sizə minnətdarlıq etmək istəyirəm ki, gəlib tamaşamıza baxdınız. Bu, böyük zəhmətlə, ağır başa gələn tamaşadır.

**Heydər Əliyev:** Bəli, mən bunu qeyd etdim.

**Nəbi Xəzri:** Siz düz dediniz ki, mən bu əsəri sonuncu dəfə işləmişəm. Amma bu, tamam başqa bir əsərdir. Düzdür, “Dədə Qorqud” o qədər zəngindir ki, ondan həmişə istifadə etmək olar. Lakin 1988-ci ildə Qarabağ məsələsi başlayanda gördüm ki, mənim “Torpağa sancılan qılınc” əsərim natamamdır. Çünki biz tarixə getməli yox, tarixi bu günə gətirməliyik ki, bu günlə eyni səslənsin.

Məsələn, əsərdə İxtiyar obrazının oğlu cəbhədə həlak olubdur. Oğlu ilə birlikdə anası da həlak olubdur. Yəni istəmişik ki, bu günün hadisələri ilə həmahəng olsun. Elə bilirəm ki, onu da mənim rejissor dostum edibdir. Biz rejissorlar Vaqif Əsədovla, Əsgər Əsgərovla, rəssam Adil Azayla beş-altı ildir işləyirik. Biz bütün bu kollektivlə qaynayıb-qarışmışıq. Neçə vaxt məşqlər gedib, əsərin oxunuşu, mətni dəfələrlə dəyişilibdir.

Cənab prezident, lakin bu əsərə xeyir-dua verən Siz olmusunuz. Çünki əsər mürəkkəb olduğu üçün teatrın heç bir qüvvəsi yoxdur ki, bunların geyimini, paltarını, səhnənin dekorunu hazırlasın.

Mən “Dədə Qorqud” yubileyinin keçirilməsi üçün Sizin yaratdığınız Yubiley Komissiyasının iclasında xahiş etdim, Siz böyük xeyirxahlıqla onu plana saldınız və ondan sonra işlərimiz demək olar ki, canlı getdi. Bu əsərin yaranması üçün biz hamımız Sizə minnətdarıq. Bu gün gəlib məni ikiqat sevindirdiyinizə görə təşəkkür edirəm. Siz məni təbrik etdiniz. Bu, mənim üçün ən böyük mükafatdır, ən böyük təbrikdir. Çox sağ olun.

Görürsünüz, indi buradakılar əsasən cavanlardır və hamısı çox yaxşı işləyən, canlarını qoyan, zəhmət çəkən aktyorlardır. Mənə elə gəlir ki, bu kollektivin içərisindən hansınısa gələcəkdə müəyyən dərəcədə mükafatlandırmaq olar. Bunlar hamısı gələcəyin parlayacaq ulduzlarıdır.

Sizə təşəkkür, minnətdarlıq edir, cansağlığı arzulayıram. Sağ olun, var olun. Bu gün Sizi gördüm, çox sevindim. Allah Sizin canınızı həmişə var etsin, sağlam, gümrah etsin. Elə bilirəm ki, bizim torpağımız da, vətənimiz də, gələcəyimiz də nurlu, işıqlı olacaqdır və biz bunu belə görürük. Bütün bunlara görə Sizə bir daha təşəkkür edirəm və icazə verin, Sizinlə səmimi görüşüm.

Sonra respublikamızın rəhbəri tamaşanın yaradıcı heyəti ilə xatirə şəkli çəkdirdi.

* * *

## Ə.P.DİLBAZİNİN "İSTİQLAL" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan milli xoreoqrafiya sənətinin inkişafında böyük xidmətlərinə görə Əminə Paşa qızı Dilbazi "İstiqlal" ordeni ilə təltif edilsin.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 1999-cu il*

## XALQ ARTİSTİ ƏMİNƏ XANIM DİLBAZİYƏ

*Bakı şəhəri*
*25 dekabr 1999-cu il*

Hörmətli Əminə xanım!

Sizi – Azərbaycan xoreoqrafiya məktəbinin görkəmli nümayəndəsini 80 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Siz milli rəqs sənətimizin inkişafında, təbliğində və dünya şöhrəti qazanmasında əvəzsiz xidmətlər göstərməklə xalqın rəğbət və məhəbbətini qazanmış böyük sənətkarlardansınız. Çoxşaxəli istedadınız həm lirik, həm də qəhrəmanlıq rəqslərini daim böyük ustalıqla ifa etməyinizə imkan vermişdir. Azərbaycan xalq rəqsini qoruyub saxlamaqla yanaşı, yüksək ifaçılıq məharəti ilə yeni həyat verdiyiniz sənət inciləri milli incəsənətimizin qızıl fonduna həmişəlik daxil olmuşdur.

Siz ölkəmizdə təkcə gözəl ifaçı deyil, həm də bir çox rəqslərin quruluşçusu kimi yaxşı tanınırsınız. Xalq rəqslərimizin Sizin quruluşunuzda ifası Azərbaycan xalqına xas olan həyat eşqi, əməksevərlik və coşğunluqla səciyyələnir. Bunu yaratdığınız və rəhbərlik etdiyiniz rəqs kollektivlərinin, xüsusilə "Çinar" qızlar ansamblının fəaliyyətində görmək olar. Bununla yanaşı, muxtəlif kütləvi tədbirlərdə xalq rəqslərinə verdiyiniz quruluşlar da diqqətə layiqdir.

Şərəflə keçdiyiniz mənalı həyat yolu sənət adamlarının hələ neçə-neçə nəsli üçün gözəl bir örnək, böyük bir məktəb hesab olunur. Zəngin təcrübəyə, mahir pedaqoq qabiliyyətinə malik böyük rəqs ustadı kimi Siz xalq rəqslərimizin incəliklərini gənc nəslə öyrətməklə milli xoreoqrafiyamızın inkişafı üçün bu gün də əlinizdən gələni əsirgəmirsiniz. Əminəm ki, qaynar yaradıcılıq həyatı yaşamış yorulmaz sənət fədaisi kimi milli rəqslərimizin gənc ifaçılarının yetişdirilməsi üçün bundan sonra da var qüvvənizi sərf edəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və müvəffəqiyyətlər arzulayıram.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## “AZƏRBAYCAN–2000” KİTABININ NƏŞRİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Müstəqil Azərbaycan Respublikası XXI əsrə qədəm qoyur. Dövlət quruculuğu, elm, təhsil, mədəniyyət və respublika həyatının digər sahələrində əldə olunmuş nailiyyətləri nümayiş etdirmək, ölkəmizin yeni minillikdə inkişaf perspektivlərini xalqımıza və dünya ictimaiyyətinə çatdırmaq məqsədi ilə qərara alıram:

1. “Azərbaycan–2000” kitabının yazılması və çapa hazırlanması üçün aşağıdakı tərkibdə baş redaksiya heyəti yaradılsın:

**Artur Rasizadə** – Azərbaycan Respublikasının baş naziri

**Fatma Abdullazadə** – Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının humanitar siyasət şöbəsinin müdiri

**Polad Bülbüloğlu** – Azərbaycan Respublikasının mədəniyyət naziri

**Misir Mərdanov** – Azərbaycan Respublikasının təhsil naziri

**Fəraməz Maqsudov** – Azərbaycan Elmlər Akademiyasının prezidenti

**Arif Vəliyev** – Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri

**Ömər Eldarov** – Azərbaycan Respublikasının xalq rəssamı

2. “Azərbaycan–2000” kitabına Azərbaycan Respublikası prezidentinin rəsmi nəşri statusu verilsin.

3. “Azərbaycan–2000” kitabının baş redaksiya heyəti bir ay ərzində kitabın geniş plan-prospekti əsasında müvafiq hazırlıq, tərtibat və nəşr xərclərini müəyyən etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 1999-cu il*

## BEYNƏLXALQ "SÜLH MƏDƏNİYYƏTİ İLİ"-nin AZƏRBAYCAN RESPUBLİKASINDA QEYD EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Birləşmiş Millətlər Təşkilatının təhsil, elm və mədəniyyət məsələləri üzrə təşkilatının (YUNESKO-nun) təşəbbüsü ilə 2000-ci ilin BMT tərəfindən rəsmən "Sülh mədəniyyəti ili" elan edilməsini nəzərə alaraq və Azərbaycan Respublikasının beynəlxalq tədbirlərdə daha yaxından iştirakını təmin etmək məqsədi ilə qərara alıram:

1. 2000-ci il Azərbaycan Respublikasında "Sülh mədəniyyəti ili" kimi geniş qeyd olunsun.

2. Beynəlxalq "Sülh mədəniyyəti ili"nin qeyd edilməsi ilə bağlı tədbirlərin hazırlanıb həyata keçirilməsi məqsədi ilə aşağıdakı tərkibdə milli komitə yaradılsın:

Milli Komitənin sədri

**Elçin ƏFƏNDİYEV** – Azərbaycan Respublikası baş nazirinin müavini

Milli Komitənin üzvləri

**Rəfael ALLAHVERDİYEV** – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı

**Fatma ABDULLAZADƏ** – Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının humanitar siyasət şöbəsinin müdiri

**Əli HƏSƏNOV** – Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının ictimai-siyasi şöbəsinin müdiri

**Allahşükür PAŞAZADƏ** – Qafqaz Müsəlmanları İdarəsinin sədri

**Vilayət QULİYEV** – Azərbaycan Respublikasının xarici işlər naziri

**Misir MƏRDANOV** – Azərbaycan Respublikasının təhsil naziri

**Polad BÜLBÜLOĞLU** – Azərbaycan Respublikasının mədəniyyət naziri

**Südabə HƏSƏNOVA** – Azərbaycan Respublikasının Ədliyyə naziri

**Əbülfəz QARAYEV** – Azərbaycan Respublikasının gənclər və idman naziri

**Sirus TƏBRİZLİ** – Azərbaycan Respublikasının mətbuat və informasiya naziri

**Zəhra QULİYEVA** – Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri

**Nizami XUDİYEV** – Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri

**Fəraməz MAQSUDOV** – Azərbaycan Elmlər Akademiyasının prezidenti

**Anar RZAYEV** – Azərbaycan Yazıçılar Birliyinin sədri

**Ramiz ABUTALIBOV** – Azərbaycan Respublikasının YUNESKO üzrə Milli Komissiyasının baş katibi.

3. Beynəlxalq "Sülh mədəniyyəti ili"nin qeyd olunması üzrə milli komitəyə tapşırılsın ki, bir ay müddətində müvafiq tədbirlər proqramı hazırlayıb təsdiq etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 1999-cu il*

## K.N.NƏCƏFZADƏNİN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan təsviri sənətinin və kinematoqrafiyasının inkişafındakı xidmətlərinə görə Kamil Nəcəf oğlu Nəcəfzadə "Şöhrət" ordeni ilə təltif edilsin.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 1999-cu il*

## XALQ RƏSSAMI KAMİL NƏCƏFZADƏYƏ

*Bakı şəhəri*
*28 dekabr 1999-cu il*

Hörmətli Kamil Nəcəfzadə!

Sizi – Azərbaycan rəssamlıq sənətinin görkəmli nümayəndəsini 70 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Siz yarım əsrlik fəaliyyətiniz dövründə yaratdığınız əsərlərlə Azərbaycan təsviri incəsənətinin inkşafında ozünəməxsus rol oynamısınız. "Azərbaycanfilm" kinostudiyasının istehsal etdiyi bir çox filmlərin quruluşçu rəssamı kimi yaradıcılığınız xüsusilə yüksək qiymətə layiqdir. "Bir məhəlləli iki oğlan", "Uzaq sahillərdə", "Mən rəqs edəcəyəm", "Ad günü" filmlərinin geniş şöhrət tapmasında Sizin onlara verdiyiniz bədii tərtibatın öz rolu vardır. Azərbaycanın teatr səhnələrində bir neçə tamaşaya, o cümlədən Hüseyn Cavidin və Səməd Vurğunun əsərlərinə tərtibat verməklə səhnəqrafiya sahəsində də böyük istedada malik olduğunuzu nümayiş etdirmisiniz. Rəngkarlıq və qrafika sahələrində yaratdığınız əsərlər Sizə sənətsevərlər arasında böyük rəğbət və hörmət qazandırmışdır. Fırçanızdan çıxmış gözəl tablo və portretlər öz mövzularının aktuallığı, orijinallığı və bənzərsizliyi ilə seçilir. Dünyanın bir çox guşələrində təşkil edilmiş fərdi sərgiləriniz, xarici ölkələrin muzeylərində və şəxsi kolleksiyalarda saxlanılan rəsm əsərləriniz Azərbaycan təsviri sənətinin şöhrətini artırmışdır. Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin professoru kimi respublikada gənc sənətkarlar nəslinin yetişdirilməsi işinə xidmət edən pedaqoji fəaliyyətiniz də təqdirəlayiqdir.

İnanıram ki, yaradıcılığınızın müdrik dövrünü yaşadığınız indiki mərhələdə sənətinizin pərəstişkarlarını bundan sonra da sevindirəcək və təsviri sənətimizin qızıl fondunu zənginləşdirən yeni əsərlər yaradacaqsınız.

Sizə cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV GƏNC MÜĞƏNNİ SURXAY ƏSGƏROVU VƏ ONUN ATASINI, ÖLKƏMİZİN SƏKKİZ MİLYONUNCU VƏTƏNDAŞININ VALİDEYNLƏRİNİ QƏBUL ETMİŞDİR

*Prezident sarayı*
*31 dekabr 1999-cu il*

**Onların bayramlarını təbrik edən Dövlətimizin başçısı Heydər Əliyev dedi:**

– Çox məmnunam ki, bu gün sizinlə görüşürəm. Surxayı çoxdandı görməmişdim. Artıq boyu artıb və güman edirəm ki, öz sənəti üzərində də işləyir, mənim əvvəlki kimi ümidlərimi doğruldacaqdır. Elədir, yoxsa yox? İşlərin haqqında nə deyə bilərsən?

**Prezident Heydər Əliyevi Dünya azərbaycanlılarının həmrəylik günü və Yeni il münasibətilə təbrik edən Surxay Əsgərov dedi:**

– Möhtərəm cənab prezident, mən hazırda Müslüm Maqomayevin nəzarəti altında Bakı Musiqi Akademiyasında təhsil alıram. Fortepiano ilə, solfecio-qarmoniya ilə məşğul oluram. Bu, onun üçündür ki, istəyirəm musiqi savadım bir az artsın.

**Heydər Əliyev:** Mütləq.

**Surxay Əsgərov:** Cənab prezident, əsas səsimdir. Müslüm Maqomayev mənə deyibdir ki, Allah qoysa, gələn il oxuyacağam. Səsim dəyişibdir, indi bariton olubdur. Amma deyiblər ki, səsimin yuxarı tona qalxması yenə də mümkündür. O, mənə deyir ki, yaxşı səsin vardır. Düzdür, çox müddət idi ki, oxumurdum. Möhtərəm prezident, daim məşğul oluram. Hər insanın həyatının mənası vardır. Mənim də həyatımın mənası odur ki, Sizin mənə göstərdiyiniz böyük etimadı doğruldum.

**Heydər Əliyev:** Çox gözəl. Məşğul ol, tələsmə. Müslüm Maqomayevin bu barədə çox böyük təcrübəsi vardır. O da sənin kimi, çox gənc vaxtlarından öz səsini büruzə verdi, öz istedadını göstərdi. Ancaq doğru-düzgün istiqamət götürdü. O da konservatoriyada oxudu, oranı bitirdi, çox yaxşı piano çalır. Bütün başqa musiqi alətlərini öyrəndi. Yəni yüksək və çox gözəl musiqi təhsili alıbdır. Sən də bunu almalısan. Çünki səni

Azərbaycanda yüksək təhsilli, yüksək mədəniyyətli, dünya, Avropa səviyyəsində istedadlı bir müğənni kimi və istedadlı musiqiçi kimi görmək istəyirlər. Buna görə də verilən məsləhətlərə riayət et. Sən Müslüm Maqomayevlə daim əlaqə saxlayırsanmı?

**Surxay Əsgərov:** Bəli, möhtərəm prezident.

**Heydər Əliyev:** Onun məsləhətlərinə qulaq as. Çünki o, bu həyat yolunu keçibdir və güman edirəm ki, sən də keçəcəksən və Azərbaycanın böyük müğənnisi olacaqsan. Səni təbrik edirəm. Atan nə deyir?

**Əli Əsgərov:** Möhtərəm prezident, zati-aliləri! Sizin Surxaya göstərdiyiniz çox böyük mənəvi qayğı demək olar ki, dünyanın heç bir yerində eyni, bərabəri, misli olmayan bir məsələdir. Surxay Sizin varlığınızdan ilham alır. Həmişə fikri odur ki, Sizin ona göstərdiyiniz etimadı doğrultsun. Gecə-gündüz öz üzərində işləyir və həmişə də Sizin sözlərinizi təkrar edir. Mən də eşidirəm, evdə bütün ailəmiz də eşidir. Deyir ki, mən istəyirəm möhtərəm prezidentimizin, zati-alilərinin qarşısında ilk dəfə yeni səsimlə oxuyum, o sevinsin, onda elə bilərəm ki, dünyanı mənə veriblər. Sizi, xalqımızı sevindirmək istəyir və həmişə də deyir ki, ömrüm boyu vətənimizə – Azərbaycana var gücümlə, qüvvəmlə xidmət edəcəyəm.

Möhtərəm prezident, icazə verin, ailəmizin adından Sizi Dünya azərbaycanlılarının həmrəylik günü və Yeni il münasibətilə səmimi qəlbdən təbrik edək. Çox sağ olun.

**Heydər Əliyev:** Sağ olun, çox sağ olun. Mən inanıram ki, Surxay həm onun, həm sənin dediyin sözlərə sadiq olacaqdır və sizi də sevindirəcək, məni də sevindirəcək və xalqımızı da sevindirəcəkdir. Mən buna inanıram. Amma bu işləri aparmaq üçün lazımi qanun-qaydalara riayət etmək lazımdır. Tələsmək lazım deyil.

**Sonra respublikamızın rəhbəri Heydər Əliyev ölkəmizin səkkiz milyonuncu vətəndaşının valideynlərinə müraciət edərək dedi:**

– Siz böyük bir iş görmüsünüz. Azərbaycanın əhalisinin səkkizinci milyonunu sizin övladınız dünyaya elan edibdir. Mən Naxçıvan Muxtar Respublikasının 75 illik bayramı münasibətilə oraya getmişdim, – bunu mənə xəbər verdilər. Mən sizi təbrik etdim. Mənə dedilər ki, siz onun adını Heydər qoymusunuz.

Heydər elə tək mənim adım deyil, Heydər, ümumiyyətlə, çox məşhur addır, Şərq aləmində məşhur adlardan biridir. Bəlkə də o qədər çox təkrar olunan ad deyil. Çünki Azərbaycanda indi yeni adları çox qoyurlar. Amma bu, qədim addır. Məlumdur ki, bu, Həzrət Əlinin ikinci adıdır. Yəni bu, müqəddəs bir addır. Vaxtilə mənim də anamın qardaşının

adı olubdur. O, 1918-ci ildə hələ o dövrün fəlakətləri içərisində həyatını itiribdir və anam da onu çox sevdiyinə görə mən doğulan zaman adımı Heydər qoyubdur.

İndi əgər sən də öz həyat yoldaşınla birlikdə oğlunun adını Heydər qoymusansa, elə bu, ümumi Azərbaycan tarixinə olan münasibətdir. Eyni zamanda əgər mənim də adımı daha da yaşatmaq istəmisinizsə, buna görə də mən təşəkkür edirəm. Mən sizi təbrik edirəm. Sizin ailənizə və balaca Heydərə cansağlığı arzu edirəm. Ümidvaram ki, o, sizin himayəniz altında böyüyəcək, Azərbaycanın dəyərli vətəndaşı olacaq və bu adı da şərəflə daşıyacaqdır.

**Dövlətimizin başçısına dərin minnətdarlığını bildirən Eldəniz Vəliyev dedi:**

– Cənab prezident, arzu edirik ki, o da Sizin kimi ağıl-kamal sahibi olsun, inşallah, böyüyəndə bu adı doğrultsun. Sizi Dünya azərbaycanlılarının həmrəylik günü və Yeni il münasibətilə ürəkdən təbrik edirik. Neçə belə yeni illərə çıxasınız.

**Heydər Əliyev:** Çox sağ olun. Mən də təbrik edirəm. Qızım, sənin sözün varmı? Bu, birinci uşağındır?

**Fatmaxanım Vəliyeva:** Bəli, cənab prezident.

**Heydər Əliyev:** Çox gözəl. Bu, böyük bir işdir.

**Fatmaxanım Vəliyeva:** Möhtərəm prezident, mən də Sizi Yeni il münasibətilə təbrik edirəm, Sizə uzun ömür, cansağlığı arzulayıram. Neçə belə bayramlara çıxasınız.

**Heydər Əliyev:** Sağ olun. Hər bir övlad ata-ana üçün şirin olur. Amma övladın dünyaya gəlməsinin əziyyətini həmişə ana çəkir. Ata o qədər əziyyət çəkmir, ana çəkir, ona görə də ana həmişə cəmiyyətdə müqəddəs bir anlayışdır. Biz vətənə də ana deyirik, torpağa da ana deyirik, anaya da ana deyirik. Bəli, ana çox geniş məfhumdur. Dünyada bütün insanların dünyaya gəlməsinin əziyyəti, zəhməti ananın üzərindədir. Ona görə, qızım, səni təbrik edirəm. İkinizi də təbrik edirəm. İndi uşaq neçə aylıqdır?

**Fatmaxanım Vəliyeva:** İki aylıqdır.

**Heydər Əliyev:** Adı ilə yaşasın, böyük oğlan olsun, kişi olsun, sizi sevindirsin və sizə nəvələr bəxş etsin. Nəvə də çox şirindir. Mənim də nəvəm var, onun da adı Heydərdir.

Mən sizin hamınızı Yeni il münasibətilə təbrik edirəm. Birinci, mən buna görə istədim ki, sizinlə görüşüm. Sizi Dünya azərbaycanlılarının həmrəylik günü – bu da bizim, müstəqil Azərbaycanın bayramıdır – bu

bayram münasibətilə təbrik edirəm. Hamınız gəncsiniz, sizə sağlam həyat, xoşbəxtlik, səadət və hər bir işinizdə uğurlar arzulayıram.

Bilirəm ki, sizin bəzi problemləriniz və bu problemlərin içərisində mənzil problemi də vardır. Ona görə də mən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Rəfael Allahverdiyevə tapşırmışdım ki, bu barədə imkanları arasın. O da mənə məlumat veribdir ki, artıq həm Surxay üçün, həm də səkkiz milyonuncu Azərbaycan vətəndaşı və onun valideynləri üçün mənzil imkanı bulunubdur. İndi onu sizə təqdim edəcəyik. Sən de görüm, mənzillər haradadır?

**Rəfael Allahverdiyev:** Cənab prezident, bu bina keçmiş Sovet küçəsinin aşağısındadır. Azər Zeynalovun və Ömər Eldarovun yaşadıqları binadır. Əvvəllər o binanı Bakı Şəhər İcra Hakimiyyəti tikirdi. Sonra kommersiya təşkilatı tikdi. Kommersiya evlərindəndir.

**Heydər Əliyev:** Yəni yeni evdir?

**Rəfael Allahverdiyev:** Bəli, yeni binadadır.

**Heydər Əliyev:** Hərəsinin neçə otağı var?

**Rəfael Allahverdiyev:** Cənab prezident, hər bir mənzil üçotaqlıdır.

**Heydər Əliyev:** Surxayınkı da üç otaq, balaca Heydərinki də üç otaq?

**Rəfael Allahverdiyev:** Bəli

**Heydər Əliyev:** Yaxşı onda sənədləri təqdim et. Ya istəyirsən mən təqdim edim?

**Rəfael Allahverdiyev:** Necə deyirsiniz.

**Heydər Əliyev:** (Sənədə baxaraq): Çox gözəldir.

**Rəfael Allahverdiyev:** Yadigardır.

**Heydər Əliyev:** Yadigardır, bəli.

Mənim də cavanlıqda evim olmayıbdır. Bakıda müxtəlif yerlərdə yaşamışam. İçərişəhərdə bir balaca otaq kirayə etmişdim. Heç bir şeyi – nə suyu, nə qazı yox idi. Bir elektrik lampası var idi, qalan hər şey həyətdə idi. Həyətdə də təxminən 60-70 belə otaq, ev var idi. Orada da yaşamışam, başqalarında da yaşamışam.

İlk dəfə mən ikiotaqlı mənzil aldım, – o vaxt anam da mənimlə idi, bacım, qardaşım da mənimlə idi,– bu, mənim üçün çox böyük hadisə oldu, bizə çox böyük sevinc gətirdi. Ona görə mən bunların hamısını görmüşəm. Mən də sizin kimi, özüm öz həyatımı qurmuş adamlardanam. İndi sizə də mənzil verilir, amma çox təmtəraqlı.

Mən mənzil almaq üçün o vaxt çox çalışdım – ora getdim, bura getdim və axırda ikiotaqlı mənzil aldım.

Gəl görüm, Surxay. Bəli, bu sənəd xüsusi tərtib olunubdur ki, məndən sizə yadigar qalsın. Verirəm sənə, köçün, ailənizlə yaşayın, xoşbəxt olun.

**Surxay Əsgərov:** Çox sağ olun.

**Heydər Əliyev:** Açarları da verin. Bu gün gedə bilərlər də? Bir nəfər qoş bunlara, aparsın evə, sabaha qalmasın.

**Rəfael Allahverdiyev:** Bu da balaca Heydərin sənədidir.

**Heydər Əliyev:** Təbrik edirəm. Sağlıqla yaşayasınız və gələcəkdə daha da yaxşı evlər alasınız.

Sizi Yeni il münasibətilə bir də təbrik edirəm, cansağlığı arzulayıram. Sağ olun.

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV AZƏRBAYCAN GƏNCLƏRİ GÜNÜNƏ HƏSR EDİLMİŞ BAYRAM GECƏSİNDƏ İŞTİRAK ETMİŞDİR

*Respublika sarayı*
*2 fevral 2000-ci il*

Dövlətimizin başçısı Heydər Əliyev bayram gecəsi başa çatdıqdan sonra səhnə arxasına gələrək iştirakçıları səmimi təbrik etdi və dedi:

– Siz bu səhnədən bütün Azərbaycan xalqını Gənclər günü münasibətilə təbrik etdiniz. Mən də bu ümumxalq bayramı, Gənclər günü münasibətilə sizi təbrik edirəm. Sizə, bütün Azərbaycan gənclərinə səadət, xoşbəxtlik, təhsildə, həyatda uğurlar arzulayıram.

Siz çox maraqlı bir gecə təşkil etdiniz. Birincisi, məni çox sevindirən odur ki, mədəniyyətimizin bütün sahələrində ilbəil gənc istedadlar meydana gəlir və biz bu gün onların bir qrupunu gördük. İkincisi, ona görə ki, siz bu gecəni çox gözəl, ruh yüksəkliyi ilə keçirdiniz. Görürəm ki, hamınız xoşbəxtsiniz, hamınız yaxşı əhval-ruhiyyədəsiniz, hamınız gözəlsiniz, Azərbaycan xalqının gözəl balalarısınız.

Bu gözəl gecəni təşkil etdiyinizə və keçirdiyinizə görə sizə təşəkkür edirəm. Təhsilinizdə, həyatınızda sizə yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

## AZƏRBAYCANIN XALQ ARTİSTİ BƏSTƏKAR POLAD BÜLBÜLOĞLUNA

*Bakı şəhəri*
*4 fevral 2000-ci il*

Əziz Polad Bülbüloğlu!

Sizi – Azərbaycan musiqi mədəniyyətinin görkəmli xadimini yubileyiniz münasibətilə təbrik edir, Sizə səadət, cansağlığı və xoşbəxtlik arzulayıram.

Azərbaycan mahnı sənətinin zəngin ənənələrini özündə əks etdirən nəğmələriniz estrada tarixinə həmişəlik daxil olmuşdur. Əgər XX əsrin birinci yarısında Sizin atanız, Azərbaycanın peşəkar vokal sənətinin banisi böyük Bülbül öz yaradıcılığında Azərbaycan muğam sənəti ilə Avropa ifaçılıq məktəbinin əvvəllər misli görünməmiş vəhdətini yaratmağa nail ola bilmişdisə, əsrin ikinci yarısında Sizin yaradıcılığınız müasir estarada mahnı sənətinin milli xalq melodiyalarımızın ritmləri ilə birləşməsinin rəmzinə çevrildi.

Siz həm bəstəkar, həm də öz mahnılarınızın təkrarolunmaz ifaçısı kimi keçmiş Sovet İttifaqı gəncləri içərisində tez bir zamanda böyük uğur qazana bildiniz. Pərəstişkarlarınız tərəfindən həmişə Azərbaycan bəstəkarlıq məktəbinin inkişafında mühüm bir mərhələ kimi qəbul edilən sənətiniz bu gün də gənc nəsil tərəfindən olduqca yüksək qiymətləndirilir.

Siz müxtəlif janrlarda əsərlər yaratmaqda böyük uğurlar qazana bilmisiniz. Onların içərisində kinofilmlərə yazdığınız musiqi xüsusilə seçilir. Çoxşaxəli istedadınız kino aktyoru kimi fəaliyyətinizdə də özünü göstərir.

Sizi yubiley münasibətilə bir daha təbrik edir və yeni yaradıcılıq uğurları diləyirəm.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## Ə.B.MƏMMƏDOVUN «ŞÖHRƏT» ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan musiqi mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Əlibaba Balaəhməd oğlu Məmmədov «Şöhrət» ordeni ilə təltif edilsin.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 fevral 2000-ci il.*

## XALQ ARTİSTİ ƏLİBABA MƏMMƏDOVA

*Bakı şəhəri, 4 fevral 2000-ci il*

Hörmətli Əlibaba Məmmədov!

Sizi – Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsini 70 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Siz xalq musiqimizin incəliklərini, klassik Azərbaycan poeziyasının nümunələrini gözəl bilən və öz orijinal ifa üslubu ilə milli musiqi xəzinəmizi zənginləşdirən sənətkarlardansınız. Muğam, təsnif və xalq mahnılarımızın mahir ifaçısı kimi Sizin əlli illik yaradıcılıq yolunuz milli xanəndəlik məktəbinin ənənələrinin qorunub saxlanılması və inkişaf etdirilməsi işinə xidmətin gözəl nümunəsidir. Klassik musiqimizin bir çox incilərinə yeni nəfəs, yeni həyat verməklə fitri istedadınızı, novatorluq bacarığınızı və böyük işgüzarlığınızı əyani şəkildə nümayiş etdirmisiniz. Yüksək səhnə mədəniyyəti, məlahətli səs və bənzərsiz ifa tərzi ilə səciyyələnən sənətiniz xalqımızın böyuk rəğbət və məhəbbətini qazanmışdır.

Uzun illər rəhbərlik etdiyiniz «Humayun» xalq çalğı alətləri ansamblı milli musiqimizin təbliğ olunmasında və ölkəmizdə yeni istedadların üzə çıxarılmasında mühüm rol oynamışdır. Öz repertuarının rəngarəngliyi və zənginliyi ilə seçilən bu ansamblın fəaliyyəti musiqi ictimaiyyətimiz tərəfindən həmişə yüksək qiymətləndirilmişdir.

El musiqisi əsasında yaratdığınız mahnı və təsniflər çoxşaxəli yaradıcılığınızın yeni çalarlarını aşkar etmişdir. Vətən, xalq sevgisi, yüksək əxlaqi dəyərləri tərənnüm edən bu əsərlər ölkəmizin musiqi həyatında öz layiqli yerini tutmuşdur.

Sizin Asəf Zeynallı adına Musiqi Texnikumu və Bülbül adına Orta İxtisas Musiqi Məktəbindəki pedaqoji fəaliyyətiniz də təqdirəlayiqdir. Respublikada istedadlı ifaçıların yeni nəslinin yetişdirilməsində Sizin zəhmətiniz böyükdür. Onların bir çoxu artıq öz yaradıcılığı ilə xalq arasında böyük hörmət qazanmış adlı-sanlı sənətkarlardır.

İnanıram ki, zəngin təcrübənizdən istifadə edərək yeni xanəndələr nəslinin yetişdirilməsi yolunda bundan sonra da əlinizdən gələni əsirgəməyəcək və muğam ifaçılığı məktəbinin daha da inkişaf etdirilməsi üçün səylərinizi davam etdirəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## XALQ ARTİSTİ QƏMƏR XANIM ALMASZADƏYƏ

*Bakı şəhəri*
*9 mart 2000-ci il*

Hörmətli Qəmər xanım!

Sizi – müsəlman Şərqinin ilk peşəkar balerinasını, Azərbaycanın görkəmli balet ustasını 85 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Siz klassik rəqslərin və folklorun gözəl bilicisi kimi Azərbaycanın milli xoreoqrafiya məktəbinin yaranmasında və inkişafında əvəzsiz rol oynamış böyük sənətkarlardansınız. Hələ gənc yaşlarınızda rəqs sənətinin sirlərinə yiyələnməyiniz və səhnəyə qədəm qoymağınız cəmiyyətdəki bir sıra stereotipləri alt-üst edərək, Azərbaycan qadınlarının XX əsrdə incəsənət sahəsindəki uğurlarının təməlini qoydu, milli musiqi mədəniyyətimizin yeni bir janrının meydana çıxmasına güclü təkan verdi.

Avropa və rus klassiklərinin şah əsərlərində yaratdığınız dolğun, rəngarəng səhnə obrazları öz təkrarolunmaz ifa tərzi və yüksək peşəkarlıq səviyyəsinə görə həmişə balet mütəxəssisləri tərəfindən əsil sənət inciləri kimi qiymətləndirilib. Sizin milli baletlərimizdə ifa etdiyiniz partiyalar Azərbaycan xoreoqrafiya sənətinin misilsiz nailiyyətləri hesab olunur. Azərbaycan baletinin parlaq ulduzu kimi yaratdığınız surətlər milli incəsənət xəzinəmizin qızıl fonduna həmişəlik daxil olmuşdur.

Dövlət Opera və Balet Teatrının səhnəsində nümayiş etdirilən bir çox balet əsərinin müvəffəqiyyətləri ilk növbədə Sizin onlara verdiyiniz quruluşla bağlıdır. Siz öz yüksək ifaçılıq sənətinizlə və balet tamaşalarına verdiyiniz quruluşlarla klassik xoreoqrafiya ənənələri ilə Azərbaycan xalq rəqs yaradıcılığı nailiyyətlərinin uğurlu sintezini yarada bilmisiniz.

Məhz bu baxımdan Sizi mübaliğəsiz olaraq Azərbaycan baletinin təşəkkül tapmasında başlıca rol oynamış sənətkar adlandırmaq olar.

Özünəməxsus ənənələri olan Azərbaycan balet sənətinin sirlərini gənc nəslə öyrətmək sahəsindəki pedaqoji fəaliyyətiniz də yüksək qiymətə layiqdir. Uzun illər Bakı Xoreoqrafiya Məktəbində Azərbaycanın milli balet kadrlarının hazırlanması üçün Siz böyük əmək sərf etmisiniz. Ye-

tişdirmələrinizin bir çoxu sənət aləminin yüksək pillələrinə qalxaraq Azərbaycan baletinin inkişafı işinə xidmətlər göstərmişdir.

Keçdiyiniz şərəfli sənət yolu həmişə yüksək qiymətləndirilmiş, Sizin yaradıcılığınız mükafatlara, orden və medallara layiq görülmüşdür. Ən böyük mükafatınız isə ölkəmizdə balet həvəskarlarının, bütün qədirbilən xalqımızın Sizə və sənətinizə bəslədiyi hədsiz məhəbbət, dərin ehtiram olmuşdur.

İnanıram ki, Sizin səhnə həyatınız hələ neçə nəsillər üçün əsil vətənpərvərlik, sənətə sədaqət və fədakarlıq nümunəsi olacaqdır.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## C.X.ƏKBƏROVUN «ŞÖHRƏT» ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycanda milli musiqi sənətinin inkişafındakı xidmətlərinə görə Canəli Xanəli oğlu Əkbərov «Şöhrət» ordeni ilə təltif edilsin.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 mart 2000-ci il*

## XALQ ARTİSTİ CANƏLİ ƏKBƏROVA

*Bakı şəhəri, 9 mart 2000-ci il*

Hörmətli Canəli Əkbərov!

Sizi – Azərbaycan musiqi ifaçılığı məktəbinin görkəmli nümayəndəsini 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz müasir musiqi sənətimizdə öz dəst-xətti ilə seçilən, xanəndəlik məharəti və səhnə mədəniyyəti ilə musiqisevərlərin dərin hörmət və məhəbbətini qazanmış sənətkarlardansınız. Klassik muğam ifaçılığının zəngin ənənələrini qoruyub saxlamaq, onlara yaradıcı münasibət bəsləmək, bütün imkanları muğamın bütöv şəkildə ifasına yönəltmək yaradıcılığınızın əsas xüsusiyyətlərindəndir. Yüksək diapazonlu ecazkar səsiniz, mətn ilə musiqinin sıx əlaqəsi zəminində güclü emosional çalar yaratmaq bacarığınız, ifa tərzinizə xas olan məziyyətlər muğam və xalq mahnılarımızın mahir ifaçısı kimi Sizə şöhrət gətirmişdir.

Fitri istedadınız və zəhmətsevərliyiniz sayəsində ən mürəkkəb muğamların texnikasını dərindən mənimsəyə bilməyiniz milli operalarımızda uğurla çıxış etməyinizə imkan vermişdir. Uzun illərdən bəri solisti olduğunuz Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində yaratdığınız yaddaqalan obrazlar milli opera tarixinin parlaq səhifələridir. Opera səhnəsindəki fəaliyyətinizlə xanəndəlik sənətiniz arasındakı əlaqə yaradıcılığınızı daha da zənginləşdirərək ona çoxşaxəli xarakter vermişdir.

Siz muğam və xalq mahnılarımızı dünyanın müxtəlif ölkələrində yüksək məharətlə ifa etməklə onları ayrı-ayrı xalqların nümayəndələrinə sevdirə bilmiş, musiqimizin təbliğində böyük xidmətlər göstərmisiniz.

Sənət yollarında qazandığınız təcrübə və biliyinizi, muğam ifaçılığının bütün sirr və incəliklərini Siz həvəslə gənclərə öyrədirsiniz. Bir çox gənc ifaçılar məhz Sizin köməyiniz ilə ilk yaradıcılıq addımlarını atmış, böyük səhnədə öz istedadlarını nümayiş etdirmişlər.

Əminəm ki, müstəqil Azərbaycanımızın musiqi mədəniyyətinin inkişaf etdirilməsi yolunda bundan sonra da var qüvvənizi sərf edəcək və sənətinizin pərəstişkarlarını sevindirəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yeni yaradıcılıq uğurları arzulayıram.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## Z.M.HƏMZƏYEVANIN «ŞÖHRƏT» ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan teatr sənətinin inkişafındakı xidmətlərinə görə Zəroş Mirzəbağır qızı Həmzəyeva «Şöhrət» ordeni ilə təltif edilsin.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 mart 2000-ci il*

## XALQ ARTİSTİ ZƏROŞ XANIM HƏMZƏYEVAYA

*Bakı şəhəri, 27 mart 2000-ci il*

Hörmətli Zəroş xanım!

Sizi – Azərbaycan teatr sənətinin görkəmli nümayəndəsini 75 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Ömrünün yarıməsrlik bir dövrünü teatra həsr etmiş sənətkar kimi Sizin Azərbaycan aktyorluq məktəbinin təşəkkül tapıb inkişaf etməsində xidmətləriniz vardır. Dünya klassiklərinin və Azərbaycan dramaturqlarının səhnə əsərlərində yaratdığınız rəngarəng obrazlarla Siz teatr pərəstişkarlarının dərin hörmətini və rəğbətini qazanmısınız. Cəfər Cabbarlı dramaturgiyası Sizin yaradıcılığınızda xüsusi yer tutur. Görkəmli dramaturqun əsərlərində böyük məhəbbətlə yaratdığınız qadın surətləri yüksək sənətkarlıq səviyyəsinə görə teatr tariximizdə özünəməxsus iz qoymuşdur. Həmin pyeslərdə aparıcı xətlərdən olan qadın azadlığı, qadınların maariflənmdirilməsi, hüquqlarının müdafiəsi ideyaları sizin qəhrəmanlarınızın simasında böyük təsir gücünə malik olmuş, cəmiyyətdə qadınların layiqli yer tutması işinə təkan vermişdir.

Fitri istedad, ifa üslubunuza xas olan təbiilik, yüksək səhnə mədəniyyəti Sizə həmişə öz həyatiliyi ilə seçilən müxtəlif taleli saysız-hesabsız surətlər yaratmağa imkan vermişdir. Respublikanın tanınmış teatr xadimi, mərhum həyat yoldaşınız İbrahim Həmzəyevlə birlikdə Naxçıvan Dövlət Dram Teatrının səhnəsində keçən sənət yolunuz 40-50-ci illərdə bu qədim diyarın mədəni həyatının canlanmasında mühüm rol oynamışdır. Həmin dövrü haqlı olaraq Naxçıvan teatrının «Həmzəyevlər dövrü» adlandırmaq olar. Milli teatr sənətimizin Kazım Ziya, Sidqi Ruhulla, Rza Əfqanlı, Mustafa Mərdanov, Ələsgər Ələkbərov kimi sönməz ulduzları ilə birlikdə oynadığınız hər bir tamaşa Naxçıvanın teatr tarixində qızıl hərflərlə yazılmışdır.

Yüksək peşəkarlıq, seçdiyiniz sənətə vurğunluq və sədaqət, milli teatrımızın inkişafı yolunda göstərdiyiniz fədakarlıq gənc aktyorlar üçün əsil həyat məktəbidir. İnanıram ki, sənətkarların hələ neçə-neçə nəsli bundan sonra da həmin məktəbdən faydalanacaq, vətənə, xalqa, sənətə sevgi dərsi alacaqdır.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

# QƏDİM, MÖHTƏŞƏM, ZƏNGİN, ƏBƏDİYAŞAR MƏDƏNİYYƏT ABİDƏMİZİN YUBİLEYİ

*9 aprel 2000-ci il*

**Prezident Heydər Əliyev incəsənət ustalarına müraciətlə dedi:**

– Mən sizi təbrik edirəm. Biz «Dədə Qorqud»un 1300 illik yubileyini üç ildir ki, hazırlayırdıq. Bu gün onu gözəl, təntənəli keçirdik. Əziz dostumuz Süleyman Dəmirəl də çox gözəl nitq söylədi, başqa qonaqlarımız da nitq söylədilər.

Ancaq sizin gözəl kompozisiyalı çıxışınız bizimkindən də üstün oldu. Biz dediyimiz sözlərin hamısını siz səhnədə göstərdiniz. Çox sağ olun, təşəkkür edirəm.

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BAKI TÜRK ŞƏHİDLİYİNİN VƏ XATİRƏ ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQİ

*9 aprel 2000-ci il*

– Zati-aliləri, Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Süleyman Dəmirəl!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün biz əlamətdar hadisə münasibətilə buraya toplaşmışıq. Ancaq bu günə qədər, son iki gündə Azərbaycanda tarixi hadisələr baş verir. Türkdilli dövlətlər birliyinin VI zirvə görüşü Bakıda, Azərbaycanda keçirildi. Biz dövlətlərimizin, xalqlarımızın, millətlərimizin daha da bir olması, yaxınlaşması, sıx əməkdaşlıq etməsi üçün çox dəyərli qərarlar qəbul etdik, böyük bəyannamə imzaladıq. Bu gün biz hamımızın ulu babası olan «Kitabi–Dədə Qorqud» dastanının 1300 illiyini bir yerdə təntənəli bayram kimi qeyd etdik.

Bu da təsadüfi deyildir. Çünki biz – türk xalqları, türkdilli xalqlar bir kökə, bir dilə, eyni dinə, bir milli adət-ənənəyə mənsubuq. Bizim bu köklərimiz o qədər dərindir ki, 1300 il bundan öncə bizim bütün xalqlarımızın ulu babası olan «Kitabi–Dədə Qorqud»u indi yenidən oxuyuruq, yenidən dərk edirik, yenidən anlayırıq. Bu bayram mərasimlərində bütün dünyaya bəyan edildi ki, bizim nə qədər müdrik əcdadlarımız olubdur, xalqımız dünya mədəniyyətinə, sivilizasiyasına böyük şəxsiyyətlər veribdir. Onların içərisində ən qədimi ulu babamız Dədə Qorquddur.

Biz bir yerdə olaraq həmişə bir-birimizi qorumuşuq, bir-birimizə yardım etmişik. Dədə Qorqud da həmişə deyibdir ki, bir olun, əl-ələ verin. Nə qədər bir olsanız, əl-ələ versəniz, o qədər də uğurlu, o qədər də qalib olacaqsınız.

Bu gün biz böyük incəsənət əsərinə baxırdıq. Orada dədə Qorqudun yazıları əsasında Qazan xan oğlunu cəngavərliyə hazırlamaq üçün ona ox verir. Oğlu bir oxu dizinə vuraraq sındırır. Amma sonra bir neçəsini verir, sındıra bilmir. Bu onu göstərir ki, bir olsanız, sizi heç kəs qıra bilməz, heç kəs dağıda bilməz, heç kəs sizə qalib gələ bilməz. Ona görə də əsrlər boyu bizim birliyimiz həmişə qalibiyyət gətirmişdir.

XX əsrdə Azərbaycan xalqının taleyi çox ağır mərhələlərdən keçibdir. Rusiya imperiyası dağıldıqdan sonra Azərbaycan böyük təhlükə və faciələr qarşısında olubdur. Ermənilər XX əsrdə Azərbaycan xalqına qarşı bir neçə dəfə soyqırımlar həyata keçiriblər. Onlardan ən dəhşətlisi 1918-ci il mart ayının 31-də Bakıda keçirilən soyqırımdır. Təkcə Bakıda yox, Azərbaycanın bütün bölgələrində belə soyqırımlar keçirilmişdir. Minlərlə, on minlərlə günahsız azərbaycanlılar qətlə yetirilmişlər.

Bəli, o zaman Azərbaycan, Bakı bir çox ölkələrin maraq dairəsinə çevrilmişdi. Burada, azərbaycanlıların qədim torpağında yadellilər hökm sürmək istəyirdilər, Azərbaycanı, Bakını öz əllərinə keçirmək istəyirdilər. O vaxt döyüşlərdə bizə yardım etməyə gələn türk ordusunun cəngavər, qəhrəman oğulları olmuşdur. Mənim əziz dostum, qardaşım Süleyman Dəmirələ dəfələrlə demişəm ki, Nuru Paşanı, Xəlil Paşanı Bakıda indiyə qədər hamı xatırlayır. Vaxt keçib, zaman keçib, Sovet hakimiyyəti illərində bu tarix tamamilə pozulub, qaralanıb, bu tarixi öyrənməyə insanların imkanları olmayıb. Ancaq o adlar, həmin adların arxasında olan qəhrəman türk əsgərləri xalqımızın qəlbində yaşayıbdır.

Bəli, onlar burada torpağa veriliblər. Türkiyədən gəlmiş qardaşlarımız, şəhid olanlar və azərbaycanlı şəhidlər bir yerdə məzara qoyulmuşlar. Bura, Bakının bu hissəsi ilk dəfə o vaxt məzarlığa çevrilmişdi. Ancaq sovet hakimiyyəti illərində bu məzarlar dağıdılmış, pozulmuş, insanlar bu məzarları ziyarət etməkdən məhrum olmuşlar. Burada park salınmış, parka heç azərbaycanlı olmayan, 20-ci illərdə Azərbaycana başçılıq edən, Rusiyadan gəlmiş Kirovun adı verilmişdi. Onun heykəli də Bakının ən yüksək nöqtəsində qoyulmuşdu. Yəni bu məzarların üzərində park düzəldib, insanları burada şənləndirmək, gəzdirmək niyyəti olmuşdur. Bəli, bu on illərlə davam etmişdir.

1990-cı ildə Azərbaycan xalqına qarşı sovet imperiyası tərəfindən, Moskva hakimiyyəti tərəfindən yeni bir təcavüz başlandı. Azərbaycan xalqı öz azadlığı, müstəqilliyi uğrunda ayağa qalxdığına görə və artıq kommunist rejiminə dözmədiyinə görə, meydanlara, küçələrə çıxdığına görə yanvarın 19-dan 20-nə keçən gecə Bakıya sovet ordusunun qoşunları yeridildi, tanklar gətirildi, küçələrdə günahsız insanlar şəhid oldular. O şəhidlər burada torpağa verildilər.

Bilirsiniz ki, 1988-ci ildən Ermənistan Azərbaycana qarşı hərbi təcavüzə başlayıbdır, müharibə gedibdir. Bizim qəhrəman oğullarımız torpaqlarımızın qorunması uğrunda şəhid olublar. O şəhidlərin çoxu da burada torpağa veriliblər. Onların məzarları buradadır.

Bu da tamamilə tarixin həqiqətləridir ki, vaxtilə Azərbaycanı qorumaq üçün türk əsgərləri, Azərbaycan qəhrəmanları burada bir yerdə şəhid olublar. 1990-cı illərdə şəhid olanlar da buradadırlar. Ona görə də bütün bu yer indi artıq Şəhidlər xiyabanıdır və Şəhidlər xiyabanında biz şəhidlərimizin xatirəsinə böyük bir abidə ucaltmışıq. Orada əbədi məşəl yanır. Burada isə indi biz 1918-ci ildə şəhid olmuş türk əsgərlərinin məzarları üzərində yeni bir abidə ucaltmışıq. Burada həm türk əsgərlərinin, həm də Azərbaycan qəhrəmanlarının məzarları bir yerdədir.

Bu gün – bu da bir rəmzi məna daşıyır – «Dədə Qorqud» eposunun 1300 illik yubileyini bir yerdə bayram etdik, türk ölkələrinin birliyini dünyaya bir daha nümayiş etdirdik. Bu gün də bu şəhidləri yad edirik, onların xatirəsi qarşısında baş əyirik və onların xatirəsinə ucaldılmış bu abidənin açılışına gəlmişik. Mən çox məmnunam ki, bu abidəni biz Azərbaycan xalqının əziz dostu və qardaşı Süleyman Dəmirəlin iştirakı ilə açırıq. Burada olan bizim adamlar deyirlər ki, bu abidə çoxdan hazırlanıbdır. Mənə dəfələrlə demişdilər ki, bunu açmaq lazımdır. Ancaq mən demişdim ki, yox, əgər bizim dostumuz, qardaşımız, Türkiyə Cümhuriyyətinin prezidenti Süleyman Dəmirəl Azərbaycana gəlməsə, – o, tez-tez gəlirdi, – fürsət tapmasa, biz bunu açmayacağıq. Bu fürsət indi bizim əlimizə keçib, abidəni bir yerdə açırıq.

Hörmətli dostum və qardaşım!

Mən sizə Azərbaycan xalqı adından bir daha təşəkkür edirəm. Bütün türk xalqına təşəkkür edirəm. Burada şəhid olmuş türk əsgərlərinin qohum-əqrəbasına öz təşəkkürümü bildirirəm və bu əsgərlərin simasında qəhrəman türk ordusuna, bu gün dünyanın ən güclü ordularından biri olan Türkiyə Cümhuriyyətinin ordusuna təşəkkürümü bildirirəm və bu şəhidlərə Allahdan rəhmət diləyirəm. Allah rəhmət eləsin, qəbirləri nurla dolsun.

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV XALQ ARTİSTLƏRİ FİDAN VƏ XURAMAN QASIMOVA BACILARININ İŞTİRAKI İLƏ KEÇİRİLƏN KONSERTDƏ OLMUŞDUR

*Respublika sarayı*
*21 aprel 2000-ci il*

**Müvəffəqiyyətlə keçən konsert başa çatdıqdan sonra Xuraman Qasımova öz adından və bütün ifaçılar adından prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirərək dedi:**

– Möhtərəm cənab prezident, icazə verin Sizə öz təşəkkürümüzü bildirək ki, vaxt ayırıb bizim konsertimizə təşrif buyurdunuz. Hamınıza təşəkkür edirik ki, bizi belə dəstəkləyir, alqışlayırsınız. Çox xoşbəxtik və sevinirik ki, hörmətli prezidentimiz öz gəlişi ilə bu konsertə xüsusi yaraşıq verdi. Biz sizin hamınıza bütün kollektivin adından «çox sağ olun» deyirik.

Əlbəttə, biz hamımız çox həyəcanlıyıq. «Azərbaycan Mədəniyyətinin Dostları» Fonduna, onun sədri, daxilən də, zahirən də çox gözəl insan olan Mehriban xanıma mədəniyyətimizə göstərdiyi qayğıya görə təşəkkür edirik. Mədəniyyət Nazirliyinə, konsertimizin baş tutmasına kömək edən bütün insanlara dərin minnətdarlığımızı bildiririk. Çox sağ olun.

**Prezident Heydər Əliyev konsertdən sonra xalq artistləri Fidan və Xuraman Qasımova bacıları, Rauf Abdullayev ilə görüşdü, onları uğurlu çıxışları münasibətilə təbrik edərək dedi:**

– Həmişəki kimi, çox yaxşı oxudunuz. Yadınızdadırmı, mən söz vermişdim gələcəyəm və gəldim.

**Fidan Qasımova:** Çox sağ olun. Hər zaman olduğu kimi, Siz sözünüzün üstündə durursunuz, bizə qayğı göstərirsiniz, dəstək verirsiniz. Cənab prezident, proqramımız xoşunuza gəldimi?

**Heydər Əliyev:** Yaxşı oxudunuz, çox yaxşı, xoşuma gəldi.

**Xuraman Qasımova:** Sizi yormadıq ki?

**Heydər Əliyev:** Yox. Bu gün mənim doğrudan da çox ağır günüm idi. Mən saat 2-dən buraya gələnə qədər ağır bir müşavirə keçirir-

dim. Həddindən artıq yorulmuşdum və oradan çıxıb buraya gəlmişəm. Orkestr də çox xoşuma gəldi. Orkestr xeyli irəliləyibdir.

**Fidan Qasımova:** Möhtərəm prezident, Siz gələndə daim qayğı göstərirsiniz.

**Heydər Əliyev:** Bir mən gələndə yox, indi də bu orkestrin səviyyəsi qalxıbdır. Bu, çox gözəldir.

**Mədəniyyət naziri Polad Bulbüloğlu:** Cənab prezident, Siz kömək etdiniz, maaşları qaldırdınız, musiqi alətləri aldınız, ona görə də səviyyəsi qalxıbdır.

**Heydər Əliyev:** Elədir, indi orkestr çox gözəl bir simfonik orkestrdir.

**Rauf Adullayev:** Çox sağ olun, cənab prezident, Sizə minnətdarıq.

Prezident Heydər Əliyev incəsənət ustaları ilə xatirə şəkli çəkdirdi.

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV VƏ GÖRKƏMLİ ALİM İHSAN DOĞRAMACI «QIZ QALASI» TAMAŞASINA BAXMIŞLAR

*Akademik Opera və Balet Teatrı*
*25 aprel 2000-ci il*

Böyük müvəffəqiyyətlə keçən tamaşa başa çatdıqdan sonra Azərbaycan Prezidenti Heydər Əliyev və cənab İhsan Doğramacı, onun xanımı səhnə arxasına gələrək yaradıcı kollektivlə görüşdülər.

**Tamaşanın yaradıcı kollektivini hörmətli qonağa təqdim edən Prezident Heydər Əliyev dedi:**

– Görürsünüz, necə gözəl qızlardır?

**İhsan Doğramacı:** Dünyanın ən gözəl qızları və ən birinci sənətçiləri bunlardır.

**Heydər Əliyev:** Ona görə də mən deyirəm ki, Azərbaycanın qızları və qadınları bütün dünyadakı qızlardan gözəldir. Amma oğlanları da gözəldir.

Cavanşir Cəfərov baş dirijordur. Musa Mirzəyev Azərbaycanın böyük bəstəkarıdır. O, 60 il bundan əvvəl yazılmış əsəri yenidən işləyibdir. Fərhad Bədəlbəylini isə yaxşı tanıyırsan, Bilkənd Universitetində çox olubdur.

**Dövlətimizin başçısı Heydər Əliyev tamaşanın yaradıcı heyətinə müraciətlə dedi:**

– Bu gün «Qız Qalası» baletini yenidən bizə və bütün Azərbaycana çox gözəl göstərdiniz. Mənə bildirmişdilər ki, «Qız Qalası» baleti yenidən işlənibdir. Türkiyədən gələn dostlarımıza bildirmişəm ki, bu baleti 1940-cı ildə bizim mərhum böyük bəstəkarımız Əfrasiyab Bədəlbəyli yazıbdır. Bu, Azərbaycanın ilk milli baletidir. Əgər Azərbaycan xalqı 60 il bundan öncə belə bir bəstəkar yetişdiribsə və belə bir milli baleti tamaşaya qoyubsa, görün xalqımızın mədəniyyət səviyyəsi nə qədər yüksəkdir! Azərbaycan baletinin ilk balerinası Qəmər Almaszadədir. O, indi sağdır, bizimlə bərabərdir, ola bilər, bu gün buraya gələ bilməyibdir. O vaxt bu tamaşanın bütün quruluşunu Qəmər Almaszadə hazırlayıbdır. İndi həmin quruluşdur, həmin musiqidir.

Yenə də deyirəm, quruluş həmin quruluşdur. Ancaq Musa Mirzəyev onun musiqisini bir az müasirləşdiribdir. Bədii tərtibat çox gözəldir. Bu tamaşanın üzərində çalışanlar Qəmər Almaszadənin quruluşunu bu gün çox gözəl nümayiş etdirdilər.

Milli baletimizin 60 illik tarixi vardır. Milli operamızın tarixi 100 ilə yaxındır. Bizim böyük bəstəkarımız Üzeyir Hacıbəyov ilk dəfə 1908-ci ildə «Leyli və Məcnun» operası ilə Azərbaycan operasının təməlini qoyubdur. O vaxtlar Türkiyədə bunlar yox idi, başqa şeylər var idi.

Bizim xalqımız bu dünyəvi, layiq, ümumbəşəri dəyərləri hələ XX əsrdə mənimsəyibdir, qəbul edibdir və XX əsrin əvvəlindən Azərbaycanda hər bir sahə, o cümlədən mədəniyyət sahəsi çox inkişaf edibdir.

Mən çox şadam ki, bu balet yaşayır. Bizim milli baletimiz, milli musiqimiz, milli rəqslərimiz olduğuna görə mən hələ gənc yaşlarımdan bu baleti sevirəm. Mən bu baletə bir neçə dəfə baxmışam. Bu balet uzun bir fasilədən sonra yenidən canlanıbdır, səhnəyə qoyulubdur. Bu ifaçılar da, təbiidir ki, onu çox gözəl ifa etdilər. Bilmirəm, siz necə, mən çox təsirləndim.

**İhsan Doğramacı:** Mən də çox təsirləndim. Mən dünyanın ölkələrində balet tamaşalarına baxmışam, amma bunun qədər gözəlini, yaxşısını görməmişəm.

**Heydər Əliyev:** Mən çox təsirləndim. Demək, bizim mədəniyyətimiz yaşayır, inkişaf edir, hətta keçmiş illərə, onilliklərə görə daha da yüksək səviyyədədir.

Mən çox məmnunam, sizin hamınıza təşəkkür edirəm. Bizim incəsənətimiz, operamız, baletimiz, yəni dünyəvi teatrımız daim yaşamalıdır. Azərbaycan dünyəvi teatrının 125 illik tarixi vardır. İndi biz onun yubileyini qeyd edirik. Teatrımız, incəsənətimiz yaşamalıdır və göstərməlidir ki, Azərbaycan xalqı kökündən mədəniyyətə mənsub olan xalqdır. Azərbaycan xalqı dünya mədəniyyətindən, ümumbəşəri dəyərlərdən həmişə istifadə edib və istifadə edəcəkdir. Bunun da ifaçıları sizsiniz. Mən hamınızı təbrik edirəm.

Tamaşanın rəssamı da çox gözəl tərtibat veribdir. Keçmişdə də bu tamaşanın müxtəlif tərtibatı olubdur. Bugünkü tərtibat da çox gözəldir. Sizin hamınıza təşəkkür edirəm.

Bilirsiniz ki, mən sizin maaşlarınızı altı dəfə artırdım. Mən Azərbaycanda heç bir təbəqənin maaşını altı dəfə artırmamışam. Onların bir hissəsinin əmək haqqını 25 faiz, başqalarının maaşını 30 faiz, 2 dəfə, amma sizin əmək haqqınızı altı dəfə artırmışam. Bilmirəm, bu, sizə çatır, ya çatmır?

**İhsan Doğramacı:** Yenə də azdır.

**Heydər Əliyev:** Əgər belə çalışsanız, baletimizi inkişaf etdirsəniz, bir müddətdən sonra bu məsələyə yenidən baxaram, maaşınızı bir neçə dəfə yenə də artıraram. Çünki bu, çox ağır sənətdir.

**İhsan Doğramacı:** Amma bu müddət uzun çəkməsin.

**Heydər Əliyev:** Bəli, uzun çəkməyəcək. Yenə də deyirəm, bu, çox ağır, çətin sənətdir.

**İhsan Doğramacı:** Cənab Prezident, mənimlə buraya Türkiyədən çoxlu tələbələr də gəlibdir. Mən onlara dedim ki, hər biriniz Azərbaycandan gözəl bir qız alıb aparın ki, Türkiyədə nəslimiz gözəlləşsin.

**Heydər Əliyev:** Hələ baxmaq lazımdır ki, qızlar onlara gedəcəklər, ya yox.

**İhsan Doğramacı:** Azərbaycanın bütün qızları gözəldir.

**Musa Mirzəyev** (bəstəkar): Mən demək istəyirəm ki, «Qız Qalası» Şərqdə, müsəlman aləmində ilk baletdir.

**Yulana Əlikişizadə** (baletmeyster): Hörmətli prezident, tamaşamıza baxmağa gəldiyinizə görə bütün truppamız adından Sizə təşəkkürümüzü bildirmək istəyirəm. Balet sənətimizə belə böyük diqqət və qayğı göstərdiyinizə görə də Sizə dərin minnətdarlığımızı bildiririk.. Sizin fərmanınızla bizim maaşımız dəfələrlə qaldırıldı. Əlbəttə, bu, bizim üçün böyük sevinc, eyni zamanda, böyük məsuliyyətdir. Buna görə də söz veririk ki, Azərbaycan baletinin, incəsənətimizin daha da inkişaf etməsi üçün qüvvə və bacarığımızı əsirgəməyəcəyik.

Cənab Prezident, Sizə bir daha «çox sağ olun» deyirik.

**Heydər Əliyev:** Sağ olun. Mən bir məsələni də demək istəyirəm. Adətən, bir dəfə, iki dəfə gəlirlər, mənə müraciət edirlər ki, müəllimlərin, həkimlərin, onun, bunun maaşını artırın. Amma gərək mən büdcəyə baxam ki, imkan var, yoxsa yox. Maaşları az olmasına baxmayaraq, Dövlət Akademik Opera və Balet Teatrının kollektivi bir dəfə də xahiş etməmişdi ki, onların maaşını artırım. Bunlar aşağı maaşla yaşayıb və bu cür fədakarlıqla çalışıblar. Mən özüm bildim və bunların maaşının artırılması şəxsən mənim öz təşəbbüsümdür.

Prezident Heydər Əliyev, İhsan Doğramacı və onun xanımı tamaşanın iştirakçıları ilə xatirə şəkli çəkdirdilər.

Sonra Azərbaycan Prezidenti Heydər Əliyev xalqımızın böyük dostu, görkəmli alim İhsan Doğramacı və onun ailə üzvləri ilə mehribanlıqla xudahafizləşdi.

**İhsan Doğramacı dövlətimizin başçısına müraciətlə dedi:**

– Hörmətli Prezident, sabah səhər mən cismən təyyarədə olacağam, amma ürəyim Sizinlə qalacaqdır. Sağ olun.

**Heydər Əliyev:** Sizə yaxşı yol, böyük uğurlar arzulayıram. Azərbaycana yenə də gəlin, şəxsən mənim qonağım olun, Siz mənim çox etibarlı dostumsunuz. Sağ olun.

Dövlətimizin başçısı Heydər Əliyev daha sonra professor İhsan Doğramacı, onun ailə üzvləri ilə mehribanlıqla, səmimiyyətlə görüşüb ayrıldı.

*Hər bir xalqın mədəniyyəti həmişə onu yüksəldir, bütün dünyada tanıdır, mənəviyyatı zənginləşdirir.*

*Xalqımız zəngin mədəniyyətə malikdir.*

*Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir.*

*Kitabxana elə bir yerdir ki, gərək daim onun fondu genişlənsin.*

*Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir.*

*Azərbaycan mədəniyyəti öz milliliyini saxlayaraq, bu zəmin əsasında klassik mədəniyyət səviyyəsinə gəlib çatmışdır.*

*Azərbaycan xalqının ümummilli lideri*
*HEYDƏR ƏLİYEV*



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Bakılı oğlanlar" Şən və Hazırcavablar Klubu komandasının konsertində. *4 aprel 1999-cu il*



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev xalq artistləri M.Maqomayev və T.Sinyavskaya ilə birgə. *28 iyul 1999-cu il*



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev C.Məmmədquluzadənin Naxçıvandakı ev-muzeyində. *13 oktyabr 1999-cu il*



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Prezident sarayında xalq yazıçıları və şairləri qəbul edərkən. *10 noyabr 1999-cu il*



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycan Mədəniyyətinin Dostları Fondunun təşəbbüsü ilə keçirilən “Sədası bahardır vətənimizin” konsertindən sonra. *21 aprel 2000-ci il*



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycan Mədəniyyətinin Dostları Fondunun təşəbbüsü ilə keçirilən “Sədası bahardır vətənimizin” konsertindən sonra. *21 aprel 2000-ci il*




Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev akademik Zərifə Əliyeva adına istirahət parkının açılışında. *28 aprel 2000-ci il*



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev akademik Zərifə Əliyeva adına istirahət parkının açılışında. *28 aprel 2000-ci il*




Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev uşaqların şənliyində.
*10 dekabr 2000-ci il*



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev uşaqlarla görüşdə.
*10 dekabr 2000-ci il*



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev xalq artisti R.Behbudovun xatirə gecəsində.
*13 oktyabr 2001-ci il*



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev xalq artisti R.Behbudovun xatirə gecəsindən sonra incəsənət xadimləri və tədbir iştirakçıları ilə görüşdə.
*13 oktyabr 2001-ci il*




Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Nizaminin
Sankt-Peterburqdakı abidəsinin açılış mərasimində. *9 iyun 2002-ci il*



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycan kinosu gününə həsr olunmuş təntənəli mərasimdə. *2 avqust 2002-ci il*



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət muzeyində. İran rəssamı Vədud Müəzzinin sərgisinin açılışı. *Oktyabr, 2002*



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycan Dövlət Filarmoniyasının binasında bərpa işlərinin gedişi ilə maraqlanır. *29 mart 2003-cü il*



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev incəsənət ustaları ilə birgə



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev
xalq şairi M.Arazla görüşdə



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev xalq artisti
Nəsibə Zeynalovanın yubiley gecəsində.



Azərbaycan Respublikasının
Prezidenti Heydər Əliyev
Hüseyn Cavidin heykəli
önündə



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Mərkəzi Klinik Xəstəxanada
müalicə olunan bəstəkar, xalq artisti Tofiq Quliyevin səhhəti ilə maraqlanır



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycan Dövlət Musiqili Komediya Teatrının artistləri ilə görüşdə



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bəstəkar, xalq artisti Emin Sabitoğlunu "Şöhrət" ordeni ilə təltif edir



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bir qrup incəsənət xadimləri və ziyalılarla birlikdə



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Novruz bayramı günü ziyalılarla görüşdə



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bir qrup Azərbaycan ziyalıları ilə birgə.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV NƏSİMİ RAYONUNDAKI YENİ PARKLA TANIŞ OLMUŞDUR

*Bakı şəhəri*
*28 aprel 2000-ci il*

Azərbaycan prezidenti Heydər Əliyev rayon sakinlərini salamladı.

Parkın girəcəyində məktəblilər dövlətimizin başçısına şeirlə müraciət etdilər:

Diyarından qüvvət aldın,
Neçə şəhər, kəndlər saldın,
Qartal kimi sən ucaldın,
Heydər baba, yüz il yaşa!

Siyasətlə dardan qaçdın,
Atəşkəsə yollar açdın,
Dünyamıza işıq saçdın,
Heydər baba, yüz il yaşa!
Müstəqillik gəlib başa,
Düşmənlərin dönsün daşa.
Azərbaycan – Heydər qoşa,
Heydər baba, yaşa, yaşa, min il yaşa!

* * *

Ədalətin carçısı,
Həqiqətin aynası,
Həyatımın mənası –
Heydər babamdır mənim!

Odur xalqın köməyi,
Həm döyünən ürəyi,
Vətənimin dirəyi –
Heydər babamdır mənim,
Heydər babamdır mənim!

* * *

Heydər baba – Azərbaycan
torpağının dan ulduzu,
Heydər baba – vətənimin
vuran nəbzi, görən gözü,
Heydər baba – doğma yurdun
prezidenti, rəhbər özü,
Bu torpaqda doğulmuşam,
bu torpaqda öləcəyəm,
Heydər baba dühasını
qəlblərə həkk edəcəyəm!

Qərinələr ötsə belə,
adın dildən düşməyəcək,
Asimanda parlaq günəş
əzəməti sönməyəcək.
Sən həm ata, həm babasan,
dahiliyin enməyəcək.
Milyonların bir zərrəsi,
11 yaşlı Xədicəyəm,
Heydər baba dühasını
qəlblərə həkk edəcəyəm!

* * *

Prezident Heydər Əliyev məktəblilərə təşəkkür edərək onlara təhsildə, həyatda uğurlar və vətənin layiqli övladları olmağı arzuladı.

Parkın bir guşəsində rayonun təhsil işçiləri, əmək veteranları dövlətimizin başçısını mehribanlıqla qarşıladılar.

**54 nömrəli orta məktəbin müəllimi Qismət Hüseynova dedi:**

– Biz burada gözəl «Heydər parkı» salmışıq. Vaxtilə buralar çirkli bir yer, zibillik idi. Amma indi Sizin qayğınız sayəsində burada fəvvarələr yaradılıb, işıq çəkilib, yaşlı müəllimə də olsam, mən hər gün nəvələrimlə buraya gəlirəm. Buna görə də Sizə təşəkkür edirəm. Allah Sizə o qədər ömür versin, ömrünüzü o qədər uzatsın ki, Sizin şərəfinizə salınan parkların sayı artsın, gözəl şəhərimiz daha da yaraşıqlı olsun.

**Heydər Əliyev:** Mənim də məqsədim budur ki, 30 il bundan əvvəl başladığım proqramla Bakını yaşıllaşdırım. Təkcə Bakını yox, bütün Azərbaycanı. Amma birinci növbədə Bakını. Çünki Bakı böyük şəhərdir,

sənaye şəhəridir və keçmişdə burada yaşıllıq olmayıbdır, ağaclar olmayıbdır.

30 il bundan əvvəl mən bu proqramı irəli sürdüm, çox işlər gördük. İndi də son illər görürəm ki, yerli təşəbbüslərlə hər bir rayonda yeni parklar salınır. Çox gözəldir, insanların yaşayışı üçündür. Burada yaşayan insanlar çıxıb parkda otururlar, gəzirlər, söhbət edirlər, bir-biri ilə görüşürlər. Uşaqlar burada dincəlir, oynayırlar. Mən bütün bunların hamısını bunun üçün edirəm, xalqımız üçün edirəm.

**Bakı Dövlət Universitetinin dosenti, Azərbaycanın Milli Qəhrəmanı Eldar Tağızadənin anası Zemfira Tağızadə dövlətimizin başçısına müraciətlə dedi:**

– Hörmətli, əziz, ən sevimli prezidentimiz!

Siz bizim Nəsimi rayonuna xoş gəlmisiniz! Biz bu günü çoxdan arzulayırdıq, gözləyirdik.

Baxmayaraq ki, işiniz olduqca çoxdur, ağırdır. Siz o qədər iş görmüsünüz ki! Sizin bütün işləriniz göz qabağındadır. Mən Bakıya baxıram, – şəhərimiz daha da cavanlaşır. Hər yerdə təzə evlər, binalar, gözəl-gözəl parklar, təzə bağlar yaradılıbdır. Şəhərdə hər yerdə abadlıq işləri gedir. Bu işlərə görə biz Sizə «sağ ol» deməliyik.

Mən Nəsimi rayonunda yaşayıram, Bakı Dövlət Universitetinin dosentiyəm. Mənim oğlum Eldar Tağızadə şəhid olub, Azərbaycanın Milli Qəhrəmanıdır. Mən də balamın işini davam etdirib bu rayonda şəhid uşaqları və anaları xeyriyyə mərkəzini yaratmışam. 200 şəhid ailəsi mənimlə işləyir. Biz uşaqlara çox qayğı göstəririk.

Mən bütün şəhid ailələri adından Sizə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Siz bizi heç vaxt unutmursunuz. Həmişə yada salırsınız. Siz bütün çıxışlarınızda həmişə şəhidlərin adlarını çəkirsiniz. Mən Sizə minnətdaram ki, indi qadınlarımız ağlamırlar, evlərə tabutlar gəlmir, biz sakit yaşayırıq. Bu sakitliyin nə demək olduğunu biz şəhid anaları çox yaxşı başa düşürük. Buna görə mən Sizə minnətdarlığımı bildirirəm və ana kimi Sizin qarşınızda baş əyirəm.

Heydər müəllim, mayın 10-u Sizin ad gününüzdür və buna görə də mən bütün şəhid ailələri adından Sizi təbrik etmək istəyirəm. Sizə cansağlığı, uzun ömür, olduqca çətin işlərinizdə uğurlar arzulayıram. Allah həmişə Sizi qorusun! Olarmı Sizi öpüm! Min yaşayın!

**Heydər Əliyev:** Çox sağ olun.

**Zemfira Tağızadə:** Siz Vera xanım Şiryeyə Azərbaycanın ən yüksək mükafatını – «İstiqlal» ordeni vermisiniz. Siz Davosdan qayıdan-

da vaxt tapdınız, ona zəng vurdunuz. İnandırıram ki, bu qadın Sizin zənginizi hər gün yada salır. Hər dəfə süfrə başında deyir ki, ay Allah, ona o qədər cansağlığı, ömür ver ki, həmişə bizim Azərbaycanın prezidenti olsun. Çox sağ olun, Allah Sizə cansağlığı versin.

**Heydər Əliyev:** Çox sağ olun. Allah bütün şəhidlərə rəhmət eləsin. Sənin oğluna da Allah rəhmət eləsin.

Şəhid ailələri bizim üçün həmişə əziz olub, əziz olacaqdır. Siz də, təbiidir ki, gənc nəsli vətənpərvərlik ruhunda, şəhid olanların o şəhidliyinin nümunəsində tərbiyə etməlisiniz, böyütməlisiniz.

**Zemfira Tağızadə:** Bilin ki, biz Sizin işlərinizi həmişə dəstəkləyirik və həmişə Sizin arxanız, dayağınız olacağıq. Çox sağ olun.

**Heydər Əliyev:** Təşəkkür edirəm

**54 nömrəli orta məktəbin direktoru Rima Hənifəyeva dedi:**

– Bu gün mənim də sevincimin həddi-hüdudu yoxdur. Belə ki, dünya şöhrətli bir şəxsiyyətlə görüşmək mənim çoxdankı arzum idi. Nəhayət, bu arzuma çatdım.

Hörmətli prezidentimiz, Siz təhsil işçilərinə həmişə qayğı göstərirsiniz. Bu yaxınlarda bir qrup təhsil işçisinə fəxri adlar – «Əməkdar müəllim» adı vermisiniz. O siyahıda mənim də adım vardır.

**Heydər Əliyev:** Təbrik edirəm.

**Rima Hənifəyeva:** Ona görə də müəllimlərin adından, şəxsən öz adımdan Sizə təşəkkürümü bildirirəm, «çox sağ olun» deyirəm. Allah ömrünüzü uzun etsin. Yadınıza bir hadisəni salmaq istəyirəm. Yadınızdadırsa, Siz hələ Moskvada işləyərkən bizim 54 nömrəli məktəbə gəlmişdiniz. Məktəbimizi çox qiymətləndirdiniz və dediniz ki, «Bu yaxşı məktəbdir ki, məni buraya gətiriblər». Sizin yaddaşınız möhkəmdir, yadınıza düşər.

**Heydər Əliyev:** Yadıma düşür.

**Rima Hənifəyeva:** Biz Sizin qayğınıza, müəllimlərə göstərdiyiniz hörmətə görə daha da yaxşı işləyirik. Məktəbimiz gözəldir, nümunəvi məktəb adını alıbdır. Ona görə də müəllimlərimizin hamısının Sizə böyük təşəkkürü vardır. Çox sağ olun, Sizə minnətdarlığımı bildirirəm. Sizi kollektivimiz adından məktəbimizə dəvət edirəm.

**Heydər Əliyev:** Çox sağ olun, təşəkkür edirəm. Məktəbinizdəkilərə salam söyləyin. Bizim cəmiyyətdə müəllimlər həmişə böyük hörmətə layiq olublar. Ona görə də müəllimləri heç vaxt unutmamışam. Çünki bizim hamımız müəllimlərin tərbiyəsini almışıq, müəllimlərin bizə verdiyi dərsə, tərbiyəyə görə böyümüşük. İndi hərəmiz bir yerdə özümüzə görə lazım olan yer tutmuşuq. Müəllimlərin maaşlarını da artırmışam.

**Rima Hənifəyeva:** Bəli. Maaşımızı artırdığınıza görə, «Əməkdar müəllim» adı verdiyinizə görə, göstərdiyiniz qayğıya görə bütün müəllimlərin adından, təhsil işçiləri adından Sizə «çox sağ olun» deyirəm.

**Nəsimi Rayon Ağsaqqallar Şurasının sədri Əli Cəfərov dövlətimizin başçısına müraciətlə dedi:**

– Rayonumuzun ağsaqqalları adından Sizə təşəkkürümü bildirirəm. Sizin bütün fikirləriniz, müdrik sözləriniz bizim devizimiz olubdur. Rayonumuzun hər yerində belə abadlıq işləri aparılır. Ağsaqqallar bu işlərdə fəal iştirak edirlər, çox gözəl işlər görürlər. Mənə elə gəlir ki, bu cür davam etdirsək, gələcəkdə vəziyyətimiz çox yaxşı olacaqdır. Bunların hamısı Sizin qayğınızın və köməyinizin nəticəsində mümkün olmuşdur. Onsuz bunları etmək mümkün deyil.

**Heydər Əliyev:** Siz işləyin, biz də qayğını göstərəcəyik.

**Əli Cəfərov:** Ona görə də Sizə təşəkkür edirik. Sizin dediyiniz «Hərə bir ağac əksin» sözləri bizim üçün devizdir.

**Heydər Əliyev:** Bəli, mən bunu 30 il bundan əvvəl demişəm.

**Əli Cəfərov:** Bəli, çoxdan demisiniz, amma həmin sözlər indi də aktualdır. Biz ağsaqqallar öz üzərimizə öhdəlik götürmüşük ki, hər il ağac əkək, becərək, onu mühafizə edək. Çalışarıq ki, şəhərimiz gözəlləşsin, daha da yaxşı olsun.

**Heydər Əliyev:** Çox sağ olun. Bu, sizin üçün, bütün Azərbaycan üçün, uşaqlar üçün, gələcək nəsillər üçün lazımdır.

**Əli Cəfərov:** Bizim bu parkın bir gözəl xüsusiyyəti də vardır: onun relyefi Azərbaycanın relyefinə oxşayır. Parkın həm meşəsi, həm də dağı vardır. Çox gözəldir, olduqca xoşumuza gəlir. Elə zənn edirəm ki, Sizin də xoşunuza gəlir.

**Heydər Əliyev:** Adın nədir?

**Kamal Tağızadə:** Kamaldır.

**Heydər Əliyev:** Kamal, neçənci sinifdə oxuyursan?

**Kamal Tağızadə:** 6-cı sinifdə

**Heydər Əliyev:** Nə cür oxuyursan?

**Kamal Tağızadə:** Yaxşı.

**Heydər Əliyev:** Çox sağ ol. Gözəl oğlandır. Qoy böyüsün, atası kimi olsun.

**Zemfira Tağızadə:** Bizim balalarımız, şəhidlərin balaları atalarının yolunu davam etdirməli və Azərbaycanın bayrağını zirvələrə qaldırmalıdırlar.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV AKADEMİK ZƏRİFƏ ƏLİYEVA ADINA İSTİRAHƏT PARKININ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

*Bakı şəhəri*
*28 aprel 2000-ci il*

Prezident Heydər Əliyev istirahət parkının açılışı mərasimində nitq söylədi.

– Əziz həmvətənlər!

Bacılar, qardaşlar, əziz balalar!

Əziz dostlar!

Mən sizi – Bakının Binəqədi rayonunun sakinlərini səmimi qəlbdən salamlayıram, bu gün sizinlə görüşümdən çox böyük sevinc hissi keçirdiyimi bildirirəm.

Binəqədi rayonu Bakının böyük sənaye rayonlarından biridir. Ancaq son onilliklərdə Binəqədi rayonunda çoxlu yaşayış binaları, evlər tikilibdir və onun əhalisi artıbdır. Vaxtilə Binəqədi rayonu ancaq Binəqədidə çıxarılan neftlə əlaqədar, neft buruqları, neft mədənləri ilə tanınırdı. Ancaq indi Binəqədi, dediyim kimi, əhalisinə görə Bakının ən böyük rayonlarından biri olubdur. Burada Azərbaycanın, Bakının çox dəyərli vətəndaşları yaşayırlar.

Məni bu gün ən çox sevindirən odur ki, sizi çox gözəl əhval-ruhiyyədə görürəm. Bu hər şeydən üstündür. Bizim ölkəmiz Azərbaycan müstəqillik dövrünün ilk illərini yaşayır. Ölkəmiz demokratiya yolu ilə gedir, hüquqi dövlət qurmaq yolu ilə gedir. İqtisadiyyatımız bazar iqtisadiyyatı yolu ilə inkişaf edir.

Bütün bunlar, təbiidir ki, Azərbaycanda, o cümlədən onun hər bir guşəsində bir çox problemlər yaradıbdır. Biz bu problemlərin öhdəsindən gəlməyə çalışırıq. Bu problemlər insanların bir hissəsinin həyat tərzinə mənfi təsir göstəribdir. Biz bunları aradan qaldırmaq istəyirik. Bunları aradan qaldırmaq, vətəndaşlarımızın hamısının həyat tərzini yaxşılaşdırmaq istəyirik. Bunlar hamısı da indi bizim apardığımız iqtisadi siyasət vasitəsilə ola biləcəkdir. Bu iqtisadi siyasət Azərbaycanın iqtisadiyyatını ardıcıl olaraq inkişaf etdirəcək, Azərbaycanda hər bir vətəndaş

işləmək, yaxşı yaşamaq üçün şərait əldə edəcəkdir. O günlər də uzaqda deyildir.

Son illərdə iqtisadiyyat sahəsində gördüyümüz işlər, ölkəmizdə ictimai-siyasi sabitliyin təmin olunması, vətəndaşlarımızın rahat, sakitlik şəraitində yaşaması – bunlar hamısı Azərbaycanın, bizim paytaxtımızın, o cümlədən Binəqədi rayonunun böyük insan potensialının, böyük iqtisadi potensialının hərəkətə gətirilməsini təmin edəcəkdir. Biz artıq bunları görürük.

Mən buradan baxıram, keçmişdə tikdiyimiz binaları görürəm. Onlar 70-ci illərdə tikilmişdir. Onlarla yanaşı, burada yeni tikilən binaları da görürəm. Burada gözəl bir park salınmışdır, bu parkı görürəm. Burada aparılmış abadlıq işlərini görürəm. Bunlar hamısı sizin zəhmətinizin, fədakarlığınızın nəticəsidir. Bütün bunlar dövlətimizin, müstəqil Azərbaycan dövlətinin apardığı siyasətin və həyata keçirdiyi tədbirlərin nəticəsidir.

Mənim buraya gəlməyimin əsas səbəbi sizin yaratdığınız yeni parkla tanış olmaqdan ibarətdir. Təbiidir ki, parkla tanış olarkən onu quranlarla, yaradanlarla, onun ətrafında yaşayanlarla və bu parkdan istifadə edənlərlə, faydalananlarla da görüşmək nəzərdə tutuldu və bu, mənə nəsib olubdur.

Bilirsiniz ki, 30 il bundan öncə mən Azərbaycanda birinci növbədə paytaxtımızın – Bakının yaşıllaşdırılması proqramını irəli sürmüşəm. O illərdə – 70-ci illərdə və 80-ci illərin sonuna qədər bu proqram ardıcıl surətdə yerinə yetirilibdir. Həm ayrı-ayrı guşələrdə, həm böyük prospektlərin sağ-sol tərəfində, həm də küçələrdə tikilmiş yaşayış evlərinin önündə, ətrafında, müxtəlif yerlərdə ağaclar əkilib və bunlar 20-30 il ərzində böyüyüb, Bakı şəhəri yaşıllaşıbdır.

Buraya yığışanların içərisində bütün nəsillərin nümayəndələri var: yaşlı nəslin də, orta nəslin də nümayəndələri var, gənc nəslin də, uşaqların da nümayəndələri var. Biz – yaşlı nəsil 30 il bundan öncə başladığımız işləri hansı şəraitdə başladığımızı yaxşı bilirik. O, nə şərait idi? Bakı – gözəl şəhər, böyük sənaye şəhəri yaşıllıqdan məhrum idi. Keçmiş zamanlardan, əsrin əvvəllərindən Bakıda bir neçə yerdə ağaclar əkilmiş, onlar böyümüşdü və Bakının bir neçə guşəsində ayrı-ayrı bağlar və kiçik parklar var idi. Onlardan ən böyüyü, təbii ki, əsrin əvvəlində yaranmış Dənizkənarı bulvar idi. O vaxt, o illər – təkcə əsrin əvvəlində yox, sonrakı illərdə, 30-cu, 40-cı illərdə, – bu şəxsən mənim xatirimdədir, – Bakı əhalisinin ən böyük istirahət yeri, yəni ağac altında, kölgədə oturub isti-

rahət etmək yeri, hava udmaq, təmiz havada olmaq yeri Bakının Dənizkənarı bulvarı idi.

Biz onu yaradanlara minnətdar olmalıyıq. Bilirsiniz ki, bulvarı yüksək qiymətləndirərək, mən ona Milli park statusu vermişəm, xüsusi fərman imzalamışam. Əminəm ki, bundan sonra bizim Milli parkımız daha da gözəlləşəcək, inkişaf edəcək və bütün Azərbaycan üçün nümunə olacaqdır.

Ancaq şəhər əsrin əvvəlində olan şəhər deyildir. Heç 40-cı, 50-ci illərdə olan şəhər də deyildir. Şəhər böyüyüb, yeni-yeni mikrorayonlar yaranıb, həddindən çox yaşayış binaları tikilib, insanlar burada yaşayırlar. Ancaq insana təkcə mənzil lazım deyil, yaşamaq üçün yer lazım deyil, – o, azdır. İnsanın gərək istirahət etmək üçün də imkanı olsun. Onun üçün yaranmış mikrorayonlarda yaşıllıq işlərinin aparılması, hər evin qarşısında ağaclar əkilməsi və hər mikrorayonda müəyyən bir sahədə yeni parkların yaranması mənim 70-ci ildən başladığım həmin proqramın həyata keçməsidir.

Mən qeyd etdim ki, 80-ci illərin axırına qədər bu proqram yerinə yetirilibdir. Ancaq sonra Azərbaycanda, o cümlədən Bakıda hərcmərclik dövrü, hakimiyyətsizlik dövrü və müxtəlif cinayətkarların, cinayətkar dəstələrin cəmiyyətdə özlərinə yer tutaraq cəmiyyəti dağıtmaq prosesi, dövrü idi – o vaxt nəinki ağaclar basdırmırdılar, hətta əkilmiş ağacları da qırırdılar, kəsirdilər, yandırırdılar, yaxud başqa məqsədlər üçün istifadə edirdilər.

Mən 1993-cü ildə yenidən Bakıya qayıdarkən öyrəndim ki, bizim yaratdığımız bəzi böyük mikrorayonlarda, parklarda ayrı-ayrı mafioz adamlar ağacları kəsib özləri üçün evlər tikmişlər. Demək, bu insanlar öz şəxsi mənafelerinə görə xalqın, dövlətin, millətin, vətəndaşların mənafelərini tapdalamışlar, hüquqlarını tapdalamışlar. Bu isə cəmiyyətdə qəbul oluna bilməz. Cəmiyyət buna dözə bilməz, cəmiyyət bununla razı ola bilməz və dözmədi, razı ola bilmədi. Xalqa, millətə, vətəndaşlarımıza zərər gətirən, onlara qarşı cinayət edən və deyə bilərəm ki, xəyanət edən bütün o qruplar, dəstələr – hamısı bizim tərəfimizdən ləğv olundu. Biz Azərbaycanı bu cinayətkar dəstələrdən təmizlədik, cinayətkar ünsürlərdən təmizlədik, cinayətkarların vətəndaşlar üzərində olan hakimiyyətini aradan götürdük və indi gözəl, sakit, sərbəst yaşamağa imkan yaratmışıq.

Azərbaycanda ictimai-siyasi sabitlik bərpa olubdur və Bakıda, Azərbaycanın bütün yerlərində hökm sürür. Demək, belə bir şəraitdə indi quruculuq prosesi gedir və quruculuq prosesinin də bir hissəsi, de-

diyim kimi, Bakıda yaşıllaşdırmanı davam etdirmək, yeni-yeni parklar salmaq, yaşayış binalarının ətrafında ağaclar əkməkdir. Bunların hamısı Bakını yaşıl bir şəhərə döndərir. Ancaq gələcəkdə Bakı bundan da gözəl şəhər olacaqdır. Çünki hər bir şəhər nə qədər çox yaşıl olsa, o qədər də gözəldir.

Ancaq mən 30 il öncə bu proqramı başlayarkən bunu təkcə gözəllik naminə etməmişəm. Bakı sənaye şəhəridir. Hər bir sənaye şəhərində, təbiidir ki, ətraf mühit, xüsusən hava, xüsusən su sənaye müəssisələrindən müxtəlif maddələr atılması nəticəsində müəyyən qədər çirklənir, müəyyən qədər zəhərlənir. Ona görə də havanın təmizlənməsi üçün, ətraf mühitdə təmiz havanın təmin olunması üçün yaşıllıqdan, ağaclardan faydalı, səmərəli vasitə yoxdur.

Havanın təmizlənməsini ağaclardan başqa heç bir yol ilə, heç bir vasitə ilə təmin etmək olmaz. Yəni bunu heç bir şeylə əvəz etmək olmaz. Ağacların, yaşıllıqların havanı təmizləməsi heç bir başqa vasitə ilə əldə oluna bilməz. Yəni başqa bir üsul bunun əvəzini verə bilməz. Məhz buna görə də mən Bakının yaşıllaşması işinə başlamışam.

O vaxt mən müraciət etdim ki, hər bir Bakı sakini iki ağac əksin və böyütsün. Çoxları bunu etdilər və kim etmədisə, onun əvəzinə başqaları iki yox, üç, dörd, beş, on, on beş ağac əkdilər, yetişdirdilər. İndi görürsünüz, buradan bu ağaclara baxın. İndi burada yaratdığınız parka baxın! Ora baxın, bura baxın! Bunlar hamısı insan zəhmətinin işidir, sizin əlinizin zəhmətinin bəhrəsidir. Sizin fədakarlığınızın nəticəsidir. Bax bu, məni sevindirir.

Mən burada, yenə də deyirəm, bu parka baxmağa gəlmişdim, amma sizi görməkdən daha da şadam. Təbiidir ki, bu park da məni sizi görmək kimi sevindirir.

İnanmayanlar da, anlamayanlar da, dərk edə bilməyənlər də artıq inanmalıdırlar, anlamalıdırlar, dərk etməlidirlər ki, insan gərək öz ətrafını həmişə gözəl etsin. İnsan yaşadığı evin ətrafını, öz evinin içini də, eşiyini də, yaşadığı rayonu, yaşadığı şəhəri gözəlləşdirməlidir, təmizləməlidir.

Mən sizi bax, bu yola dəvət edirəm. Mən sizdən bu cür fədakarlıq gözləyirəm və məmnunam ki, Bakıda bu iş son illər çox böyük vüsət alıbdır, bir çox belə parklar yaranıbdır, hər birində insanlar istirahət edir. İndi baxıram, o tərəfdə də, bu tərəfdə də, sol tərəfdə də, sağ tərəfdə də, arxada da, öndə də – hamısında yaşayış evləri var. Amma insan gəlib elə öz mənzilinin içərisində istirahət edə bilməz. Buradan durub gedəsən Dənizkənarı bulvara, bizim Milli parka – buna nə qədər vaxt sərf etmək lazım-

dır. Bakının hamısı ora yığışsa, onda orada yer olmayacaqdır. Amma öz evinin yanında, öz ərazisində hər bir vətəndaşın parkda istirahət etmək imkanı əldə etməsi – bu, böyük nemətdir və mənim də məqsədim bundan ibarətdir.

İndi görürəm, burada nə qədər çox gənc var, nə qədər gözəl uşaqlar var. Bu, məni nə qədər sevindirir. Amma mən bir də ona görə sevinirəm ki, bu gənclərin, bu uşaqların bax, bu ağacların altında, bu çiçəklərin arasında, bu parkda istirahət etməyə, oynamağa imkanları vardır. O ki, qaldı yaşlı nəslə, bizim təqaüdçülərə, – onlar üçün mütləq belə yerlər lazımdır. Çünki onlar işləyiblər, çalışıblar, haqq qazanıblar ki, istirahət etsinlər. Amma istirahət etmək elə evində oturub, çarpayının üzərində uzanmaqdan ibarət olmamalıdır. İstirahət etmək üçün gərək təmiz hava alsın, qonşusu ilə görüşsün, danışsın, nə bilim, nərd oynasın, qeybət etsin.

Görürəm ki, bu söz hamısından çox xoşunuza gəldi. Qeybət edin, qeybət ümumi mənada pis şey deyildir: fikrini deyirsən, başqasının fikrini öyrənirsən.

Mən bu işləri – həm Bakı Şəhər İcra Hakimiyyətinin fəaliyyətini, həm də şəhərimizin rayonlarının icra hakimiyyətlərinin fəaliyyətini yüksək qiymətləndirirəm. Ancaq təbiidir ki, onlar bu işləri təkcə özləri görə bilməzlər. Onlar bu işləri müəyyən müəssisələr, təşkilatlar vasitəsilə görürlər. Onlar bu işləri ayrı-ayrı mikrorayonlarda yaşayan vətəndaşlar vasitəsilə, sizinlə birgə görürlər. Yəni öz torpağına, öz elinə, öz rayonuna xoş münasibət, ürək yanğısı göstərən insanlarla, sizinlə birgə görürlər.

Bir halda siz buraya yığışmısınız, mən hesab edirəm ki, siz hamınız bu gözəl parkın yaradılmasının iştirakçısısınız. Ona görə də mən hakimiyyət orqanlarına da, sizə də bu gözəl, xeyirxah işlərinizə görə təşəkkür edirəm.

Bizim heykəltəraşlar, memarlar təşəbbüs göstəriblər – akademik, professor Zərifə xanımın, mənim mərhum həyat yoldaşımın büstünü bu parkda qoyublar. Doğrudur, mən bunu bilmirdim. Bu, onlar tərəfindən göstərilən təşəbbüsdür. Mən bu təşəbbüsə görə çox məmnunam. Bu işdə təşəbbüs göstərənlərin, mənim ailəmə münasibət göstərənlərin hamısına dərindən minnətdarlığımı bildirirəm. Çox sağ olun.

Mən burada çoxlu gənclər görürəm. Yenə də deyirəm, bu, məni sevindirir. Çünki gənclər müstəqil Azərbaycanın, ölkəmizin gələcəyidir. Mən gənclərdə xoş əhval-ruhiyyə görürəm. Hər bir insanın sifətinə, geyiminə, paltarına baxıram, – Allaha şükürlər olsun, görürəm ki, pis deyil. Təbiidir ki, bundan da yaxşı olmalıdır. Mən istəyirəm bundan da yaxşı

olsun. Mən onlara şikayət edirəm ki, bizim ölkənin bəzi çətinlikləri vardır – torpaqlarımızın 20 faizi işğal olunubdur, işğal edilmiş torpaqlardan bir milyondan çox azərbaycanlı yerindən-yurdundan qaçqın düşübdür, çadırlarda yaşayırlar. Bunlar həqiqətdir. Yurdlarından didərgin düşərək çadırlarda yaşayan insanlar çox ağır vəziyyətdədirlər. Biz onların yaşayışını müəyyən səviyyədə saxlamaq üçün nə mümkündür edirik. Mən xarici ölkələrin dövlət başçılarına müraciət edirəm ki, bizə yardım göstərin.

Onların çoxu həmin çadırları görmür, amma şəhərimizin küçələrində, prospektlərində insanlarımızı – gənclərimizi, qadınları, qızları, oğlanları görürlər və deyirlər ki, sizin insanlar belə gözəldirlər, gözəl əhval-ruhiyyədədirlər, yaxşı geyimləri vardır, siz niyə belə çox narahatlıq keçirirsiniz? Mən isə onlara deyirəm ki, bizim xalqın bir xüsusiyyəti var – onlar heç vaxt öz çətinliklərini başqalarına göstərməzlər. Onlar öz çətinliklərini özləri həll edərlər və heç vaxt göstərməzlər ki, çətinlikləri var. Bu, bizim xalqımızın xüsusiyyətidir.

Ancaq bununla bərabər, görürəm və sevinirəm ki, hamınız yaxşısınız. Gənclərimiz, uşaqlar çox gözəldirlər. Bu, məni sevindirir. Çünki Azərbaycanın prezidenti kimi mən təkcə bu gün haqqında yox, gələcək haqqında da düşünürəm. Mən inanıram ki, bir müstəqil dövlət kimi Azərbaycan daim müstəqil, xalqımız həmişə azad yaşayacaqdır. Bizim gördüyümüz bu işlər xalqımızı gələcəkdə daha da yaxşı yaşadacaqdır. Biz bunları gənclərə əmanət edirik, etibar edirik?

Bizim əsas problemimiz işğal olunmuş torpaqlarımızı Ermənistan silahlı qüvvələrindən azad etmək və yerindən-yurdundan didərgin düşmüş soydaşlarımızı öz elinə-obasına qaytarmaqdır. Biz buna mütləq nail olacağıq, sülh yolu, danışıq yolu ilə nail olacağıq. Mən müharibənin başlanmasının, gənclərimizin yenidən gedib şəhid olmasının tərəfdarı deyiləm. Mən bu məsələnin sülh yolu ilə həll edilməsinə çalışıram və əmin ola bilərsiniz ki, biz bu məsələni həll edəcəyik, qaçqınlar, köçkünlər öz yerlərinə qayıdacaqlar, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır. Ölkəmizin başqa problemləri də həll ediləcəkdir.

Bilirsiniz ki, neft sərvətlərimizin istifadə edilməsi barədə son beş ildə apardığımız işlər artıq öz gözəl nəticələrini verir. Dünyanın ən böyük neft şirkətləri Azərbaycana gəlibdir. Onlar bizimlə bərabər Xəzər dənizinin Azərbaycan sektorunda böyük işlər görürlər. Bunlar ölkəmizin gələcəyinə çox böyük əsas yaradıbdır. 5-10 ildən sonra Azərbaycan dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ən zəngin ölkələrindən biri olacaqdır. Biz bunu sizin üçün, xalqımız, millətimiz üçün, gələcək nəsillər üçün edirik.

Mən sizinlə bu görüşümdən sevinc hissi keçirdiyimi bir daha bildirirəm. Sizin hamınıza cansağlığı, səadət, bütün işlərinizdə uğurlar arzu edirəm. Mənə göstərdiyiniz bu məhəbbətə, Azərbaycan prezidenti kimi mənə göstərdiyiniz bu etibara, dəstəyə görə hamınıza səmimi qəlbdən təşəkkür edirəm. Sağ olun.

Sonra prezident Heydər Əliyev buraya toplaşan rayon sakinlərinə, o cümlədən Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Ağdam və digər rayonlardan didərgin düşmüş məcburi köçkünlərə yaxınlaşdı, onların vəziyyəti ilə maraqlandı və dedi:

– İnşallah, Ağdama mütləq gedəcəksiniz. Heç narahat olmayın. Dözmüsünüz, çox dözmüsünüz, çox əziyyət çəkmisiniz. Amma inanın ki, gedəcəksiniz və bütün bu əziyyətləriniz də yadınızdan çıxacaqdır. Ağdama gələcəyəm. Keçmişdə Ağdamda çox olmuşam. Mənə bir sözünüz varmı?

**Sakinlər:** Sizə cansağlığı arzulayırıq. Gün o gün olsun ki, öz yerimizə-yurdumuza qayıdaq. Allah Sizi bizim üstümüzdən əskik eləməsin.

* * *

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV «BAKILI OĞLANLAR» KOMANDASININ KONSERTİNDƏ OLMUŞDUR

*Respublika sarayı*
*5 may 2000-ci il*

**Azərbaycan prezidenti Heydər Əliyev konsert qurtardıqdan sonra səhnə arxasına gəldi, komandanın üzvləri ilə səmimiyyətlə görüşərək dedi:**

– Sizi təbrik edirəm, yenidən gözəl bir proqramla çıxış etdiniz. Anar deyir ki, anşlaqla keçir, yəqin ki, başqalarına stimul vermək istəyirsiniz. Hər dəfə olduğu kimi, indi də çox gözəl çıxış etdiniz. Mənim heç xatirimdə deyil ki, artıq beş il keçibdir. Beş ildir ki, siz inkişaf edirsiniz, istedadınız get-gedə artır.

Burada daha çox rus dilində danışdınız, proqramın da çox hissəsi rus dilindədir. Amma Azərbaycan dili tədricən tətbiq olunur, bu, çox yaxşıdır. Ümumiyyətlə, Azərbaycanda çox adamlar iki dili – Azərbaycan və rus dillərini bilirlər. Bununla belə, bizim ölkəmiz müstəqildir, suveren dövlətdir, dövlət dilimiz Azərbaycan dilidir. Mən rəhbər vəzifədə olan bütün işçilərimizə iki-üç dəfə xəbərdarlıq etmişəm – kim öz Azərbaycan dilini öyrənməsə, onu işdən azad edəcəyəm. Yəqin, Anar da deyə bilər ki, kim öyrənməsə, komandadan çıxaracaqdır. Lakin birinci növbədə o özü öyrənməlidir, mənəvi hüququ olmaq üçün özü öyrənməlidir.

Çox yaxşı çıxış etdiniz. Baxıram, çox istedadlı uşaqlarsınız, yaxşı gənclərsiniz. Mənim aeroporta gəlməyimi yaxşı göstərdiniz. (Murad Dadaşova müraciətlə): Sən idin, deyilmi? Hər şeyi yaxşı göstərirsən, amma boyun mənimki qədər deyildir. Yaxşı göstərdiniz. Mən həmişə xaricə gedib-gələndə görürsünüz, ona görə də göstərməyinizdə elə bir təəccüblü şey yoxdur.

**Komandanın kapitanı, Milli Məclisin deputatı Anar Məmmədxanov dövlətimizin başçısına müraciətlə dedi:**

– Cənab prezident, Siz yumoru, parodiyanı həmişə normal qəbul edirsiniz. Bu, bizim üçün doğrudan böyük şərəfdir. Məmurlar yaxınlaşıb deyəndə ki, niyə bizə sataşmısınız, demişik ki, prezident haqqında danışanda o heç vaxt heç nə demir, siz nəyə görə belə narahatsınız?

**Heydər Əliyev:** Mən onu görəndə hamıdan çox gülürəm. İstəyirəm sizə bir fikir deyəm: Əvvəl mənim barəmdə yumoru göstərin, sonra

müxalifəti. Əgər onlar bir söz desələr, deyərsiniz ki, biz prezidenti də göstəririk, bərabərlik eləmişik.

**Anar Məmmədxanov:** Sizi zahirən göstəririk, onların isə içini. Bunlar ayrı-ayrı anlayışlardır.

**Heydər Əliyev:** Çox gözəl. Aşığı oynayan hansı idi?

**Anar Məmmədxanov:** Bəstəkar Süleyman Ələsgərovun nəvəsidir.

**Heydər Əliyev:** Allah ona rəhmət eləsin, yaxşı bəstəkar, yaxşı insan idi. Mən onunla 50-ci illərdən yaxın tanış idim.

Bəstəkarın nəvələri Tahir və Cabir İmanovlar babalarının Fəxri xiyabanda dəfn olunmasına görə dövlətimizin başçısına ailələri adından minnətdarlıq etdilər.

**Heydər Əliyev:** Bəs necə, mən eşidən kimi qəzetdə başsağlığı verdim, göstəriş verdim ki, Fəxri xiyabanda dəfn olunsun. Yaxşı bir insan, yaxşı bəstəkar idi. Mən onu hər dəfə görürdüm, çox sağlam idi. Amma nədənsə, birdən, qəfildən oldu.

**Tahir İmanov:** Nənəmiz rəhmətə getdi, bir ay sonra isə babamız.

**Heydər Əliyev:** Nənənin adı gərək ki, Ağgül idi, yadımdadır. Siz onun qızının uşaqlarısınız? Çox yaxşı, istedadlı uşaqlardır, bunların üstünlüyü ondadır ki, həm Azərbaycan dilində, həm də rus dilində eyni səviyyədə danışırlar.

**Anar Məmmədxanov:** Şuşada böyüyüblər.

**Heydər Əliyev:** Amma rus dilini də yaxşı bilirlər.

**Anar Məmmədxanov:** (Elçin Bağırzadəni dövlətimizin başçısına təqdim edərək): Bizim yeni opera səsimizdir.

**Heydər Əliyev:** Doğrudan, sizin yaxşı səsləriniz də var, Bilalı keçəcəksiniz. O, indi sizin komandadadır?

**Anar Məmmədxanov:** Bəli. Bilalı amerikaya aparmışdıq. Orada muğam nömrəsini göstərəndə zəncilər məətəl qalmışdılar.

**Heydər Əliyev:** İlham haradadır, buraya gəl. Mən onu bir də öpürəm ki, gələn dəfə daha yaxşı göstərsin.

Sizi də təbrik edir, yeni uğurlar arzulayıram. Sözünüzün üstündə durun, – dediniz ki, qalib gələcəksiniz. Deyiləni həyata keçirmək, verilən sözü yerinə yetirmək lazımdır. Mən buna ümid bəsləyəcəyəm. Yaxşı kollektiv yaranmışdır. Siz səhnədə düzüləndə görünür ki, çox böyük kollektivsiniz. Daha da sıx birləşməyə çalışın. Azərbaycanda sizin böyük nüfuzunuz var, məşhursunuz. Konsertiniz anşlaqla keçir, hamı gülür. Mən özüm o qədər güldüm ki, gözlərim yaşardı. Sağ olun, gecəniz xeyrə qalsın.

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV AZƏRBAYCAN AKADEMİK MİLLİ DRAM TEATRINDA «AYDIN» PYESİNİN YENİ QURULUŞDA TAMAŞASINA BAXMIŞDIR

*Akademik Milli Dram Teatrı*
*7 may 2000-ci il*

Azərbaycan prezidenti Heydər Əliyev fasilə zamanı görkəmli səhnə ustası, xalq artisti Nəsibə Zeynalova və xalq şairi Bəxtiyar Vahabzadə ilə görüşüb söhbət etdi.

**Heydər Əliyev** (Nəsibə Zeynalovaya müraciətlə): Necəsiniz, nə var, nə yox?

**Nəsibə Zeynalova:** Şükür, yaxşıyam.

**Heydər Əliyev:** Sizi televiziyada hərdənbir görürəm və sevinirəm. Maşallah, yaxşısınız.

**Nəsibə Zeynalova:** Özüm yaxşıyam, amma ayaqlarım məni incidir.

**Heydər Əliyev:** Ayaqlarını möhkəmləndir. Sizi burada gördüyümə görə çox sevinirəm. Bəxtiyar müəllimi salonda gördüm, amma Sizi görmədim. Yaxşıdır ki, indi televiziya verilişlərində iştirak edirsiniz. Bir müddət fasilə olanda, Sizi görməyəndə darıxırıq.

**Nəsibə Zeynalova:** (İlham Əliyevə müraciətlə): Sizi hərdənbir görürəm.

**Heydər Əliyev:** Gənc vaxtlarında İlham Sizin teatrın ən böyük pərəstişkarı idi. O, başqa teatrlara getməzdi, rəhmətlik Zərifə xanımı həmişə məcbur edərdi ki, gedək Musiqili Komediya Teatrına. Həmin teatr uşaq vaxtından İlhamın ən çox sevdiyi teatr idi. O, Sizin tamaşalara daha çox gedərdi.

**Nəsibə Zeynalova:** Zərifə xanım da həmişə teatra gələrdi, mənim sözlərimi eşidərdi. O, mənə deyərdi ki, səndən ayrılmayacağam. O, həyatdan tez getdi. Heyf, heyf, heyf...

**Heydər Əliyev:** O Sizi də, teatrınızı da çox sevirdi, uşaqlarım da çox sevirdilər – oğlum da, qızım da. Mən də teatrı sevirəm, amma bir o qədər vaxtım olmur. Onlar məni də dartıb aparırdılar. Gözəl-gözəl komediyalar, gözəl-gözəl rollar vardı.

**İlham Əliyev:** Sizin tamaşalara biz bir neçə dəfə gedirdik.

**Heydər Əliyev:** Uşaq belə olur də: bir dəfə gedir, sonra hər dəfə getmək istəyir. «Hicran», «Qayınana»…

**Nəsibə Zeynalova:** «Qayınana», «Hicran», «Altı qızın biri pəri» tamaşaları, Cəhrə arvad obrazı… mənim ən çox xoşuma gələn Cəhrə arvad obrazıdır.

**Bəxtiyar Vahabzadə:** Cəhrə arvad deyir ki, vallah, imanımı yandıra bilmərəm, – bilmirəm vedrə sol əlimdə idi, yoxsa sağ əlimdə. Çox incə detaldır.

**Nəsibə Zeynalova:** «Bir qəzetlik sözüm var, amma deməyəcəyəm. Nə dərdimə qalıb, imanımı yandırım».

Tamaşa başa çatdıqdan sonra Azərbaycan prezidenti Heydər Əliyev yaradıcı heyətlə görüşüb söhbət etdi.

Tamaşanın quruluşçu rejissoru, xalq artisti **Mikayıl Mirzə** dövlətimizin başçısına müraciətlə dedi:

– Əziz prezidentimiz, bu gün bizim sevincimizin həddi-hüdudu yoxdur. Bu, ürəkdən gələn sözdür. Siz bizə həmişə sevinc bəxş etmisiniz. Siz tamaşaya gəlməklə teatrımıza, bizim boynumuza böyük minnət qoydunuz. Sizi bir daha ürəkdən təbrik edirik. Sizə cansağlığı arzu edirik və mən bu gül dəstələrinin üzərinə Azərbaycanın bütün güllərini qoyaraq Sizə ərməğan edirəm. Ədəbiyyat və incəsənət xadimləri ilə görüşləriniz barədə bu toplunu mən tamaşaçıların qarşısında Sizə təqdim edirəm. Bu toplunu Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu buraxmışdır. Bu, siqnal nüsxədir, iki saat bundan əvvəl çap edilmişdir. Tamaşaçıların adından mən bu kitabı Sizə bağışlayıram. Kitabın müəllifi böyük elmi işçi Asif Rüstəmlidir. Özü buradadır. Bu kitaba görə ona eşq olsun. Bu kitabı teatr kollektivi, incəsənət işçiləri adından da Sizə bağışlayıram.

**Prezident Heydər Əliyev teatrın yaradıcı heyətinə müraciətlə dedi:**

– Əziz və hörmətli Milli Dram Teatrımızın böyük sənətkarları! Mikayıl Mirzə həmişə çox orijinallığı ilə hamıdan fərqlənir. Mikayıl, mən təşəkkür edirəm. Ancaq mənim bura gəlməyimin əsas məqsədi bu tamaşanı yenidən görməkdir, bizim Milli Dram Teatrımızı təbrik etməkdir.

Bu gün sizin tərəfinizdən xalqımıza, vətəndaşlarımıza təqdim olunan bu tamaşa bizim üçün iki cəhətdən əhəmiyyətlidir. Birincisi, bu tamaşa bizim böyük dramaturqumuz, yazıçımız, böyük mütəfəkkirimiz Cəfər Cabbarlının 100 illik yubileyinə həsr olunubdur. İkincisi də bu gözəl teatrın və ümumiyyətlə, Azərbaycanda dünyəvi teatrın yaranmasının 125 illiyinə həsr olunubdur. Bilirsiniz ki, bu məsələlərə xüsusi qiymət ve-

rərək və xüsusi hörmət göstərərək, Azərbaycan Milli Teatrının, dünyəvi teatrın yaranmasının 125 illiyi və böyük Cəfər Cabbarlının anadan olmasının 100 illik yubileyi münasibətilə mən xüsusi sərəncamlar imzalamışam. Bu yubiley mərasimləri, demək olar ki, 1998-1999-cu illərdən keçir. Çünki mən 1998-ci ildə teatr haqqında sərəncam imzalamışdım, 1999-cu ildə isə Cəfər Cabbarlının 100 illiyi haqqında sərəncam imzalamışdım. Yubiley tədbirləri keçir və keçəcəkdir. Çünki həm bizim teatrın yaranması, həm də Cəfər Cabbarlı kimi böyük bir şəxsiyyətimiz layiqdirlər ki, onların yubileyləri bir gündə yox, bir ayda yox, bir ildə yox, uzun müddətdə keçirilsin. Ona görə sizin bu gün təqdim etdiyiniz tamaşa bizim üçün qiymətlidir, xalqımız, vətəndaşlarımız üçün qiymətlidir.

Beləliklə, siz həm teatrınızın 125 illik yubileyinə öz töhfənizi verirsiniz, ikinci tərəfdən də Cəfər Cabbarlının 100 illiyinə öz töhfənizi verirsiniz və onun xatirəsinə böyük hörmətinizi göstərirsiniz. Mən çox sevinirəm ki, bizim teatr 125 illik böyük yol keçərək bu gün də yüksək səviyyədədir.

Ümumiyyətlə, Azərbaycan teatrı, o cümlədən Milli Dram Teatrı yaşayır, inkişaf edir. Onu yaşadan, inkişaf etdirən sizin kimi gözəl sənətçilərimizdir.

«Aydın» tamaşasını mən keçmiş zamanlarda da görmüşəm. Bizim böyük sənət ustalarımız Ələsgər Ələkbərovun, – gərək ki, o Fatma Qədri ilə birlikdə oynayırdı, – onların ifasında görmüşəm. Bu tamaşanı Bakı teatrında, həm də Naxçıvan teatrında görmüşəm.

Ümumiyyətlə, Cəfər Cabbarlının bu pyesi Azərbaycanın bütün teatrsevərləri, sənətsevərləri üçün həmişə qiymətli, əziz olmuşdur, bu tamaşa həmişə sevinclə qarşılanmışdır. Uzun bir fasilədən sonra siz yenidən bu əsərə qayıtmısınız. Bəlkə burada yenə mənim də bir az xidmətim var ki, mən Cəfər Cabbarlının 100 illik yubileyi münasibətilə sərəncam imzaladım, siz də bu sərəncama cavab olaraq onun gözəl əsərlərindən birini hazırladınız və bu gün təqdim etdiniz.

Cəfər Cabbarlı haqqında çox danışmaq olar. Mən çox məmnunam ki, onun qızı Gülüş də bu gün buradadır. Çoxdandır ki, mən onunla görüşməmişdim. Onu çox görmürəm. Sevinirəm ki, bu gün gördüm və yenə də görüşəcəyik.

Cəfər Cabbarlı mədəniyyətimizin, ədəbiyyatımızın böyük, dahi insanlarından biridir. Təsadüfi deyil ki, – mənim xatirimdədir, – biz onun 80 illik yubileyini çox təntənəli keçirdik. Azərbaycanda, Bakının ən gözəl guşələrindən birində Cəfər Cabbarlının heykəlini ucaltdıq. Mən bu barə-

də danışmışam. İndi insanlar ayaqüstə durublar, mən istəmirəm vaxt alım, o heykəlin yaranması tarixi çoxlarına məlumdur. Çox xoşbəxtəm ki, onu mən yaratdım, onun yaradılması haqqında mən qərar qəbul etdim, heykəltəraş Mirqasımovun qarşısında duran bütün çətinlikləri həll etdim, o heykəli ucaltdıq. O da indi Azərbaycanda, Bakıda ən gözəl heykəllərdən biridir. Cəfər Cabbarlı qoyduğu böyük irsə görə buna layiqdir.

Bu gün sizin bu tamaşanız da, hesab edirəm ki, Cəfər Cabbarlının xatirəsinə layiqdir. Yenə də deyirəm, bizim milli teatrın 125 illik yubileyinə gözəl bir töhfədir.

Xatırlatdım ki, bu tamaşanı mən keçmişdə də görmüşəm. Bu, bir az yeni quruluşdadır, müəyyən qədər müasirləşdirilibdir, gördüyümdən bir qədər fərqlidir. Ancaq hər bir yeni mərhələ, təbiidir ki, bizi irəliyə aparır. Mikayıl Mirzə gərək ki, ilk dəfədir rejissorluq işinə başlayıbdır. Bu onun ilk rejissorluq əsəridir və hesab edirəm ki, bu əsər də çox uğurludur. Ona görə mən səni təbrik edirəm. Əgər bu yolla gedəcəksənsə, mən sənə bu yolda da uğurlar arzulayıram. Baxmayaraq ki, sən bizim dram teatrının, demək olar ki, ən yüksək səviyyədə duran aktyorusan, ümumiyyətlə, bizim mədəniyyətimizin ən yüksək sənətkarlarından birisən.

Burada sizin hamınız mənə tanışsınız, yeni adamlar yoxdur. 25 il bundan öncə gördüyüm adamlar da burada vardır, – gərək ki, o, Hacıbəylidir, orada durubdur. Sənin isə adın yadımdan çıxıbdır.

**Yerdən səs:** Rafiq Əzimovdur.

**Heydər Əliyev:** Onlar elə o vaxt da var idilər. O vaxt Mikayıl Mirzə səhnəyə yeni-yeni çıxırdı. Amma Rasim Balayev də elə o illərin yetirməsidir. «Babək», «Nəsimi» filmlərində çəkilibdir. Xatirimdədir, biz Nəsiminin 800 illik yubileyini keçirirdik. Rəhmətlik Həsən Seyidbəyli «Nəsimi» filmini yaradırdı və Nəsimi roluna aktyor axtarırdı. Mənimlə məsləhətləşirdi. Təbiidir ki, mənim məsləhətlərim, ola bilərdi ki, səthi olsun. Çünki bunu sənətkar tapa bilər. Ancaq bir gün mənimlə görüşəndə dedim ki, nə oldu bəs sənin əsərin? Dedi, tapmışam.

Soruşdum ki, nəyi tapmısan? Dedi ki, Nəsimi roluna yeni bir aktyor tapmışam. Soruşdum ki, hardan tapmısan? Dedi ki, ya İncəsənət İnstitutunu bitirib, ya da orada oxuyur, gənc, çox istedadlı aktyordur.

Filmi çəkdi, təbiidir ki, mən də himayədarlıq etdim, o filmin çəkilməsində öz xidmətlərimi göstərdim. Rasim Balayev də ilk dəfə orada Azərbaycana təqdim olundu. Görürəm ki, indi gəlmisən, Dövlət bəyi oynayırsan. Nəsimidən, Babəkdən, başqalarından sonra. Ancaq hər artist, aktyor üçün hər bir rol əhəmiyyətlidir.

Görürəm, o şəkilini. Onun adı da, familiyası da yadımdan çıxıbdır.

**Yerdən səs:** Hacı İsmayılovdur.

**Heydər Əliyev:** Şəkili. Bəxtiyar da buradadır. Lakin Hacı Şəki ləhcəsində elə danışır ki, heç Bəxtiyar Vahabzadə də elə danışa bilməz.

Mən bizim yeni, gənc, istedadlı insanları görürəm. Gültəkin rolunu Məleykə xanım çox gözəl, məharətlə ifa etdi. Deyə bilərəm ki, onun ifası heç Fatma Qədrinin də ifasından geri qalmır. Nurəddin Mehdixanlı Aydın rolunu çox gözəl ifa etdi. Burada da yenə müqayisə üçün Ələsgər Ələkbərovu deyə bilərəm, çünki Ələsgər Ələkbərov mənim hafizəmdə, deyə bilərəm ki, gördüyüm bütün aktyorlardan, – mən hətta Abbas Mirzə Şərifzadəni də görmüşəm, – onların hamısından mənim üçün yüksəkdir. Doğrudur, qoy Həsən Turabov inciməsin, bu rolu o da oynayıbdır, onu da bilirəm. Ancaq hər dövrün öz hökmü var. Tamaşanı təqdim edənlər, baş rolları oynayanlar öz üzərlərinə düşən vəzifəni çox gözəl yerinə yetirdilər. Ona görə də bu yaradıcılıq uğuru münasibətilə mən sizi təbrik edirəm. Sizə yeni-yeni uğurlar arzulayıram.

Mən Milli Dram Teatrını sevirəm və daim sevəcəyəm. Onun 100 illik yubileyini mən etmişəm, 125 illik yubileyini də mən təşkil etmişəm. Hesab edirəm ki, 150 illik yubileyini də mən təşkil edəcəyəm. Təbiidir ki, sizin hamınıza cansağlığı arzulayıram.

Tamaşa çox dinamik keçdi, çox böyük enerji tələb edirdi, xüsusən baş rollarda oynayanlardan. Bilirəm ki, indi onlar yorulublar. Amma görürəm ki, o qədər də yorulmayıblar. Təbiidir ki, aktyor üçün rolunu istədiyi kimi ifa etmək hər şeydən üstündür. Onda onlar yorulmur, dincəlirlər. Hesab edirəm ki, siz hamınız dincəlmisiniz, xüsusən baş rolları oynayanlar.

Mən sizin hamınızı təbrik edirəm. Sizə yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV XALQ ARTİSTİ NƏSİBƏ ZEYNALOVANI QƏBUL ETMİŞDİR

*Prezident sarayı*
*20 may 2000-ci il*

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev respublikanın görkəmli teatr xadimi, Azərbaycanın xalq artisti Nəsibə xanım Zeynalovanı qəbul etdi. Qəbul zamanı Azərbaycan teatrının vəziyyəti, onun müasir dövrdə inkişaf yolları, habelə Nəsibə xanımın yaradıcılıq planları ilə bağlı məsələlər barədə fikir mübadiləsi olmuşdur.

Söhbət əsnasında Nəsibə xanımın atası, Azərbaycanın tanınmış aktyoru Cahangir Zeynalovun xatirəsi yad olundu, onun adının əbədiləşdirilməsi üçün lazımi tədbirlərin görülməsi zəruri hesab edildi.

Nəsibə Zeynalova mədəniyyət və incəsənət xadimlərinə göstərdiyi daimi diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Azərbaycan Prezidenti Heydər Əliyev Nəsibə xanıma yeni yaradıcılıq uğurları diləyərək yaxın gələcəkdə onu qayınana rolunda bir daha görmək arzusunda olduğunu vurğuladı.

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV DAHİ ŞAİR VƏ MÜTƏFƏKKİR NİZAMİ GƏNCƏVİNİN MƏQBƏRƏSİNİ ZİYARƏT ETMİŞDİR

*Gəncə şəhəri*
*24 may 2000-ci il*

Azərbaycan Prezidenti Heydər Əliyev 2000-ci il mayın 24-də dahi şair və mütəfəkkir Nizami Gəncəvinin məqbərəsini ziyarət etdi.

Məqbərənin qarşısına toplaşan şəhər sakinləri dövlətimizin başçısını hərarətli alqışlarla qarşıladılar. Prezident Heydər Əliyevə gül dəstəsi təqdim olundu.

Respublikamızın rəhbəri sakinlərlə görüşüb söhbət etdi və dedi:

– Bilmirəm, bu insanları bura niyə gətiriblər.

**Sakinlər:** Cənab Prezident, özümüz gəlmişik.

**Heydər Əliyev:** Özünüz gəlməmisiniz, gətiriblər.

**Sakinlər:** Vallah, özümüz gəlmişik.

**Heydər Əliyev:** Siz nə bilirdiniz mən buraya gələcəyəm?

**Sakinlər:** Biz özümüzü xoşbəxt sanırıq ki, Sizi burada qarşılayırıq, Sizinlə görüşürük. Biz özümüz bura böyük həvəslə gəlmişik. Sizi həmişə televizor vasitəsilə görmüşük, amma həyatda da görmək istəyirdik.

**Heydər Əliyev:** Məni küçədə, evinizin qarşısından keçəndə də görmək olardı.

**Sakinlər:** Cənab Prezident, elə aydın görmək olmur. Biz çox razıyıq. Allah Sizə cansağlığı, uzun ömür versin. Sizinlə görüşmək ən böyük xoşbəxtlikdir.

**Heydər Əliyev:** İşiniz var, gücünüz var, hərənin öz işi var. Yığışıb bura gəlmisiniz.

**Sakinlər:** İşimiz də, gücümüz də – hamısı Sizə qurbandır. Bizi heç kim gətirməyibdir.

**Heydər Əliyev:** Bilirsiniz, bu, məni narahat edir. Bu, Daşdəmirovun günahıdır.

**Sakinlər:** Cənab Prezident, bu, bizim hamımızın qəlbindən gələn istəkdir ki, bura gəlmişik.

**Heydər Əliyev:** Nizami məqbərəsini ziyarətim təbiidir. Mən həmişə buranı ziyarət etmişəm. Amma bir belə insanın buraya toplaşmasına...

**Sakinlər:** Yox, cənab Prezident, bu, Sizə məhəbbətdir. Biz Sizi hələ 70-ci illərdən istəyirik.

**Heydər Əliyev:** Mən çox şadam ki, sizi görürəm. Amma mən bilirəm ki, sizi müəyyən vaxtdır avtomobillərlə, avtobuslarla bura gətiriblər.

**Sakinlər:** Cənab Prezident, vallah, özümüz gəlmişik.

**Heydər Əliyev:** Piyada gəlmisiniz?

**Sakinlər:** Hörmətli Prezident, bütün şəhər, 300 minlik əhali istəyir ki, Sizinlə görüşsün. Hamı piyada gəlməyə hazırdır. Tez-tez gəlin.

**Heydər Əliyev:** Bilirəm. Mən Daşdəmirova dedim ki, düz iş görmür. Mən sizinlə görüşməkdən çox məmnunam. Amma mən Daşdəmirovu tənbeh, tənqid etdim.

Dövlətimizin başçısı Heydər Əliyev məqbərənin önünə əklil qoyaraq böyük şairin xatirəsinə ehtiramını bildirdi.

Sonra respublikamızın rəhbəri buraya toplaşanlar qarşısında nitq söylədi.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

– Əziz gəncəlilər!

Əziz bacılar, qardaşlar, xanımlar və cənablar!

Əziz dostlar!

Mən dünən Gəncə şəhərinə gəlmişəm. Ancaq bilirsiniz ki, mən dünən Yenikənd su elektrik stansiyasının açılması münasibətilə Şəmkir rayonuna getmişdim. Orada stansiyanın açılış mərasimini keçirdik. Ondan sonra mən gedib Şəmkir su elektrik stansiyasını, oraları bir də ziyarət etdim. Bunlar hamısı mənim üçün çox əziz işlərdir. Dünən mən Yenikənd su elektrik stansiyasının açılışında olan mitinqdəki nitqimdə bunu söyləmişəm.

70-ci illərdə mən Azərbaycana rəhbərlik etdiyim zaman respublikanın müstəqil elektrik enerjisi sistemini yaratmaq üçün biz o vaxt düşünürdük və uzaqgörənlik edib bir çox işlər gördük. Buna baxmayaraq, bu gün bizim ölkəmizdə qış vaxtı elektrik enerjisi təminatı ilə bağlı bəzi çətinliklər olur. Ancaq əgər o vaxt biz bu işləri görməsəydik indi nə vəziyyətdə olardıq?!

Mən dünən bu barədə orada geniş danışmışam, – yəqin televiziya ilə verəcəklər, siz dinləyəcəksiniz, təkrar etmək istəmirəm. Ancaq o illərdə bizim apardığımız siyasət və həyata keçirdiyimiz əməli tədbirlər bu gün Azərbaycanın müstəqil dövlət kimi yaşamasına, insanların həyatının təmin olunmasına böyük şərait yaratdı. İndi Azərbaycanın artıq heç bir ölkədən asılı olmayan böyük elektrik enerjisi sistemi var.

Doğrudur, son illər stansiyaların bəziləri köhnəlib, təmirə ehtiyacları var, bəzən ehtiyat hissələri tapılmır. Ancaq bunların hamısının öhdəsindən gəlirik. Biz o vaxt o proqramı həyata keçirərkən Kür çayının üzərində bir-birinə yaxın bir neçə su elektrik stansiyasının tikilməsi barədə qərar qəbul etdik. Bu, bizim Azərbaycanın bu günü üçün, gələcəyi üçün, on illər də, yüz illər də bundan sonra gələcəyi üçün çox əhəmiyyətli bir proqram idi. Çünki elektrik enerjisini istehsal etmək, təbiidir ki, böyük elektrik stansiyalarının qurulmasını tələb edir. Amma bununla yanaşı, o elektrik stansiyalarının yanacaqla təmin olunması lazımdır. O illər bizdə qaz ehtiyatı çox olduğuna görə biz elektrik stansiyalarımızı əsasən qaz vasitəsilə işlətmək prinsipi ilə yaratmışdıq. Eyni zamanda, qaz olmayan halda mazutdan da istifadə etmək texnologiyası – hamısı orada qurulmuşdu.

Təbiidir ki, dünyanın əksər yerlərində insanlar istilik elektrik stansiyalarından, yəni yanacaq vasitəsilə hərəkətə gətirilən elektrik stansiyalarından istifadə edirlər. Biz vaxtilə – keçmişdə Sumqayıtda, Əli Bayramlıda, Bakıda belələrini qurmuşuq. Ancaq Mingəçevirdəki su elektrik stansiyası ilə yanaşı, doqquz müstəqil istilik elektrik stansiyası yaratmaq proqramını başladıq və artıq onun səkkizi yaranıbdır. Əgər onlar olmasaydı və bizim bu sahədə gördüyümüz başqa işlər olmasaydı, indi Azərbaycan tələbatının heç 20-30 faizini təmin edə bilməzdi.

Qışda bir az çətinliklər olduğu zaman biz çox insanların narazılığını eşitdik. Təbiidir, insanlar öyrənib ki, evində elektrik işığı da olsun, soyuducusu da işləsin, televizoru da işləsin, ütüsü də işləsin, evindəki başqa elektrik cihazları da işləsin. Amma əgər indi 50 il bundan öncəni götürsək, elektrik enerjisindən sadəcə, evləri işıqlandırmaq üçün istifadə edirdik. O vaxt heç soyuducular da yox idi. Onda, təbii ki, tələbat az idi. Amma indi insanların tələbatı artıbdır. Təkcə insanların yox, bütün həyatın tələbatı artıbdır. Sənayenin, kənd təsərrüfatının, nəqliyyatın tələbatı – hər şey elektrik enerjisi ilə bağlıdır. Ona görə – mən yenə də deyirəm – indi evdə elektrik enerjisi çatışmayanda narazılıq əmələ gəlir. Amma narazılıq edən adamlar, yəqin ki, onların əksəriyyəti bilmirlər ki, bu

elektrik enerjisi harada, nə çətinliklə, hansı imkanlarla istehsal olunur və indi bizim bu qədər elektrik enerjisi almağımızın əsası nədən ibarətdir.

Bunun əsası isə keçmişdə görülən işlər və xüsusən 70-ci illərdə bizim başladığımız və ardıcıl surətdə həyata keçirdiyimiz proqramdır. Bir də deyirəm, o proqram, onun məqsədi və son məqsədi ondan ibarət idi ki, Azərbaycanın elektrik enerjisindən asılısızlığını təmin edək. Bəlkə də o vaxt bunu anlayanlar o qədər yox idi. Çünki o vaxt SSRİ-nin vahid energetika sistemi var idi. Bəzi yerlərdə elektrik stansiyası var idi, amma bəzi yerlərdə yox idi. Ancaq vahid sistem olduğuna görə SSRİ-nin bir yerində olan böyük elektrik stansiyasının istehsal etdiyi enerji başqa yerlərə də verilirdi. Yəni burada bir problem yox idi.

Biz onda Sovetlər İttifaqının tərkibində idik. Ancaq indi müstəqillik. İndi bizə heç kəs elektrik enerjisi vermir. Versə də, ona gərək nə qədər pul ödəyək, vəsait ödəyək. Bax, buna görə də biz o proqramı hazırladıq, həyata keçirdik və o proqramın tərkib hissəsi, demək olar ki, vacib bir hissəsi də Kür çayının üzərində su elektrik stansiyaları yaratmaq idi.

Keçmişdə, 50-54-cü illərdə ilk dəfə Azərbaycanda Mingəçevir su elektrik stansiyası yaradıldı. O, bizim həyatımızda böyük hadisə oldu. Onda Azərbaycanın elektrik enerjisinə tələbatı indiki kimi deyildi. İlk dəfə belə bir su elektrik stansiyasının yaradılması, təbii ki, möcüzə kimi bir şey idi. Amma ondan sonra biz həmin Kür çayının üzərində – dünən mən getmişdim – Şəmkir su elektrik stansiyasını yaratdıq. Onun gücü Mingəçevirdəki su elektrik stansiyasından bir xeyli çoxdur.

Bəli, o vaxt proqram belə idi ki, Şəmkir rayonunun ərazisində, Kür çayının üzərində elektrik stansiyası tikilsin. Ondan sonra Kürün axarlı yerində Yenikənd su elektrik stansiyası tikilsin. Tovuz rayonunun ərazisində də bir su elektrik stansiyası tikilsin və bunlar ucuz elektrik enerjisi istehsal edərək Azərbaycanı elektrik enerjisi ilə təmin etsinlər.

Bu proqramın, demək olar ki, müəllifi, bu işləri başlayan mənəm. Ona görə o vaxt bu işləri başlayandan sonra da bir çox tədbirlər gördüm və onların bir hissəsini həyata keçirdik. Ancaq bilirsiniz ki, sonra mən Azərbaycandan ayrıldım. Doğrudur, mən Moskvada işləyən zaman bu işlərə tam nəzarət edirdim. Çünki bütün bu işlər mərkəzin, yəni Sovet hökumətinin, mərkəzi hökumətin köməyi, vəsaiti olmadan həyata keçirilə bilməzdi. Ona görə ki, o illər bütün elektrik stansiyalarının tikintisi ancaq SSRİ büdcəsindən təmin olunurdu, Energetika Nazirliyi vardı, ona ayrılan büdcədən təmin edilirdi.

Mən də Moskvada həm Siyasi Büronun üzvü, həm də Nazirlər Soveti sədrinin birinci müavini olduğuma görə səlahiyyətlərim var idi ki, o işlərin davam etdirilməsi üçün vəsait ayrılmasını təmin edək və ayrı-ayrı tədbirlər görək. Bəlkə də bu sahədə mənim Moskvadakı imkanlarım Bakıda işlədiyim dövrdəkindən daha çox idi. Bunları da mən etdim.

Ancaq ondan sonra mən, bilirsiniz ki, bir neçə il tamamilə işdən də ayrıldım, uzaqlaşdım. Sonra Naxçıvanda yaşadım. 1993-cü ildə Bakıya döndüm,– siz tələb elədiniz, xalq tələb elədi, mən də gəldim. Amma bizim qurduğumuz proqramlar o vaxt dayanmışdı, yaratdığımız elektrik stansiyalarının bəziləri də bərbad vəziyyətə düşmüşdü.

Ona görə də mən imkan tapıb bu işləri davam etdirmək qərarını qəbul etdim. 1994-cü ildə Yenikənd su elektrik stansiyasının tikintisi üçün – biz onun tikintisinə 70-ci illərin sonu – 80-ci illərin əvvəlində başlamışdıq, ancaq az bir iş görülmüş, sonra dayandırılmışdı – vəsait əldə etdik. Avropa Yenidənqurma və İnkişaf Bankından 53 milyon dollar vəsait aldıq və Yenikənd su elektrik stansiyasını tikib qurtardıq. İndi o, elektrik enerjisi verir. Deməк, indiyə qədər aldığımız elektrik enerjisinə əlavə olaraq 115 meqavat enerji alırıq.

Dünən mən o elektrik stansiyasının açılışına getmişdim. Çox məmnun oldum ki, vaxtilə – 1979-cu ildə mənim qəbul etdiyim qərarımın həyata keçirilməsini, gec də olsa, Allah mənə nəsib edibdir. Mən bunu etdim. Yəni bunu göydən Allah göndərməyib, çalışıb sona çatdırmışıq.

Getdim ki, Şəmkir su elektrik stansiyasının vəziyyətinə baxım. Orada, Şəmkir rayonunda Kür qəsəbəsi var. Vaxtilə yaratdığımız o stansiya da yaxşı işləyir, dediyim kimi, Mingəçevir su elektrik stansiyasından daha çox elektrik enerjisi verir.

İndi bizim qarşımızda Tovuz su elektrik stansiyasını tikmək durur. O da təxminən Mingəçevir su elektrik stansiyası həcmində elektrik enerjisi verə bilər. Dünən orada mütəxəssislərdən soruşdum, – buna 200 milyon dollar vəsait gərəkdir. Bunu axtarmaq, tapmaq lazımdır. Bu işləri biz davam etdiririk.

Bir sözlə, bu çətin dövrdə Azərbaycanın iqtisadiyyatını inkişaf etdirərək, onun əsas sahəsi olan energetikanı təmin etməyə çalışırıq və çalışacağıq.

Bu gün isə mən Gəncədə olmaq fikrindəyəm. Təbiidir ki, ilk öncə Nizaminin məqbərəsinə gəlmişəm. Siz də buraya toplaşmısınız. Ancaq siz nə üçün buraya gəlmisiniz, – mən bunu bilmirəm.

**Yerdən səs:** Hörmətli Prezident, bu məqbərənin də müəllifi Sizsiniz. Nizaminin 840 illiyi münasibətilə qərar verdiniz, o vaxt pul ayrıldı ki, məqbərə tikilsin və tikildi.

**Heydər Əliyev:** Onu doğru deyirsən. Amma bu məqbərənin tarixi böyükdür. İlk dəfə burada, Nizami Gəncəvinin qəbri üzərində abidə 1948-ci ildə tikilibdir. O vaxtlar Nizami Gəncəvinin 800 illik yubileyi keçirilirdi. Ancaq o vaxt yaranmış məqbərə Nizamiyə layiq deyildi. İkincisi, siz yəqin xatırlayırsınız, gəncəlilər bilir ki, burada yaxınlıqda gil-torpaq kombinatı tikildi. Kombinatın işləməsi üçün əsas xammal alunit idi, texnologiyası da çox yüksək səviyyəli deyildi. Ona görə də orada – gil-torpaq kombinatında alunitin işlədilməsi zamanı toz çıxırdı və Nizami Gəncəvinin məqbərəsini də toz basırdı. Xatirinizdədirmi?

Bu, bizi narahat edirdi. 70-ci illərdə mən Azərbaycana rəhbərlik etdiyim zaman bir çox ziyalılarımız – şairlərimiz, alimlərimiz gəlib Nizami Gəncəvinin məqbərəsini belə halda görəndə mənə bir neçə təklif verdilər. Təkliflər ondan ibarət idi ki, Nizami Gəncəvinin qəbrini başqa yerə köçürmək lazımdır. Bu, ziyalıların xatirindədir.

Mən çox fikirləşdim ki, axı, necə ola bilər? 800 il bundan öncə bizim dahi şairimiz Nizami Gəncəvini burada torpağa veriblər. 800 ildən artıqdır ki, bu torpaqdadır, bu yerdə yatır. İndi onu narahat edib başqa bir yerə köçürmək nə qədər düzgün olar? Eyni zamanda bizim ziyalılarımız – şairlərimiz, mədəniyyət xadimlərimiz mənə sübut edirdilər ki, əgər köçürmək mümkün deyilsə...

Özlüyündə köçürmək çətin bir şey deyildi, texniki və ya maliyyə cəhətdən elə bir problem yox idi. Amma mənəvi baxımdan, tarixi-mənəvi baxımdan bu, nə qədər düzgün ola bilərdi? Ona görə bu məsələ məni çox düşündürürdü. Bir neçə il bu işlə məşğul olmuşdum. Hər il də ziyalılarımız dəstə-dəstə gəlib mənə deyirdilər ki, gedib Gəncədə Nizaminin məqbərəsini elə görürük, ürəyimiz ağrıyır.

Doğrudan da, bax, oradan buranı toz vururdu və qurtarmaq bilmirdi. Təbiidir ki, həmin gil-torpaq kombinatını Nizaminin qəbrinin yanında tikən adamlar böyük tarixi səhv buraxıblar, böyük günah eləyiblər. Gəncənin ətrafında nə qədər istəsən yer var, onu harada istəsəniz tikmək olardı. Onu yaradanlar da bilirdilər ki, bu istehsal elədir ki, toz buraxır. Onu bizim ən böyük, ən müqəddəs tarixi abidəmiz olan Nizami Gəncəvinin qəbrinin, məqbərəsinin yanında yerləşdirmək, mən deyərdim ki, vaxtilə mənəvi cinayət olmuşdur. Bu iş 50-ci illərin axırında başlanıbdır. O vaxt yaşayan adamlar yəqin ki, bunu bilirlər.

Bəli, bu iş 50-ci illərin sonunda başlanıbdır. Çünki mən 1969-cu ildə Azərbaycana rəhbər seçiləndə bir tərəfdən, gil-torpaq kombinatı hələ tikilirdi, digər tərəfdən də onun tikilib istismara verilmiş hissəsi yaxşı işləmirdi və bu da bizim üçün ən böyük problem idi. Mən Moskvadan, başqa yerlərdən nə qədər mütəxəssis dəvət edirdim. Çünki bu, bizim üçün yeni bir istehsal sahəsi idi, bizim adamlar bunu o qədər də yaxşı bilmirdilər. Burada işləyənlərin əksəriyyəti də azərbaycanlılar deyildi. Gəncəlilər bilər, son vaxta qədər oranın direktoru Yamov idi. Çünki yerli mütəxəssis tapılmırdı ki, bu işi aparsın.

Mən kombinatın tikilib qurtarması, xüsusən yeni texnologiya ilə, boksit xammalı ilə işləməsi üçün o illər nə qədər əziyyət çəkmişəm, nə qədər işlər görmüşəm. Bunu hesablamaq da mümkün deyildir.

Bir halda ki, bu gün siz burada yığışmısınız, mən də keçmiş dərdlərimi deyirəm. Bu, bizim üçün bir dərd olmuşdur. Yenə də deyirəm, belə böyük müəssisəni, bu cür texnologiyası, məhsulu olan müəssisəni gətirib Nizami Gəncəvinin qəbrinin, məqbərəsinin yanında tikmək tarixi, mənəvi cinayət olmuşdur. Ancaq nə etməli? O vaxt gərək ya bu müəssisəni dağıdaydıq – bu da mümkün deyildi, çünki Sovet İttifaqının böyük tikintilərindən biri idi, – ya da, deyirdilər ki, əgər bu mümkün deyilsə, tədbir görün, Nizami Gəncəvinin məqbərəsini başqa yerə köçürək.

Onu da etmək mümkün deyildi, bunu da etmək mümkün deyildi. Biz neçə illər bu əziyyəti çəkdik. Sonra burada texnologiya dəyişildi, əsasən boksitə keçildi. İndi yenə alunit gəlir, ya yox?

**Yerdən səs:** İndi boksit işlədilir. Sizin vaxtınızdan yandırma kükürdlə oldu, tozun miqdarı təxminən 1000 dəfə azaldı. Amma buna baxmayaraq, orada yenə tozlu proses var. Orada iki filtr sistemi var, onları dəyişdirsələr, tozu bir neçə dəfə də azaltmaq olar və şəhərə, ekologiyaya bu qədər zərər dəyməz.

**Heydər Əliyev:** Bəli, ümumiyyətlə, ekologiya nöqteyi-nəzərindən Gəncə şəhərinin gözəl iqlimi, təbiəti var. Bu tozun olması onun üçün zərərlidir. Amma müəssisə lazım idi. Çünki o vaxt alunit yatağının açılması böyük bir hadisə idi. Məsələn, mən 1970-ci illərdə Azərbaycanın rəhbəri olanda kombinatın işi ilə məşğul olarkən gedib SSRİ hökumətindən çox şeylər xahiş edirdim. Narazılığımı da bildirirdim ki, nə üçün belədir. Rəhmətlik Kosıgin – o, uzun müddət SSRİ Nazirlər Sovetinin sədri olmuşdu, Stalinin vaxtında da işləmişdi – mənə belə bir hadisə danışmışdı və bu, həqiqətdir. Deyirdi ki, 50-ci illərdə Azərbaycanın rəhbəri Mircəfər Bağırov Stalinin yanına gəldi, Daşkəsəndən gətirdiyi aluniti

göstərdi ki, Azərbaycanda belə faydalı qazıntı var, bundan istifadə etmək lazımdır.

Təbiidir ki, o vaxt, müharibədən sonra SSRİ-nin ağır dövrü idi. Belə məhsula ehtiyac var idi. Çünki alunitdən alüminium oksidi, ondan da alüminium alınırdı. Alüminiuma da çox böyük ehtiyac var idi.

Kosıgin o söhbətin şahidi olmuşdur. Xatırlayırdı ki, Stalin məni çağırdı və dedi ki, bu işlə məşğul ol. Çünki mən gedib şikayətlənəndə ki, bu, Azərbaycana, ekologiyaya, təbiətə zərər vurur, o mənə dedi ki, özünüz günahkarsınız. Deyirəm ki, kim günahkardır? Deyir ki, mənim xatirimdədir, 1950-ci illərin əvvəlində – deyəsən, 1950 və ya 1951-ci ildə idi, – Mircəfər Bağırov Moskvaya, Stalinin yanına gəlib böyük təmtəraqla aluniti göstərdi və sübut etdi ki, orada böyük bir kombinat tikmək olar. O da mənə tapşırdı, biz də başladıq tikməyə.

Yəni bunlar tarixi səhvlərdir. Təbiidir ki, alunit bizim faydalı qazıntıdır və ondan istifadə etmək lazım idi, – buna indi, 50 il keçəndən sonra da mənim etirazım yoxdur. Ancaq bilmək lazım idi ki, o vaxt bugünkü texnologiya da yox idi. Bunu harada yerləşdirməyi də bilmək lazım idi. Şəhərin yaxınlığında yerləşdirmək olmazdı. Elə yerlər var ki, orada yerləşdirmək olardı. Ancaq yaxınlıqda da yerləşdirməli olsaydılar, hər halda onu Nizaminin qəbrinin yanında yerləşdirmək olmazdı.

Belə səhvlər buraxılmışdır. Mən bu işlərlə məşğul olmağa məcbur olmuşam. Birincisi, 1969-cu ildən bunun tikilməsi ilə məşğul olmuşam. Həmin Yamova nə qədər töhmətlər vermişəm. İkincisi, texnologiyanın boksitə keçirilməsi ilə məşğul olmuşam. Boksiti Qvineyadan alırdıq. Azərbaycanın bütün böyük müəssisələri kimi, bu da mənim üçün doğmadır. Biz bunlarla illərlə, aylarla məşğul olmuşuq.

Ancaq yenə də deyirəm, bu, bizi narahat edirdi. İndi müəssisənin dayanması, yəni tam gücü ilə işləməməsi, əlbəttə ki, zərərdir. Çünki vaxtilə burada çox insanlar işləyir, pul qazanırdılar. İndi bu iş yerləri itirilibdir. Hələ bir qisim iş yeri var, mən bu gün oraya gedəcəyəm. Ancaq eyni zamanda, indi toz yoxdur, bunu da bilmək lazımdır. Görürəm ki, bura da tərtəmizdir. Yəqin ki, mən gəldiyimə görə təmizləməmisiniz, həmişə belə təmizdir. Elədirmi? Bilirsiniz, biz çətinliklərə dözəcəyik, orada lazımi tədbirlər görəcəyik, buna şübhəniz olmasın. Bunun üçün zaman lazımdır. Amma Nizaminin məqbərəsini qorumaq bizim müqəddəs vəzifəmizdir. Siz də bunu etməlisiniz, biz də etməliyik. Gərək elə olsun ki, indiki nəsil də, gələcək nəsil də vaxtilə buraxılmış səhv kimi səhvlər buraxmasınlar.

Mən bu gün böyük hisslərlə Nizaminin məqbərəsini bir daha ziyarət etdim. Onu da sizə deyə bilərəm ki, Nizaminin 800 illiyi 1948-ci ildə keçirilmişdi.

Amma 840 illik yubileyini mən böyük təntənə ilə keçirdim, yəni bu tədbiri həyata keçirməyə nail oldum. O vaxt buna da imkan vermirdilər.

Mən Moskvada Kommunist Partiyası Mərkəzi Komitəsinin qarşısında bu məsələni qaldıranda, – çünki onlarsız bu işi görə bilməzdik, – dedilər ki, "840 il yuvarlaq rəqəm deyildir. 800 illiyi qeyd eləmisiniz, 850 illik də ola bilər. Amma 840 olmaz, çünki sonra deyəcəksiniz ki, 845, nə bilim, 847". Xatirimdədir, Mərkəzi Komitənin ikinci katibi var idi – Suslov, Brejnevin dövründə ikinci katib idi, – mənə dedi ki, bu, mümkün deyildir.

Mən isə dedim ki, Siz Nizami Gəncəvini tanıyırsınızmı? Dedi ki, tanıyıram, yaxşı tanıyıram,– Suslov keçmiş işçi idi, Stalinin yanında da işləmişdi, 1948-ci ildə onun yubileyinin keçirilməsindən də xəbərim var. Dedim, yəqin ki, tamam xəbəriniz yoxdur. Nizami Gəncəvi elə dahidir ki, onun nəinki 840 illiyini, onun yubileyini hər il keçirmək lazımdır.

Beləliklə, biz buna nail olduq, o vaxt Nizami Gəncəvinin 840 illik yubileyini keçirdik. Azərbaycanda, sonra Moskvada çox təntənə ilə keçirdik. O vaxt, yubiley ərəfəsində də qərar verdik ki, buradakı məqbərə yenidən qurulsun, Nizamiyə layiq bir səviyyəyə çatdırılsın.

Mən məmnunam ki, bunu etdik. Amma indi içərisinə də, çölünə də baxanda hesab edirəm ki, bundan da yaxşı edə bilərdik. Güman edirəm, əgər vaxt çatsa, biz bunu edəcəyik. Amma vaxt çatmasa, gələcək nəsillər bu məqbərəni bundan da gözəl edəcəklər. Mənim buna şübhəm yoxdur.

Bütün Azərbaycan xalqı Nizami Gəncəvi ilə fəxr edir. Ancaq gəncəlilər xüsusi iftixar hissi keçirirlər. Birincisi, ona görə ki, Nizami gəncəlidir, Gəncənin adını dünyada məşhur edibdir, bu torpaqda yaşayıbdır, bu torpaqda yazıbdır. Onun yazdığı əsərlər bütün dünyada məşhurdur. Təsəvvür edin, 850 il bundan öncə bu qədər böyük əsərlər yaratmaq!.. Bu əsərlər təkcə şeirdən ibarət deyildir, onların hər birində böyük elm var, böyük fəlsəfə, dahi fikirlər var. Buna görə onun əsərləri də yaşayır, özü də yaşayır.

Nizaminin xatirəsinə mənim bir xidmətim də olubdur. İndi burada fürsətdən istifadə edib onu da demək istəyirəm. Nizami Gəncəvinin əsərlərinin bir qismini 1948-ci ildə onun 800 illik yubileyi keçiriləndə rus dilinə tərcümə etmişdilər. Biz onun 840 illik yubileyini keçirəndə əsərlərinin tamamilə rus dilinə tərcümə olunması və Moskvada, – əgər burada ədəbiyyatçılardan varsa, bilirlər, Moskvada "Xudojestvennaya literatura"

nəşriyyatı var idi. O, ən yüksək səviyyəli, tarixi şəxsiyyətlərin kitablarını nəşr edirdi, – böyük tirajla nəşr olunması barədə qərar qəbul etdik.

Bu, asan bir iş deyildi. Mən buna da nail oldum, bu qərar da qəbul edildi. Ancaq elə oldu ki, bu qərar həyata keçirilənə qədər mən Bakıdan Moskvaya işə keçdim. Təbiidir ki, orada da mənim səlahiyyətlərim böyük idi. Bu işə nəzarət etdim və Moskvada "Xudojestvennaya literatura" nəşriyyatında Nizami Gəncəvinin beş cilddən ibarət poemalarının çox nəfis şəkildə nəşr edilməsinə nail oldum.

Bunun böyük əhəmiyyəti var. Çünki Nizamini biz tanıyırıq, Şərq ölkələri tanıyır. Amma lazımdır ki, Avropa da yaxşı tanısın. Avropada da tədqiqatçılar tanıyırlar, bir çox kitabxanalarda onun kitabları var. Ancaq rus dili böyük dil, Rusiya böyük ölkə olduğuna görə, – o vaxtlar biz Sovet İttifaqının tərkibində idik, – bu əsərlərin rus dilində yaxşı, yəni yüksək səviyyədə nəşr olunması o vaxt bizim üçün böyük bir nailiyyət, böyük bir hadisə idi.

Mən qürur hissi keçirirəm ki, Nizaminin yolunda az iş görməmişəm. Onun xatirəsini əbədiləşdirmək, irsinin daha da təbliğ olunması, yayılması üçün, kitablarının nəşri üçün çox iş görmüşəm. Buna görə də mən Nizami Gəncəvinin qarşısında öz borcumu yerinə yetirmişəm.

Ancaq mən hesab etmirəm ki, bütün borclarımı qaytarmışam. Mən hələ çox illər yaşayacağam və bütün borclarımı da yerinə yetirəcəyəm. Yəni açıq desək, mənim borcum yoxdur. Amma borcum olmasa da, nə qədər ki, çalışıram, xalq mənə etimad göstərir, xalq, millət, ölkə, dövlət, doğma torpaq qarşısında o qədər də özümü borclu hesab edirəm.

Sizinlə bu gün burada görüşməkdən çox məmnunam. Doğrudur, mən Daşdəmirovu tənqid etdim. Ancaq görünür ki, onun fikri belə deyildi. Onun planında yox idi ki, burada söhbət eləyək. Planı belə idi ki, birlikdə gəlib buraya əklil qoyaq. Amma mən isə bu fürsətdən istifadə edib sizinlə belə səmimi söhbət apardım, ürək sözlərimi dedim. Mən bu gün buradayam, yəqin ki, sizinlə hələ görüşəcəyik. Sağ olun, hamınıza cansağlığı, bütün işlərinizdə uğurlar arzulayıram.

Sonra şəhər sakinləri Prezident Heydər Əliyevə yaxınlaşaraq onunla səmimi görüşdülər.

**Heydər Əliyev:** Siz harada işləyirsiniz?

**Kənd Təsərrüfatı Akademiyasının müəllimləri:** Cənab Prezident, Kənd Təsərrüfatı Akademiyasında işləyirik.

**Heydər Əliyev:** Siz hamınız müəllimsiniz?

**Müəllimlər:** Bəli.

**Heydər Əliyev:** Nə dərsi deyirsiniz?

**Müəllimlər:** Kənd təsərrüfatı müəssisələrində istehsalın təşkili, marketinq, təbiət dərsləri deyirik.

**Heydər Əliyev:** Çox gözəl. Gəncənin gözəl qızları var. Gəncə qızları həmişə gözəl olublar. Təsadüfi deyil ki, Nizami Gəncəvi həmişə gözəlliyi vəsf edibdir. O vaxt da yəqin belə gözəl qızlar varmış ki, Nizami Gəncəvi onlardan ilham alıb o cür əsərlərini yazıbdır.

**Gəncə 2 nömrəli uşaq xəstəxanasının həkimləri ölkəmizin rəhbərinə yaxınlaşaraq dedilər:**

– Cənab Prezident, bizim yurdumuza xoş gəlmisiniz!

**Heydər Əliyev:** Çox sağ olun. Harada işləyirsiniz, nə iş görürsünüz?

**Səhiyyə işçiləri:** 2 nömrəli uşaq xəstəxanasında həkim işləyirik. Hamımız Yeni Azərbaycan Partiyasının üzvüyük. Sizə dərin minnətdarlığımızı bildiririk. Təşəkkür edirik ki, bizi yada salıb gəlmisiniz. Siz bizim dayağımızsınız. Ömrünüz uzun olsun. Biz həmişə Sizinləyik.

**Heydər Əliyev:** Çox sağ olun. Çox gözəl.

**Gülüş Gözəlova:** Cənab Prezident, mən Milli Olimpiya Komitəsinin Gəncə regionu üzrə nümayəndəsiyəm. Biz İlham müəllimlə fəxr edirik. Biz, Gəncə idmançıları var gücümüzlə çalışırıq ki, 2000-ci ildə Sidneydə keçiriləcək olimpiya oyunlarından ölkəmizə fəxrlə medal gətirək, Sizi, İlham müəllimi sevindirək. Biz həmişə Sizinlə fəxr edirik.

**Goranboy rayonu Borsunlu kənd sakini, şəhid bacısı Ofelya Tahirova:** Yoldaş Əliyev, yoldaş Əliyev!

**Heydər Əliyev:** O kimdir, gəlsin bura. Onu bura gətirin.

**Ofelya Tahirova:** Yoldaş Heydər Əliyev, Sizdən kömək istəyirəm.

**Heydər Əliyev:** Nə olub, bacı?

**Ofelya Tahirova:** Goranboy rayonundan gəlmişəm. Üç uşağımın və mənim gözümün qarşısında, yatdığımız evin içində yoldaşımı qətlə yetiriblər.

**Heydər Əliyev:** Nə vaxt ediblər?

**Ofelya Tahirova:** Doqquz aydır.

**Heydər Əliyev:** Doqquz ay bundan qabaq?

**Ofelya Tahirova:** Bəli.

**Heydər Əliyev:** Bacı, narahat olma. Mən göstəriş verəcəyəm. Dilarə xanım Seyidzadə mənim köməkçimdir, onunla əlaqə saxlayarsan. Mən göstəriş verəcəyəm. Dilarə xanım, sən də onunla əlaqə saxlayarsan.

**Ofelya Tahirova:** Kömək olmasa, Sizi yenə görəcəyəm.

**Heydər Əliyev:** Kömək olar. Çalışaram. O qətli edənlər tapılmayıblar?

**Ofelya Tahirova:** Xeyr, tapılmayıbdır. Üç körpə uşaq, bir də özüm qalmışam. Uşaqlarım xəstəliyə tutulubdur. Onun günahı nədir? – Mən ərimin günahını bilmək istəyirəm. Başqa heç nə istəmirəm.

**Heydər Əliyev:** Bacım, indi nə edək, kim qətl edib, onu tapmaq lazımdır.

**Ofelya Tahirova:** Yoldaş Heydər Əliyev, onun günahı nə idi?!

**Heydər Əliyev:** Yəqin ki, öyrənərlər. Amma o qətli edən cinayətkardır, təbiidir. Darıxmayın.

**Ofelya Tahirova:** Bir ata kimi, balalarıma kömək əlinizi uzadın.

**Heydər Əliyev:** Yaxşı, yaxşı. Daha mənə bir sözünüz varmı?

**Sakinlər:** Sizə cansağlığı, uzun ömür arzulayırıq.

Gəncə Kənd Təsərrüfatı Akademiyasının müəllimi

**Zaur Hümbətov:** Hörmətli Prezident, Siz akademik Validə xanım Tutayevanı tanıyardınız. Siz onun əməyinə çox böyük qiymət vermisiniz.

**Heydər Əliyev:** Validə xanım Tutayeva.

**Zaur Hümbətov:** Bəli, Siz ona yaşıllaşdırma haqqında tapşırıq vermişdiniz. O, mənim müəllimim olubdur. Buranın yaşıllaşmasında akademiyamız müəyyən işlər görmüşdür. İndi çalışacağıq buranı daha da yaşıllaşdıraq.

**Heydər Əliyev:** Çox gözəl. Bu yaşıllaşdırma məsələsi mənim həyatımda ən birinci məsələlərdən biridir. Siz görürsünüz, Bakını necə yaşıllaşdırdıq.

**Zaur Hümbətov:** Bəli, akademik Həsən Əliyevin böyük xidmətləri olmuşdur.

**Heydər Əliyev:** Mən 70-ci ildən bu işə başlamışam. İndi, əlbəttə ki, buranın ətrafı gərək yaşıllaşsın. Yəqin ki, burada bu məsələ zəif gedir.

**Zaur Hümbətov:** Cənab Prezident, diqqət göstərirlər. Biz özümüz də çalışırıq. Ancaq mən istəyirdim Sizin yadınıza salım,– Siz mənim müəllimimə o vaxt çox böyük qiymət vermişdiniz.

**Heydər Əliyev:** Bəli, mən Validə xanımı yaxşı tanıyırdım. O, çox böyük bir alim idi, ona böyük hörmətim var idi. Allah ona rəhmət eləsin!

Mən Naxçıvanda orta məktəbdə oxuyanda Validə xanımın böyük qardaşı Murad Tutayev mənim fizika müəllimim olubdur.

**Zaur Hümbətov:** Bəli, Validə xanım söyləyirdi.

**Heydər Əliyev:** Murad Tutayev çox yaxşı bir müəllim idi. Əlbəttə, onda mən Validə xanımı tanımırdım. Mən gənc idim. Orta məktəbi 16 yaşında bitirmişəm. Amma 16 yaşına qədər biz üç il fizika keçirdik – onu Validə xanımın qardaşı Murad Tutayev aparırdı və mənə də çox yaxşı təhsil verdi. Çünki fizika, riyaziyyat, başqa elmləri, ümumiyyətlə, mən hamısını yaxşı öyrənmişdim. Amma onları daha da yaxşı bilirdim.

**Zaur Hümbətov:** Cənab Prezident, Validə xanım o vaxt Sizin fenomenal qabiliyyətiniz haqqında biz aspirantlara söyləyirdi. O, Sizinlə görüşəndə Sizə 11 kitab bağışlayıbdır. Akademiyanın yubileyində Siz çıxış edəndə onun haqqında demisiniz ki, Validə xanım 11 kitab yazıbdır.

**Heydər Əliyev:** Bəli... Yaxşı, başqa sözünüz varmı?

**Sakinlər:** Sizə cansağlığı arzulayırıq. Allah Sizi xalqımızın üstündən əskik eləməsin. Çox razıyıq. Cənab Heydər Əliyevə eşq olsun!

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV RESPUBLİKA GÜNÜNƏ HƏSR OLUNMUŞ BÖYÜK BAYRAM KONSERTİNDƏ OLMUŞDUR

*Respublika sarayı*
*27 may 2000-ci il*

Konsert başa çatdıqdan sonra dövlətimizin başçısı Heydər Əliyev səhnə arxasına keçdi, respublikanın incəsənət ustaları ilə görüşərək dedi:

– Bayramınız mübarək olsun!

Mən bu gün çıxış edəndə bütün Azərbaycan vətəndaşlarını təbrik etdim. Amma sizi xüsusi təbrik edirəm. Eyni zamanda təşəkkür edirəm ki, siz bu gün yenidən çox gözəl bir konsert göstərdiniz və hamımızı sevindirdiniz. Bu gün böyük bayramdır, bizim əziz bayramımızdır. Ona görə də insanlar sevinc içərisindədirlər. Bu sevinci daha da çox artıran sizin bu gözəl çıxışlarınız, sənət nümunələrinizdir. Sağ olun, təşəkkür edirəm.

Hamınız yaxşısınız, gözəlsiniz, yaxşı oxuyursunuz, çalırsınız, yaxşı oynayırsınız, yaxşı sözlər deyirsiniz. Hamınıza təşəkkür edirəm, çox sağ olun.

Uşaqlar da yaxşıdır, siz də yaxşısınız. Mənə sözünüz varmı?

**Yerdən:** Sizə cansağlığı arzulayırıq.

**Heydər Əliyev:** Təşəkkür edirəm. Mən də sizə cansağlığı arzu edirəm. Biz həmişə fəxr edirik ki, Azərbaycanın gözəl incəsənət ustaları var.

İşləriniz yaxşı gedirmi? Bütün işlər yaxşıdır? Oxuyursunuz, çalırsınız, hər şey yaxşıdır. Yaxşı, sağ olun. Azər, sən də sağ ol. Hamınız sağ olun.

**Polad Bülbüloğlu:** Bu, Azərbaycan xor kapellasının bədii rəhbəri Gülbacı İmanovadır. Onun sözü var.

**Heydər Əliyev:** Mən hər dəfə deyirdim, amma sizi burada görəndə, yanımda oturanlara göstəriş verdim ki, sizin maaşınızı artırsınlar. Beş-altı günə kimi maaşlarınız artacaqdır.

**Gülbacı İmanova:** Çox sağ olun.

**Heydər Əliyev:** Hamınızın maaşını artırmışam. Sizinkini artırmamışam?

**Polad Bülbüloğlu:** Cənab Prezident, bu il rəqs ansamblının 30 illiyi tamam olacaqdır. O barədə mən Sizə xüsusi olaraq deyəcəyəm. Amma xor kapellasına Siz çoxdan söz vermisiniz.

**Heydər Əliyev:** Mən hamınızın maaşını artırmışam. Mədəniyyət işçilərinin əmək haqqını altı dəfə artırmışam. Düzdür, əvvəl maaşlar az olubdur.

Burada balet artistləri də varmı? Bir dəfə də onların maaşlarını artırmışam.

**Polad Bülbüloğlu:** Bəli, düzdür.

**Heydər Əliyev:** Bilirsinizmi, vallah-billah, imkan olsa, maaşlarınızı yüz dəfə də artıraram. Amma nə mümkündür, onu edirik. Bu gün də çıxışımda dedim, – bundan sonra imkanımız daha da çox olacaqdır. Maaşları daha da çox artıracağıq. İqtisadiyyatımız inkişaf edir, gəlirimiz artır, bundan sonra daha da çox artacaqdır. Nə qədər ki, çox artacaq, o qədər də birinci növbədə mədəniyyətə sərf olunacaqdır. Çünki mədəniyyət hər şeydən üstündür. Sağ olun, gecəniz xeyrə qalsın.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV ÇUVAŞİYANIN XALQ YAZIÇISI MİŞŞİ YUXMANI QƏBUL ETMİŞDİR

*Prezident sarayı*
*17 iyun 2000-ci il*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Ümumçuvaşiya İctimai Mədəniyyət Mərkəzinin prezidenti, İ.Y.Yakovlev adına Ümumçuvaşiya Milli Mükafatlar Komissiyasının sədri, xalq yazıçısı, akademik Mişşi Yuxma başda olmaqla Çuvaşiya Respublikasının nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev qonaqları qarşılayaraq dedi:

– Sizi, Uzaq və Yaxın Çuvaşiyadan gəlmiş qonaqları salamlayıram. Aramızdakı məsafə sanki uzaqdır, amma bununla yanaşı, biz bir-birimizə çox yaxınıq. Deyə bilmərəm ki, bu məsafə uzaqdır. Şadam ki, siz Azərbaycana gəlmişsiniz. Bilirəm ki, siz burada artıq neçə gündür qonaqsınız, həyatımızla tanış olursunuz, münasibətlərimizi inkişaf etdirirsiniz. Bütün bunlar çox xoşdur, ən başlıcası isə bizim hamımız üçün çox faydalıdır. Kimin harada olduğunu bilmədiyimiz vaxtlar artıq arxada qalmışdır. İndi biz bir-birimizi axtarıb tapmalı, yaxınlaşmalı, öz tariximizi bərpa etməliyik. Odur ki, bu baxımdan siz yaxşı təşəbbüs göstərirsiniz. Mən sizi salamlayıram.

Mişşi Yuxma Prezident Heydər Əliyevə dərin təşəkkürünü bildirərək dedi:

– Heydər Əliyeviç, ilk öncə, yenicə keçən bayram – Azərbaycanın Milli Qurtuluş günü münasibətilə Sizi çuvaş xalqı, Rusiyanın sayca üçüncü xalqının milli hərəkatı adından təbrik etmək istəyirəm. Biz onu heç də təkcə Azərbaycanın qurtuluş günü hesab etmirik, bu, bütün türk dünyasının qurtuluş günüdür. Biz Sizi bütün türk dünyasının lideri hesab edirik.

Çuvaşlar və bütün Çuvaşiya Sizi xatırlayır, Çuvaşiyaya səfərinizi həmişə xoş sözlərlə yada salırlar. Sizin səfəriniz 1986-cı il iyunun 5–7-də olmuşdur.

**Heydər Əliyev**: Siz hətta günləri də xatırlayırsınız. Mən günləri unutmuşam. Bu, 1986-cı ildə olubdur.

**Mişşi Yuxma:** O vaxt çox yaxşı – günəşli, gözəl günlər idi.

Mən bunu bir də ona görə xatırlayıram ki, o vaxt Siz küçələrdə şəhər sakinləri ilə görüşürdünüz. Siz adamlarla görüşən belə yüksək vəzifəli ilk rəhbər idiniz. Ona görə də biz bunu çox yaxşı yadda saxlamışıq. Siz mağazalara, bazarlara baş çəkirdiniz. Küçələrdən birində adamlara dediniz: yaxın gəlin, söhbət edək. Mən birinci irəli çıxdım, Siz əlimi sıxıb soruşdunuz: siz kimsiniz? Dedim ki, yazıçıyam. Familiyamı dedim – çuvaş türkü Mişşi Yuxma. Siz mənə təəccüblə və hörmətlə baxdınız. Biz söhbət etdik. Mən heyran qalmışdım, necə suallar verirdiniz, bu suallar qəlbimi riqqətə gətirir və sevindirirdi. Sonra dostlarım, respublikanın rəhbərləri soruşurdular: o, səni haradan belə yaxşı tanıyır? Cavab verirdim: axı, biz onunla köhnə dostlarıq. O vaxtlar Aleksandr Semyonoviç Çeboksarı şəhərinin meri idi.

**Aleksandr Nikitin** /Çuvaşiya Respublikası Turizm və Servis İnstitutunun rektoru/: O vaxtlar biz təmizliyi təmin edirdik, çalışırdıq ki, hər yer tərtəmiz, yollar qaydasında olsun. Sizin gəlişinizə hazırlaşırdıq, sənaye traktorları zavodunu, pambıq-parça kombinatını Sizin gəlişiniz münasibətilə hazırlayırdıq – orada sosial xarakterli problemlərimiz vardı.

**Mişşi Yuxma**: Traktor zavoduna kömək etdiyinizə görə biz Sizə çox minnətdarıq. Onda Siz dediniz: bu, elə bir zavoddur ki, onu dirçəltmək və tikib başa çatdırmaq lazımdır. Siz subsidiya almağa kömək etdiniz. Bu traktor zavodu məhz Sizin sayənizdə, necə deyərlər, ayağa qaldırıldı. Biz bütün bunları çox yaxşı xatırlayırıq. İndi bizim Çeboksarı traktorları, xüsusən də kanalqazan maşınlarımız başqalarından heç də pis deyildir. Bütün bunlar Sizin sayənizdə olmuşdur. Sizin səfərinizi, traktor zavodunda söylədiyiniz sözləri, çıxışınızı hamı xatırlayır. Biz həmçinin minnətdarıq ki, Siz bizim Pambıq-parça Kombinatının sosial problemlərinin həllinə də kömək etdiniz. Şəhərdə hər üç qadından biri bu kombinatda işləyirdi. Ona görə də Sizin köməyiniz hər bir ailəni əhatə etdi. Sizin ağac əkdiyinizi də xatırlayırıq. Heydər Əliyeviç, Sizin sözlərinizi xatırlayırıq, dediniz ki, şəhərimiz gözəldir, amma həmişəyaşıl ağaclar – küknar ağacları əkmək lazımdır. Yoxsa ki, payızda yarpaqlar tökülür və qışda ağaclar qara kölgələr kimi durur. Əkdiyiniz o gözəl ağac həmin vaxtdan bəri qol-budaqlı olmuşdur, – əliniz yüngüldür, – biz hətta bu ağacın şəklini xüsusi olaraq çəkib gətirmişik və şəkilləri Sizə bağışlamaq istəyirik.

**Heydər Əliyev:** Necə də xoşdur. Bir baxın, ağac necə də böyüyüb. Sözün düzü, düşünmürdüm ki, bu ağac hələ də yaşayır. Mən çox sə-

fərlərdə olmuşam, çox ağac əkmişəm, ona görə də bilmirəm, onlar harada yaşayır, harada yaşamır.

**Mişşi Yuxma**: Çuvaş və rus dillərində yazılmış lövhəcik bu ağacın üstündə qalmaqdadır. Bu ağaca 11 nömrəli məktəbin şagirdləri qulluq edirlər.

**Aleksandr Nikitin**: Yanında da respublikamızın iftixarı olan kosmonavt Andrian Qriqoryeviç Nikolayevin əkdiyi ağac var.

**Heydər Əliyev:** Çox xoşdur. Siz mənə çox gözəl hədiyyə etdiniz.

**Mişşi Yuxma:** Heydər Əliyeviç, mənə tapşırılmışdır ki, bu sözləri deyim: Sizin səfəriniz bizim üçün bir də ona görə əlamətdar idi ki, Siz xalqla ünsiyyət nümunəsi göstərmiş olan ən yüksək vəzifəli ilk rəhbər idiniz. Onda biz başa düşdük ki, müdrik rəhbər xalqla, sadə insanla danışmağı həmişə bacarır. Siz çox gözəl nümunə göstərdiniz və buna görə Sizə çox minnətdarıq.

İndi isə ağaclar barəsində. Bu, küknar ağacları xiyabanıdır. Xalq arasında onu Əliyev xiyabanı adlandırırlar və düşünürəm ki, gələcəkdə bu xiyaban belə də adlandırılacaqdır. Gözəl səslənir. O vaxtlar Sizin məsləhətiniz sayəsində bir çox küçələrdə cökə ağacları əvəzinə həmişəyaşıl ağaclar əkməyə başladılar.

**Heydər Əliyev**: Bəli, küknar həmişəyaşıl ağacdır. Mən bunu həmişə təbliğ edirəm. Sizin iqliminiz bunun üçün çox münasibdir. Amma bizim iqlim, Bakının iqlimi, – Siz yəqin ki, diqqət yetirdiniz, – çox sərtdir. Burada ağac çox çətin bitir. Sizdə ağacı əkdikdən sonra çox da sulamaq lazım deyil, çünki kifayət qədər rütubət var, ağac böyüyəcək. Bizdə isə ağacın böyüməsi üçün ona azı bir neçə il qulluq etmək gərəkdir. Siz indi yəqin görürsünüz ki, şəhərdə olduqca çoxlu həmişəyaşıl ağaclar var, bunlar şam ağaclarıdır. Siz hava limanından gələrkən yol boyu ağaclar gördünüz – ora sanki meşədir. Halbuki siz neft mədənlərindən keçib gedirsiniz. Məsələn, təxminən 30 il əvvəl orada bir dənə də ağac yox idi. Mən Azərbaycanın rəhbəri olduqdan sonra biz, əvvəla, bu yolu çəkdik. İkincisi, mən Bakı şəhərini yaşıllaşdırmaq proqramını irəli sürdüm – təkcə dövlətin imkanları ilə deyil, həm də adamların, hər bir müəssisənin imkanları ilə yaşıllaşdırmaq. Buna görə də mən hər bir neftçıxarma idarəsini məcbur edir, onlara sahə verir, deyirdim: bax, bu sənin sahəndir, sən burada ağac əkməli, onu sulamalı və böyütməlisən.

Mən uzun müddət Bakıda olmadım. Bilirsiniz ki, getmişdim, burada uzun müddət olmadım. Qayıtdıqda gördüm ki, bu ağaclar artıq böyüyübdür. Mən artıq yeddi ildir buradayam. Bu yeddi ildə hava lima-

nına və ya prospektlərlə bir yana getdikdə bu ağaclara baxıram və qəlbim sevinc hissi ilə dolur. Bilirsinizmi, həmişəyaşıl ağaclar əkmək yaxşıdır. Deyirlər ki, küknar da bitir, amma gec böyüyür. Hərçənd bizdə bəzi yerlərdə küknar da əkiblər və bu ağaclar yaxşı bitir.

O vaxtlar demişdim ki, burada, bizim bu binanın, – yeri gəlmişkən, onu da mən tikdirmişəm, – qarşısında hökmən küknar ağacları əksinlər. Məsələn, Moskvada, Lenin mavzoleyinin qarşısındakı küknar ağacları mənim xoşuma gəlirdi. Dedim ki, hökmən küknar ağacı əkmək lazımdır. Mənə dedilər ki, yox, burada çətindir, bitməyəcəkdir. Əkdilər, indi bitibdir. Özü də indi yanıma gəlib deyirlər ki, bu ağaclar bir-birini sıxışdırır, kimsə onların bəzisini oradan çıxarıb, başqa yerdə əkmək istəmişdir. Mən dedim: Yox, onlara toxunmaq olmaz. Amma buna baxmayaraq, bizdə bizim Bakı iqlimi şəraitində ağac əkmək çətindir. Sizdə isə Allahın özü kömək edir.

**Mişşi Yuxma:** Bizdə tuya ağacı da bitir. Elə küçələr var ki, onların hərəsində 15-20 tuya bitmişdir. Bütün şəhər Sizin sözlərinizi nəzərə aldı və ağac əkməyə başladı.

**Heydər Əliyev**: Çox xoşdur, mən şadam. Mən orada olanda vilayət partiya komitəsinin katibi...

**Mişşi Yuxma**: O vaxtlar Baranovski idi. Heydər Əliyeviç, onu da demək istəyirəm ki, Çeboksarıda birinci görüşümüzdən sonra Sizinlə görüşməyi çox arzu edirdim. Nəhayət, 1998-ci ildə Ankarada mən türk dünyası qarşısında xidmətlərə görə mükafata layiq görüldüm. Mənə dedilər ki, Heydər Əliyev də bu cür mükafatla təltif edilmişdir, mükafatı almağa birlikdə gələcəksiniz. Sizinlə görüşəcəyimdən çox sevinirdim. Çuvaşiyada yaşayan azərbaycanlılar, – onlar təxminən iki min nəfərdir, bunu eşitdikdə töhfələr toplayıb dedilər: bunları Heydər Əliyeviçə, sevimli Prezidentimizə hökmən çatdırın. Mən getdim, amma təəssüf ki, Siz orada deyildiniz. Belə olduqda möhtərəm Süleyman Dəmirələ dedim: bilirsinizmi, Çuvaşiyada yaşayan azərbaycanlılar Heydər Əliyeviçə hədiyyə göndəriblər. Mən nə edim? O dedi: İndi səfiri çağırarıq. Sonra fikirləşərək dedi: Mən hörmətli Heydər Əliyevlə daha tez görüşəcəyəm, hədiyyəni ona özüm verərəm. Bir müddətdən sonra Bakıdan müxbir zəng vurub deyir: Süleyman Dəmirəl sizin töhfələrinizi təqdim etdi, özünüz haqqında danışın. Mənim üçün çox xoş oldu, mən çox şad oldum.

**Heydər Əliyev**: Çox sağ olun. Bilirsiniz, Siz keçmişlə bağlı mənə maraqlı çox şeyləri xatırlatdınız. Həyat ağırdır, hər şeyi yadda saxlaya bilmirsən. Ümumiyyətlə, mənim yaddaşım, şükürlər olsun, çox yax-

şıdır. Mən hər şeyi xatırlayıram. Amma o qədər iş, gündəlik qayğılar var, işdən baş açıb keçmişdə olanları yada salmağa heç olmasa bir saat vaxt tapmırsan. Bax, sizinlə görüş kimi, belə görüşlər olduqda, keçmişlə bağlı nəyisə xatırlamağa başladıqda mənə çox xoş olur. Siz öz söhbətinizlə məni çox sevindirdiniz. Mən Çeboksarını xatırlayıram, respublikanızı xatırlayıram, o vaxtlar mən sizə təsadüfən gəlməmişdim. Elə deyildi ki, məni kimsə göndərmişdi. Mən Tatarıstana da, sizin respublikanıza da, digər türkdilli respublikalara da, məsələn, Başqırdıstana da səfər etmişdim.

Rusiya böyükdür, Sovetlər İttifaqı da böyük idi. Mən Siyasi Büronun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini idim. Ölkəyə çox səfərlər edirdim. Amma ən çox Rusiyanı gəzməyə çalışırdım. Çünki digər ittifaq respublikaları mənə tanış idi. Volqaboyu, bizim türkdilli respublikalar məni xüsusilə cəlb edirdi. Ona görə də imkan düşən kimi sizə gəldim. Yadımdadır, axşam sizin milli ansambl konsert verdi. Mən sizin rəqslərinizi, mahnılarınızı xatırlayıram. Sizdə hər şey rus dilində idi.

**Mişşi Yuxma:** Bizdə Çuvaşiya Akademik Dram Teatrı var. O, yalnız çuvaş dilində fəaliyyət göstərir.

**Heydər Əliyev**: Onda da çuvaş mahnıları oxuyurdular. Mən çuvaş dilini məhz orada, bu konsert zamanı hiss etdim – mahnıları da çuvaş dilində oxuyurdular, ifa edilən rəqslər də çuvaş rəqsləri idi. Mən milli geyimi də gördüm.

**Mişşi Yuxma**: Hörmətli Heydər Əliyeviç, Sizin Çeboksarıya gəlişinizdən sonra Azərbaycanla əlaqələrimizi möhkəmlətmək üçün nə etmək barədə çox düşündük. Odur ki, şəhərimizin ən yaxşı küçələrindən birinə böyük Azərbaycan şairi Nizaminin adını verdik.

**Aleksandr Nikitin**: Şəhərin yeni meri Sizə çatdırmağı xahiş etdi ki, Nizami küçəsi nəinki şəhərin ən yaxşı küçəsi olacaq, həm də biz hər şey edəcəyik ki, orada Nizaminin büstü qoyulsun.

**Mişşi Yuxma:** Biz büstü qoyduqdan sonra Çeboksarıdakı Azərbaycan cəmiyyəti ilə birlikdə hər il Nizami küçəsi bayramı keçirəcəyik. Azərbaycan cəmiyyəti yaradılan vaxtdan bəri hər il Novruz bayramını keçiririk. Bu bayramı qədimlərdə Çuvaşiyada da keçirirdilər, lakin sonralar unudulmuşdur.

**Heydər Əliyev**: Bu yaxınlarda Türkiyə və Azərbaycan yazıçıları burada “Dialoq Avrasiya” jurnalı nəşr etməyə başlamış və onun təqdimatına məni də dəvət etmişdilər. Siz orada oldunuzmu?

**Mişşi Yuxma**: Orada idik, Sizin çıxışınızı dinlədik.

**Heydər Əliyev**: Mən Azərbaycan dilində danışırdım. Jurnalda Novruz bayramı haqqında iki məqalənin olması məni sevindirdi. Mən orada dedim ki, Novruz bizim bütün xalqlarımızın qədim bayramıdır. Bəzi xalqlar onu unudublar. Azərbaycanlılar isə unutmayıblar. Mən orada dedim ki, Novruz bayramı Azərbaycanda keçirilən kimi heç yerdə keçirilmir. Biz müstəqil dövlətlər olduqdan sonra isə Novruzu Özbəkistanda, Türkmənistanda da keçirməyə başladılar. Məsələn, Türkiyədə bu bayramı keçirmirdilər. Lakin iki il bundan əvvəl Türkiyə nümayəndə heyəti Novruz günlərində burada idi. Onlar mənimlə birlikdə şəhərdə, şənliklərdə oldular. Onlar bütün bunları görüb Prezident Süleyman Dəmirələ danışdılar. O da dedi: Bəs nə üçün biz bu bayramı keçirmirik? İndi bu bayramı Türkiyədə daha geniş keçirməyə başlamışlar. Bu, həqiqətən, xalqımızın ən qədim bayramıdır. Deməli, siz o təqdimatda idiniz, şadam ki, məni dinlədiniz.

**Aleksandr Nikitin:** Cənab Hidayət Orucov yanımızda oturmuşdu və o, bizə çox şeyi tərcümə etdi.

**Mişşi Yuxma:** Onunla dostlaşmağımıza çox şadıq. O, öz xalqının, türk dünyasının böyük vətənpərvəridir, gözəl şairdir. O, bizi dəstəkləyir, bizə kömək edir.

**Heydər Əliyev**: Mənə xoşdur ki, siz “Dədə Qorqud”un 1300 illiyində olmusunuz. Bu, çox yaxşıdır. Bizim Polad Bülbüloğlu, Türksoyun sədri bu yaxınlarda mənə dedi ki, Çuvaşiyada Türksoyun növbəti iclası keçirilmişdir. O, orada idi, onu yenidən Türksoyun sədri seçdilər. Türksoy çox mühüm rol oynayan təşkilatdır. Çünki indi xalqlarımızın tarixi köklərinin bərpası ən çox mədəniyyət, ədəbiyyat, tarix vasitəsilə həyata keçirilməlidir. Biz, türkdilli dövlətlərin liderləri də görüşürük. Bu görüşlərdə daha çox iqtisadiyyat, siyasət məsələləri olur, siyasət isə bəzi ölkələrdə qıcıqlanma doğurur: yeni blok yaradır və sair. Xeyr, heç bir yeni blok yoxdur. Amma iş xalqlarımızın mədəniyyətinin, elminin, tarixinin, tarixi köklərinin xətti ilə görüldükdə, burada qəbahətli bir şey yoxdur. Əksinə, bu, ən başlıcasıdır. İqtisadiyyat hər yerdə iqtisadiyyatdır – sizdə traktor zavodu, pambıq-parça kombinatı, bizdə isə neft, maşınqayırma zavodları var. Özü də indi, elmi-texniki tərəqqidə belə böyük sıçrayış edildiyi bir vaxtda. Ancaq mədəniyyəti, dili, adət-ənənələri artıq heç kim dəyişə bilməz. Elm, texnika nə dərəcədə inkişaf etsə də, nə kimi sıçrayışlar edilsə də, hətta Marsa uçsalar da, xalqların qədim ənənələri heç vaxt ləğv oluna bilməz.

Sizə deyim ki, sovet dövründə burada, Azərbaycanda az-az adam bilirdi ki, çuvaşlar türkdilli xalqdır. Tatarıstanı tanıyırdılar, Başqırdıstanı tanıyırdılar, çuvaşların türkdilli xalq olduğunu isə bilmirdilər. Azərbaycanda ayrı-ayrı tədqiqatçılar bilirdilər, xalq isə bilmirdi. Mən isə bilirdim, ona görə də sizə gəlmişdim.

**Mişşi Yuxma**: Biz Sizin dəstəyinizi yadda saxlayaraq, tariximizin qaytarılması üzərində işləməyə başladıq. Məsələn, bu yaxınlarda mənim "Qədim çuvaşlar" kitabım çapdan çıxdı. Biz əslində tarixi xalqımıza qaytardıq. İndi bu işi davam etdirərək, dünyanın türkdilli xalqları ədəbiyyatlarının antologiyasını hazırlamağa başlamışıq ki, hər bir çuvaş oxusun, qalan türkdilli xalqları tanısın. Azərbaycan ədəbiyyatı ilə əlaqədar maraqlı bir hadisə oldu. Orada biz hər bir xalq haqqında tarixi məlumat, 15 yazıçı haqqında məlumat verməyi qərara almışdıq. Azərbaycan ədəbiyyatına dair bölməyə 15 nəfər heç cür yerləşmirdi. Heç olardımı ki, Füzulini daxil edəsən, Sabiri yox, Rəsul Rzanı necə daxil etməyəsən? Qərara aldıq ki, hər ədəbiyyatdan 18 nəfər daxil edək. Çox çalışdıq, yenə də bir şey çıxmadı. İndi Azərbaycan ədəbiyyatı sayəsində hərədən 20 nəfər daxil etdik.

**Heydər Əliyev**: Bilirsinizmi, mən hələ onda görürdüm, hiss edirdim ki, bu türkdilli respublikalarda, müsəlman respublikalarında güclü assimilyasiya gedir. Mən Çeboksarıda olanda Vilayət partiya komitəsinin birinci katibi ilə danışdım, əlbəttə, çox ehtiyatla danışırdım, ona görə ki, bilmirdim, kim necə başa düşəcəkdir. Amma mən ona eyham etdim ki, əlbəttə, rus dili bizim hamımız üçün gərəkdir, bu dil olmadan bizim sovetlər ölkəsində həyat ola bilməz, ancaq bununla yanaşı hər bir xalq öz dilini qorumalıdır. Mən ona bəzi məsləhətlərimi verdim. Aydındır, siz Rusiyanın mərkəzindəsiniz. Bəs indi siz öz dilinizdə məktəbləri bərpa edirsinizmi?

**Mişşi Yuxma**: Bərpa etmişik, özü də təkcə Çuvaşiya Respublikasında deyil, hətta onun hüdudlarından kənarda – Samara vilayətində, Tatarıstanda, Başqırdıstanda da.

**Heydər Əliyev**: Siz dediniz ki, çuvaşlar Rusiyanın sayca üçüncü xalqıdır. Bu belədir?

**Mişşi Yuxma:** Bəli, 3 milyon çuvaş var.

**Heydər Əliyev**: Mən bilirəm ki, ikinci yerdə tatarlardır.

**Mişşi Yuxma**: Tatarlardan sonra bizik. Çuvaşlar çox möhkəm tarixi kökləri olan böyük xalqdır. Sizin Çeboksarıya gəlişiniz, Sizin sözləriniz, xoş münasibətiniz, köməyiniz və yüksək vəzifəli rəhbərin, türk mənşəli rəhbərin gəlişi bizim üçün olduqca böyük rol oynadı.

**Heydər Əliyev:** Mən bunu hiss etdim. Çünki çar Rusiyası dövründə də, Sovetlər İttifaqı dövründə də bizim xalqlarımızdan Kremldə belə yüksək səviyyəli bir nəfər də olmayıbdır.

**Aleksandr Nikitin**: Kirilenko olubdur.

**Heydər Əliyev**: Kirilenko kimdir? O, ukraynalıdır. Mən bizim xalqlarımızdan, türkdilli xalqlardan, müsəlmanlardan danışıram.

**Mişşi Yuxma**: Heydər Əliyeviç, o vaxt mən deyəndə ki, çuvaş-türkəm, Siz mənə elə məhəbbətlə baxdınız. Bu, məni ruhlandırdı, mən milli hərəkata başçılıq etdim. Biz çox böyük bir təşkilat yaratdıq. Bütün bunlar Sizin sayənizdə olmuşdur. Bunu təkcə mən yox, dostlarım da başa düşürlər. Ona görə də bütün bu reallıqları nəzərə alaraq, biz bir yerə toplaşdıq və böyük mütəfəkkirimiz, yeni yazımızın, Simbirsk çuvaş məktəbinin yaradıcısı, əslində millətimizin xilaskarı olmuş İvan Yakovlevin adını daşıyan ümumçuvaşiya milli mükafatına Sizin namizədliyinizi rəsmən irəli sürdük. Biz 27 nəfərdən – aparıcı yazıçılarımızdan, alimlərimizdən, ictimai xadimlərimizdən ibarət bir heyətdə toplaşdıq və məni sevindirən o oldu ki, təqdimatı oxuyub, hörmətli Heydər Əliyeviçin namizədliyini irəli sürdükdə, komissiyanın bütün üzvləri ayağa qalxdı. İndi Sizin icazənizlə, Heydər Əliyeviç, mən ayağa qalxıb diplomda yazılanları oxumaq istəyirəm.

**Heydər Əliyev**: Buyurun.

**Mişşi Yuxma**: "Diplom nömrə 25. Çuvaş xalqının dirçəlməsi naminə böyük fədakar fəaliyyətinə görə və çuvaş xalqının da aid olduğu türk xalqlarının milli oyanışı və dirçəlişi işində görkəmli xidmətlərinə görə, onların dostluğunun, qardaşlığının, mehriban qonşuluğunun və həmrəyliyinin genişlənməsinə və möhkəmlənməsinə çox böyük töhfəsinə görə, türk dünyası xalqlarının elminin, mədəniyyətinin və maarifçilik fəaliyyətinin tərəqqisinə olduqca böyük şəxsi töhfəsinə görə, öz türk köklərimizin dərindən öyrənilməsi yoluna sönməz məşəl tutduğuna görə 1999-cu ilin İvan Yakovleviç Yakovlev adına Ümumçuvaşiya Milli Mükafatı Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevə verilir. Komissiyanın sədri Yuxma, katibi Qavrilova".

**Heydər Əliyev**: Sağ olun.

**Mişşi Yuxma:** Hörmətli, bizim hamımızın sevimlisi Heydər Əliyeviç, icazə verin, bu ən yüksək mükafatımızın diplomunu Sizə təqdim edim. Döş nişanını, İvan Yakovlevin büstünü, xatirə hədiyyələrini, Çuvaşiyada nəşr olunan qəzetləri, nəvəniz – balaca Heydər üçün hədiyyələri də təqdim edirəm.

Ümumçuvaşiya İctimai Mədəniyyət Mərkəzinin vitse-prezidenti xanım Roze Şevlebi çuvaş dilində yazdığı “Uşaqlığımın bağı” kitabını Prezident Heydər Əliyevə təqdim etdi.

Dövlətimizin başçısına Mişşi Yuxmanın “İrs” kitabı da təqdim olundu.

**Heydər Əliyev**: Çox sağ olun. Mən heç vaxt bu qədər hədiyyə qəbul etməmişəm. Sizdə nə qədər azərbaycanlı yaşayır?

**Aqil Əliyev** /Çuvaşiya–Azərbaycan Dostluq Cəmiyyətinin prezidenti/: 1500-dən çox, təxminən iki min.

**Heydər Əliyev**: Normal yaşayırsınız?

**Aqil Əliyev**: Bəli, hər şey yaxşıdır.

**Aleksandr Nikitin**: Onun ofisi bizim ictimai mədəniyyət mərkəzimizdədir. Biz birlikdə işləyirik.

**Heydər Əliyev**: Çox sağ olun. Mənə yetirdiyiniz diqqətə görə sizə çox təşəkkür edirəm. İlk öncə bu yüksək mükafata görə. Mənim fəaliyyətimi, mənim xidmətlərimi belə yüksək qiymətləndirdiyinizə görə və bütün digər hədiyyələrinizə görə sizə təşəkkür edirəm. Ən başlıcası budur ki, siz gəlmisiniz, biz söhbət etmək, keçmişi xatırlamaq, gələcək barəsində düşünmək imkanı qazandıq. Bir daha təkrar edirəm, 1986-cı ildə mən qəlbimin hökmü ilə Çuvaşiyaya gəldikdə məni, təbii olaraq, traktor zavodu da, pambıq-parça kombinatı da, bir çox başqa şeylər də maraqlandırırdı. Biz orada fəalların böyük bir yığıncağını keçirdik. Mən bu yığıncaqda çıxış etdim. Əslində sizin bütün respublikanız oraya toplaşmışdı. Mən küçələri gəzdim – mənim xarakterim belədir. Ola bilsin ki, bu, o vaxtlar bir qədər təəccüblü görünürdü. Çünki o vaxtlar Sovetlər İttifaqının rəhbərləri belə hərəkət etmirdilər, belə şeyləri özlərinə rəva bilmirdilər. Amma mənim xarakterim belədir. Mən həmişə, burada da, Moskvada da işləyəndə küçələrdə, mağazalarda, meydanlarda insanlarla birbaşa ünsiyyətdən çox şey öyrənirdim. Başlıcası isə, məni sizdə cəlb edən bu idi ki, Çuvaşiya mənim üçün doğma ölkədir, çuvaşlar mənim üçün doğma xalqdır.

Təkrar edirəm, o vaxtlar bütün bunlar üçün, təəssüflər olsun, imkan yox idi. Sovetlər İttifaqı dağılan kimi biz bu ideologiyadan xilas olduq, bir baxın, xalqınız öz zəngin tarixini, zəngin mədəni dəyərlərini, öz dövlətçiliyini bərpa etmək üçün qısa müddətdə nə qədər işlər görmüşdür. Halbuki o vaxtlar çuvaş dövlətçiliyindən heç danışmaq da mümkün deyildi. Yalnız onu deyirdilər ki, çuvaşlar Oktyabr inqilabından sonra təhsil almışlar və sair. Halbuki türk xalqlarının, o cümlədən də çuvaş xal-

qının necə qədim, zəngin tarixi, zəngin sivilizasiyası var. Mən şadam ki, sizdə dirçəliş prosesi gedir. Əlbəttə, Azərbaycanda biz çox şeyi qoruyub saxlamışıq, heç nəyi itirməmişik. Amma buna baxmayaraq, indi biz tamam başqa şəraitdə, müstəqillik şəraitində yaşayırıq.

**Mişşi Yuxma:** Heydər Əliyeviç, biz Qobustanda olduq, Yanardağı gördük. Biz çox ümidvarıq ki, kitablarımız burada Azərbaycan dilində nəşr olunacaqdır. Biz özümüz də Azərbaycan kitablarını tərcümə etmək istəyirik.

**Heydər Əliyev:** Çox yaxşı. Sizə təşəkkür edirəm. Sağ olun. Ən əvvəl çuvaş xalqına, respublikanızın bütün vətəndaşlarına, rəhbərlərinizə salam çatdırın. Sizdə prezident Fyodorovdur, o, Rusiyada tanınmış adamdır. Axı, ədliyyə naziri olubdur. O, özünün ictimai və dövlət fəaliyyəti ilə tanınmışdır. Sizdə kosmonavt da var. Əslinə qalsa, ruslardan və ukraynalılardan başqa, digər xalqlardan kosmonavtlar az idi. Əvəzində, çuvaşlar kosmonavt verə bildilər. Hətta azərbaycanlılar da kosmonavt verə bilmədilər, amma çuvaşlar verdilər. Sizin çoxlu uğurlarınız var. Mən buna şadam. Hesab edirəm ki, indi, respublikanız öz milli xüsusiyyətinə, milli dövlətçiliyinə nail olduqdan sonra sizi qarşıda hələ çox nailiyyətlər gözləyir. Sizə uğurlar arzulayıram, yenə də gəlin.

Görüş qurtardıqdan sonra Azərbaycan Prezidenti Heydər Əliyev qonaqlarla xatirə şəkli çəkdirdi.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TANINMIŞ RUSİYA MODELYERİ VALENTİN YUDAŞKİNİ VƏ FƏXRİYYƏ XƏLƏFOVANI QƏBUL ETMİŞDİR

*Prezident sarayı*
*23 iyun 2000-ci il*

Dövlətimizin başçısı Heydər Əliyev qonaqları səmimiyyətlə salamlayaraq dedi:

– Şadam ki, Siz buraya gəlmisiniz. İndi moda xüsusi əhəmiyyətə malikdir və modanın həmişə əhəmiyyəti olubdur, amma indi onun xüsusi əhəmiyyəti var. Azərbaycanlılar da modadan geri qalmaq istəmirlər. Buna görə də Sizin buraya gəlişinizin, məncə, böyük əhəmiyyəti olacaqdır. Valentin Yudaşkin səmimi qəbula görə Prezident Heydər Əliyevə təşəkkür edərək dedi:

– Çox məşğul olduğunuza baxmayaraq, bizi qəbul etdiyinizə görə Sizə hədsiz minnətdaram. Biz Sizi Moskvada gördük, mənim təcrübəmə inanın, Siz ən eleqant prezidentlərdən birisiniz. Mən bunu kənardan görmüşəm – biz Moskvadan təyyarə ilə əslində eyni vaxtda yola düşdük.

**Heydər Əliyev**: Mən dünən axşamdan xeyli keçmiş qayıtdım. Siz də?

**Valentin Yudaşkin**: Biz bir az əvvəl gəldik. Bilirdik ki, Siz gəlirsiniz. Düşünürəm ki, hər şey uğurlu keçdi. Mən Bakıda artıq ikinci dəfəyəm. Biz mədəniyyət naziri ilə çox söhbət etmişik.

Azərbaycanda Rusiya günləri ərəfəsində, – bu gələn həftə başlayır, – bizim teatr burada ilk elçidir, bunu təşkil edənlərə təşəkkürümü bildirirəm. Bakını görmək çox xoşdur. Biz təyyarə ilə gələrkən şəhərin necə dəyişdiyini, böyüdüyünü gördük, olduqca çox yeni tikililər var.

**Heydər Əliyev**: Siz burada axırıncı dəfə nə vaxt olubsunuz?

**Valentin Yudaşkin**: İki il əvvəl. İki ildə böyük dəyişikliklər baş veribdir. Çox xoşdur ki, moda vahid olur və ünsiyyətə kömək edir. Biz əvvəllər fransızlardan ayrı düşmüşdük, lakin indi biz, şübhəsiz ki, birlikdəyik.

**Heydər Əliyev**: Sovetlər İttifaqı dövründə bizim öz modamız, onların öz modası vardı. Amma buna baxmayaraq, əksəriyyət hər halda

Avropa modasından istifadə etməyi üstün tuturdu. Əlbəttə, fərq böyük idi. Ancaq indi, siz doğru deyirsiniz, biz hamımız birlikdəyik – Rusiyada da, başqa ölkələrdə də, keçmiş Sovetlər İttifaqı ərazisindəki müstəqil dövlətlərdə də, artıq bu sahə əhəmiyyət kəsb edir və ictimaiyyətdə maraq doğurur. Sovet dövründə Moskvada moda nümayiş etdirilərkən ona ancaq sayseçmə adamlar maraq və həvəs göstərirdilər. Yadımdadır, mən Moskvada yaşayarkən "Burda moden" jurnalının baş redaktoru ilk dəfə oraya gəlmişdi. Bu, həmin dövr idi ki, Sovetlər İttifaqında müəyyən proseslər baş verirdi. Xatirimdədir, İttifaqlar evində "Burda moden" moda nümayiş etdirirdi, adamlar oraya can atırdılar, oraya gedə bilənlər də oldu, bilməyənlər də və sair. Mən həmin "Burda moden" jurnalını götürüb baxdım. İndi "Burda moden" daha elə geniş şöhrətə malik deyildir. Nəyə görə? Ona görə ki, o vaxt bu, bizdə yox idi və lakin birdən peyda oldu. Bu jurnalı əldə etmək üçün böyük canfəşanlıq göstərilirdi.

**Valentin Yudaşkin**: Ona görə ki, orada ülgülər vardı, adamlar paltarı özləri tikirdilər. Burada çoxlu fabrik var. Səfərimin bir məqsədi də bu fabriklərə baxmaqdır. Hazırda biz öz istehsalımızı bütün dünyada yerləşdiririk. Burada köhnə məktəbin qalması çox vacibdir. Burada çox yaxşı keyfiyyətli parçalar var. Biz sizin gənc dizaynerlərinizi Moskvaya dəvət edirik.

**Heydər Əliyev**: Bu, çox yaxşıdır. Doğrudur, modelyerlər modanı icad edirlər, bəzən nümayiş etdirirlər, amma sonra harada geyirlər, kim geyir – biz bunu görmürük. Mənim ailəmdə qızım, nəvəm, gəlinim, – şübhəsiz ki, onlar cavan adamlardır, – bununla maraqlanırlar və hətta mən Yudaşkindən savayı ayrı modelyerləri tanımırdım. Amma onların vasitəsilə Versaçeni, Valentinonu da tanıdım.

**Valentin Yudaşkin**: Dior.

**Heydər Əliyev**: Dior köhnə modelyerdir. Məsələn, cavanlar isə hesab edirlər ki, Dior, Pyer Karden – bunlar artıq keçmişdə qalmışdır.

**Valentin Yudaşkin**: Keçmişsiz gələcək olmur.

**Heydər Əliyev**: Bəli, buraya Pyer Kardenin kostyumları gəlib çıxanda hamı fikirləşirdi ki, ilahi, Pyer Karden. Ancaq mən bəzən mağazalarda Pyer Kardenin kostyumlarını görürəm – bunlar ya əvvəlki şöhrətini itirib, yaxud da keyfiyyətini pisləşdiriblər.

**Valentin Yudaşkin**: Keyfiyyətini pisləşdirməyiblər, sadəcə, saxta mallar olduqca çoxdur. Eyni şey musiqi aləmində, kompakt disklər sahəsində də baş verir. Əgər bu sahədə hələ hansısa hüquqlara əməl olunursa, moda sahəsində vəziyyət çox mürəkkəbdir.

**Heydər Əliyev**: Bəli, saxtakarlıq. Mən bilmirdim ki, saxtakarlıqla məşğul olurlar.

**Valentin Yudaşkin**: Düyməni bir balaca dəyişdilərsə, bunun saxta mal olduğunu sübut etmək çətindir. Çindən, Türkiyədən Hindistandan çoxlu saxta mal gəlir. Bir sözlə, bu, bizim üçün əsas problemdir. Amma mən burada, sizin şəhərdə çoxlu firma mağazaları gördüm.

**Heydər Əliyev**: Burada? Onlar malları əsasən Avropadan gətirirlər?

**Valentin Yudaşkin**: Bəli, bunlar həqiqi firma məhsullarıdır. Bu gün biz parfümeriya mağazasında olduq, yüksək keyfiyyətli məhsullar gördük. Çoxlu yeni mağazalar yaranıb və iki il ərzində çox böyük yüksəliş olduğu görünür.

**Heydər Əliyev**: Siz iki il ərzindəki yüksəlişin dinamikasını görürsünüz. Bu, yaxşıdır. Əlbəttə, mən çox az görürəm, çünki məni həmişə ümumi göstəricilər maraqlandırır. Gəzmək, baxmaq üçün, sadəcə, imkan yoxdur. Halbuki, həvəs var.

**Valentin Yudaşkin**: Heydər Əliyeviç, həddən çox restoran, kafe var və adam bir gün ərzində daha çox şey görmək istəyir.

**Heydər Əliyev**: Bəli, mən də maşında işə gedir və işdən qayıdıram. Bir vaxtlar, on beş il əvvəl, xaricə gedib-gəlmək məhdud idi. Adamlar gedirdilər və mən də Avropa ölkələrində olmuşdum, açıq havada kafeləri görmüşdüm, bütün bunlar xoşuma gəlmişdi. İndi isə bunlar Bakıda çoxdur, bəlkə də həddən çoxdur. Hansı küçə ilə gedirəmsə, hər yerdə görürəm.

**Valentin Yudaşkin**: Ən başlıcası odur ki, milli kolorit qalır, Rusiyadakı kimi Avropaya aludəçilik yoxdur. Hər halda burada milli kolorit, musiqi, rəng qorunub saxlanır. Bu, çox vacibdir. Bu gün bizə milli musiqinin yeni səpkidə improvizə edildiyi disk bağışladılar. Bu, gənclər üçün maraqlıdır. Bu da vacibdir.

**Heydər Əliyev**: Bilirsiniz, bir halda ki, biz sizinlə görüşürük və söhbət edirik, demək istəyirəm – tarixən elə olub ki, hər bir xalqın öz geyim forması olmuşdur. İndi dünyada qəbul edilmiş geyim forması isə Avropada yaranmışdır. Bununla belə, keçmiş zamanlarda, neçə-neçə əsrlər bundan əvvəl çox gözəl şəxsi geyim formaları olub və indi də tətbiq edilə bilər. Həmin geyimi indi biz ancaq teatrda və ya kinoda görürük. Məsələn, hansısa tarixi mövzuda film çəkirlər, onda sən bunu görürsən. Xüsusən də qadın paltarından söhbət düşəndə, – çünki kişi geyimi dəyişmişdir, – qadın modasından söhbət gedəndə, məsələn, bizdə köhnə foto-

şəkillərdə və ya rəssamlarımızın əsərlərində, – yeri gəlmişkən, bizim yaxşı teatr rəssamlarımız olub, onlar müxtəlif tamaşalar, xüsusən də keçmiş tariximizə aid tamaşalar üçün eskizlər veriblər, – bunlar qalmışdır. Azərbaycanda gözəl, çox gözəl qadın geyimi olmuşdur. Təkrar edirəm, indi onu yalnız bizim filmlərdə və tamaşalarda görmək mümkündür.

Mən 70-ci illərdə burada, Azərbaycanda işləyərkən məndə belə bir fikir yaranırdı – niyə də təklif edilməsin ki, qadınlarımız Avropa geyimləri ilə yanaşı, öz milli paltarımızı da geysinlər? Axı, öz milli geyimimiz çox gözəldir. Onu modernləşdirmək olar. Elə rəsmlərdə – rəssamlarımızın əsərlərində gördüyüm qadınların da geyimi çox qəşəngdir və bundan niyə istifadə edilməsin? Onda dünyada rəngarənglik olar. Yoxsa ki, indi təkcə Avropa modasını əsas götürmüşlər. Şəxsən mən azərbaycanlı kişilərin keçmiş vaxtlarda geyindikləri paltar formasına qayıtmaq istəməzdim. Qadın geyiminin isə çox gözəl və cürbəcür olduğunu, zənnimcə, bilirsiniz – kataloqlar, kitablar var. Mən hətta bir dəfə rəhmətlik həyat yoldaşıma təklif etdim ki, gəl, qızımıza belə kostyum tikdirək və qoy onu geyib bizimlə birlikdə bir yerə getsin, bəlkə bununla başqalarına nümunə göstərərik və onlar da belə edərlər. Amma baş tutmadı.

**Valentin Yudaşkin**: İndi qadınlar çox sərbəstdirlər. Onların hamısı bizneslə, işlə məşğuldur, vaxtları yoxdur. Onlar teatra da ofisdə geydikləri paltarda getmək istəyirlər. Həyat çox dəyişmişdir. Amma elə axşamlar var ki, onda gərək milli paltar geyəsən. Keçmiş Sovet İttifaqı respublikalarının milli geyimlərinin sərgisini keçirmək, bu geyimləri orada nümayiş etdirmək üçün Ermitajla, onun direktoru Piotrovski ilə razılığa gəlmişik. Çünki bir çox əcnəbilər milli paltarı ümumən yaxşı qəbul edirlər. Məsələn, Ukrayna, özbək naxışlarını. Belə geyimləri daha çox nümayiş etdirmək lazımdır. Ola bilsin, biz bu cür geyimlərdən bezmişik, çünki bu geyimləri böyük konsertlərdə tez-tez görmüşük. Vaxt gələcək modelyerlər öz işlərində bunlardan istifadə edəcəklər. Bu gün biz kolleksiyaya baxdıq və gördük ki, oradakı modellərdə milli naxışlardan, bəzəklərdən, rənglərdən geniş istifadə edilmişdir.

**Heydər Əliyev**: İndi mən daha bir prosesi müşahidə edirəm, xüsusən də Avropada, Amerikada, görürəm ki, əvvəla geyim çox sadələşmişdir. İkincisi isə, keçmişdə gördüklərimiz indi yoxdur. Tutalım teatra gedirsən, deməli, sən hökmən teatra layiq geyinib-keçinməlisən. Hesab edirəm ki, bu baxımdan keçmiş zamanlar daha maraqlı idi. Teatra hər hansı paltarda getmək olmazdı. Elə götürək, XIX əsrin rus və ya Avropa kübar cəmiyyətlərini və sair. Sovet dövründə hətta, biz, o vaxtın cavanla-

rı, bir və ya iki kostyumumuz olsa da, axşamlar teatra, kinoya getməyə hazırlaşarkən, – cavanlığımda mənim cəmi bir bayırlıq, bir də iş kostyumum vardı. Mən iş kostyumunda işə gedirdim, bayırlıq kostyumu isə bayram günlərində, yaxud teatra gedəndə geyinirdim, – hər halda əynimizi dəyişirdik. O vaxtlar imkanlar məhdud idi. İndi isə imkanlar geniş, qeyri-məhduddur, amma adamlar hesab edirlər ki, onlar küçəyə çıxanda, mağazaya gedəndə necə geyinirlərsə, teatra gedəndə də eləcə geyinə bilərlər. Bu, belədir və mənim xoşuma gəlmir. Hər halda teatra və yaxud hər hansı başqa bir tədbirə, ya da ad gününə gedəndə gərək müvafiq surətdə geyinəsən. Belə olmasa, onda moda nəyə lazımdır? Cins paltarı götürək, hamı geyir. Gəlin, görək, hamı teatra da, işə gedəndə də, gecə də cins paltar geysə...

**Valentin Yudaşkin**: Hər şey bəsitləşibdir, hamı yaşamağa tələsir. Bax, hər şey də bu qaça-qaça görə baş verir. İndi vaxt sürətlə ötüb keçir. Əvvəllər biz faksın nə olduğunu bilməzdik, poçtu gözləyərdik, xəbərləri gözləyərdik. İndi isə informasiyanı kompüterdən bir saniyəyə alırıq. Sonra nə olacaq, bəlli deyil. Modada da belədir. Əvvəllər moda illər boyu təşəkkül tapırdı, indi isə altı aya hər şey dəyişir, formalar əvəzlənir.

**Heydər Əliyev:** Bilirsinizmi, elə bir böyük fərq yoxdur. Nəyisə bir balaca dəyişdirib deyirlər ki, bu, təzə modadır. Yaxşı ki, bizdə, kişilərdə bu, sabitdir. Qadınları isə başa düşmürsən, bilmirsən ki, nə nə vaxt dəyişilir.

**Valentin Yudaşkin**: Hava dəyişən kimi dəyişir. Heç nəyin dəyişməməsi üçün mən Sizə bizim firmanın qalstukunu bağışlamaq istəyirəm.

**Heydər Əliyev**: Sağ olun. Siz qalstuk da buraxırsınız?

**Valentin Yudaşkin**: Bəli.

**Heydər Əliyev**: Mən qalstuklara biganə deyiləm. Yaxşı, gözəl qalstukdur. Bu, sizin firmanın qalstukudur. Qalstuklar dəyişir, köynəklər dəyişir. Bəlkə də kimsə buna fikir vermir, amma bəzən yaxşı pislə əvəzlənir. Amma, nə etmək olar, modadır, gərək ona uyğun geyinəsən. Bu baxımdan mən mühafizəkar deyiləm, amma özümün müəyyən üslubum var. Bəli, öz üslubum var və mənə elə gəlir ki, o, həmişə müasir görünür.

**Valentin Yudaşkin**: Bayaq dediyim kimi, Siz çox yaraşıqlı kişisiniz.

**Heydər Əliyev**: Biz kişilər belə sürətlə dəyişən moda ilə çətin ki, ayaqlaşaq. Qadınlara isə bu gərəkdir. Gəlişinizə görə Sizə bir daha təşək-

kür etmək istəyirəm, Siz bizə kömək edəcəksiniz. Mən ciddi şəkildə hesab edirəm ki, ölkəmiz, müstəqil dövlətimiz bu istiqamətdə də öz yerini tutmalıdır. Görürsünüz, nə qədər kafelər, restoranlar, mağazalar tikilib, çox şey dəyişibdir, çoxlu tikinti var. Odur ki, gərək bu işdə də eyni proseslər baş versin. Mən Sizin buraya səfərinizi dəstəkləyirəm. Fatma xanım mənə dedi ki, bu gün Siz çoxlu yeni moda nümunələri nümayiş etdirəcəksiniz. Yəqin ki, böyük maraq var. Sizə uğurlar arzulayıram. Mən isə bu axşam Çin nümayəndə heyəti ilə olacağam.

**Valentin Yudaşkin:** Sağ olun ki, çox məşğul olsanız da bizi qəbul etməyə vaxt tapdınız. Mən çox şadam.

Azərbaycan Prezidenti Heydər Əliyev, Valentin Yudaşkin və Fəxriyyə Xələfova xatirə səkli cəkdirdilər.

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV AZƏRBAYCAN DÖVLƏT AKADEMİK MİLLİ DRAM TEATRININ "AH, PARİS... PARİS..." TAMAŞASINDA OLMUŞDUR

*Akademik Milli Dram Teatrı*
*25 iyun 2000-ci il*

Müvəffəqiyyətlə keçən tamaşa başa çatdıqdan sonra Azərbaycan Prezidenti **Heydər Əliyev** səhnə arxasına keçdi, uğurlu çıxışlarına görə aktyorları təbrik etdi və dedi:

– Axşamınız xeyir olsun. Bu gün təqdim etdiyiniz bu tamaşaya görə hamınızı təbrik edirəm.

Mənə Elçin məlumat verdi ki, bu tamaşa çoxdandır ki, bizim Milli Dram Teatrının səhnəsində uğurla gedir. Ancaq təəssüflər olsun ki, mən vaxt tapıb indiyə qədər gələ bilməmişdim. Bu gün mən bu imkanı əldə etdim və gəlməyimdən, tamaşanı görməyimdən çox da məmnunam. Çünki eşitmişdim, amma bir var ki, eşidəsən, bir də var ki, özün eşidəsən və görəsən.

Adətən, mənim bu son illərdə Milli Dram Teatrının tamaşalarına gəlməyim çox vaxt bizim keçmiş tariximizə aid olan əsərlərlə tanışlıqdan ibarət olubdur. Təbiidir ki, mən bütün tamaşalara baxa bilmərəm, imkan yoxdur.

Rusiyanın mədəniyyət naziri də burada durubdur. Güman edirəm və hesab edirəm ki, Azərbaycan Prezidenti ümumiyyətlə teatrı keçmişdə sevdiyi kimi, bu gün də sevir və mən Milli Dram Teatrımızda yetərli qədər oluram. Hər halda mən belə hesab edirəm. Əlbəttə, imkan olsa, bundan da çox olmaq olar. Amma yetərli qədər oluram.

Qeyd etdim ki, son illərdə bizim keçmiş tariximizə aid bir neçə çox uğurlu tamaşa olmuşdur.

Həm klassiklərimizin, həm müasir yazıçılarımızın, şairlərimizin əsərləri tamaşaya qoyulmuşdur. Mən gəlib onlarla tanış olmuşdum və öz mülahizələrimi, fikirlərimi bildirmişdim. Yəni onlar bu əsrin əvvəlinə, yaxud qədim əsrlərə aid idi. Ancaq bugünkü tamaşa, bu pyes onlardan fərqlənir. Çünki bu, bizim ən yaxın keçmişimizə aiddir.

Məsələn, son dəfə mən “Aydın” tamaşasına baxırdım. Bu, Cəfər Cabbarlının bizim əsrin əvvəlindəki o həyatdan götürdüyü mövzudur və öz fəlsəfəsinə görə, öz fikirlərinə görə bu gün də çox aktualdır.

Elçin bizim çox istedadlı yazıçımızdır, gənc vaxtlarından çox dəyərli əsərlər yazıbdır. Amma son illər o, eyni zamanda teatr üçün də əsərlər yazıbdır. Deyəsən, keçmişdə bu, olmamışdı. Çünki bu məsələ ilə əsasən sənin atan məşğul olurdu.

**Elçin:** Bəli, cənab Prezident.

**Heydər Əliyev:** Atan rəhmətlik İlyas Əfəndiyev bu işlərlə çox uğurla məşğul olurdu və çox da gözəl əsərlər yaratmışdı. Elçin isə daha çox nəsr əsərləri yazırdı və dəyərli əsərlər yaratmışdır. Ona görə də gənc vaxtlarından – 60–70-ci illərdə gənc yazıçılar, gənc şairlər sırasında idi. Hətta xatirimdədir ki, ilk dəfə Yazıçılar İttifaqının ən gənc katibi Elçin Əfəndiyev oldu, o seçildi. Amma son zamanlar görürəm ki, o, eyni zamanda pyeslər də yazır və onlar bizim Milli Dram Teatrının səhnəsində tamaşaya qoyulur, uğurla göstərilir. Beləliklə də bizim teatr həyatı yaşayır.

Mən fürsətdən istifadə edib onu demək istəyirəm ki, ümumiyyətlə, bizim teatr keçmişdə zəngin olubdur. Yəni əgər bizim teatrın indi 125 illik tarixi varsa, biz bununla fəxr edə bilərik və mən bunu dəfələrlə demişəm. Keçmiş dövrlərdə də, yəni əsrin əvvəlində də çox böyük ziyalılarımız gözəl pyeslər yaratmışlar, gözəl səhnə əsərləri yaratmışlar və bizim teatrı yaşatmışlar, inkişaf etdirmişlər. Sonralar – 20–30–40-cı illərdə və sonrakı illərdə isə Azərbaycanda teatr çox inkişaf etmişdir. Bütün teatrlar – həm Dram Teatrı, həm Musiqili Komediya Teatrı, həm Opera və Balet Teatrı – bunların hamısı ilə biz fəxr edə bilərik. Ancaq təəssüflər olsun ki, 1988–1989-cu illərdə Azərbaycanda daxili sabitliyin pozulması, Ermənistanın Azərbaycana etdiyi təcavüz və ölkəmizin daxilindəki ictimai-siyasi gərginlik həyatda çox ağır bir vəziyyət yaratmışdı. Bunu xatırlayırsınız.

Burada, bu pyesdə söhbət 1991-ci ildən gedir. 1991-ci ildə Azərbaycanda nə vəziyyət var idi, biz hamımız – siz də, mən də onun şahidiyik. O illərdə Azərbaycan xalqı çox böyük çətinliklərə məruz qalıbdır, böyük itkilər olubdur, şəhidlər vermişik, qan tökülübdür, müharibə gedibdir.

Daxilimizdə də vəziyyət çox mürəkkəb olubdur, çox gərgin olubdur. Çünki bəzi adamlar, bəzi qruplar, dəstələr bu gün sizin göstərdiyiniz həmin o vəziyyətdən – xalqın meydana toplaşmasından öz şəxsi məqsədləri üçün istifadə etməyə çalışıblar. Ona görə də meydana toplaşmağın da bir axırı, müsbət nəticəsi olmamısdır.

1988–1989–1990-cı illərdə xalqın meydanlara toplaşması, küçələrə çıxması – bunlar Azərbaycanın tarixində çox müsbət səhifələr kimi yaşayacaqdır. Bunu heç kəs inkar edə bilməz. Ancaq buna bəziləri qeyri-obyektiv qiymət verirlər. Yəni o mənada ki, indi bizim içərimizdə bəzi adamlar var, hesab edirlər ki, onlar xalqı qaldırıblar, xalqı meydana çıxarıblar, onlar guya sovet hakimiyyətinə qarşı mübarizə aparıblar, onlar Azərbaycanın müstəqilliyinə nail olublar. İndi tarix artıq göstərir ki, bunlar nəinki yanlış fikirlərdir, hətta cəfəngiyatdır. Azərbaycanda millətin, xalqın küçələrə çıxmasına, meydanlara toplaşmasına əsas səbəb o vaxt – Ermənistan Azərbaycana təcavüz etdiyi zaman, artıq təcavüz müharibəyə çevrildiyi bir zaman, Sovetlər İttifaqı mövcud olduğu bir zaman və Sovetlər İttifaqının çox güclü dövləti, güclü hüquq-mühafizə orqanları, güclü ordusu olduğu bir zaman Sovetlər İttifaqı rəhbərliyinin, – indi kimsə, hansı personajsa Qorbaçovun da adını çəkdi ki, onun başında hansısa ləkə var, ona görə dünya dağıldı, – onların ədalətsizliyi, Azərbaycan xalqına qarşı ədalətsizliyi idi.

İki müttəfiq respublikanın bir-biri ilə münaqişəsi zamanı hökumət, dövlət hər iki müttəfiq respublikaya eyni göz ilə baxmalı idi, eyni münasibət göstərməli idi, ədalət nümayiş etdirməli idi. Bu ədaləti nümayiş etdirmədiklərinə görə münaqişə genişləndi. Bu ədalətsizliyi görən, hiss edən Azərbaycan xalqı təbiidir ki, belə vəziyyətə biganə qala bilməzdi. Ona görə də insanların əksəriyyəti öz qəlbinin istəyi ilə küçəyə çıxıb, Azərbaycan xalqına qarşı olan ədalətsizliyə görə sovet hökumətinin, sovet dövlətinin rəhbərliyinə öz etirazını bildirirdi. Bax, bu prosesin mahiyyəti bundan ibarətdir və belə olubdur, axıra qədər də belə olubdur.

Ondan sonra, 1990-cı ilin yanvar ayında yenə Kommunist Partiyasının rəhbərliyinin, sovet hökumətinin rəhbərliyinin və şəxsən Qorbaçovun tarixi cinayəti baş verdi. Dinc Azərbaycan xalqına qarşı ikinci bir hərbi təcavüz edildi. Azərbaycana bir hərbi təcavüz Ermənistan vasitəsilə edilmişdi, ikinci hərbi təcavüz isə artıq bizim respublikamızın, xalqımızın öz dövlətinin öz xalqına etdiyi təcavüz idi.

Mən bunu bir neçə dəfə demişəm. Sovet İttifaqının tarixində, yəni 1920-ci ildən ki, sovet hakimiyyəti qurulmuşdu, heç vaxt mərkəzi hökumət, mərkəzi dövlət heç bir xalqa qarşı, heç bir respublikaya qarşı bu qədər təcavüz, bu qədər cinayət etməmişdi. Amma Azərbaycan xalqına qarşı bu cinayəti etdi. Bu, 1990-cı ilin yanvar hadisələri idi. Təbii ki, bunlar da insanları coşdurdu. İndi burada yenə deyildi ki, insanlar partiya biletlərini atırdılar. Əlbəttə, atmalı idilər. Partiya biletlərini yandırdılar.

Vaxtilə Azərbaycanın ən böyük kommunisti mən olmuşamsa, mən də o vaxt partiya biletini atdım.

Bunlar hamısı bizim yaxın tariximizdir. Ancaq yenə də deyirəm, – bu tarixin bir həqiqət hissəsi var, bir də onun təhrif olunan hissəsi var. Bəzi adamlar onu təhrif edirlər. Ona görə də belə əsərlərin yaranması lazımdır. Amma mən bu gün belə anladım ki, Elçinin məqsədi ondan ibarət olubdur ki, ölkənin bu ağır vaxtında, çətin vaxtında xalqın hamısının birləşib millət haqqında, torpaq haqqında düşünməsinin əvəzinə, bəziləri yenə də mal-dövlət dalınca gedir və bu, mənəvi əxlaqsızlıqdır. Yəni əsərdə mənəviyyat məsələsinə toxunulur.

Siz bilirsiniz ki, mən əvvəllər – 70-ci illərdə də Azərbaycanın rəhbərliyində olanda həmişə fəaliyyətimin əsas hissəsi bundan ibarət olmuşdur ki, xalqımızda yüksək mənəviyyat bərqərar olsun. Çünki insan üçün mənəviyyatdan yüksək heç bir şey ola bilməz: nə mal, nə dövlət, nə pul, nə villa, nə milyon – heç bir şey olmaz. Bunlar hamısı dünyada gəldi-gedər şeylərdir. İnsanı yüksəldən, insanı insan edən, adamı adam edən və insanı vətəndaş edən onun mənəviyyatıdır. Ona görə də mən pyesdə bunları gördüm.

Elçin həmin proseslərin bu hissəsini göstərmək istəyibdir, özü də çox məharətlə göstəribdir. Mən buna baxanda Cəlil Məmmədquluzadənin “Ölülər” əsəri yadıma düşdü. İndi görün, əgər o vaxt bizim xalqımız belə cahil idisə, Cəlil Məmmədquluzadə “Ölülər” əsərini yazmışdı. O, keçmişə aid idi ki, bir Şeyx Nəsrullah peyda olubdur, ölüləri qəbirdən qaldırır. Hamı da gəlib Şeyx Nəsrullahı axtarır, onu görmək istəyirlər ki, mənim bacımı qaldır, atamı dirilt, nə bilim, nənəmi dirilt, filanı dirilt.

Mən bir neçə dəfə demişəm, bu gün burada teatr, incəsənət xadimləri olduğuna görə bir də deyirəm: mən Cəlil Məmmədquluzadənin “Ölülər” əsərini çox yüksək qiymətləndirirəm. O, tarixi bir əsərdir və heç bir əsərə bənzər deyil.

Bizim Azərbaycanda teatr sənəti Qərb teatrının təsiri altında yaranıbdır. Qərb teatrının təsirini biz Rusiya teatrının təsirindən götürmüşük. Məsələn, biz Şekspirdən də götürmüşük, Şillerdən də götürmüşük. Amma biz eyni zamanda Rusiyanın teatrından çox şey götürmüşük. Biz Şekspiri də birbaşa götürməmişik. İndi bu gün burada “Romeo və Cülyetta”nın adını çəkdilər. Şekspirin əsərləri çoxdur. Ancaq o illər Azərbaycanda ən populyar olanı “Hamlet” idi, “Otello” idi, “Kral Lir” idi və başqaları idi. Amma biz onları yenə də Rusiya ədəbiyyatından götürmüşük. Çünki rus ədəbiyyatçıları, məsələn, Şekspiri və başqalarını rus dilinə tərcümə edib-

lər, biz də onları rus dilindən Azərbaycan dilinə tərcümə etdik və teatrımızı yüksəltdik.

Mən bütün bunları – Qərb ədəbiyyatını da, Rusiya ədəbiyyatını da, Azərbaycan ədəbiyyatını da həmişə layiqli qiymətləndirmişəm. Yəni mən bu teatr ədəbiyyatını deyirəm, teatr sənətini deyirəm. Hərəsinin öz yeri var. Bir-birinin təsiri altında olduğuna görə bir-birinə bənzərliyi də var. Ancaq Cəlil Məmmədquluzadənin "Ölülər" əsəri həm mövzuya görə, həm də onun fəlsəfəsinə görə heç bir əsərə bənzər əsər deyildir.

Mən indi niyə bunu xatırlayıram? Çünki o vaxtlar – bizim xalqımızın geridə qaldığı vaxt yalançı bir şeyx Nəsrullah meydana çıxdı və bütün şəhər də qalxdı ki, "bu şeyx Nəsrullah bizim qohum-əqrəbamızı dirildəcəkdir". Cəlil Məmmədquluzadə də bunu əsərində çox məharətlə göstərdi. Yəni onun qarşısına kefli İsgəndər obrazını gətirdi. Kefli İsgəndər də öz monoloqları ilə onların hamısını başa saldı ki, o, gəlib sənin qardaşını dirildəcək və qardaşında gəlib sənin başını əzəcəkdir. Çünki qardaşın öləndən sonra sən onun arvadını almısan. Atanı dirildəcək və atan da gəlib sənə deyəcəkdir ki, oğlum, sən nə üçün bu işi etmisən? Ondan sonra bunların ağıllarına gəldi və onlar qaçdılar ki, yox, daha bizə şeyx Nəsrullah lazım deyil.

Mən bu əsərə baxanda bir az həmin o mövzu yadıma düşür ki, indi görün, Azərbaycan belə ağır, çətin vəziyyətdədir, Ermənistan hücum edibdir, ölkə dağılır, iqtisadiyyat dağılır, insanların həyatı dağılır, – şeyx Nəsrullah kimi, Parisdən bura bir milyonçu gəlib, hamı ət kombinatının müdiri də istəyir Parisə getsin, o partokrat da, yəni o obrazı ifa edən Yaşar Nuriyev də istəyir Parisə getsin, yaxud rus aktyoru da istəyir Parisə getsin. Hamısı həyatın bütün məsələlərini qoyub, yenə də öz şəxsi məsələləri barədə düşünür. Amma şəxsi məsələ də deyil, yəni burada mənəviyyat məsələsidir. O vaxt bizim xalqımız bir tərəfdən həqiqətən öz mənliyini göstəribdir, amma ikinci tərəfdən də nə qədər mənəviyyatsızlıq olubdur, nə qədər qüsurlar olubdur. Bunun da bir səhnəsini burada Elçin göstəribdir. Mən düz başa düşmüşəm?

**Elçin:** Tamamilə doğru deyirsiniz.

**Heydər Əliyev:** Düz başa düşmüşəm. Ona görə hesab edirəm ki, pyes dəyərlidir. Yəni bu 1991-ci il bizim yaxın keçmişimizdir. Təbiidir ki, bu pyes 1991-ci ildəki hadisələrin hamısını əhatə edə bilməz, onun bir hissəsini əhatə edir və məni də sevindirən odur ki, burada bütün pyes mənəviyyat üzərində qurulubdur. Pyes əvvəldən axıra qədər bu mənəviyyatsız adamları ifşa edir. Bu ifşa ilə bu pyes bizim xalqımıza, millətimizə, və-

təndaşlarımıza göstərir ki, belə olmayın, bu ət kombinatının müdiri kimi olmayın, Yaşar Nuriyev kimi yox, o partokrat kimi olmayın, yaxud, o birisi kimi olmayın. Təmiz olun, pak olun, yüksək mənəviyyata malik olun. Başa düşürsünüz? Mən bunu belə anlayıram.

**Elçin:** Tamamilə doğrudur.

**Heydər Əliyev:** Bunun da faydası bax, bundadır. İndi bizim tamaşaçılarımız üçün, cəmiyyətimiz üçün, xalqımız üçün bunun faydası bundadır. Ona görə mən bu əsəri çox dəyərli hesab edirəm və buna görə də səni – Elçini təbrik edirəm. Yaxşı ki, sən belə əsərlər yaratmağa başlamısan.

Ancaq təbiidir ki, əsər kağız üzərində yazılır. Əgər yazan özü bunu səhnəyə qoya bilsəydi, bu, başqa cür ola bilərdi. Amma heç bir yazan adam bunu səhnə ustaları, sənətkarlar, yəni rejissorlar, aktyorlar, tamaşanı yaradan başqaları kimi edə bilməz.

Burada müəllifin xidməti böyükdür, amma sizin xidmətiniz ondan az deyil. Çünki müəllifin fikirlərini siz səhnədə onun istədiyi kimi, bəlkə heç onun düşünmədiyi kimi, ondan da artıq ifa etmisiniz. Ona görə də gözəl bir əsər meydana çıxıbdır.

**Elçin:** Tamaşanın rejissoru Azərpaşa Nemətovdur.

**Heydər Əliyev:** Bu, yeni rejissor deyil.

**Elçin:** Bəli, bu, bizim görkəmli rejissordur. Yəqin, atasını da xatırlayırsınız. Zəfər Nemətovun oğludur.

**Heydər Əliyev:** Bəli, Zəfər Nemətovun oğludur. Zəfər Nemətov uzun illər bizim Gənc Tamaşaçılar Teatrının rejissoru olubdur.

**Elçin:** Bəli, Azərpaşa müəllim onun oğludur. Uzun müddətdir rejissorluq edir.

**Heydər Əliyev:** Çox gözəl, çox gözəl. Tərtibatı da yaxşıdır. Burada bizim Milli Dram Teatrının ulduzları hamısı var: Səyavuşdur, Yaşardır, Duxovnayadır – hamısını görürəm. Duxovnaya bu teatra gəlib və onu daha da gözəlləşdiribdir. Adı yadımdan çıxıbdır.

**Elçin:** Lyudmila.

**Heydər Əliyev:** Lyudmila, bağışla, sənin adını unutmuşam.

**Lyudmila Duxovnaya:** Cənab Prezident, olan şeydir.

**Heydər Əliyev:** Bilirsən ki, mənim sənə nə qədər yaxşı münasibətim var. Onun tamaşada iştirakı da yaxşı bir üsuldur.

**Elçin:** Cənab Prezident, ilk dəfədir ki, belə üsuldan istifadə edilir.

**Heydər Əliyev:** Bəli, bu, indiki vaxtda yaxşı üsuldur. Birincisi, mən bu pyesdə hansı mənanı görürəm, – yəni burada əxlaqsızlığı azər-

baycanlılarla yanaşı, ruslar da ediblər, bəlkə sən belə fikirləşməmisən, mən bunu belə başa düşmüşəm. İkincisi, əlbəttə, bu, bütün pyesə özünəməxsus bir kolorit verir. Bizim Azərbaycan cəmiyyəti, Bakı əhalisi rus dilini gözəl bildiyinə görə səhnədəki bu sintez çox normal qəbul olunur. Mənə elə gəlir ki, buna nadir hallarda rast gəlmək olar. Amma siz bunu etmisiniz.

Bu xanımın adı həmişə yadımdan çıxır.

**Elçin:** Kübra xanım Əliyeva.

**Heydər Əliyev:** Kübra xanım bizim çox istedadlı aktyorumuzdur.

**Səyavuş Aslan:** Cənab Prezident, şişman aktyordur.

**Heydər Əliyey:** Sən ondan da çox şişmansan.

**Kübra Əliyeva:** Cənab Prezident, İhsan Doğramacı Bakıda qonağımız olanda biz orada səhnəcik oynamışıq. Orada Səyavuş mənə "şişman" adını qoydu.

**Heydər Əliyev:** Amma onlar, – "şişman", – pis mənada demirlər. Biz deyirik "kök", onlar deyirlər "şişman". Amma bəzən bunu mənfi mənada başa düşürlər. Səyavuş, bilirsən, gözəlliyin müxtəlif formaları var. Bəzən o şişman gözəllik kimlərəsə o biri gözəllikdən daha da çox xoş gəlir. Yəqin ki, sən bunu bilərsən. Sən şişman olduğun kimi, qeyri-şişman arvadlara meyl qoymazsan. Bilmirəm, sənin xanımın nə təhərdir. Bəlkə belə deyil, ancaq elə görürəm ki, həmişə bir yerdə çıxış edirsiniz.

Görürəm, burada gənc aktyorlar da var. Mən Eldənizi süpürgəçi rolunu ifa edəndə tanımadım.

**Elçin:** Cənab Prezident, mən də bura gələndə onu qrimləndiyinə görə tanımadım.

**Heydər Əliyev:** Bəli. Çünki bilirdim ki, bu, bir müddət teatrdan ayrılmışdı. İndi teatra gəlibdir. Bu, çox gözəl bir hadisədir. Çünki bu da çox istedadlı aktyordur. O illərdə – 60-70-ci illərdə bizim parlaq bir aktyorumuz idi. Bir neçə əsərdə, xüsusən Rüstəm İbrahimbəyovun "Bir cənub şəhərində" filmində – Eldar Quliyevlə birlikdə yaratmışdılar – çox gözəl rol oynadı. Ondan sonra da məşhurlaşdı. İndi yaxşı ki, yenə də teatrdadır. Onları bəzən kinoklublarda görürəm. Səyavuş da, Yaşar da, Eldəniz də orada olurlar.

Çox sevindirici haldır ki, gənc kadrlar var, gənc aktyorlar, aktrisalar var. Onlar da hamısı sevindiricidir.

**Elçin:** Cənab Prezident, Əhməd rolunda Telman Adıgözəlov çıxış edirdi.

**Heydər Əliyev:** Bilirsən, onun burada rolu çox xırda idi. O, sadəcə bir mərkəzdir. Amma ümumiyyətlə o, çox istedadlı aktyordur. Mən həmişə onu istedadlı aktyor kimi görürəm. Elə bəzən o kinoklublarda aparıcı rolunu oynayır. O da bu teatrın aktyorudur, burada işləyir?

**Elçin:** Bəli.

**Heydər Əliyev:** Burada onun rolu belə idi ki, gəlib bir-iki söz deyib gedirdi. Ancaq bunları çox gözəl göstərirdi. İndi bunların hamısını sadalamaq mənim üçün çətindır.

**Elçin:** Eynşteyn rolunu isə aktyor Cəfər Namiq Kamal oynayırdı.

**Heydər Əliyev:** O, elə qrim etmişdi, elə hərəkət edirdi kı, mən ona Eynşteyn deyə bilmərəm. Orada Eynşteyn idı. Amma burada... Çox gözəl oynadınız. Lenini də oynayan çox gözəl oynadı. Amma mən elə bilirdim ki, bu da rusdur. Deməli, bu, azərbaycanlı imiş.

**Elçin:** Əməkdar artist Elxan Ağahüseynoğludur.

**Heydər Əliyev:** Mən bunu tanıyıram. Bu da teatrın görkəmli aktyorlarından biridir. Axı, mən 60-70-ci illərdə bu teatra çox gəlirdim. Mən onu bir çox rollarda görmüşəm.

Bir sözlə, hamınız çox gözəl bir ansambl yaratdınız, yaxşı bir tamaşa göstərdiniz. İndiyə qədər çox göstərmisiniz. Elçin mənə deyir kı, bizim vətəndaşlarımız teatra çox böyük həvəslə gəlirlər. İndi mən də onların sırasına qatıldım, gəldim, gördüm. Hamınızı təbrik edirəm və sizə, bizim Milli Dram Teatrının bütün kollektivinə yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

"Ah, Paris...Paris..." əsərinin müəllifi, xalq yazıçısı Elçin dövlətimizin başçısı Heydər Əliyevə müraciətlə dedi:

– Cənab Prezident, mən istəyirəm bütün yaradıcı heyətin adından Sizə çox dərin təşəkkürümüzü və minnətdarlığımızı bildirim. Bu gün yenə bu teatra gəlmisiniz, bu tamaşaya baxmısınız və bu tamaşa haqqında fikirlərinizi, bir müəllif kimi deyim ki, çox dəqiq fikirlərinizi ifadə etdiniz. Bizim bütün görkəmli aktyorların – Eldənizin, Yaşarın, Elxanın, Lyudmila xanımın, Hacının, Telmanın, Səyavuşun, Kübra xanımın və başqa aktyorların haqqında çox dəyərli fikirlərinizi dediniz.

Cənab Prezident, tarixin gedişi belə gətirib ki, bu teatrın, Azərbaycan teatrının son 30 ildəki tarixi bir çox cəhətdən bilavasitə Sizin adınızla bağlıdır. Yəni 1970-ci ildən götürürəm, ondan əvvəl də Siz həmişə teatrla maraqlanan adam olmusunuz. Mən bunu bilirəm və bizim dostlar, sənətkarlar hamısı yaxşı bilir. Bu son 30 ildə Siz bu teatrın ən yaxın adamlarından biri, bəlkə də birincisi olmusunuz.

Siz bayaq İlyas Əfəndiyevin adını çəkdiniz. Mən bunu deməyi özümə borc bilirəm ki, İlyas Əfəndiyevin bu teatrda 19 pyesi tamaşaya qoyulubdur. Bu, doğrudan da dünya teatr tarixində nadir hadisələrdən biridir. Bunu deməyi lazım bilirəm. Çünki bu, həqiqətdir. İlyas Əfəndiyev bu teatra nə dərəcədə bağlı idisə, o, teatrı fikirləşəndə, teatr haqqında düşünəndə həmişə Sizi nümunə göstərirdi, – bu, dəfələrlə mənim gözümün qabağında olan hadisədir, faktdır, – yəni daxilən teatral insan olmağınızı, Azərbaycan teatrı ilə əlaqədar fəaliyyətinizi, Azərbaycan teatrının çox görkəmli xadimləri ilə ünsiyyətinizi nümunə göstərirdi. Siz o vaxtlar Azərbaycan teatrının 100 illiyini elə yüksək səviyyədə keçirdiniz ki, heç bir ölkədə, heç bir keçmiş respublikada birinci katib teatrın 100 illiyi barədə məruzə etməzdi.

**Heydər Əliyev:** 1973-cü ildə. 27 il bundan öncə.

**Elçin:** Mənim indiki kimi yadımdadır. Siz onda – 1973-cü ildə, düz 27 il bundan əvvəl, Azərbaycan teatrının 100 illiyi ilə əlaqədar məruzə etdiniz. Orası da çox rəmzidir ki, 27 ildən sonra Azərbaycan dünyəvi peşəkar teatrının 125 illik yubileyinin keçirilməsi haqqında sərəncamı da Siz imzalamısınız.

Bu teatrda çalışan insanların hamısının doğrudan da, həqiqət bundan ibarətdir ki, – Sizə böyük məhəbbəti var. Siz məndən də yaxşı bilirsiniz ki, indiki zamanda mədəniyyətin bir çox problemləri – mədəniyyət xadimlərinin məişət problemi və başqa problemlər vardır. Amma bunun kontekstində Sizin teatra bu dərəcədə diqqətiniz, gəlməyiniz, elə bilirəm ki, çox ciddi bir stimul yaradır. Sadəcə, o faktın özünü demək istəyirəm ki, son yeddi illik tarixdə Azərbaycan teatrı bağlı oldu, təmirə dayandı. Təsəvvür edin ki, o zaman həm bu teatr, həm də Gənc Tamaşaçılar Teatrı yox idi. Faktiki olaraq, Bakıda Azərbaycan dilində iki dram teatrı var və bunların da hər ikisi işləmirdi. Azərbaycanın paytaxtı teatrsız idi.

**Heydər Əliyev:** Bəli, Musiqili Komediya Teatrı da yox idi. O da dağılmışdı.

**Elçin:** Bəli, o da dağılmışdı. Mən dram ilə əlaqədar deyirəm. Bu da Sizin adınızla bağlı oldu, – mən bu işin şahidiyəm, müşahidəçisiyəm ki, bilavasitə Sizin təşəbbüsünüzlə bu teatr təmir olundu və fəaliyyətə başladı.

Mən bu teatrın yaradıcı kollektivinin adından deyirəm, çünki bunlar hamısı mənim dostlarım, qardaşlarım, bacılarımdır, bunlar hamısı doğrudan da Sizi çox sevirlər.

Cənab Prezident, gizlətmirəm, biz Sizin teatra gəlib bu tamaşaya baxmağınızı çox gözləyirdik. İstəyirdik gəlib bu tamaşaya baxasınız, biləsiniz. Siz bu tamaşanı elə təhlil etdiniz ki, artıq söz deməyə ehtiyac yoxdur. Amma Sizin dediyiniz sözün o cəhətini təkrar etmək istəyirəm ki, buradakı satiranın, acı gülüşün arxasında, Sizin dediyiniz kimi, xalqa məhəbbət, bağlılıq, istək dayanıb ki, nə üçün siz bu vəziyyətdəsiniz, bu gündəsiniz. Bu, təkcə mənim fikrim yox, bizim aktyorlarımızın, yaradıcı kollektivin hamısının fikri və fəaliyyətidir.

Cənab Prezident, Sizə deyim ki, bu komediyadan sonra iki komediyam da yarandı və demək olar ki, onlar da eyni rejissor, kollektiv tərəfindən tamaşaya qoyulubdur. Burada Azərbaycan teatrı rəhbərliyinin fəaliyyətini xüsusi qiymətləndirmək istəyirəm. Özü də yalnız bizim tamaşalarla əlaqədar yox, son vaxtlar Sizin gəlib baxdığınız tamaşalarla Azərbaycan teatrında doğrudan bir dirçəliş vardır. Azərbaycan teatrının rəhbərliyi, Mədəniyyət Nazirliyinin rəhbərliyi bu teatrla əlaqədar çox ciddi fəaliyyət göstərirlər. Şübhəsiz ki, bunların başında, üstündə Siz durursunuz. Sizə bir daha dərin təşəkkür və minnətdarlığımızı bildiririk. Arzu edirik ki, Azərbaycan teatrının 125 illiyi Sizin istədiyiniz bir səviyyədə keçsin, bizim bu gözəl sənətkarlarımızın hamısının ürəyincə olsun. Allah qoysa, ondan sonra da Azərbaycan teatrının 130, 140 illiyi gəlir və s.

**Heydər Əliyev:** Hamısını bir yerdə keçirəcəyik.

Onu deyə bilərəm ki, hər şey müqayisə ilə qiymətləndirilir. MDB dövlətləri içərisində son illər Azərbaycanda incəsənətin, mədəniyyətin yaşaması, inkişaf etməsi kimi, başqa heç bir yerdə belə şey yoxdur.

**Elçin:** Çox sağ olun, cənab Prezident.

**Heydər Əliyev:** Yaxşı, güman edirəm, şəkil çəkdirmək istəyirsiniz.

Prezident Heydər Əliyev tamaşanın yaradıcı heyəti ilə xatirə şəkli çəkdirdi.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA RUSİYA FEDERASİYASININ VƏ MOSKVA ŞƏHƏRİNİN MƏDƏNİYYƏT GÜNLƏRİNİN BAĞLANIŞINDA İŞTİRAK ETMİŞDİR

*Respublika sarayı*
*30 iyun 2000-ci il*

**Azərbaycan prezidenti Heydər Əliyev konsert qurtardıqdan sonra səhnə arxasına gələrək iştirakçılara təşəkkür etdi. O dedi:**

– Sizin hamınızı Azərbaycanda Rusiya mədəniyyəti günlərinin çox gözəl başa çatması münasibətilə təbrik edirəm. Bu gün siz öz çıxışlarınızda burada, Azərbaycanda olmağınızla əlaqədar keçirdiyiniz hisslərdən danışdınız. Siz də, bu gün salonda olanlar da, bu günlər Rusiyanın incəsənət xadimlərini dinləyənlərin, görənlərin hamısı da daha çox danışa bilərdi.

Siz üç gündür Azərbaycandasınız, amma bayram yaratdınız. Əvvəla, Rusiya Federasiyasının incəsənətini və mədəniyyətini gözəl təmsil etdiniz. İkincisi, bizim hamımızı, azərbaycanlıları, Bakı, Sumqayıt sakinlərini və başqalarını sevindirdiniz – axı hər şey televiziya ilə yayımlanır, elə bu gün də canlı yayım oldu, bütün respublika sizi gördü, dinlədi. Odur ki, siz hamını sevindirdiniz. Biz yanaşı oturmuşduq və deyirdim ki, bir baxın, necə qarşılayırlar. Məsələ onda deyil ki, hər ifaçını alqışlayırdılar, həm də bütün salon ifa olunan mahnılardan və nümayiş etdirdiyiniz rəqslərdən cuşa gəlirdi. Deməli, bütün bunlar ürəyə yatırdı. Bu, birincisi.

İkincisi isə nəinki ürəyə yatırdı, hətta riqqətə gətirirdi, buna görə də tamaşaçılar eşidən kimi, hiss edən kimi, görən kimi cuşa gəlirlər, ürəkləri yerindən oynayır və sizinlə birlikdə oxuyur, sizinlə birlikdə alqışlayır və hətta, məncə, sizinlə birlikdə atılıb-düşürdülər.

Mən Rusiya mədəniyyəti günlərinin açılışında oldum. əlbəttə, sonrakı günlərdə, çox istəsəm də, imkanım olmadı. Amma bu gün bağlanışdır, mən də buradayam. Mənə hər gün məlumat verirlər, bilirəm ki, bütün çıxışlarınız hər yerdə və həmişə çox uğurla keçmişdir. İnsanlar sevinirdilər, Rusiyanın incəsənət xadimlərini çox böyük hörmət, çox böyük

fərəh hissi ilə qarşılayırdılar. Düşünürəm ki, bu günlər siz respublikamızın və şəhərimizin sakinlərinə həqiqətən çox böyük məmnunluq, mənəvi zövq bağışladınız.

Bu gün Lyudmila İvanovna mənə Sumqayıtda sizin necə qarşılandığınızı danışdı. Hiss etdim ki, o, bir qədər təəccüblənmişdi. Siz bu keşməkeşli zəmanəni yaşamış Sumqayıta bir baxın. Bəlkə bu gün orada heç də hər şey asan deyil, hər şey rəvan deyildir. Lakin bu, təkcə Sumqayıtda deyil, bütün keçmiş Sovetlər İttifaqı məkanında belədir. Elə Rusiyada da, Azərbaycanda da belədir. Amma bir görün, sizi Sumqayıtda, Bakıda, bütün salonlarda necə qarşılayırdılar. Bütün bu salonlar – Opera Teatrımız da, Musiqili Komediya Teatrı da, bax, bizim bu baş sarayımız, Respublika sarayı da bu günlər Rusiya incəsənət xadimlərinin tam ixtiyarına verilmişdir. Birinci gün də, bu gün də. Burada çox yaxşı sərgilər oldu, sonra bizim İncəsənət Muzeyində və başqa yerlərdə çıxışlar oldu. Bir sözlə, siz qısa müddətdə çox işlər görə bildiniz.

Mən bu gün gördüm ki, hər bir kəsin ifa etməsi üçün nə qədər enerji tələb olunur. Bu gün isə sizin konsertiniz məhz çox coşqun, həm oxumaq, həm də rəqs etmək tələb olunan nömrələrdən ibarət idi.

Əlbəttə, siz hamınız gəncsiniz. Ona görə də bütün bunları sizə nəyə görə deməyim. Sizə bəlkə də təəccüblü görünür. Lakin Lyudmila İnanovna və əlbəttə, mən sizin enerjinizə heyran qaldım. Enerji hər bir insanda, – birində çox, başqasında az var. Ən başlıcası, odur ki, mən sizin sənətinizə heyranam. Rusiya incəsənəti çox zəngindir və şükürlər olsun ki, biz Rusiya mədəniyyətini çox-çox illər ərzində az görməmişik. Amma rus mahnılarını, rəqslərini, bədii sözünü hər dəfə dinlədikdə, gördükdə, eşitdikdə heyran qalır və sevinirik. Əvvəla, onlarda necə dərin bir məna var. İkincisi, mənəvi zənginlik var, üçüncüsü isə, əlbəttə, musiqinin, rəqsin, bədii sözün və ümumiyyətlə, sizin nümayiş etdirdiyiniz sənətin səviyyəsi yüksəkdir.

Çox sağ olun, mən sizin hamınızı təbrik edirəm. Amma düzünü deyin, hansı prezidenti sevirsiniz – Boris Nikolayeviçi, yoxsa Vladimir Vladimiroviçi.

**Lada Dens:** Bəlkə Sizi? Bu, yeni bir mahnıdır.

**Heydər Əliyev:** Mən məhz bunu aydınlaşdırmaq istəyirdim. Əgər hiss varsa, utanmaq nəyə gərək?! Düşünürəm ki, Sizə hər bir prezident vurula bilər, o cümlədən də mən.

Hər şeyə görə sağ olun. Bir daha deyirəm, Siz bütün Azərbaycana olduqca böyük sevinc bəxş etdiniz. Axı burada təkcə çıxışlardan – kon-

sertdən, baletdən, teatrdan söhbət getmir. Söhbət ondan gedir ki, mədəniyyət, incəsənət insanları yaxınlaşdıran, qarşılıqlı münasibətləri, dostluğu möhkəmləndirən çox güclü vasitədir. Bu günlər siz Rusiya Federasiyası ilə Azərbaycan arasında dostluğun və əməkdaşlığın möhkəmlənməsi işinə olduqca böyük töhfə verdiniz. Burada Qafqazdan – Qaraçay-Çərkəzdən, Şimali Osetiyadan olan gəncləri də görmək mənim üçün xoş idi, gözəl gənclər böyüyür. Bilirsinizmi, Qafqazın bu xalqları yüksək istedadları ilə həmişə fərqlənmişlər. Neçə-neçə belə adamlar bütün dünyada məşhurdur. Ancaq məni sevindirən budur ki, bu hərəkət kəsilmir, dayanmır, bu hərəkət irəliyə doğru gedir. Bir görün, necə cavandırlar və bu gün nə cür gözəl çıxış etdilər. Bu gün siz, həqiqətən, elə bir konsert verdiniz ki, burada folklor da, estrada da, gözbağlayıcı da, bədii söz də var idi. Amma yəqin ki, ən başlıca xidmət rejissorundur, gərək xidmətlərini qiymətləndirəsən, çünki o, bunların hamısını məharətlə təşkil etmişdi, hər şeyi elə yerbəyer etmişdi ki, bir saniyə də fasilə olmurdu. Məsələn, mən bir an belə gözümü səhnədən çəkə bilmirdim.

**Lyudmila Şvetsova:**

Bizim rejissor Aviasiya İnstitutunun məzunudur, Tatyana Qriqoryevnanın yanında xar olmaq istəmirdi. Ona görə də var qüvvə ilə çalışmışdır.

**Heydər Əliyev:** Bilirsinizmi, heyrətamizdir. (Rusiyanın əməkdar artisti Lyudmila Nikolayevaya müraciətlə). Səs də, ifaçılıq məharəti də, üstəlik, sürət də heyrətamiz idi. Əgər Siz nərmənazik olsaydınız, deyərdim ki, bəli, təbii haldır. Siz rus qadınına xas boy-buxunla, – rus qadını boy-buxunu ilə həmişə fərqlənmişdir, – çox gözəl çıxış etdiniz, çox gözəl rəqs etdiniz, sadəcə olaraq, heyrətamiz idi. Mən Sizi xüsusi təbrik edirəm.

Əlbəttə, aparıcının ünvanına xoş və yaxşı sözlər demək lazımdır. Bir baxın, necə gözəl qadındır, təkcə səhnəyə gəlişi ilə təsəvvür yaradır ki, hər şey yaxşı olacaqdır. Ən başlıcası isə budur ki, o, elan etdikdən sonra adamlar gözlədiklərini həqiqətən görürlər. Odur ki, Siz də sağ olun. Hamınıza təşəkkürümü bildirirəm. Hamınızı təbrik edirəm.

**Sonra Lyudmila Şvetsova çıxış edərək dedi:**

– Heydər Əliyeviç, əvvəla, mən Sizin sözlərinizə qoşulmaq, bütün aktyorlara, bu konsertin bütün təşkilatçılarına təşəkkür etmək istəyirəm. Həm də demək istəyirəm ki, Moskva, əlbəttə, xoşbəxt şəhərdir, çünki ən müxtəlif millətlərin nümayəndələri Moskvada çoxdur, çünki biz çoxmillətli şəhərik və bununla fəxr edirik.

Əlbəttə, şəhərin mədəniyyətinin belə rəngarəngliyinə və müxtəlifliyinə Azərbaycan da töhfə vermişdir. Sizə isə təşəkkür etmək istəyirəm. Çünki bilirəm, Siz necə məşğulsunuz, gündəlik həyatınızda nə qədər problemlər və çətinliklər var. Bununla belə, böyük konsertlərdə iki dəfə olmağa, aktyorlarımızın hər bir çıxışını şəxsən izləməyə, bu gün söylədiyiniz sözləri deməyə imkan tapmağınız bizim hamımız üçün çox qiymətlidir. Odur ki, mən də buna görə Sizə ürəkdən təşəkkür etmək istəyirəm. Siz indi səhnədə də, bu günlərdə də nə baş veribsə, hamısını ilhamlandırırdınız.

Azərbaycan prezidenti Heydər Əliyev qonaqlara respublikamızda Rusiya Federasiyasının və Moskva şəhərinin mədəniyyət günlərinin təntənəli açılış və bağlanış mərasimlərini, digər tədbirləri əks etdirən iki videokaset bağışladı.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV AVSTRİYADA VYANA MOTSART ORKESTRİNİN KONSERTİNDƏ OLMUŞDUR

*Vyana, Hofburq kral sarayı*
*5 iyul 2000-ci il*

Konsertdən sonra Azərbaycan Prezidenti Heydər Əliyev səhnə arxasına gələrək opera müğənniləri Marianna Kulikova və Maruks Pelt, dirijor Ernst Ottenzamer və başqaları ilə səmimiyyətlə görüşdü. Dövlətimizin başçısı Heydər Əliyev çox uğurlu konsertə görə ifaçılara, orkestrin rəhbərliyinə təşəkkürünü bildirərək dedi:

– Əladır. Mən sizi bütün orkestrlə və bu gözəl müğənnilərlə birlikdə Azərbaycana dəvət edirəm və düşünürəm ki, Siz çox məmnun qalacaqsınız. Mən sizi Azərbacanda gözləyəcəyəm. Azərbaycanda musiqini – klassik, simfonik musiqini, Motsartın, Ştrausun musiqisini çox sevirlər. Ölkəmizə gəlin.

Dirijor Ernst Ottenzamer respublikamızın rəhbərinə təşəkkür edərək dedi:

– Cənab Prezident, çox sağ olun, Azərbaycana mütləq gələcəyik.

Prezident Heydər Əliyev müğənni Marianna Kulikovaya müraciətlə dedi:

– Siz gözəl oxudunuz. Mən dirijorunuzla birlikdə Sizi Azərbaycana dəvət edirəm. Siz orada böyük uğur qazanacaqsınız. Əladır, buna görə də mən Sizi səmimi qəlbdən Azərbaycana, Bakıya dəvət edirəm. Sağ olun.

**Marina Kulikova:** Çox sağ olun, cənab Prezident.

Sonra Azərbaycan Prezidenti Heydər Əliyev orkestrin üzvləri ilə xatirə şəkli çəkdirdi.

Respublikamızın rəhbəri Heydər Əliyev Motsart orkestrinin xatirə kitabına ürək sözlərini yazdı:

"Vyana Motsart orkestrinin konserti məni heyran etdi. Gözəl klassik musiqi əsərləri orkestrin ifasında böyük təsir etdi. Dirijor, orkestrin bütün ifaçıları, vokal artistləri mahnıları böyük məharətlə ifa etdilər. Mən böyük həzz aldım. Səmimi qəlbdən təşəkkür edirəm.

Orkestrə yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Orkestri Azərbaycana dəvət edirəm.

Respublikamızın rəhbəri Heydər Əliyev Vyana Motsart orkestrinə xatirə olaraq Azərbaycan xalçası bağışladı.

Dövlətimizin başçısı Heydər Əliyev Motsart orkestrinin konsertini onunla birlikdə dinləyən Avstriya Prezidenti Aparatı rəhbərinin müavini Alfons Klosa təşəkkürünü bildirərək dedi:

– Mənim səmimi minnətdarlığımı Federal Prezident cənab Tomas Klestilə çatdırın. Mən bu səfərimdən çox razıyam və gözəl hissiyyatlarla Azərbaycana qayıdıram. Hesab edirəm ki, səfər zamanı biz Avstriya-Azərbaycan əlaqələrinin inkişaf etməsi üçün çox faydalı işlər gördük.

Mənə göstərilən qonaqpərvərliyə, qayğıya, diqqətə görə cənab Prezidentə təşəkkürlərimi çatdırmağınızı rica edirəm. Sizə də xidmətinizə görə təşəkkürümü bildirirəm.

Böyük hörmətlə,

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*5 iyul 2000-ci il*

## X.H.MİRZƏZADƏNİN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan musiqi sənətinin inkişafındakı xidmətlərinə görə Xəyyam Hadi oğlu Mirzəzadə "Şöhrət" ordeni ilə təltif edilsin.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 oktyabr 2000-ci il*

## XALQ ARTİSTİ XƏYYAM MİRZƏZADƏYƏ

*Bakı şəhəri, 4 oktyabr 2000-ci il*

Hörmətli Xəyyam Mirzəzadə!

Sizi – müasir Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsini 65 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz 50-60-cı illərdə böyük sənət aləminə gələrək, Azərbaycan musiqi mədəniyyətinin inkişafında mühüm rol oynamış bəstəkarlar nəslinin tanınmış nümayəndələrindənsiniz. Böyük Azərbaycan bəstəkarı Qara Qarayev məktəbinin istedadlı yetirməsi və davamçısı kimi, hələ gənc yaşlarınızdan yaratdığınız əsərlərlə musiqi həvəskarlarının dərin hörmət və rəğbətini qazanmısınız. Klassik musiqi ənənələrinin milli musiqi ilə üzvi əlaqəsinə əsaslanan yaradıcılığınız öz müasirliyi və dinamizmi ilə seçilərək Azərbaycanın XX əsr musiqi salnaməsinə həmişəlik daxil olmuşdur.

Sizin bəstəkarlıq istedadınız musiqinin müxtəlif janrlarında yazdığınız əsərlərdə özünü eyni dərəcədə büruzə vermişdir. Simfonik əsərləriniz, estrada musiqiniz, dram tamaşalarına və kinofilmlərə bəstələdiyiniz musiqi məzmun dolğunluğu, ifadə vasitələrinin rəngarəngliyi və zənginliyi ilə həmişə dinləyicilərin zövqünü oxşamış, mütəxəssislər tərəfindən musiqi mədəniyyətimizin gözəl nümunələri kimi yüksək qiymətləndirilmişdir. Ayrı-ayrı xarici ölkələrdə uğurla ifa edilən əsərləriniz Azərbaycan bəstəkarlıq məktəbinə şöhrət gətirmişdir.

Ölkəmizdə gənc bəstəkarlar nəslinin yetişdirilməsi sahəsində Bakı Musiqi Akademiyasının professoru kimi göstərdiyiniz səmərəli pedaqoji fəaliyyət də yüksək təqdirə layiqdir.

Ümidvaram ki, yaradıcılıq yollarında qazandığınız zəngin təcrübədən istifadə edərək, bundan sonra da Azərbaycan musiqi mədəniyyətini yeni əsərlərinizlə zənginləşdirəcək, ölkəmizdə gənc musiqiçi kadrların yetişdirilməsi üçün əlinizdən gələni əsirgəməyəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV MÜASİR DÖVRÜN GÖRKƏMLİ MUSİQİÇİSİ MSTİSLAV ROSTROPOVİÇİ QƏBUL ETDİ

*Prezident sarayı*
*7 oktyabr 2000-ci il*

**Dövlətimizin başçısı Heydər Əliyev qonağı salamlayaraq dedi:**

– Vədinizi yerinə yetirdiyinizə görə sağ olun. Bilirəm ki, iş cədvəliniz çox gərgindir, səfər cədvəliniz də gərgindir. Ümumiyyətlə, açığını desək, bütün dünyanı bu qədər çox gəzib-dolaşan və bu qədər işləyən ikinci bir adamı təsəvvürümə gətirmirəm. Biz, dövlət başçıları da səfərlər etməli oluruq, amma bu qədər yox. Özünüzü necə hiss edirsiniz?

**Mstislav Rostropoviç**: Yaxşı, ona görə ki, buraya gəlmişəm.

**Heydər Əliyev**: Çox xoşdur. Mən Nyu–Yorkda, Klintonun verdiyi ziyafət zamanı, – o, Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin sessiyasına gəlmiş dövlət başçıları üçün ziyafət təşkil etmişdi, – ümumi dostumuz Vulfensonla görüşdüm. Soruşdum ki, "Slava necədir?". Dedi ki, "Mən onu çoxdandır görmürəm". Dedim ki, "Mən də çoxdandır görməmişəm". Dedi: "Görsəniz, ona salam söyləyin". Dedim, yəqin ki, mən onu tezliklə görəcəyəm. Sonra mən Fransanın Prezidenti Şirakla da görüşdüm, işgüzar söhbətimiz oldu, soruşdum: "Slava necədir?". Dedi ki, "Çox yaxşıdır".

Şadam ki, Sizin hər il Azərbaycana gəlməyiniz və burada ustad dərsləri keçmək barədə üzərinizə götürdüyünüz öhdəliklərin yerinə yetirilməsi möhkəm, sabit ənənə şəklini almışdır. Əlbəttə, Siz öz konsertlərinizlə bakılıları və ümumiyyətlə Azərbaycanda hamını həmişə sevindirirsiniz. Ona görə də hesab edirəm ki, bu dəfəki konsertiniz də Azərbaycanda hadisə olacaq, böyük hadisə olacaqdır. Mən nəinki Sizin üçün, həm də Sizin musiqiniz üçün darıxmışdım. Təşəkkür edirəm.

**Mstislav Rostropoviç**: Mən bu dəfə Dvorjakın konsertini ifa edəcəyəm. Dvorjak bizim konsertlərin tacıdır. Onun konserti, ümumiyyətlə, violonçel üçün bəstələnmiş bəlkə də ən mühüm, dramatik konsertdir.

Mən dünən gəldim. Təəssüf ki, başqa təyyarə ilə gəldim, beş saat gecikdim. Hətta ümid edirdim ki, Tofiq Quliyevin dəfn mərasiminə çatacağam. Mən dərhal onun evinə getdim. Bu gün səhər isə Fəxri xiyaba-

nı ziyarət etdim. Bütün dostlarımın məzarlarını ziyarət etdim, Zərifə Əzizovnanın məzarını ziyarət etdim. Mən bunu etməyi heç vaxt unutmuram.

**Heydər Əliyev:** Sağ olun, mənə dedilər. Qalina Pavlovna necədir?

**Mstislav Rostropoviç**: Hər şey yaxşıdır.

**Heydər Əliyev**: Uşaqlar, nəvələr necədir?

**Mstislav Rostropoviç**: İki böyük oğlum Almaniyaya gediblər, indi kollecə qəbul olunublar. Yeri gəlmişkən, ingilis kraliçası Yelizavetanın əri şahzadə Filipp də orada təhsil almışdır. İspaniya kraliçası Sofiya da bu məktəbi bitirmişdir. Çox mötəbər məktəbdir. Orada xoşuma gələn budur ki, uşaqlara hətta valideynlərin də pul verməsi qadağandır.

**Heydər Əliyev**: Onlar pansionda yaşayırlar?

**Mstislav Rostropoviç**: Bəli, indi dərsləri başlayır, mən oraya gedəcəyəm. Ayın 18-də Danimarkada iki kraliçanın ad günləri qeyd ediləcəkdir. Bu il onlardan birinin – indi taxt-tacda olan II Marqretenin 60 yaşı, onun anasının, çox sevdiyim İnqridin isə 90 yaşı tamam olmuşdur. Mən oktyabrın 12-də Kopenhagendə onların şərəfinə konsert verəcəyəm. Ertəsi gün isə Fransada konsertim olacaqdır. Orada ilk dəfə olaraq musiqi alətləri üzrə ustadlar üçün ümumdünya konfransı keçiriləcəkdir.

**Heydər Əliyev:** Sizin bütün konsertləriniz möhtəşəmdir, görürsünüz, kraliçalar...

**Mstislav Rostropoviç**: Bilirsinizmi, mən Çindən yenicə gəlmişəm. Ötən ay ilk dəfə olaraq Çinə getmişdim. Tayvanda dörd dəfə olmuşam, Çinə isə ilk dəfə gəlmişdim. Ona görə də bir qədər ehtiyatlıydım, çünki onlar sovetləri lap çox xatırladırdılar. Lakin gəlib orada – Şanxayda da, Pekində də ustad dərsləri verdim, pekinsayağı bişirilmiş ördək əti də yedim. Gördüyünüz kimi, həmişə səfərdəyəm və bütün dünyanı gəzib-dolaşıram.

**Heydər Əliyev**: Dünyanı Sizin qədər gəzib-dolaşan adam çətin ki, tapılsın.

**Mstislav Rostropoviç**: Bilirsinizmi, vaxt fərqi mənim üçün problem deyildir. Mənim üçün belə şeylər yoxdur.

**Heydər Əliyev**: Az adam tapılar ki, vaxt fərqinə belə asanlıqla dözsün. Yeri gəlmişkən, bu baxımdan mənim üçün də fərqi yoxdur. Məsələn, şikayətlənirlər ki, Birləşmiş Ştatlara gedib-gəldim, üç gecə yata bilmədim, çünki vaxt fərqi var. Amma məndən ötrü belə problem yoxdur.

Bildiyiniz kimi, mən Amerikada bir balaca xəstələnmişdim...

**Mstislav Rostropoviç**: Bilirəm. Mətbuat bunu düzgün şərh etməmişdi. Eşitdikdə ki, Sizin həyatınızla əlaqədar deyilənlər şayiədir, – bu,

doğrudan da şayiə idi, – mən çox sevindim. Bilirsiniz, niyə sevindim? Bunun şayiə olduğuna görə. Çünki rusların inancına görə, sağlığında ölüm xəbəri çıxan adam olduqca çox yaşayacaqdır. Bu, rusların inancıdır. Hər şey çox gözəldir. İndi mən Sizin sağlamlığınız sarıdan arxayınam.

**Heydər Əliyev**: Bilirsinizmi, bu inanc azərbaycanlılarda da var. Mən hələ Klivlenddə olarkən İTAR-TASS-ın müxbiri mənimlə görüşməyi xahiş etdi. O, yanıma gəldi. Mən ona hər şeyi danışdım və o, bunu mənə dedi. Londonda olarkən yenə də Moskvalı müxbirlər yanıma gəldilər. Bunu mənə onlardan biri də dedi. Azərbaycanda da belə inanc var. Mən bu yaxınlarda dostum, Türkiyənin sabiq Prezidenti Süleyman Dəmirəllə danışdım. O da dedi ki, bizdə, Türkiyədə də belə bir inanc var – kiminsə öldüyü barədə xəbər yayıldıqda, onun ömrü uzanır. Bir sözlə, bu şayiələri yayan adamlar mənə kömək etmiş oldular.

**Mstislav Rostropoviç**: Mən də istərdim ki, mənim barəmdə də belə şayiələr yaysınlar, ömrüm uzansın.

**Heydər Əliyev**: Əlbəttə, gözlənilməz hadisə idi. Bilirsinizmi, belə düşünürəm ki, mən həyatda elə hadisələrlə qarşılaşmışam, nəhayət, bunu da hiss etdim. Nə isə, Slava. Hesab edirəm ki, Sizin səfər proqramınız gərgindir. İstəyirəm ki, Siz bütün proqramı yerinə yetirəsiniz.

**Mstislav Rostropoviç**: Hələlik hər şey çox gözəl gedir.

**Heydər Əliyev**: Mən konsertə hökmən gələcəyəm. Axı, Sizə dedim ki, Sizin üçün, Sizin ifanız, musiqiniz üçün darıxmışdım. Odur ki, Sizin burada vaxtınızın xoş keçməsi üçün nə lazımdırsa, hər şeyi edirik. Mən bizimkilərə həmişə demişəm ki, çalışın, çalışın, çalışın...

**Mstislav Rostropoviç**: Hər şey öz qaydasındadır. Axı, mənim himayədarım buradadır...

**Heydər Əliyev**: Görürsünüz, Siz artıq onu himayədar kimi qəbul edirsiniz...

**Mstislav Rostropoviç**: Mədəniyyət naziri Polad Bülbüloğlu da mənim üçün hər şeyi edir. Dünən məni Rusiyanın buraya gəlmiş yeni səfiri qarşıladı. Mən onu tanıyıram, ona inanıram. O, elə bu gün mənə Azərbaycana olan məhəbbətindən danışdı.

**Heydər Əliyev**: Mən onu hələ qəbul etməmişəm, çünki o, buraya gələndə burada deyildim. Mən onu bu yaxın günlərdə qəbul edəcəyəm. O, öz etimadnaməsini mənə təqdim edib işə başlamalıdır. Yeri gəlmişkən, Amerika Birləşmiş Ştatlarının bizdəki səfiri də yenidir. Mənə dedilər ki, o, Sizin şərəfinizə ziyafət verəcəkdir. Mən onu da qəbul etməliyəm. Mən bütün bunları yaxın günlərdə həyata keçirəcəyəm.

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV GÖRKƏMLİ MUSİQİÇİ MSTİSLAV ROSTROPOVİÇ İLƏ KONSERTDƏ OLMUŞDUR

*Respublika sarayı*
*9 oktyabr 2000-ci il*

Azərbaycan Prezidenti Heydər Əliyev konsert qurtardıqdan sonra səhnə arxasında maestro ilə görüşdü. Dövlətimizin başçısı görkəmli musiqiçi Mstislav Rostropoviçi parlaq ifası münasibətilə ürəkdən təbrik etdi.

**Prezident Heydər Əliyev dedi:**

– Mən salonda əyləşib dinləyirdim və düşünürdüm ki, bu, hər hansı dəmirçinin zəhmətindən ağır zəhmətdir, hər hansı poladəridənin zəhmətindən ağır zəhmətdir, hər hansı bənnanın zəhmətindən, ən çətin fiziki işdən ağır zəhmətdir. Mən görürəm, ancaq Siz bütün bunları böyük coşqunluqla, çox şövqlə və qüvvə ilə edirdiniz. Özü də Siz konserti necə başladınızsa, o cür də tamamladınız. Mən cüzi də olsa zəifləmə hiss etmədim. Bir sözlə, mən Sizi təbrik edirəm.

**Mstislav Rostropoviç:** Elə Siz də Prezidentliyinizin əvvəlindən bu günə qədər beləsiniz. Bizim hamımız belə olmalıyıq.

**Heydər Əliyev:** Mən Sizi təbrik etmək istəyirəm. Sizə təşəkkür etmək istəyirəm, ona görə ki, hər bir gəlişinizlə və görüşlərinizlə, keçdiyiniz ustad dərsləri ilə, nəhayət, şübhəsiz ki, konsertlə xalqımızın, Azərbaycanın mənəvi, mədəni həyatını zənginləşdirirsiniz. Bizim xalqımızın, Sizin vətəninizin həyatını zənginləşdirirsiniz. Açığını deyəcəyəm, Siz buraya gəlməyə başlayan vaxtdan bəri çox şey dəyişmişdir. Baxın, orkestr necə də dəyişmişdir. Biz ona nə qədər qayğı göstərsək də, – əmək haqqını qaldırdıq, geyim tikdirdik. alətlər aldıq, bunlar hələ hər şey demək deyildir. Başlıcası odur ki, Siz hər dəfə gəlişinizlə orkestrin səviyyəsini qaldırırsınız, qaldırırsınız...

**Mstislav Rostropoviç:** Bura yeganə ölkədir ki, mən hər il gəlirəm və ustad dərsləri keçirəm.

**Heydər Əliyev:** Bu, bizim üçün fəxrdir, sevincdir. Ona görə də Sizə xüsusi minnətdarlıq edirik. Mən çox böyük zövq aldım. Birinci his-

sədə Siz violonçeldə ifa edəndə də və sonra – Çaykovskinin əsəri səsləndiriləndə də. Mən belə başa düşdüm ki, bu, Çaykovskinin ən mürəkkəb əsərlərindən biridir. Bir sözlə, incəsənət xadimlərimizə və bizə – sıravi dinləyicilərə böyük sevinc bəxş etdiniz.

Dövlətimizin başçısı sonra maestro ilə xatirə şəkli çəkdirdi.

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT XADİMLƏRİNƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

### "XALQ ARTİSTİ" FƏXRİ ADI

Abbasov Zülfüqar Qulu oğlu
Ağakişiyeva Zərnigar Fəti qızı
Ağayev Oqtay Cəfər oğlu
Baliyev Yuri Nikolayeviç
Bayramova Cəmilə Əsədulla qızı
Cəfərxanova Roza Heydər qızı
Cəlilov Kamil Cəlil oğlu
Eyvazova Şəfiqə Alxas qızı
Əhmədov Mobil Salman oğlu
Əliyeva Böyükxanım Həsənbala qızı
Əlizadə Firəngiz Əliağa qızı
Əsədova Məleykə Əlifağa qızı
Əzimov Rafiq Əşrəf oğlu
Fərzəlibəyov Mərahim Fərzəli oğlu
Haşımova Şahnaz Həsən qızı
Kazımov Ağakişi Şəmməd oğlu
Kərimov Valeh Seyfulla oğlu
Qədimov Vəli Nurbaba oğlu
Quliyev Qabil Əzizulla oğlu
Qurbanova Pərvanə Yaqub qızı
Mahmudova Fatma Yaqub qızı
Mahmudov Emin Sabit oğlu

Məmmədov İbrahim Əhməd oğlu
Mütəllimova Firəngiz Vəhər qızı
Nərimanova Zemfira Əli qızı
Rəhimova Elmira Allahverdi qızı
Rzazadə Yalçın İmran oğlu
Tağıyeva Natalya Valeh qızı
Vinoqradova Larisa Afanasyevna
Zeynalov Eldəniz Məmməd oğlu
Zülfüqarov Oqtay Qədir oğlu

## "ƏMƏKDAR İNCƏSƏNƏT XADİMİ" FƏXRİ ADI

Cəfərov Cavanşir Xəlil oğlu
Əfəndiyev Teymurçin İlyas oğlu
Əlizadə Rəhman Balarza oğlu
Göyçayev Teymur Ənvər oğlu
Hacıbəyov İsmayıl Sultan oğlu
Xanızadə Bəxtiyar Oqtay oğlu
İmanova Gülbacı Əliəkbər qızı
Quliyev Nazim Paşa oğlu
Məlikov Akif Turan oğlu
Sücətdinov Faiq Miri oğlu
Şapiro Mark Mixayloviç

## "ƏMƏKDAR ARTİST" FƏXRİ ADI

Adamova Lyubov Mixaylovna
Adıgözəlov Telman Abbasqulu oğlu
Ağayev Faiq Balağa oğlu
Allahverdiyeva Naibə Səyavuş qızı
Babayeva Esmira Rəşid qızı
Bağırova Rübabə İbrahim qızı
Balayev Məmmədəli Bəşir oğlu
Baliyeva Nataliya Gennadiyevna
Dadaşov Fəxrəddin Əlirahib oğlu
Əlixanova Svetlana Tofiq qızı

Əliyev Bilal Şahşirin oğlu
Əliyeva Kübrabəyim Ağa qızı
Əliyeva Lətifə Cahandar qızı
Əliyeva Sevinc Əli qızı
Əliyev Təvəkkül Əjdər oğlu
Əsgərov İlham Təvəkkül oğlu
Əzimi Səfurə Əli qızı
Əzizov Əlican Süleyman oğlu
Həşimova Növrəstə Xanəli qızı
Həkimova Svetlana Cəlar qızı
Həmidov Mübariz Şəfaət oğlu
Hüseynov Ələkbər Adıgözəl oğlu
Hüseynov Həsənağa Hüseynəli oğlu
İbrahimov Sadıx Əliabbas oğlu
İbrahimov Sərvər Rza oğlu
İbrahimova Şəhla İbrahim qızı
İsmayılova Elmira Məhərrəm qızı
İsmayılova Rəna Nəcəfqulu qızı
Kareva Tamara Alekseyevna
Qasımov İbrahim Əliağa oğlu
Qəhrəmanov Səfa Hüseyn oğlu
Qrafkin Boris Fyodoroviç
Qreçko Oleq Nikolayeviç
Quliyeva Səidə Əbülfəz qızı
Məhərrəmov Məbud Ələsgər oğlu
Məmmədov Ayşad Kamal oğlu
Məmmədov Zakir Qulam oğlu
Məmmədbəyli Cəmilə Məhərrəm qızı
Məmmədova Qəmər Məlik qızı
Məmmədov Ramiz Soltan oğlu
Mirabov Akif Əhməd oğlu
Mirzəhəsənov Hüseyn-Səfa Qvaməddin oğlu
Muradov Böyükağa Əli oğlu
Muradov Xanlar Yunus oğlu
Muradov Yadigar Məmməd oğlu
Musayeva Səmayə Məmməd qızı
Musayeva Şükufə İmran qızı
Müslümov Möhlət Xanəli oğlu

Nevmerjitskaya Yevgeniya Stepanovna
Nəcəfov Süleyman Paşa oğlu
Nəsirova Hicran Fətəli qızı
Nikuşina Aleksandra Konstantinovna
Ramazanova Naira Eduardovna
Rzayeva Çiçək Məmmədhüseyn qızı
Rzayeva Rəna Rəşid qızı
Sadıxova Səmayə Seyfulla qızı
Salahlı Əli Məmməd oğlu
Salmanova Gülnarə Əlifağa qızı
Seyidov Uran Seyid Musa oğlu
Süleymanova Səkinə Əjgər qızı
Şmelyova Tatyana Romanovna
Tağıyev Mübariz Hüseyn oğlu
Teymurova Nəzakət Xosrov qızı
Vəzirov Kamil Səfərəli oğlu
Zeynalov Elşad Allahverdi oğlu

## "ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ" FƏXRİ ADI

Atakişiyev Rafiq Qasım oğlu
Babayev Yuri Çingiz oğlu
Bunyadov Maqbet Zeynal oğlu
Buniyadzadə Nailə Ağababa qızı
Əhmədov Hüseyn Həsən oğlu
Hümmətov Məmməd Tahir oğlu
Hüseynova Xanım Ürmət qızı
Qurbanov Qürbət Fəriş oğlu
Ocaqov Mövlud Vəli oğlu
Şəkinskaya Fərəh Rəhim qızı

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 oktyabr 2000-ci il*

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV RUSİYA ESTRADASININ ULDUZU ALLA PUQAÇOVANIN KONSERTİNDƏ İŞTİRAK ETMİŞDİR

*Respublika sarayı*
*12 noyabr 2000-ci il*

Azərbaycan prezidenti Heydər Əliyev konsert qurtardıqdan sonra səhnə arxasına gələrək Alla Puqaçova ilə görüşdü. Alla Puqaçova dəvətə görə dövlətimizin başçısına bir daha təşəkkür etdi.

**SSRİ-nin və Rusiyanın xalq artisti, dünya estradasının ulduzu Alla Puqaçova dedi:**

– Budur, biz yenidən görüşdük. Siz əvvəlkitək, yenə də cavansınız. Mən yenidən burada olmağıma görə çox xoşbəxtəm. Adamları bilmirəm, amma bu gün mən özüm elə bir zövq almışam ki,...

**Heydər Əliyev:** Bəs bizi demirsiniz, bizə də zövq verdiniz. Mən belə zövq aldığımı xatırlamıram...

**Alla Puqaçova:** Mən sanki başqa bir aləmə, gənclik illərimə qayıtdım. Əladır! Tamaşaçılar isə necə vardılarsa, sanki eləcə də qalıblar. Bu, necə olan işdir? Biz Sizinlə sanki yaşa doluruq, onlar isə reaksiyalarından da, hər şeydən də göründüyü kimi hələ də cavandırlar, gəncdirlər. Buraya gəlməyimə kömək etdiyinizə görə sağ olun.

**Heydər Əliyev:** Bəs necə, axı, mən Sizi çoxdan gözləyirdim.

**Alla Puqaçova:** Çox gözlədiniz. İndi də Siz bizə qonaq gəlin. Sizi görməyimə çox şadam.

**Heydər Əliyev:** Mən də şadam. Siz bu gün bizə çox böyük zövq verdiniz. Siz özünüz görürdünüz, salondakılar Sizin çıxışınızdan, sadəcə olaraq, vəcdə gəlmişdilər. Siz olduqca böyük zövq verdiniz. Mən belə bir çıxış xatırlamıram, bugünkü konsert kimi konsert xatırlamıram. Özü də, bilirsinizmi, Siz iki saat çıxış edirsiniz, bu iki saat ərzində həmişə hərəkətdə olursunuz, həm mahnı oxuyursunuz, həm də hərəkət edirsiniz. Dünya ulduzu öz ad-sanını qoruyub saxlamışdır.

**Alla Puqaçova:** Bu sözlərə görə sağ olun.

**Heydər Əliyev:** Qətiyyən dəyişməmisiniz, əvvəlkitək gözəlsiniz, əvvəlkitək gəncsiniz...

**Alla Puqaçova:** Gözəlləşmişəm, cavanlaşmışam. Əsil kişi bundan artıq daha nə deyə bilər...

**Heydər Əliyev:** Mən gördüyümü, duyduğumu deyirəm.

Sonra prezident Heydər Əliyev və oğlu – ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyev Alla Puqaçova ilə şəkil çəkdirdilər.

**Səmimi söhbət zamanı prezident Heydər Əliyev dedi:**

– Alla Borisovna, bilirsinizmi, bu gün tamaşaçılarımıza verdiyiniz zövq 25 il əvvəl də, indi də oxuduğunuz mahnılar baxımından Sizin sənətinizin uzunömürlülüyünün təcəssümüdür. Bir baxın, bu mahnılar necə də heyranlıq doğurur. Siz qazandığınız uğurlarla kifayətlənmədiniz və müasir mahnılarınızı da ifa etdiniz. Sizin ifa etdikləriniz bizim üçün əziz, çox qiymətli nə vardısa, onların davamıdır. Amma Siz təkcə ilk mahnınız olan "Arlekino"nu ifa etmədiniz.

**Alla Puqaçova:** Mən onu səhnəyə son çıxışımda oxuyacağam. Bu, qocalmış, daha gülməyən, öskürən Arlekino olacaqdır.

**Heydər Əliyev:** Sizin bu axırıncı mahnılarınız da gözəldir, özü də təkcə onlar deyil, əvvəlki dövrün repertuarından olan mahnılar da. Sizin buraya gələndə və mən Moskvada konsertlərinizdə olarkən oxuduğunuz mahnılar, eləcə də son vaxtlar yaratdığınız mahnılar qəlbi riqqətə gətirir. Mən diqqət yetirirdim – salonda olduqca çox gənclər, yəni 18-20 yaşlı və daha cavan adamlar vardı. Deməli, Siz ilk dəfə səhnəyə çıxanda, onlar hələ dünyaya gəlməmişdilər. Mən isə ilk çıxışınızdan başlamış hər şeyi əvvəldən axıradək bilirəm. Onlar isə... Bir baxın, onlar çıxışınızı necə məhəbbətlə qarşıladılar, bizim salondakıların belə rəqs etmələrini, belə əl çalmalarını mən hələ görməmişdim. Bu, nəyi göstərir, bu, onu göstərir ki, Alla Borisovna Puqaçova səhnəyə çıxandan keçmiş Sovetlər İttifaqında, dünyada böyük məhəbbət və böyük nüfuz, böyük şan-şöhrət qazanmışdır, bu gün daha böyük populyarlığa və nüfuza, şan-şöhrətə malikdir. Buna görə də mən Alla Puqaçovanın bu böyük sənətinin şərəfinə badə qaldırıram! Alla Borisovna, Sizin sağlığınıza, Sizə səadət, firavanlıq, uzun ömür arzulayıram!

Sonra Azərbaycan prezidenti Heydər Əliyev Alla Puqaçova ilə şəkil çəkdirdi.

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV XEYRİYYƏ KONSERTİNDƏ İŞTİRAK ETMİŞDİR

*Respublika sarayı*
*25 noyabr 2000-ci il*

Konsert başa çatdıqdan sonra respublikamızın Prezidenti Heydər Əliyev səhnə arxasına gələrək, Azərbaycanın və Rusiyanın incəsənət ustalarını uğurlu çıxışları münasibətilə təbrik etdi, onlara yeni nailiyyətlər arzuladı:

– Çox gözəl konsertinizə görə sizi təbrik edirəm. Siz bu gün Azərbaycanın mədəniyyətinin, incəsənətinin yeni nailiyyətlərini bir daha nümayiş etdirdiniz. Ancaq bunun məni çox sevindirən mənası ondan ibarətdir ki, uşaqlar həm oynayırlar, həm də onlara qayğı göstərilir. Xüsusən şəkər xəstəliyi olan uşaqlar üçün bu gün xeyriyyə konserti verildi.

Sizin hər birinizin çıxışı, təbiidir ki, bizi çox sevindirir, insanlara sevinc gətirir. Sizin ifaçılığınızla, gözəl səsinizlə, mahnılarınızla, rəqslərinizlə bərabər, bugünkü çıxışınız məni ona görə çox sevindirdi ki, bu, xəstə uşaqlara, o cümlədən şəkər xəstəliyinə tutulmuş uşaqlara kömək üçün təşkil olunmuşdur. Şəkər xəstəliyi elə bir ağır xəstəlik deyildir. Bu xəstəliyə, adətən, yaşlı adamlar tutulurlar, ancaq uşaqlar da xəstələnirlər. Amma onları sağaltmaq müalicə və vəsait tələb edir. Mən çox məmnunam ki, bu xeyriyyə konserti onların müalicəsinə kömək edəcəkdir. Ona görə də Mədəniyyətin Dostları Fondunun təşəbbüsü, – Mehriban Əliyeva buradadır, – çox böyük tərifə və hər cür dəstəyə layiqdir. Mən ümid edirəm ki, bu, şübhəsiz, digər xeyriyyə təşkilatları üçün nümunə olacaq ki, onlar uşaqlar, xəstə uşaqlar haqqında düşünsünlər, belə uşaqlara qayğı göstərsinlər, xalqımızın, cəmiyyətimizin, xüsusən uşaqların sağlamlığının möhkəmləndirilməsinə öz töhfələrini versinlər.

Burada Moskvadan gəlmiş qonaqlarımız vardır. Yəqin ki, onlar məni başa düşmür və Anar Məmmədxanov da tərcümə etmir. Sən niyə tərcümə etmirsən?

**Anar Məmmədxanov:** Cənab Prezident, baş üstə, tərcümə edərəm.

**Heydər Əliyev:** Edə bilməyəcəksən. Mən dediyim sözləri onlara çatdıra bilməyəcəksən.

**Anar Məmmədxanov:** Əlbəttə, Sizin hər bir sözünüzün böyük mənası vardır. Rusca heç ona uyğun sözlər yoxdur.

**Heydər Əliyev:** Rusca var, rusca sözlər çoxdur.

Konsert ona görə gözəldir ki, fondda bizə dəfələrlə dedikləri kimi, burada həm Azərbaycanın, həm də Rusiyanın, Moskvanın ulduzları toplaşıblar. Bu, salondakıların münasibətindən də görünürdü. İkincisi də, mən ulduzların hamısını, doğrudur, hamısını olmasa da, hər halda tanıyıram. Bu konsertin Azərbaycan musiqisindən ibarət hissəsində bizim Fidan və Xuraman Qasımovalar kimi görkəmli müğənnilərimizin iştirakı özü bu tədbirin səviyyəsini qaldırır. Bizim qədim muğamlarımızı yeni səpkidə təqdim edən Alim Qasımovun və digərlərinin – Brilyant xanımın, Zülfiyyə xanımın və bir çox başqalarının, əlbəttə ki, Fərhad Bədəlbəylinin adlarını da çəkməliyik. Fərhad Bədəlbəyli həmişəki kimi, yenə də royalda gözəl ifa etdi. Bütün başqaları da, əlbəttə, uşaqların rəqsləri xüsusi hisslər doğurur, bu, olduqca təsirlidir. Bir baxın, necə balaca, qəşəng və gözəl uşaqlardır, necə rəqs edirlər, gülürlər, bizə baxırlar.

Hesab edirəm ki, bizim moskvalı qonaqlarımız müasir – estradanın ən yaxşı nümunələrini göstərdilər. İndi camaat, xüsusən gənclər estradanı sevir. Əlbəttə, biz də sevirik, elə bilməyin ki, təkcə gənclər sevir. Mən özüm də sevirəm, salonda oturub qonaqlarımızı məmnuniyyətlə dinləyirdim. Onların səsləri də gözəldir, musiqi də, mahnılar da gözəldir. Ümumiyyətlə, bütövlükdə hamısı gözəldir. Bizim həmyerlimiz Dolina burada həmişə heyranlıq doğurur. Ancaq bu gün onunla birlikdə burada çıxış edərkən başqaları da var, ola bilsin, onlar bundan əvvəl Azərbaycanda olublar, bəlkə də olmayıblar. Bir sözlə, hamısı yaxşı formada idi, hamı ruh yüksəkliyi ilə, ürəklə çıxış edirdi.

Sizin səsləriniz və ifaçılıq məharətiniz, şübhəsiz ki, dinləyicilərə çox böyük zövq verdi. Mənə dedilər ki, bu konsertə gəlmək arzusunda olanların sayı lap çox idi, amma bilet tapa bilməyiblər. Bəziləri isə bir təhər buna imkan tapmaq üçün gəliblər. Salonda boş yer yox idi. Bu, əlbəttə, Azərbaycanın incəsənət xadimlərinə, xüsusən də Rusiyanın incəsənət xadimlərinə göstərilən böyük maraqdan xəbər verir. Buraya gəldiyinizə görə, bugünkü çıxışınıza, mahnılara, rəqslərə görə sağ olun. Hamı rəqs edir və oxuyurdu – bu, çox orijinaldır.

Əvvəllər isə belə deyildi, yaxşı müğənni səhnəyə çıxır, bir yerdə dayanır, musiqiçilər çalır və o, oxuyurdu. İndi isə artıq başqa zəmanədir. Amma biz həmin vaxtları xatırlayırıq. İndi isə rəqs edir, atılıb-düşür, oxuyurlar. Mən fikirləşirəm ki, bu, necə mümkün olur? Buradan oraya qaçmaq, tullanmaq, bəzən hətta salto etmək və eyni zamanda oxumaq lazımdır. Əlbəttə, bütün bunlar bu zəmanəyə, xüsusən də bütün dünyada, o cümlədən həm Rusiyada, həm də Azərbaycanda gənclərə xas olan hallardır.

Əziz dostlar, siz bu gün çox gözəl çıxış etdiniz. Mən sizə təşəkkür edirəm ki, buraya gəlmisiniz, bugünkü əla çıxışınıza görə təşəkkürümü bildirir və sizə yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Təbii ki, bu konsertdə bizə böyük fərəh verən bir də odur ki, salondakılar rus musiqisini və Azərbaycan musiqisini eyni dərəcədə sevirlər, Azərbaycan mahnıları, rus mahnıları eyni ruh yüksəkliyi ilə qarşılanır. Hesab edirəm ki, bu, çox mühüm cəhətdir. Əlbəttə, mən şadam ki, bizim xalqımız, xüsusən gənclərimiz təkcə öz milli musiqimizi sevməklə kifayətlənmirlər. Onlar öz milli mədəniyyətlərinə böyük məhəbbət bəsləyirlər, eyni zamanda, başqa xalqların, ilk növbədə bütün Rusiya xalqlarının musiqisini və mahnılarını dinləməyi xoşlayırlar. Ona görə ki, biz həmişə Rusiya ilə bağlı olmuşuq.

"Bakılı oğlanlar" klubunun üzvləri buradadırlar. Mən sizi qazandığınız qələbə münasibətilə təbrik edirəm. Ümumiyyətlə, siz yarışa gedəndə mən bir qədər narahat oldum ki, haraya gedirlər, çıxışları yaxşı alınacaqmı? Amma belə oldu ki, indi onlar XX əsrin çempionu oldular. Mən sizinlə ayrıca görüşmək fikrindəyəm. Ona görə də burada çox danışmayacağam. Hər halda sizin proqramınız, "KVN" janrından əlavə, bilmirəm, ya estrada proqramı, yaxud komik proqram və ya komediya proqramıdır. Sizin proqramınız Azərbaycanda artıq böyük şöhrət qazanmışdır. Siz burada konsert vermisiniz, onu videokasetlərə yazdırmısınız və zənnimcə, çoxlu pul qazanmısınız. Ona görə ki, həmin kasetləri məmnuniyyətlə alırlar. Hətta mənə deyirlər ki, salonda oturub tamaşa edəndə, şübhəsiz ki, diqqət yayınır, amma televiziya ilə baxanda hərəkətləri, mimikanı və s. yaxından görürsən, bu, daha yaxşıdır. Ancaq şübhəsiz ki, Siz məni də unutmursunuz, sizin dostluq şarjınız həmişə xoşuma gəlir, əgər bacarsanız, daha nəsə tapın. Mən bilirəm, bax o, bu işləri yaxşı bilir, boyu balaca olduğuna görə burada çox da gözə dəymir. Ancaq dediklərimin hamısını çox yaxşı təqdim edir. O, çox adamları yamsılayır, hərəni də müxtəlif şəkildə. Bu gün sizin çıxışınız qısa oldu, sonra aşıq rolunda sənin qardaşın çıxış etdi. Gələn dəfə sizinlə görüşərik.

Mən sizi bir daha təbrik edirəm. Sizə cansağlığı, uğurlar diləyir və ən xoş arzularımı yetirirəm.

**Larisa Dolina:** Biz də Sizə cansağlığı arzulayırıq. Çox sağ olun. Heydər Əliyeviç, icazə verin, Sizinlə görüşməyimiz münasibətilə üzünüzdən öpüm.

Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti İlham Əliyev, onun xanımı – "Azərbaycan mədəniyyətinin dostları" fondunun sədri Mehriban Əliyeva konsertdə idilər.

# T.BAKIXANOVUN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan musiqi sənətinin inkişafındakı xidmətlərinə görə Tofiq Əhməd oğlu Bakıxanov "Şöhrət" ordeni ilə təltif edilsin.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 dekabr 2000-ci il*

# XALQ ARTİSTİ TOFİQ BAKIXANOVA

*Bakı şəhəri*
*7 dekabr 2000-ci il*

Hörmətli Tofiq Bakıxanov!

Sizi – müasir Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsini 70 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Siz xalqımızın tarixi kecmişində, elm və mədəniyyətində öz yeri olan böyük bir nəslin ənənələrini ləyaqətlə davam etdirərək, Azərbaycan musiqi mədəniyyətinə gözəl töhfələr vermisiniz. Əlli illik yaradıcılıq yolunuz həm ifacı, həm də bəstəkar kimi xalqa sədaqətli xidmət, musiqi sənətinə möhkəm bağlılıq nümunəsi olmuşdur.

Azərbaycan milli musiqi xəzinəsinin dərin köklərindən bəhrələnən coxşaxəli yaradıcılığınız müasir musiqinin ümumi kontekstində inkişaf edərək, sənət aləmində Sizə böyük hörmət qazandırmışdır.

Yaratdığınız baletlər, musiqili komediyalar, simfoniyalar, konsertlər, simfonik muğamlar, romans və mahnılar musiqi mədəniyyətimizi zənginləşdirən dəyərli sənət nümunələridir. Müxtəlif janrlarda bəstələdiyiniz əsərlərinizin bir çoxu konsert repertuarlarına və tədris proqramlarına həmişəlik daxil olmuşdur.

Siz öz musiqi yaradıcılığı ilə pedaqoji fəaliyyətini əlaqələndirən sənətkarlardansınız. Yarım əsrə yaxın bir dövr ərzində neçə-neçə gənc musiqiçilər nəsli məhz Sizin sayənizdə böyük sənət aləminə qovuşmuşdur. Bakı Musiqi Akademiyasının professoru kimi Siz bu gün də musiqiçi kadrların hazırlanmasında var qüvvənizi sərf edirsiniz.

İnanıram ki, geniş yaradıcılıq potensialına malik bir bəstəkar və pedaqoq kimi Siz yeni əsərlərinizlə professional musiqimizin inkişafına bundan sonra da xidmət edəcək və ölkəmizdə gənc sənətkarların yetişdirilməsi üçün əlinizdən gələni əsirgəməyəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV "AZƏRBAYCANDA MƏCBURİ KÖÇKÜNLƏR: AVTOPORTRET" FOTOSƏRGİSİNİN AÇILIŞINDA İŞTİRAK ETDİ. AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

*R.Mustafayev adına Dövlət İncəsənət Muzeyi*
*8 dekabr 2000-ci il*

Mərasimə toplaşanlar dövlətimizin başçısını hərarətli alqışlarla qarşıladılar.

Azərbaycan Dövlət İncəsənət Muzeyinin direktoru, xalq rəssamı İbrahim Zeynalov, Baş nazirin müavini, Dövlət-qaçqınkomun sədri Əli Həsənov, İtaliyanın "ACİP" şirkətinin Azərbaycandakı nümayəndəsi Stefano Rossi mərasimdə çıxış etdilər.

Azərbaycan Prezidenti Heydər Əliyev fotosərgidə nümayiş etdirilən şəkillərin müəlliflərini – Sabirabad çadır şəhərciyində, Ağcabədi rayonu ərazisindəki qışlaq sahəsində, Beyləqan rayonunda "ACİP" şirkətinin vəsaiti ilə tikilmiş qəsəbədə müvəqqəti məskunlaşmış Aynurə Hüseynovanı (Xocavənd), Xumar Camalovanı, Orxan Camalovu (Zəngilan), Babək Namazovu (Füzuli), Günay Məhərrəmovanı (Cəbrayıl), Xaliq Dünyamalıyevi (Laçın), Mehriban Ələkbərovanı, Yeganə Rəhimovanı (Kəlbəcər), Təranə Xəlilovanı (Qubadlı) təbrik etdi, onlarla səmimi görüşdü, bu gənclərin yaşayışı, təhsilləri ilə maraqlandı.

Prezident Heydər Əliyev onlara müraciətlə dedi:

– Mən sizdən necə yaşamağınızı soruşmuram. Ona görə ki, bilirəm, çox çətin yaşayırsmız.

**Xocavənd rayonundan olan məcburi köçkün Bəhmən Hüseynov:** Cənab Prezident, çox sağ olun, təşəkkür edirik. Zəhmət çəkib gəlmisiniz. Sizə uzun ömür, cansağlığı arzulayırıq. Çox sağ olun ki, Beyləqan rayonu ərazisində bizim üçün şəhərcik saldınız, evlər verdiniz. Sizin sayənizdə bizə evlər tikilmişdir.

**Heydər Əliyev:** Mən sizin çətin həyatınızı da, dərdinizi də – hamısını bilirəm. Bunlar hamısı müvəqqətidir. İnşallah, öz rayonlarınız, öz yaşayış məntəqələriniz işğaldan azad olunacaqdır və öz yerinizə köçəcək-

siniz. Orada yeni-yeni evlər tikəcəksiniz və yaşayacaqsınız. Narahat olmayın, müvəqqəti çətinlikdir. Doğrudur, vaxt çox gedir, amma dözmək lazımdır.

Prezident Heydər Əliyev fotosərginin açılışını bildirən qırmızı lenti kəsdi.

Respublikamızın rəhbəri məcburi köçkünlərin ağır yaşayış şəraitini əks etdirən fotoşəkillərlə yaxından tanış oldu, fotoları çəkmiş gənclərə bir daha təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı Heydər Əliyev onlara müraciətlə dedi:

– Mən bunların hamısını həyatımda görmüşəm. Mən də sizin kimi yaşamışam. Uşaq olanda bizim evimizdə dəmirdən balaca bir sobamız var idi. Kərmə yandırırdıq. Biz onunla isinirdik. Təzək, kərmə yandırmaqla isinmişəm. Nəinki isinmək, sobanın üstündə yemək də, çörək də bişirirdilər.

Mənim yadımdadır, anam xəmir yoğururdu, biz də sobanın qırağında otururduq. Hərəmiz xəmirdən götürüb sobaya yapışdırırdıq. Siz elə şey görmüsünüz? Orada bişirdi, götürüb yeyirdik. Mən vaxtilə, siz yaşda olanda bunların hamısını görmüşəm.

Azərbaycan Prezidenti Heydər Əliyev gənclərlə söhbətdən sonra mərasimdə geniş nitq söylədi.

– Hörmətli xanımlar və cənablar!

Biz həyatımızda həm Azərbaycanda, həm də başqa ölkələrdə rəssamların, böyük fotoqrafların çox sərgilərini görmüşük. Ancaq güman edirəm, siz də bu fikirlə razı olarsınız, biz ilk dəfədir ki, belə bir sərgi görürük.

Bu sərginin xüsusiyyəti ondan ibarətdir ki, o, Ermənistanın təcavüzü nəticəsində işğal olunmuş Azərbaycan torpaqlarından məcburi, zorla çıxarılmış vətəndaşlarımızın çadırlarda ağır şəraitdə yaşadıqlarını, onların gündəlik həyatını əks etdirir. Sərginin digər xüsusiyyəti ondan ibarətdir ki, buradakı fotoşəkillərin müəllifləri həmin o ağır vəziyyətdə yaşayanlar və xüsusən də uşaqlardır.

Mən Azərbaycanın son illərdəki həyatında belə mənzərələri çox görmüşəm. Buna baxmayaraq, sərgi məndə çox həyəcan hissi doğurur. Ancaq hesab edirəm ki, bu mənzərələri – 8 ildən artıq Azərbaycanın rayonlarında çadırlarda, hətta yeraltı sığınacaqlarda ağır şəraitdə yaşayanların real vəziyyətini görməyən insanlar belə fotoşəkillərə heç də biganə baxa bilməzlər. Bu şəkillər yəqin ki, onlarda da böyük həyəcan hissi doğura bilər.

Burada, Azərbaycan Dövlət İncəsənət Muzeyində çox dəyərli əsərlər vardır. Bunlar Azərbaycanın, dünyanın görkəmli rəssamlarının əsərləridir. Onların hamısı qiymətlidir, bu muzeyə gələn insan, təbiidir ki, belə gözəl rəsm, heykəltəraşlıq əsərlərinin təsiri altına düşür və onlara heyranlıqla baxır. Ancaq bizim bu gün gördüyümüz fotosərgi muzeyin bütün eksponatlarından fərqlənir. Fərq də ondan ibarətdir ki, bu şəkillər bizim müasir həyatımızın çox faciəli hissəsini, cəhətlərini nümayiş etdirir.

Azərbaycan xalqı çoxəsrlik tarixində bir çox faciələrdən keçmiş, əzilmiş, vurulmuş, ancaq yenidən qalxmış və inkişaf etmişdir. Ermənistanın ölkəmizə təcavüzü nəticəsində respublikamızın torpaqlarının bir hissəsinin işğal olunması, bu müharibə zamanı verdiyimiz itkilər, şəhidlər, tökülən qanlar və bir milyondan çox vətəndaşımızın işğalçı Ermənistan silahlı qüvvələrinin təzyiqi, qorxusu nəticəsində, onların açdıqları atəşlərdən özlərini xilas etmək üçün doğma yerlərindən, yurdlarından çıxıb indi ağır vəziyyətdə yaşaması XX əsrdə Azərbaycanın, xalqımızın ən böyük faciəsidir. Bir daha deyirəm ki, bu, XX əsrdə xalqımızın böyük faciəsidir.

Bu faciəni hamımız yaşayırıq, bütün Azərbaycan xalqı yaşayır. Ancaq faciənin əsas əzab-əziyyətlərini, ən böyük çətinliklərini yaşayan qaçqın və köçkün vəziyyətində olan həmin vətəndaşlarımız, çadırlarda doğulmuş, böyümüş uşaqlarımız, yaxud çadıra gələrkən çox kiçik yaşında olub, orada böyüyərək həyat sürən uşaqlarımızdır, gənclərimizdir. Ona görə də sərgiyə baxanda ilk növbədə qaçqınlarımızın və köçkünlərimizin bugünkü ağır vəziyyəti göz önünə gəlir. Hesab edirəm ki, hər bir vicdanlı Azərbaycan vətəndaşı onların ağrısını, acısını ürəyində, qəlbində bir daha hiss edir. Ancaq, eyni zamanda bu sərgi bizim ağır vəziyyətdə yaşayan insanlarımızın nə qədər dözümlü, nə qədər dəyanətli və qeyrətli olduqlarını göstərir. Bu insanların belə şəraitdə ağır həyat tərzi keçirməsi, yaşaması, yaratması və gələcəyə ümidlə baxması onların nə qədər yüksək mənəviyyata malik olduqlarını nümayiş etdirir.

Mən bu sərgiyə baxarkən, o fotoşəkilləri görərkən bizim ağır vəziyyətdə yaşayan soydaşlarımızın indiki real vəziyyətini gözlərim önünə gətirirəm. Yəni istər-istəməz bu mənzərə gözlərim qarşısında canlanır. Onların dözümlülüyü, iradəsi qarşısında bu gün bir daha baş əyirəm. Belə ağır vəziyyətdə yaşayan bütün soydaşlarımıza – bacılarımıza, qardaşlarımıza, uşaqlarımıza təşəkkürümü bildirirəm. Bütün Azərbaycan xalqını əmin edirəm ki, onların bu faciəli həyatı bir çox illər davam etsə də, nəhayət, bunun sonu vardır. Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş torpaqlarımız mütləq azad olunacaq, indi ağır vəziyyətdə ya-

şayan, çadırlarda həyat sürən insanlar öz yerlərinə-yurdlarına qayıdacaq, yeni evlər, məktəblər, xəstəxanalar, kitabxanalar və iş yerləri yaranacaqdır. Onlar gələcək həyatlarını daha da xoşbəxt yaşayacaqlar. Azərbaycan dövləti ötən illərdə bundan ötrü çox işlər görüb, demək olar ki, bütün imkanlardan istifadə edibdir. Bu işlər indi də görülür və görüləcəkdir. Heç şübhə etmirəm ki, bütün bunlar öz nəticəsini verəcəkdir.

Ancaq bu işlərin bir hissəsini, Azərbaycanın düşdüyü belə ağır vəziyyəti ölkəmizin qaçqınlarının və köçkünlərinin real həyatı – bu böyük faciə gərək dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara daha da aydın olsun, olduğu kimi çatdırılsın. Təəssüf ki, real vəziyyəti dünya ictimaiyyətinə çatdırmaq üçün görülən işlər yetərli olmayıbdır. Əksinə, Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal etdiyi halda, bir milyondan artıq vətəndaşımızı belə ağır vəziyyətə saldığı halda, Ermənistanın müxtəlif təbliğat orqanları, dünyanın bir çox ölkələrində yaşayan erməni diasporu, lobbisi belə fikir yaradır və buna da müəyyən dərəcədə nail ola bilir ki, guya günahkar Ermənistan və bu ölkənin silahlı qüvvələri deyil, Azərbaycandır. Guya Azərbaycan Dağlıq Qarabağda yaşayan erməniləri əzib, sıxıb, indi onları blokadaya alıbdır. Ermənilər bu sahədə çox məharətlə çalışıblar və çalışırlar. Doğrudur, etiraf etmək lazımdır ki, onların imkanları böyükdür. Böyük ölkələrdə, Amerika Birləşmiş Ştatlarında, Avropa ölkələrində erməni diasporu həm çoxdur, həm də güclüdür. Onlar dövlət orqanlarına təsir etmək imkanına malikdirlər. Təəssüf ki, Azərbaycanın belə imkanları yoxdur. Ona görə də vəziyyət bir çox hallarda tərsinə təsvir olunur.

İtaliyanın "ACİP" şirkətinin təşəbbüsü, yəni belə bir fotosərginin yaranması və xüsusən, burada deyildiyi kimi, bu fotoşəkillərin İtaliyada və başqa ölkələrdə nümayiş etdirilməsi bizim üzərimizə düşən vəzifələrin həyata keçirilməsi üçün çox gərəkli bir təşəbbüsdür, yüksək qiymətə layiqdir. Buna görə mən Azərbaycanın ağır vəziyyətdə yaşayan vətəndaşlarına göstərdiyi yardıma görə "ACİP" şirkətinə təşəkkür edirəm. Eyni zamanda, ümidvar olduğumu bildirmək istəyirəm ki, qərb ölkələrinin Azərbaycanda fəaliyyət göstərən və geniş imkanlara malik olan, "ACİP" şirkətindən də daha çox iş görən şirkətləri, xüsusilə neft şirkətləri "ACİP"-in bu təşəbbüsünə qoşulacaqlar və onların hər biri bu sahədə öz xidmətlərini göstərəcəklər.

Bu sərgi, buradakı fotoşəkillər Azərbaycandakı qaçqınların vəziyyəti haqqında müəyyən təəssürat, təsəvvür yaradır. Ancaq, hesab edirəm ki, real vəziyyət bundan qat-qat ağırdır. Yəni, biz hamımız bu təşəb-

büsü qiymətləndirərək, eyni zamanda səy göstərməliyik ki, belə təşəbbüslər genişlənsin və Azərbaycanda faciəli həyat sürən soydaşlarımızın real vəziyyəti bütün dünyaya çatdırıla bilsin. Bu vəzifə, birinci növbədə Azərbaycanın müxtəlif müvafiq orqanlarına aiddir. Amma eyni zamanda "ACİP" şirkətinin bu təşəbbüsü həm Azərbaycanın bu işdə məsuliyyət daşıyan orqanları üçün, həm də qeyd etdiyim kimi, ölkəmizdə çox geniş fəaliyyət göstərən müxtəlif şirkətlər üçün də nümunə olmalıdır.

Mən "ACİP" şirkətinə bir daha təşəkkür edirəm. Ümidvaram ki, onlar bu sahədə öz işlərini davam etdirəcəklər.

Əminəm ki, bu təşəbbüs bizim gələcəkdə görəcəyimiz böyük işlərin başlanğıcı olacaqdır. Sağ olun. Təşəkkür edirəm.

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN UŞAQLARIN BEYNƏLXALQ TELEVİZİYA VƏ RADİO GÜNÜ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN ŞƏNLİKDƏ NİTQİ

*Teleteatr*
*10 dekabr 2000-ci il*

Əziz uşaqlar!

Əziz balalar!

Mən sizi və Azərbaycanın uşaqlarını bu günkü bayram münasibətilə, YUNİSEF-in müəyyən etdiyi proqramın həyata keçirilməsi münasibətilə ürəkdən təbrik edirəm. Sizin hamınıza cansağlığı, xoşbəxt gələcək və bu gözəl istedadlarınızın həyata keçirilməsində uğurlar arzulayıram.

Bu gün artıq biz birinci dəfə deyil ki, sizinlə görüşürük. Çox məmnunam ki, 1994-cü ildə, hələ Azərbaycan dövlət müstəqilliyini əldə etdiyi ilk zamanda mən Nyu–Yorkda, Birləşmiş Millətlər Təşkilatında Azərbaycanın dövlət kimi YUNİSEF təşkilatına üzv olması və onun şərtlərinin qəbul edilməsinə təminat verilməsi barədə sənədlər imzaladım. Bu haqda mən, təbiidir, düşünürdüm ki, bunlar bizim Azərbaycanımız, müstəqil dövlətimiz, onun uşaqları üçün nə qədər vacibdir, nə qədər əzizdir və Azərbaycan uşaqlarının böyüyüb boya-başa çatması, inkişaf etməsi üçün nə qədər imkanlar açacaqdır.

Bu gün burada deyildi ki, həmin vaxtdan 7 il keçir. YUNİSEF-in Azərbaycandakı tədbiri təkcə bugünkü bayramdan ibarət deyil, bu təşkilat Azərbaycanda uşaqların təhsili və tərbiyəsi, onlara müxtəlif sahələrdə yardım etmək üçün çox işlər görür. Ancaq bu gün YUNİSEF-in, demək olar ki, ən böyük bayramıdır. Çünki bu dünyada, YUNİSEF təşkilatının üzvü olan ölkələrdə eyni bir gündə uşaqların bayramı keçirilir və onların istedadları nümayiş etdirilir. Hər bir ölkə bu tədbirə qoşularaq öz dövlətini, öz uşaqlarını həm öz vətəndaşlarına, həm də bütün dünyaya göstərir.

Mən sizin bütün bu tədbirlərinizdə iştirak etmişəm, bilirəm, demək olar ki, buna öyrənmişəm. Əgər mən, bəlkə də bu gün Azərbaycanda olmasaydım, hansısa vacib bir məsələ ilə əlaqədar ölkəmizdən kənarda ol-

saydım, sizinlə görüşməsəydim, bunu özüm üçün böyük bir itki hesab edərdim. Ancaq çox şadam ki, hər il sizinlə görüşmək, istedadlarınızı gözlərimlə görmək mənə nəsib olur.

Ancaq bu, təkcə mənə aid deyildir. Bu gün Azərbaycanın dövlət televiziyası ölkəmizin vətəndaşlarının hamısına bunu nümayiş etdirir. Mən şübhə etmirəm ki, vətəndaşlarımızın tam əksəriyyəti bu proqrama baxırlar, hətta televiziya ekranı önündən çəkilmirlər.

Mən özüm də bu gün sizin proqram başlayanda evdə idim, baxırdım. Nəvəm də mənimlə bərabər baxırdı və sevinirdi. Mənim üçün təyin olunmuş vaxtı gözləyirdim ki, buraya gəlim. Doğrudur, nəvəmi də gətirmək istəyirdim. Ancaq o, hələ kiçikdir, bir az ehtiyat etdim ki, gəlib burada özünü, bəlkə, o qədər də rahat hiss etməsin, ancaq gələn il gətirəcəyəm.

Bu gün hamımız – yəni həm bu salonda olanlar, həm də Azərbaycanda televiziya ekranı önündə bu mərasimi diqqətlə izləyənlər bir daha şahidi oluruq ki, Azərbaycan uşaqları nə qədər istedadlı, bilikli və nə qədər xalqımızı, millətimizi – bizləri sevindirməyə qadirdirlər və sevindirirlər.

Burada bir çox rəqs və mahnı nümunələri nümayiş etdirildi. Ancaq deyirəm ki, bizim bu uşaqların istedadı təkcə rəqs etmək, yaxud da ki, mahnı oxumaq, hansısa bir musiqi alətində çalmaqla bitmir. Mən bu uşaqlara baxarkən görürəm ki, onların hər birində nə qədər böyük istedad vardır. Təbiidir ki, bu gün, bu səhnədə gördüyümüz uşaqların hamısı gələcəkdə rəqs ansamblına getməyəcək, yaxud incəsənətlə məşğul olmayacaqdır. Hərənin öz yolu olacaqdır. Çünki uşaq böyüdükcə, onun gələcək müstəqil həyatında hansı sənətə meyli olması daha dəqiq müəyyən olunur.

Ancaq bir şey çox əhəmiyyətlidir. O da ondan ibarətdir ki, bizim bu uşaqlar gələcəkdə mühəndismi, həkimmi, aqronommu olacaq, yaxud dövlət işində çalışacaq, siyasətlə məşğul olacaqlar – bütün bunlardan asılı olmayaraq bu uşaqlarda böyük istedad var. Bu istedad incəsənətdir, mədəniyyətdir, musiqidir. Bununla onu demək istəyirəm ki, bizim Azərbaycan xalqı çox istedadlı xalqdır. Burada ən qədim tariximizdən – “Dədə Qorqud” dastanından da bir epizod göstərildi. Elə o vaxt da, ondan sonrakı illərdə və əsrlərdə də xalqımız müxtəlif çətinliklərdən, bəlalardan uğurla keçərək öz istedadını həmişə göstərmişdir. Buna görə, təbiidir ki, Azərbaycan xalqının mədəniyyəti, musiqisi, ədəbiyyatı dünya sivilizasiyası, mədəniyyəti xəzinəsinə çox qiymətli incilər kimi daxil olub-

dur. Biz tarixi öyrənərək, keçmişdə olan istedadları da bilirik. Amma indikiləri öz gözlərimizlə görürük.

Lakin fərq də var. Fərq ondan ibarətdir ki, dünyada heç bir şey yerində donub qalmır. Hər şey inkişafdadır. O cümlədən, Azərbaycan xalqı da çoxəsrlik tarixində daim inkişaf edibdir. Bugünkü bizim bu uşaqlarımız təkcə incəsənət sahəsində yox, bütün sahələrdə, indiyə qədər olan bütün nəsillərin istedadlarından daha da yüksəkdə dururlar. Biz Azərbaycanın qurulması, yaradılması, onun iqtisadiyyatının, mədəniyyətinin, təhsilinin, elminin inkişafı ilə on illərlə məşğul olmuşuq. Bilirsiniz ki, Azərbaycan xalqı XX əsrdə çox böyük inkişaf yolu keçibdir. Elm, mədəniyyət, incəsənət sahələrində və digər sahələrdə dünyaya çox dəyərli töhfələr veribdir, dəyərli insanlar yetişdiribdir. Bu məmnunluq və iftixar hissi ilə XX əsrin son dövrünü, demək olar ki, son günlərini yaşayırıq.

Amma XX əsrin çox hissəsini görmüş və bütün bu proseslərin Azərbaycanda fəal iştirakçısı olan bir adam kimi mən artıq irəliyə baxıram: XXI əsrdə Azərbaycan nə cür olacaq? Mən buna çox nikbinliklə, sevinc hissi ilə baxıram. Birincisi, ona görə ki, Azərbaycan XXI əsrə, üçüncü minilliyə müstəqil dövlət kimi daxil olur. Millətimiz yeni əsrə azad millət kimi daxil olur. İkincisi, ona görə ki, XX əsrdə, xüsusən XX əsrin sonunda dünyaya gəlmiş uşaqlar – sizlər, bizim gənclərimiz bizlərdən daha istedadlısınız, dünya mədəniyyətini, elmini qavramağa, mənimsəməyə daha qabiliyyətlisiniz.

Ona görə də sizə baxaraq, sizin bu gözəl istedadınızı görərək, mən Azərbaycanın gələcəyi üçün arxayınam. İnanıram ki, XXI əsrdə daha böyük nailiyyətlər əldə ediləcəkdir. Nailiyyət dedikdə isə, mən hər bir vətəndaşın öz arzusunun yerinə yetirilməsini istəyirəm. Təbiidir, mən dövlət başçısıyam, mənim fikirlərimin hamısı dövlətin fəaliyyətinə və gələcəyinə yönəldilibdir. Ancaq dövlət də cəmiyyətsiz mövcud deyildir. Dövlət xalqsız ola bilməz. Xalq isə ayrı-ayrı insanlardan, vətəndaşlardan ibarətdir. Ona görə də Azərbaycanın gələcəyi hər bir insanın, sizin kimi uşaqların, gənclərin fəaliyyətindən asılıdır.

Asılıdır dedikdə, mən şübhə etmirəm ki, gələcək çox işıqlı, parlaq, Azərbaycanın hər bir vətəndaşı üçün xoşbəxt gələcək olacaqdır. Buna əmin ola bilərsiniz. Ona görə əmin ola bilərsiniz ki, müstəqil Azərbaycan ildən-ilə inkişaf edir. Ölkəmizin gəncləri, uşaqları üçün, onların istedadlarının daha da üzə çıxması və cəmiyyət üçün faydalı olması üçün biz əlimizdən gələni edirik və bunlar da öz nəticəsini verir. Əminəm ki, siz şa-

hidi olduğumuz faciələri, bizim keçirdiyimiz çətinlikləri artıq görməyəcəksiniz, daha rahat, xoşbəxt şəraitdə yaşayacaqsınız.

Baxmayaraq ki, bu, sizinlə mənim ilk görüşüm deyil, bu uşaqlar bu gün məni bir daha heyran etdilər. Ancaq buradakı uşaqların bir çoxu keçən il, yaxud da 2–3 il bundan öncə burada yox idilər. Hər il səhnəyə yeni uşaqlar gəlir. Deməli, uşaqlar böyüyür, gənclik dövrünə çatır, amma onların arxasınca yeni-yeni uşaqlar gəlir, sizlər gəlirsiniz. Doğrudur, burada bir çox illərdir ki, mən istedadlı gənclərimizi – Sevinci və Bəxtiyarı görürəm. Onlar dəyişmirlər. Dəyişmirlər dedikdə, o mənada ki, onlar daim bu səhnədədirlər. Ancaq görürəm ki, onların da hər il boyları artır. Mən sadəcə boy haqqında demirəm, görürəm ki, bu iki gözəl gənc – Sevinc və Bəxtiyar nə qədər inkişaf edir, öz istedadlarını yüksəldirlər. Amma bizim uşaqların inkişafı təkcə bu iki gözəl gəncin timsalında deyildir, bu, sadəcə, bizim bütün gənclərimizin daim inkişaf etməsinin parlaq bir nümunəsidir.

Bizim həyatımızın indi çətinlikləri də vardır. Biz bu çətinlikləri yaşayırıq. Bəlkə siz uşaqlar bunları o qədər də hiss etmirsiniz. Çünki uşaqlar yaşlı adamlardan, böyüklərdən daha da dözümlü olurlar.

Mən bir neçə gün öncə İncəsənət muzeyindəki sərgidə qaçqın vəziyyətində çadırlarda yaşayan uşaqların İtaliyanın "ACİP" şirkətinin təşəbbüsü ilə özlərinin, – onlara fotoaparatlar verilmişdir, – öz həyatları haqqında çəkdikləri fotoşəkilləri gördüm. Baxmayaraq ki, gördüyüm mənzərə mənim üçün yenilik deyildi, bu şəkillər məni həyəcanlandırdı, sıxdı. Əgər çoxları fotoşəkilləri görürlərsə, mən qaçqın düşərgələrində, çadırlarda yaşayan insanları, uşaqları görmüşəm və onlarla daim təmasdayam. Həmin o fotoşəkillərin müəllifləri olan uşaqlar çadırlarda, ağır şəraitdə yaşamalarına, ağır həyat keçirmələrinə baxmayaraq, birincisi, çox gözəldirlər, ikincisi, istedadlıdırlar, üçüncüsü isə çox şəndirlər. Biz onların barəsində daim düşünürük. Düşünürük deyəndə, o demək deyil ki, sadəcə, oturub düşünürük, yox. Azərbaycanı bu vəziyyətdən çıxarmaq üçün, işğal olunmuş torpaqlarımızı azad etmək üçün, yerindən-yurdundan didərgin düşmüş soydaşlarımızı, o cümlədən uşaqları öz doğma torpaqlarına, elinə-obasına qaytarmaq üçün gecə-gündüz çalışırıq. Çalışırıq və inanıram ki, biz buna nail olacağıq.

Burada kimsə, deyəsən sən idin, dedin ki, vaxtilə reportyor olmaq istəyirdin. İstəyirdin ki, gedib cəbhədə döyüşləri lentə alıb gətirib göstərəsən. Ancaq bu sənə müyəssər olmadı. Çox gözəl, yaxşı ki, müyəssər olmadı. Nə üçün olmadı? Çünki biz 1994-cü ildə atəşi dayandır-

dıq. Atəşin dayandırılması nə qədər gəncin həyatını xilas etdi! Atəşin dayandırılması bu gözəl uşaqların dünyaya gəlməsini təmin etdi! 6 ildir ki, biz atəşi dayandırmışıq. Burada 6 yaşlı uşaqlar var. Deməli, onlar atəş dayandırıldıqdan sonra doğulublar, ondan sonra dünyaya gəliblər. Biz atəşi dayandırdıq, qan tökülməsinin, şəhidlər verilməsinin qarşısını aldıq. İnsanlara müəyyən rahatlıq verdik. Bu, bizim işimizin birinci mərhələsi idi. Ancaq əsas vəzifəmiz işğal olunmuş torpaqlarımızı sülh yolu ilə azad etmək, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək və Azərbaycan uşaqlarının hamısının, – təkcə sizin yox, – xoşbəxt yaşamasını təmin etməkdən ibarətdir. Mən buna inanıram.

Azərbaycan xalqı bütün başqa xüsusiyyətləri ilə yanaşı, eyni zamanda gözəl bir xalqdır. Uşaqlara baxıram, bir-birindən gözəldirlər. Bu, hər bir insanı sevindirir. Mən özüm haqqında deyirəm. Amma inanıram ki, çox az adam taparsan ki, uşağı sevməsin. Çox az adam taparsan ki, uşağı şən, gözəl, yaxşı əhval-ruhiyyədə görəndə özü də sevinməsin. Ona görə də əziz balalar, uşaqlar, siz öz varlığınızla, bugünkü istedadınızla valideynlərinizi, hər birimizi, məni sevindirirsiniz. Bu gün bir daha Azərbaycana, ölkəmizin vətəndaşlarına yeni-yeni sevinc bəxş etdiniz. Mən isə sizinlə bir yerdə olmağımdan, təbiidir ki, daha da çox sevinirəm və ola bilər ki, başqaları mənə qibtə etsinlər ki, niyə Heydər Əliyev oradadır, mən orada deyiləm?

Siz incəsənəti çox gözəl nümayiş etdirdiniz. Ancaq şübhə etmirəm ki, məktəbdə dərslərinizi də belə yüksək səviyyədə öyrənirsiniz, oxuyursunuz. Bilik almaqda da istedadınız var, ondan istifadə edirsiniz. Həyatda sağlam vətəndaş kimi böyümək üçün də öz istedadınızdan istifadə edirsiniz. Çünki bunlarsız təkcə incəsənət – rəqs, mahnı insana hər şeyi gətirə bilməz. Ona görə də mənim sizə daim tövsiyəm bundan ibarətdir ki, yaxşı oxuyun, atanıza-ananıza daim hörmət göstərin. Azərbaycan xalqının qədim bir ənənəsi var, bu da uşağın böyüyə hörmət etməsidir. Bax, bu xüsusiyyəti özünüzdə yaradın, saxlayın. Özünüzü sağlam düşüncəli, vətənpərvər, vətənini, millətini, müstəqil dövlətini sevən vətəndaş etmək üçün çalışın. Mən ümidvaram ki, bizim gənclərimizin, uşaqlarımızın əksəriyyəti bu duyğularla, fikirlərlə yaşayır. Xüsusilə də siz, bu mərasimin iştirakçıları.

Mən sizi bir daha təbrik edirəm. Çox şadam ki, bizim Azərbaycan televiziyası belə tədbirləri yüksək səviyyədə təşkil edir. İndi iki gənc qız burada özləri haqqında dedilər. Demək, nəsillər bir-birini əvəz edir. Bu da təbiidir. Görürəm ki, bizim televiziyaya çox gənc qızlar gəliblər,

düzdür, oğlanlar da qaliblər, amma qızlar daha çoxdur. Siz – qızlar, oğlanlar bu gözəl sənəti də sevirsiniz və bununla məşğul olursunuz.

Bu böyük bayram münasibətilə mən sizin hamınızı bir daha təbrik edirəm, hamınıza cansağlığı arzu edirəm və ümidvaram ki, gələn il mən sizinlə burada yenə də görüşəcəyəm. Siz öz istedadlarınızı yenə də, bugünkündən daha yaxşı nümayiş etdirəcəksiniz. Sağ olun.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV IV BEYNƏLXALQ “ŞƏRQ–QƏRB” BAKI KİNOFESTİVALININ AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*Respublika sarayı*
*18 dekabr 2000-ci il*

Dekabrın 18-də Respublika sarayında IV Beynəlxalq “Şərq–Qərb” Bakı kinofestivalının təntənəli açılış mərasimi olmuşdur.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev gəlini Mehriban xanım və nəvələri ilə birgə açılış mərasimində iştirak etmişdir. Kinematoqrafçılar İttifaqları Konfederasiyasının, Respublika Kinematoqrafçılar İttifaqının və Azərbaycanda Dünya Kinosunun 100 illiyi Fondunun təşkil etdikləri bu tədbir başa çatmaqda olan XX əsrin son festivalıdır. MDB-nin üzvü olan dövlətlərin, Baltikyanı ölkələrin, habelə dünyanın bir sıra ölkələrinin kino xadimləri bu münasibətlə Azərbaycan paytaxtına toplaşmışlar.

Kinofestivalın iştirakçıları və qonaqlar həmin gün səhər Şəhidlər xiyabanını ziyarət edərək, vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda həlak olmuş Azərbaycan övladlarının xatirəsini ehtiramla yad etmiş, məzarların üzərinə və “Əbədi məşəl” abidəsinin önünə təzə-tər qərənfillər qoymuşlar.

Sarayın salonuna toplaşanlar dövlətimizin başçısı Heydər Əliyevi hərarətlə, sürəkli alqışlarla qarşıladılar.

Mərasim Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında dahi Üzeyir Hacıbəyovun ölməz “Koroğlu” operasının əzəmətli uvertürası ilə başlandı.

**Respublika Kinematoqrafçılar İttifaqı idarə heyətinin katibi, “Azərkinovideo” İstehsalat Birliyinin baş direktoru, xalq artisti, kinorejissor Oqtay Mirqasımov mərasimi açaraq dedi:**

– Zati-aliləri cənab prezident!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar, qonaqlar, kinematoqrafiya xadimləri!

Gəlin, bu, gözəl, şübhəsiz ki, dünyada hörmət qazanmış, özünəməxsus siması olan “Şərq-Qərb” kinofestivalını alqışlayaq və bir-birimizi təbrik edək.

Hörmətli prezidentimizə bir daha təşəkkurümüzü bildirək ki, o, Azərbaycanda kino sənətinin inkişafına daim hər cür şərait yaratmağa çalışmış, çətinliklərə baxmayaraq, onun möhkəm dayağı olmuşdur.

O.Mirqasımov festivalın hazırlanması və keçirilməsində xidmətləri olanlara, o cümlədən tədbirin sponsoru “Filip Morris” şirkətinin Azərbaycandakı nümayəndəliyinə təşəkkür etdi.

Natiq festivalın əhəmiyyətindən, özünəməxsus xüsusiyyətlərindən, məramından danışdı, artıq ənənəyə çevrilmiş Bakı kinofestivalında nümayiş etdiriləcək filmlər barədə məlumat verdi.

Sonra Rusiyanın xalq artisti, tanınmış kinoaktyor Aleksandr Abdulov mərasimdə çıxış edərək, festivalın yüksək səviyyədə keçirilməsinə görə Azərbaycan prezidenti Heydər Əliyevə minnətdarlığını bildirdi.

Prezidentin İcra Aparatının humanitar siyasət şöbəsinin müdiri Fatma Abdullazadə respublikamızın rəhbəri Heydər Əliyevin festival iştirakçılarına təbrikini, ölkəmizin kino sənəti işçilərinin bir qrupuna fəxri adlar verilməsi haqqında fərmanını, avqustun 2-sinin Azərbaycan kinosu günü elan olunması barədə sərəncamını oxudu. (Təbrikin, fərman və sərəncamın mətnləri qəzetin bugünkü nömrəsində dərc edilmişdir).

Mərasimdə Gürcüstan prezidenti Eduard Şevardnadzenin, digər ölkələrin dövlət və hökumət başçılarının Bakı kinofestivalının iştirakçılarına təbrik teleqramları oxundu.

Tofiq İsmayılov adına Uşaq və Gənclər Yaradıcılığı Sarayının məşhur “Cücələrim” ansamblının üzvləri festivalda təmsil olunan ölkələrin xalqlarının milli rəqslərini nümayiş etdirdilər.

Sonra “Filip Morris” şirkətinin ictimaiyyətlə əlaqələr üzrə meneceri xanım Patrisia Trikorake, Amerika Kino Fondunun direktoru Herri Makvey festival iştirakçılarını təbrik etdilər, kino sənətinin inkişafına göstərdiyi diqqət və qayğıya görə Azərbaycan prezidenti Heydər Əliyevə təşəkkürlərini bildirdilər.

“Filip Morris”in respublikamızda mədəniyyətin inkişafına, sosial problemlərə köməyindən söhbət açan xanım Trikorake bu il 15 min tənha qocaya və məcburi köçkün ailəsinə ərzaq və dərman verilməsini nəzərdə tutan xeyriyyə proqramının həyata keçirildiyini vurğuladı, dövlətimizin başçısını və bütün xalqımızı qarşıdan gələn əlamətdar gün – Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibətilə təbrik etdi.

Cənab Herri Makvey Amerika Kino Fondunun keçirdiyi "Azadlıq" kinofestivalının məramından danışaraq dedi ki, hər dəfə münsiflər heyəti bir filmə "Azadlıq" mükafatı verir. Bu ilki qalib Azərbaycanda istehsal olunmuş "Sarı gəlin" filmidir.

Fondun direktoru cənab Makvey həmin mükafatı filmin rejissoru Yavər Rzayevə təqdim etdi.

Sonra xalq artisti Rüstəm İbrahimbəyov çıxış etdi. O bildirdi ki, Kinematoqrafçılar İttifaqları Konfederasiyası hər il dörd nominasiya üzrə mükafat təsis edir. Kino sahəsində görkəmli xidmətlərinə görə mükafat məşhur rejissor Georgi Daneliyaya təqdim olunur.

Səhnəyə Moskvada yaşayan həmyerlimiz Yuli Qusman dəvət edildi. O, doğma Bakıya yenidən gəlməsindən hədsiz sevinc hissi keçirdiyini, festival iştirakçılarının Azərbaycanın müxtəlif guşələri, xalqın adət və ənənələri ilə də tanış ola biləcəklərini vurğuladı, doğulub boya başa çatdığı vətənə məhəbbətini xalq şairi Səməd Vurğunun məşhur "Azərbaycan" şeirindən bir parça ilə ifadə etdi. Y.Qusman xatırlatdı ki, Rusiya kinematorqafiya sənəti akademiyasının "Nika" mükafatı var. "Nika" şərəf və ləyaqət mükafatıdır və kino sahəsində böyük xidmətləri olan sənət adamlarına verilir. Lakin bu gün bu mükafat, – o, xaricdə xüsusi olaraq hazırlanmışdır, – bütün həyatı boyu öz xalqına xidmət göstərmiş, ölkəsi üçün mümkün olan hər şeyi etmiş Azərbaycan xalqının və vətənimizin adını dünyada ucaltmış şəxsiyyətə, prezident Heydər Əliyevə təqdim olunur.

Yuli Qusman salona toplaşanların gurultulu alqışları altında mükafatı dövlətimizin başçısına təqdim etdi. "Cücələrim" ansamblının balaca üzvləri prezident Heydər Əliyevə və nəvələrinə güllər verdilər.

* * *

Fasilədə prezident Heydər Əliyev qonaqlarla – "Şərq-Qərb" festivalının iştirakçıları ilə görüşdü.

Qonaqlar onlara göstərilmiş qonaqpərvərliyə görə dövlətimizin başçısı Heydər Əliyevə dərin təşəkkürlərini bildirərək, sabiq SSRİ-də keçirilmiş festivallarda onunla necə görüşdüklərini xatırladılar, kino və ümumən incəsənət xadimlərinə daimi qayğısına görə ona öz minnətdarlıqlarını söylədilər.

Prezident Heydər Əliyev qeyd etdi ki, o, həmin görüşləri yaxşı xatırlayır və incəsənət xadimləri ilə bugünkü görüşə şaddır.

**“Azərkinovideo” İstehsalat Birliyinin baş direktoru Oqtay Mirqasımov kino sənəti xadimlərinin təltif olunması” haqqında onun imzaladığı fərmana görə prezidentə təşəkkür edərək dedi:**

– Cənab prezident, mən ilk növbədə deməliyəm ki, təltif etdiyiniz şəxslərin hamısı Sizə çox böyük minnətdarlıqlarını bildirməyi xahiş etmişlər. Onlar Sizin qayğınızdan və səmimiliyinizdən, səxavətinizdən həmişəki kimi məmnundurlar. Mən yoldaşlarımın tapşırığını yerinə yetirməyə və Sizə təşəkkür etməyə borcluyam.

**Heydər Əliyev:** Kino işçilərini çoxdan təltif etməmişlər. Ona görə də mən həmişə bunu etməyi istəyirdim.

**Oqtay Mirqasımov:** Çox sağ olun.

* * *

Sonra dövlətimizin başçısı qonaqları çay süfrəsinə dəvət etdi.

**Prezident Heydər Əliyev onlara müraciət edərək dedi:**

– Bu gün mənə kinofestivalın açılışında olmaq imkanı yaradıldığına görə şadam. Siz hamınız bu barədə çox danışdınız. Mən kinofestivalın iştirakçılarına təbrik göndərmişəm, onu oxudular. Burada, Azərbaycanda mən Azərbaycan prezidenti olaraq, zamanın çətinliklərinə baxmayaraq, kinonu, xüsusən, “Şərq-Qərb” kinofestivalı keçirilməsi kimi belə gözəl təşəbbüsü hər vasitə ilə dəstəkləməyə çalışıram. Burada, şübhəsiz, onun adının özü məzmundan xəbər verir, məzmun da bundan ibarətdir ki, 10-15 il əvvəl birlikdə yaşadığımız dövrdən fərqli olaraq, artıq indi bütün dünya qarşılıqlı əlaqədədir, qarşılıqlı fəaliyyətdədir. Şərq-Qərb isə ona görə xüsusi əhəmiyyət kəsb edir ki, Şərqin qədim sivilizasiyası və Qərbin çox böyük mədəni və mənəvi dəyərləri indi daha artıq sintezləşir, yəni daha çox birləşir və şübhəsiz, bu, öz nəticələrini verəcəkdir. Deyə bilmərəm ki, dünyada Qərblə Şərq bir birindən ayrılmışdı, amma hər halda bizim yaşadığımız ölkə – Sovet İttifaqı Şərqlə Qərbin bir növ ortasında yerləşirdi. Biz Şərq deyəndə, təkcə Rusiyanı deyil, təkcə Mərkəzi Asiyanı deyil, təkcə Qafqazı nəzərdə tutmuruq. Biz Şərq deyəndə bütün ərəb dünyasını, böyük Çini, Hindistanı və başqa ölkələri nəzərdə tuturuq. Biz hələ o vaxtlar bu ölkələrin mədəniyyəti, mədəni dəyərləri, tarixi abidələri ilə getdikcə daha çox tanış olmağa başlamışdıq və bizə aydın olurdu ki, əgər sıx qarşılıqlı fəaliyyət, sıx əməkdaşlıq yaranarsa, onlardan maraqlı çox şey öyrənmək mümkündür.

Bunların hamısı bütün istiqamətlərdə baş verir. Bu, siyasi baxımdan Böyük İpək yolunun bərpasıdır, dostum, Gürcüstan prezidenti Edu-

ard Şevardnadze öz təbrik məktubunda bu barədə yazmışdır, bu, hər şeydən əvvəl iqtisadi xarakter, bununla yanaşı, təkcə iqtisadi xarakter deyil, başqa xarakter də daşıyan qlobal proqramdır. Həmin proqram Böyük İpək yolu bərpa edildikdən sonra Yaponiyadan və Çindən başlayaraq Avropanın ən ucqar nöqtəsinədək, İspaniyaya qədər bu ölkələri, bu xalqları, şübhəsiz, bir çox illər, yüz illiklər ərzində yaxınlaşdıracaq, ticarətin, iqtisadi əlaqələrin yaxşılaşmasını təmin edəcəkdir. Bütün bunlar isə mücərrəd ola və mədəni dəyərlərdən, əxlaqi dəyərlərdən, mənəvi dəyərlərdən ayrıla bilməz. Ona görə də bu festival bəlkə təsadüfən, bəlkə də təsadüfi olmayaraq düşünülmüşdür, deyə bilmərəm, hər halda yaxşı düşünülmüşdür. Əgər mahiyyətə daha dərindən varsaq və perspektivləri görsək, aydın olar ki, bu, çox maraqlı, çox gərəkli, faydalı tədbirdir. Dörd festival adama olduqca çox görünə bilər.

Lakin düşünürəm ki, bu festival, əvvəla öz əhatə dairəsini daha da genişləndirəcək, ikincisi isə, getdikcə daha çox kinematoqrafçıları və iştirakçı ölkələri cəlb edəcəkdir. Hələlik isə ən çox MDB ölkələrinin nümayəndələri toplaşırlar. Odur ki, siz MDB-nin hüdudlarından çox-çox kənara çıxmalısınız. Buna isə imkan var.

Sovet dövründə kinofestivallar Moskva, Daşkənd festivalları keçirilirdi, əlbəttə, biz onların hamısını xatırlayırıq. İndi onların əhəmiyyətini, rolunu əsla kiçiltmək olmaz. Ona görə ki, məhz o vaxtlar, "soyuq müharibə"nin getdiyi vaxtlarda, Şərqlə Qərb arasında, xüsusən Sovet İttifaqı və Şərqi Avropa ölkələri ilə Qərb ölkələri arasında qarşıdurma olduğu vaxtlarda bu, bəlkə də xalqları bir-birinin kino sənəti ilə tanış edən, əlaqələr və şərait yaradan azsaylı vasitələrdən biri idi. Amma indi başqa zəmanədir. Kino mürəkkəb proseslər keçirir. Bu, məlumdur. Lakin heç nəyə baxmayaraq, kino öz əhəmiyyətini heç zaman itirməyəcəkdir. Ümumiyyətlə, böyük zaman kəsiyində tarixə nəzər salsaq, görərik ki, həyat heç vaxt yeknəsəq, rəvan olmayıbdır. Axı, biz cəmi iyirmi, otuz il əvvəl nələr baş verdiyini görmüşük. Ondan əvvəl nələr olduğunu isə az bilirdik. Üstəlik, gələcəkdə nələr olacağını az təsəvvür edirdik.

Hər halda sovet kinosu güclü kino idi. İndi heç kəs məni qınayıb deyə bilməz ki, mən sosializmin uğurlarını tərifləyirəm. Bəli, sovet kinosu güclü idi və nə qədər gözəl filmlər olmuşdur. Bu filmlər insanların mədəni, mənəvi yüksəlişində böyük rol oynamışdır. Burada bəzi qonaqlarımız müxtəlif vaxtlarda Bakıda, Azərbaycanda da, Moskvada da keçirilmiş görüşlərimizi xatırladılar. Açığını deyəcəyəm, bəli, bu görüşləri unutmaq çətindir. Mən onları unutmamışam və unutmuram. Mən Bakı-

da bir çox kinematoqrafiya xadimləri ilə görüşmüşəm və Moskvada Nazirlər Soveti sədrinin birinci müavini, Sov.İKP MK Siyasi Bürosunun üzvü olarkən Kinematoqrafiya Komitəsinə hamilik edirdim. Deməliyəm ki, o vaxt bu işlərlə fəal məşğul olurdum və belə güclü fəaliyyətin nəticələri ona gətirib çıxarmışdı ki, uzun illər ərzində ilk dəfə olaraq biz Sovet İttifaqı kinematoqrafçılarının geniş Ümumittifaq müşavirəsini keçirdik. Müşavirə "Oktyabr" kinoteatrının salonunda oldu və mən orada məruzə etdim.

Mən görkəmli kino rejissorları, artistləri ilə müxtəlif vaxtlarda və fərdi qaydada, xüsusən Kinematoqrafiya Komitəsində keçirilmiş çoxsaylı görüşləri xatırlayıram. Onların bəziləri artıq həyatda yoxdur. Mən onların hamısını xatırlayıram. Hər birinin öz dəstxətti, artıq indi böyük imkanları olan kinonun inkişafına böyük töhfəsi vardı. O vaxtlar yaradılmış kinofilmlər kimi filmlər çəkmək üçün lazım olan maddi-texniki şəraitə gəldikdə, vəziyyət dəyişmişdir, mürəkkəbləşmişdir. Amma bütün bunlar müvəqqəti xarakter daşıyır. Mən bu barədə danışarkən, heç bir çətinliyə baxmayaraq, bu peşəni sevən, bütün məşəqqətləri öz çiyinlərində daşıyan və yeni-yeni kinofilmlər yaradan fədakarları, kinoya sadiq qalan insanları xüsusi qeyd etmək istəyirəm.

Elə götürək bugünkü görüşü. O, çox geniş olmasa da, hər halda çox böyük əhəmiyyətə malikdir. Bir diqqət yetirin, yeni filmlər təqdim edilmişdir. Camaat onlara böyük maraqla baxacaqdır. Ona görə də sizi görməyimə şadam. Açığını deyim ki, vaxtım azdır. Bu ərəfədə elə hallarla qarşılaşmışdım ki, onlara görə mən burada olmaya bilərdim. Çünki həyəcanlanmaq üçün həqiqətən əsaslar vardı. Lakin mən buraya gəlmək və açılışda iştirak etmək, sizinlə birlikdə olmaq üçün hər şeyi dəf etdim. Bu, məndən ötrü çox maraqlıdır və yəqin tamaşaçılara və sizə də maraqlıdır ki, hətta prezident də kinonun belə həvəskarıdır ki, burada sizinlə birlikdədir. Mən sizi çay içməyə dəvət etdim, amma süfrədə şampan şərabı da görürəm. Yəqin, onlar bu işi daha yaxşı başa düşürlər. Ona görə də mən kinonun şərəfinə, bütün kinematoqrafiya xadimlərinin şərəfinə, Şərq və Qərb kinolarının bu gözəl birliyi şərəfinə, bugünkü festivalın şərəfinə və sizin gələcək uğurlarınızın şərəfinə badə qaldırıram. Sağ olun, ruhdan düşməyin, öz peşənizi heç vaxt atmayın. Öz peşəsinə sadiq olan insan heç vaxt uduzmur. Sizin sağlığınıza!

**Yuli Qusman:** Hər şey boş yerdən başlanan vaxtlarda Sizin kino ilə həqiqətən çox ciddi məşğul olduğunuz barədə danışmağa heyif ki, vaxt yoxdur. Əgər Rüstəm kitab yazsa, mən ona fotoşəkillər verərəm.

**Heydər Əliyev:** Əlbəttə, Yuli, bilirsən, xatirələr çoxdur, mən gərək ki, bir dəfə demişəm və bir daha deyəcəyəm. Mən bir məqamı heç zaman unutmayacağam. Bu əhvalat Siz Rüstəmlə film çəkən vaxtlarda olmuşdu. Mən burada Azərbaycan KP MK-nın birinci katibi idim və bizim mədəniyyət şöbəsi Sizi mənəviyyatsızlıqda təqsirləndirmişdi. Guya ki, Siz pornoqrafiyanı kinoya gətirməyə başlayırsınız. Mübahisələr gedirdi, Rüstəmdən, Maqsuddan, səndən teleqram teleqram ardınca gəlirdi, bildirirdiniz ki, Sizi burada gözümçıxdıya salırlar və sair. Mənim vaxtım yox idi. Amma siz teleqramları yağış kimi yağdırırdınız. Belə olduqda, mən sizinlə görüşməzdən əvvəl filminizə baxmağı qərara aldım. O vaxtlar yaşadığım iqamətgahda kiçik kino salonu vardı. Mən mərhum həyat yoldaşımla birlikdə filmə baxdım. Biz orada pornoqrafik bir şey görmədik. Təəccübləndim, düşündüm ki, bəlkə bizə ayrı film gətiriblər. Mən işə gəlib, sizin yaxşı xatırladığınız o adamdan soruşdum ki, burada pornoqrafiya nədən ibarətdir? O dedi, bilirsinizmi, orada bir məqamda aktrisa bədəninin bir hissəsini açır. Soruşdum ki, yalnız bir hissəsini? O dedi, bəli, bir hissəsini. Dedim, yəqin biz ifrata varırıq. Yaxşı, Rüstəmi, Qusmanı və o adamı mənim yanıma çağırın. Təsəvvür edirəm, onlar yanıma necə həyəcanla gəlmişdilər, tir-tir əsirdilər, düşünürdülər ki, onları necə bir hökm gözləyir. İçəri keçib oturdular. Mən Rüstəmdən, Yulidən soruşdum: Bu, sizin ilk filminizdir? Onlar dedilər ki, ilk, bəlkə də axırıncı filmimizdir. Amma sonra başqa vəziyyət yarandı və mən onlara dedim ki, yaxşı filmdir, orada pornoqrafik bir şey yoxdur, qoy nümayiş etdirsinlər. Beləliklə, biz filmə icazə verdik və o, böyük müvəffəqiyyət qazandı.

Əgər o adamlar, yəqin, indi onlar da haradasa oturublar, bu günü görsəydilər, hesab etmirəm ki, onlar keçmişdəki vəziyyətdə qalmış olsunlar və həmin baxışlara tərəfdar çıxsınlar. Təəssüf ki, bütün bunlar o vaxtkı quruluşumuzun, dövlətimizin mühafizəkarlığı, qüsurları idi. Bunlar yaradıcılığı boğurdu, ona mane olurdu, hökmən çoxsaylı yoxlamalardan keçmək lazım idi. Rüstəmin yadındadır, o, Eldar Quliyevlə birlikdə çəkdikləri və qadağan edilmiş “Bir Cənub şəhərində” filminə görə nə qədər yoxlamalardan keçmişdir. Mən bu filmə yol açdım.

1969-cu ildə Azərbaycanın rəhbəri seçilib, korrupsiyaya qarşı mübarizəyə başladığım dövrlərdəki siyasi fəaliyyətimə dair mövzuda çəkilmiş “İstintaq” filmini götürək. Əlbəttə, mübarizə aparmaq çətin idi. Mən həyanlıq axtarırdım. Sözdə həyanlıq vardı, amma işdə rüşvət almaqda, vəzifədən sui-istifadə etməkdə davam edirdilər və başqa hallar olurdu. Sonra bir iş oldu və Rüstəm bundan istifadə edərək “İstintaq” fil-

mini yaratdı. Gözəl filmdir. Lakin mənə yenə də deyirdilər ki, burada respublikamızı rüsvay edən şeylər var.

Bəs bu, haradan irəli gəlirdi? 1969-cu ildə mən özüm bununla qarşılaşdım. Bilirsiniz, onda vəziyyət necə idi? İdeoloji xətt belə idi: biz kapitalizm dünyasına bizim nöqsanlarımızdan danışmağa qətiyyən imkan verməməliyik. Bizdə hər şey gözəldir, hər şey yaxşıdır. Yeri gəlmişkən, mən Azərbaycan KP MK-nın birinci katibi olduqdan 30 gün sonra mərhum Leonid İliç Brejnevlə ilk söhbətimi xatırladım. O, mənə ilk dəfə zəng vurub dedi ki, sən orada nə edirsən, Azərbaycanda pis işlər baş verir? Soruşdum ki, Leonid İliç, hansı işlər? Deyir, bütün Qərb mətbuatı yazır ki, Azərbaycanda vəzifəli şəxslər rüşvət alır, korrupsiyaya qurşanıb öz vəzifələrindən sui-istifadə edirlər və sair. Bütün bünları da sənin məruzələrindən, çıxışlarından götürürlər. Cavab verib dedim ki, doğrudur, axı, Siz məni buraya təyin edəndə dedim ki, mən bu vəzifəyə getmək istəmirəm, dedim ki, bu, çətin işdir. Siz mənə dediniz ki, Azərbaycanda qayda-qanun yaradın. Mən də qayda-qanun yaradıram, nə məsələdir?

Bu, çox uzun söhbətdir. Mən ona izah etdim və o, məni başa düşdü. Amma psixologiya belədir ki, bütün bunları Qərbdə bilməməlidirlər. Guya nə qədər çox bilsələr, məhz bunun əsasında, bizim materialımız əsasında sosializm cəmiyyətinin, sosializm quruluşunun nöqsanlarını irad tutacaqlar. Bu film barəsində həmkarlarımın hamısında təxminən belə fikir vardı. Yəni bu film, – o vaxtlar xaricə az film gedirdi, – bütün Sovet İttifaqında, bütün respublikalarda göstəriləcəkdir. Deyəcəklər ki, baxın, Azərbaycanda rüşvətxor, bu cür korrupsiya, filan-filan şeylər var. Biz gedib baxdıq, Rüstəmin yadındadır, qızğın müzakirələr getdi. Mən hamını dinlədim. Zənnimcə, bu, 1978-ci ildə olmuşdu. Soruşdum ki, mən 8 ildən çoxdur burada nə ilə məşğulam? Deyirlər ki, mübarizə aparırsan və sair. Bunu hamı bilir? Əgər real surətdə nə ilə məşğul olduğumuzu kino vasitəsilə bilsələr, bu, bizim xeyrimizədir, yoxsa zərərimizə? Nə isə, mən onları inandırmağa çalışmadım. Dedim, filmi buraxın, qoy göstərsinlər. Yeri gəlmişkən, bu film də böyük müvəffəqiyyət qazandı, Dövlət mükafatına layiq görüldü. İndi mən hesab edirəm ki, bu, o dövrün ən yaxşı filmlərindən biridir. Görürsünüzmü, nə qədər xatirələr var.

Sizi bir daha təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram. Azərbaycana tez-tez gəlin. Çətinliklərə baxmayaraq, Azərbaycanda həyat yaxşılaşır. Şəhər gözəlləşir, xalq getdikcə daha yaxşı yaşayır, gələcəkdə daha yaxşı yaşayacaqdır.

Əhsən, Yuli, bu gün sən Səməd Vurğunun Azərbaycan haqqında şeirini oxudun.

**Yuli Qusman:** Cənab prezident, bu gün mən o şeirdə sözlərin yerini dəyişdim. Çox gözəl şeirdir.

**Heydər Əliyev:** Sən bu şeiri indi əzbərləmisən, yoxsa yadında idi?

**Yuli Qusman:** Xeyr, mən onu 7-ci sinifdə öyrənmişəm.

Görüşün sonunda prezident Heydər Əliyev Səməd Vurğunun "Azərbaycan" şeirinin ilk sətirlərini ana dilində söylədi:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam məskənimsən,
Anam, doğma vətənimsən!
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!

Sonra "Şərq-Qərb" Fransa–Rusiya filmi göstərildi.

* * *

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV "BAKILI OĞLANLAR" KOMANDASININ ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR

*Prezident sarayı*
*30 dekabr 2000-ci il*

Azərbaycan Prezidenti Heydər Əliyev 2000-ci il dekabrın 30-da Prezident sarayında "Bakılı oğlanlar" komandasının üzvlərini qəbul etdi.

Prezident Heydər Əliyev XX əsrin çempionu adına layiq görülmüş komandanın üzvlərinə müraciətlə dedi:

– Hörmətli gənclər, mən birinci növbədə sizin hamınızı qarşıdan gələn yeni il və minillik münasibətilə təbrik edirəm. Hamınıza cansağlığı və yaradıcılıq işlərinizdə uğurlar arzulayıram. Mənim bu günüm uşaqlara həsr olunubdur. Bu gün mən Respublika sarayında uşaqlarla görüşdüm. Son 4-5 ildə yeni il ərəfəsində belə görüşlər keçirmək artıq ənənəyə çevrilibdir. Mən uşaq evlərində tərbiyə alan valideynsiz uşaqlarla görüşürəm. Bu görüşlər çox maraqlı olur. Televiziya ilə də birbaşa göstərilmişdir. Bu görüşlər həm ictimaiyyət üçün, həm də mənim üçün, təbiidir ki, həm də uşaqlar üçün çox maraqlı olur. Mən onların qarşısında çıxış edəndən sonra uşaqlar çox sevinirlər. Hamısı mənə yaxınlaşmaq istəyir, bu da təbiidir.

İndi isə onlardan yaşca böyük olan nəslin nümayəndələrilə – siz gənclərlə görüşürəm. Sizinlə bu görüşümün məqsədi məlumdur. Mən sizi səhnədə həmişə görürəm. Siz özünüz də bilirsiniz, mən xatırlayıram ki, sizin burada – Azərbaycanda tamaşalarınızın hamısına gəlmişəm və çox böyük həvəslə sizi dinləmişəm, tamaşalarınıza baxmışam. Amma bu gün ilk dəfədir ki, sizinlə bu şəraitdə, səhnədə yox, Prezident sarayında görüşürəm. Bunun da səbəbi ondan ibarətdir ki, siz öz yaradıcı fəaliyyətinizlə, bayram əhval-ruhiyyəsi ilə göstərdiyiniz tamaşalarla böyük nailiyyətlər əldə etmisiniz. Mən bunları bilirəm, amma siz də öz kollektiviniz haqqında, son yarışlarınız, qələbəniz, aldığınız kubok barədə müəyyən məlumatlar verməlisiniz.

Onu deyə bilərəm ki, ümumiyyətlə, Azərbaycan ictimaiyyəti sizin yaradıcılıq fəaliyyətinizi, xüsusən son qələbənizi çox böyük həvəslə, ruh

yüksəkliyi ilə qarşılamışdır. Aeroportda siz bu kubokla göründükdə, axşam olmasına baxmayaraq, oraya çoxlu adam toplaşmışdı.

Bu il gənclərimizin həyatında ən böyük hadisə, təbiidir ki, Azərbaycan idmançılarının Sidneydə keçirilmiş yay olimpiya oyunlarında iştirakı və əldə etdikləri yüksək, bizim xalqımız və millətimiz üçün tarixi əhəmiyyət daşıyan qələbə idi. Bundan sonra isə sizin qələbənizdir. Doğrudur, bəlkə də bunları müqayisə etmək düzgün olmazdı. Çünki idmançılarımız dünya miqyasında, beynəlxalq yarışlarda, 200-ə qədər dövlətin iştirak etdiyi yarışlarda qələbə əldə etdilər. Siz isə keçmiş SSRİ, Müstəqil Dövlətlər Birliyi məkanında böyük qələbə əldə etmisiniz. Bu qələbə də, təbiidir ki, çox qiymətlidir. Çünki indi keçmiş SSRİ-yə məxsus olan respublikalar müstəqillik əldə edəndən sonra onların hər birində müxtəlif proseslər gedir. SSRİ vaxtında bəzi respublikalarda şən və hazırcavablar klublarını bir dəfə qadağan etdilər.

Ondan sonra isə Müstəqil Dövlətlər Birliyinə daxil olan bir neçə ölkədə bu yarış bərpa olundu. Bir qismində isə keçirilmədi. Amma buna baxmayaraq, şən və hazırcavablar klublarının fəaliyyət göstərdikləri ölkələr arasında sizin əldə etdiyiniz nailiyyət, təbiidir ki, çox yüksək qiymətə layiqdir. Mən bu münasibətlə sizi təbrik edirəm və sizə yeni-yeni uğurlar arzu edirəm.

Son illər sizin yaradıcılıq fəaliyyətinizin ikinci bir tərəfi də meydana çıxıbdır. Bilmirəm bu, başqa ölkələrdə də var, ya yox. Siz indi şən və hazırcavablar klubunun iştirakçıları olmaqla yanaşı, eyni zamanda "Bakılı oğlanlar" adı ilə yeni bir janra keçmisiniz. Bu da çox əhəmiyyətlidir. Mən hesab edirəm ki, bu sahədə Azərbaycanda əldə etdiyiniz yaradıcılıq nailiyyətləri əvvəlki sahədən, paralel apardığınız işlərdən heç də geri qalmır. Əksinə, çox yüksək qiymətləndirilir. Çünki sizin bütöv şəkildə hazırladığınız, ölkəmizin vətəndaşlarına təqdim etdiyiniz tamaşalar satira və yumor xarakteri daşıyır və bu da sizin eyni zamanda cəmiyyətdə olan nöqsanlara qarşı gedən mübarizədə xidmətlər göstərməyinizi təsdiq edir. Bəlkə də kimsə sizin tamaşalarda, sadəcə, gülməli epizodlara baxır, gülür və istirahət edir. Amma mən hesab edirəm ki, sizin tamaşalarınızın hər birinin özünəməxsus qiyməti var və yumor, satira janrı kimi, yenə də deyirəm, cəmiyyətimizdə olan nöqsanların aradan qaldırılmasına xidmət edir. Ona görə də siz indi, demək olar ki, çoxşaxəli bir yaradıcılıq mərhələsinə gəlib çatmısınız. Bunlara görə də Azərbaycanda hörmət qazanmısınız. Ancaq təbiidir ki, bizim bütün vətəndaşlarımızı, cəmiyyətimizi sevindirən son yarışlarda sizin əldə etdiyiniz qələbədir. Bu qələbə nəticəsin-

də Azərbaycana gətirdiyiniz bu gözəl kubokdur. İndi isə mən sizi dinləmək istəyirəm.

**Anar Məmmədxanov** /"Bakılı oğlanlar" komandasının kapitanı, Milli Məclisin deputatı/: Cənab Prezident, bizi qəbul etdiyinizə görə, icazə verin, birinci növbədə komandamız adından Sizə təşəkkürümüzü bildirək. Qarşıdan bir neçə bayram gəlir. Dünya Azərbaycanlılarının Həmrəyliyi günü, Yeni il və Yeni əsr münasibətilə Sizi təbrik edirik, Sizə cansağlığı və xoşbəxtlik arzulayırıq.

Siz tamamilə düz buyurdunuz ki, komandamızın aldığı mükafat çox əhəmiyyətli bir kubokdur. Çünki bu turnir XX əsrin çempionunu müəyyən edən yarış idi. 15 il ərzində keçmiş SSRİ məkanında nə qədər çempion olubsa, onların hamısı bu turnirdə iştirak edirdi. Orada iki-üç dəfə çempion olan komandalar da vardı. Mən Sizə deyim ki, Tacikistan müstəsna olmaqla, MDB məkanında, hətta Baltikyanı ölkələrin hər yerində şən və hazırcavablar klubları vardır.

**Heydər Əliyev**: Orta Asiyanın digər respublikalarında varmı?

**Anar Məmmədxanov**: Bəli. Qazaxıstanda, Qırğızıstanda, Özbəkistanda şən və hazırcavablar klubları vardır. Orta Asiya respublikalarından bir də, deyəsən, Türkmənistanda şən və hazırcavablar klubu yoxdur.

Sizə deyim ki, ABŞ-da bəzi ştatlar arasında çempionatlar keçirilir. Onlardan biz bir neçə təbrik məktubu almışıq.

İsraildə, Almaniyada, Avstraliyada da belə yarışlar keçirilir. Bu yaxınlarda Londondan azərbaycanlılar bizə təbrik məktubu göndərmişlər və bizi oraya dəvət edirlər. Təəccüb etdik ki, görəsən, Londonda da şən və hazırcavablar klubu varmı? Təbiidir ki, bu, keçmiş SSRİ məkanında keçirilən yarışdır. Bu yarış 60-cı illərdən başlanmışdır və Qusmanın başçılıq etdiyi Azərbaycan komandası 70-ci illərdə çempionlar çempionu olmuşdur.

Biz bu kubokla yanaşı, bir medal da almışıq. Medalın üzərində bu sözlər yazılıb: "Şən və Hazırcavablar komandaları arasında XX əsrin çempionu".

Cənab Prezident, bu klub 70-ci illərdə Siz respublikamızın rəhbəri olarkən yaranıbdır. Siz indi də Azərbaycanın rəhbərisiniz və "Bakılı oğlanlar" komandası yenə də çempiondur. Biz bu medalı Sizə təqdim etmək istəyirik.

**Heydər Əliyev**: Mənə niyə verirsiniz? Sizin varınızdırmı?

**Anar Məmmədxanov**: Bəli, varımızdır. Bizə bu medaldan bir dəst verilibdir.

**Heydər Əliyev**: Deməli, bunu mənə gətirmisiniz. Mən də bu yarışın iştirakçısıyam?

**Anar Məmmədxanov:** Biz bu hədiyyəni də Sizə təqdim etmək istəyirik. Burada kiçik ölçülü xalçanın üzərində "Bakılı oğlanlar" klubunun rəmzləri təsvir olunmuşdur.

Cənab Prezident, bu yarış çox mürəkkəbdir. Baxmayaraq ki, yarış iştirakçıları arasında çempionlar da vardı, o cümlədən Cənubi Qafqazdakı qonşularımız, yəni ermənilər iştirak edirdilər. Biz qalib gəldik.

**Heydər Əliyev**: Gürcülər də iştirak edirdilər?

**Anar Məmmədxanov**: Cənab Prezident, gürcülər həmin yarışda iştirak etmirdilər. Onlarda şən və hazırcavablar klubu vardır, lakin bir o qədər güclü deyil və onlar bu yarışda iştirak etmirdilər. Ən güclü komandalar Dağıstanın və Ermənistanın komandalarıdır. Onların hər biri iki dəfə çempion olubdur. Novosibirsk Akademiya Şəhərciyinin, Xarkov şəhərinin komandaları güclüdür və iki dəfə çempion olublar. Odessa komandası çox məşhurdur, Minsk şəhərinin komandası da güclüdür. Ukrayna, Rusiyanın birgə komandası, – bu komandanı faktiki olaraq MDB-nin yığma komandası adlandırırlar,– həmin yarışlarda iştirak edirdilər.

Biz 1992-ci ildə Ermənistan komandası ilə finala çıxmışdıq. Həmin oyunun nəticələrini ləğv etdilər. Dedilər ki, yarış olmayacaq. Hər iki komandaya çempion adı verdilər.

1993-cü ildə bizə çempion adı veriləndə peşəkar münsiflər heyətinin rəyi ilə biz çempion adını qazanmışıq. Münsiflər heyətinin tərkibində olan Moskva hökumətinin nümayəndələri, nədənsə, qələbəni Novosibirsk şəhərinin komandasına verdilər. 1995-ci ildə Odessa şəhərinin komandası ilə biz super kubok uğrunda yarışmışıq. Siz özünüz də ona tamaşa etmisiniz. Ondan sonra biz qərara gəldik ki, Bakıda çıxış edək. Yəni MDB miqyasında keçirilən yarışlardan imtina etmək qərarına gəlmişdik. Amma iş belə gətirdi ki, Maslyakov bizə zəng edərək dedi ki, çempionlar çempionu turniri keçiriləcəkdir. Biz məsləhətləşdik və qərara aldıq ki, həmin yarışda iştirak edək. İlk yarışımız Odessa şəhərinin komandası ilə oldu. Orada yarışın nəticələrinin qiymətləndirilməsi səsvermə yolu ilə müəyyən edilmir. Qiymətləndirmədə bilavasitə zalda əyləşənlər iştirak edirlər. Bundan başqa, bilavasitə zəng edib yarış iştirakçılarının nəticələrini qiymətləndirmədə iştirak edənlər var idi. Odessa şəhərinin komandası ilə yarışda biz 91 faiz səs topladıq. Sonuncu oyun çox mürəkkəb idi. Dağıstan Dövlət Şurasının sədri Məhəmmədəli Məhəmmədov zalda birinci cərgədə əyləşmişdi.

Onların Milli Məclisinin sədri, Baş naziri də orada idilər. Ermənilərin bütün diasporu da zalda idi.

Biz gördük ki, bu, çox mürəkkəb və məsuliyyətli oyun olacaqdır. Çünki qalib komanda XX əsrin çempionu adını qazanacaqdır. Belə alındı ki, biz qalib gəldik.

Ermənistan mətbuatında yazırlar ki, guya biz bu qələbəni hansı yollarlasa almışıq. Amma deyə bilərəm ki, Vladivostokdan Nyu–Yorka qədər yüz min nəfər zəng edərək yarışın nəticələrini qiymətləndirmişdir. Mən bilmirəm, yüz min nəfərin rəyini təsir göstərməklə necə almaq olar. Ermənilər bunu da etiraf etmək istəmirlər.

Onu da deyim ki, yarışa baxan tamaşaçılara rəy bildirmək üçün talonlar verilir. Ermənilər özləri həmin talonları azərbaycanlı tamaşaçılara verərək deyirdilər ki, biz "Bakılı oğlanlar" komandasına səs verməyə çəkinirik, qorxuruq ki, bəzi adamlar bizi məzəmmət edərlər. Bizim əvəzimizə siz onlara səs verin.

Cənab Prezident, biz çox sevinirik ki, bu kuboku Azərbaycana gətirə bilmişik. Çox xoşbəxtik ki, biz qonşularımıza, – onlar həmişə deyirdilər ki, mədəniyyətləri, intellektual səviyyələri yüksəkdir, – qalib gəldik. Şən və hazırcavablar klublarının yarışı elə bir oyundur ki, orada hər cür yumor, intellektual potensial, rəqs və sair nümayiş etdirilir. Hollivudda ermənilərin çox məşhur bir balabançısı var. Los–Ancelesdən onu Moskvaya gətirmişdilər ki, orada erməni xalq mahnılarını ifa etsin.

**Heydər Əliyev**: Dağlıq Qarabağda da bir erməni zurnaçı var idi. Bakıda bayramlara həsr olunmuş konsertlərdə çıxış etmişdi.

**Anar Məmmədxanov:** Ermənilər doğrudan da çox məyus idilər. Biz qələbəmizə çox sevindik.

Xarkov komandası çox güclü idi. Bu komanda həmişə çox güclü olubdur. Həmin komanda 1996-cı ildə onilliyin ən yaxşı komandası adını almışdı. Odessa komandası da çox məşhurdur. Bu komanda "NTV"-də, "ORT"-də müxtəlif verilişlərdə iştirak edibdir.

Ümumiyyətlə, indi şən və hazırcavablar klubları çox məşhurdur. Rusiya Kommunist Partiyasının sədri Gennadi Zyuqanov bu yaxınlarda verdiyi müsahibədə bildirmişdir ki, "Mən 60-cı illərdə şən və hazırcavablar klubunun kapitanı olmuşam". Rusiya Federasiyasının keçmiş Baş naziri Kiriyenko da deyir ki, şən və hazırcavablar klubuna başçılıq etmişdir.

Şən və hazırcavablar klubları Rusiyada çox məşhurdur. Rusiya televiziyası kanallarının göstərdiyi verilişlərin 75 faizini keçmiş şən və hazırcavablar klublarının üzvləri aparırlar. Rusiyanın "Yedinstvo" bloku-

nu hakimiyyətə gətirənlərin hamısı bizimlə yarışan şən və hazırcavablar klublarının üzvləridir. Rusiyanın mətbuat naziri Lesin də Moskva institutlarından birinin şən və hazırcavablar klubunda iştirak etmişdir. Baltikyanı ölkələrdə şən və hazırcavablar klubları heç vaxt Rusiyada keçirilən belə yarışlarda iştirak etmir. Baltikyanı ölkələrdə şən və hazırcavablar liqası vardır. Belə klublar orada da çox inkişaf edibdir və orada xüsusi beynəlxalq festival keçirilmişdir. Yəni şən və hazırcavablar klubları beynəlxalq miqyasda çox inkişaf edir. ABŞ-da çoxlu komandalar vardır. Onlar da Rusiyaya gəlirlər. İsrailin də komandaları çoxdur. Əslində, bu, onların oyunudur və getdikcə orada komandaların sayı artacaqdır. İngiltərədə, Almaniyada çoxlu şən və hazırcavablar klubları vardır. Biz fəxr edirik ki, Azərbaycanda da komandalar çoxdur. Mən xüsusi vurğulamaq istəyirəm ki, həmin komandalar Azərbaycan dilində çıxış edirlər. Bu komandalar təkcə Bakıda yox, Gəncədə, Lənkəranda da vardır.

Yadımdadır, 1994-cü ildə məni şən və hazırcavablar klubunun talış dilində çıxışına tamaşa etməyə şəxsən çağırdılar. Zarafat etmirəm. Mən dedim ki, talış dilini bilmirəm, amma sizi salamlayıram. Əli Bayramlıda, Mingəçevirdə, Masallıda və başqa şəhərlərdə şən və hazırcavablar klublarının komandaları vardır. Təkcə Gəncə şəhərində 15 belə komanda fəaliyyət göstərir. Bakıda elə bir məktəb və institut yoxdur ki, orada şən və hazırcavablar komandası olmasın. Biz bununla fəxr edirik.

Biz sevinirik ki, Azərbaycan dilində çıxış edən şən və hazırcavablar klubları belə inkişaf edibdir. Biz altı ildir ki, bu klublar arasında festivallar keçiririk. Bu festivallarda 140-a qədər komanda iştirak edibdir. Eyni zamanda biz həmişə deyirik ki, şən və hazırcavablar klubları incəsənətin elə bir növüdür ki, əgər cəmiyyətdə sabitlik olmasa, bu klublar inkişaf edə bilməz.

Biz 1992-1993-cü illərdə çempion olmuşuq. O vaxt biz Bakıda konsert verə bilmirdik. Çünki o vaxt sabitlik yox idi.

Cənab Prezident, biz Sizə təşəkkür edirik ki, Siz bu şəraiti yaratmısınız, gənclər şən və hazırcavablar klubunda iştirak edirlər, pis işlərlə məşğul olmurlar. Bu, Sizin Azərbaycan xalqı üçün yaratdığınız şəraitin nəticəsidir. Ona görə də Sizə təşəkkürümüzü bildiririk.

Mən bir şəxsin də xidmətini xüsusi qeyd etmək istəyirəm. Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevi nəzərdə tuturam. Əlbəttə, şən və hazırcavablar klublarının inkişafında onun xüsusi xidmətləri vardır.

1995-ci ildə, biz sözün əsil mənasında yüksək zirvəyə çatanda bilmirdik ki, necə edək, haraya gedək, işimizi necə davam etdirək. Biz ko-

mandanı dağıtmaq istəyirdik. İlham Əliyev bunun qarşısını aldı. O dedi ki, konsertlər vermək lazımdır. Komanda ölkəmizin informasiya blokadasından çıxarılmasında iştirak etməlidir. Mən İlhamın rolunu xüsusi vurğulamaq istəyirəm. O, doğrudan da bizə, təkcə bizim komandamıza yox, bu hərəkata – şən və hazırcavablar klublarına böyük dəstək verdi. Biz ona öz təşəkkürümüzü bildiririk.

**Murad Dadaşov**: Cənab Prezident, dekabrın 21-də Moskvada təltifetmə mərasimi oldu və biz həmin mərasimdə iştirak etdik. Ermənistan komandasının üzvləri salonda oturmuşdular. Sifətlərindən görünürdü ki, çox ağır hisslər keçirirlər. Bütün bunları biz görürdük. Biz böyük sevinc içində idik. Çünki kubokla, medallarla səhnədə idik, onlar isə məğlub olmuş halda zalda idilər.

**Elçin Əzizov**: Cənab Prezident, deyəsən, sabah, Allah qoysa, bu məqamları televiziyada göstərəcəklər.

**Heydər Əliyev**: Nəyi, təqdimetmə mərasimini?

**Elçin Əzizov**: Bəli, təqdimetmə mərasimini.

**Anar Məmmədxanov**: Rusiyanın "ORT" proqramı göstərəcəkdir. 8-10 dəqiqə veriliş həmin yarışın yekunlarına həsr olunur. Yarışların aparıcısı "Bakılı oğlanlar" komandasının qalib gəldiyini bildirir. Biz Azərbaycan televiziyasının rəhbərliyindən xahiş etmişik ki, "ORT"də göstəriləcək həmin verilişi Azərbaycan tamaşaçılarına çatdırsınlar.

Biz qeyd etmək istəyirik ki, doğrudan da yarış noyabrın 11-də başlanmışdı. Biz çalışmışıq ki, çıxışlarımızda həm də muğamatımız səslənsin. Komandamızın üzvü Bilal Əliyev, gözəl xanəndələrimiz Gülyaz və Gülyanaq bacıları da komandamızla birlikdə olublar.

Əlbəttə, Rəşad Həşimov, "Rast" qrupunun rəhbəri, "Yaşa Prezidentim, yaşa!" mahnısının bəstəkarı var, o bizim musiqi rəhbərimiz idi, musiqi tərtibatını o vermişdi. O deyirdi ki, siz musiqidə qeyri-peşəkarsınız. Eyni zamanda komandamızda "Abşeron" adlı çox gözəl bir uşaq qrupu var. Biz onları da Moskvaya aparmışdıq. Tam hazır vəziyyətdə getmişdik. Çox şadıq və xoşbəxtik ki, XX əsrin çempionu olduq.

Cənab Prezident, çox təəssüflər olsun ki, komanda növləri inkişaf etmir. İdmanda da belədir. Güləşçilər, cüdoçular, tennisçilər, gülləatanlar yaxşıdır. Amma idmanın komanda növləri inkişaf etmir. Son zamanlar biz bunun şahidiyik ki, futbol, voleybol inkişaf etmir. Bizim hamımız istedadlıyıq. Ona görə də həmişə şəxsi yarışlarda iştirak edirik.

Bizim üçün fərəhli bir haldır ki, şən və hazırcavablar klubumuz komanda kimi çempion oldu.

**Timur Vaynşteyn**: Cənab Prezident, biz Moskvaya gedəndə mən dedim ki, biz uduzmayacağıq. Başqa cür ola da bilməzdi.

Bu gün bizi qəbul etdiyinizə görə çox sağ olun. Bizim komandamız bu turnirdə qalib gəldi. Bu, bizim evimizdə ikinci medal olacaqdır. Mənim atam da 70-ci illərdə çempion olmuşdur. İndi aldığım medal isə 2000-ci ilin, XX əsrin çempionunun medalıdır. Moskvada hamı bilir ki, Azərbaycanın komandası çempionlar çempionudur, güclüdür. "Moskovski komsomolets" qəzetində Anar Məmmədxanova kubokun təqdim olunmasını əks etdirən fotoşəkil verilmişdir. Üç gün bundan əvvəl mən Moskvadan Bakıya gələrkən təsadüfən Ermənistan komandasının kapitanı ilə rastlaşdım. O mənə diqqətlə baxdı və dedi ki, təbrik edirəm. Siz sübut etdiniz ki, hamıdan güclüsünüz. Ona görə də demək istəyirəm ki, bizim uduzmağa haqqımız yox idi. İnanıram ki, bundan sonra da heç vaxt uduzmayacağıq.

Keçən ilin aprel ayında biz Azərbaycan Prezidentinə söz vermişdik ki, qalib gələcəyik.

**Anar Məmmədxanov**: Mən komandanın üzvlərinə demişdim ki, siz Prezidentə söz vermişdiniz ki, qalib gələcəyik. Cənab Prezident, çox şadıq ki, verdiyimiz sözə əməl etdik.

**Elçin Əzizov**: Final yarışı başlanmazdan əvvəl biz geyinib-soyunma otağında toplaşaraq Azərbaycan himnini səsləndirdik və bu himnin sədaları altında səhnəyə çıxdıq. Biz başa düşürdük ki, uduzmayacağıq.

Azərbaycanın şən və hazırcavablar komandası 1992-ci ildən etibarən heç vaxt uduzmayıbdır. Həmişə də özümüzə deyirdik ki, biz uduzmamalıyıq və uduzmayacağıq. Özümüzə olan inamımız qələbəmizi təmin etmişdir.

Sonuncu oyuna biz yaxşı hazırlaşmışdıq.

**Anar Məmmədxanov**: Bu ilin iyun ayında biz Qusarda olduq. Bir ay orada – Qarabulaqda məşq etdik, yarışa hazırlaşdıq.

Biz bilirdik ki, rəqiblərimiz Eçmiədzinə gediblər, orada and içiblər, nəzir veriblər. Biz bunun hamısını bilirdik. Təkcə Ermənistanın yox, digər MDB ölkələrinin də komandaları güclü idi. Dağıstanın komandası güclü olmasına baxmayaraq, uduzdu.

**Tahir İmanov**: Cənab Prezident, Moskvada şən və hazırcavablar klublarının yarışı çox ciddi keçdi. Yarış ərəfəsində biz yığışaraq bir-birimizə söz verdik ki, uduzsaq, geri qayıtmayacağıq. Doğrudan da hamı bir nəfər kimi qələbə naminə əlindən gələni etdi.

**Heydər Əliyev**: Deməl, qələbəsiz qayıtmaq istəmirdiniz.
**Anar Məmmədxanov**: Bəli.
**Heydər Əliyev**: Çox gözəl. Danışıqlarınızdan bir daha hiss etdim ki, hazırlıq dövründə və yarışda siz həqiqətən nə qədər gərgin iş görmüsünüz. Adlarını çəkdiyiniz komandalar həqiqətən güclü komandalardılar. Onların da çoxillik təcrübəsi vardır. Bu komandaların hərəsinin öz tarixi var. Yəni onlar da qələbələr əldə ediblər. Əgər siz bunların hamısına qalib gəlmisinizsə, demək, bir tərəfdən, siz doğrudan da güclüsünüz, ikinci tərəfdən də, yaxşı hazırlaşmısınız, yəni bu işə məsuliyyətlə yanaşmısınız. Bəzən çox güclü adam hansısa bir yarışda ancaq öz gücünə arxayın olaraq gücsüzə uduzur. Çünki arxayınçılıq hissi onu çaşdırır. Amma siz biliyinizlə qalib gəlmisiniz. Əlbəttə ki, bu oyun birinci növbədə zəka oyunudur. Bu, boks, güləş, yaxud da başqa bir idman növü deyil ki, orada güclə, yaxud da başqa hərəkətlə qalib gələsən. Bu, zəka oyunudur. Bu da təbiidir ki, birinci növbədə gərək baş yaxşı işləsin.

Sizin komandanız elə komandadır ki, orada yaxşı zəkalı gənc oğlanlar toplanıb və bu ənənə də Azərbaycanda çoxdandır ki, davam edir. Ancaq sizin qələbənizin əsas şərti ondan ibarətdir ki, – mən sizi anladım, – siz bu işə çox məsuliyyətlə yanaşmısınız, hazırlaşmısınız və qalib gəlmisiniz.

Təbiidir ki, bütün komandalara qalib gəlmək, ümumiyyətlə, qələbə qazanmaq arzusu sizi bu nəticəyə gətirib çıxarmışdır. Amma güman edirəm ki, bu arzuların içərisində məhz Ermənistanın komandasına qalib gəlmək hissi sizdə daha da böyük güc, bu işə böyük səy yaradıbdır. Ola bilər ki, əgər Ermənistanın komandası olmasaydı, siz bu qədər çalışmazdınız. Sizin qarşınızda bu məsələ durubdur ki, mütləq onlara qalib gələsiniz.

Bilirəm, sizin danışığınızdan, sözünüzdən belə anladım ki, əgər Dağıstan komandası güclü komandadırsa və Dağıstanın bütün hökuməti gəlib orada oturubsa, yaxud da ki, Moskvada çox güclü erməni diasporu var və onların da çoxu tanınmış adamlardır, onlar gəlib orada oturublarsa, – sizin isə, mən belə başa düşdüm ki, bu cür dayağınız olmayıbdır, olubsa da, çox az olubdur, bu, bir daha sizin qələbənizin nə qədər əhəmiyyətli olduğunu göstərir. Demək, iş onda deyil ki, sənin nə qədər hörmətli, yaxud da ki, tanınmış azarkeşin olsun. İş ondadır ki, sənin özün öz gücündən istifadə edə biləsən, öz ağlını, zəkanı nümayiş etdirə biləsən və qalib gələsən.

Bütün bunlar bir daha sizin bu qələbənizin xüsusi əhəmiyyətə malik olduğunu göstərir və buna görə də mən sizi bir daha təbrik edirəm.

Ancaq mənim üçün çox sevindirici bir haldır ki, – bunu mən bilirdim, amma bu qədər də yox, – Azərbaycanın müxtəlif bölgələrində, rayonlarında, şəhərlərində bu oyuna böyük həvəs yaranıbdır. Bu, bizim müstəqil Azərbaycan üçün çox əhəmiyyətlidir. Həqiqət ondan ibarətdir ki, biz bu oyunu keçmişdə SSRİ-də yalnız rus dilində aparırdıq. Rus dilini bilməyən gənc nə qədər ağıllı, zəkalı olsaydı da, bu oyunda uğurla çıxış edə bilməzdi. Ancaq əgər indi oyun Azərbaycan dilində gedirsə və bizim müxtəlif şəhərlərimizdə, rayonlarımızda azərbaycanlılar sırf Azərbaycan dilində bu oyunları aparmağa çalışırlarsa və komandalar yaradıblarsa, bu, çox yaxşı haldır. Buna görə də mənim sizə tövsiyəm və xahişim ondan ibarətdir ki, onlara himayəçilik edəsiniz, kömək göstərəsiniz.

Çünki siz bilirsiniz, bizim gənclərə olan qayğımızla onu təmin etmək istəyirik ki, onların hər biri istedadı sayəsində özünü göstərə bilsin. Gənc insan özünü nə qədər göstərə bilirsə, təbiidir ki, onun üçün müvafiq olan sahədə o qədər də tez inkişaf edir, cəmiyyətdə öz yerini tutur. Ona görə də gənclərlə iş sahəsində bu amilin çox böyük əhəmiyyəti vardır. Hesab edirəm ki, şən və hazırcavablar klubunun ağsaqqalı kimi siz bəlkə bu təşkilatçılıq işini əlinizə alasınız, – yəni hər şəhərdə, rayonda olan komandalar elə özləri öz içərisində nə mümkündür edirlər, bu yolla gedirlər,– onlara kömək etsəniz, məsləhət versəniz, yəni onlar sizin qayğınızı hiss etsələr, məsləhətlərinizə baxsalar, öz yaradıcılıqlarını daha uğurla göstərə bilərlər. Ona görə də mən sizdən xahiş edirəm. Mən istəməzdim ki, Prezident bu barədə qərar çıxarsın və yaxud da ki, fərman versin. Ancaq bizim aparatda da düşünmək lazımdır, nə edək ki, müxtəlif şəhərlərimizdə, rayonlarımızda gənclərin bu oyuna həvəsini daha da artıraq.

**Anar Məmmədxanov**: Cənab Prezident, Tatarıstanda şən və hazırcavablar klubları ilə bağlı xüsusi dövlət proqramı qəbul edilibdir. Büdcədə də bu məsələ ayrıca bənd kimi ifadə olunmuşdur. Mən bu yaxınlarda bunu öyrənmişəm. Tatarıstanın Prezidenti Mintimer Şaymiyev dövlət proqramı qəbul edibdir.

Cənab Prezident, amma Siz ilk Prezidentsiniz ki, şən və hazırcavablar klubunun tamaşalarında iştirak etmisiniz. Sizdən sonra, yəni 1996-cı ildə Yeltsin şən və hazırcavablar klubunun tamaşasında iştirak etmişdi. 2000-ci ildə isə Putin bu komandaların yarışında iştirak edibdir.

**Heydər Əliyev**: Mən bilirəm Yeltsin nə üçün gəlmişdi. Seçkiqabağı kampaniya olduğu üçün o, həmin yarışda iştirak edirdi.

Mənim iştirakım isə həmin oyunlara bizim münasibətimizi göstərir. Ancaq mən yenə də əsas mövzuya qayıdıram. Anar deyir ki, Tatarıstan-

da dövlət proqramı qəbul edilibdir. Biz də hansısa bir tədbir görə bilərik. Bizim Gənclər və İdman Nazirliyini bu işə ciddi qoşa bilərik. Onların vasitəsilə bu məsələyə dövlət yardımını təmin edə bilərik. Çünki, yenə də deyirəm, hər bir belə oyun gənc insanı pis əməllərdən uzaqlaşdırır. Məsələn, bədən tərbiyəsi, idman keçmişdə də olubdur, indi də var. Mən nə üçün indi bu barədə çox çalışıram. Çünki idmanla, bədən tərbiyəsi ilə məşğul olan gənc pis yola getməyəcəkdir. Şəraba, arağa, siqaret çəkməyə aludə olmayacaqdır. Yaxud da gedib narkotiklərə aludə olmayacaqdır.

Qərb ölkələrində soruşurlar ki, hər hansı bir şəxs narkotik çəkib ya çəkməyib. Kimsə deyir ki, yox, bunu iyləmişəm və sair. Bu, mənim üçün təəccüblü görünür. Çünki bizim gəncliyimiz dövründə bunlar çox nadir hadisələr idi. Mənim yadımdadır, ilk dəfə Bakıya gəlib Sənaye İnstitutuna daxil olanda deyirdilər ki, şəhərin bəzi küçələrində cavan oğlanlar anaşa çəkirlər. Heç bilmirdim ki, anaşa nədir. Sonra dedilər ki, papirosun tütününü çıxardırlar, onun içərisinə anaşa doldururlar, çəkib bihuş olurlar. Belə hallar çox azlıq təşkil edirdi. Ancaq indi bu, dünya problemi olubdur.

**Anar Məmmədxanov**: Təəssüflər olsun ki, burada da vardır.

**Heydər Əliyev**: Bəli. Təəssüflər olsun ki, burada da vardır.

Mən bir neçə il bundan əvvəl bu barədə narahat deyildim. Hətta, yadımdadır, Moskvada işlədiyim son illər – 1985, 1986, 1987-ci illərdə SSRİ hökumətində bu məsələ müzakirə ediləndə, mən təəccüblənirdim, deyirdim ki, biz niyə, nə üçün bu məsələni müzakirə edirik? Yəni bu, o qədər təhlükəlidir? Deməli, o vaxt SSRİ-nin müəyyən regionlarında geniş yayılmışdı və bu təhlükə hiss olunurdu. Amma 1993-cü ildə Azərbaycana gələndə mən heç düşünmürdüm ki, burada bu inkişaf edə, yayıla bilər. Amma təəssüf ki, indi biz bunu görürük.

Amma təkcə bu deyildir. Gənclərdə başqa əməllər də vardır. Mən onları günahlandırmıram. Onlar bu əməllərə gedirlər, ona görə yox ki, onu sevirlər. Kimsə təsir altına düşür, sağlamlığının, şüurunun yaxşı inkişaf etməsi üçün məşğuliyyət tapa bilmir, başqa işə cəlb oluna bilmir, yaxud da başqa işə qoşula bilmir, axırda gedib ona qurşanır.

Ona görə də şən və hazırcavablar klubunun inkişaf etdirilməsi təkcə klubun naminə yox, gənclərimizin sağlamlığı, onların intellektual inkişafı naminə çox mühüm məsələdir. Ona görə də siz qeydiyyata alın ki, Azərbaycanda şən və hazırcavablar klubları haralarda vardır,– yəqin ki, Anar bunu daha yaxşı bilir,– bu klublar nə səviyyədədir, nə etmək lazımdır. Bizim yerli icra hakimiyyəti orqanlarını bu işə cəlb etmək olar.

Təəssüf ki, onların bəziləri şən və hazırcavablar klublarının nə olduğunu heç bilmirlər.

Görürəm xoşunuza gəldi. Növbəti nömrənizi bu mövzuya həsr edərsiniz.

**Anar Məmmədxanov**: Cənab Prezident, bilirsiniz, şən və hazırcavablar klublarının inkişafında televiziyanın da xüsusi rolu vardır. Şən və hazırcavablar klubu birinci növbədə televiziya oyunu idi. O səbəbdən inkişaf etdi. Hesab edirəm, Azərbaycan televiziyasında da bu oyuna xüsusi yer vermək lazımdır.

**Heydər Əliyev**: Bəli, yer vermək lazımdır.

Bir sözlə, mən çox məmnunam ki, Azərbaycan gəncləri, oğlanları bir daha yüksək qələbə qazanıblar. Sizi yenə təbrik edirəm. Arzu edirəm ki, gələcəkdə də xalqımızı, millətimizi, ölkəmizi yeni-yeni qələbələrlə sevindirəsiniz.

Ancaq bilmirəm, başqa şən və hazırcavablar klubu sizin kimi çıxış edə bilər, ya yox? Söhbətimizin əvvəlində dedim ki, siz başqa bir istiqamətdə də inkişaf etmisiniz. İndi çox gözəl tamaşalar verirsiniz və onlar da çox populyardır.

Sən o gün televiziyada çıxış edirdin, eşitdim ki, beş gün dalbadal Respublika sarayında tamaşa vermisiniz. Hər gün də salon tamaşaçı ilə dolu olubdur. Bizim ən populyar incəsənət xadimimiz belə bir səviyyəyə çata bilmir. Axı, nə üçün? Mən bu barədə də fikrimi demək istəyirəm. Siz xüsusi bir istedad nümayiş etdirirsiniz. Mən bunu çox qiymətləndirirəm və istəyirəm ki, siz bunu davam etdirəsiniz.

Təbiidir ki, bizim Musiqili Komediya Teatrımız var, yaxud da ki, dram teatrlarında satira, yumor səhnələri göstərilir. Ancaq gərək siz də özünüzdən çox da razı olmayasınız. Siz bu sahədə çox yaxşı səviyyəyə çatmısınız. Mən söhbətimizin əvvəlində sözümü sizə dedim. Biz ölkəmizdə, cəmiyyətimizdə olan nöqsanları aşkar edib, onlarla mübarizə aparmalıyıq. Mübarizənin müxtəlif yolları vardır. Ancaq çoxları hesab edir ki, bunun əsas yolu inzibati yoldur – kimisə sıxışdırmaq, cəzalandırmaq, azadlıqdan məhrum etməkdir. Təbiidir ki, cinayətkarlığa qarşı bu vasitələrdən istifadə olunmalıdır. Ancaq insanların çoxu sizin satira və yumorunuzu dinləyəndə, göstərdiyiniz müxtəlif səhnələri görəndə düşünməlidirlər. Sizin göstərdiyiniz xəstəxana səhnəsi indiyədək mənim yadımdadır, lakin hamısı yox. Orada göstərirsiniz ki, tibb bacısından soruşur, yeməyə bir şey varmı? O da bildirir ki, var, 16-cı palatada dolma vardır. Bu, həqiqətdir ki, bizim xəstəxanalarda xəstələrə istənilən qədər yemək verilmir. Bu, məlumdur. Keç-

mişdə də bu olubdur, amma indi, təbiidir ki, bizim tibb sahəsinə ayırdığımız vəsait, bir tərəfdən, bəlkə təmin etmir, o biri tərəfdən də, tibb işçilərinin özləri bunları yeyirlər. Ancaq bu bəs deyilmiş kimi, evlərdən xəstələrə gətirilən yeməklərə də göz dikirlər.

**Tahir İmanov**: Bunlar həyatdan götürülmüş, olmuş şeylərdir.

**Heydər Əliyev**: Bilirəm, həyatdan götürmüsünüz. Amma bunu həyatdan götürüb o cür satira, yumor formasında vermək– deməli, bu, kimlərəsə təsir edə bilər. Təkcə bu deyil, sizin yumor səhnələrinizin hamısı xatirimdədir.

Siz çoxlu kasetlər buraxıb satmısınız. İnsanlar da onları çox alırlar. Mən hesab edirəm ki, bununla yəqin ki, maliyyə vəziyyətinizi yaxşılaşdıra bilmisiniz.

**Anar Məmmədxanov**: Cənab Prezident, təəssüflər olsun ki, kasetləri bu işlə qeyri-qanuni yolla məşğul olanlar satırlar. Onlarla mübarizə aparmaq çox çətindir.

**Heydər Əliyev**: Mən elə bilirdim ki, özünüz satırsınız.

**Anar Məmmədxanov**: Cənab Prezident, mümkün deyildir. Onlar bir kaset çəkirlər, xüsusi sexləri var, lisenziyasız satırlar. Onlarla mübarizə aparmaq çox çətindir.

**Heydər Əliyev**: Bunu siz özünüz niyə etmədiniz?

**Anar Məmmədxanov**: Biz bunun istehsalı ilə məşğul olsaq, keyfiyyətli edərik. Onlar isə keyfiyyətsiz edirlər. Kasetin birini 7 min manata satırlar. Bizim istehsal etdiyimiz kassetlər isə 15 min manata başa gəlir.

**Heydər Əliyev**: Belə çıxır ki, sizin məhsulunuz az tapılan mal kimi çoxlarına qazanc gətirir.

**Murad Dadaşov**: Cənab Prezident, çox adam kasetə baxır və deyirlər ki, biz sizə o qədər baxırıq ki, ailəmiz üçün doğma olmusunuz. Valideynlər bildirirlər ki, uşaqlar dərs oxumaqdan çox sizin kasetlərə baxır, şən və hazırcavablar klubunun tamaşalarını daha yaxşı bilirlər.

**Heydər Əliyev**: Mənim övladlarım və nəvələrim sizin bəzi tamaşalarda olublar, baxıblar. Ancaq ondan sonra kasetlərə baxırlar. Çünki deyirlər ki, videokasetdən alınan təəssürat tamaşaya baxarkən yaranan təəssüratdan güclüdür. Bu, həqiqətən belədir. Mənim özüm də bunu hiss etmişəm. Çünki orada insanın fikri dağılır, oraya baxırsan, buraya baxırsan, amma kasetlərə baxanda səhnələr daha aydın görünür.

Mənim qızım və nəvələrim Londonda sizin hər bir kasetinizə bəlkə də 10-15 dəfə baxıblar. Onlarla telefonla danışanda hər dəfə sizin göstər-

diyiniz müəyyən bir səhnə haqqında mənə danışırlar. Çünki bu tamaşaların hamısı mənim yadımda qalmır. Amma onların yadında qalır. Mənə danışıb məni güldürürlər.

Təbiidir ki, İlham həmişə sizinlə birlikdə olur. Sən onu dedin. Amma qızım Sevillə danışanda demişdim ki, siz qələbə çalmısınız, o, mənə dedi ki, bizim də ən böyük sevgilərimizi onlara çatdırın. Onlar Azərbaycandan uzaqda olduqları halda sizin kasetlərinizdən zövq alırlar.

Ona görə də siz bu sahəni inkişaf etdirin. Bir də ki, üzünüzə demək yaxşı deyil, amma eyni zamanda sizi həvəsləndirmək yaxşıdır. Mən baxıram, sizin çoxunuz, demək olar ki, hamınız bizim komediya teatrının artistlərindən daha güclüsünüz. Bilmirəm, siz gedib artistlik etmək istəyirsiniz, yoxsa yox, amma çox istedadlısınız. Mən insanı heç vaxt üzünə tərifləmirəm. Ümumiyyətlə, tərifləməyi sevmirəm. Ancaq, sadəcə olaraq, bunu deməyə məcburam. Çünki hər dəfə sizin tamaşaya gələndə o qədər gülürəm, sonra gedib evdə də yadıma salıram. Bəzən komediya, yumor, satira o qədər səthi, bəsit olur ki, kimsə ona gülür, amma mən ona baxıb gülmürəm. Hər adamın öz zövqü var. Mən hər halda dərin satiraya, yumora daha çox qiymət verirəm. Ona görə də mən sizi qiymətləndirirəm və hər birinizə baxanda məni gülmək tutur.

Siz yumordan da qorxmayın. Məni də göstərirsiniz, ondan narahat olmayın. Mən bundan narahat deyiləm. Hətta mən hesab edirəm, çox yaxşı ki, mənim şəxsiyyətimə münasibət göstərirsiniz. Amma bilirəm ki, rəhbər işçilərdən bəziləri narahatdırlar. Mən sizi ürəkləndirirəm, qorxmayın. Bir halda ki, bunu mən özüm sizə deyirəm, heç məndən də qorxmayın.

**Anar Məmmədxanov**: Hərdən bizdən soruşurdular, Prezident özü gülürdümü? Bizə irad tutanda isə mən deyirəm ki, Prezident özü orada olmuşdur. Hər dəfə söhbət düşəndə biz Sizin adınızı çəkirik.

**Heydər Əliyev**: Sizin bir səhnəniz – Nazarbayevin qarşılanması yadıma düşdü. Siz bu yumoru guya Nazarbayevə görə etmisiniz, bizim tədbirləri nəzərdə tutmusunuz. Bundan nəticə çıxarmaq lazımdır. Təəssüflər olsun ki, belə tədbirləri keçirənlər xeyirli hesab edirdilər, amma zərərini görmürdülər. O rolu kim oynayırdı? Həmin adam deyir ki, Nazarbayev bilsə ki, onun portretini kim tutacaq, heç Bakıya gəlməzdi.

**Tahir İmanov**: Cənab Prezident, "Nazarbayev bilsə ki, onun portretini kim tutacaq, heç Bakıya gəlməzdi" sözlərini ssenaridə yazanda biz bilməzdik ki, belə gülməli alınacaqdır.

**Anar Məmmədxanov**: Bilirsiniz, çox şey belə alınır. Biz hansısa bir ifadəni yazırıq. Məsələn, 1999-cu ildə hazırladığımız "Polis" səhnə-

sində "nə oldu rəis, alınmadı?" sözlərini elə-belə, zarafatla yazmadıq. Orada nə isə gəlib deyilməliydi. Bu, ssenaridə var idi. İndi bu ifadə bir misal kimi camaatın dilinə düşübdür.

**Heydər Əliyev**: "Məktəb" epizodu da çox yaxşıdır.

**Murad Dadaşov:** Cənab Prezident, "Məktəb" epizodunu yazanda yumor nəzərdə tutmuşduq, amma o dərəcədə yox. Bəziləri deyir ki, zəif alınıb, digərləri isə deyir ki, güclüdür. Biz ilk növbədə, indiki məktəblərin vəziyyətini göstərmək istəyirdik və o vaxtkı məktəblə indikini müqayisə edirdik.

**Anar Məmmədxanov**: Orada tiplər yığışıbdır. Bu tiplər bizi həmişə izləyir. Məsələn, Yura Babayev orada bakılı obrazını yaradıbdır. Azər də rolu çox gözəl oynayıbdır.

**Heydər Əliyev**: Yura Babayev budur?

**Anar Məmmədxanov**: Bəli, Azər Məmmədzadə həmin rolu oynayırdı. Bilirsinizmi, bu tiplərlə biz həyatda rastlaşırıq. Biz hər şeyi həyatdan götürürük. Məsələn, bu yaxınlarda Murad mənə zəng etmişdi, amma bilmirdim ki, odur. Elə bildim ki, mənimlə seysmoloq alim Arif Həsənov danışır. Düşündüm ki, o, mənə nə üçün zəng edibdir. Demə, bu, Murad imiş.

**Heydər Əliyev**: O "samokat" səhnəsini də yaxşı tapmısınız. O səhnə mənim heç yadımdan çıxmır.

**Anar Məmmədxanov**: Amma Sizə deyim ki, onlar çox inciyiblər.

**Heydər Əliyev**: İndi bu respublikanın Prezidenti mənəm, mən incimirəmsə, onların inciməyə nə haqları var?

**Anar Məmmədxanov**: Onların mövqeyi bizi maraqlandırmır. Söhbət insanın səviyyəsindən gedir. De Qoll qəzetləri açıb deyərdi ki, əgər karikatura yoxdursa, deməli, pis işləyirik. Bu, hər bir dövlət xadiminin, siyasi xadimin böyüklüyünü göstərir. Bu obrazlar arasında özünü tanıyıb inciyənlər də çox olur.

**Heydər Əliyev**: Onlara fikir verməyin.

**Murad Dadaşov**: Cənab Prezident, Moskvadakı yarışa təxminən dörd gün qalmış biz iki Prezidentin – Azərbaycan Prezidenti və Rusiya Prezidentinin görüşü barədə səhnə fikirləşmişdik. Yarış ərəfəsində məşq zamanı ayağım sındı. Azərbaycan Prezidentinin parodiyasını mən ifadə edirdim. Vəziyyətimin bu cür olmasına baxmayaraq, dedim ki, mən hökmən çıxış etməliyəm. Sizə deyim ki, Bakıda ayrı bir narahatçılığım var idi. Özünüz bilirsiniz, mən tərəfdən narahatçılıq nədən ibarət idi. Narahat idim ki, pis alınacaq, şükür Allaha, çıxdım, alındı.

**Anar Məmmədxanov**: Cənab Prezident, Siz o səhnəyə baxmısınız?

**Heydər Əliyev**: Təəssüf ki, mən ona baxmamışam. Qızım ona baxıb və mənə danışıbdır.

Yeni il münasibətilə sizi bir daha təbrik edirəm. Hesab edirəm ki, bugünkü söhbətimiz sizi gələcəkdə yeni yaradıcılıq işlərinə daha çox həvəsləndirəcək və cəmiyyətimizdə bundan sonra daha fəal rol oynayacaqsınız. Sağ olun.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKSOY-un TOPLANTISININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

*Prezident sarayı*
*16 yanvar 2001-ci il*

Dövlətimizin başçısı Heydər Əliyev qonaqları səmimiyyətlə qarşılayaraq dedi:

– Hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz. Mən sizi səmimi qəlbdən salamlayıram. TÜRKSOY təşkilatına daxil olan ölkələrin mədəniyyət nazirlərinin XV görüşü keçirilir. Məmnunam ki, bu görüş Azərbaycanda olur. Mən sizin toplantıya təbrik məktubu göndərmişəm. Güman edirəm ki, məktubum sizə çatıbdır.

TÜRKSOY barədə çox danışmışıq. Ancaq bu gün mən onu deyə bilərəm ki, Türkdilli Dövlətlər Birliyi yaranandan indiyə qədər TÜRKSOY təşkilatı hamıdan çox iş görmüş bir təşkilatdır. Bu da müəyyən qədər təbiidir. Mənim öz dilimizdə danışmağıma etiraz etmirsiniz? Çünki bəzən biz Mərkəzi Asiya dövlətlərində yığışanda rus dilində danışırıq. Orta Asiya nümayəndələri etiraz etmirlər ki, öz dilimizdə danışım?

Bəli, bu təşkilatın əsas məqsədi birinci növbədə bizim tarixi keçmişimizi, köklərimizi, mədəniyyətimizi və bunların hamısının müştərək olduğunu yenidən araşdırmaq və bu irsi nəsillərə çatdırmaqdan ibarətdir. Çünki 70 illik Sovet cəmiyyəti dövründə, bundan da öncə, təəssüflər olsun ki, türkdilli ölkələrin bir-biri ilə əlaqələri ya zəif olubdur, ya da olmayıbdır. Bəzən də Sovetlər İttifaqında yaşayan türkdilli xalqlar üçün qadağan olubdur. O vaxt Sovetlər İttifaqında belə bir anlayış mövcud idi ki, vahid sovet xalqı vardır. Bütün millətlər də var, ancaq vahid sovet xalqı da. Biz, məsələn, Mərkəzi Asiyada olan qardaşlarımızla daim əlaqədə idik, bir ölkənin tərkibində idik. Biz həmişə bir-birimizlə rusca danışırdıq və tarixi keçmişimizi, mədəniyyətimizi, onların dərin köklərini heç vaxt araşdırmırdıq. Amma indi biz müstəqillik əldə edəndən sonra və Türkiyə Cümhuriyyəti də bu sahədə çox dəyərli təşəbbüslərlə çıxış edəndən sonra Türkdilli Dövlətlər Birliyi yaranıbdır. Bu birliyin də, yenə də deyirəm, ən əsas özəklərindən biri TÜRKSOY təşkilatıdır.

Mən sizin gördüyünüz işləri yüksək qiymətləndirirəm. Arzu edirəm ki, bu işləri bundan sonra da davam etdirəsiniz. Çünki həm bugünkü nəsillər, həm də gələcək nəsillər üçün hələ çox iş görmək lazımdır ki, bu itirilmiş dövrü, zamanı, onillikləri bərpa edək. Yəni onu bərpa etmək mümkün deyil, o dövrdə itirdiklərimizi indi qısa bir zamanda yaratmaq lazımdır.

Mən sizi təbrik edirəm və arzu edirəm ki, işlərinizi bu cür davam etdirəsiniz. Siz dövlət başçılarından daha zirəksiniz. Çünki biz, deyək ki, altı dəfə görüşmüşük. Amma siz on beş dəfə görüşmüsünüz. Ancaq bu da təbiidir. Çünki dövlət başçılarının bir çox problemləri vardır. Onların ildə bir dəfə görüşməsi bəzən bəs edir. Bu görüşlərdə biz, təbiidir ki, mədəniyyət, elm, tarixi keçmişimiz haqqında da çox fikir mübadiləsi aparırıq. Amma eyni zamanda bu görüşlərin iqtisadi əməkdaşlıq tərəfi də vardır.

Bu da çox əhəmiyyətlidir. Amma siz isə, bir də qeyd edirəm, bizim türkdilli xalqların ən incə və ən vacib işi ilə məşğulsunuz. Ticarət bu gün də, sabah da var. Bu, ola bilər ki, türkdilli, başqa dilli dövlətlə olsun – ticarət elə ticarətdir. Dünya ticarətsiz, iqtisadiyyatsız yaşaya bilməz. Ticarətin, iqtisadiyyatın nə milliyyəti var, nə də milli kökü var. Amma mədəniyyətin, dilin, milli dəyərlərin, ənənələrin – bunların böyük tarixi və dərin kökləri vardır.

## XALQ ARTİSTİ NƏSİBƏ XANIM ZEYNALOVAYA

*Bakı şəhəri, 19 aprel 2001-ci il*

Hörmətli Nəsibə xanım!

Sizi – Azərbaycan teatr sənətinin görkəmli nümayəndəsini 85 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan teatrı Sizin simanızda milli koloriti və həyatiliyi ilə səciyyələnən unudulmaz obrazlar silsiləsinin mahir yaradıcısını tapmışdır. Daxili aləmini ən xırda incəliklərinədək açdığınız, yüksək ifaçılıq və böyük istedadla canlandırdığınız bütün qəhrəmanların adları xalq arasında dillər əzbəri olmuş, sənətsevərlərin ürəklərində özünə həmişəlik yer eləmişdir.

Siz milli kino sənətimizin inkişafında da müstəsna xidmətlər göstərmiş ustad bir sənətkarsınız. Ekran həyatı verdiyiniz yaddaqalan personajlar uğurlu tale yaşamış və Azərbaycan kinematoqrafiyasının qızıl fonduna əbədi daxil olmuşdur.

Azərbaycan teatrı tarixində komediya janrının zəngin ənənələrinə sadiq qalaraq Siz incəsənətin bu sahəsində yaşadığınız təkrarolunmaz səhnə həyatı ilə böyük aktyorluq məktəbi yaratmısınız. Bir sənətkar kimi püxtələşməsində əməyinizi əsirgəmədiyiniz onlarla gülüş ustası sizin məktəbinizin yetişdirmələri olmaları ilə fərəh və qürur hissi duyur. İnanıram ki, milli teatrımızın parlaq ulduzu kimi keçdiyiniz şərəfli yaradıcılıq yolu ilə hələ bundan sonra da neçə-neçə gənc aktyorlar nəsli addımlayacaq və sənətiniz ən uca zirvələri fəth etməkdə onlara örnək olacaqdır.

Altmış ildən artıq bir dövrü əhatə edən yaradıcılığınız dövlət tərəfindən dəfələrlə yüksək mükafatlara layiq görülmüşdür. Sənətə vurğunluq nümunəsi olan səhnə fəaliyyətinizlə qazandığınız başqa bir mükafat da vardır ki, onların hamısından dəyərli, hamısından ali və əzizdir. Bu da mədəniyyətinin və incəsənətinin çiçəklənməsi yolunda həyatınızı fəda etdiyiniz qədirbilən Azərbaycan xalqının əməyinizə, şəxsiyyətinizə bəslədiyi dərin məhəbbət və ehtiramdır.

Sizə möhkəm cansağlığı və xoş günlər arzulayıram.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## X.Ə.QASIMOVANIN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Xuraman Əkrəm qızı Qasımova "Şöhrət" ordeni ilə təltif edilsin.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyun 2001-ci il*

## XALQ ARTİSTİ XURAMAN QASIMOVAYA

*Bakı şəhəri*
*5 iyun 2001- ci il*

Hörmətli Xuraman xanım!

Sizi – Azərbaycan musiqi mədəniyyətinin görkəmli numayəndəsini yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz Azərbaycanda milli vokal sənətinin, opera ifaçılığının inkişafında, onun yeni mərhələyə yüksəlməsində böyük xidmətləri olan bir sənətkar kimi dərin hörmət qazanmısınız. Azərbaycan, rus və Qərbi Avropa bəstəkarlarının Sizin ifanızda səslənən əsərləri yaradıcılığınızın ən müxtəlif çalarlarını üzə çıxarır. Sənətkarlığınızın dərin və yaradıcı gücü sayəsində böyük professionallıqla ifa etdiyiniz bu nadir sənət inciləri dinləyicilərimizin yaddaşına birdəfəlik həkk olunmuşdur.

Axtarışlarla dolu qaynar yaradıcılıq fəaliyyəti Sizi sənət meydanında layiq olduğunuz zirvələrə ucaltmışdır. Məlahətli səs, böyük ustalıq və yüksək səhnə mədəniyyəti ilə səciyyələnən bu yaradıcılıq dünyası sənətkar şəxsiyyətinizin parlaq ifadəsidir. Uzun illərdən bəri solisti olduğunuz Azərbaycan Dövlət Opera və Balet Teatrında ifa etdiyiniz partiyalar milli musiqi mədəniyyətimizin zəngin xəzinəsinə əbədi daxil olmuşdur.

Ölkəmizdə və eləcə də onun sərhədlərindən uzaqlarda bir sıra qastrol səfərlərindəki çıxışlarınızla Siz Azərbaycan musiqi mədəniyyətini ləyaqətlə təmsil etmiş, onun şöhrətini yüksəklərə qaldırmısınız.

Kinofilmlərdə yaratdığınız obrazlar istedadınızın çoxşaxəli xarakter daşımasına dəlalət edir. Musiqi Akademiyasında vokal kafedrasının müdiri kimi göstərdiyiniz pedaqoji fəaliyyət də təqdirəlayiqdir. İnanıram ki, çoxlu sayda sənətkar Sizin keçdiyiniz və hələ neçə illər keçəcəyiniz yaradıcılıq yolundan bir məktəb kimi bundan sonra da bəhrələnəcək və musiqi mədəniyyətimizin daha da çiçəklənməsi işinə öz töhfələrini verəcəkdir.

Bu yubiley gününüzdə Sizə cansağlığı, xoşbəxtlik və yeni-yeni yaradıcılıq sevincləri arzulayıram.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV "BAKILI OĞLANLAR" KOMANDASININ KONSERTİNDƏ OLMUŞDUR

*Respublika sarayı*
*10 iyun 2001-ci il*

**Azərbaycan prezidenti Heydər Əliyev axırda səhnə arxasına gəldi, komandanın üzvləri ilə səmimiyyətlə görüşərək dedi:**

Axşamınız xeyir olsun!

Mən sizi hazırladığınız bu yeni proqram münasibətilə təbrik edirəm. Bilirəm ki, siz bir neçə gündür ki, bu sarayda çıxış edirsiniz və çıxışlarınızın hamısı Azərbaycanda, Bakıda böyük həvəslə izlənilir, qəbul olunur. Deyirlər ki, Respublika sarayının salonunda boş yer yoxdur, yaxşı da pul qazanmısınız. Amma deyirlər ki, bugünkü çıxışınız pulsuzdur. Niyə? Gərək bugünkü çıxışınızı da pullu edəydiniz.

Təbiidir, 10 il müddətində siz çox irəliyə getmisiniz, inkişaf etmisiniz. Bu barədə siz özünüz də bu gün burada çox sözlər dediniz. Veteran Yuli Qusman da bu barədə çox geniş danışdı. Təbiidir ki, bu, Azərbaycan cəmiyyətinin, xalqımızın bir tərəfdən incəsənət, o biri tərəfdən isə ağıl, zəka nümayiş etdirmək nöqteyi-nəzərindən böyük bir sərvətidir. Bu sərvət bir-iki gündə yaradılmır, o, xırda-xırda toplanır və komandaya nə qədər istedadlı insanların cəlb olunmasından asılıdır. Bu istedad ikitərəfli olmalıdır. Bəzən səhnədə yaxşı istedad nümayiş etdirən insandan zəkasının da o qədər yüksək olması tələb edilmir. Amma sizin komandada vəziyyət başqa cürdür. Burada gərək həm artistlik istedadı, həm də bilik və zəka olsun. Yəni həm suallara cavab tapa biləsən, həm də ayrı-ayrı səhnələri göstərə biləsən.

Təbiidir ki, sizin bu çıxışlarınız daha çox yumor xarakteri daşıyır. Ortada suallar da təşkil edirsiniz, onlara cavab verirsiniz. Amma keçmişə nisbətən sizin bu çıxışlarınızın əsasını yumor təşkil edir. Bu da çox vacibdir, əhəmiyyətlidir. Çünki yumor insanlar üçün həmişə mənəvi bir qida olubdur. İkinci tərəfdən də, yumor, eyni zamanda ayrı-ayrı qüsurların tənqididir. Əgər keçmişə nəzər salsaq, yumoristlər keçmişdə müəyyən qədər müxalifətdə olublar. Məsələn, bizim böyük mütəfəkkirimiz Cəlil

Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalında, yaxud öz əsərlərində o dövrdə xalqımızın, cəmiyyətin nöqsanlarını, xalqımızın bəzi məsələlərdə geri qalmasını çox yumoristik şəkildə əks etdirirdi. Həmin jurnalın nömrələrinə baxanda bəzi adamlar belə qəbul edirlər ki, bu sözlər, şəkillər sadəcə, insanı güldürməkdən ötrüdür. Amma orada iki məna var: həm insanı güldürür, həm də cəmiyyətə, insana başa salır ki, bu nöqsanları aradan qaldırmaq lazımdır.

Bizim böyük bəstəkarımız Üzeyir Hacıbəyov "Məşədi İbad" operettasını yaradıbdır. İnsanların demək olar ki, əksəriyyəti – əgər mütəxəssisləri nəzərə almasaq – indiyə qədər hesab edirlər ki, "Məşədi İbad" operettası komediyadır, insanlar gəlib baxsınlar, istirahət etsinlər. Ancaq bu, bir tərəfdən komediyadır, digər tərəfdən, əgər bu əsəri dərindən təhlil etsən aydın olar ki, bir tərəfdən, o dövrdə cəmiyyətdə gedən proseslər, ikinci tərəfdən də nöqsanlar, çatışmazlıqlar göstərilibdir. Eləcə də məsələn, Qoqolun əsərlərini götürsək, onun əsərlərindəki obrazlar indiyə qədər yaşayırlar. Ona görə də yumor iki məna, məqsəd daşıyır. Bir tərəfdən, insanlar həqiqətən gülür, istirahət edirlər. Deyirlər ki, sizin bu tamaşanız 3 saat 15 dəqiqə çəkibdir. Başqa bir tamaşada buna dözmək mümkün deyildir. Amma siz bir tərəfdən, insanları güldürürsünüz, ikinci tərəfdən isə, tənqid edirsiniz. Hesab edirəm ki, tənqidi də məhəbbətlə edirsiniz.

Bu gün siz Bakı şəhərinin yeni icra hakimiyyəti başçısı Hacıbala Abutalıbov haqqında danışdınız, göstərdiniz. Bəziləri elə başa düşər ki, siz onu mənfi tərəfdən göstərdiniz. Yox. Amma mən hesab edirəm ki, siz onu müsbət mənada göstərdiniz.

**Anar Məmmədxanov**: Cənab prezident, biz onu dəstəkləyirik, gördüyü işləri müdafiə edirik.

**Heydər Əliyev:** Bəli, siz onu göstərdiniz, amma komik bir şəkildə göstərdiniz.

Siz məni də yaddan çıxarmırsınız. Görürəm ki, hər dəfə mövzunu bir az da genişləndirirsiniz. İndi oğlumu da buraya qatmısınız. Ola bilər, 2–3 tamaşadan sonra nəvələrimi də qatasınız. Hər halda, bunlar hamısı xeyirlidir, faydalıdır. Siz faydalı iş görürsünüz.

Siz burada dediniz ki, guya bu, vida konsertidir. Bilirəm, siz bununla camaatı aldadırsınız, sizə desinlər ki, getməyin, dayanın.

Konsertdə Yuli Qusman da çıxış etdi və dedi ki, siz onları haraya buraxırsınız, bunu etmək olmaz. Hətta məsələni səsə qoydu. Yəni, siz öz nüfuzunuzu daha da qaldırmağı qərara aldınız. Qaldırdınız da. Sizin nüfuzunuz yüksək səviyyədədir. Əlbəttə, adamlar zaman-zaman müəyyən janr-

dan, tamaşadan usanırlar. Amma siz burada da buna məharətlə yanaşa bildiniz. Hesab edirəm ki, siz heç yana getməyəcəksiniz, yaşayacaqsınız, yəqin ki, ŞHK–sız yaşaya bilməyəcəksiniz. Bəziləriniz qocalmayınca, bu komandadan kənarda heç on il də yaşaya bilməyəcəkdir.

Sizi bir daha təbrik edirəm, hamınıza yeni uğurlar arzulayıram, sənə isə təşəkkürümü bildirirəm.

**Yuli Qusman**: Valideynlərimi xatırladığınıza görə də sağ olun.

**Heydər Əliyev**: Səni Azərbaycanda Şən və Hazırcavablar Klubunun banisi hesab edirlər. Yadımdadır, mən hələ DTK-da işlədiyim vaxtlarda bu komanda yenicə çıxış etməyə başlayırdı. O vaxtlar buna çox mənfi yanaşırdılar. Bu, mən hələ DTK-nın sədri olmadığım vaxtlarda idi. Bu, yenicə başlayırdı. O illərdə komsomolun Mərkəzi Komitəsinin birinci katibi mərhum Maqsud Əlizadə idi. O vaxt çoxları bunu qavramırdı. Yadımdan çıxıb, siz hansısa salona toplaşmışdınız. Mən də oraya gəldim. Daha doğrusu, o, məndən kömək göstərməyi xahiş etmişdi. Onda DTK-nin dəstəyi çox böyük rol oynayırdı. Çünki sizin çıxışlarınız antisovet, dövlət əleyhinə çıxışlar kimi qiymətləndirilirdi və sair. Mən o görüşü xatırlayıram. Biz bu mövzuda söhbət etdik. Maraqlı bir gecə alındı. Bu, gərək ki, 1966-cı ildə olmuşdur.

**Yuli Qusman:** Yadınızdadırmı, əgər Siz olmasaydınız, biz 1970-ci ildə qalib gələ bilməzdik. Moskvadan Lapin mətnimizi qadağan etmək istəyəndə Siz dediniz ki, biz büroda baxmışıq, mən oxumuşam, buraxın. Beləliklə, onlar buna mane ola bilmədilər. O vaxt bu, artıq son canlı efir idi. Bu, 1970-ci ilin iyulunda, 30 il əvvəl olmuşdur. Biz bu günədək birinci yerdəyik.

**Heydər Əliyev**: Odur ki, siz Şən və Hazırcavablar Klubunun inkişafında mənim xidmətlərimi unutmamalısınız.

**Yuli Qusman:** Siz bizim ən böyük kaveençimizsiniz. Bilirsinizmi, dünən Zyuqanov Soçidə nə haray-həşir salmışdı. Deyirdi: “Mən üç il ŞHK kapitanı olmuşam”.

**Anar Məmmədxanov**: Cənab prezident, mən burada dedim ki, həqiqətən, Siz olmasaydınız, Sizin dəstəyiniz olmasaydı, cəmiyyətdə indiki kimi vəziyyət yaranmasaydı, onda ŞHK, ümumiyyətlə, heç zaman olmazdı.

**Heydər Əliyev**: Əlbəttə.

**Anar Məmmədxanov**: Biz hər şeyi, xatırlayırıq. 1992–1993-cü illərdə iki dəfə çempion olmağımıza baxmayaraq, burada konsert verə bilmirdik.

**Heydər Əliyev**: Sən gəl o dövrü göstər, qoy görsünlər ki, 1993-cü illərdə hansı şəraitdə yaşayırdınız.

**Anar Məmmədxanov**: Əlbəttə, biz qorxurduq ki, adamlar gələcək və sevinclərindən avtomatlarla tavanı gülləyə tutacaqlar.

**Heydər Əliyev**: Bax, sən növbəti tamaşa üçün yaxşı ideya verdin.

**Yuli Qusman**: Bəlkə, prezidentin fərmanı gərəkdir ki, onlar desinlər, bax, biz getmək istəyirdik, amma bizə qadağan elədilər və dedilər ki, yeni nömrə hazırlayın.

**Heydər Əliyev**: Bəli, əgər onlar prezidenti görməkdən qorxmurlarsa...

**Anar Məmmədxanov:** Adamlar o vaxtları zarafatla da xatırlamaq istəmirlər.

**Heydər Əliyev:** O vaxtları unutmaq olmaz. O vaxtları unutsalar, adamlar indini qiymətləndirə bilməzlər. Bu günü qiymətləndirmək üçün keçmişi unutmamaq lazımdır. Bax, o deyir ki, dörd ay əvvəl şəhər başqa vəziyyətdə idi. Hər il elə belə də olur. Bunu unutsaq, onda bir ildən sonra, məsələn, Bakıda hamı düşünər ki, şəhər həmişə belə olmuşdur.

**Anar Məmmədxanov:** Adamlar sabitliyə öyrəşiblər, unudublar ki, artıq axşam saat 6-da küçələrdə ins-cins olmurdu. Bir dəfə, 1993-cü ilin mayında bizi komendantlığa apardılar, nə var ki, gecə yarısı küçəyə çıxmışdıq.

**Heydər Əliyev:** Növbəti tamaşa üçün ssenarinin yarısı artıq hazırdır. Sizi bir daha təbrik edirəm.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV GÖRKƏMLİ ELM, MƏDƏNİYYƏT VƏ İDMAN XADİMLƏRİNİN BİR QRUPUNA "İSTİQLAL" VƏ "ŞÖHRƏT" ORDENLƏRİNİ TƏQDİM ETMİŞDİR

*Prezident sarayı*
*6 iyul 2001-ci il*

**Azərbaycan prezidenti Heydər Əliyev mərasimi açaraq dedi:**

– Hörmətli xanımlar və cənablar!

Siz, bu gün buraya dəvət edilənlər, müstəqil Azərbaycanın vətəndaşları, ordenlərlə təltif olunanlarsınız. Bu mərasimə, sizinlə görüşə gəimişəm ki, ordenləri sizə təqdim edim. Müstəqil Azərbaycanın yüksək ordenlərinə layiq görüldüyünüzə görə sizin hamınızı təbrik edirəm, hər birinizə cansağlığı və gələcək işlərinizdə uğurlar arzulayıram.

Ola bilsin, mərasim çox vaxt aparsın. Çünki burada çox adam var. Keçmiş təcrübədən bilirəm ki, mən ordenlərlə sizi təltif edəndə bu yüksək mükafatları alan şəxslərin bəziləri, bəzən çoxları oz sözlərini demək istəyirlər. Ancaq əgər belə olsa, gərək onda bız burada axşama qədər oturaq. Siz oturmusunuz, amma mən ayaq üstəyəm. Bunu nəzərə alın. Mən başa düşürəm, hər biriniz bu ordenlərə görə Azərbaycan dövlətinə minnətdarsınız. Ona görə xahiş edirəm, əlavə yəni nitq söyləməyə ehtiyac yoxdur. Əgər kimsə çox təkid etsə, onda bu mərasim bitəndən sonra yəqin ki, bir neçə adama söz verə bilərəm.

Bir şeyi də demək istəyirəm.

Ola bilər bu mərasim çox vaxt aparsın. Düşünürəm ki, əgər kimsə narahat olsa, yaxud ona uzun müddət oturmaq çətin olsa, – burada yaşlı adamlar var, – onlar rahat durub gedə bilərlər. Heç nədən narahat olmasınlar. Beləliklə, mükafatları sizə təqdim etməyə başlayıram.

Ölkəmizin rəhbəri Heydər Əliyev Azərbaycan Respublikası prezidentinin fərmanları ilə Azərbaycan dövləti və xalqı qarşısında, respublikada elmin, iqtisadiyyatın, mədəniyyət və incəsənətin inkişafında böyük xidmətlərinə görə "İstiqlal" ordeni ilə təltif olunmuş xalq rəssamı Tahir Salahova, Şeyxülislam Allahşükür Paşazadəyə, xalq artisti Əminə Dilbaziyə, xalq rəssamı Kamil Əliyevə, ARDNŞ-in vitse-prezidenti Xoşbəxt

Yusifzadəyə, xalq artisti Vera Şiryeyə dövlətimizin ali mükafatını təqdim etdi. Mərhum akademik Fəraməz Maqsudovun mükafatı qızı Tamilla Maqsudovaya verildi. Prezident Heydər Əliyev onları "İstiqlal" ordeni almaları münasibətilə təbrik etdi, onlara uzun ömür, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzuladı.

Sonra respublikanın ictimai-siyasi həyatında fəal iştirakına, ədəbiyyat və incəsənətin, elmin, mədəniyyətin, təhsilin, səhiyyənin, memarlığın, bədən tərbiyəsi və idmanın inkişafında xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif olunmuş şəxslərə bu yüksək mükafat təqdim edildi.

**Şamaxı Rayon İcra Hakimiyyəti başçısının Çuxuryurd kəndindəki nümayəndəsi, "Şöhrət" ordeni ilə təltif edilmiş Mariya Kojevnikova Azərbaycan prezidenti Heydər Əliyevə təşəkkürünü bildirərək dedi:**

– İcazə verin, kəndimizdə olduğunuz günlərdən xatirə olaraq bu albomu bütün sakinlərimiz adından Sizə təqdim edim. Sizin kəndimizə gəlişinizi əks etdirən bütün fotoşəkillər bu albomda toplanmışdır. Belə albomlar demək olar, hər birimizin evində var. Siz bizim kənddə 6 dəfə olmusunuz və bütün camaatımız Sizə dərin ehtiram bəslədiyini yetirməyi məndən xahiş etdilər.

İcazə verin, kiçik şeirimlə təşəkkürümü bildirim.

**Heydər Əliyev**: Gör, aradan nə qədər vaxt keçib, sən isə qocalmamısan, elə əvvəlki kimisən.

Mariya Kojevnikova rus dilində şeiri oxudu və bir daha minnətdarlıq edərək dedi: Heydər Əliyeviç, Sizin göstərdiyiniz yolla, bax, beləcə irəliləməyimiz üçün Sizə möhkəm cansaglığı, mətinlik və müdriklik diləyirəm!

**Azərbaycan prezidenti Heydər Əliyev şair Məmməd Aslanova (Məmməd Aslan) "Şöhrət" ordenini təqdim edərək dedi:**

– Məmməd Aslan tanınmış adamdır. Onun bir neçə kəlməsi heç vaxt mənim yadımdan çıxmır. Mən o vaxt vəzifələrdən kənarlaşdırılandan sonra ağır vəziyyətdə Naxçıvanda yaşayırdım. Bura Ali Sovetin sessiyasına gəlmişdim. Məni Yazıçılar İttifaqının qurultayına dəvət etdilər. Əvvəl bir az şübhələndim ki, məni doğrudanmı dəvət ediblər. Çünki o vaxt hamı məndən kənar gəzirdi. Dedilər, yox, dəvət olunubsunuz. İki, üç dəfə yoxlayandan sonra qərara aldım ki, gedim. Filarmoniyada idi. Gəldim, rəhmətlik Rəsul Rzanın, rəhmətlik Rəfiq Zəka Xəndanın yanında oturdum. Başqaları da oturmuşdu. Mənə mehriban baxırdılar. Qurultayın rəyasət heyətini seçməyə başladılar. Seçdilər. Bir də gördüm ki, hardansa arxadan bir nəfər qışqırır ki, bəs xalqımızın filan oğlu Heydər Əliyev rəyasət heyətinə seçilsin. Təbiidir ki, çox hərarətli alqışlar oldu.

Rəyasət heyəti mat-məəttəl qaldı ki, neyləsin. Çünki orada keçmiş Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi oturmuşdu. Anar mənə dedi ki, buyurun, keçin bura. Mən dedim, bilirsiniz nə var, mən həyatımın çox hissəsini həmişə orada, – rəyasət heyətində oturmuşam. Amma indi isə istəyirəm burada oturam. Həmişə oradan buraya baxmışam, indi də buradan oraya baxmaq istəyirəm.

Səni təbrik edirəm, uğurlar azulayıram.

Şair Məmməd Aslan xoş sözlərə görə dövlətimizin başçısına dərin minnətdarlığını bildirdi, uzun ömür, cansağlığı arzuladı.

* * *

**"Şöhrət" ordeninə layiq görülmüş akademik Bəkir Nəbiyev Azərbaycan prezidentinə təşəkkürünü bildirərək dedi:**

– Əziz prezidentimiz, mən arzu edirəm ki, Siz bu salonda, inşallah, yaxın vaxtlarda Azərbaycan torpaqlarını azad edəcək ya diplomatik heyətimizin nümayəndələrini təltif edəsiniz, ya da Azərbaycan əsgərlərini, onların komandirlərini təltif edəsiniz.

Azərbaycan torpaqlarının azad olunması münasibətilə onları təbrik edəsiniz. Mən buna inanıram.

* * *

**Prezident Heydər Əliyev "Şöhrət" ordeninə layiq görülmüş professor İsmixan Rəhimovu təbrik edərək dedi:**

– Səni təbrik edirəm. Cansağlığı arzulayıram. Sən Azərbaycanda ingilis dilinin öyrənilməsində çox böyük xidmətlər göstərmisən.

Vaxtilə mənim qızım da sənin təşkil etdiyin qrupa gedirdi.

**İsmixan Rəhimov**: Cənab prezident, əla tələbə idi. İndi də xatirimdədir. Maşallah, çox gözəl, qabiliyyətli qız idi.

**Heydər Əliyev**: Bəli, elə o əsasla qızım da, oğlum da ingilis dilini çox yaxşı bilirlər.

**İsmixan Rəhimov**: İlk müəllimləri mən olmuşam.

**Heydər Əliyev**: Bəli. Amma təkcə onların yox, o vaxtlar bütün Azərbaycanda.

**İsmixan Rəhimov**: Cənab prezident, üzr istəyirəm, Xuraman xanım da mənim qrupumda oxuyubdur. Bir dəfə "Biz qalib gələcəyik" mahnısını elə gözəl oxudu ki, tələbələrə dedim, inanın, biz qalib gələcəyik, torpaqlarımız azad olacaqdır.

Cənab prezident, bir sözüm var. Məni ilk dəfə təbrik edən institutumuzdan bir müəllimə oldu.

Onun ilk sözü bu oldu ki, İsmixan, sənin tələbələr arasında şöhrətin var idi, amma ordenin yox idi.

Sağ olsun prezident, sənə “Şöhrət ordeni verdi. İnanın ki, məni təbrik edənlərin birinci sözü “sağ olsun prezident!” oldu. Mən də deyirəm ki, həqiqətən prezident sağ olsun! İnanmıram ki, burada oturanları mənim kimi təbrik ediblər. Amma məni təbrik edəndə, birinci prezidenti təbrik ediblər, sonra məni. Çox sağ olun, təşəkkürümü bildirirəm.

* * *

**“Şöhrət” ordeninə layiq görülmüş xalq artisti Xuraman Qasımova dövlətimizin başçısına müraciətlə dedi:**

– Möhtərəm prezident, Fidan xanım və mən bu il birlikdə yaradıcılığımızın 25 illiyini qeyd edirik. Çox xoşbəxtik ki, 25 illik yaradıcılığımız dövrü Sizin respublikaya rəhbərliyiniz zamanında keçibdir. Hər zaman bizə atalıq etmisiniz, qayğı göstərmisiniz və sənətimizə böyük qiymət vermisiniz. Sizin qarşınızda baş əyirəm, Sizə uzun ömür, cansağlığı arzu edirəm. Bütün sənət adamları və ailəm adından Sizə minnətdaram. Çox sağ olun.

**Heydər Əliyev**: Fidan da, sən də balaca qız idin. Gözümün qabağında böyüdünüz.

**Aldığı mükafata görə respublikamızın rəhbərinə təşəkkürünü bildirən akademik Fuad Qasımzadə dedi:**

– Cənab prezident, Sizə ikiqat borcluyam. Bu yaxınlarda akademiyaya seçkilər zamanı fəlsəfəyə yer ayırmağınız Sizin qayğınız nəticəsində oldu. Bizim ailə Sizin bu qayğınızı həmişə hiss edir. Siz o vaxtlar respublikanın birinci katibi olarkən, atamı küçədə görəndə maşınınızı saxlatdırıb “Mirzə Feyzulla, gəl əyləş” deyirdiniz. O, evə gələndə uşaq sevinci ilə ağlayırdı və deyirdi ki, mən hələ belə rəhbər görməmişəm, o, Allah adamıdır.

**Heydər Əliyev**: Atanı yaxşı xatırlayıram.

**Fuad Qasımzadə**: Çox sağ olun, var olun, Sizə minnətdaram.

* * *

**“Şöhrət” ordeni ilə təltif olunmuş jurnalist Svetlana Mirzəyeva Azərbaycan prezidentinə onun 1942-ci ildə çəkdiyi rəsm əsərini təqdim edərək dedi:** – Hörmətli Heydər Əliyeviç, mən də Sizə hədiyyə etmək istəyirəm. Siz gənclik illərinizdən Naxçıvanda istedadlı rəssam kimi tanınırdınız. Ancaq Siz heyfsilənirdiniz ki, vaxtilə çəkdiyiniz bütün rəsm əsərləri və şə-

killər itmişdir. Naxçıvanda bütöv bir qrup – İsa Həbibbəyli, Sənifə Sultanova, Ramiz Məmmədov və ilk növbədə, Xalça Muzeyinin direktoru Arif Qədimov və mən axtarışlar apardıq. Nəhayət, izinə düşdük və indi itirilmiş rəsmlərdən birini – 1942-ci ildə çəkdiyiniz "12 yaşlı qonşu qızın portreti" adlı rəsmi Sizə qaytarırıq.

* * *

**Azərbaycan prezidenti Heydər Əliyev respublikamızın ali mükafatlarına layiq görülmüş şəxslərə müraciətlə dedi:**

– Hörmətli xanımlar və cənablar!

Mən sizi bir daha ürəkdən təbrik edirəm. Hər birinizə cansağlığı, uzun ömür və yeni yaradıcılıq nailiyyətləri arzulayıram. Mənə dedilər ki, danışmaq istəyən çoxdur. Amma ola bilər, bir neçə nəfərə imkan verək. Buyurun.

## XALQ ARTİSTİ ƏMİNƏ DİLBAZİNİN ÇIXIŞI

– Əziz, mehriban, qayğıkeş, dahi insan, millətimizi bütün dünyaya tanıtdıran Heydər Əliyev!

Hörmətli Heydər Əliyev nə iş görübsə, hamısı gözümüzün qarşısındadır. İndiyə qədər bizi, Azərbaycanı digər ölkələr o qədər də tanımırdılar.

Heç yadımdan çıxmaz. Bir dəfə biz Kremldə çıxış edəndə gördüm ki, ölkəmizin adını, "Azərbaycan" sözünü olduğu kimi demirlər. Bu misalı gətirməklə demək istəyirəm ki, bizi o dərəcədə tanımırdılar. İndi isə Heydər Əliyev Azərbaycanı tanıtdırmaq və millətini qorumaq sahəsində əlindən gələni əsirgəmir. Onun keçirdiyi ağır günlər, saatlar, təyyarə ilə oraya-buraya getmək camaata asan gəlir. Amma elə deyildir. Çox təəssüf olsun ki, elə insanlar var Heydər Əliyevin zəhmətinin qiymətini dərk etmirlər və başa düşmürlər. Bizim görüşlərimiz zamanı bu barədə çox söhbətlərimiz olur və çalışırıq hamıya başa salaq ki, Heydər Əliyev yeganə insandır, ağıllı, müdrik bir insandır. Söhbət zamanı deyirik ki, görəsən, dünyaya ikinci dəfə belə insan gələcəkmi? Belə bir insan yenə də yetişəcəkmi? Tarix elə şeydir ki, illər keçir, kimsə meydana çıxır. Amma biz hələ bunu görmürük.

Heç vaxt yadımdan çıxmaz. Heydər Əliyev ilə mən bir məclisdə oturmuşduq. Cənab Heydər Əliyevin çox böyük zövqü var. Elə bilməyin ki, o, təkcə bir sahəni gözəl bilir. O, bütün sahələri gözəl bilir. Ona görə deyirəm ki, mən incəsənətdə olduğum müddətdə, demək olar, bütün ölkələri gəzmişəm. Düzdür, rəqsimiz barədə danışanlar, məqalə yazanlar çox olubdur. Amma Heydər Əliyevin sözü məndən ötrü gözlənilməz bir yenilik oldu. O, mənə həmişə "ay qız" deyə müraciət edir. Onun bu sözünə qurban olum. Dedi ki, ay qız, Naxçıvanın yubileyində oynadığın yadındadırmı? Dedim, bəli. Dedi ki, örpəklə gəldin, yanında adamlar var idi. Örpəyi qaldırdılar, sən nə gözləyirdin? Dedim, Heydər Əliyev, o günləri yadıma salmayın, yaman pərtəm. Dedi, niyə? Dedim, üzümü örtmüşdüm ki, camaata sürpriz edim və üzümü açanda görsünlər ki, bu, Əminə Dilbazidir. Gördüm, heç bir alqış olmadı. Yaman pərt oldum. Üzü camaata tərəf oynayırdım. Dönəndə əllərim yuxarı qalxdı və bu zaman alqışlar başladı. O anda fikirləşdim ki, bayaqdan oynayıram, özümü şəhid edirəm, amma alqış yoxdur. Bəs indi nəyə görə əl çalırlar?

Sonra Heydər Əliyev mənə dedi ki, Əminə xanım, sənə nə üçün əl çaldıqlarını indi də bilmədin? Dedim ki, Heydər Əliyev, vallah, bilmirəm. O dedi ki, sənə Naxçıvanda əllərinin hərəkətinə görə əl çaldılar. Çünki bu cür rəqqasə əlləri ancaq Əminə Dilbazidədir. Camaat sizi əllərinizin hərəkətindən tanıdı. İndi siz Heydər Əliyevin diqqətinə, duyumuna fikir verirsinizmi? Bütün dünyanı gəzmişəm, o yer qalmayıb ki, oynamayım, festivallarda iştirak etməyim. Amma mən Heydər Əliyevin dediyi sözü heç rəqs sənətini bilən adamlardan da eşitməmişəm, hələ əllərimdən danışan olmayıbdır.

Cənab Heydər Əliyev, Siz incəsənəti daim qorumusunuz. Bir millətin incəsənəti olmasa, onu millət saymırlar. Ona görə Azərbaycanın incəsənətinə çox diqqət yetirirsiniz. İşlərinizin çox olmasına baxmayaraq, teatra, konsertə gedirsiniz, bayram tədbirlərində iştirak edirsiniz. Bütün bunlar xalqımızı sevindirir. Tədbirlərdə Sizin iştirakınız millət üçün böyük bayramdır. Özünüz də hiss edirsiniz ki, haraya getsəniz, camaat ayağa qalxıb Sizi alqışlayır. Sizi, sadəcə, prezident olmağınıza görə alqışlamırlar, yox, yox. Ona görə alqışlayırlar ki, Siz böyük, ağıllı, müdrik rəhbərsiniz, bütün işləri necə və nə zaman etməyi bilirsiniz.

Siz xarici ölkələrə gedəndə səfərlərinizi izləyirik, diqqət yetiririk. Biz Sizinlə fəxr edirik. Mən incəsənət işçisi olduğuma görə Sizə ailəmin adından, zəhmətkeş rəqqasların adından təşəkkür edirəm. Bilirsiniz ki,

rəqqaslıq çox çətin və ömrü qısa olan sənətdir. 16 yaşında gəlirsən, 36 yaşında təqaüdə çıxırsan.

Ona görə bir arzum var ki, bizim Dövlət Rəqs Ansamblına diqqətinizi bir qədər də artırasınız. Çünki bizim sənət ömrümüz qısadır. Başqa sənət elədir ki, qocaldıqca daha da müdrik olursan. Biz isə 16 yaşında gəlirik, hökumət 20 ildən sonra bizə təqaüd verir. Bu sənətin ağırlığı çoxdur.

**Heydər Əliyev:** (zarafatla): indi sənin 35 yaşın var?

**Əminə Dilbazi**: Cənab prezident, bir ana, nənə, bacı, xala kimi ixtiyarım çatar ki, bütün Azərbaycan xalqının məhəbbətini Sizə yetirim. Bu yaxınlarda qadınlarla görüşən zaman onlar xahiş etdilər ki, Sizə olan məhəbbətlərini çatdırım. Sizə cansağlığı, uzun ömür diləyirəm.

Siz allah, özünüzü qoruyun. Azərbaycan üçün qoruyun! Xalqımız üçün qoruyun! Torpağımız üçün qoruyun! Arzumuz budur.

## ŞAİR, MİLLİ MƏCLİSİN DEPUTATI ZƏLİMXAN YAQUBUN ÇIXIŞI

– Möhtərəm prezident!

Hörmətli mərasim iştirakçıları!

Bu gün təqdim olunan ali dövlət mükafatı mənim üçün, tərcümeyi-halım, nəsil-nəcabətim, elim üçün üç mənada çox əzizdir, müqəddəsdir, unudulmazdır.

Birincisi, bu möhtəşəm salona baxıb nə görürəm? XX əsrin ikinci yarısında Azərbaycan xalqının tərcümeyi-halını yaradan və Azərbaycan xalqının tərcümeyi-halına çevrilən, ölkəmizin bütün fəaliyyət sahələrini əhatə edən, tarixə adı yazılmış çox görkəmli şəxsiyyətlərlə bir məclisdə iştirak etmək mənim üçün çox böyük şərəfdir.

İkincisi, mənim üçün böyük şərəf və müqəddəslik ondan ibarətdir ki, bu mükafatı qanımız və canımız bahasına, şəhidliyimiz və igidliyimiz bahasına əldə etdiyimiz, dünyada bütün sözlərdən müqəddəs olan müstəqil Azərbaycanın mükafatı kimi qəbul edirəm... Üçüncüsü, mənim üçün ona görə əziz və müqəddəsdir ki, bu mükafatı Azərbaycan xalqının böyük oğlu, möhtərəm prezidentimiz Heydər Əlirza oğlunun fərmanı ilə alıram.

Möhtərəm prezident, mən bu gün qürur hissi ilə deyə bilərəm ki, ABŞ-a 23 günlük səfərdən təzə qayıtmışam. Orada senatorlarla, konqresmenlərlə, federal səviyyədə dövlət adamları ilə, ştatlarda qubernatorlarla görüşlərin hamısında biz bir böyük həqiqətin şahidi olduq. Artıq erməni

yalanının maskası yırtılır, Sizin apardığınız ardıcıl və prinsipial siyasət sayəsində Azərbaycan həqiqətləri dünyanın hər yerində dəstəklənir. İnanırıq ki, bu müqəddəs arzular Azərbaycanın böyük qələbəsi ilə nəticələnəcəkdir.

Bu mükafat mənə deyir ki:
Desə, quş olmalısan, dağlarına
qonaram,
Desə, daş olmalısan, yerimdəcə
donaram.
Desə, köz olmalısan, göz-göz
olub yanaram,
Mən bu məhəbbətimlə
ömrü ömür sanaram.
Vətən ki, gözlərimin ağıdır,
qarasıdır.
Hələ bu harasıdır, hələ bu
harasıdır.

Möhtərəm prezident!

Möhtərəm Heydər Əlirza oglu!

Sizin mənə təqdim etdiyiniz bu mükafat Azərbaycan ədəbiyyatına, kitaba, mütaliəyə, qələmə, sözə, mədəniyyətə, ziyalılığa, işığa verilən mükafatdır. Bu gun hamı burada mükafat aldı.

Amma Azərbaycan xalqının gözlədiyi ən müqəddəs bir mükafat var. Onu hamımız səbirsizliklə gözləyirik. Bu, Azərbaycan xalqının Qarabağ torpaqları uğrunda haqq işinin qələbə çalması ilə bağlı mükafatdır. İnşaalah, Sizin rəhbərliyinizlə, sərkərdəliyinizlə xalqımız o mükafatı da Sizin tərəfinizdən qəbul edəcəkdir. Sizə təşəkkür edirəm.

Minnətdaram.

Xalq Artisti Vera Şiryeyə söz verildi.

## XALQ ARTİSTİ VERA ŞİRYENİN ÇIXIŞI

– Möhtərəm prezident, icazə verin, Səməd Vurğunun “Ananın öyüdü” şeirindən bir parça oxuyum.

Geyib əsgər paltarını, silahlandı
qəhrəman,
Onun polad sinəsinə
sığışmadı ürəyi.
Dayan – deyib, yaxın gəldi, öpdü
onun alnından,
Yay gününün xoş səhəri, bir də
dağlar küləyi.
– Ana! Getdim, salamat qal
– deyib, öpdü qarını.
– Ana igid balasına açdi
öz qollarını,
Üz-gözündən öpə-öpə bağrına
basdı onu,
Ana yurdun bu qəhrəman, bu
namuslu oğlunu.
Dedi: öğlum, göz bəbəyim, sən
ey ömür çiçəyim!
Tarixlərin şahididir mənim bu
ağ birçəyim.
Görürəm ki, qəhrəmansan
sənə halaldır südüm,
Qulağında yaxşı qalsın mənim
sənə öyüdüm:
Biz sənsiz də dolanarıq, uğur
olsun yoluna,
Qılıncını çalan zaman qüvvət
gəlsin qoluna!
Sən düşmənin qabağında igid
tərpən vüqarla,
Tüfəngini təmiz saxla, atını da
tumarla!

Öz yerində olsun gərək igidin
yar-yarağı,
Hər gün yeni bir zəfərlə gəlsin
onun sorağı.
İgid balam! Hərçəndi ki, öz
ananam mən sənin,
Çörəyilə böyümüsən bizim
ana vətənin.
Payız vaxtı bağçamızın
heyvaları dəyəndə,
Şaftalılar şirələnib budağını
əyəndə,
Göndərərəm, sovqatını – sənin
də öz payını,
Sən də artır öz əlinlə
zəfərlərin sayını.
Get, düşmənin qabağında igid
tərpən vüqarla,
Tüfəngini təmiz saxla, atını da
tumarla".

**SonraVera Şiryenin bacısı qızı Zemfira Tağızadə Azərbaycan prezidentinə müraciətlə dedi:**

– Cənab prezident, Sizə ailəmizin adından dərin minnətdarlığımı bildirirəm. Çox sağ olun ki, mənim xalamı yaddan çıxarmırsınız. Siz heç kimi unutmursunuz. Hamıya – alimlərə, aktyorlara, həkimlərə, əlillərə, veteranlara və bizə, şəhid ailələrinə diqqət və qayğı göstərirsiniz.

Mənim oğlum, Azərbaycanın Milli Qəhrəmanı Eldar Tağızadə 1992-ci ildə şəhid olubdur. Anası kimi mən də onun yolunu davam etdirirəm. Biz Sizə minnətdarıq. Neçə ildir ki, sakit yaşayırıq. Bizim balalarımız böyüyür. Daha evlərə qara kağız gəlmir. Uşaqlarımıza toy edirik, bayram keçiririk.

Cənab prezident, buna görə Sizə, yalnız Sizə çox sağ ol deməliyik. Bu sabitliyin nə demək olduğunu biz şəhid anaları çox yaxşı başa düşürük. Sizə minnətdarıq ona görə ki, əlinizdə xəritə bütün dünyaya sübut elədiniz ki, Azərbaycan var, Azərbaycan yaşayır və Azərbaycan demokratik və sivil yolla inkişaf edir. Hamıya sübut etdiniz ki, biz təcavüzkar deyilik, təcavüzkar öz torpağında müharibə aparmaz. Biz Sizə inanırıq. İnanırıq

ki, Siz Qarabağ problemini sülh yolu ilə həll edəcəksiniz, bu niyyətinizi çox gözəl başa düşürük. Çox sağ olun. Bilin ki, biz həmişə, axıra qədər Sizin dayağınız olacağıq. Sağ olun. Allah həmişə Sizə yar olsun.

## XALQ ARTİSTİ, BƏSTƏKAR TOFİQ BAKIXANOVUN ÇIXIŞI

– Möhtərəm cənab prezident!

– Mən özümü xoşbəxt hiss edirəm ki, yaradıcılıq uğurlarım Azərbaycana Sizin başçılıq etdiyiniz dövrə, 1969-cu ilə təsadüf edir. 1969-cu ildə Sizin sayənizdə Azərbaycan Opera və Balet Teatrının balet truppası ilk dəfə beynəlxalq festivalda istirak etmişdir. O vaxt biz Azərbaycan musiqi mədəniyyətini yüksəklərə qaldırdıq. Qayıdandan sonra Sizin bizə olan qayğınızı da heç vaxt yaddan çıxarmaram.

Azərbaycan bəstəkarları içərisində əməkdar incəsənət xadimi adını ilk dəfə Siz mənə vermisiniz. Bir də ona görə xoşbəxtəm ki, 30 il bundan əvvəl mərhum atam Əhməd Bakıxanovun fəxri ad alması Sizin sayənizdə olmuşdu. Hətta eşitdik ki, demisiniz Əhməd Bakıxanov onsuz da xalq artistidir. Bu sözlər bizim nəslimiz üçün yadigardır.

Bu günlərdə mənim yaradıcılıq fəaliyyətimlə bağlı "Bəstəkar haqqında söz" kitabı çap olunubdur.

Həmin kitab mənim ünvanıma göndərdiyiniz məktubla açılır. Mən dalbadal dörd ildir ki, cənab Rauf Denktaşın dəvəti ilə Şimali Kiprdə beynəlxalq festivallarda iştirak etmişəm. 1998-ci il mayın 10-da, Sizin anadan olduğunuz gün şərəfinə, mən orada müəllif konserti vermişəm. Dünyanın çox yerindən gəlmiş nümayəndələrin qarşısında dedim ki, möhtərəm prezidentimiz Heydər Əliyevi ad günü münasibətilə təbrik edirəm. Bütün salon ayağa qalxdı. İnanın, ingilislər, fransızlar, italyanlar, almanlar – hamı Azərbaycanı Sizin adınızla tanıyır.

Mən bunun şahidiyəm.

Mən bu kitabdan cənab Rauf Denktaşa verəndə, latın əlifbası ilə yazıldığı üçün o, həmin məktubu oxudu. Mənə dedi ki, Siz xoşbəxt millətsiniz ki, dünyada tanınmış siyasətçi Heydər Əliyev kimi prezidentiniz var. Məktubdakı sözləri tərcümə edəndən sonra xarici qonaqlar gəlib məni təbrik edirdi və deyirdilər ki, bizim adımızdan möhtərəm prezidentinizi hər barədə təbrik edin.

İcazə verin, bu kitabda yazdığım ürək sözlərimi oxuyum: “Möhtərəm cənab prezident, biz bəstəkarlara qayğınıza və diqqətə görə Sizə öz dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm. Mənim yaradıcılığıma və pedaqoji fəaliyyətimə verdiyiniz yüksək qiymət məni bundan sonra da daha əzmlə yazıb-yaratmağa və musiqimizin xarici ölkələrdə geniş şəkildə təbliğinə sövq edir, ruhlandırır”. Hörmətli prezident, bu kitabı yadigar olaraq Sizə təqdim edirəm. Cənab prezident, Siz mahnıları sevirsiniz. 15 mahnı və Abbasqulu Ağa Bakıxanovun sözlərinə yazılmış 15 romansdan ibarət bu audio kasetləri də qəbul etmənizi xahiş edirəm. Sizə cansağlığı, uzun ömür arzulayıram. 30 il əvvəl Sizin sayənizdə fəxri ad almışam, üstündən 30 il keçib, yenə mükafat almışam. O gün olsun ki, mənim nəslimin davamçısı yenə də Sizin imzanızla bu adlara layiq olsun.

Sağ olun, minnətdaram.

## MEMAR HAFİZ ƏMİRXANOVUN ÇIXIŞI

Hörmətli prezident!

Bir qrup memara yüksək orden verməyinizi Sizin memarlarımıza göstərdiyiniz qayğının nümunəsi, Azərbaycan memarlığına boyük diqqət kimi qəbul edirəm. Xalqımız Sizi uzun illər sovet məkanında, sonra Azərbaycan Respublikasının müstəqilliyi dövründə ölkəmizdə gedən geniş miqyaslı memarlıq, tikinti, quruculuq işlərinin həm ilhamçısı, həm də bilavasitə iştirakçısı kimi tanıyır. Biz inanırıq ki, işğal altında olan torpaqlarımız Sizin titanik səyiniz nəticəsində azad ediləcək və biz memarların qarşısında kənd və şəhərlərimizin bərpası kimi məsul işlər duracaqdır.

Vaxtınızı çox almaq istəmirəm. Sizə gərgin işinizdə uğurlar, cansağlığı arzulayıram. Sizin verdiyiniz bu yüksək qiymət bütün memarlarımıza aiddir. Sizə bir daha dərin təşəkkürümüzü bildiririk. Çox sağ olun.

Sonra xalq artisti Zəroş Həmzəyevaya söz verildi.

## XALQ ARTİSTİ ZƏROŞ HƏMZƏYEVANIN ÇIXIŞI

– Möhtərəm prezident!

Bu gün mən burada yaradıcılığımdakı 60 ildə hiss etmədiyim sevinc və həyəcan keçirirəm. İnanın, mən gələndə yeriyə bilmirdim. Ona görə yox ki, bu gün mükafat, orden alıram. Yox, vaxtilə mən çox orden və me-

dallar almışam. Amma heç birində bu həyəcanı keçirməmişəm. Bu gün ona görə həyəcanlıyam ki, mən öz müstəqil dövlətimizin, müstəqil Azərbaycanımızın "Şöhrət" ordeni ilə təltif olunuram. Ən əsası isə ona görə ki, bu ordeni mənə 65 il bundan əvvəl bir məktəbdə, bir sinifdə oxuduğumuz, bir partada əyləşdiyimiz balaca Heydər – bu gün isə bəşəriyyəti heyran edən, dünya şöhrətli prezidentimiz Heydər Əliyev öz əlləri ilə verdi. Bundan xoşbəxt nə ola bilər?

Heydər müəllim, Allah Sizi bütün arzularınıza çatdırsın. Gün o gün olsun ki, torpaqlarımız geri alınsın, qələbə münasibətilə Qarabağda, Xankəndində Sizin ayaqlarınız altında qurbanlar kəsilsin.

Toy-bayram bürüsün vətən mülkünü,
Mən də qoca vaxtı görüm o günü.

* * *

Sonra Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidenti, xalq rəssamı Tahir Salahov çıxış etdi.

## RUSİYA RƏSSAMLIQ AKADEMİYASININ VİTSE-PREZİDENTİ, XALQ RƏSSAMI TAHİR SALAHOVUN ÇIXIŞI

– Çox hörmətli prezident, əziz Heydər Əlirza oğlu!

Hörmətli həmkarlar, dostlar! Bu gün mənə böyük şərəf nəsib olmuşdur: Mən "İstiqlal" ordeni kimi yüksək bir ordenlə təltif edilmişəm. Demək istəyirəm ki, bu, mənim üçün ən qiymətli mükafatdır, çünki o, müstəqil Azərbaycanın mənə ilk mükafatıdır. Cənab prezident, bu gün mən Bakıya bu mərasimdə iştirak etmək üçün gəlmişəm. Dostlarınız – bir çox yaradıcılıq ittifaqlarından olan Rusiya, Moskva ziyalıları Sizə ən səmimi salamlarını yetirirlər. Sizi hamı xatırlayır, sevir və dəyərləndirir. Keçmiş Sovet ittifaqının mədəniyyəti sahəsindəki və xalq təsərrüfatının bir çox sahələrindəki yaxşı işlərinizi hamı xatırlayır. Zənnimcə, mədəniyyətə verdiyiniz bu töhfə həm Azərbaycanın, həm də MDB-nin bir çox ölkələrinin mədəniyyət xadimləri üçün böyük səadətdir.

# “AZƏRXALÇA” İSTEHSALAT BİRLİYİNİN BAŞ DİREKTORU, XALQ RƏSSAMI KAMİL ƏLİYEVİN ÇIXIŞI

– Cənab Heydər Əliyeviç!

Mən danışmaya bilməzdim. Ona görə ki, bizə çox böyük şərəf vermisiniz.

**Heydər Əliyev**: Bilirsən, nə var, Heydər Əliyeviç yox.

**Kamil Əliyev**: Heydər Əlirza oğlu.

**Heydər Əliyev**: Əlirza oğlu da deyə bilərsən. Əliyeviç getdi. Biz müstəqil dövlətik və bir neçə gün əvvəl fərman imzalamışam. İstəsən, deyə bilərsən, prezident, Heydər Əlirza oğlu. Amma bizdə Heydər Əlirza oğlu da o birisi dildən tərcümə olunan şeydir. Ona görə səhvə yol vermə.

**Kamil Əliyev**: Heydər Əlirza oğlu, boynuma alıram. Sağ olun.

Heydər Əlirza oğlu, Sizin mənə verdiyiniz orden 30 min, 50 min, 100 min, bəlkə də yarım milyon xalçaçı qadınlara aiddir. Bizim elə bir sahəmiz yoxdur ki, orada 100 min nəfər əhatə olunsun. Amma 8 milyonluq Azərbaycan xalqının içində ən azı 100 min xalçaçı var. Xalçaçılıq, xalq sənətinə verdiyiniz qiymət bizim xalçaçılarmızın ürəyindən oldu. Çünki bu tətbiqi incəsənətə, bizə məxsus olan xalçaçılıq sənətinə heç kim belə qiymət verməyibdir. Cürbəcür sahələrdə işləyənlər Amerikada, İngiltərədə, Fransada, Leninqradda oxuyublar. Onların çox böyük inkişafları var. Amma xalçaçılıq sənəti anamızın sənətidir. Züm-zümə ilə ilmə vurmaqla bu sənəti elə bir professional səviyyəyə gətirib çıxarıblar ki, indi xalçaçılarımız bütün dünyada məşhurdur.

Əlbəttə, bu ordeni ən yüksək mükafat hesab edirəm. Mənim bir medalım da var. Onu Amerikada veriblər. Azərbaycan xalçası dünyada birinci yeri tutubdur. O medalın balacasını döşümə taxmışam.

Cənab Heydər Əliyev, Sizi bütün xalçaçılar adından, bu sahədə işləyən insanlar adından ürəkdən təbrik edirəm. Siz millətimizə məxsus olan sənəti belə yüksək səviyyəyə qaldırdınız. Çox sağ olun, var olun.

## XAN ŞUŞİNSKİNİN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2001-ci ildə Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsi, məşhur xanəndə, xalq artisti İsfəndiyar Aslan oğlu Cavanşirovun (Xan Şuşinskinin) anadan olmasının 100 ili tamam olur.

Azərbaycan klassik xanəndəlik ənənələrinin layiqli davamçılarından biri olan Xan Şuşinski müstəsna fitri istedadı, geniş diapazonlu gur və məlahətli səsi, yüksək ifaçılıq mədəniyyəti sayəsində Azərbaycan muğam sənətini zənginiəşdirmiş, bir neçə muğama yeni xallar, guşə və şöbələr əlavə etmişdir. Onun ifasında səslənmiş muğam və xalq mahnıları əsil sənət inciləri kimi milli musiqi mədəniyyəti xəzinəmizə həmişəlik daxil olmuşdur. Öz 60 illik yaradıcılığı ilə Azərbaycan xanəndəlik sənəti tarixində özünəməxsus məktəb yaratmış Xan Şuşinski ölkəmizdə istedadlı ifaçılar nəslinin yetişdirilməsinə də böyük əmək sərf etmişdir.

XX əsrdə Azərbaycan milli musiqi sənətinin inkişafında mühüm rol oynamış Xan Şuşinskinin 100 illik yubileyinin ölkəmizdə layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram.

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə, Təhsil Nazirliyinə və Azərbaycan Milli Elmlər Akademiyasına tapşırılsın ki, Xan Şuşinskinin anadan olmasının 100 illiyinə həsr olunmuş yubiley tədbirləri hazırlayıb həyata keçirsinlər.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 iyul 2001-ci il*

# "TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN MÜHAFİZƏSİ VƏ ONLARDAN İSTİFADƏ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN QÜVVƏDƏN DÜŞMÜŞ HESAB EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 6, maddə 365) qüvvəyə minməsi ilə əlaqədar Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında" Azərbaycan Respublikasının Qanunu (Azərbaycan SSR Ali Sovetinin məlumatı, 1978-ci il, № 14, maddə 136, maddə 137; 1983-cü il, № 23, maddə 216) qüvvədən düşmüş hesab edilsin.

II. Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 oktyabr 2001-ci il*

# "KİTABXANA İŞİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQİ İLƏ ƏLAQƏDAR "MƏDƏNİYYƏT HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 4, maddə 233) 24-cü maddəsinin ikinci hissəsi aşağıdakı redaksiyada verilsin:

"Dövlət və qeyri-dövlət nəşriyyatları, nəşriyyat fəaliyyəti ilə məşğul olan poliqrafiya müəssisələri, qəzet və jurnal redaksiyaları və digər hüquqi şəxslər tərəfindən buraxılan çap məhsullarından "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş kitabxanalara pulsuz məcburi nüsxələr göndərilir.".

II. Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 oktyabr 2001-ci il*

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV DAHİ SƏNƏTKAR RƏŞİD BEHBUDOVUN XATİRƏ GECƏSİNDƏ İŞTİRAK ETMİŞDİR

*Respublika sarayı*
*13 oktyabr 2001-ci il*

Oktyabrın 13-də Respublika sarayında dahi sənətkar, bənzərsiz mahnı ustası, SSRİ xalq artisti Rəşid Behbudovun xatirə gecəsi keçirilmişdir.

**SSRİ xalq artisti Müslüm Maqomayev gecəni açaraq dedi:**

– Hörmətli Azərbaycan Respublikasının prezidenti, əziz Heydər Əlirza oğlu!

Əziz dostlar! Xanımlar və cənablar!

Biz bu gün buraya Azərbaycanın dahi müğənnisi Rəşid Məcid oğlu Behbudovu xatırlamaq və ona dərin ehtiramımızı bildirmək üçün toplaşmışıq. Mən onun bütün fəxri adlarını, bütün mükafatlarını sadalayardım, lakin sadəcə, Rəşid Beybudov demək kifayətdir – bunun özü ən yüksək addır. Mən lap uşaqlıqdan onun pərəstişkarı olmuşam və elə o vaxtdan da ona bənzəməyə çalışmışam. Neçə illər ötmüş, Azərbaycanda çoxlu gözəl müğənnilər, gənc istedadlar meydana gəlmişdir, ikinci Behbudov isə, təəssüf ki, hələ yoxdur.

Mən dahi Rəşid Behbudova həsr edilmiş bu nurlu bayramı açmaq şərəfinə nail olduğum üçün qürur hissi keçirirəm. Gözəl müğənni, Rəşid Behbudovun qızı, gözəl Rəşidə xanımı məmnuniyyətlə səhnəyə dəvət edirəm.

Pərdə qalxdı və tamaşaçıların gözü önündə ifaçılıq sənəti korifeyinin yaratdığı və onun adını daşıyan Mahnı Teatrının salonunu əks etdirən gözəl dekorasiya canlandı. Müğənninin qızı Rəşidə Behbudova atasının xatirəsinə həsr olunmuş mahnısını ifa etdi.

**Rəşidə Behbudova daha sonra Azərbaycan prezidenti Heydər Əliyevə təşəkkür edərək dedi:**

– Çox hörmətli cənab prezident, əziz Heydər Əlirza oğlu!

Əziz qonaqlar!

Möhtərəm tamaşaçılar!

Mən bu gözəl gecəyə görə Sizə təşəkkür etmək istəyirəm. Atamla sədaqətli dostluğunuza görə, onun üçün etdiyiniz bütün yaxşılıqlara görə, ona olan dəstəyinizə görə, səmimi və insani münasibətinizə görə çox sağ olun demək istəyirəm. Siz onu yaradıcılığında da, həyatda da dəstəkləyirdiniz. Biz bunların hamısını xatırlayırıq. İnanın, atama etdiyiniz bütün yaxşılıqlar xatirimizdə əbədi olaraq qalacaqdır. Mən deməyə söz tapa bilmirəm. Çox sağ olun.

Rəşidə xanım Ramiz Mirişlinin şair Fikrət Qocanın sözlərinə bəstələdiyi “Rəşidin nəğmələri” mahnısını da ifa etdi.

Sonra Üzeyir Hacıbəyov adına Dövlət Simfonik Orkestrinin müşayiəti ilə Azərbaycanın əməkdar artistləri, Rəşid Behbudov adına Mahnı Teatrının solistləri Gülyaz və Gülyanaq Məmmədovaların, respublikanın xalq artisti Xuraman Qasımovanın, beynəlxalq müsabiqə laureatı Samir Cəfərovun ifasında Rəşid Behbudovun repertuarından mahnılar səsləndi.

**Gecənin qonağı, Rusiya Federasiyasının xalq artisti Lev Leşşenko çıxış edərək dedi:**

– Axşamınız xeyir, əziz dostlar! Sizi sapsağlam və firavan görmək çox xoşdur. Bu gün sizin şanlı əməkçilər şəhəri olan Bakıda, Azərbaycanda olmaq mənim üçün çox fərəhlidir. Bu gün burada, deyərdim ki, təkcə sizin yox, həm də bizim böyük müğənnimiz Rəşid Behbudovun xatirə gecəsində çıxış etmək mənim üçün hədsiz şərəfdir. Mən onun mahnılarını indiyədək xatırlayıram, bu mahnılar qəlbimdə daim səslənir. Onun nurlu sənəti, onun xalqının incəsənəti unudulmazdır və heç vaxt unudulmayacaqdır.

Çox sağ olun, sizə xoşbəxtlik arzulayıram və Moskvadan atəşin salam yetirirəm.

Gecədə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevin Rəşid Behbudova Sosialist Əməyi Qəhrəmanının Qızıl ulduzunu təqdim etməsini göstərən sənədli kadrlar da nümayiş etdirildi.

* * *

**Sonra Türkiyənin “Raks Holdinq” şirkətinin baş əlaqə birləşdiricisi Sertan Ayhana söz verildi. O dedi:**

– Azərbaycan Respublikasının hörmətli prezidenti cənab – Heydər Əliyev!

Çox dəyərli qonaqlar, başımızın tacı, gözümüzün nuru, qiymətli sənətçilərimiz, müğənnilərimiz!

Türkiyənin və dünyanın ən böyük şirkətlərindən biri olan "Raks Holdinq" adından hamınıza hörmət və ehtiramımı bildirməkdən böyük məmnunluq və şərəf duyuram. Dünyada məşhur, yüz illərdən bir yetişən böyük müğənni, sənətinin hər sahəsində hünərini göstərmiş Rəşid Behbudovun 85-ci ildönümünü anma gecəsində sizlərlə bir yerdə olmaqdan sonsuz sevinc hissi keçirirəm.

Hər ölkənin sənətçiləri, qəhrəmanları, yazarları vardır. Amma bunların çoxu zaman çatdıqda əbədiyyətə qovuşarlar və zaman içində də unudulub gedərlər. Ancaq Rəşid Behbudov üçün bunları söyləmək mümkün deyildir. Rəşid Behbudov sönməz ulduz kimi dünya var olduqca yaşayacaq, Azərbaycanın sönməz ulduzu olmaqda davam edəcəkdir.

Rəşid Behbudov kimi sənətçilər, bayaq dediyim kimi, yüz ildən bir yetişir. Ancaq bunların oxuduqları mahnıları dünyanın başqa ölkələrindəki xalqlara çatdırmaq hamımızın borcu olmalıdır. Çünki bununla ölkələrin misilsiz xəzinələrini, mədəni dəyərlərini, nə qədər zəngin mədəniyyətə sahib olduqlarını başqa ölkələrə anlatmaq imkanı yaratmış oluruq. Hörmətli prezidentimizə üç il əvvəl söz verdiyim kimi, Azərbaycanın gəldi-gedər dəyərlərini deyil, yüz illər boyu yaşayacaq mədəni dəyərlərini dünyanın başqa ölkələrinə də tanıtmaq məqsədi ilə gördüyümüz işlərin bu gün ilk bəhrəsini yaşayırıq.

Yüzlərlə əsərin içindən seçdiyimiz Rəşid Behbudovun əsərlərini bu gün dünyanın ən yüksək texnoloji imkanlarından istifadə edərək, müasir tələblərə cavab verən 12 albomdan ibarət böyük bir əsər yaratdıq. Məqsədimiz odur ki, bu əsərləri Amerikadan Yaponiyaya qədər dünyanın inkişaf etmiş bütün ölkələrində də tanıdaq, həmin ölkələrdəki insanların Azərbaycanla mədəni əlaqələrinin güclənməsinə nail olaq. Üç illik fəaliyyət, gecəli-gündüzlü çalışma nəticəsində bunları ərsəyə gətirdik. Bütün bunlara görə, "Azərbaycan Mədəniyyətinin Dostları Fondu"nun dəyərli rəhbəri Mehriban xanıma, Kamil bəyə, Rəşidə xanıma və studiyamızda çalışan bütün həmkarlarıma təşəkkür edirəm, hörmət və ehtiramımı bildirirəm.

Dəyərli müğənni Rəşid Behbudovun əsərlərini yenidən gün işığına çıxarıb, dünya üzündə günəş kimi parlamasını təmin edəcək bir "brilyant" yaratdıq. Bayaq dediyim kimi, bu brilyant 12 albomdan, yüzlərlə mahnıdan ibarətdir.

Hörmətli prezidentim!

Sizə bu dəyərli və qiymətli albomu təqdim etməkdən böyük fərəh və qürur duyuram. Eyni zamanda Sizə başqa bir hədiyyəm də vardır. Bu

gün dünyada müasir texnologiyanı mənimsəyən şirkətimizin başqa sahələrdə fəaliyyət göstərən fabriklərimiz tərəfindən hazırlanmış, üzərində Azərbaycan bayrağının da yer aldığı, ölkələrimiz arasında keçmişdə var olub, əbədiyyətə qədər davam edəcək dostluğumuzun simvolu olan hədiyyəni də Sizə təqdim etmək istəyirəm. Xahiş edirəm, bunları qəbul edəsiniz. Təşəkkür edirəm.

**(Cənab Sertan Ayhan xatirə hədiyyələrini Azərbaycan prezidenti Heydər Əliyevə təqdim etdi).**

Azərbaycan prezidenti Heydər Əliyev xatirə gecəsində geniş nitq söylədi.

– Əziz dostlar!

Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar!

Müstəqil Azərbaycanın onuncu ildönümü münasibətilə keçirilən bayram mərasimləri sırasında Azərbaycanın böyük oğlu, dahi sənətkar Rəşid Behbudovun xatirə gecəsinin gözəl, təntənəli şəraitdə keçirilməsi qədim tarixə malik Azərbaycan xalqının nə qədər zəngin mədəniyyətə malik olduğunu və dünya mədəniyyəti xəzinəsinə necə böyük şəxsiyyətlər verdiyini nümayiş etdirir.

Rəşid Behbudov nadir bir insandır, nadir şəxsiyyətdir. Azərbaycan mədəniyyəti tarixində bənzərsiz bir incəsənət ustasıdır. Bizim tədqiqatçılar Rəşid Behbudovun yaradıcılığı, onun qoyduğu irs haqqında indiyə qədər kitablar yazıblar, bundan sonra da yazacaqlar. Hesab edirəm ki, XX əsrdə Azərbaycan mədəniyyətinin inkişaf etməsində nə qədər onun böyük xidmətləri olduğu zaman getdikcə daha da dərindən dərk olunacaqdır. Ancaq bugünkü xatirə gecəsi Azərbaycan xalqının, müstəqil, azad Azərbaycanın Rəşid Behbudov yaradıcılığına verdiyi daha bir qiymətdir.

Rəşid Behbudov öz təkraredilməz, məlahətli səsi ilə, xarici görünüşü ilə, artistlik istedadı ilə böyük musiqiçi və gözəl müğənni idi. Rəşid Behbudovun Azərbaycan mədəniyyətinə gəlməsinin bir neçə mərhələsi var. Onların hər biri bizim xalqımızın mədəniyyətini, musiqisini, mahnı sənətini, incəsənətini yüksəldib və onlara yeni-yeni forma vermişdir.

Mən Rəşid Behbudovu ilk dəfə 1943-cü ildə, ikinci dünya müharibəsinin o ağır dövründə Bakıda Zabitlər evində dinləmişəm. Ondan sonra mən Rəşid Behbudovun sənətinə, onun səsinə vurğunam və bütün ötən illər onun mahnıları, onun ifa etdiyi gözəl rollar, onun gözəl səsi məni həmişə heyran edibdir.

Rəşid Behbudov Azərbaycan səhnəsində ilk dəfə görünəndən dərhal böyük hörmət və şöhrət qazandı. Təbiidir ki, bunlar hamısı onun fitri istedadı ilə bağlı idi. Xalq dilində buna Allah vergisi deyirlər. Çünki bir adamda bu qədər gözəl xüsusiyyətlərin yüksək səviyyədə cəm olması həddən ziyada nadir bir hadisədir. Bunlara görə də Rəşid Behbudov Azərbaycan mədəniyyətinin ən dəyərli incilərindən biri kimi, xalqımızın tarixinə əbədi həkk olunubdur.

Rəşid Behbudov mərhum Tofiq Quliyev ilə birlikdə Azərbaycanda ilk estrada mahnılarının yaradıcısı olubdur. Bilirsiniz ki, 40-cı illərdə artıq estrada musiqisi çox cazibədar olmuşdu. Ancaq bir çox hallarda bu, ümumi, trafaret xarakteri daşıyırdı. Ancaq Rəşid Behbudov özünəməxsus ustalığı ilə həm müasir estrada mahnılarını çox gözəl ifa edirdi, həm də Azərbaycan musiqi folklorundan, Azərbaycan xalq musiqisindən gözəl mahnıları götürüb onları müasirləşdirirdi və müasir estrada səviyyəsinə qaldırırdı. Yəni deyə bilərəm ki, Rəşid Behbudov Azərbaycanın xalq mahnıları ilə, musiqi folkloru ilə, müasir estrada mahnılarının Azərbaycan xüsusiyyətləri daşıyan sintezini yarada bilmişdir.

Hesab edirəm ki, bu, bizim musiqi tariximizdə, incəsənət tariximizdə xüsusi yer tutur. Xatırlayın, o, bizim qədim xalq mahnılarını elə müasirləşdirirdi, elə gözəl ifa edirdi ki, adam heyran qalırdı – bu, qədim xalq mahnısıdır, ya müasir estrada mahnısıdır. O, heç vaxt öz milli köklərindən ayrılmamışdır. Onun o dövrdə ifa etdiyi mahnıların hamısı milli xarakter daşımışdır. Azərbaycanın milli folklorundan, xalq dilindən gələn sözləri mahnılarında o qədər şirin, o qədər məharətlə ifa edirdi ki, adamı ikiqat, üçqat sevindirirdi,mənəvi zövq verirdi.

Bu gün burada, səhnədə bizim gözəl qızlarımız Rəşid Behbudovun daim oxuduğu "Ləbu-ləb" mahnısını çox yaxşı ifa etdilər. Amma Rəşid Behbudovun ifası tamamilə başqa idi. Mən nəyə fikir verdim? Rəşid Behbudov üslubuna. Məsələn, mahnılardan birində sözlər var: "İrəhmin gəlsin, nənə". Azərbaycan ədəbi dilində "rəhmin gəlsin" deyilir. Amma xalq lap keçmişdən "rəhmin gəlsin" əvəzinə, "irəhmin gəlsin" deyir. Yəni o, mahnıları müasirləşdirəndə onların xalqa xas olan xüsusiyyətlərini, ləzzətli məqamlarını heç vaxt itirmirdi. O, mahnını oxuyanda bilmirdin ki, qədim xalq mahnısı oxuyur, yaxud da müasir estrada mahnısı oxuyur. Ona görə də Rəşid Behbudovun bu sahədə yaradıcılığı, hesab edirəm, Azərbaycan musiqi tarixində xüsusi yer tutur.

Rəşid Behbudov müğənni kimi, musiqiçi kimi çoxşaxəli bir insan idi. O, ilbəil öz üzərində işləyərək yaradıcılığını daim inkişaf etdirirdi, da-

im zənginləşdirirdi. Uzun illər onun musiqisinin pərəstişkarı olan bir şəxs kimi, indi bu salonda oturub bütün o dövrləri xatırlayanda mən düşünürəm ki, Rəşid Behbudov sənəti hər mərhələdə nə qədər inkişaf edirdi, irəli gedirdi.

Rəşid Behbudovun həyatında, sənət fəaliyyətində ən görkəmli yer tutan dahi Üzeyir Hacıbəyovun "Arşın mal alan" operettasının ekrana köçürülməsində ifa etdiyi Əsgər roludur. Məlumdur ki, Üzeyir Hacıbəyov "Arşın mal alan" əsərini XX əsrin əvvəllərində yazıbdır. Deyə bilərəm ki, o, bir əsrdir yaşayır, gələcək əsrlərdə də yaşayacaqdır. Çünki o qədər mənalı-məzmunlu, həm də gözəl musiqiyə malik olan bir əsərdir ki, heç vaxt öz aktuallığını itirmir və nə qədər təkrar olsa da, insanı, musiqi sevən, sənət sevən insanı heç vaxt yormur. Əksinə, hər dəfə insana sevinc gətirir, insana ilham verir.

"Arşın mal alan" operettası Üzeyir Hacıbəyov onu yaradandan bəri daim Azərbaycan səhnəsində nümayiş etdirilibdir. Təkcə Azərbaycanda yox, tarixdən bilirəm, keçən əsrin 20-30-cu və hətta bir neçə mərkəzi Asiya ölkələrində və bizə dilcə yaxın olan başqa öIkələrdə "Arşın mal alan" operettası səhnədə çox uğurla göstərilirdi. Ancaq dahi bəstəkar Üzeyir Hacıbəyovun, dahi müğənni Rəşid Behbudovun və Azərbaycanın çox böyük rejissorlarından biri Rza Təhmasibin hələ o ağır dövrdə, – 1944-cü ildə, müharibə qurtarmamışdı, – "Arşın mal alan"ı ekranlaşdırması və təbiidir, təkcə səhnədən ekrana keçirməsi yox, yeni quruluşda verməsi böyük bir hadisə idi. Səhv etmirəmsə, 1945-ci ildə bu film artıq işıq üzü gördü. Qısa bir müddətdə təkcə Azərbaycanı yox, demək olar ki, keçmiş SSRİ-nin bütün şəhərlərini, bölgələrini, respublikalarını fəth etdi.

Bir sənətkar kimi Rəşid Behbudovun xüsusiyyətlərindən biri də ondan ibarət idi ki, gözəl səsi ilə yanaşı, mahnının sözlərini də gözəl tələffüz etmək qabiliyyəti var idi. Bəzən mahnını oxuyurlar, sözlər bir-birinə toqquşur, qavramaq mümkün olmur. Amma Rəşid Behbudov, ümumiyyətlə, bütün mahnıları ifa edərkən, sözləri o qədər aydın, səlist, o qədər düzgün tələffüz edirdi ki, bu, onun sənətini daha da yüksəldirdi.

Ancaq bununla bərabər bir xüsusiyyəti də ondan ibarət idi ki, o, Azərbaycan dilini gözəl bilərək, eyni zamanda rus dilini də gözəl bilirdi. Ümumiyyətlə, onun başqa xalqların dillərində mahnılar ifa etmək qabiliyyəti, demək olar ki, dünyada heç bir sənətkara nəsib olmayıbdır.

"Arşın mal alan" filmi Azərbaycanda tarixi bir hadisə kimi meydana çıxdı. Ancaq əgər bu, təkcə Azərbaycan çərçivəsində qalsaydı, təbiidir

ki, indi biz bunun haqqında bu qədər danışa bilməzdik. Ancaq onu rus dilinə tərcümə etdilər. Ən əsas cəhət ondan ibarətdir ki, Rəşid rus dilində də özü oxuyurdu, onun səsi idi, onun mahnıları idi. Beləliklə, o, keçmiş Sovetlər İttifaqında bütün xalqlara tanış olan, xalqların bildiyi rus dilində hər yeri gəzdi.

Mənim yaxşı xatirimdədir, o illər Leninqradda oxuyurdum. Orada "Arşın mal alan" filmi o qədər böyük müvəffəqiyyətlə gedirdi ki, insanlar o filmə bir daha, bir daha baxmaq istəyirdi. Amma iş təkcə bunda deyil. Rəşid Behbudovun o filmdə oxuduğu mahnıları insanlar gözəl bir musiqi kimi qəbul etmişdilər və çox yerlərdə oxuyurdular. Hətta bəzən ailələrdə, şənliklərdə, görüşəndə bir də görürdün ki, məsələn, bir rus Rəşid Behbudovun mahnısını böyük sevgi və məhəbbətlə ifa edir. Bu, Azərbaycan mədəniyyətini, Azərbaycan musiqisini, mahnısını ilk dəfə dünyaya tanıdan bir əsər oldu. Yəni o yaranandan filmə çevrilənə qədər, onun haqqında film yaranana qədər bir mərhələ idi. Bizim xalq və bizə yaxın xalqlar bu əsəri yaxşı bilirdilər. Amma onu filmə çevirib, rus dilinə tərcümə edəndən sonra və Rəşid özü həmin mahnıları rus dilində gözəl ifa edəndən sonra bütün dünyanı dolaşdı. Demək olar ki, Azərbaycan musiqisini, mədəniyyətini, incəsənətini, mahnısını dünyaya açan, yəni geniş kütlələrə açan ikinci belə hadisə olmamışdır.

Bilirsiniz, ümumiyyətlə, mədəniyyət, xüsusən musiqi mədəniyyəti, mahnı xalqları başqa xalqlar qarşısında ən gözəl, ən aydın tanıdan bir sahədir. Söz yox ki, hər bir ölkədə hansısa bir alimin ixtirası, hansısa başqa bir hadisə dünya tarixinə daxil olur. Amma onların hamısı, əksəriyyəti, demək olar ki, müəyyən xalqların, yaxud millətlərin, ölkələrin çərçivəsində qalır.

Məsələn, dünyada ən məşhur alimlərdən biri Eynşteyn çoxlarına məlumdur, amma çoxlarına da məlum deyildir. İndi bu zalda soruşsan ki, onu kim yaxşı tanıyır, yəqin çox az adam tapılar. Ancaq mədəniyyət, yəni musiqi mədəniyyəti, mahnı mədəniyyəti təkcə bizim üçün deyil, bütün xalqlar üçündür. 0 qədər cazibədardır ki, dünyada xalqı bütün başqa nailiyyətlərindən daha yaxşı tanıdır.

Yenə də xatırlayıram. 50-ci illərdə SSRİ-yə, o cümlədən Azərbaycana ilk dəfə Hindistanın "Avara" filmi və Raç Kapur gəldi. O vaxta qədər biz heç bilmirdik ki, Hindistanın mahnısı nədir, musiqisi nədir və onun filmi nədir. Amma "Avara" filmi ilə və böyük aktyor, artist Raç Kapur ilə Azərbaycanda Hindistanı əvvəlki dövrlərdən daha da çox tanıdılar. Belə misallar çəkmək olar. Ancaq dünya miqyasında bunlar azdır.

Amma Rəşid Azərbaycan mədəniyyətini, Azərbaycan xalqını təkcə "Arşın mal alan" filmi ilə tanıtmayıbdır. Rəşid dünyanın bir çox ölkələrinə səyahət edib, böyük-böyük salonlarda konsertlər veribdir və Azərbaycan musiqisini, mahnılarını öz gözəl üslubu ilə, gözəl ifası ilə o ölkələrin insanlarının qəlbinə salıbdır.

Deyə bilərəm ki, Rəşid Behbudov dünyanı dolaşmış ilk Azərbaycan müğənnisidir, musiqiçisidir. İkinci beləsi olmayıbdır.

Yenə bir hadisə yadıma düşür. Bir dəfə bizim bir neçə yoldaşlar, o cümlədən mən Rəşid Behbudovun evinə getmişdik. Oturub söhbət edirdik, çay içirdik. O, Türkiyə səfərindən qayıtmışdı. O vaxt hələ televiziya yox idi. Radio musiqini o qədər də geniş verə bilmirdi. Rəşid Behbudov, demək olar ki, bizim mədəniyyət xadimlərindən Sovet vaxtı Türkiyəyə gedən ilk Azərbaycan elçisi, müğənnisi olubdur.

Niyazi də xarici ölkələrə çox gedibdir, bəzi opera, balet əsərlərini tamaşaya qoyubdur. Amma Rəşid Behbudov geniş kütlə içərisində, böyük salonlarda Azərbaycan mahnılarını oxuyubdur. Bilirsiniz ki, Azərbaycan mahnıları bizim qardaş türk xalqı üçün nə qədər böyük zövq verir, onda nə qədər maraq doğurur. Eləcə də türk mahnıları, türk musiqisi Azərbaycanda sevildiyi kimi.

Xatırlayıram, Rəşid Behbudov maqnitofonu işə saldı, orada oxuduğu bir mahnını səsləndirdi. Onun birinci xüsusiyyəti bundan ibarət idi ki, o, getdiyi yeri hansısa bir mahnı ilə mütləq birləşdirirdi. Hansı mahnı olduğunu xatırlaya bilmirəm, amma onun hər bəndi qurtarandan sonra o, çox gözəl səsi ilə deyirdi: "İstanbul–Bakı, İstanbul–Azərbaycan, Türkiyə–Azərbaycan".

Hansı ölkəyə gedirdisə, mütləq səfərindən əvvəl oranın gözəl mahnılarından bir neçəsini o ölkənin xalqının dilində hazırlayırdı, gedib orada oxuyurdu və böyük hörmət qazanırdı. Bu barədə çox demək olar.

Mən sadəcə, öz xatirələrimi, hamısını da yox, bəzilərini, deyirəm. Çünki hamı bilməlidir, gələcək nəsillər də bilməlidir ki, Rəşid Behbudov Azərbaycan xalqına, onun dünyada tanınmasına nə qədər böyük xidmətlər göstəribdir. Mənim böyük qardaşım, rəhmətlik akademik Həsən Əliyevlə bir neçə dəfə söhbətdə onun dediyi sözlər mənim yadımdan heç vaxt çıxmır. O deyirdi ki, biz yüz ildir dünyaya neft veririk, amma biz bununla özümüzü dünyaya tanıda bilmədik. Ancaq bir nəfər, bir insan – Rəsid Behbudov öz mahnıları ilə, yəni Azərbaycan mahnıları və musiqisi ilə Azərbaycanı bütün dünyaya tanıtdı. Çox düzgün deyilmiş sözlər idi. Mən bunu heç vaxt yadımdan çıxartmaram. Çünki bu, həqi-

qətdir. Rəşid Behbudov, demək olar ki, vokal sənətinin bütün sahələrində özünü çox məharətlə göstəribdir. ”Sevil” operası... Xatırlayıram ki, 1953-cü ildə bizim opera və balet teatrında “Sevil” operasının premyerası idi. Təbiidir ki, mən orada idim. Mən Rəşid Behbudovun belə mərasimlərinin çoxuna gedirdim. Fikrət Əmirovun yazdığı “Sevil” operası çox böyük təsir bağışladı. Onu da demək istəyirəm ki, Üzeyir Hacıbəyovun yazdığı “Koroğlu” operasından sonra da Azərbaycanda opera janrında əsərlər yaranıbdır. Amma ondan sonra “Sevil” operası qədər çox dəyərli, yüksək musiqiyə, professional musiqiyə malik olan opera olmamışdır.

Bu, bəlkə də mənim subyektiv fikrimdir. Ancaq hesab edirəm ki, bu, həqiqətə yaxındır. Rəşid Behbudov orada Balaş rolunu çox məharətlə ifa etdi. Biz Cəfər Cabbarlının “Sevil” pyesini çox yaxşı bilirdik. Gənclik vaxtlarımda bizim teatrlarda “Sevil” pyesi tamaşaya çox qoyulurdu.

Ona görə də C.Cabbarlı yaratdığı “Sevil” pyesi bizim yaddaşımızda bir dram əsəri kimi qalmışdı. Amma eyni zamanda onun dram xüsusiyyətini saxlayaraq, opera yaratmaq, əlbəttə ki, bizim böyük bəstəkarımız Fikrət Əmirovun ən uğurlu nailiyyətlərindən biridir. “Sevil” operası o vaxt çox böyük əks-səda yaratdı və uzun müddət də səhnədə idi. Son vaxtlarda da səhnədə olmuşdur.

O vaxt da mən düşünürdüm və indi bu düşüncələrim haqqında demək istəyirəm. Mənə belə gəlir ki, Üzeyir Hacıbəyov “Koroğlu” operasını yazarkən, – məlumdur ki, o, bir xeyli müddət bu operanın yazılmasına hazırlaşıbdır, – böyük sənətkarımız Bülbülü nəzərdə tutubdur. Bülbül və Koroğlu rolu... Elə bil ki, Koroğlu rolu Bülbül üçün yaranıbdır. Ona görə də Koroğlu əsəri o vaxtdan, 1938-ci ildən indiyə qədər səhnədədir. Bundan sonra da səhnədə olacaqdır. Yeni-yeni ifaçılar meydana çıxır. Çox gözəl opera və vokal ustaları meydana çıxır və Koroğlu rolunu ifa edirlər. Amma hamısı çalışır ki, o rolu Bülbül kimi ifa etsin. Çünki bizim hamımızın hafizəsində Koroğlu həmin səhnədə, atın üstündə Bülbülün gözəl, məlahətli səsi ilə beynimizdə həkk olunubdur.

Eləcə də Fikrət Əmirov “Sevil” operasını yazarkən... Əgər Rəşid Behbudov olmasaydı, bəlkə də o, “Sevil” operasını yaza bilməzdi, yəni yazardı, amma onu ictimaiyyətə, insanlara, cəmiyyətə o səviyyədə təqdim edə bilməzdi.

Beləliklə, mən dedim, Rəşid Behbudovun yaradıcılığı çoxşaxəlidir. Estrada, ondan sonra xalq mahnılarının müasirləşdirilməsi və estrada vasitəsilə çox gözəl ifa olunması.

"Arşın mal alan" daim yaşayacaqdır. Mən indi bu filmin kadrlarına baxdım. Çox təəssüf etdim ki, vaxt keçdikcə o kadrlar köhnəlir. Mən hesab edirəm ki, bizim Mədəniyyət Nazirliyi və bu sahə ilə məşğul olan başqa təşkilatlarımız gərək belə ölməz əsərləri bərpa etsinlər. Kitab daim yaşayır, ancaq film də daim yaşamalıdır, indi müasir texnika, texnologiya imkan verir ki, onlar əvvəl yarandıqları kimi bərpa edilsin. Bunu mütləq etmək lazımdır.

"Arşın mal alan" Azərbaycan mədəniyyəti tarixinin ən böyük nailiyyətlərindən biridir. Ona görə o film yaşamalıdır. O film yaşamalıdır ki, Üzeyir Hacıbəyovun nə qədər böyük insan olduğunu gələcək nəsillər də görsün. Rza Təhmasibin nə qədər böyük rejissor olduğunu görsün. Rəşid Behbudovun nə qədər istedadlı müğənni olduğunu gələcək nəsillər görsün. Biz mütləq bunu etməliyik. Biz bunların hamısını görmüşük. Amma gələcək nəsillər haqqında düşünmək lazımdır. Mütləq düşünmək lazımdır.

Mən Rəşid Behbudovun yaradıcılığı haqqında bəzi fikirlərimi bildirdim. Amma xatirələrim də çoxdur. Mənim onunla şəxsi dostluq münasibətim vardı. Hələ Azərbaycanın rəhbəri olmazdan xeyli əvvəl onunla şəxsi münasibətim, dostluğum vardı. Bu dostluqda məni ona bağlayan onun gözəl sənəti idi. O isə nədənsə, mənə də müəyyən qədər, hansı səbəblərə görəsə çox hörmət edən bir insan idi. Hələ o vaxt ki, mən respublikanın rəhbərliyində deyildim.

Xatirimdədir, bir dəfə, – indi "Şəhriyar" klubu adlanır, orada – xaricdən gəlmiş hansısa məşhur müğənninin konserti vardı, mən konsertə getmişdim. Orada kiçik bir loja var, onda mən artıq Dövlət Təhlükəsizliyi Komitəsinin sədri idim, yaxud ondan əvvəl idi, hər halda 60-cı illərin ortaları, bəlkə də əvvəli idi. Rəşid də orada idi. Bir yerdə dinlədik. Sonra oradan çıxdıq, piyada gedirdik. Rəşid, bilirsiniz, dənizkənarı evdə yaşayırdı, mən isə, yəqin bilirsiniz harada yaşamışam. Azərbaycan prospekti ilə Bülbül prospektinin kəsişdiyi yerdə, tində bir ev var, orada yaşayırdım, üçotaqlı mənzilimiz vardı.

Oradan keçirdik, dedim, Rəşid gedək bir çay içək. Dedi ki, çox məmnuniyyətlə. Bizim evə qalxdıq, oturduq, çay içdik, söhbət etdik. Mənim həyat yoldaşım mərhum Zərifə xanım bizə xidmət etdi. Mən Rəşidə bir neçə mahnı haqqında öz fikrimi dedim. Nədənsə, birdən mən ondan soruşdum ki, sən nə üçün Rauf Hacıyevin "Azərbaycan" mahnısını indiyədək oxumursan? O dedi ki, nədənsə heç düşünməmişəm. Dedim, o mahnını sən bilirsən? Dedi ki, əlbəttə bilirəm. Zərifə xanım oturdu, pia-

noda onu çaldı. Rəşid başladı bu mahnını bir balaca oxumağa. Bundan 10-15 gün keçəndən sonra o, mənə telefon etdi və dedi ki, bu mahnı artıq hazırdır. O mahnı bu gün, mən bu səhnəyə qalxmazdan öncə burada filmdə səsləndi. Çox gözəl bir mahnıdır. Rauf Hacıyevin şair Ənvər Əlibəylinin sözlərinə yazdığı mahnıdır.

O mahnını çoxları oxuyurdu. Amma onu Rəşid kimi o vaxt da heç kim oxumayıbdır, bu gün də heç kəs oxuya bilmir. Necə ki, Bülbül oxuduğu kimi indi heç kəs oxuya bilmir. Necə ki, Rəşid oxuduğu kimi indi heç kəs oxuya bilmir.

Müslüm Maqomayev bizim aramızdadır. Bu gün bu konserti təşkil edənlərdəndir. Amma "Azərbaycan" mahnısını, – sözləri bizim böyük şairimiz Nəbi Xəzrinindir, musiqisi Müslüm Maqomayevin özününküdür, – onun kimi heç kim oxumur. Ona görə də bizim müğənnilər heç onu oxumağa çalışmırlar. Çünki o mahnı Müslüm Maqomayevin ifası kimi bizim beynimizdə qalıbdır. O mahnını onun kimi heç kəs bu gün də oxumur, gələcəkdə də oxumayacaqdır. Bu da vaxtilə, 70-ci illərdə yaranmış bir mahnıdır. Müslüm Maqomayev də mənim yaxın dostlarımdan biridir və onun gənc vaxtlarından ona yaşca böyük bir insan kimi mən çox himayədarlıq etmişəm. 1974-cü, ya da 1975-ci il idi, o həmin mahnını bu salonda birinci dəfə oxudu, sonra da onun notları üzərində yazdı ki, sənə ithaf edirəm. Mən dedim ki, bunu sən heç kimə demə. Mən bunu qəbul edirəm, evdə saxlayacağam. Çünki Sovet vaxtında belə şeylər çox böyük qısqanclıq yarada bilərdi. Qısqanclıq yaradardı ki, Müslüm Maqomayev kimi böyük bir müğənni Heydər Əliyevə mahnı ithaf edibdir. Amma indi bunu açıram. Çünki indi mümkündür.

Rəşid Behbudov insan kimi də çox maraqlı bir insan idi. Yəni çoxları onu səhnədə görübdür, amma mən onunla bir yerdə çox olmuşam. Adi şəraitdə də. 1970-ci ildə, – mən bir il idi ki, Azərbaycana rəhbər seçilmişdim, – biz böyük bir nümayəndə heyəti ilə Qazaxıstana getdik. O vaxt Qazaxıstanın 50 illik yubileyi qeyd olunurdu. SSRİ-nin rəhbəri Brejnev oraya gəldi. Ona görə də bütün müttəfiq respublikaların birinci şəxsləri ora gəlmişdi. Bu, Azərbaycanın rəhbəri kimi başqa yerə mənim ilk səfərim idi. Mən nümayəndə heyətinə Rəşid Behbudovu da saldım. O vaxt, o, həm müğənni idi, həm də SSRİ Ali Sovetinin deputatı idi, tanınmış bir adam idi. Mən nümayəndə heyətinin tərkibinə onu salaraq, birincisi, ona öz dostluq münasibətimi göstərdim, ikincisi də, dedim ki, elə bu, bizim nümayəndə heyətini daha da bəzəyəcəkdir. Çünki onu bizdən daha çox, daha yaxşı tanıyırlar.

Oraya getdik. Harada bir yerdə olurduqsa, hamı "Rəşid Behbudov, Rəşid Behbudov, Rəşid Behbudov" – deyirdi. Onda mən gördüm ki, kiçikdən böyüyə qədər hamı ona nə qədər məhəbbət bəsləyir.

Bir yerdə, bir oteldə yaşayırdıq. Bir gün axşam gəldik yemək yeməyə. Bilirsiniz ki, Qazaxıstanda at əti ən mötəbər yeməklərdən biridir. At ətindən mən yedim. Dedim ki, Rəşid, sən də ye. Dedi bu nədir? Dedim bu, çox gözəl quzu ətidir. Rəşid böyük həvəslə götürüb yedi. Qurtarıb ayağa duranda, dedim ki, Rəşid bildin ki, sən nə yedin? Dedi yox, sən dedin ki, quzu ətidir. Dedim ki, sən at əti yemisən. O, çox pərişan oldu, bir təhər oldu... Sən niyə bunu etdin, filan etdin... Məndən narazı oldu. İndi bağışlayın, üzr istəyirəm, olan şeyləri deyirəm, sonra gedib öz otağında qusmuşdu. Yəni, bax bu millilik də onda var idi. Öz millətinə xas olmayan bir şeyi, yeməkdə də olanda, o, qəbul edə bilmirdi. Mən ondan çox soruşardım: sən nə yeyirsən? Deyirdi ən çox sevdiyim dovğadır. Yəni, elə hər gün dovğa yeyirsən? Deyirdi ki, hər gün dovğa yeyirəm.

Onun xanımı burada oturubdur, bəlkə o, məndən yaxşı bilir. Amma mən onun dediyi sözləri deyirəm.

Sonra Rəşid bu Mahnı Teatrını yaratmağa başladı. Onun da çətinlikləri vardı. Bilirsiniz, insan həyatdan gedəndən sonra onun qiyməti daha da artır. İnsanlar daha da obyektivləşirlər. Amma o vaxt onun da problemləri vardı. Bizim mədəniyyət aləmində, bilirsiniz ki, qısqanclıq var, filan var, peşməkan var... Qısqanclıq ola bilər. Amma Rəşid Behbudov kimi bir adama qısqanclıq etmək, bu, ağılsızlıqdır. Çünki qısqanclıq edəndə, sən heç olmasa, özünə bərabər, ya özündən bir pillə yuxarı adama qısqanclıq et. Qısqanclıq edən adam, elə bil ki, özünü böyük, ən yüksək mərtəbədə duran bir şəxsiyyətlə müqayisə edir və qısqanclıq edir. Ona görə də onun belə problemləri olurdu. Bəzən mənə şikayət edirdi. Ancaq hər dəfə mən bütün bu problemlərinin həll olunmasında ona kömək edirdim. Ona görə yox ki, mənim onunla şəxsi münasibətim vardı, ona görə ki, o, Azərbaycan üçün ən dəyərli insanlardan biri idi.

Mahnı Teatrını yaradarkən deyirdi ki, mənə bir bina lazımdır. Dedim ki, get tap, harada əlverişli bina olsa, səni təmin edək. Yaxud, dedim yeni bir bina tikək. Dedi yox. Gedib indiki bu binanı göz altına aldı. Gəlib mənə dedi. Orada da hansısa bir layihə institutu yerləşirdi. Öyrəndim ki, elə onlar üçün də ora darısqaldır. Amma o, oranı bəyəndi. Mən layihə institutunu oradan köçürdüm, oranı təmir etdirdim. İndi Rəşid Behbudov adına Mahnı Teatrı oradadır. Çox da gözəldir, böyük deyil, amma çox yığcamdır, elə bil ki, Rəşidin ruhu həmişə oradadır.

Mən son illər, Moskvada olarkən də bəzən, o, Ali Sovetin sessiyalarına gələndə görüşürdük. Amma sonra mənim onunla əlaqəm kəsildi. Təbiidir, onun həyatdan köçməsi bizim hamımızı çox kədərləndirdi, məyus etdi. Ancaq o həyatdan getməyibdir. O yaşayır, bizim qəlbimizdə yaşayır, onun sənəti yaşayır, onun mahnıları yaşayır. Bu gün, bu xatirə gecəsini keçirərək biz onun xidmətlərini, Azərbaycan dövlətinin, müstəqilliyinin onuncu ildönümündə bir daha yad edirik. Sağ olun.

Xatirə gecəsi başa çatdıqdan sonra Azərbaycan prezidenti Heydər Əliyev səhnə arxasına gələrək, incəsənət xadimləri və tədbirin təşkilatçıları ilə səmimiyyətlə görüşdü,

**Prezident Heydər Əliyev onlara uğurlu çıxışlarına görə dərin təşəkkürünü bildirdi və dedi:**

– Çox gözəl çıxış etdiniz. Ümumiyyətlə, bu günkü gecə Rəşidin xatirəsinə layiq bir xatirə gecəsidir. Bilirəm ki, bunu bir müddətdir hazırlayırdınız. Onun xatirəsinə layiqli bir töhfədir. Mən hiss etdim ki, hər biriniz çox ürəkdən, səmimi-qəlbdən bu xatirə gecəsini keçirməyə çalışdınız.

Rəşid Behbudov nadir bir şəxsiyyət idi. Onun haqqında hamı – siz də, mən də danışdıq. Amma eyni zamanda, sizin hər biriniz də çox böyük şəxsiyyətsiniz. Zaman gələcək, vaxt gələcək, – Allah etsin ki, hələ bu, çox uzun vaxtdan sonra olsun, – sizin haqqınızda xatirə gecələri keçiriləcəkdir. Amma bizim haqqımızda yox. Mən bu gün oradakı çıxışımda dedim, adətən, ən böyük bir ixtira edən alimi bəlkə də dünyada çoxları tanımır. Amma incəsənət xadimlərini, mədəniyyət xadimlərini hamı tanıyır. Mən bir daha sizə təşəkkür edirəm.

SSRİ xalq artistləri Müslüm Maqomayev və Tamara Sinyavskaya onlara göstərdiyi diqqət və qayğıya, yaradıcılıqlarına verdiyi yüksək qiymətə görə prezident Heydər Əliyevə incəsənət ustaları adından dərin minnətdarlıqlarını bildirdilər.

## AZƏRBAYCAN DÖVLƏT RƏQS ANSAMBLININ İŞÇİLƏRİNİN SOSİAL TƏMİNATININ YAXŞILAŞDIRILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan mədəniyyətinin inkişafında, milli və dünya klassik rəqs əsərlərinin təbliğində Azərbaycan Dövlət Rəqs Ansamblının rolunu nəzərə alaraq, onun işçilərinin sosial təminatını yaxşılaşdırmaq məqsədi ilə qərara alıram:

1. Azərbaycan Dövlət Rəqs Ansamblının işçilərinin aylıq vəzifə maaşları 2002-ci ilin yanvar ayının 1-dən orta hesabla beş dəfə artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 oktyabr 2001-ci il*

## R.H.MUSTAFAYEVİN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan musiqi sənətinin inkişafındakı xidmətiərinə görə Ramiz Hacı oğlu Mustafayev "Şöhrət" ordeni ilə təltif edilsin.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 oktyabr 2001-ci il*

## XALQ ARTİSTİ RAMİZ MUSTAFAYEVƏ

*Bakı şəhəri, 15 oktyabr 2001-ci il*

Hörmətli Ramiz Mustafayev!

Sizi – müasir Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsini 75 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz musiqi mədəniyyətimizin inkişafında böyük xidmətləri ilə musiqi aləmində nüfuz qazanmış, öz sözü, öz dəst-xətti olan sənətkarlardansınız. Tükənməz xalq musiqisindən bəhrələnən yarım əsrlik yaradıcılığınız formaca bütövlüyü və rəngarəngliyi, məzmunca dolğunluğu və kamilliyi ilə, musiqinin bütün janrlarını əhatə etməsi ilə səciyyələnir. Yüksək zövq və böyük istedadla bəstələdiyiniz əsərlər musiqi tariximizə əbədilik həkk olunaraq sizə minlərlə dinləyicinin məhəbbətini qazandırmışdır. Ölkəmizin hüdudlarından kənarda da müvəffəqiyyətlə ifa edilən opera, operetta, oratoriya, kantata, vokal-simfonik poema, mahnı və romanslarınız böyük fitriistedadınızı, musiqinin mahir bilicisi olmağınızı hərtərəfli nümayiş etdirir və dinləyicilərə Vətən sevgisi, mənəvi saflıq, incə duyğular aşılayır. Son dövrlərdə xalqımızın ən ağrılı problemi olan Qarabağ hadisələri mövzusunda yazdığınız əsərlər Vətən qarşısında, onun azadlığı yolunda gördüyünüz ən dəyərli işlərinizdəndir. Azərbaycanda xor musiqisinin təşəkkül tapıb inkişaf etməsi sahəsində əməyiniz yüksək qiymətə layiqdir. Xor üçün bəstələdiyiniz əsərlər, işlədiyiniz yüzlərlə xalq mahnısı, qırx ildən artıq bir dövr ərzində rəhbərlik etdiyiniz Azərbaycan Televiziyası və Radiosu xorunun fəaliyyəti ölkəmizdə bu janrın inkişafı üçün çox səmərəli olmuşdur. Respublikamızda neçə-neçə peşəkar musiqiçi kadrlar nəslinin yetişdirilməsində Sizin bəstəkar-pedaqoq kimi də böyük xidmətləriniz vardır.

Pərəstişkarlarınız sənət yollarında zəngin təcrübə toplamış istedadlı bəstəkar kimi Sizdən yeni-yeni əsərlər gözləyirlər. Ümidvaram ki, musiqi mədəniyyətimizin daha da inkişaf etdirilməsi üçün təcrübə və bacarığınızı bundan sonra da sərf edərək, onları yeni-yeni töhfələrlə sevindirəcəksiniz.

Sizə uzun ömür, möhkəm cansağlığı və səmərəli fəaliyyətinizdə uğurlar diləyirəm.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## Y.M.MƏMMƏDOVUN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan musiqi mədəniyyətinin inkişafındakı xidmətinə görə Yaqub Məmməd oğlu Məmmədov "Şöhrət" ordeni ilə təltif edilsin.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2001-ci il*

**XALQ ARTİSTİ**
**YAQUB MƏMMƏDOVA**

*Bakı şəhəri*
*3 dekabr 2001-ci il*

Hörmətli Yaqub Məmmədov!

Sizi – milli muğam sənətinin görkəmli nümayəndəsini yaradıcılığınızın 50 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz Azərbaycan xalq musiqisinin incəliklərini dərindən bilən və özünəməxsus ifa üslubu ilə milli musiqi xəzinəmizi zənginləşdirən böyük sənətkarlardansınız. Siz dərin tarixi kökləri, zəngin ənənələri olan Azərbaycan xanəndəlik məktəbində özünüzü təsdiq edərək, zəhmətsevərliyiniz sayəsində orada layiqli yer tuta bilmisiniz. Bu yolda əldə etdiyiniz nailliyyətlər isə əslində bütün musiqi sənətimizin uğurları sayıla bilər. İfanızda səslənmiş bir çox muğamlar milli musiqi mədəniyyətimizin qızıl fonduna həmişəlik daxil olmuşdur. Muğam ifaçılığı ənənələrini, Azərbaycan xalq musiqisinin saflığını qoruyub saxlamaq və onu inkişaf etdirmək 50 illik sənət yolunuzun başlıca qayəsi olmuşdur. Ecazkar səsiniz, təkrarolunmaz ifaçılığınız, dinləyicinin daxili aləminə nüfuz etmək, onda güclü emosional təsir yaratmaq bacarığınız Sizə muğam biliciləri arasında böyük hörmət və nüfuz, musiqisevərlərin dərin məhəbbətini qazandırmışdır.

Xalqa yorulmadan xidmətlə, musiqi sənətinə hədsiz sədaqətlə səciyyələnən yaradıcılıq yolunuz gənc xanəndələr nəslinin tükənməz bir mənbə, böyük sənət məktəbidir. Siz muğam ustası kimi topladığınız zəngin təcrübədən istifadə edərək istedadlı ifaçıların yeni nəslinin yetişdirilməsi üçün bütün bacarığınızı sərf edirsiniz. İnanıram ki, muğam ifaçılığı məktəbi ənənələrinin layiqli davamçılarının hazırlanması işində əlinizdən gələni bundan sonra da əsirgəməyəcək, Azərbaycan musiqi mədəniyyətinin inkişafına yeni töhfələr verəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yeni yaradıcılıq uğurları arzulayıram.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

# AZƏRBAYCAN RESPUBLİKASININ ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT XADİMLƏRİNƏ FƏRDİ TƏQAÜDLƏR VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Azərbaycan xalqı qarşısında xidmətləri olan aşağıdakı ədəbiyyat və incəsənət xadimlərinə fərdi təqaüdlər verilsin:

Axundov Davud Ağa oğlu
Babayev Rasim Hənifə oğlu
Qocayev Fikrət Göyüş oğlu
Məmmədov Maqsud Davud oğlu
Rzaquliyev Elbəy Mirzəhəsən oğlu
Səfərova Xalidə Ələkbər qızı

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 dekabr 2001-ci il*

## A.XƏLƏFOVA "ƏMƏKDAR ELM XADİMİ" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycanda kitabxanaşünaslıq elminin inkişaf etdirilməsindəki xidmətlərinə görə Abuzər Alı oğlu Xələfova "Əməkdar elm xadimi" fəxri adı verilsin.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 dekabr 2001-ci il*

# “BİRGƏ KİNO İSTEHSALI HAQQINDA” AVROPA KONVENSİYASI ÜZRƏ AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN SƏLAHİYYƏTLİ ORQANIN TƏYİN EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2000-ci İL 15 İYUL TARİXLİ 475 NÖMRƏLİ SƏRƏNCAMINA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

“Azərkinovideo” istehsalat Birliyinin ləğv edilməsi haqqında” Azərbaycan Respublikası prezidentinin 2001-ci il 19 aprel tarixli 688 nömrəli sərəncamına əsasən qərara alıram:

1. “Birgə kino istehsalı haqqında” Avropa Konvensiyası üzrə Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqanın təyin edilməsi barədə” Azərbaycan Respublikası prezidentinin 2000-ci il 15 iyul tarixli 475 nömrəli sərəncamının 1-ci bəndində “Azərkinovideo” istehsalat Birliyi” sözləri “Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi” sözləri ilə və 2-ci bəndində “Azərkinovideo istehsalat Birliyinin” sözləri “Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin” sözləri ilə əvəz edilsin.

2. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 yanvar 2002-ci il*

## M.L.ROSTROPOVİÇİN "İSTİQLAL" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycanın beynəlxalq mədəni əlaqələrinin möhkəmləndirilməsi və musiqi sənətinin inkişafındakı görkəmli xidmətlərinə görə Mstislav Leopoldoviç Rostropoviç "İstiqlal" ordeni ilə təltif edilsin.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2002-ci il*

## Y.S.QUSMANA "AZƏRBAYCAN RESPUBLİKASININ XALQ ARTİSTİ" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan kino sənətinin inkişafındakı xidmətlərinə görə Yuli Solomonoviç Qusmana "Azərbaycan Respublikasının xalq artisti" fəxri adı verilsin.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 mart 2002-ci il*

## A.S.VƏKİLOVAYA "ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycanda muzey işinin təşkili və inkişafındakı xidmətlərinə görə Aybəniz Səməd Vurğun qızı Vəkilovaya "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilsin.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 mart 2002-ci il*

## T.Z.MAHMUDOVANIN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycanda musiqi sənətinin inkişafındakı xidmətlərinə görə Tamilla Zahid qızı Mahmudova "Şöhrət" ordeni ilə təltif edilsin.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 aprel 2002-ci il*

**XALQ ARTİSTİ**
**TAMELLA MAHMUDOVAYA**

*Bakı şəhəri*
*2 aprel 2002-ci il*

Hörmətli Tamilla xanım!

Sizi – Azərbaycan musiqi mədəniyyətinin tanınmış nümayəndəsini yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz müasir Azərbaycan musiqi sənətinin inkişafında və milli ifaçılıq məktəbimizin zənginləşməsində böyük xidmətləri olan sənətkarlardansınız. Sənətə ilk gəlişinizlə Siz musiqi ictimaiyyətinin diqqətini cəlb etmiş, axtarışlarla dolu zəngin yaradıcılıq yolu keçərək özünəməxsus ifa tərzinizlə milli ifaçılıq sənətimizi daha da inkişaf etdirmiş və unudulmaz sənətkarlarımızın gözəl ənənələrini ləyaqətlə qoruyub yaşada bilmisiniz. Görkəmli Azərbaycan bəstəkarlarının fortepiano əsərlərinin ilk ifaçılarından biri kimi səsləndirdiyiniz sənət inciləri yaddaşlara həmişəlik həkk olunmuşdur.

Dünyanın nüfuzlu konsert salonlarında müasir bəstəkarlarla yanaşı rus və Qərbi Avropa klassiklərinin əsərlərini böyük məharətlə ifa etməyiniz isə Sizi geniş dinləyici kütləsinə daha artıq tanıdıb sevdirmişdir. Ölkəmizdə və onun sərhədlərindən uzaqlarda qastrol səfərlərindəki çıxışlarınız Azərbaycan mədəniyyətinin təbliği işində böyük rol oynamış, milli musiqi sənətimizə dünyanın ayrı-ayrı guşələrində şöhrət gətirmişdir.

Sizin uzun illərdən bəri həyata keçirdiyiniz səmərəli pedaqoji və ictimai fəaliyyət də təqdirəlayiqdir.

Bu yubiley gününüzdə Sizə cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA RUSİYA FEDERASİYASI MƏDƏNİYYƏTİ GÜNLƏRİNİN TƏNTƏNƏLİ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

*Respublika sarayı*
*23 aprel 2002-ci il*

Azərbaycan prezidenti Heydər Əliyev fasilə zamanı səhnə arxasına gələrək Rusiyanın mədəniyyət naziri M.Şvidkoy, dirijor V.Fedoseyev və nümayəndə heyətinin digər üzvləri ilə görüşdü.

V.Fedoseyev dövlətimizin başçısı Heydər Əliyevə görkəmli bəstəkar G.Sviridovun əsərləri yazılmış kompakt diskləri hədiyyə etdi.

**Prezident Heydər Əliyev Rusiyanın mədəniyyət xadimlərini salamlayaraq dedi:**

– Azərbaycanda Rusiya Federasiyası mədəniyyəti günlərinin başlanğıcı gözəl oldu. Həm də ona görə gözəl oldu ki, bu Günləri Vladimir Fedoseyev kimi görkəmli dirijorun rəhbərlik etdiyi belə görkəmli orkestr açır. Otuz il bundan əvvəl, 1972-ci ilin sentyabrında da Azərbaycanda Rusiya Federasiyası mədəniyyəti günləri keçirilmişdi. O vaxt biz Sovetlər İttifaqının tərkibində idik. Gözəl kollektivlər idi, təxminən 250–300 nəfər gəlmişdi. Musiqiçilər də, teatr xadimləri, müğənnilər, şairlər də var idi.

Görkəmli yazıçıların, şairlərin çoxu xatirimdədir. İndi onlar həyatdan köçmüşlər, onların hamısı burada olmuşdular. Mən həmişə onlarla birlikdə idim, biz burada çox yaxşı günlər keçirdik. Hətta o vaxt bu, Günlər deyil, Dekada adlanırdı. Sonra isə onun adını dəyişib günlər qoydular. Əvvəlcə Bakıda çıxışlar oldu, sonra isə bölgələrə getdilər, bağlanış üçün yenidən Bakıya qayıtdılar.

O vaxt bizim belə sarayımız yox idi. Sumqayıtda, Gəncədə, Neft daşlarında çıxış edirdilər. Xatirimdədir, çoxlu adam tutan bərə ilə Neft daşlarına getdik. Orada, bərənin göyərtəsində konsertlər verildi, kayutlarda çal-çağır vardı. Biz, mən və tanınmış incəsənət xadimləri, Günlərin iştirakçıları kapitanın kayutuna toplaşdıq. Pəncərədən dəniz görünürdü, hamı yeyib-içirdi. Mən birdən çox görkəmli bir şairi xatırlayaraq soruşdum: "Bəs o hanı?" Dedilər, yoxdur. Aradan yarım saat keçdi. O yenə də

yoxdur. Göstəriş verdim ki, axtarıb tapsınlar. Onu axtarmağa getdilər və sonra gəlib qulağıma pıçıldadılar ki, o, bir kayuta girib qapını bağlamışdır və hansısa bir xanımla içir. O xanım da tanınmış aktrisa idi.

Bax o vaxt sizin orkestr burada çıxış etmişdir, mən də konsertdə olmuşdum. Yeri gəlmişkən, sonralar mən Moskvada yaşayarkən də konsertlərinizi dinləyirdim. Deməliyəm ki, Fedoseyev dəyişməyibdir. Düşünürdüm ki, Fedoseyevi zahirən dəyişmiş ağsaçlı qoca kimi görəcəyəm, o isə elə əvvəlki kimidir. Həqiqətən, mən Moskvada Sizi təxminən 15 il əvvəl görmüşdüm və ondan sonra görməmişdim. Bütün insanlar dəyişirlər, mən də dəyişmişəm, o isə heç dəyişməyibdir.

Bilirsiniz, Çaykovskinin yaradıcılığı çox xoşuma gəlir. Onun musiqisi, simfoniyaları öz xüsusiyyəti ilə bir çox simfonik əsərlərdən fərqlənir. Mən Çaykovski haqqında filmi xatırlayıram. Yaxşı, gözəl film idi və Çaykovskinin musiqisi ilə müşayiət olunur.

Buraya gəldiyinizə görə Sizə təşəkkür edirəm. Bilirəm ki, orkestrinizin çox zəngin proqramı var, siz bütün dünyanı gəzib-dolaşırsınız, konsertlər verirsiniz. Buna baxmayaraq, Azərbaycana gəlməyə və tamaşaçılarımız qarşısında çıxış etməyə vaxt tapdınız. Bu, böyük işdir və mən sizə təşəkkür edirəm.

Mən salona diqqət yetirdim. Bilirsiniz, mən tamaşa salonunda tez-tez oluram, indi isə lojada idim və oradan salonu müşahidə etmək imkanım var idi. Hamı böyük diqqətlə dinləyirdi. Açığını deyək, simfonik musiqi rəqs təranələri deyildir. Deməli, insanlar bu musiqini başa düşürlər. Bax bizim dinləyicilər belədir. Bir baxın, salona 2 mindən çox adam toplaşıb və onların musiqiyə münasibəti necədir.

Mən şadam ki, əvvəla, bizim insanlar Rusiya incəsənətini sevirlər. İncəsənətin müxtəlif növləri var. Məsələn, Xazanov adamları güldürür. Bu da incəsənətin bir növüdür. Simfonik musiqi isə incəsənətin çox mürəkkəb, çətin növüdür. İkincisi isə, adamlarımız bu musiqini çox diqqətlə, nəfəs çəkmədən dinləyirdilər. Musiqi qurtaran kimi, sürəkli alqışlar oldu. Gözəl musiqidir!

Orkestrin solistinin royalda ifası çox gözəl idi. Çaykovskinin musiqisində royal həmişə mühüm rol oynayır. Bəlkə də mən bilmirəm, o qədər də başa düşmürəm, lakin subyektiv fikrimi bildirirəm. Çaykovskinin əsərlərində royal xüsusi yer tutur, çox melodik, gözəl səslənir, ruhu oxşayır. Biz bu gün qonağımızın bu konsertini həyəcanla dinlədik. Çox sağ olun.

Mən burada sovet Azərbaycanının rəhbəri olanda filarmoniyaya gedirdim, simfonik musiqini çox sevirəm. Orada konsertlər olurdu,

Niyazi və digər dirijorlar çıxış edirdilər. Görürdüm ki, rəhbər işçilərimiz bu konsertdə yoxdur. Əlbəttə, konsertlərdə həmişə adam çox olurdu, Bakıda simfonik musiqiyə xüsusi münasibət var.

O zaman mən elan etdim ki, hər cümə axşamı günü axşam saat 7-də filarmoniyada simfonik musiqidən ibarət konsertə gəlmək lazımdır. Birinci dəfə gəlib gördüm ki, canlarını dişlərinə tutub oturublar. Düşündüm ki, ürəklərində məni söyürlər. Sonra fikirləşdim ki, onlar bu musiqini başa düşmürlər. Biz Niyazi və Janna Dozortseva ilə razılaşdıq ki, Dozortseva hər dəfə konsertə gəlib simfonik musiqidən danışacaq, sonra konsert başlanacaqdır. Bundan sonra onlar musiqini daha yaxşı qavramağa başladılar. Xatirimdədir, bir dəfə mən beletajda oturmuşdum, birdən rəhmətlik həyat yoldaşım mənə dedi: "Gör simfonik musiqiyə necə qulaq asırlar". Mən gördüm ki, bir cərgə o yanda Nazirlər Soveti sədrinin müavinlərindən biri möhkəm yatıb və xoruldayır. Həyat yoldaşım dedi ki, yazıqdır, niyə məcbur edirsən. Dedim ki, məcbur edirəm və edəcəyəm. Yeri gəlmişkən, sonra onlar öyrəşdilər, hətta həvəsləndilər də. Sonralar çox da məcbur etmək lazım gəlmədi. 1982-ci ilin axırırınadək, mən burada işlədiyim müddətdə belə etdim, sonra hər şey pozuldu.

Əlbəttə, indi, demokratiya şəraitində insanları məcbur edə bilmərəm. O vaxt kommunist sistemi kommunist intizamı vardı. Birinci katib dedi, qurtardı indi isə məcbur edə bilmərəm. Amma görürəm, məcbur etmək lazım da deyildir. Doğrudur, adətən, rəhbər işçilər əyləşən boş yerlər də görürdüm.

# TƏSVİRİ SƏNƏT XADİMLƏRİNƏ AZƏRBAYCAN RESPUBLİKASI FƏXRİ ADLARININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan təsviri sənətinin inkişafındakı xidmətlərinə görə aşağıdakı incəsənət xadimlərinə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**“Xalq rəssamı” fəxri adı**

Ələkbərov Kamal Camal oğlu
Əliyev Hüseynqulu Əli oğlu
Hacıyev Altay Əmir oğlu
Xəlilov Fərhad Qurban oğlu
Nəcəfov Fazil İmamverdi oğlu
Qasımov Cabbar Ağadadaş oğlu
Mehdiyev Ağa Cəfər oğlu
Müfidzadə Cəmil Miryusif oğlu
Rüstəmov Cahangir Mahmud oğlu
Salayev Fuad Məmmədəmin oğlu

**“Əməkdar rəssam” fəxri adı**

Abdinov Telman Manaf oğlu
Abdullayev Həmzə Yusif oğlu
Ağababayev Odtəkin İskəndər oğlu
Ağayev Vaqif Xosrov oğlu
Aslanov Elçin Muxtar oğlu
Babayev Görüş Nurəddin oğlu
Bəykişiyev Nazim Zöhrab oğlu
Dadaşov Namiq Əbdülxalıq oğlu
Əhmədov Xanlar Əhməd oğlu
Əliyev Natiq Kamal oğlu
Əsgərov Ənvər Əsgər oğlu
Haqverdiyev Hüseyn Həsən oğlu
Haşımov Fikrət Məmməd oğlu
Həsənzadə Əkrəm Qulam oğlu

İbrahimov Faiq Rəhim oğlu
İsmayılov Arif Qəndil oğlu
İsmayılov Rəşid Məhərrəm oğlu
Qazıyev Arif Şamil oğlu
Qarayev Ənvər Vahid oğlu
Qulamov Fərman Səməd oğlu
Quliyev Cabbar Əli oğlu
Quliyev Məmmədkərim Həbib oğlu
Qurbanov Eldar Hacıbaba oğlu
Məmmədov İsmayıl Əsəd oğlu
Məmmədov Qüdrət Hacıbəy oğlu
Məmmədov Tahir Hidayət oğlu
Mirzəzadə Sirus Yədulla oğlu
Muradov Rəfail Həsən oğlu
Mustafayev Məmməd Əlihüseyn oğlu
Mustafayev Şəmil Murtuz oğlu
Nərimanbəyova Əsmər Toğrul qızı
Rəcəbov Aydın Rəcəb oğlu
Rəhmanov Nazim Şamil oğlu
Rəsulov Rəis Azər oğlu
Rüstəmov Adil Əliağa oğlu
Səmədzadə Kamal Əmirulla oğlu
Seyidov Mircəlil Mirələkbər oğlu
Tahirov Tahir Rəşid oğlu
Yunusov Qəyyur Habil oğlu
Zeynalov Namiq Məmmədəli oğlu

**"Əməkdar incəsənət xadimi" fəxri adı**

İbrahimov Ağaəli Müsəllim oğlu
Əsgərov Akif İzzətulla oğlu
Hüseynov Cəlil Qafar oğlu
Kərimov Rafiq İslam oğlu
Namitokova-Manafova Sara Məmmədağa qızı

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının prezidenti***

*Bakı şəhəri, 30 may 2002-ci il*

## SANKT-PETERBURQDA DAHİ AZƏRBAYCAN ŞAİRİ NİZAMİ GƏNCƏVİNİN ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİ

*9 iyun 2002-ci il*

### RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNİN NİTQİ

– Hörmətli Heydər Əliyev!

Hörmətli Vladimir Anatolyev!

Əziz dostlar!

Bu gün bizim üçün çox fərəhli, təntənəli hadisə baş verir. Biz Şərqin görkəmli oğlunun, Azərbaycanın görkəmli oğlunun şair və mütəfəkkir Nizaminin abidəsini açırıq. Nizami həm şair, həm də böyük humanist idi və bu mənada Nizaminin yaradıcılığı bizim hamımıza mənsubdur, bütün bəşəriyyətə mənsubdur. Nizami həyatı boyu çox işlər görmüş, çox yazmış və özündən sonra nəhəng, misilsiz irs qoymuşdur.

– O, Şərqi əhatə edən xalqlar haqqında, Şərq xalqları haqqında çox yazmışdır. O, ruslar haqqında da çox yazmışdır. O, tarixin ən müxtəlif məqamlarını qələmə alarkən, dinc həyatı da, müharibə əməliyyatlarını da təsvir edərkən, xalqları bir-birindən ayıra biləcək ideyalara heç zaman uymamışdır. O, həmişə və hər şey haqqında məhz belə düşünüb danışmış və xalqları yaxınlaşdırıb doğmalaşdıran sözlər və vəziyyətlər seçmişdir. Əgər haradasa Xəzər bölgəsində gedən döyüş səhnələrindən birini onun necə təsvir etdiyini xatırlasam, zənnimcə, səhv etmərəm. Həmin savaşda rus döyüşçülərindən birinin öhdəsindən gələ bilmədikdə, onun qarşısına gözəl bir qız çıxarırlar və Nizaminin yazdığı kimi, o, həmin qızı da götürüb savaş meydanından gedir.

Nizami sözün ən geniş mənasında humanist idi. Bu, onun fikridir ki, dünya ehtiyac və təqiblər üçün xəlq olmayıb, dünya xoşbəxtlik və azadlıq üçün yaranmışdır. Məhz Nizami demişdir ki, ürəkdən gələn söz birbaşa ürəyə yol tapır.

Bu gün, bu təntənəli mərasimdə demək istəyirəm ki, biz indi nə ediriksə, hamısını ürəkdən edirik. Peterburq sakinləri, Rusiya vətəndaşları

istəyirlər ki, bizim bugünkü tədbirimiz Azərbaycan xalqının da – həm burada yaşayanların, həm də Azərbaycanda yaşayanların ürəyinə yol tapsın. Biz bununla bildirmək istəyirik ki, azərbaycanlı qardaşlarımıza yaxın qohumlarımız kimi münasibət bəsləyirik. Bildirmək istəyirik ki, Azərbaycan mədəniyyətinə, Şərq mədəniyyətinə hörmət edirik və ümidvarıq ki, bu, bizi həmişə birləşdirəcək təməl olacaqdır. Sizi təbrik edirəm. Sağ olun.

Sonra mərasimdə

**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV NİTQ SÖYLƏDİ.**

– Rusiya Federasiyasının möhtərəm prezidenti cənab Vladimir Vladimiroviç Putin!

Xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Məni Sankt–Peterburqa səfərə dəvətinizə, sizinlə yenidən görüşmək imkanına görə, dahi Azərbaycan şairi Nizami Gəncəviyə burada ucaldılmış heykələ görə hörmətli Vladimir Vladimiroviç, Sizə ürəkdən təşəkkür edirəm.

Sankt–Peterburq şəhəri Rusiyanın şöhrətinin təcəssümüdür. O, rus ruhunun gücünü və qüdrətini özündə toplamış, rus xalqının yaradıcı potensialını artıraraq inkişaf etdirmiş, rus fikrinin və rus incəsənətinin təkraredilməz incilərini dünya mədəniyyətinin sərvəti etmişdir. Əsl rus ruhuna malik olan bu şəhərə zəka və qəlblərə hakim kəsilən bənzərsiz mənəvi mühit xasdır. O, bütün dünyaya məxsus olan bir şəhərdir.

Bu gün Sankt–Peterburqda dahi şair Nizaminin heykəlinin açılışını biz dünya mədəni irsinə  böyük ehtiram ifadəsi, Azərbaycan xalqına bəslənilən dostluq və qardaşlıq hisslərinin təzahürü kimi qiymətləndiririk. Keçən il oktyabrın 12-də Bakıda rus poeziyasının dühası Aleksandr Sergeyeviç Puşkinə heykəl qoyulmuşdur. Bu gün isə burada, Puskinin Böyük Pyotrun əsəri adlandırdığı bu şəhərdə Nizamiyə heykəl ucaldılmışdır. Bu iki abidə həm xalqlarımızın mədəniyyətinə hədsiz ehtiramımızın, həm də ölkələrimiz arasinda əlaqələrin yeni səviyyəsinin təcəssümüdür.

Sankt–Peterburqun 300 illik tarixinin hər bir səhifəsi onun Rusiya dövlətçiliyinin möhkəmləndirilməsində, Rusiyanın mənəvi dəyərlər sisteminin formalaşdırılmasındakı roluna, dünya elm və mədəniyyət xəzinəsinə verdiyi töhfəyə dəlalət edir. Bu şəhər bütün görkəmi ilə rus xalqının ya-

radıcı fəaliyyətinin sonsuz imkanlarını dünyaya nümayiş etdirir. Sankt–Peterburq rus ədəbiyyatının böyük dühalarının vətəni kimi tarixə həmişəlik daxil olmuşdur. Onun muzeylərində saxlanılan nadir sənət əsərləri, rus memarlığı və monumental heykəltəraşlığının şəhərin meydan və küçələrini bəzəyən abidələri yeni-yeni nəsilləri heyrətə gətirir.

Bu şəhər rus torpağının bir çox istedadlı övladının yaradıcılıq təxəyyülünə qol-qanad vermiş və onların amallarını gerçəkləşdirmişdir. Sankt–Peterburq onların Rusiyanın şöhrəti naminə gördükləri işləri həm öz simasında, həm də rusiyalıların ürəklərində əbədiləşdirmişdir. Bu şəhərin bənzərsiz yaradıcılıq ab-havası Rusiyanın taleyini əziz tutan bütün insanlara daim ilham vermişdir.

Bu şəhərin müdafiəçilərinin və sakinlərinin Hitler qoşunlarının hücumlarına qəhrəmancasına müqavimət göstərdikləri 900 gün ərzində dünya bir daha dərk etdi ki, qəhrəmanlıq hər şeydən öncə yüksək mənəviyyatın təzahürüdür. Bu qəhrəmanlığın mənbəyini ilk növbədə böyük rus mədəniyyətinin mənəvi qaynaqlarında axtarmaq lazımdır. Bu mədəniyyətin möhtəşəmliyi özünü həm də mühasirə günlərində, Ermitajın soyuq salonlarında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 800 illik yubileyi təntənəli şəkildə qeyd edilərkən büruzə verdi.

Bu gün biz Piskaryov memorial qəbristanlığını ziyarət etdik və yenilməz qəhrəmanlıqları qarşısında bəşəriyyətin baş əydiyi bütün insanların, nurlu xatirəsini yad etdik. Onlar əbədiyyətə qovuşaraq, faşizmə müqavimətin rəmzi, rusiyalıların öz Vətəninə olan böyük məhəbbətinin rəmzi, Rusiyanın məğlubedilməzliyinin rəmzi kimi həmişəlik qəlblərimizdə qalmışlar.

Rusiya tarixinin bütün taleyüklü məqamlarında Sankt–Peterburq rus mənəviyyatının dayağı olmuşdur. Bəşər elminin elə bir sahəsi, incəsənətin elə bir növü, insan təfəkkürünün nüfuz etdiyi elə bir sahə yoxdur ki, bu şəhər orada öz izini qoymamış olsun. Onun 300 illik tarixi rus mənəviyyatının qüdrətini, rus xalqının əzəmətini, Rusiyanın böyüklüyünü tərənnüm edən əbədi bir nəğmədir.

Məhz Sankt–Peterburqda Nizami yaradıcılığının öyrənilməsi sahəsində böyük işlər görülmüşdür. Nizami fəlsəfəsinin mərkəzində varlığın ən böyük sərvəti, mənəvi zənginlik və müdrikliyin tükənməz mənbəyi olan insan dayanır. Nizami insanın cəmiyyətdəki rolunu özünün dünyagörüşü süzgəcindən keçirərək, yaradıcılığında antik yunan və Roma irsini, Şərq fəlsəfəsini və Şərq poeziyasının çoxəsrlik ənənələrini əks etdirə bilmişdir.

Nizaminin ürəkləri vəcdə gətirən təkrarolunmaz lirikası və qəhrəmanlıq eposunda onun həqiqi humanizm ideyalarını ehtiva edən fəlsəfi konsepsiyası öz əksini tapmişdır.

Məhəbbətin yenilməz qüdrəti, həyatın və ölümün mənası, ideal cəmiyyət, dünyanın və kainatın möhtəşəm sirləri haqqında yaratdığı poemalar əsrlər boyu Şərqdə əsl sənət nümunəsi olaraq qalmışdır. Onun poemalarının xüsusiyyətləri və yaratdığı poetik obrazların dərinliyi Qərbin dahi Höte kimi mütəfəkkirlərini heyran qoymuşdur.

Zənnimcə, məhz Nizaminin bütün əsərlərində bəşər övladının misilsiz qüdrətinin tərənnüm edilməsi sayəsində Azərbaycan xalqının dahi oğluna bu gün Sankt–Peterburqun təkrarolunmaz görkəminin ayrılmaz hissəsinə çevrilmək şərəfi qismət olmuşdur.

Hörmətli Vladimir Vladimiroviç! Sizin Azərbaycana rəsmi səfəriniz ölkələrimiz öz dövlət müstəqilliklərinə qovuşandan sonra Rusiya dövləti başçısının Azərbaycan Respublikasına ilk səfəri olmuşdur. Bu, tarixi bir səfər idi və əməkdaşlığımızın inkişafındakı yeni dinamik mərhələ məhz onunla başlamışdır.

Həmin səfərin gedişində, eləcə də mənim Rusiyaya cavab səfərim zamanı biz sizinlə siyasi və iqtisadi əməkdaşlığımızla bağlı bir çox aktual problemləri müzakirə etdik, regional təhlükəsizlik məsələlərinə toxunduq, Bakı bəyannaməsini və uzunmüddətli iqtisadi əməkdaşlıq haqqında müqavilə imzaladıq, Qarşılıqlı Ticarət-iqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya yaratdıq, Xəzərin statusu məsələsində əhəmiyyətli irəliləyişə nail olduq.

Vladimir Vladimiroviç, Qərbin və Şərqin böyük sivilizasiyalarını ənənəvi olaraq təcəssüm etdirən bir ölkə kimi, Rusiya sizin rəhbərliyiniz altında yeni əsrin və yeni minilliyin qlobal siyasətində çox böyük rol oynamağa başlayır. Rusiya bizim üçün sadəcə qonşu deyil, həm də elə bir ölkədir ki, biz iki əsrdən artıq dövr ərzində eyni dövlətin tərkibində olmuşuq. Biz Qafqazdakı bir çox problemlərin həllini məhz bu ölkə ilə bağlayırıq.

Regionda sabitlik, təhlükəsizlik və tərəqqi, orada beynəlxalq layihələrin, o cümlədən tarixi İpək yolunun bərpasının və Şimal–Cənub layihəsinin gercəkləşdirilməsi, şübhəsiz ki, burada mövcud olan münaqişələrin həlli ilə bağlıdır. Azərbaycana səfəriniz zamanı siz Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı mühüm bir ifadə işlətmişdiniz: "Bizim məqsədimiz qaliblər və məğlublar olmadan sülh əldə edilməsinə kömək göstərməkdir". Rusiya xarici siyasətinin son dövrdə sizin rəhbər-

liyiniz altında formalaşmış bu yeni siması ümid etməyə imkan verir ki, bölgəmizdə mövcud olan bütün münaqişələr məhz sizin təklif etdiyiniz prinsip əsasında öz həllini tapacaqdır.

11 sentyabr hadisələri bəşəriyyətin siyasi və mənəvi varlığına faciəli çalarlar gətirdi, beynəlxalq terrorizmin nə qədər qorxulu bir amilə çevrildiyini dünyaya göstərdi. Bu gün, terrorizm təhlükəsi qarşısında hamımızın əl-ələ verdiyimiz bir vaxtda xüsusi vurğulamaq istəyirəm ki, həm Azərbaycan, həm də Rusiya terrorizm təhlükəsi ilə digər dövlətlərdən çox-çox əvvəl üzləşmişdir. Terrorizmin nə vətəni, nə milli və ya dini mənsubiyyəti vardır. Biz dünyada onu da hamıdan yaxşı dərk edirik ki, bu məsələni təkcə silah gücü ilə birdəfəlik həll etmək mümkün deyildir. Yalnız mədəniyyətlərin və sivilizasiyaların səmərəli dialoqu bu təhlükənin qarşısını almağa və onun kökünü birdəfəlik kəsməyə qadirdir.

Azərbaycan–Rusiya strateji əməkdaşlıq proqramı artıq faktiki olaraq formalaşmışdır ki, özünün öncül istiqamətlərini müəyyən etmişdir. O, bəyanatlar və sazişlərdən konkret əməl mərhələsinə keçməkdədir. Rusiya və Azərbaycan prezidentlərinin bugünkü görüşü və bu abidənin ünudulmaz açılış mərasimi də bunun parlaq sübutudur.

Hörmətli Vladimir Vladimiroviç. Bizim görüşümüz sizin vətəninizdə, doğulub boya-başa çatdığınız şəhərdə keçir. Sankt–Peterburq mənə də yaxın və əzizdir. Bu gün mən bu şəhərdə təhsil aldığım illəri, sonrakı həyatımı və siyasi fəaliyyətimdə böyük rol oynamış həmin dövrü dərin məmnunluq hissi ilə xatırlayıram. Gənclik illərimin şəhəri ilə olan bu görüş, təbii ki, mənim qəlbimdə bir çox işıqlı duyğular və xatirələr oyatdı. Bunlara görə sizə minnətdaram.

Əziz dostlar!

Sizin hamınızı, Sankt–Peterburqun bütün sakinlərini, bütün Azərbaycan xalqını Nizami Gəncəvinin abidəsinin açılışı münasibəti ilə təbrik edirəm. Dahi humanist və mütəfəkkirə ucaldılan bu gözəl abidə həmişə bizim nəzərimizi ümumbəşəri dəyərlərə, xeyirxahlıq, ədalət ideallarına yönəldəcək, ölkələrimiz xalqlarımız arasında dostluq və əməkdaşlığı bundan sonra da möhkəmləndirilməsi işinə xidmət edəcəkdir.

Sağ olun.

# BƏHRUZ KƏNGƏRLİ MUZEYİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ. AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

*18 iyun 2002-ci il*

– Əziz dostlar!

Əziz bacılar, qardaşlar!

Hörmətli xanımlar və cənablar!

Mən iki-üç gündür ki, Naxçıvandayam. Doğrusu, təsəvvür edə bilməzdim ki, mənə belə bir imkan yaranacaqdır. Çünki Naxçıvana gəlmək məsələsi ortaya çıxanda, birinci növbədə, Olimpiya İdman Kompleksinin açılışı haqqında söhbət getdi. Ancaq başqa planlar hələ gündəlikdə deyildi. Sonra isə mən Naxçıvana gəlmək haqqında qərar qəbul edərkən, düşündüm ki, bir çox başqa işlər də var, onlarda da iştirak etmək lazımdır, insanlarla daha çox görüşmək lazımdır. Naxçıvanın torpağı-daşı, havası, səması hamısı mənim üçün əzizdir. Mən bunlardan ötrü darıxıram. Amma bunlardan da çox naxçıvanlılar üçün darıxıram.

Dünyada insanlar müxtəlifdir. Dövlət xadimləri də, siyasi xadimlər də, alimlər də, yazıçılar da, cürbəcür sənət sahibləri də müxtəlifdir. Az olar ki, onlar bir-birinə bənzəsinlər. Bu da təbiidir, belə olmalıdır. Ona görə hər bir insanın özünəməxsus xüsusiyyətləri var. Əgər insan doğrudan da öz xüsusiyyətləri ilə xalqına, millətinə, Vətəninə daha çox fayda gətirə bilərsə, daha çox iş görə bilərsə, əlbəttə, onda bu xüsusiyyətləri qiymətləndirmək və qoruyub saxlamaq lazımdır.

Mənim həyatımın böyük tarixi var. Bunu bilirsiniz. Müxtəlif dövrlərdə mənim həyatım üçün yaranmış vəziyyətlər və mənim gördüyüm işlər var. Hamısı eyni deyil, hərəsinin öz yeri var. Ancaq mənim üçün hamısı qiymətlidir. Ola bilər, içimdən, kökümdən gələn, genetik quruluşumdan gələn bir şeydir ki, mən doğulduğum, yaşadığım torpağı həmişə gənclik dövrümdən o qədər sevmişəm ki, hər dəfə bu torpağı, bu yeri, bu insanları xatırlayanda düşünürəm ki, bunlar mənim üçün hamısından əzizdir.

Naxçıvana gəlişim məndə çox müxtəlif hissiyyatlar yaradır. Bunların sevindirici cəhətləri də var, məyusedici cəhətləri də var. Ancaq əgər

hamısını birlikdə götürsəm, görürəm ki, bu hissiyyatların çoxu mənim üçün, birincisi, əziz olubdur və mənim həyatımda öz rolunu oynayıbdır. ikincisi də, nə qədər uzaq dövrdən olsa da, mənimlə yaşayıb və yaşayır.

Ona görə də mən fikirləşdim ki, Naxçvana gələrkən bir az sərbəst imkanım da olsun, insanlarla görüşüm, söhbət edim, keçmiş günləri yadımıza salaq. Çox planlarım var idi. Onun hamısını yerinə yetirə bilmirəm. Deyirəm, bəlkə gedim çayxanada oturum, – vaxtilə, 1990-cı illərdə mən burada müxtəlif adamlarla çayxanada oturmuşam, – yaxud bazara gedim. Mənim bu xasiyyətim həmişə var; bazara gedirəm. Çünki bazar həmişə hər bir yerin müəyyən qədər aynasıdır. İndi görüm, əgər mümkün olsa, bunları edəcəyəm. Amma edə bilməsəm də, bunlar ürəyimdə qalacaq ki, gələn dəfə edim.

Biz dünən çox səmərəli iş gördük. Azərbaycan ordusunun Naxçıvandakı hissəsi ilə şəxsən məşğul oldum. Artıq televiziyadan, mətbuatdan bilirsiniz ki, Şahbuz rayonunda yeni bir hərbi hissə yaranıbdır, fəaliyyət göstərməsi üçün hərbi şəhərcik tikilibdir. Mənə Vasif Talıbov bu barədə məlumatlar verirdi. Mən də bunu dəstəkləyirdim. Ancaq dünən oraya getdim və gördüklərim məni çox sevindirdi. Bu məsələni indi geniş izah etmək istəmirəm. Naxçıvan Muxtar Respublikasının etibarlı müdafiəsi təkcə naxçvanlıların işi deyil, təkcə Naxçıvanda yaşayanların, Naxçıvanda yerləşdirdiyimiz hərbi hissələrin işi deyildir. Bu, bizim ümumi işimizdir. Millətimizin, Azərbaycan dövlətinin ən böyük işlərindən biridir.

Ümumiyyətlə, müstəqil ölkənin hərbi qüdrətini inkişaf etdirmək və hər bir hadisənin vaxtında qarşısını almaq üçün təminat yaratmaq dövlətin əsas vəzifələrindən biridir. Təəssüflər olsun ki, bizim müstəqil dövlətimiz yaranmamış Azərbaycanı yaraladılar, ermənilər torpaq iddiası ilə çıxış etdilər. Onların qarşısı alınmadı. Sonra bu, müharibəyə çevrildi və Azərbaycan xalqı böyük itkilər verdi. Torpaqlarımızın bir qismi işğal olundu. İşğal olunmuş torpaqlardan zorla çıxarılmış bir milyon adam neçə illərdir ki, ağır vəziyyətdə çadırlarda yaşayırlar. Belə bir vəziyyətdə olan respublika, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması üçün bütün imkanlardan istifadə edərək, eyni zamanda, ölkənin ümumən müdafiəsini, müdafiə potensialını yüksəltməlidir. Dövlət başçısı kimi məni daim bu işlə məşğul oluram və indi yaxşı nəticələrini görürəm.

Dünən Şahbuz rayonunda yeni hərbi şəhərcikdə hərbçilərlə görüşüm, onların nümayiş etdirdikləri bəzi silah növləri, əsgərlərin həqiqi Azərbaycan əsgəri kimi yeriməsi, durması, Azərbaycanın himnini öz

səsləri ilə oxumaları – bunların hamısı məndə o qədər böyük hissiyyatlar yaratdı ki, düşündüm – bəli, bizim gördüyümüz işlər nəticə verir.

Mən oradan dönəndən sonra Naxçıvan Muxtar Respublikasında olan bütün hərbi hissələrin komandirləri ilə üç saat müşavirə keçirdim. Müdafiə nazirini dinlədim, Naxçıvan qarnizonunun komandanı general-leytenant Mustafayevi dinlədim, digər zabitləri dinlədim. Yəni mənə lazım idi ki, buradakı vəziyyətin nə cür olduğunu özüm biləm. Mən müşavirədən, onun nəticələrindən çox razı qaldım. Hiss etdim ki, bəli, bizim buradakı hərbi hissələrimiz öz vəzifələrini bilirlər, Naxçıvan Muxtar Respublikasını hər an qorumağa qadirdirlər. Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan ərazimizin parçalanması nəticəsində ağır vəziyyətdə olduğu halda, bizim buradakı ordu hissələrimiz yaxşı səviyyədədirlər. Ancaq mən onların qarşılarında vəzifələr də qoydum. O vəzifələri yerinə yetirmək üçün onlara yardım lazımdır. Mən bunu da edəcəyəm. O vəzifələri, o işləri ki, mən etməliyəm, edəcəyəm və edirəm.

Yadımdadır, 1996-cı ildə burada hərbi hissə yaradılması haqqında mən göstərişlər verəndə, Bakıda bəziləri etiraz edə bilmirdilər, amma öz fikirlərini deyirdilər ki, nəyə lazımdır, nə üçün? Mənə dünən lazım idi görüm ki, buradakı əsgər nə vəziyyətdədir, zabit necədir, onların döyüş qabiliyyəti necədir və buradakı komanda heyəti nə səviyyədədir, nə edirlər və Naxçıvanı etibarlı qoruya bilərlərmi.

Mənim yadıma 1992-ci il düşür. Sədərək istiqamətindən Naxçıvana hücum etmişdilər. Silahımız, sursatımız yox, oradan-buradan nə isə tapırdıq, biz orada 40 gün döyüşdük. Onda bəzi insanlar həlak oldu. Ancaq bu, lokal bir şey idi. O vaxt bunun qarşısını mən döyüşlə yox, siyasi danışıqlarla aldım. Həm Ermənistan tərəfi ilə, həm də Türkiyənin rəhbərləri ilə daim danışıqlar aparırdım. Bunların nəticəsində mən – bunun qarşısını aldım. Amma indi o vaxt deyil, Azərbaycan müstəqil dövlətdir. Onun indi gərək Naxçıvanda etibarlı qoşun hissəsi olsun və bu da var. Mən bilirdim ki, bu var. Amma dünənki günümü buna həsr etdim ki, özüm gözlərimlə bir daha görüm, qulağımla eşidim, özüm anlayım – bu həqiqətən varmı? İndi sizə deyə bilərəm ki, var. Arxayın olun.

Mən söhbətimi ondan başladım ki, buraya gələndə özüm-özümə o qədər planlar cızıram ki, bir də görürsən, gün keçir, vaxt keçir,– onların müəyyən hissəsini yerinə yetirə bilmirsən. Vasif Talıbov mənə məlumat vermişdi ki, Bəhruz Kəngərlinin muzeyi hazırlanıbdır. Mən bu məsələ ilə də məşğul olmuşdum. Bizim Mədəniyyət Nazirliyi, yaxud Dövlət İncəsənət Muzeyi hətta Bəhruz Kəngərlinin bəzi fondlarda saxlanan əsərlərini

Naxçıvan nümayəndələrinə göstərmək istəmirdilər ki, bunlar bizim fonddadır, biz bunu qoruyuruq, saxlayırıq. Qoruyursunuz, saxlayırsınız – bu, yaxşıdır. Amma mən fikirləşdim ki, onlar daha da yaxşı qorumalıdır. Yaxşı qoruyub saxlaya bilmirlər.

Sən onu zirzəmidə, yaxud ayrı yerdə qoruyub saxlayırsan. Bəs, bizim vətəndaşlarımız, xalqımız Bəhruz Kəngərlinin yaradıcılığı ilə nə cür tanış olsun?! Hər halda, mən lazımi göstərişlər verdim. İndi çox şadam ki, burada muzey yaradılıb, sizinlə baxacağıq. Təbiidir ki, onun əsərləri çoxdur, hamısını buradakı muzeyə vermək olmaz. Mən bu fıkirlə də razıyam. Çünki onlar Azərbaycan dövlətinin milli sərvətidir, bunlardan istifadə etmək lazımdır. Amma dövlət bunları qoruyub saxlamalıdır.

Bəhruz Kəngərli haqqında yazıblar, yəqin siz eşitmisiniz, bilirsiniz. Onun əsərlərinin çoxunu yəqin görməmisiniz. İndi burada nümayiş etdirilən əsərləri hələ çoxları görməyibdir. Bu, onun əsərlərinin az bir hissəsidir. Nadir istedada malik olan bir insan idi. O, Azərbaycan xalqının professional rəssamlıq sənətində ilk rəssamdır, bunu açıq deməliyik. Bilirsiniz, Əzim Əzimzadəni böyük şəxsiyyət kimi həmişə təbliğ edirik və bundan sonra da təbliğ edəcəyik. Amma onun əsərləri, əsasən, qrafika əsərləridir və daha çox Molla Nəsirəddin jurnalı ilə əməkdaşlığı, orada yaratdığı karikaturaları və bir çox başqa əsərləri ilə tanınır. Amma Bəhruz Kəngərli, birincisi, Tbilisidə professional rəssamlıq təhsili alıbdır. İkincisi də, iş təhsil almaqda deyil, bu, Bəhruz Kəngərlinin özünün fitri istedadı idi. Orada o qədər adam təhsil alıb ki, onların heçdə hamısı görkəmli rəssam olmayıbdır.

Yadımdadır, mən həmin bu binada orta məktəbdə oxuyarkən Bəhruz Kəngərli haqqında oradan-buradan eşidirdik. Amma Bəhruz Kəngərlini üzə cıxaran, təbliğ edən yox idi. İndi mən deyə bilmərəm, nə üçün. Bəlkə o vaxt hesab edirdilər ki, o, devrilmiş sinfin, yəni bolşeviklər tərəfindən devrilmiş sinfin nümayəndəsidir. Ona görəmi, ya nəyə görəmi, mən buna cavab verə bilmərəm. Ancaq onu bilirəm ki, Bəhruz Kəngərli haqqında gənc vaxtımda eşitmişdim. Çünki mən özüm də rəssamlıqla maraqlanırdım, məşğul olurdum və rəsm əsərləri çəkirdim. Ona görə də marağım daha çox idi. Ancaq onun haqqında heç bir məlumat yox idi.

Sonralar mən Azərbaycanda sizə məlum olan vəzifələrdə işləyəndə, Azərbaycana başçılıq edən zaman bir neçə dəfə göstərişlər vermişdim ki, araşdırın, Bəhruz Kəngərlinin əsərlərini gətirin. Amma nədənsə, hər dəfə – deyə bilmərəm ki, buna müqavimət göstərmişdilər, səhlənkarlıq etmişdilər belə qalırdı. İndi nəhayət, biz Bəhruz Kəngərlini üzə çıxardıq. Yəni

üzə çıxardıq sözü dəqiq deyil, o, onsuz da yaratdığı əsərlərə görə bizim mədəniyyətimizdə, incəsənətimizdə öz yerini tutmuşdur. Amma onun əsərlərini elə "dərin quyuya" salmışdılar ki, insanlar onu o qədər də yaxşı tanımırdılar.

Deyə bilmərəm nə qədərdir, amma indi təkcə Naxçıvanda yox, ümumən Azərbaycanda da Bəhruz Kəngərlini yaxşı tanıyanlar o qədər də çox deyildir. Amma onun əsərləri həddindən artıq qiymətlidir. Birincisi, onun rəssamlıq ustalığına görə, istifadə etdiyi rənglərə görə. İkincisi, onun yaratdığı obrazlara görə – mən insan obrazlarını deyirəm xüsusən, o ağır dövrün, 1918–1919–1920-ci illərin çətin dövründə bizim xalqımızın ağır vəziyyətdə olmasını, az da olsa, öz əsərlərində əks etdiribdir.

Hesab edirəm ki, Azərbaycanda, o cümlədən Naxçıvanda bizim sənətşünaslar, tədqiqatçılar Bəhruz Kəngərlinin yaradıcılığını daha professional səviyyədə tədqiq etməli, əsərlər yazmalıdırlar. Həm Bəhruz Kəngərlini Azərbaycan xalqının görkəmli və yüksək mədəniyyətə malik olan nümayəndəsi kimi təbliğ etsinlər, həm də böyük rəssam kimi təbliğ etsinlər.

Mən bu muzeyin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası rəhbərliyinin təşəbbüsünü çox yüksək qiymətləndirirəm. Bu muzeyin yaranması təkcə Naxçıvandakı tədqiqatçılar üçün yox, bütün Azərbaycan tədqiqatçıları üçün böyük imkanlar yaradacaqdır. Mən onların hamısını dəvət edirəm ki, bu işlə məşğul olsunlar. Hesab edirəm ki, bu tövsiyələrim bir sənətşünas, tədqiqatçı kimi, bir alim kimi onlar üçün çox faydalı olacaqdır. Onların gördükləri iş Azərbaycan mədəniyyətinin nə qədər zəngin olduğunu göstərəcəkdir.

Bəli, bu gün demək olar ki, Bəhruz Kəngərlinin əsərləri Azərbaycanın rəssamlıq sənətinin, mədəniyyətinin ən görkəmli nümunələrindəndir. Biz bununla fəxr etməliyik. Fəxr etməliyik ki, Azərbaycan xalqının belə böyük istedada malik insanları olubdur.

– Yeri gəlmişkən, bu bina haqqında da bir neçə kəlmə demək istəyirəm. Çünki mən bu binada oxumuşam, təhsil almışam. Mən burada orta təhsil alandan sonra Bakıya gedib Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsinə daxil olmuşam. Mən həmişə Naxçıvanda oxuduğum dövrü xatırlayıram, bu dövr mənim yadımdan heç vaxt çıxmayacaqdır. Birinci sinifdən sona qədər heç vaxt yadımdan çıxmayacaqdır.

Ona görə də müəllimlərin hamısı yadımdadır. Hansı binada, hansı sinifdə oturmuşam, o da yadımdadır. Hansı partanın arxasında oturmuşam, o da yadımdadır. İndi içəri keçsək sizə göstərərəm, biz hansı sinifdə dərs keçirdik – hamısı yadımdadır. Nə üçün? Çünki həyatımızın ağır

dövründə, - təkcə mənim həyatımda yox, bütün xalqımız ağır dövr yaşayırdı, – çətin problemlər içərisində burada o qədər məhəbbətlə, o qədər sevgi ilə nə qədər köklü təhsil aldım ki, sonra bütün başqa yüksək təhsil ocaqlarında oxumaq mənim üçün çətin olmadı. Əksinə, buradakı kimi, mən sonra da həmişə tələbələrin içində seçilən olmuşam.

Ona görə bu divarlar mənim üçün əzizdir. Bu bina mənim üçün əzizdir. Bunun balkonu var idi, bilmirəm indi durur, yoxsa yox. O tərəfdə də bir bina var idi, o da buna bitişik idi. O, indi var, yoxsa yox?

**Vasif Talıbov:** Cənab prezident, bəli, musiqi məktəbidir. Ancaq bundan bir az aralıdır.

**Heydər Əliyev:** O, buna bitişirdi. Çünki siniflərin bəziləri orada idi. Bunun həyəti var idi, belə geniş deyildi, kiçik idi. İndi genişləndirmisiniz. Həyətdə idman etmək üçün bəzi imkanlar vardı. Burada gözəl müəllimlər var idi.

Mən birinci gün sevdiyim müəllim Lətif Hüseynzadə ilə görüşdüm. Elə bil ki, dünən idi.

Mənim yadımdadır, o, Azərbaycan dili dərsi keçirdi, Azərbaycan ədəbiyyatı dərsi keçirdi. Məndən bəzən soruşurlar. Siz təhsilinizin əsas hissəsini rus dilində almısınız, işlərinizin hamısı, demək olar ki, o dövrün tələblərinə görə rus dilinda gedibdir. Bəs nə cür olubdur ki. Azərbaycan dilini bəzi azərbaycanlılar kimi unutmamısınız? Onlar heç əvvəl də bilməyiblər ki, unutsunlar, o qədər bilməyiblər. Beləlҙəri, xüsusən, Bakıda çoxdur. Burada beləlҙəri azdır. Burada hamısı Azərbaycan dilində yaxşı təhsil alır və Azərbaycan dilini yaxşı bilən adamlar çoxdur. Ona görə mən onlarla yarışa girmək istəmirəm. Bilirəm ki, onlar güclüdürlər. Amma o illər Lətif müəllimin, təkcə Lətif müəllimin deyil, başqa müəllimlərimizin də bizə verdiyi dərslər, şəxsən mənə verdiyi dərslər və tövsiyələr bu günə qədər yadımdadır və bütün həyatımda həmişə mənə kömək edibdir.

Mən o gün Lətif müəllimlə görüşəndə bilirdim ki, yaşı çox olsa da, səhhəti pis deyil. İndi təsəvvür edin, o günkü mərasimdə əvvəldən axıra qədər iştirak edirdi. Demək, sağlamlığı da yaxşıdır. Yenə deyirəm, müəllimlər, bir yerdə oxuduğumuz məktəb yoldaşlarım, bu binanın divarları, sinifləri mənim üçün həmişə əziz olubdur. Mən buraya gələndə elə bilirdim ki, böyük bir saraya gəlirəm.

Vasif Talıbov burada Məmməd Cəfər Cəfərovun bir ifadəsini yada saldı ki, Bəhruz Kəngərli Puşkin küçəsində kiçik bir otaqda özünə sərgi düzəltmişdi və insanları çağırırdı ki, gəlin, baxın. Bu, həqiqətdir. Çünki Məmməd Cəfər çox ədalətli, bilikli alim idi. Onun dediyi sözlərin hamısı,

güman edirəm ki, həqiqətə uyğundur. Amma o Puşkin küçəsi haradadır? Puşkin küçəsi budur. Bu küçə axıra qədər, Şahab məhəlləsinə qədər Puşkin küçəsidir. Özü də deyə bilərəm ki, Puşkin küçəsi yuxarıdan Əlixan məhəlləsindən gəlib keçir və Şahab məhəlləsinin axırında o qurtarır. Mən sonralar bəzən deyirdim ki, bu küçəyə Puşkinin adı nə vaxt verilibdir.

Puşkinin anadan olmasının 100 illik yubileyi ilə əlaqədar Naxçıvanın mütəfəkkir adamları, – onların adları yadımdan çıxıb, ona görə təkrar etmək istəmirəm, – gərək ki, o vaxt Sidqi, başqa bir-iki nəfər də olmuşdu, – şairə öz münasibətlərini bildirmək üçün bu böyük küçəni Puşkin küçəsi adlandırmışdılar. Mən də burada doğulmuşam. Puşkin küçəsi ilə gedəndə, balaca bir döngə vardı, elə idi ki, iki adam bir-birinin yanından keçəndə toqquşurdu. Belə bir dar küçə idi, adı da Dar küçə idi. Oraya heç fayton, araba da girmirdi. Orada atamın balaca bir həyəti var idi, mən orada doğulmuşam. Allaha şükürlər olsun ki, o yer qaldı. Düzdür, bir az dağılmışdı və mən 1990-cı ildə burada olanda ata yurdunu abadlaşdırdım. Mən buraya gələndə elə orada yaşayıram. Mən bunu sevirəm. Cünki orada doğulmuşam. Bizim həyətdə quyu var idi, o quyudan su içmişəm. Quyu suyu bir az duzlu idi, amma Puşkin küçəsindən yuxarıdan yaxşı su axırdı, anam, böyük bacım vedrə ilə oradan su gətirirdilər.

Sonra o vaxt Naxçıvanda suyu süzən daşlar var idi. İndi mən görürəm, çoxları bilmir bu nədir. O vaxtlar qəribə idi. Daşı yonurdular, yonurdular, ona vedrə ilə su tökürdülər. Altına isə yenə vedrə qoyurdular.

Su damcı-damcı vedrəyə süzülürdü. Ondan ancaq çay üçün, yemək üçün istifadə olunurdu. Mən bunların hamısını yaşamışam. İndi görürəm ki, burada bunları beş-altı adam bilir. Başlarını tərpədib mənim dediyim sözləri təsdiq edirlər.

Amma qalanları bilmirlər. Mən gələndə bunlardan soruşdum ki, daşdan su necə süzüldüyünü bilirsiniz? Onlar dedilər, biz belə şeylər bilmirik. Harada görüblər?

Bəli, həmin bu Puşkin küçəsi də mənim üçün əzizdir. Çünki bu küçədən gedirdik, gəlirdik, gəncliyimiz belə keçirdi. İndi buraya gəlmişəm, həm məktəbimi görürəm, həm yaşadığımız yeri, həm də Puşkin küçəsini görürəm. Bunlar tarixin nişanələridir. Amma mənim ücün ən əziz odur ki, sizi görürəm, öz xatirələrimi sizə söyləyirəm və sizinlə birlikdə bu gözəl günü bölüşdürürük.

Mən sizin hamınıza cansağlığı arzu edirəm. Bəhruz Kəngərlinin muzeyinin açılması münasibətilə sizi təbrik edirəm. Bütün Azərbaycan

xalqını təbrik edirəm. Çünki bu, təkcə sizin üçün, bizim üçün deyil, bütün Azərbaycan xalqı üçündür. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz də, Azərbaycanın digər dəyərli insanları, elm xadimləri, mədəniyyət xadimləri, siyasət xadimləri, dövlət xadimləri də bizim tariximizi, tarixi irsimizi daim öyrənib yeni-yeni səhifələr meydana çıxaracaqlar. Bizim millətimizin zəngin tarixini nə qədər çox araşdırıb, aşağı laylardan çıxarıb təbliğ edə bilsək, Azərbaycan xalqının nə qədər böyük tarixə malik olduğunu göstərə bilərik. İnanıram ki, biz sizinlə birlikdə bunu edəcəyik. Sağ olun.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV AZƏRBAYCAN KİNOSU GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

*Respublika sarayı*
*2 avqust 2002-ci il*

– Əziz kinematoqrafçılar!

– Hörmətli xanımlar və cənablar!

Bu gün Azərbaycan Kinosu günüdür. Bu münasibətlə biz hamımız buraya toplaşmışıq kı, bu tarixi hadisəni qeyd edək. Mən sizi, Azərbaycan kinematoqrafiyasında çalışan bütün insanları, bütün kinosevərləri ürəkdən təbrik edirəm. Özünü kino sənətinə həsr etmiş bütün insanlara yeni yaradıcılıq uğurları arzu edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Azərbaycan kinosu bundan sonra daha böyük inkişaf yolu ilə gedəcəkdir.

Mən sözü Azərbaycan Kinematoqrafçılar İttifaqının birinci katibi, bizim çox sevimli aktrisamız Şəfiqə Məmmədovaya verirəm.

## AZƏRBAYCAN KİNEMATOQRAFÇILAR İTTİFAQININ BİRİNCİ KATİBİ ŞƏFİQƏ MƏMMƏDOVANIN ÇIXIŞI

– Möhtərəm cənab prezident!

Əziz kino işçiləri!

Hörmətli xanımlar və cənablarl

İttifaqımızın bütün kinematoqrafçıları adından Azəraycan Kinosu günü münasibətilə mən də sizi ürəkdən təbrik edirəm. Kinematoqrafçılarımız adından sizi əmin edirəm ki, doğrudan da kinomuz yaşayır və yaşayacaqdır. Bu gün bütün çətinliklərə baxmayaraq, biz yenə filmlər çəkmək, kinoya çəkilmək istəyirik.

Hörmətli prezident, biz kino sənətimizə yeni səhifələr yazmaq istəyirik. Möhtərəm cənab prezidentimiz bütün bu arzularımızı, ümidlərimizi Sizin adınıza bağlayırıq. Əminik ki, Siz bu sahədə bizə kömək

edəcəksiniz. Sizə minnətdarıq və həmişə də minnətdar olacağıq. Sağ olun.

* * *

**Heydər Əliyev:** Əmin ola bilərsiniz ki, Azərbaycan dövləti, Azərbaycan prezidenti kinematoqrafçılara, Azərbaycan kinosuna daim qayğı göstərəcəkdir.

İndi isə söz məşhur kinorejissor Vaqif Mustafayevə verilir.

## AZƏRBAYCAN MƏDƏNİYYƏT NAZİRİNİN MÜAVİNİ, KİNOREJİSSOR VAQİF MUSTAFAYEVİN ÇIXIŞI

Möhtərəm cənab prezident!

Hörmətli mərasim iştirakçıları!

Yəqin hamı başa düşdü ki, bu mərasim başqa cür başlanmalı idi. Bu təntənə üçün müxtəlif ssenarilər yazılmışdı. Amma möhtərəm prezident gələn kimi, ən gözəl ssenarini yazdı və dramaturgiyanı dəyişdirdi.

Mən möhtərəm prezidentimizin həyat və fəaliyyətindən 7 film çəkmişəm. Hər bir filmi başqa cür təsəvvür etmişəm. Amma cənab prezidentlə görüşəndə, iş bir növ başqa axın tapıbdır. Ona görə filmlər belə müvəffəqiyyətlər qazanır. Çünki bu dramaturgiyanı möhtərəm prezident özü yaradır və buna görə də filmlər uğurlar qazanır.

Mən bir fikri xatırlayıram. Ancaq bilmirəm, ilk dəfə bunu kim deyibdir. Bu fikir belədir: Hərdən insanları gətirib uçurumun kənarına qoymaq lazımdır ki, onlar həyata daha çox qiymət versinlər. Bu uçuruma yaxınlaşmaq üçün heç bir əziyyət çəkmək lazım deyildir. Sadəcə, 1980-ci illərin axırlarını təsəvvür etmək lazımdır. Qarabağ böhranı, mitinqlər, faciəvi komediya personajı Vəzirov, 20 Yanvar faciəsi, həyatın sonu və uçurum. Bizi bu uçurumdan dahi liderimiz Heydər Əliyev uzaqlaşdırdı və bu günə gətirib çıxardı.

Bu gün fantastik və çox qəribə bir gündür. Bu gün kino bayramı keçiririk. Özü də nadir dövlətlərdən biriyik ki, bu bayramı keçiririk. Amma bu bayram olmaya da bilərdi. Heydər Əliyev şəxsiyyəti olmasaydı, nəinki bu bayram, başqa bayramlar da olmaya bilərdi. Silahlı Qüvvələrin nəinki bayramı, heç özü də olmaya bilərdi. Sevinclə dolu müstəqillik bayramı yox, heç müstəqilliyin zərrəsi də olmaya bilərdi.

1980-ci illərin axırlarında Qorbaçov tərəfindən Azərbaycanı dağıtmaq üçün göndərilmiş Vəzirovun rəhbərliyi altında bütün təsərrüfat dağıdılmışdı. Həmçinin kinoda vacib kino obyektləri birdən-birə yox olmağa başladı. Bir obyekt yox oldu, digəri yox oldu. Vaxtilə Moskvadan sonra təkcə Bakıda olan avadanlıqlar yox oldu. Amma möhtərəm prezidentimiz tərəfindən hələ 1970-ci illərdə kinonun bazası elə möhkəm yaranmışdı ki, o illərdə və sonrakı illərdə baş verən dağıntılar kinonu məhv edə bilmədi. Kino bu günə qədər yaşayır və biz bu günə qədər o avadanlıqlarla filmləri yaradırıq və göstəririk. Cənab prezident, mən buna görə öz minnətdarlığımı, həmkarlarımın, bütün kino ictimaiyyətinin minnətdarlığını bildirmək istəyirəm.

Açıq deyirəm ki, özümü bu səhnədə çox xoşbəxt hiss edirəm, çünki mənə belə xoşbəxtlik nəsib olub ki, dahi liderimiz Heydər Əliyev haqqında filmlər çəkirəm. Çox xoşbəxtəm ki, bu filmlər təkcə Azərbaycanda qalmır, Azərbaycandan kənara da çıxır. Keçən ilin sentyabr ayında Moskvada 4-cü Avrasiya teleforumu oldu və "Heydər Əliyev. Əsil məhəbbət haqqında" filmi kino və televiziyanın tarixində ilk dəfə mükafatlara layiq görüldü. Bu, heç vaxt baş vermirdi. Çünki hansısa ölkənin rəhbəri haqqında film heç yaxın da buraxılmırdı. Bu filmlərin hamısı market filmlər adlandırılırdı. Yəni eyniləşmiş filmlər. Amma bizim möhtərəm liderimizin nüfuzu və onun şəxsiyyətinə olan maraq o qədərdir ki, bu film dərhal diqqəti cəlb etdi və bütün salon ayağa qalxaraq alqışladı.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV GÖRKƏMLİ MÜĞƏNNİ VƏ BƏSTƏKAR M.MAQOMAYEVƏ "İSTİQLAL" ORDENİNİ TƏQDİM ETMİŞDİR

*Prezident sarayı*
*7 sentyabr 2002-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

– Əziz Müslüm!
– Əziz Tamara!
Hörmətli xanımlar və cənablar, qonaqlar!

Bu günlər Azərbaycan xalqı, ölkəmiz böyük bir yubileyi – görkəmli incəsənət xadimi, görkəmli müğənni, bəstəkar Müslüm Maqomayevin anadan olmasının 60 illiyini qeyd edir.

Əziz Müslüm! Azərbaycanda keçirilən bu yubiley şənlikləri, – hələ davam edəcək, Azərbaycan mədəniyyətinə, sənətinə, ümumbəşəri, dünya mədəniyyətinə böyük töhfə verməyinlə bağlıdır. Sənin yaradıcılığın Azərbaycan mədəniyyəti incəsənətinin ayrılmaz və çox mühüm hissəsi olmuşdur. Sən həyatın və yaradıcılıq fəaliyyətində mədəniyyətimizi, sənətimizi zənginləşdirmisən, özü də çox zənginləşdirmisən.

Azərbaycan mədəniyyətinin 40 ildən artıq tarixini Müslüm Maqomayevsiz təsəvvür etmək mümkün deyildir. Doğrudur, bu tarix daha dərinlərə gedir, çünki bizim bugünkü Müslüm Maqomayevin babası görkəmli bəstəkar, musiqiçi idi və dahi Üzeyir Hacıbəyovla birlikdə onlar Azərbaycanda professional musiqi-opera sənətinin baniləri olmuşlar. Müslüm babasının işini layiqincə davam etdirir, ona görə Maqomayevlər nəsli təkcə indiki Müslüm Maqomayevin dövründən ibarət deyil, həm də Müslüm Maqomayevin babası, təkrar edirəm, Üzeyir Hacıbəyovla birgə Azərbaycanda ilk professional musiqi, opera sənəti əsərləri yaratdığı dövrdən başlanır.

Müslüm, Allah sənə nadir səs bəxş etmişdir. Özü də təkcə səs yox, Allah sənə qabiliyyət, istedad bəxş etmişdir və bunlar sənə özünün bu na-

dir, bənzərsiz səsindən çox bacarıqla bəhrələnməyə və görkəmli sənət əsərləri yaratmağa və belə görkəmli müğənni, belə görkəmli incəsənət ustası olmağa imkan vermişdir.

Mən bu gün burada sənin tərcümeyi-halını, yaxud da yaradıcılıq bioqrafiyanı danışmaq fikrində deyiləm. Hesab edirəm ki, bunun üçün hələ qarşıda vaxt var. Yəqin ki, bu da ediləcəkdir. Ancaq mən sənin, cəmiyyətdə heç kimin tanımadığı gəncin birdən-birə öz səsinlə və öz mahnılarınla hamını heyran etdiyin o illəri xatırlayıram. Məncə, sən öz yaradıcılığına Xəzər Gəmiçiliyi Dənizçilərinin Mədəniyyət Evinin özfəaliyyət ansamblında başlamısan. Bu, yəqin ona görə idi ki, sən onun yanında yaşayırdın, bəlkə də başqa səbəb vardı, mən bilmirəm. Yəqin, sən hələ uşaqlıq illərində oraya gedirdin və özünü göstərirdin. Xatirimdədir o, vaxtlar sənin çıxışın çoxları üçün, o cümlədən mənim üçün, musiqi, incəsənət ilə maraqlanan insanlar üçün olduqca əhəmiyyətli hadisə idi. Ola bilsin ki, sənin yaradıcılığının ilk illərində ona kifayət qədər diqqət yetirilməmişdir. Mən bunu xatırlayıram. Amma onun yaradıcılığı, yəni onun səsi və mahnıları ifa etməsi o dərəcədə heyrətamiz idi. Azərbaycanda təkcə ayrı-ayrı adamlara deyil, bütün cəmiyyətə o dərəcədə təsir göstərirdi ki, Müslüm məşhurlaşdı və öz sevimli işi ilə fəal məşğul olmağa başladı.

Müslüm, mən səninlə bir çox illər ərzində dostluq münasibətlərində olmuş bir adamam, mən də, ailəm də. Bəlkə də mənim rəyim subyektivdir, ona görə yox ki, biz dostuq, məhz ona görə ki, açığını deyəcəyəm, mən sənin mahnılarını çox sevirəm. Mahnıları hamı ifa edir. Lakin eyni bir mahnını müxtəlif ifaçılar müxtəlif cür ifa edirlər. Müslümü bütün digər ifaçılardan fərqləndirən xüsusiyyət budur ki, o, hər hansı bir mahnını ifa etməyə başladıqda ona öz aranjimanını, özünün müəyyən çalarlarını verirdi və bu mahnı elə səslənirdi ki, sanki yenicə yazılmışdır. Mən sənin mahnılarını təhlil edə bilərəm. Çünki sənin hər bir mahnın böyük sənət əsəridir. Amma indi mən bunu etməyəcəyəm, bəlkə də sonralar nə vaxtsa bunu da edəcəyəm.

Ona görə ki, biz bu gün səni təbrik etmək üçün toplaşmışıq və mənim müstəqil Azərbaycan Respublikasının ali mükafatını sənə təqdim etmək kimi sevindirici missiyam vardır. Amma bununla belə, mən bu barədə ona görə danışıram ki, həm incəsənət həvəskarı, həm mahnı həvəskarı, həm öz Azərbaycan xalqını, öz torpağını sonsuz məhəbbətlə sevən bir insan, həm də 30 ildən artıq Müslüm Maqomayevlə yaxın dost olan bir insan kimi bütün bunları deməyə bilmirəm.

Görünür, tale Müslümün də, mənim də üzümə gülmüşdür ki, 1969-cu ildə mən Azərbaycanın rəhbəri seçiləndə Müslümü himayə etməyə başladım. Belə istedadlı müğənninin himayəyə bir o qədər ehtiyacı yoxdur, bununla belə, bizim yaşadığımız həmin dövrdə, həmin ab-havada bu da lazım idi. Məsələn, mən bunu məhz ona görə edirdim ki. Azərbavcanın görkəmli musiqiçisi, müğənnisi, bəstəkarı, çox mürəkkəb mahnıların ifaçısı irəli çəkilsin və bununla da o, incəsənəti daha da zənginləşdirir və bizim ölkəmizin, Azərbaycanın, xalqımızın başını ucaldırdı. O dövrdə, elə bu gün də mənim vəzifəm hər bir istedadlı adama əlimdən qələn köməyi göstərməkdən ibarət olmuşdur. Yeri gəlmişkən, mən indi də bununla məşğul oluram. Lakin 30 il bundan əvvəl məhz belə şərait məni Müslümlə daha da yaxınlaşdırdı. Amma burada başqa məsələ də var, əlbəttə, mən respublikanın rəhbəri kimi, o zaman da, indi də istedadlı adamlara, ələlxüsus gənc istedadlara kömək göstərirəm, onları himayə edirəm, bununla belə, onların hər biri ilə şəxsi dostluq münasibətləri saxlamağa imkanım yoxdur. Müslümə gəldikdə isə, ailəmiz də, mən də onunla çox yaxın olduq. Müslümlə ünsiyyətdə olmaq çox xoş idi, eyni zamanda, bu görüşlər mənə onun işlərindən xəbərdar olmağa imkan verirdi. Müslüm həyatının, əgər belə deməк mümkündürsə, ilk dövründə öz istedadını parlaq şəkildə nümayiş etdirir, bununla belə, çox sərbəst həyat sürürdü. Mən ona məsləhət görürdüm ki, bütün bunlar yaxşıdır, ancaq ailə, ömür-gün yoldaşı barədə də fikirləşmək pis olmazdı. O, mənə qulaq asır, ancaq öz bildiyini edirdi. Yeri gəlmişkən, o, elə bir adamdır ki, onu istəmədiyi bir şeyi etməyə məcbur etmək qeyri-mümkündür. Əgər özü nəyi isə istəmirsə, bunu ona məcburən etdirmək mümkün deyildir. Mən də heç vaxt belə iş görməmişəm. Əvvəla, bu, mənim xarakterimə xas olan xüsusiyyət deyil, ikincisi, fikirləşirdim ki, qoy, Müslüm nə etmək istəyirsə, etsin. Ancaq ona məsləhətlər verirdim. Bu məsləhətlər də faydalı oldu. Budur, birdən 1972– ci ildə Tamara Sinyavskaya Azərbaycana gəldi. Ancaq o, tək gəlməmişdi, Rusiyanın görkəmli incəsənət xadimlərinin böyük qrupu da burada idi.

Biz Azərbaycanda Rusiya mədəniyyəti günləri keçirirdik. Bax, görürsünüzmü, Müslüm neçə illər idi ki, Moskvada yaşayırdı, orada gəzirdi, amma onu orada yox, burada, Bakıda tapdı.

Mən bunu hiss etmişdim. Xatirimdədir, biz, bütün nümayəndə heyəti böyük bir bərə ilə "Neft daşlarına gedirdik. Nümayəndə heyətində minədək adam vardı. Mən axıra yaxın gəlib çıxdım, təbii ki, qonaqlardan kimlərin burada olduğu barədə mənə məlumat verdilər. Məni narahat edən bu idi ki, onlardan kiminsə başına bir iş gəlməsin. Mənə dedilər ki,

siyahı üzrə, Müslüm Maqomayevdən savayı, qalan hamı bərədədir. Dedim: Bəs Müslüm hanı, onu tapın. Mən, hətta, bərəni təxminən yarım saat saxlatdırdım. Sonra gəlib mənə dedilər ki, Heydər Əliyev, bilirsinizmi, gözləmək lazım deyil, çünki Tamara Sinyavskaya da yoxdur, nümayəndə heyətində o da vardı. Ona görə də güman ki, onlar olmayacaqlar. Düşündüm, yaxşı, qoy onlar qalsınlar. Onların dostluğu da, bax, o günlərdə başlamışdır. Şadam ki, bundan az sonra o, mənə bildirdi ki, evlənmişdir. Mən onları Bakıya dəvət etdim, biz burada onların evlənməsini mənim ailəmdə və bəzi həmkarlarımın iştirakı ilə məhdud bir dairədə qeyd etdik. Mən o günü yaxşı xatırlayıram. Yəqin ki, Tamara da yaxşı xatırlayır. Mən bunu niyə danışıram? Şadam ki, Müslümün ailə həyatı uğurlu oldu. Bu, hər hansı bir adam üçün çox mühümdür, mədəniyyət, incəsənət xadimləri üçünsə, – onların həyat tərzi başqa adamların həyat tərzindən, hər halda, bir qədər fərqlənir, – belə sabit ailə həyatı, zənnimcə, nadir hadisədir. Odur ki, mənə elə gəlir, Müslüm ailə qurarkən nəinki düzgün seçim etmişdir, həm də onlar artıq 30 ildir birgə yaşayırlar. Mən onların ailə həyatına bələdəm və heç zaman belə bir xəbər almamışam ki, onlar dalaşıblar və barışdırmaq üçün onlara kömək etmək lazımdır. Əgər barışdırmaq lazım gələrdisə, bunu mən etməli idim, amma mən heç zaman belə məlumat almamışam.

Bax, Tamara Sinyavskaya görkəmli şəxsiyyətdir, rus müğənnisidir, Böyük Teatrın solistidir, onun zəngin yaradıcılığı var. Yaxşı ki, onlar bir-birini qısqanmırlar, rəqabət aparmırlar, əksinə, bir-birinə kömək edirlər. Bilirəm ki, onların belə sağlam və möhkəm, böyük məhəbbətə əsaslanan ailə həyatında Tamara böyük rol oynamışdır və oynayır. Mən 30 il əvvəl şad oldum, ona görə ki, sözün düzü, Müslüm sarıdan çox narahat idim: axı, onun o qədər pərəstişkarları vardı. Moskvada bizim daimi nümayəndəliyin nəzdində mehmanxana vardı, bizim tikdirdiyimiz yox, ondan kiçik bir mehmanxana idi. Orada mənzil tipli birini Müslüm üçün ayırdım, o, Tamara ilə hələ ailə qurmazdan əvvəl orada yaşayırdı. Mənə deyirdilər ki, milisin peşəsi ardı-arası kəsilmədən bu binaya gəlib, pilləkənlərin üstünə gül-çiçək qoyan qızları qovmaqdır. Buna görə də mən o vaxt çox narahat olurdum və istəyirdim ki, o, belə vəziyyətdən tezliklə canını qurtarsın və ailə qursun. Belə də oldu.

Ona görə də indi biz Müslümün böyük yaradıcılıq yolundan, böyük xidmətlərindən, musiqi sahəsində görkəmli fəaliyyətindən, ifaçılıq sənətindən danışarkən, mütləq Tamara haqqında da danışmalıyıq, çünki 30 ildir onlar birlikdədirlər, yaradıcılıqları artıq onların ailəsinin yara-

dıcılığıdır. Doğrudur, onların hər biri müxtəlif janrlarda çıxış edir. Bir sözlə, Müslümün belə gözəl xanımı olduğuna görə Tamaraya həmişə minnətdar olmuşam. Mən hələ onu demirəm ki, biz xalqımızın Tamara Sinyavskaya kimi belə bir gəlini olması ilə həmişə fəxr etmişik. Lakin Tamara haqqında ayrıca danışmaq lazımdır, biz nə vaxtsa, onun da yubileyini qeyd edəcəyik, onun hələlik 60 yaşı yoxdur. Müslümün isə 60 yaşı tamam olur.

Məncə, Müslüm bu gün 30 il əvvəl oxuduğu kimi oxuyur. Düzdür, o özünə tənqidi yanaşır, buna görə də ona elə qəlir ki, bu, belə deyil. Amma mən onu 30 ildən çoxdur dinləyirəm. Onun ifasında xüsusilə sevdiyim mahnılar var, mən onları dinləyirəm və fərq görmürəm. Müslüm çox mahnılar yaratmışdır. Yəni o, özünü bəstəkar kimi də gözəl tanıtmışdır. Ancaq onun ən görkəmli mahnısı Azərbaycana həsr etdiyi mahnıdır. Bu mahnı Azərbaycanın himni kimi səslənir. O, həmin mahnının musiqisini 1970-ci illərin ortalarında gözəl şairimiz Nəbi Xəzrinin sözlərinə bəstələmişdir. Amma ən başlıcası budur ki, Müslüm bu mahnını elə yaratmış, elə ifa etmişdir ki, onu heç kim belə ifa edə bilmir. Yaxşıdır ki, o, bu mahnını belə ifa edir, amma pisdir ki, bunu heç kim onun kimi oxuya bilmir. Ona görə də heç kim onu oxumağa cürət etmir. Bu, müstəsna mahnıdır. Bu mahnı ayrıca bir görkəmli əsər kimi tarixə daxil ola bilər və yəqin ki. daxil olacaqdır. Müslümün ifasında bu mahnını mən hər dəfə böyük həyəcanla dinləyirəm. Ancaq bu, yeganə mahnı deyildir, o, çox mahnılar yaratmışdır. Mən onun opera sənətində də çox işlər gördüyündən, yaxşı heykəl düzəltdiyindən, yaxşı şəkil çəkdiyindən danışmayacağam. İki il əvvəl o, portretimi cəkib mənə bağışladı. Mən ona çox minnətdaram, çünki bilirəm ki, o, həmin portret üzərində günlərlə, bəlkə də aylarla işləmişdir. O, portretdə məni özünün düşündüyü kimi çəkmişdir. Bu baxımdan portret mənim üçün çox qiymətlidir, bir də ona görə qiymətlidir ki, əvvəla, onu Müslüm çəkmişdir, ikincisi isə, bilirəm ki, onun üzərində günlərlə işləmişdir. Deməli, orada öz hisslərini ifadə etmişdir.

Müslümün incəsənətdə hər şeyi var və bu gün Müslüm özünün 60 illiyini qeyd edir. Daha doğrusu, biz qeyd edirik, özü bəlkə də qeyd etmək istəmirdi, amma biz qeyd edirik və düşünürəm ki, bu, sadəcə olaraq, bir mərhələdir. Biz Müslümün səsini bundan sonra da həmişə eşidəcəyik. Elə bir səs ki, o, heç kimdə voxdur. Dünyada görkəmli müqənnilər çoxdur, amma belə səs heç kimdə yoxdur. Qoy, heç kəs məndən inciməsin. Mən öz subyektiv fikrimi söyləyirəm. Hətta deyərdim ki, bu, subyektiv fikir deyil. Obyektiv təhlilə, obyektiv müqayisəyə əsaslanır.

Müslüm, Allah eləsin, bütün bunların hamısı qorunub saxlansın, Allah eləsin, səndəki enerji daha da artsın, sən həmişə irəliyə daha çox baxasan. Yeri gəlmişkən, dünən televiziyada səni gördüm. Dediklərin mənim xoşuma gəldi. Sən dedin ki, nikbin olmaq lazımdır. Sən düz dedin. Nikbin olmaq lazımdır. Nikbin olmağa sənin hər cür əsasın vardır. Mən səni təbrik edirəm.

Müslüm demək olar ki, gənc yaşlarından mükafatlar alır. Azərbaycanın xalq artisti adını alanda onun 29 yaşı var idi. Bu, Azərbaycan tarixində ilk hadisə idi. Onda 1971-ci il idi. Elə həmin il o, Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olundu. 2 ildən sonra, 1973-cü ildə ona SSRİ xalq artisti adı verildi. O zaman onun 31 yaşı vardı. Sovet İttifaqında heç kim bu yaşda belə yüksək ada layiq görülməmişdi. Ona görə də deyirəm ki, Müslüm gənc yaşlarından mükafatlar alır. Müslümün 55 yaşı tamam olanda mən onu Azərbaycanın "Şöhrət" ordeni ilə mükafatlandırdım və elə burada ona təqdim etdim. İndi artıq 5 il keçib, bu illərin necə ötdüyünü heç hiss etmədik. İndi isə Müslüm Azərbaycanın ən yüksək ordeni – "İstiqlal" ordeni ilə təltif olunmuşdur. Azərbaycanın müstəqilliyi XX əsrin sonunda qazandığımız ən dəvərli nailiyyətdir. Biz xoşbəxtik ki. dövlət müstəqilliyini əldə etmişik, bizim öz müstəqil dövlətimiz var. Xalqımız öz müstəqil dövlətində yaşayır. Bax, elə bu hadisə şərəfinə bizim ali mükafatımız "İstiqlal" adlandırılmışdır. Müslüm də bu ordenlə təltif olunmuşdur.

Müslüm, mən səni təbrik edirəm, sənə möhkəm cansağlığı arzulayıram.

Prezident Heydər Əliyev "İstiqlal" ordenini, ordenin vəsiqəsini, yubiley münasibətilə təbrik məktubunu, ordenlə təltif olunması barədə fərmanın əslini Müslüm Maqomayevə təqdim etdi.

* * *

Sonra Müslüm Maqomayev mərasimdə çıxış etdi.

## MÜSLÜM MAQOMAYEVİN ÇIXIŞI

Son vaxtlar Azərbaycan jurnalistləri tez-tez sual verirlər ki, nə üçün mən Azərbaycanda az-az oluram, bununla yanaşı, öz vətəndaşlığımı dəyişmədiyimi də qeyd edirlər. Deməliyəm ki, bütün bayramlarda, ən yüksək tədbirlərdə Azərbaycanda olmaqdan çox şadam. Zənnimcə, heç vaxt vədimə xilaf çıxmamışam və həmişə gəlmişəm. İndi burada öz 60 illik yubileyimi qeyd etdiyimə görə xoşbəxtəm, özü də, Heydər Əliyev, yubileyimi Sizinlə qeyd etdiyimə və bu orden lentini boynuma şəxsən Siz saldığınıza görə ikiqat xoşbəxtəm. Mən bunu tamamilə səmimi deyirəm, saxta təriflərdən çox uzağam. Çox sağ olun.

* * *

# “TELEVİZİYA VƏ RADİO YAYIMI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Milli Televiziya və Radio Şurası yaradılsın.

2. Müəyyən edilsin ki, Milli Televiziya və Radio Şurasının əsas vəzifəsi televiziya və radio yayımlarının fəaliyyətini tənzimləmək, yayım zamanı ictimaiyyətin maraqlarını qorumaq, televiziya və radio yayımı haqqında qanunvericiliyə əməl edilməsi üzərində nəzarəti həyata keçirməkdir.

3. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı bir ay müddətində Milli Televiziya və Radio Şurası haqqında Əsasnamənin layihəsini hazırlayıb Azərbaycan Respublikasının prezidentinə təqdim etsin.

4. “Milli Mətbuat, Teleradio və İnternet Şurasının yaradılması haqqında” Azərbaycan Respublikası prezidentinin 2001-ci il 20 iyul tarixli 543 nömrəli fərmanı qüvvədən düşmüş hesab edilsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

– qüvvədə olan qanunvericilik aktlarının “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;

– Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının prezidentinə məlumat versin;

– “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;

– öz səlahiyyətləri daxilində “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

6. Müəyyən edilsin ki:

– “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikası Qanununun 7.0.4-cü maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının prezidenti həyata keçirir;

– həmin qanunun 16.7-ci maddəsinin ikinci cümləsində və 19.5-ci maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

– həmin qanunun 11.2-ci, 11.3-cü, 11.4-cü, 11.5-ci, 11.6-cı, 13.1-ci, 13.3-cü, 13.5-ci, 19.2-ci, 21.2-ci, 21.3-cü, 22.4-cü, 29.2-ci, 30.2-ci, 30.3-cü, 33.1-ci, 34.3-cü, 40.2.7-ci maddələrində nəzərdə tutulmuş “dövlət orqanı”nın səlahiyyətlərini Milli Televiziya və Radio Şurası həyata keçirir;

– həmin qanunun 16.1-ci, 16.3-cü, 16.4-cü və 16.5-ci maddələrində nəzərdə tutulmuş “ müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Radiotezliklər üzrə Dövlət Komissiyası həyata keçirir;

– həmin qanunun 14.4-cü, 16.6-cı, 16.7-ci (birinci cümlədə), 16.8-ci, 16.11-ci, 20.3-cü, 26.1.3-cü, 30.3-cü maddələrində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Rabitə Nazirliyi həyata keçirir;

– həmin qanunun 18.4.3-cü maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi həyata keçirir;

– həmin qanunun 35.11-ci maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 oktyabr 2002-ci il*

# İRAN RƏSSAMI VƏDUD MÜƏZZİNİN FƏRDİ SƏRGİSİNİN AÇILIŞINDA AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

*10 oktyabr 2002-ci il*

– Hörmətli qonağımız Vədud Müəzzin!

Hörmətli xanımlar və cənablar!

Bu gün bizim ictimai-mədəni həyatımızda böyük bir hadisə baş verir. İran İslam Respublikasının rəssamı bizim üçün açılır. Bu mərasim sərginin açılışıdır. Amma bu sərgi İran rəssamı, Təbriz rəssamı, Ərdəbil rəssamı, Tehran rəssamı Vədudu Azərbaycan ictimaiyyəti üçündür. Azərbaycan incəsənət xadimləri üçün, Azərbaycan üçün açır. Bu, böyük hadisədir.

Azərbaycanda rəngkarlıq, rəsm sənəti böyük inkişaf yolu keçibdir. Bəhruz Kəngərlidən, Əzim Əzimzadədən başlayaraq, Azərbaycanda davamlı olaraq böyük rəssamlar dünyaya gəlib və böyük əsərlər yaradıblar. Onların bəziləri həyatdan gediblər, bəziləri isə bu gün də yaradıcılıq işi ilə məşğuldurlar. Biz bununla həmişə fəxr etmişik. Mən bu rəssamların hamısının adlarını çəkə bilərdim. Amma bu, çox vaxt aparardı. Çünki təkcə son dəfə Azərbaycan rəssamlarına fəxri ad verərkən, fərmanı – imzalayarkən baxıb gördüm ki, başqa sahədə mən bu qədər adama fəxri ad verməmişəm. Bunlar fəxri ad almayanlar idi. Amma fəxri ad alanlar nə qədərdir. Ona görə mən bilirəm – Azərbaycan rəssamları bu dövrdə, yəni müstəqillik əldə etdiyimiz gündən başlayaraq, həyatımızda böyük dəyişikliklər, çətinliklər, problemlər olmasına baxmayaraq, daim işləyiblər, öz sərgilərində əsərlərini göstəriblər. Bilirəm ki, Azərbaycan rəssamlarının çox əsərlərini burada alırlar, – həm bizim yerli insanlar, həm də turistlər və yaxud başqa, müxtəlif səbəblərə görə Avropadan Azərbaycana gələn insanlar alırlar. Əgər Avropadan gələnlər Azərbaycan rəssamlarının əsərlərini alırlarsa, bunun özü böyük bir hadisədir, çünki Avropa, təbiidir ki, öz klassik üslubunda yaşayıbdır və indi də yaşayır. Bu, bizim böyük nailiyyətimizdir. Mən görürəm, Tahir Salahov orada durubdur. O, Azərbaycanın ən istedadlı və böyük rəssamlarından biridir. Neçə illərdir Moskvada – keçmişdə SSRİ, indi Rusiya rəssamlıq Akademiyasının vitse-prezidentidir, oradakı bütün tərkiblərə daxildir və rəhbər vəzifələrdə-

dir. Bunların hamısı bizim mədəni sərvətimizdir, xalqımızın sərvətidir. Mən bu gün bu barədə öz fikrimi bir daha bildirmək istədim və arzu edirəm ki, bizim Azərbaycan rəssamları bundan sonra da yeni mühitə uyğunlaşaraq, ancaq Azərbaycan rəssamlıq məktəbinin xüsusiyyətlərini unutmayaraq, yeni-yeni əsərlər yaratsınlar.

Bilirsiniz, hər rəssam gərək yaratdığı əsərlərin səviyyəsini qaldırsın. Amma eyni zamanda da, gərək heç vaxt yaratdığı əsər onun xalqından, onun torpağından, vətənindən təcrid olunmuş kimi görünməsin. Güman edirəm ki, bizim Rəssamlar İttifaqı, rəssamlarımız bu yolla gedəcəklər.

Ancaq bugünkü hadisə, yenə də deyirəm, çox əlamətdar bir hadisədir. Onu bilirdim ki, İranda, ümumiyyətlə, keçmişdən, əlbəttə, böyük rəssamlıq məktəbi olubdur. Sultan Məhəmmədin əsərləri, onun miniatür sənəti 500 il bundan öncə bizim Azərbaycanın bu sənət sahəsindəki nailiyyətlərini göstərir. Sultan Məhəmməd bunun əsasını qoyubdur. Amma ondan sonra da İranda və Azərbaycanda o üslubda çox gözəl əsərlər yaranıbdır. Çox gözəl əsərlər... Məsələn, indi bizim müxtəlif təşkilatlar jurnallar, kitablar nəşr edirlər. Onların içərisində miniatür əsərlərin foto surətlərini dərc edəndə, o kitablar, jurnallar daha da çox dəyər kəsb edir. Çünki o əsərlər çox orijinaldır. Miniatür sənəti çox orijinal sənətdir.

Vaxtilə, gərək ki, 1981-ci ildə biz burada SSRİ Rəssamlıq Akademiyasının böyük bir iclasını keçirdik. Buraya ən böyük rəssamlar gəlmişdilər. Onda biz nə ilə fəxr etdik? Bəli, Avropanın qədimdən özünəməxsus üslubda məktəbləri var – Rafael, Mikelancelo, Tisian, Rubens və başqaları. Eləcə də rus rəssamları. Ancaq onunla fəxr etdik ki, bizim də miniatür məktəbimiz var – Sultan Məhəmmədin yaratdığı miniatür məktəbi. Burada onu çox böyük həvəslə qarşıladılar.

Məndə belə bir təsəvvür vardı ki, İranda ancaq miniatür sənəti mövcuddur. Amma bu cür rəngkarlıq əsərlərinin olduğunu mən bilmirdim. İranda xalçalar toxuyurlar. 1996-cı ildə Tehrana getmişdik, İslam Təşkilatı Konfransının iclası keçirilən salonda Xomeyninin xalçada toxunmuş portreti asılmışdı. Mən o xalçanın yanına, ola bilər ki, on beş dəfə getdim. Birincisi, Xomeynini görmək istəyirdim, ikincisi də, xalçada toxunmuş o portret miniatür əsəri deyildi. O, məni heyran etdi. Bilmirəm, sən orada idin yoxsa yox. Mən səfiri çağırıb göstərdim, dedim ki, bax, xalça üzərində belə əsərlər yaratmaq lazımdır. Həqiqətən, çox yüksək səviyyədə yaradılmış bir əsər idi. Mən düşünürdüm ki, bu ancaq xalçada yaradılıbdır. Bilmirdim ki, İranda, İran Azərbaycanında belə əsərlər var, Azərbaycan oğlu, İran oğlu, gözəl bir oğlan belə əsərlər yara-

da bilibdir. Təbiidir, bu, onun fitri istedadı olduğunu göstərir. Mən belə başa düşdüm ki, bunun belə böyük bir müəllimi olmayıbdır. Bəli, bizdə rəssamlıq texnikumu olub, indi Rəssamlıq Akademiyası var. Adətən, orada rəssamlar necə çəkməyi, nə cür etməyi öyrədirlər. Bu kişinin heç bir şeyi, müəllimi olmayıbdır. Amma onun müəllimi fitri istedadı ilə bərabər, bu işə həvəsi, istəyidir.

Mən çox sərgilərə baxmışam. Hər sərginin öz yeri var. Heç birini digəri ilə müqayisə edib demək istəmirəm ki, bu yaxşıdır, o yaxşıdır. Yox. Amma bugünkü sərgi məndə çox böyük təəssürat oyatdı. Bu əsərlərin hər biri bizim dostumuzun, gənc rəssamın nə qədər böyük istedada malik olduğunu göstərir. Eyni zamanda, nə qədər fədakar insan olduğunu sübut edir.

Orada kiçik bir əsər var. Şubert haqqında bu cür əsəri kiçik bir yerdə elə yaradıb ki, adam məəttəl qalır ki, bunu necə yaratmaq olar.

Mən çox sevinirəm, çox şadam. Bilirsiniz ki, belə sərgilərə gəlməyə mənim çox vaxtım yoxdur. Ancaq mənə xəbər vermişdilər ki, sən gələcəksən və burada sənin sərgin açılır. Dünən də mənə sərgidə nümayiş etdiriləcək işlər barədə bir az məlumat verdilər. Baxmayaraq ki, bu gün mənim işim həddən coxdur, amma bu sərgiyə gəldim. Hər bir əsərə diqqətlə baxdım. Heç bir əsərin yanından keçmədim. Bəzən olur, sərgiyə gedirsən əsərlərin birinə, ikisinə baxırsan, hiss edirsən ki, ümumi təsəvvür var. Amma burada təkcə ümumi təsəvvür məsələsi deyildir. Onsuz da bir neçə əsərə baxandan sonra artıq məndə təsəvvür yarandı. Burada mən hər bir əsərə baxmaq istəyirəm. Onun incəliyini, təbiiliyini görmək istəyirəm. Ona görə də xeyli vaxtdır ki, mən buradayam. Amma mən buna vaxt itirdiyimə görə şadam.. Şadam ki, bu sərgini gördüm.

Demək, Azərbaycan xalqı, – indi müstəqil Azərbaycanda da, İranda da,– bütün İran xalqı yüksək istedada malikdir. İndi biz bölüşdürə bilmirik ki, Şəhriyar kimindir. Təbiidir ki, Azərbaycanındır. Eyni zamanda, o, İranındır. Xətai kimindir? O, İranın və Azərbaycanındır. Belələrini çox saymaq olar.

Vədud da İran vətəndaşıdır, rəssamıdır, amma azərbaycanlıdır. Demək, İranda çox millətlər var, azərbaycanlılar da var. Azərbaycanlılar öz istedadını bu cür nümayiş etdirən, Şərq aləminə indiyə qədər uyğun olmayan Avropa üslubunda belə əsərlər yaradan rəssam yetişdiribdir.

Əziz dostum, mən səni təbrik edirəm. Mən sənin əsərlərindən çox böyük həzz aldım. Güman edirəm, burada sərgiyə gəlib maraq göstərənlər, baxanlar çox olacaqdır.– Sən gəncsən. Neçə yaşın var?

**Vədud Müəzzin:** 41 yaşım var.

**Heydər Əliyev:** 41 yaş… Ən gözəl yaşdır. Mən bu yaşların hamısını keçmişəm. Bu, ən gözəl yaşdır. Ona görə vaxtı itirmə, işini davam etdir. Yaxşı oxuyursan, səsin yaxşıdır. “Segah” da mənə ləzzət verdi. O da pis deyildir. Hərdən bir oxu ki, ilham alasan. Amma vaxtının çoxunu bu işə sərf et. Çünki bu, oxumaqdan daha da vacibdir. Oxuyanlar çoxdur. O tərəfdə də, bu tərəfdə də, o tayda da, bu tayda da çoxdur. Amma belə əsərlər yaradanlar o qədər də çox deyildir. Xüsusən, İranda. Elədirmi? Cənab səfir, düz deyirəm?

**Əhəd Qəzai** (İranın Bakıdakı səfiri): Bəli.

**Heydər Əliyev:** Səni təbrik edirəm, cansağlığı arzu edirəm. Mənim haqqımda əsər yaratdığına görə də təşəkkür edirəm və demək istəyirəm ki, çox dəyərli bir əsərdir. Yəni rəssamlıq ustalığı nöqteyi-nəzərindən dəyərlidir. Sənə təşəkkür edirəm.

Sağ ol.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV BAKIDA HÜSEYN CAVİDİN EV-MUZEYİNİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*24 oktyabr 2002-ci il*

Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun binasında, XX əsr Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri, şair və dramaturq Hüseyn Cavidin vaxtilə mənzili olmuş otaqlarda ədibin ev-muzeyinin açılmasına həsr edilmiş mərasim keçirilmişdir. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev mərasimdə iştirak etmişdir.

Prezident Heydər Əliyev ədibin həyat yoldaşı Mişginaz xanımın şəkillərinə, Hüseyn Cavidin uşaqlıq, gənclik illərini əks etdirən, müxtəlif illərdə Naxçıvanda, Tiflisdə, Türkiyədə çəkdirdiyi fotoşəkillərə baxaraq dedi:

– Mən sizin ananızı görmüşəm. Bir vaxt mənim anam xəstə idi. İndi Cavadzadənin klinikası olan bina o vaxt xəstəxana idi, orada müalicə edilirdi. Deyəsən, sənin anan da yanaşı otaqda müalicə olunurdu. Bu, təxminən 1956-1957-ci illər idi. Mən anamın yanına gedib-gəlirdim. Anam mənə deyirdi ki, Hüseyn Cavidin həyat yoldaşı Mişginaz xanım da buradadır söhbət edirik. Təbiidir, anam keçmişdə onunla tanış olmamışdı, xəstəxanada tanış olmuşdular, görüşmüşdülər. Mən də o vaxtlar anamın yanına gələndə onu anamın yanında görmüşdüm.

Mişginaz xanım çox gözəl qadın olubdur. Mən o vaxt onu görəndə də gözəlliyini saxlamışdı.

Turan Cavid atasının muzeydə saxlanılan əlyazmaları, kitabları, Türkiyədən gətirdiyi əsərlər, sürgündən yazdığı məktublar barədə məlumat verdi, Hüseyn Cavidin oğlu Ərtoğrulun, qardaşı Şeyx Məhəmmədin fəaliyyəti haqqında danışdı, Hüseyn Cavidin cənazəsinin qalıqlarının uzaq Sibirdən doğma vətənə gətirilməsinə və Naxçıvana aparılıb orada dəfn olunmasına, ədibin şərəfinə böyük məqbərə ucaldılmasına görə respublikamızın rəhbərinə təşəkkürünü bildirdi.

Prezident Heydər Əliyev Şeyx Məhəmmədin ona Azərbaycan dilindən dərs dediyini vurğuladı, Ərtoğrulu da həyatda gördüyünü bildirdi: Mən sənin qardaşını da görmüşəm. Deyəsən, 1943-cü il idi, Naxçıvanda idim. Mənə dedilər ki, Hüseyn Cavidin oğlunu əsgərlik xidmətindən buraxıblar, gəlibdir. Ağır xəstə idi. O, bir dəfə küçə ilə gedirdi. Onu mənə göstərdilər. Əsgər paltarında idi. Üz-gözü çox solğun, amma sifəti gözəl bir oğlan idi. Amma ondan sonra xəbərim olmadı. Nə vaxt vəfat etdiyi barədə xəbərim olmadı. Çünki mənim işlərim çox idi.

**Turan Cavid**: Cənab prezident, onun dəfnində qohumlarından başqa heç kim iştirak etmədi. Çünki qorxurdular. Amma indi Naxçıvanda gözəl məqbərə Cavidlərə qismət oldu. Bu, taleyin işi imiş.

**Heydər Əliyev:** Elədir. Hüseyn Cavid cox faciəli həyat keçiribdir. Ancaq onun yəqin bir xoşbəxtliyi də o imiş ki, sən varsan, yaşamısan. Gəl açıq danışaq, sən yaşamasaydın, bütün bu gördüklərimizi bir yerə yığmaq olmayacaqdı. Vəfalı övlad ata-ana üçün həmişə çox böyük nemətdir. Amma vəfasızlar da var. Yenə də deyirəm, sən varsan, deməli, bunlar yaranıbdır. Bunları səndən savayı heç kəs görə bilməzdi. Demək, Allah onlara əzab-əziyyət qismət edibdir, ancaq yaxşı ki, səni də onlara verib və Allah səni saxlayıbdır ki, bu irsi qoruyub yaşadasan.

**Turan Cavid**: Cənab prezident, bu stolun da maraqlı bir tarixi var. Mənim arzumdur ki, Siz onun arxasında oturasınız. Bu, həmin stoldur ki, vaxtilə evimizi yoxlayanda onun siyirtməsi olduğunu bilməmişdilər. Atamın bir çox əsərləri burada saxlanmışdır. İndi bizə nə qalıbsa, bunun sayəsində qalıbdır.

Bakı Şəhəri İcra Hakimiyyətinin təşəbbüsü ilə bu gün saat 5-də Hüseyn Cavidin heykəlinin qarşısında böyük konsert olacaqdır. Orada onun əsərlərindən parçalar da səslənəcəkdir.

**Heydər Əliyev**: İndi o heykəl çox gözəldir, ətrafındakı bağı da düzəltdik. Əvvəl ora çox pis vəziyyətdə idi. Mən həmişə oradan keçirəm, hər dəfə fikirləşirdim, axı, bu niyə belədir? Hacıbala bu vəzifəyə təyin olunandan sonra özü də təşəbbüs göstərdi, mən də ona dedim, oranı düzəldibdir. İndi mən oradan keçəndə görürəm ki, nə qədər adam istirahət edir, nə qədər gözəl bir bağdır. Orada iki fəvvarə də var. Biri Cavidin heykəlinin yanında, digəri onun ətrafındadır.

**Turan Cavid**: Çox gözəl bağdır. Fəvvarələr də gözəldir. Atamın özü də suyu xoşlayırdı. İstirahət yeri üçün çox əlverişlidir.

**Heydər Əliyev**: Orada çox adam yaşayır. Əvvəllər o bağ yaxşı vəziyyətdə deyildi, heç kəs oraya istirahətə getmirdi. İndi elə gözəl vəziyyətdədir ki, ətrafda yaşayan insanlar hər gün gəlib dincəlirlər.

**Turan Cavid**: Cənab prezident, bu, kitab "Peyğəmbər" əsəridir. Yuxarıda isə Şeyx Məhəmmədin şəklidir.

**Heydər Əliyev**: Mənə Azərbaycan dilini ilk dəfə öyrədən Şeyx Məhəmməd olmuşdur. Gözəl müəllim idi, amma çox da tələbkar idi.

**Turan Cavid**: Siz həmişə müəllimlərinizi xatırlayırsınız. Tələbkar müəllim olmaq çox yaxşıdır.

**Heydər Əliyev:** Bəli, müəllim tələbkar olmasa, şagird oxuya bilməz. Özü də o vaxtlar. Mənim kimi şagirdə qarşı o qədər də tələbkar olmaq lazım deyildi. Amma mənimlə birlikdə 25-30 nəfər oxuyurdu, müxtəlif səviyyədə idilər. O, çox tələbkar müəllim idi. Özü də dərsi qanun-qayda ilə keçirdi. O, mənə 5-ci sinfə qədər Azərbaycan dili dərsi deyibdir. Amma deyim ki, görünür, o vaxtlar maddi çətinliklər içində yaşayıbdır. Mən özüm də kasıb bir ailədən idim. Ümumiyyətlə, o vaxtlar dövlətli adam yox idi, müəllim də kasıb idi, məktəbli də kasıb idi. Amma bizim bəzi müəllimlər, keçmişdən qalan müəllimlər var idi. Onların əyinbaşı yaxşı idi. Amma bunun çox sadə paltarı vardı.

**Turan Cavid**: O, sadə insan idi. Birinci arvadından üç uşağı, o birisindən 5 uşağı var idi. Ona görə kasıb idi.

**Heydər Əliyev**: Görürdüm, çətinlik içində yaşayırdı. Təsəvvür edin, mənim o vaxtlar neçə yaşım var idi, üçüncü, dördüncü sinifdə oxuyurdum. Ortadan da aşağı səviyyədə yaşayırdı, amma çox tələbkar, intizamlı müəllim idi.

**Turan Cavid:** O, şeirlər də yazırdı, folklor materialları toplayırdı. Bir-ikisini oğlu mənə veribdir.

**Heydər Əliyev**: İndi onun uşaqlarından qalan varmı?

**Turan Cavid**: Bəli, iki qızı, iki oğlu durur. Oğlanları Moskvada yaşayırlar, qızlarının biri ədəbiyyat müəllimidir, biri isə bioloqdur, işləyirlər.

**Heydər Əliyev**: Turan xanım, Hüseyn Cavid bu qədər böyük əsərlər yazıbdır. Demək olar, hamısı tarixi mövzulu əsərlərdir. Elə bir əsər yazmayıb ki, məsələn, filankəs filankəsnən sevişdi, yaxud, sevişmədi, nə bilim, nə təhər oldu. Onun əsərləri tarixi mövzudadır və bunlarda tarixi dəqiqlik var. O, elə çox da yaşamayıbdır. Sən mənə de görüm, düzdür, sən o vaxtlar uşaq olmusan, amma indi sən yeganə adamsan ki, onu hamıdan yaxşı tanıyırsan. O, bu qədər tarixi nə cür yazıbdır, bilibdir?

**Turan Cavid**: Cənab prezident, onun mütaliəsi son dərəcə güclü olubdur. Gəncliyindən gözləri zəif idi. İstanbula gedəndə kitablar gətirirdi. O qədər də firavan dolanmayıb, amma pulunu kitablara verirdi. O, uzaqgörən idi. Müharibə başlayan zaman onun yanına gələnlər deyir ki, Cavid bizə söylədi ki, bu müharibə ya 4, ya da 5 il çəkəcək və Sovet İttifaqı qalib gələcəkdir. Hətta həbslər başlayan zaman deyirdi ki, məni niyə həbs edirsiniz, əsərlərim göz qabağındadır. O, son əsərlərinin birini də gizlədə bilmədi. Heç olmasa, evdən çıxara bilərdi.

**Heydər Əliyev**: Yəni onun tapılmayan əsərləri var?

**Turan Cavid**: Bəli, hamısını apardılar və heç birini qaytarmadılar.

**Heydər Əliyev:** Axı, bərpa olunan əsərləri var?!

**Turan Cavid**: Yox, onlar çap olunanlardır. Onun yazıb bitirdiyi və çap olunmayan "Otello", "Çingiz", "İblisin intiqamı", "Şəhla", "Telli saz" pyeslərini, "Koroğlu"nun ssenarisini – hamısını apardılar. O, bəraət alan kimi, birinci məktubu təhlükəsizlik orqanlarına yazdım ki, atamın xəttini tanıyıram. Mən 4-cü sinifdə oxuyanda, yayda bağda olarkən ərəb əlifbasını mənə öyrətmişdi. Mənə dedilər ki, heç bir şey qalmayıbdır. "Telli saz" və "Şəhla" əsərləri evdən çıxarılıbdır. "Telli saz"ı aktyorlar tamaşaya qoymaq istəyiblər, nədənsə, yarımçıq qalıbdır. Yeganə olaraq "Xəyyam" əsərini Yerevanda bir aktyordan almışam.

**Heydər Əliyev**: Mən elə bilirdim, "Xəyyam" qalıbdır.

**Turan Cavid**: "Xəyyam" yox idi, çap olunmamışdı. 1935-ci ildə, Sovet hökumətinin qurulmasının 15-ci ildönümü münasibətilə müsabiqə elan ediblər. Cavid bu əsəri həmin müsabiqəyə verir və üçüncü mükafatı alır.

Mükafat almış əsər kimi "Xəyyam" tamaşaya qoyulmalı idi. Elə oldu ki, özü də getdi, əlyazma da getdi, əsər də itdi.

**Heydər Əliyev**: Demək, onun vaxtında "Xəyyam" tamaşaya qoyulmayıbdır.

**Turan Cavid:** Azərbaycan teatr tarixində yeganə əsərdir ki, yazılandan 35 il sonra tamaşaya qoyulmuşdur. 1935-ci ildə yazılmış, 1970-ci ildə tamaşaya qoyulmuşdur.

**Heydər Əliyev**: Onu tamaşaya Mehdi Məmmədov qoyubdur.

**Turan Cavid**: Bəli, o, qoyubdur, gözəl tamaşa idi.

**Heydər Əliyev**: Mən o tamaşaya baxdım. Amma mən onda bunu bilmirdim. Elə bilirdim ki, "Xəyyam" o vaxtlar, Cavidin sağlığında tamaşaya qoyulubdur.

**Turan Cavid**: 35 ildən sonra Mehdi Məmmədov tamaşaya qoyubdur.

**Heydər Əliyev**: Deməк, çap da olunmamışdı?

**Turan Cavid**: Bəli, çap olunmamışdı. Bir nəfər əsərin üzünü köçürübdür. Bu, çox maraqlıdır, öz xətti deyil. Bu əsər mükafata layiq görüldüyünə görə, qəzetlərdə ondan parçalar çap olunmuşdu. Mən onları da götürdüm.

**Heydər Əliyev**: Yaxşı ki, saxlanılıbdır.

**Turan Cavid**: Bu əsəri əldə edəndə, elə bil dünyanı mənə verdilər. İndi ümid edirəm ki, bəlkə o biri əsərlər də tapıldı. Hər halda, insan ümidsiz yaşamır. Bəlkə hələ qapalı yerlər var ki, əsərləri vermirlər.

**Heydər Əliyev**: Yəni deyirsən, burada qapalı yerlər var? Mən bir də yoxladaram.

**Turan Cavid**: Cənab prezident, yadımdadır, Siz bir dəfə çıxışınızda dediniz ki, işə təzə gələndə işçilərinizdən biri deyib ki, həyətdə Cavidin əsərlərini yandırıblar.

**Heydər Əliyev**: Bəli, mən Moskvadan təzə gəlmişdim. Burada işləyirdim. Xeltov adlı bir nəfər var idi. Bir-iki işçi o vaxtlar işləyən adamlar idi, danışırdılar ki, Hüseyn Cavidin əsərləridir və Salman Mümtazın – onun çox kitabları olubdur – kitablarını yeşiklərə doldurub həyətə tökmüşdülər, yandırırdılar. Özü də bunu edən, o işi aparan, – indi Cavidin işinə baxmaq lazımdır, həmin Xeltov olub, yoxsa yox, – bir qrup adam olubdur, onların içində ermənilər də olubdur. Xeltov yəhudi idi, erməni deyildi. Onların çoxu sonralar həbs edildi. Bəli, keçmiş binanın həyətində yeşiklərə doldurub yandırıblar. Bəzən də qızınmaq üçün yandırıblar. Yanacaq olmayanda kağız yandırırdılar. Mən müharibə vaxtı bunu görmüşəm. Yanacaq yox idi. Köhnə kağızları, kitabları yandırırdıq, əllərimizi qızdırırdıq.

İndi Allaha şükür, qalan əsərləri də çoxdur.

**Turan Cavid**: Mən Sizə təqdim edəcəyəm. “Bahar şəbnəmləri” adlı şeirlər kitabı təzə, Cavidin öz qələmindən çıxan tərzdə nəşr olunubdur. Çox gözəl çap edilibdir.

Dünən imzaladığınız sərəncama görə Sizə təşəkkür edirik. Görünür, Allah insanların hərəsini yer üzünə bir missiya üçün göndəribdir. Çox qəribədir, hərə bir iş görməlidir.

Həqiqətən də, bu işi başlayan adam onu sona catdırmalı idi. Bunu da Siz etdiniz. Adicə bu otaqların alınmasında deyirdilər ki, mümkün deyildir.

Deyirdim ki, həyatda mümkün olmayan şey yoxdur. İnsan təkcə ölümün qarşısında acizdir, qalan hər şey insan iradəsindən asılıdır. Gərək hər işi ürəklə edəsən. Bu işləri gələcək nəsillər üçün etmisiniz.

**Heydər Əliyev**: Dünən sərəncamı imzalayanda düşündüm ki, 20 il bundan öncə ilk dəfə mən Hüseyn Cavidin 100 illik yubileyi ilə əlaqədar fərman imzalamışam. Onun cənazəsinin qalıqlarının vətənə gətirilməsi dövrü yadıma düşdü. Sonra fikirləşdim ki, dünya qəribədir, 20 il bundan öncə başladığım işi yenə davam etdirirəm. Bu, birincisi. İkincisi, mən onun 120 illik yubileyi haqqında sərəncam imzalamışam. Onun cənazəsinin qalıqlarının gətirilməsi, sonrakı dövr də qəribə dövr idi.

Bilirsiniz, Cavidin 1937-ci ildə repressiya zamanı həbs edilməsi, sürgün olunması və orada vəfat etməsi, bu, özü bir dövrdür. Vəfat etdi, getdi torpağa, qurtardı. Amma ondan sonra, əgər loru dildə desək, onun dirildilməsi, yəni, mənəvi cəhətdən bəraəti məsələsi var idi. Biz bunu 20 il öncə etdik.

**Turan Cavid:** Mən həmişə deyirəm, onlar cismani bəraət aldılar.

**Heydər Əliyev**: Bəli, elədir. 1982-ci ildə onun cənazəsinin, nəşinin Sibirdən gətilirməsi mənim xatirimdədir. Nə qədər çətinliklər var idi. Birincisi, gedib onun gətirilməsi məsələsi nə qədər cətin idi. Bunu etdik. Mənə xəbər verdilər ki, onu gətirdilər. Xatirimdədir, burada böyük bir müşavirə topladım ki, nə edək? Hərə bir fikir deyirdi. Düzü, o vaxt çoxları, elə sənin özün də deyirdin ki Cavid Fəxri xiyabanda dəfn olunsun. O vaxtlar bizim yazıçılar, alimlər toplaşdılar, amma mən yeganə adam idim ki, – indi özümü tərifləmək istəmirəm, – dedim ki, Naxçıvanda dəfn olunsun.

**Turan Cavid:** Bunun ozu uzaqgörənlik idi.

**Heydər Əliyev**: Amma nə üçün Naxçıvanda?! Mən Naxçıvanın qəbristanlığını da tanıyıram, Naxçıvanda Fəxri Xiyaban da, başqa bir şey də yoxdur. Amma mən Naxçıvan deyəndə, nəyi nəzərdə tuturdum? Mən Naxçıvan deyəndə, nəzərdə tuturdum ki, şəhərin mərkəzində, gözəl bir yerdə dəfn olunsun və qəbri üzərində məqbərə ucaldılsın. Mən bunu deyirdim. Mən bunu başa salandan sonra çoxları razı oldu, amma bəziləri yenə başladılar ki, Bakı paytaxtdır. Mən dedim, axı, Naxçıvan onun doğulduğu yerdir. Bir də burada, Fəxri xiyabanda Azərbaycanın böyük insanlarının çoxu yanyanadır. Təəssüflər olsun ki, orada layiq olmayanlar da var. Belədir, hər dövrdə kimsə, hansısa bir səhv buraxır. Onun nəticəsində belə şeylər olur. Amma mənim fikrim, düşüncələrim belə idi.

O vaxt göndərdim, Naxçıvanda yer seçdilər, çox da gözəl yerdir. Yaşadığı evin yanında. Hamısını mənə dedilər. Orada onu böyük təntənə ilə dəfn etdilər. Ancaq iki ildən sonra mən buradan getdim. Mən gedəndə də tapşırıqlar vermişdim, amma etmədilər. Sonra mənim özüm hər şeyi etdim. Mən bunu sizə demişəm. O vaxt Moskvada ağır vəziyyətdə, məhdudiyyətlər içində olanda cox şeylər düşündüm. Cavidin məzarını da düşünmüşdüm.

Naxçıvana gələn kimi rəhbər seçildim və dərhal bir-iki layihə verdim. Naxçıvanın Mədəniyyət naziri Fəttah Heydərovu sənin yanına göndərdim. Dedim, Turan xanımın yanına get, onunla danış, gəlsin görək, hansı layihə ola bilər. Bir neçə layihəyə baxdım. Ancaq o vaxt istəklərimi yerinə yetirməyə mənim imkanım yox idi. Sonra o şeyi ki, mən etdim, bunun üçün başqa imkan lazım idi. Amma görünür ki, bu adamın taleyi ağır olubdur. Onun ağır taleyi var, amma gör sonu necədir. Kim bunu təsəvvür edə bilərdi ki, bu cür məqbərə ucaldılsın. Azərbaycanda ikinci şəxs yoxdur ki, onun sevimli həyat yoldaşı da, oğlu da onunla bərabər bir yerdə dəfn olunsun.

**Turan Cavid**: Mən həmişə bir şeyə inanıram ki, nə isə gecikirsə, bu, uğurlu səbəbə görə gecikir. Bunlar vaxtilə olsaydı, yəqin belə olmayacaqdı. Deməк, bu, mütləq gecikməli idi. Azərbaycanda Sizdən başqa heç kəs onların üçünü də birləşdirə bilməzdi. Bu, mənim üçün çox böyük ağrı idi. Ona görə mən və çoxları çox minnətdarıq və bunu yüksək qiymətləndiririk.

**Heydər Əliyev**: Allah Hüseyn Cavidə rəhmət eləsin. Mişginaz xanıma rəhmət eləsin, Ərtoğrula rəhmət eləsin. Biz onların xatirəsini əbədiləşdirmək üçün nə mümkündür etmişik, bundan sonra da edəcəyik.

**Turan Cavid**: Əminəm ki, onların ruhları bu evdədir. Burada 17 il çox xoş günlər keçirilibdir.

**Heydər Əliyev**: Bu gün də xoş söhbət gedir. Doğrudur, bu söhbət bir az məyusluq doğurur. Turan xanım, mən təbrik edirəm ki, ev-muzeyi açıldı. Buranın qapılarını insanlar üçün açın. Qoy gəlsinlər, baxsınlar, görsünlər ki, bunlar bizim xalqımızın, millətimizin tarixidir və insanlar bu tarixlə tanış olsunlar. Tariximizi daim insanlara, xüsusən gənc nəslə anlatmaq, bildirmək, öyrətmək lazımdır. Çünki tarixini bilməyən insan öz millətinə, xalqına sədaqətlə xidmət edə bilməz və həqiqi insan ola bilməz. Ona görə də biz Azərbaycanda muzeylər yaradarkən tariximizin ayrı-ayrı hissələrini bugünkü nəsillərə, gələcək nəsillərə göstərmək istəyirik. Bu da bunun gözəl bir nümunəsidir. Allah, xeyirli eləsin.

**Turan Cavid**: Çox sağ olun. Allah, Sizdən razı olsun. Respublikamızın rəhbəri muzeydə toplanmış maraqlı və qiymətli sənədlərlə, eksponatlarla tanış oldu, Hüseyn Cavidin xalq rəssamı Ömər Eldarov tərəfindən yaradılmış heykəlinə, Naxçıvanda ucaldılmış məqbərəsinin maketinə baxdı.

* * *

Sonra muzeyin açılışı münasibətilə mərasim keçirildi.

Azərbaycan prezidenti Heydər Əliyev mərasimdə nitq söylədi.

## HÜSEYN CAVİDİN EV-MUZEYİNİN AÇILIŞ MƏRASİMİNDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

– Hörmətli alimlər!

Xanımlar və cənablar, dostlar!

Mən bu gün uzun bir fasilədən sonra bu binaya ayaq qoydum. Keçmişdə, 1970-1980-ci illərdə mən Azərbaycanda işləyəndə bu binaya çox gəlmişəm, çünki onda burada Azərbaycanın Ali Soveti yerləşirdi. Gəlib burada iclaslarda iştirak edirdim və hər dəfə bu salonda Azərbaycanın görkəmli şəxsiyyətlərinə, mədəniyyət, elm nümayəndələrinə yüksək dövlət mükafatları təqdim edirdim. İndi onlardan çoxları yoxdur. Ancaq muzeylərdə şəkillərini görəndə həmişə bunu xatırlayıram. Biz sonra Azərbaycanın Ali Soveti üçün yeni bina tikdik. İndi həmin o binada müstəqil Azərbaycanın Milli Məclisi yerləşir.

Bu bina haqqında çox söz-söhbət gedirdi ki, onu kimə verək. Müştəriləri, yəni bu binanı istəyənlər də çox idi. Bu da təbiidir. Çünki bu tarixi binadır və indiyə qədər çox yaxşı qalıbdır. Azərbaycanın tarixi memarlıq abidələrindən biridir. Ancaq mən belə fikirdəydim ki, biz belə binaları yalnız elm, mədəniyyət sahəsində istifadə etməliyik. Ayrı-ayrı nazirliklərə, yaxud inzibati orqanlara belə binaları vermək o qədər də məqsədə uyğun deyildir.

Bu, keçmişdə də olubdur. Amma mən o illərdə də belə fikirdəydim. Çünki belə binalar Azərbaycanın milli sərvətidir. Hansısa bir nazirlik, hansısa bir inzibati təşkilat özü üçün bina ala bilər. Amma belə binaları memarlıq abidələri kimi həm qoruyub saxlamaq lazımdır, həm də onlardan istifadə edərkən, uyğun təşkilatları orada yerləşdirmək, yaxud onla-

rın sərəncamına vermək lazımdır. Buna görə də cox mübahisələrdən sonra mən belə qərar qəbul etdim ki, bu bina Əlyazmalar Fonduna verilsin.

Bilirsiniz, indi burada iştirak edənlərin bəziləri xatırlayır, təəssüflər olsun ki, uzun illər, onilliklərlə bizim Əlyazmalar Fondu, yəni tarixi əlyazmaları, Azərbaycanın tarixini əks etdirən kitablar, sənədlər Elmlər Akademiyası binasının birinci mərtəbəsində yerləşirdi. Onların da çoxu orada xarab olurdu. Ona görə belə bir qərar qəbul etdik və mən çox məmnunam ki, bu qərarın qəbul olunması indi özünü tam doğruldubdur.

İndi Əlyazmalar Fondu artıq elmi-tədqiqat institutuna çevrilibdir. Burada, dediyim kimi, Azərbaycanın tarixini əks etdirən çox nadir, çox qiymətli kitablar var. Onların da çoxu Azərbaycanın tarixi abidələridir. Burada indi kollektiv işləyir, elmi-tədqiqatlar aparır. Ancaq eyni zamanda düşünürəm ki, Azərbaycanın elm sahəsi ilə məşğul olan adamları, insanları, yaxud ədəbiyyat və incəsənətlə, başqa sahələrlə məşğul olanlar bu əlyazmalardan istifadə edirlər və edəcəklər.

Sonra bir problem də yarandı. Bu da ondan ibarət idi ki, bu binada vaxtilə böyük şairimiz, dramaturq, filosof Hüseyn Cavid yaşamışdır. Hüseyn Cavidin yaşadığı otaqlarda onun ev-muzeyinin yaradılması məsələsi meydana çıxdı. Bu məsələ uzun illər gündəlikdə idi. Ancaq təəssüflər olsun ki, həll edilmirdi. Bunu da həll etdik. İndi bu binada Hüseyn Cavidin ev-muzeyi yaradılıbdır. O, bu binada yaşayıbdır. İndi mən orada oldum, muzeyi ziyarət etdim. 1920-ci ildən həbs olunana qədər o, ailəsi ilə bu binada yaşayıbdır. Biz burada muzey yaradılmasını təmin etdik. İndi Hüseyn Cavidin ev-muzeyi hazırdır.

Bu gün Hüseyn Cavidin anadan olmasının 120 ili tamam olur. Mən bu münasibətlə sərəncam vermişəm ki, respublikada təşkilatlar Hüseyn Cavidin 120 illik yubileyini keçirsinlər. Ona görə də mən məhz bu gün muzeyin açılışına gəldim.

Muzey çox maraqlıdır, olduqca maraqlıdır. Güman edirəm ki, Hüseyn Cavid yaradıcılığı ilə, onun həyatı ilə maraqlanan insanlar bu muzeydə maraqlı eksponatlar görə bilərlər. Həm də yaradıcılıqla, elmi işlə məşğul olanlar orada özləri üçün çox lazımlı məlumatlar toplaya bilərlər.

Biz repressiya qurbanlarının xatirəsini yad edirik. Onlar vaxtilə repressiyaya məruz qalıblar, həyatlarını itiriblər, ailələrində çox böyük çətinliklər, məhrumiyyətlər yaranıbdır. Bəli, təəssüflər olsun ki, bu böyük insanlara "sağ ol!" demək əvəzinə, onları repressiyalara məruz qoyublar. Biz Azərbaycanda repressiya qurbanlarının, demək olar ki, hamısının xidmətlərini bərpa etməyə çalışmışıq və çalışırıq. Çoxları haq-

qında kitablar yazılıb, abidələr yaradılıbdır və bu iş bundan sonra da gedəcəkdir.

Hüseyn Cavid də repressiya qurbanlarından biridir və özü də, ailəsi də çox məhrumiyyətlərə məruz qalmışdır. Ancaq repressiyaya təkcə ayrı-ayrı insanlar yox, təəssüflər olsun, bizim xalqımız da məruz qalmışdır. Repressiya təkcə ondan ibarət olmamışdır ki, ayrı-ayrı insanları həbs ediblər, əsərlərini qadağan ediblər, insanları güllələyiblər, öldürüblər, yaxud da sürgün ediblər, onlar həyatlarını orada itiriblər. Ümumiyyətlə, bütün xalqımız repressiyaya məruz qalıbdır. Xalqımızın repressiyaya məruz qalması 1920-ci illərdən başlayaraq, mərhələlərlə, 1950-ci illərin sonlarına qədər davam etmişdir.

Amma bununla bərabər, tariximiz, mədəniyyətimiz də repressiyaya məruz qalmışdır, milliliyimiz də repressiyaya məruz qalmışdır. Çünki Sovetlər İttifaqı dövründə çalışmışdılar ki, bizim tariximizi də, keçmişimizi də, ənənələrimizi də yalnız kommunist ideologiyasına, sovet sosialist quruluşuna uyğunlaşdırsınlar. Təbiidir, belə bir proses gedən zaman həqiqi tariximiz, milli-mənəvi sərvətlərimiz ya məhv olmalı, ya itirilməli idi, yaxud da yaddan çıxarılmalı idi. Bu, bizim tariximizdir. Biz bunu heç vaxt unutmamalıyıq. Bunlardan nəticə çıxarmalıyıq ki, xalqımız daha heç vaxt belə hallarla rastlaşmasın. Xüsusən, ona görə ki, indi bizim xalqımız azad olubdur. Biz müstəqillik əldə etmişik, 11 ildir ki, müstəqil dövlətdə yaşayırıq.

Mən dəfələrlə demişəm və bu gün də bəyan edirəm ki, bizim müstəqilliyimizin sonu yoxdur. Belə də olacaqdır. Ancaq bu da bizdən asılıdır. Bugünkü, gələcək nəsillərdən asılıdır, hamımızdan asılıdır. Biz bu gün əlimizdən gələni edirik və etməliyik. Gələcək nəsillər üçün də biz nümunə yaratmalı, onlar üçün böyük irs qoyub getməliyik.

Repressiyaya məruz qalmış böyük tarixi, mənəvi dəyərlərimizdən, əsərlərimizdən biri də "Kitabi–Dədə Qorqud" dastanı olmuşdur.

Biz onun 1300 illik yubileyini keçirən zaman bu məsələni təhlil etdik, bu barədə danışdıq. Məqalələr, kitablar yazıldı ki, azərbaycanlıları "Kitabi–Dədə Qorqud"dan necə məhrum ediblər. İkinci Dünya müharibəsindən sonra SSRİ-də gedən proseslər, o cümlədən Azərbaycanda gedən proseslər zamanı, 1950-ci ildə bizim bu tarixi abidəmizi tamamilə saxtalaşdırmağa, təhrif etməyə çalışdılar və buna da nail oldular. Amma biz "Kitabi–Dədə Qorqud"u xalqımıza qaytardıq. Onun 1300 illik yubileyini beynəlxalq miqyasda keçirdik və dünyaya göstərdik ki, bizim xalqımızın belə qədim tarixi var və belə bir tarixi abidəsi var.

O vaxt yubiley günlərində biz "Dədə Qorqud" eposunun, Azərbaycan dilində yazılmış eposun Drezden kitabxanasında saxlanılan nüsxəsinin surətini almaq istəyirdik. O, indi gəlib çatıbdır. Mən onu sizə təqdim etmək istəyirəm. Hesab edirəm ki, Azərbaycanın bu günü və gələcəyi üçün ən böyük nailiyyətlərdən biridir ki, biz "Dədə Qorqud"u repressiyadan xilas etdik, xalqımıza qaytardıq. Nəhayət, onun əlyazmasının, indiyə qədər Drezden kitabxanasında qorunub saxlanılan əlyazmasının surətini biz Azərbaycana gətirmişik. Mən bunu Əlyazmalar institutuna təqdim edirəm.

Sizinlə görüşməyimdən çox məmnunam. Sizin hamınıza bir daha cansağlığı və işlərinizdə uğurlar arzulayıram. Sağ olun.

* * *

**Milli Elmlər Akademiyasının humanitar və ictimai elmlər bölməsinin akademik-katibi Ağamusa Axundov mərasimdə çıxış edərək dedi:**

– Möhtərəm prezident, Sizin Azərbaycan Milli Elmlər Akademiyasına göstərdiyiniz daimi qayğı və böyük diqqət hamının yadındadır və heç kim bu qayğını, diqqəti heç vaxt unutmayacaqdır. Azərbaycanın ulu abidəsi olan "Kitabi–Dədə Qorqud"un qədim əlyazmasının surətini Milli Elmlər Akademiyasının Əlyazmalar institutuna təqdim etməyiniz Sizin elmimizə göstərdiyiniz qayğının daha bir nümunəsidir.

Hörmətli prezident, çox sag olun. Akademiyanın bütün əməkdaşları adından Sizə təşəkkürümü və minnətdarlığımı bildirirəm. Xalqımızın, dilimizin, elmimizin inkişafı və gələcəyi naminə Sizə uzun ömür, cansağlığı və həmişə olduğu kimi, bütün işlərinizdə böyük uğurlar arzu edirəm. Çox sağ olun.

## DÜNYA ŞÖHRƏTLİ DİRİJOR VƏ GÖRKƏMLİ BƏSTƏKAR NİYAZİNİN 90 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY GECƏSİNDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

*Respublika sarayı*
*6 dekabr 2002-ci il*

Hörmətli xanımlar və cənablar!
Əziz dostlar!

**Niyazinin 90 illik yubileyini təntənəli qeyd edərək, biz Azərbaycan xalqının mədəniyyətimizə, musiqimizə olan hörmətini və məhəbbətini ifadə edirik. Görkəmli mədəniyyət xadimlərimizin, musiqi ustadlarımızın, yazıçılarımızın yubileylərini Azərbaycanda yüksək səviyyədə qeyd etmək bizim, Azərbaycan hökumətinin xalqımızın elminə, mədəniyyətinə, ədəbiyyatına olan diqqətini və qayğısını göstərir.**

Bəzən kimsə elə düşünür ki, belə təntənəli yubileylər bəlkə də lazım deyildir. Biz belə səsləri eşitmişik. Ancaq bunları nəzərə alaraq, mən bu gün bir daha deyirəm ki, belə yubiley gecələri bizi daha da zənginləşdirir, bizə ruh verir, bizi daha da nikbin edir.

Mən bu gün bu salonda Niyazi haqqında deyilən sözləri dinləyərək, onun musiqisini dinləyərək, dirijorluq sənətinin nümunələrini yenidən xatırlayaraq, böyük hissiyyatlar keçirirəm. Bu hissiyyatlar xalqımıza olan sevgidən gəlir. Mədəniyyət, musiqi xalqımızın ən dəyərli sərvətlərindən biridir. Mədəniyyət hər bir xalqı dünyada daha çox tanıdan, onu təbliğ edən vasitələrdən biridir. Biz isə xoşbəxtik ki, xalqımızın belə zəngin mədəniyyəti, musiqisi, incəsənəti var və bunlar həm xalqımızın özünə mənəvi qida verir, həm də onu dünya xalqları içərisində fərqləndirir, tanıdır, başını ucaldır. Niyazi Azərbaycan xalqının başını ucaldan ən böyük şəxsiyyətlərdən biridir.

Bu gün Niyazi haqqında çox gözəl, xoş, dərin mənalı sözlər, fikirlər deyildi. Hamısı düzdür. Mən də hamısını təsdiq edirəm. Çünki, Niyazini bəlkə də, bu salonda oturanların hamısından daha yaxşı tanıyanlardan biri mənəm. Mənim Niyazi ilə əlaqəli, onunla olan dostluqla bağlı çox xatirələrim var. Hamısı da xoş xatirələrdir, sevindirici xatirələrdir.

Mən 1950-ci illərdən Niyazi ilə yaxın dostluq əlaqəsində olmuşam. Bizim ailələrimiz çox yaxın olubdur. Ailəvi dost olmuşuq. Sonrakı dövrdə, Azərbaycana rəhbərlik etdiyim zaman da bu dostluğum davam edib və təkcə onunla dost olduğuma görə yox, o, həqiqətən nadir insan olduğuna görə, nadir musiqiçi, dirijor olduğuna görə həmişə mən ona böyük məhəbbətlə, sevgiylə yanaşmışam. Təbii ki, lazım olan qayğılarımı da göstərmişəm. Azərbaycanda professional musiqinin, yəni simfonik musiqinin təbliğində, Azərbaycan bəstəkarlarının simfonik musiqi əsərləri yaratmasında və bu əsərlərin ifa edilməsində Niyazinin əvəzsiz rolu olubdur. Burada Qara Qarayevin əsərlərini səsləndirdilər ki, o, əsərlərinin səslənməsində Niyaziyə borcludur. Bu, həqiqətdir. Çünki mən Qara Qarayevlə də çox yaxın dostluq əlaqəsində olmuşam. Qara Qarayev bu sözləri düzgün deyibdir. Mən çox sevinirəm ki, ümumi deyibdir. Amma təkcə Qara Qarayevin yox, bütün Azərbaycan bəstəkarlarının həm opera əsərlərinin, həm simfonik əsərlərinin işıq üzü görməsində, səslənməsində, xalqa çatdırılmasında Niyazi əvəzsiz rol oynamışdır. Bunların hamısı məlumdur. Ancaq bu gecənin mənası ondan ibarətdir ki, heç kəs bunları unutmasın. Bu günkü nəsillər də, gələcək nəsillər də bunları bilsin. Yəni biz bu gün səslənən sözləri yaşatmalıyıq.

Azərbaycanda simfonik orkestrin yaranması Üzeyir Hacıbəyovun fəaliyyəti ilə bağlıdır. Üzeyir Hacıbəyov, Müslüm Maqomayev o illərdə, ilk illərdə Azərbaycanda simfonik orkestrin inkişaf etməsi üçün çox işlər görmüşlər. Birincisi, simfonik orkestr üçün Azərbaycan musiqisi nümunələri yaratmışlar. İkincisi, ümumiyyətlə, dünya musiqisinin, dünyanın böyük bəstəkarlarının əsərlərinin Azərbaycan səhnəsində, Azərbaycan simfonik orkestrinin ifasında səslənməsində çox iş görmüşlər. Ancaq mən bunu tam qətiyyətlə deyirəm – əgər Niyazi olmasaydı, Azərbaycanın simfonik orkestri bu səviyyəyə çatmazdı. Niyazi olmasaydı, bizim Azərbaycanın görkəmli bəstəkarlarının yaratdıqları gözəl opera əsərləri, simfoniyalar bu qədər yüksək səviyyəyə çatmazdı. Bunların hamısında Niyazinin xidməti var, rolu var və təkcə musiqiçilər yox, bütün Azərbaycan xalqı ona minnətdar olmalıdır.

Şəxsi nöqteyi-nəzərdən Niyazi özünü çox sevdirən bir adam idi, məzəli insan idi. Burada dedilər, onun sərtliyi də var idi. Bəzən heç kəsi eşitmirdi. Mülayimliyi də var idi, hamısı var idi. Bu da, təbiidir, onun xarakteri idi. O, ömrü boyu öz xarakteri ilə yaşadı və böyük işlər gördü. Burada dedilər, yeganə Azərbaycan dirijorudur ki, öz ölkəsinin sərhədlərindən çıxıb, dünyanın böyük, yüksək musiqi sənətinə malik olan ölkələrində ən

tanınmış simfonik orkestrlərə dirijorluq etmişdir. Bu, Leninqradda da olubdur. Oranın Opera və Balet Teatrı dünyada ən məşhur teatrlardan biridir. Bu, Praqada da, Londonda da, Parisdə də, Türkiyədə də olubdur.

Niyazinin Türkiyəyə 1950-ci illərdə ilk səfərlərinin hamısı mənim xatirimdədir. O vaxt xaricə getmək çətin məsələ idi. Bütün Sovetlər İttifaqı dəmir pərdə ilə bağlanmışdı. Belə hallarda ayrı-ayrı insanlar xarici ölkələrə səfərlər edirdilər. Niyazi, bəlkə də, bizim musiqiçilərimizdən Türkiyəyə və başqa ölkələrə ən əvvəl səfər edən sənətkardır. Doğrudur, sonrakı illərdə Rəşid Behbudov öz mahnıları ilə çox fəaliyyət göstərmişdir. Amma bunlar bir-birindən tamamilə fərqli musiqi janrlarıdır.

Niyazinin musiqi sahəsindəki gördüyü işlər, demək olar ki, ən çətin işlərdir. Burada hörmətli xanım Janna Dozortseva çıxış etdi, o illərdə Niyazinin simfonik orkestrinin konsertləri haqqında söylədi.

Mən bir gün filarmoniyaya gəlmişdim, hansısa simfonik konsert var idi. Salon dolu idi, konsert çox yaxşı, böyük alqışlarla keçdi. Konsertdən sonra mən otağında onunla söhbət edirdim. O, mənə söylədi ki, Siz buraya gəlirsiniz, yəqin bu münasibətlə salon doludur, – yəni simfonik orkestrin konsertlərini nəzərdə tuturdu, – ancaq başqa vaxtlarda bizim simfonik orkestrin konsertlərinə adamlar çox gəlmir. Bəzən də çox az gəlirlər. Dedim, nə üçün? Dedi, belədir, biz simfonik musiqini insanlara hələ lazımi səviyyədə çatdıra bilməmişik. Onda biz onunla belə bir plan cızdıq ki, Niyazi ayda bir dəfə filarmoniyada yüksək səviyyəli simfonik konsertlər verəcək və Azərbaycanın bütün rəhbər işçiləri öz ailə üzvləri ilə bu konsertə gələcəklər. Bunu təşkil etdik.

Həmin vaxt o, mənə dedi ki, biz simfonik musiqi əsərini ifa edirik, amma bəziləri bunun dərin mənasını dərk edə bilmirlər. Ona görə də bu musiqini qəbul edə bilmirlər. Təklif etdi ki, hər bir əsər haqqında əvvəlcə izahat verilsin, o əsərin məzmunu sadə dildə çatdırılsın, sonra isə əsər dinlənilsin. Çox yaxşı fikir idi. Mən də bəyəndim. Buna görə də o, hər ay Moskvadan Janna Dozortsevanı dəvət edirdi. Çox gözəl musiqişünasdır. O, əsərlərin məzmununu çox gözəl çatdırırdı. Mən hər dəfə, hər konsertdən konsertə görürdüm ki, bizim adamlar, yəni mənimlə konsertə gedənlər təbiidir ki, o vaxt filarmoniyanın salonu tamamilə dolu olurdu, bu əsərləri məcburi yox, həvəslə, qəlbən dinləyirdilər.

Beləliklə, biz bir sistem yaratdıq. Buna da Moskvada, oradakı mətbuatda – qəzetlərdə, jurnallarda "Simfonik musiqini dinləmək universiteti adı qoydular". Niyazi bu işləri elə həvəslə, elə ürəklə görürdü ki, mən

görürdüm, ondan sonra o, mənəvi cəhətdən nə qədər ruhlanır, zövq alırdı kı, belə bir gözəl iş gördü.

Mən indi bu konsert salonunu seyr edirəm. Təbiidir ki, buradakıların əksəriyyəti niyazisevərlərdir, musiqi – sevərlərdir. Ancaq eyni zamanda, Azərbaycanın dövlət hakimiyyəti orqanlarında işləyən insanlar da dəvət olunublar. Amma mən burada həmin o illərin simfonik konsertlərinin hansısa bir ruhunu hiss edirəm. Gəlin, razılaşaq, Niyaziyə həsr olunmuş bugünkü gecə, konsert indiyə qədərki başqa yubiley tədbirlərindən, konsertlərindən fərqlənir. Fərqlənir ona görə ki, birincisi, səhnədə simfonik orkestr – Niyazinin uzun illər rəhbərlik etdiyi və Niyazinin xidmətləri sayəsində bugünkü bu yüksək səviyyəyə çatmış orkestr var.

İkincisi, ona görə ki, burada Niyazinin əsərləri ifa olunur. Ona görə ki, Niyazi haqqında burada xatirələr deyildi. Ona görə ki, Niyazi həyatdan gedib, amma Azərbaycan xalqı üçün gözəl bir miras qoyubdur – simfonik musiqi, simfonik orkestr. Üzeyir Hacıbəyovun yaratdığı və Niyazinin fəaliyyəti nəticəsində çox yüksəklərə qalxmış, indi Niyazini əvəz edən Rauf Abdullayev kimi dirijoru olan simfonik orkestr.

Mən çox sevinirəm ki, bu yubiley gecəsində Niyazi haqqında gözəl, xoş sözlər deyilir. Ancaq o illəri xatırlayıram ki, bizim bəstəkarlar, musiqiçilər bir-biri ilə yola getmirdilər, bir-biri ilə ədavət edirdilər. Bunlar da var idi. Bunları gizlətmək lazım deyil. Hamısı olubdur, hamısı bizimkidir.

Xatirlayıram, 1973-cü ildə, demək olar, 30 il bundan öncə, xüsusən bəstəkarlar arasındakı bu münasibət məni çox narahat etdiyinə görə, bazar günü bir qrup böyük bəstəkarı şəhərdən kənardakı, Zuğulbadakı dövlət bağ evinə dəvət etdim. Özü də erkən, səhər saat 11-də. Dedim ki, gəlin, oturaq söhbət edək, çay içək, bütün günü bir yerdə olaq. İndi baxıram, həmin o görüşdə iştirak edənlərdən təkcə Arif Məlikov var. Təəssüflər olsun ki, illər ötür, insanlar dünyasını dəyişir. Mənim o vaxt görüşdüyüm insanların Arif Məlikovdan başqa, demək olar, hamısı artıq dünyasını dəyişibdir. Orada gözəl bir gün keçirdik. Mən xüsusən çalışırdım ki, Qara Qarayevi, Fikrət Əmirovu, Niyazini – üçünü bir-biri ilə dost edim, bir-biri ilə barışdırım. Onlar dost idilər, bir gün dost olurdular, bir gün küsürdülər, bir gün bir-birindən inciyirdilər. Bu da bizim ümumi işimizə zərər verirdi. Mənə belə gəlir ki, günün axırında, bizim oradakı görüşümüzdə tamamilə yeni bir ab-hava yarandı. Sonra bizim bəstəkarlar bunu daim xatırlayırdılar və təşəkkür edirdilər ki, mən belə bir görüş keçirdim və onları bir-biri ilə daha da yaxınlaşdırdım. Yəni bunlar yaxın idilər, bir yerdə işləyirdilər. İndi burada eşitdik, əgər Niyazi olmasaydı,

Qara Qarayevin əsərləri o cür yüksək səviyyədə təqdim edilə bilməzdi. Eləcə də Fikrət Əmirovun əsərləri. Onların hamısı bu simfonik orkestrdən və Niyazinin əlindən keçəndən sonra biz gördüyümüz səviyyəyə gəlib çatırdı. Bunda Niyazinin rolu böyükdür. Onlar da Niyazi ilə əməkdaşlıq edirdilər. Ancaq bəzən şəxsi münasibətlər dəyişirdi və bu da işlərimizi pozurdu.

Niyazi cox xeyirxah adam idi. Burada onun ev muzeyi haqqında danışdılar. Bəli, o, 1984-cü ildə vəfat etmişdi. Mən onda burada yox idim, Moskvada işləyirdim. Ancaq mən 1993-cü ildə Bakıya yenidən dönəndən sonra maraqlandım. Ümumiyyətlə, ev muzeylərinin yaradılması çox gözəl bir ənənədir. Məsələn, bizim yaratdığımız Üzeyir Hacıbəyovun ev muzeyi, Səməd Vurğunun ev muzeyi, Cəlil Məmmədquluzadənin ev muzeyi, Cəfər Cabbarlının ev muzeyi, Niyazinin ev muzeyi – bunların hər biri böyük mədəniyyət mərkəzinə çevrilir və belə də var.

Məsələn, bir var, başqa yerdə yığışasan, bir də var, Niyazinin yaşadığı evdə, onun divarları arasında yığışasan. Bu, tamamilə başqa bir əhval-ruhiyyədir. Onun o qədər də böyük mənzili yox idi, amma qapısı həmişə açıq idi. Gərək ki, burada Vasif Adıgözəlov da, Polad Bülbüloğlu da dedilər ki, onlar elə orada böyüyüblər. Doğrudan da belədir, qapısı açıq idi və gələn adam da orada mütləq yemək yeməli, çay içməli idi. Rəhmətlik Həcər xanım da səhərdən axşama kimi Niyazinin qonaqlarına qulluq etməli idi. Bax, Niyazi belə bir həyat keçirirdi. İstədiyi adam onun evinə gedə bilərdi və gedirdi də. O, heç vaxt heç kəsdən uzaqlaşmırdı.

Çox yaxşı lətifələr də danışırdı. Azərbaycanın müxtəlif bölgələrindən olan, müxtəlif ləhcələrdə danışan adamları çox gözəl yamsılayırdı. Ona görə bəzən mən onu görəndə deyirdim, danış görüm, Şəki teatrında "Otello" nə cür gedir. Elə danışırdı ki, daha ondan sonra nə konsert lazım idi, nə də teatr, heç bir şey lazım deyildi.

Həcər xanım daim Niyazi ilə bir yerdə idi. O, dünyada haraya gedibsə, Həcər xanım onunla bir yerdə olubdur. Mən bəzən zarafatla deyirdim ki, Niyazi, sənə bu mükafatları ki, veririk, gərək onların çox hissəsini Həcər xanıma verək. Əgər Həcər xanım olmasaydı, sən bu cür gözəl fəaliyyət göstərə bilməzdin. Çox gözəl insan idi. Mən onu cox sevirdim.

Yenə də deyirəm, mən bu gün burada, bir tərəfdən, qüssələnirəm ki, o, yoxdur. İkinci tərəfdən də, millətimə, xalqıma görə fəxr edirəm ki, belə insanlar yaradıbdır. Biz xoşbəxtik ki, XX əsrdə Azərbaycan xalqı mədəniyyət sahəsində çox böyük simalar yetiribdir. Onlar bizim mədəniyyətimizi yüksəldib və bizə böyük miras qoyub gediblər.

Mən bu gün Niyazinin ruhu qarşısında baş əyirəm. İnanıram ki, Niyazi Azərbaycan xalqının qəlbində daim yaşayacaq, onun əsərləri gələcək nəsilləri də mənəvi yüksəkliyə qaldıracaq və xalqımız mədəniyyətə, incəsənətə daim sadiq olacaqdır.

**Mədəniyyət naziri Polad Bülbüloğlu yubiley gecəsində çıxış edərək dedi:**

– Möhtərəm cənab prezident!

Xanımlar və cənablar!

Əziz Niyazi sevərlər!

Bu gün böyük mədəniyyət beşiyi, qüdrətli sənətkarlar ocağı olan Azərbaycanın daha bir layiqli övladının yubiley təntənəsinə toplaşmışıq. Elə bir insanın bayramına toplaşmışıq ki, onun həyat və yaradıcılığı Azərbaycan milli mədəniyyətinin zəngin bir səhifəsidir.

Musiqi tariximizdə elə simalar var ki, onların yaradıcılığı dünya musiqi xəzinəsinə daxil olmuşdur. Belə sənətkarlar sırasında XX əsrin görkəmli musiqiçisi, dirijor, bəstəkar, SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları və Beynəlxalq Nehru mükafatı laureatı, tanınmış ictimai xadim maestro Niyazinin böyük yeri vardır. Bu gün biz adını böyük hərflərlə yazmağa borclu olduğumuz belə bir sənətkarın yubileyini qeyd edirik.

Bir sıra görkəmli sənət ustalarımız kimi, Niyazi də öz yaradıcılıq axtarışlarını respublikamızın rəhbəri möhtərəm cənab Heydər Əliyevin qayğısı nəticəsində genişləndirməyə nail olmuşdur. Dövlətimizin başçısı Niyazinin yaradıcılığına, sənət taleyinə həmişə böyük diqqət və sevgi ilə yanaşmışdır. Bu yüksək tribunadan çıxış edərkən tarixi şəxsiyyətlərimizin yubileyləri, habelə ayrı-ayrı milli bayramların və əlamətdar günlərin qeyd edilməsi ilə bağlı prezidentimiz Heydər Əliyevin imzaladığı fərman və sərəncamları xüsusilə qeyd etmək istərdim. Bunlar dolğun və çoxşaxəli tarixi sənədlərdir. Bu sənədlərin özü gələcək nəslə həmin tarixi hadisələr və şəxsiyyətlər barədə hərtərəfli bilik və məlumat verəcəkdir. Hörmətli prezidentimizin dəfələrlə dediyi kimi, yubiley tədbirləri təkcə təntənəli gecələrlə yekunlaşmır. Həmin sərəncamlara əsasən, geniş tədbirlər keçirilir, həmin səxsiyyətlərin mədəniyyətimizin inkişafında və müstəqil dövlətimizin tarixindəki xüsusi yeri və rolu bir daha yenidən təsdiqlənir. Təkcə son zamanlarda cənab prezident bəstəkar Rauf Hacıyevin, müğənni Şövkət Ələkbərovanın, dramaturq Hüseyn Cavidin, bəstəkar Fikrət Əmirovun, şair Xəlil Rza Ulutürkün və bu gün yad etdiyimiz maestro Niyazinin yubileylərinin keçirilməsi barədə sərəncamlar imzalamışdır.

Cəmi bir neçə gün bundan qabaq bu möhtəşəm sarayda biz Azərbaycan müğənnilərinin görkəmli nümayəndəsi, xalq artisti Şövkət Ələkbərovanın 80 illiyini böyük təntənə ilə qeyd etdik.

İki gün bundan öncə mən Gəncədə böyük bəstəkarımız Fikrət Əmirovun yubileyinin iştirakçısı oldum. Dekabrın 11-də isə Moskvanın ən nüfuzlu salonlarından sayılan İttifaqlar Evinin sütunlu salonunda Çaykovski adına Akademik Böyük Simfonik Orkestrin ifasında Fikrət Əmirovun və Niyazinin əsərləri səslənəcəkdir. Azərbaycanın görkəmli musiqi xadimləri də həmin təntənədə iştirak edəcəklər. Bunlar böyük qürur doğuran, fəxr edilməli hadisələrdir. Mən cəmi son 10 günün tədbirlərini qeyd etdim. Belə tədbirlərin sayı isə çoxdur.

Mədəniyyətimizin inkişafına yaratdığı böyük imkanlara görə, mən çoxminli mədəniyyət və incəsənət xadimləri adından möhtərəm prezidentimizə bir daha öz dərin təşəkkürümü bildirərək deyirəm: Əziz prezidentimiz, çox sağ olun! Dirijor və bəstəkar Niyazi peşəkar musiqi mədəniyyətimizin banisi Üzeyir Hacıbəyovun, sözün həqiqi mənasında, davamçısı olmaqla, öz istedadı və gərgin əməyi sayəsində Hacıbəyovlar nəslinin şöhrətli nümayəndələrindən birinə çevrilmişdir. O, bəstəkarlıq və dirijorluq fəaliyyətinə 30-cu illərdən başlamış, Azərbaycan musiqi mədəniyyətində birinci maarifçi və təbliğatçı dirijor olmuşdur. Orijinal fitri istedad, yüksək musiqi mədəniyyəti, dərin erudisiya, güclü iradə onun yaradıcılığı üçün səciyyəvidir. Onun təfsirində klassik və müasir əsərlər ideya-emosional, məzmun cəhətdən dolğun, ifadəli və yüksək temperamentlə səslənirdi. Dirijorun repertuarında Qərbi Avropa, rus klassiklərinin, xarici ölkələrin müasir bəstəkarlarının əsərləri mühüm yer tuturdu. Azərbaycan ifaçılıq sənətinin inkişafında, milli musiqimizin təbliğində Niyazinin xidmətləri əvəzsiz olmuşdur. Niyazi Azərbaycan bəstəkarlarının bir çox simfonik və musiqili səhnə əsərlərinin, kantata və oratoriyalarının ilk ifaçısı olmuşdur. O, bu əsərlərin şərh edilməsində özünəməxsus orijinal ifaçılıq üslubu yaratmışdı. Azərbaycan professional dirijorluq məktəbinin formalaşması və inkişafı məhz Niyazinin adı ilə bağlıdır.

Milli simfonizmin təşəkkülü və inkişafında da Niyazinin xidmətləri böyükdür. Onun yazdığı “Rast” simfonik muğamı dramaturji bitkinliyi, güclü emosional təsiri, zəngin melodiyası, xüsusilə harmonik dilin əlvanlığı ilə fərqlənir. “Rast” müəllifin rəhbərliyi ilə bir çox xarici ölkələrdə səslənmiş, Çexoslovakiyanın “Suprafon”, ABŞ-ın “Rikordi” musiqi şirkətləri tərəfindən qrammofon vallarına yazılmışdır.

Nizaminin poeması əsasında yazdığı "Xosrov və Şirin" operası musiqi dramaturgiyasının çoxplanlı olması, psixoloji gərginliyi, xor səhnələri və orkestr epizodlarının ifadəliliyi ilə fərqlənirdi.

Rabindranat Taqorun dramı əsasında yazdığı "Çitra" baletində isə hind xalq musiqisinin ritm və intonasiyalarından, orkestr səslənməsində hind musiqi alətlərinin ifasını xatırladan tembr nüanslarından istifadə edilmişdir.

Niyazi, eyni zamanda simfonik, kamera-instrumental əsərlərinin, mahnı və romansların, Azərbaycan kino-filmlərinə və dram tamaşalarına yazılan musiqi əsərlərinin müəllifidir. Bu salonda əyləşən yaşlı nəslin nümayəndələri çox yaxşı xatırlayırlar ki, məhz Niyazinin təşəbbüsü ilə Azərbaycanda kütləvi mahnı bayramları və gənclər festivalları keçirilirdi.

Niyazi 1961-ci ildə Leninqrad Opera və Balet Teatrının baş dirijoru olmuş, Pyotr Çaykovskinin "Yatmış gözəl" və Sergey Prokofyevin "Daş çiçək" baletlərinin yeni quruluşuna dirijorluq etmiş, həmin baletlərlə Parisin "Qrand Opera" və Londonun "Kovent-Qarden" teatrlarında qastrol tamaşaları vermişdir.

Dəmir pərdələr arxasında yaşadığımız illərdə Niyazi qardaş Türkiyədə – Ankara Opera və Balet Teatrında Çaykovskinin "Yevgeni Onegin" və "Qaratoxmaq qadın", Verdinin "Aida" operalarına, İstanbul Opera Teatrında türk bəstəkarı Adnan Sayqunun "Koroğlu" operasının ilk tamaşasına və "Yunis İmrə" oratoriyasına dirijorluq etmiş, bu ölkədə Azərbaycanın alovlu təbliğatçısı olmuşdur.

Niyazinin ictimai fəaliyyəti də çox zəngin olmuşdur. O, dalbadal 7 çağırış respublika Ali Sovetinin deputatı seçilmişdir.

Nazir daha sonra bildirdi ki, Niyazinin 90 illiyi ilə əlaqədar yubiley tədbirləri rəngarəngdir. Bu yaxınlarda Rusiya dirijoru, SSRİ xalq artisti Vladimir Fedoseyevin rəhbərliyi ilə Böyük Simfonik Orkestr Bakıdakı çıxışlarını maestro Niyazinin xatirəsinə həsr etmişdir. Bu, möhtəşəm konsert idi. Bizim muzey və kitabxanalarımızda, ayrı-ayrı mədəniyyət müəssisələrində, musiqi məktəblərində bir-birindən maraqlı tədbirlər keçirilir.

Dünən biz Niyazinin ev muzeyində xatirə məclisinə toplaşmışdıq. Həqiqətən unudulmaz gün yaşadıq. Orada respublikamızın görkəmli musiqi xadimləri, qonaqlar iştirak edirdilər. Məclisdə qeyd olundu ki, Niyazi, həqiqətən, dövrümüzün ən məşhur sənət ustalarından biri idi. Niyazinin insani keyfiyyətləri də başqalarından çox fərqlənirdi. Nə qədər sərt idisə, o qədər də yumşaq ola bilirdi. Nə qədər tələbkar idisə, bir qədər də güzəştə gedə bilirdi.

Nə qədər böyük və əlçatmaz idisə, o qədər də sadə ola bilirdi. Biz gənc vaxtlarımızda bu mənzildə tez-tez olardıq. Mən Niyazinin bu əziz günündə Həcər xanımı xatırlamaya bilmərəm. Niyazinin ömür-gün yoldaşı, bütün səadətini bu böyük sənətkara xidmətdə görən Həcər xanım onun şıltaqlıqlarını sevərəkdən hər bir xasiyyətinə nəvazişlə cavab verirdi. Allah ona rəhmət eləsin. Məncə onların hər ikisinin ruhu bu gün şad olmalıdır.

Niyazinin sənəti əbədidir. Çünki Niyazi istedadı, onun yaradıcılıq fəaliyyəti və çəkdiyi böyük zəhmət əsl ümumxalq məhəbbəti qazanmışdır. Niyazi kimi sənətkarları tarix tək-tək yetirir. Belələri isə haqlı olaraq xalqın iftixarına çevrilirlər. Yurdumuz, məmləkətimiz belə övladları ilə həmişə fəxr edəcəkdir. Xalqımız – belə sənətkarların xatirəsini hər zaman yaşadacaqdır. Nə qədər ki, Azərbaycan dövləti, Azərbaycan xalqı var, Niyazinin adı da yaşayacaqdır.

* * *

**Sonra Azərbaycan Bəstəkarlar İttifaqının birinci katibi, xalq artisti Vasif Adıgözəlov çıxış edərək dedi:**

– Zati-aliləri, möhtərəm cənab prezident!

Xalqımız, dövlətimiz bu gün dahi dirijor, böyük ictimai xadim, bəstəkar, milli musiqi mədəniyyətimizin iftixarı Niyazinin 90 illiyini çox yüksək səviyyədə qeyd edir.

Çünki Niyazi bəlkə də yüz ildə bir dəfə həyata gələ biləcək sənətkarlardandır. Azərbaycan professional musiqisinin inkişafında və təbliğində Niyazinin çox böyük rolu olmuşdur.

Niyazi Azərbaycan bəstəkarlarının böyük bir nəslinin yetişib formalaşmasına əvəzsiz töhfələr vermişdir. Bu gün tam məsuliyyətimlə deyə bilərəm ki, mən və yoldaşım olan bir neçə bəstəkar konservatoriyanı bitirdikdən sonra Niyazi məktəbini bitirmişik. Məhz Niyazi məktəbi bizim inkişafımızda, dünyagörüşümüzdə, zövqünüzün formalaşmasında çox böyük rol oynamışdır. Çünki Niyazi ensiklopedik biliyə, fitri istedada malik bir insan idi.

Azərbaycanda böyük ifaçılar nəslinin yetişməsində də Niyazinin böyük rolu olmuşdur. Hətta bizim artıq yaşlı nəslə mənsub ifaçılarımızı – Firəngiz Əhmədova, Lütfiyar İmanov, habelə Fidan və Xuraman Qasımova bacıları, Rauf Atakişiyev və başqa sənətkarlarımızı operaya Niyazi gətirib, onları bütün dünyada məşhurlaşdırıbdır. Niyazinin əsl ictimai xadim olduğunu diqqətə çatdıran natiq dedi ki, o, böyük vətəndaş idi.

O, öz xalqını, xalq da onu sevirdi. Niyazi belə böyük şəxsiyyət idi. Niyaziyə olan münasibəti, möhtərəm prezidentimizin Niyaziyə olan diqqət və qayğısını mən görmüşəm.

Niyazi ilk Azərbaycan dirijoru idiki, Sovetlər İttifaqında qadağaların çox möhkəm dövründə Azərbaycanla Türkiyə arasında körpü saldı. O, Türkiyəyə qastrola getdi. Bu, təkcə qastrol səfəri deyildi, uzun illərin ayrılığından sonra iki qardaş xalqın vüsalı idi. O zaman belə bir işi yalnız Niyazi görə bilərdi. Çünki Niyaziyə hamı inanırdı. Niyazi hara getsəydi, ona yol açıq idi.

Niyazi ilk Azərbaycan dirijoru idi ki, hələ 1961-ci ildə Leninqrad Opera və Balet Teatrına baş dirijor təyin olundu. Bu, o dövr üçün fövqəladə bir hadisə idi. Çünki azərbaycanlını Leninqradın bu möhtəşəm teatrına baş dirijor təyin etmək, yalnız Niyazinin istedadının nəticəsi idi. Bu, istedada olan hörmət idi. Niyazi orada rus və Avropa bəstəkarlarının əsərləri ilə yanaşı, gənc Arif Məlikovun "Məhəbbət əfsanəsi"nin ilk tamaşasını qoydu.

Natiq daha sonra dedi ki, biz bu möhtəşəm sarayda neçə illər gənc istedadlar axtarmışıq. Həmin istedadları müəyyən edən münsiflər heyətinin başçısı Niyazi idi. Bu gün bizim muğam sənətində öz dəst-xətti olan gözəl sənətkarlarımız vardır, onların hamısı Niyazinin tələbələri sayılmalıdır.

Niyazi Azərbaycanın peşəkar dirijorluq məktəbinin banisidir. Bütün Azərbaycan dirijorları Niyazinin tələbələri, Niyazi məktəbinin davamçılarıdır. Bunu tam əminliklə demək lazımdır.

Niyazi böyük dirijor olmaqla yanaşı, həm də böyük bəstəkar idi. Onun "Rast" muğamının partiturası bütün bəstəkarlar üçün ömür boyu bir dərslik olmalıdır.

İttifaqın sədri belə bir məqamı xüsusi vurğuladı ki, son bir neçə ayda biz Azərbaycan bəstəkarlıq, ifaçılıq sənətinin böyük nümayəndələri Xan Şuşinskinin, Şövkət xanım Ələkbərovanın, Sara xanım Qədimovanın, Rauf Hacıyevin, Fikrət Əmirovun, Cövdət Hacıyevin yubileylərini keçirmişlk. Bu gün isə Niyazinin yubileyidir. Bunlar bizim həyatımızda çox lazımlı, mənalı hadisələrdir. Bütün bunlar hörmətli, əziz prezidentimiz Heydər Əliyevin sərəncamlarına əsasən keçirilir. Yəni, bunlar möhtərəm prezidentimizin bizim sənətimizə, musiqimizə, mədəniyyətimizə atalıq qayğısını, layiq olduğu qiyməti verdiyini bir daha sübut edir.

Mən Niyazi kimi dahi sənətkarlar yetişdirən Azərbaycan xalqına minnətdaram. Musiqimizə, sənətimizə verdiyi böyük qiymətə, göstərdiyi

tükənməz qayğıya görə möhtərəm prezidentimizə musiqi ictimaiyyətimiz adından dərin minnətdarlığımı bildirirəm.

Çox sağ olun.

* * *

**Azərbaycanın və Rusiyanın əməkdar incəsənət xadimi, musiqişünas Janna Dozortseva gecədə çıxış edərək dedi:**

– Xanımlar və cənablarl

Mənim üzərimə heç də asan olmayan bir vəzifə düşüb icazə verin, bu təntənəli gecədə nə qədər şəxsi təəssüratlarımı lirik duyğularımı ifadə edim. Mən maestro Niyazi ilə 1970-cu illərin ortalarında tanış olmuşam. O vaxtlar onu Sovet İttifaqı Dövlət Simfonik Orkestrinin baş dirijoru Yevgeni Fyodoroviç Svetlanov tez-tez konsertlərə dəvət edirdi. Svetlanov, adətən, deyərdi ki, temperamentinə, incəsənətə vicdanlı, səmimi münasibətinə görə Niyazi ona bütün müasir dirijorlardan daha yaxındır.

Tanışlığımız qızımın vasitəsilə oldu. O, barmağında iri, gözəl üzük olan bəstəboy əmiyə dərhal vuruldu. Biz dostlaşdıq, tez-tez zəngləşməyə başladıq. 1979-cu ilin oktyabrında maestro Niyazi məni Bakıya hökumət konsertinə dəvət etdi. Mən bütün günü hava limanında oldum, çünki hava uçuş üçün əlverişli deyildi, nəhayət, gecə gəlib çıxdım. Mehmanxanada, pəncərənin önündə oturmuşdum, şəhəri seyr edirdim. Qarşımda nura qərq olmuş Bakı, dəniz, liman görünürdü. Mən Bakıya dərhal və həmişəlik vuruldum.

Səhərisi məşqə gəldim. Maestro mənə hələ də hökumət konsertindən danışırdı. Əlbəttə ki, axşam Heydər Əliyevin özünü görməyincə, onun dediklərinə inanmadım. Heydər Əliyevdə necə dahiyanə bir ideya yarandığını da, bax, onda anladım. Bir özünüz fikirləşin – özü dərin zəka sahibi, heyrətamiz dərəcədə zəngin bilikli insan olan Heydər Əliyev adamları gözəlliyin, musiqinin köməyi ilə tərbiyə etməyi qərara almışdı və respublikanın rəhbər işçiləri üçün musiqi dinləmə universiteti yaratmışdı ki, sonra bu sənət daha da geniş yayılsın. Ümumiyyətlə, hesab edirəm ki, Yer üzündə ikinci belə prezident yoxdur. Ayrı elə bir insan yoxdur ki, hər şeyin mənəviyyatdan doğduğunu, mədəniyyətsiz mənəviyyatın isə mövcud ola bilmədiyini bu qədər dərindən dərk etsin.

Budur, biz üzündən nur yağan maestro ilə birlikdəyik. O, çox səxavətli, geniş qəlbli, qonaqpərvər insan idi. Onun ömür-gün yoldaşı Həcər xanımı xatırlayıram. Onların necə də valehedici evi vardı.

Niyazi cürbəcür proqramlar düşünüb tapırdı! Axı, ayın hər axırıncı cümə günü Mədəniyyət universitetində görüş keçiriləndə Çaykovskinin, Bethovenin, Mosartın simfoniyaları, Berilozun, Sen-Sansın, Ravelin, Gerşvinin əsərləri səslənirdi. Xrennlkovun, Kabalevskinin müəllif gecələri keçirilirdi, dünya musiqi mədəniyyəti səslənirdi, ən başlıcası isə, hər konsertə azərbaycanlı müəlifin əsərləri də daxil edilirdi. Pultun arxasında isə maestronun özü dayanardı...

O, çox istedadlı idi. Onun haqqında indi çox danışıldı, amma maestro Niyazi kimi dirijora çox nadir hallarda rast gəlmək olar. Görünür, o, yalnız ildə bir dəfə doğulan fenomenlərdən idi. Çünki o, eyni zamanda həm mütəfəkkir, müdrik insan, həm də odlu-alovlu, ehtiraslı artist idi. Bilirsinizmi, adama elə gəlir ki, partituram bilirsən, mən bütün məşqlərdə olurdum. Məsələn, götürək Çaykovskinin Dördüncü simfoniyasını. Məgər burada aydın olmayan bir şey varmı?! Amma birdən maestro besinci, altıncı plandan hansısa bir məqamı üzə çıxarır və onu başlıca amilə çevirir, bununla da əsərin bütün konsepsiyası artıq tamam başqa cür qavranılırdı. Lakin başlıcası bu idi ki, o, inandırırdı, o, belə artist idi, o, səhnədə musiqini yenidən yaradırdı. Niyazini dinlədikdə bu musiqinin lap çoxdan yazıldığını hiss etmirdın. Yox, o, musiqini yaradırdı, bəstəkarla müştərək yaradıcı idi. O, asanlıqla, təbii və sərbəst şəkildə yaradırdı, onun əsil sadə jestləri, ciddi və aydın jestləri vardı. Bax, indi siz o illərin kadrlarını gördünüz. Maestronun əlini oynatması, barmaqlarını tərpətməsi ilə orkestr sanki çiçəkli bağa dönürdü. Niyazi salonu o qədər valeh edirdi ki, elə bil biz hamımız bu böyük musiqi yaradıcılığı hadisəsinin iştirakçısı olurduq. Odur ki, biz maestroya qeyd-şərtsiz inanırdıq, ona axıradək inanırdıq.

Bilirsinizmi, bu gün mənim üçün həm xoşbəxt, həm də kədərli gün idi. Kədərlidir ona görə ki, mən Niyazinin məzarını ziyarət etdim, sonra ev muzeyində oldum. Halal olsun sizlərə! Çünki siz ev muzeyində Niyazinin ab-havasını, nəfəsini qoruyub saxlamısınız. Düşünürsən ki, o, həmişəki kimi, bu gün də təvazökarcasma, sakitcə öz evində yaşayır, növbəti mehmanlarını gözləyir ki, onfarı ləziz yeməklərə qonaq etsin.

Gözəl dirijor Rauf Abdullayev bu gün buradadır, onu Moskvada çox sevirlər. Bilirsinizmi, ölüm, həqiqətən, haqdır, amma "Rast" muğamı səsləndikdə bir dəqiqəliyinə gözlərinizi yumun və təsəvvür edin ki, pult arxasında bəstəboy, zəif, qarasaç bir insan dayanıb, onun incə barmaqlarından musiqi süzülür və canlı Niyazi, heç olmasa, bir anlığa bu salona qədəm qoymuşdur.

* * *

**Qardaş Türkiyədən gəlmiş qonaq, izmir Dövlət Simfonik Orkestrinin baş dirijoru Rengin Gökmən çıxışında dedi:**

– Hörmətli Cümhur başkanım!

Dəyərli azərbaycanlı qardaşlarımız!

Türkiyənin qardaşı, ən yaxın dostu, Azərbaycanın bağrından çıxmış, dünyada məşhur olan böyük ustad, böyük bəstəkar, böyük dirijor, bir sözlə, böytik sənətçi Niyazinin 90 illiyinə həsr olunmuş yubiley konsertində iştirak etməkdən böyük şərəf duyuram. Bu şərəfi təkbaşına daşımıram, bütün türk sənətçiləri ilə birlikdə daşıyıram. Çünki Bakıya gəldiyimi eşidəndə bəzi həmkarlarım məni aradılar, mənə dedilər ki, Niyazinin yubileyidir, onu yad etməliyik, çünki biz ondan çox şeylər öyrənmişik.

Niyazi yalnız Azərbaycanda Türkiyədə deyil, bütün dünyada məşhur olan sənətçi idi. Bütün dünya onu tanıyırdı. Amma biz türklər, ona çox borcluyuq. Çünki ondan çox şey öyrəndik. O, hələ də Ankara və İstanbul dövlət opera və balet teatrları üçün əfsanə olaraq qalır. Hətta onunla işləməyən, onu görməyən musiqiçilər belə Niyazinin adını bilirlər. Çünki dostlarından, qardaş-bacılarından, babalarından onun haqqında eşitmişlər, bilirlər. Türk musiqiçiləri hələ də Niyazidən öyrəndiklərindən istifadə edirlər.

Ankara Dövlət Opera Balet Teatrında ilk dəfə "Aidanı" ifa etdiyim zaman bütün musiqiçilər, Niyazi ilə işləyən sənətçilər mənə həmişə onu anladardılar. Niyazinin yolundan, Niyazinin də, dəst-xəttindən danışardılar. Bizlər ondan çox şey öyrəndik, bu səbəbdən də ona çox borcluyuq. Bunun üçün də bu duyğularımı sizlərlə paylaşmaq istədim.

Mən ölməz sənətkar Niyaziyə, sizlərə, onu bağrından çıxaran Azərbaycan xalqına dərin minnətdarlığımı bildirirəm. Onun əziz xatirəsi önündə bütün türk sənətçiləri və mədəniyyət, incəsənət adamları adından böyük ehtiramla baş əyirəm.

Sonra Niyazinin 90 illik yubileyinə həsr edilmiş böyük konsert oldu. Müvəffəqiyyətlə keçən konsertdə Azərbaycanın, Türkiyənin, İranın incəsənət ustaları görkəmli bəstəkarın əsərlərini ifa etdilər. Niyazinin dirijorluğu ilə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrin çıxışlarını, Azərbaycan prezidenti Heydər Əliyevin vaxtilə Niyaziyə ən yüksək dövlət mükafatlarının təqdimat mərasimini əks etdirən kino lentləri göstərildi. Dövlətimizin başçısının, xarici ölkələrin tanınmış dövlət, incəsənət və mədəniyyət xadimlərinin Niyazi haqqında söylədikləri fikirlər səsləndi.

Konsertdən sonra Azərbaycan prezidenti Heydər Əliyev Respublika sarayının şərəf salonunda incəsənət ustaları – xalq artistləri Fidan və Xuraman Qasımovalar, Fərhad Bədəlbəyli, Sərvər Qəniyev, Rauf Abdullayev ilə, habelə musiqişünas Janna Dozortseva, İzmir Simfonik Orkestrinin baş dirijoru Rengin Gökmənlə görüşüb səmimi sohbət etdi.

**Heydər Əliyev**: Siz hamınız dediniz ki, onun evinə gələnləri mütləq yeməyə qonaq edirdilər. Dəbdəbəli yaşamasalar da, bu evdə hamını gülərüzlə qarşılayırdılar. Qəribə adam idi! İstəyirdi ki, evinə gəlsinlər və bu, onu yormurdu, əksinə, görünür, onun üçün xoş idi, bundan həzz alırdı.

**Janna Dozortseva**: Niyazi elə belə şəraitdə də işləyirdi, məsələn, partituranı hazırlayırdı, halbuki bu vaxt onun evində qonaqlar olurdu.

**Sərvər Qəniyev**: Mən onunla 20 gün Monqolustanda oldum. Biz "Ulan-Bator" mehmanxanasında qalırdıq, Həcər xanım hər gün bizim üçün yemək hazırlayırdı.

**Heydər Əliyev**: Həyat yoldaşım Moskvaya gedərkən bir neçə dəfə təyyarədə onunla yan-yana olmuşdur. O danışırdı Niyazi həmişə qabaqda gedərdi, Həcər xanım isə əlində onun frakı və başqa əşyalarla arxasınca gələrdi. həmişə də belə olurdu.

**Janna Dozortseva**: Yadımdadır, Siz nə vaxtsa deyirdiniz ki, Həcər xanımı Niyazidən ayırmaq olmaz.

**Heydər Əliyev:** Mən bir neçə dəfə ona demişdim ki, mükafatların yarıdan çoxunu Həcər xanıma vermək lazımdır, çünki sən bu qadınsız yaşaya bilməzsən. Niyazi də bunun həqiqətən belə olduğunu təsdiqləyirdi.

**Polad Bülbüloğlu:** Siz yaxşı bilirsiniz ki, əgər bu qadın olmasaydı, yəqin ki, o, 10-15 il az yaşayardı. Həcər xanım ona öz uşağı kimi baxırdı.

**Sərvər Qəniyev:** Monqolustan səfərindən yadımdadır, Həcər xanım hər səhər bizə iki-üç cür yemək hazırlayırdı. Niyazi yemək məsələsində çox şıltaq idi, Həcər xanım bəzən onu uşaq kimi qaşıqla da yedizdirərdi, mən bütün bunları görmüşəm.

**Heydər Əliyev:** Mən bayaq demək istəmədim, Niyazi 1984-cü ildə vəfat edib, ev muzeyi isə 1994-cü ildə, Əliyev buraya gələndən sonra yaradıldı. Bu, sizin yadınızdadır. Mən bu barədə də danışmaq istəmədim. Xalq Cəbhəsi deyirdi ki, bu simfonik musiqi nədir, bu, bizim musiqi deyil.

Bu adamlar hakimiyyətdə cəmi bir il qaldılar. Tofiq Quliyev mənə danışırdı ki, o, baş nazir Pənah Hüseynovun qəbuluna gedəndə ondan

soruşub ki, sən kimsən? O deyib ki, mən bəstəkaram. Baş nazir isə deyib ki, mən Üzeyir Hacıbəyovdan başqa bəstəkar tanımıram. Bax, belə adamlar indi müxalifətdədir və yenidən hakimiyyətə gəlmək istəyirlər.

**Sərvər Qəniyev:** Mən demək istəyirəm ki, Türkiyədə olduğum bu illər ərzində, artıq 14 ildir ki, seçki komissiyasının sədriyəm və deməliyəm ki, Siz həmişə başqa namizədlərdən böyük fərqlə irəlidə olmusunuz.

**Janna Dozortseva:** Cənab prezident, mən Allahdan arzu edirəm ki, Siz həmişə var olasınız, həmişə sağlam olasınız və onda hər şey yaxşı olacaq.

**Rengin Gökmən:** Cənab prezident, bu gün mənim həyatımın ən şərəfli konsertlərindən biri oldu. Azərbaycanlı qardaşlarımızın bizi unutmaması, yubileyə bizi dəvət etmələri bütün türk sənətçilərinə böyük şərəf verdi.

**Heydər Əliyev:** Sizin əsəriniz də çox gözəldir. Bizim orkestr də çox gözəl ifa etdi.

**Rengin Gökmən:** Mən tələbə olarkən müəllimim Niyazinin əsərlərini gətirib bizə dinlətdi. Niyazi Tağızadənin rəhbərliyi ilə Moskvanın Simfonik Orkestri çalırdı. Niyazi Tağızadənin ismini ilk dəfə orada eşitdim. Onda mən uşaq idim. Sonrakı illərdə Niyazi haqqında çox öyrəndim. Sizə təşəkkür edirəm ki, belə anları xalqınıza yaşadırsınız.

**Heydər Əliyev:** Çox sağ ol. O, Türkiyədə çox böyük işlər gördü. Mənim xatirimdədir, 1950-ci illər idi, ilk dəfə Türkiyəyə o getdi. O vaxtadək heç kəs Türkiyədə olmamışdı. Türkiyədə nə var, nə yox, simfonik orkestr var, opera və balet teatrı var – heç bir şey bilmirdik. O, üc ay orada yaşadı.

**Rengin Gökmən:** Adnan Sayqunun "Koroğlu" operasını da ilk dəfə Niyazi ifa etdi. Bu əsər o zamandan bəri bir dəfə də olsun səhnəyə qoyulmayıbdır. Onu təkcə Niyazi ifa etmişdir. Təəssüflər olsun ki, bu işdə bizim də nöqsanımız var, onu tamaşaya qoya bilməmişlk. Niyazinin çox böyük xidmətləri olmuşdur.

**Fidan Qasımova:** Janna, siz Azərbaycan musiqisini təbliğ etdiyiniz vaxtlarda Niyazinin iştirakı ilə İttifaqlar Evinin Sütunlu salonunda verilən konsertləri xatırlayırsınızmı? Bu, həmin salonda sizin ilk konsertlərinizdən biri idi. Siz onu necə gözəl aparırdınız.

**Janna Dozortseva:** Bu, Sütunlu salonda mənim ilk konsertim deyildi. Çünki mən orada – 1966-cı ildən işləyirəm. Amma biz əvvəllər sizinlə tanış deyildik. Bu, sizin iştirakınızla ilk konsert idi.

**Heydər Əliyev:** Bilirsiniz, bugünkü konsert mənə çox güclü təsir bağışladı. Müxtəlif böyük adamlarımızın – yazıçıların, bəstəkarların yubileylərinə həsr edilmiş belə gecələr bizdə vaxtaşırı olur. Onların hamısı çox yaxşı keçir, yaxşı musiqi hissəsi olur. Ancaq bugünkü gecə əvvəlkilərdən onunla fərqlənir ki, burada yüngül musiqi yoxdu, rəqslər yoxdu, yalnız belə ciddi musiqi vardı. Hər bir əsər insanı məftun edirdi. Konsertdə "Rast" ifa olunduqda pultun arxasında dayanmış Rauf Abdullayev kimi, yəqin ki, mən də qəlbən həyəcan keçirirdim, ona görə ki, bu musiqinin təsiri son dərəcə güclü idi. Burada xoş hisslər, hansısa kədərli duyğular, kövrək hisslər keçirirsən. Konsert mənə çox yaxşı, çox güclü təsir bağışladı.

**Sərvər Qəniyev:** Bəlkə, filarmoniya bərpa olunandan sonra əvvəlki ənənələrə yenidən başlayaq?

**Heydər Əliyev:** Filarmoniya indi bərpa edilir, apreldə tam hazır olacaqdır. Rostropoviç orada konsert verməyi vəd edir. Əlbəttə, biz orada işləri qaydaya salacağıq. Heyf ki, Niyazi yoxdur. Amma əvəzində Rauf Abdullayev var. Odur ki, biz belə gecələri ayda bir dəfə keçirəcəyik. Bilirsiniz, açığını deyim ki, bu, çox böyük zövq bəxş edir. Mən bugünkü konsertdən çox məmnunam.

**Polad Bülbüloğlu:** Cənab prezident Siz həmişə gözəl çıxış edirsiniz, amma bugünkü çıxışınızda Niyazi barəsində səmimiyyətiniz xüsusilə duyulurdu. Hiss edilirdi ki, Siz bu adamı sevirdiniz. Biz Sizin parlaq çıxışlarınızın neçə illərdir şahidiyik, ancaq bugünkü çıxışınız nə qədər səmimi, nə qədər ürəkdən gələn çıxış idi. Biz ev muzeyinin açılışındakı çıxışınızı xatırladıq, bu, proqram xarakterli çıxış idi. Aldığımız yeni gəmilərdən birinə Sizin məsləhətinizlə Niyazinin adı veriləndə biz hamımız kayutaya toplaşdıq və Sizin muzeydəki çıxışınıza baxdıq. Biz videokasetə yazılan bu çıxışı gəminin kollektivinə bağışladıq.

**Heydər Əliyev:** Gəlin, badələrimizi cəmiyyətimizin, bütün bəşəriyyətin ən yaxşı hissəsi olan gözəl xanımların şərəfinə qaldıraq! Bəşəriyyət onlarsız yaşaya bilməz.

Bu gün biz belə gözəl qadınların arasındayıq, onlar zahirən gözəl olmaqla yanaşı, incəsənət xadimlərinə məxsus daxili aləmləri ilə də zəngindirlər. Sənət adamı isə xüsusi adamdır. Siz bilirsiniz, mən həmişə belə hesab etmişəm və indi də bu fikirdəyəm ki, sənət adamları tək-tək yetişir. İncəsənət çətin və mürəkkəb işdir, həyatını buna həsr etmiş insanlar həm cəmiyyətin və xalqın, həm də dövlətin qayğılarından kənarda yaşaya bilməzlər. Mən həmişə mədəniyyətimizin, incəsənətimizin qayğısına qalmı-

şam və başa düşürəm ki, xalq bunsuz yaşaya bilməz. Biz nə etsək də, iqtisadiyyatda nə qədər uğurlarımız olsa da, mən başa düşürəm ki, xalq incəsənətsiz yaşaya bilməz, axı, o, xalqın simasıdır.

Tarixi keçmiş baxımından simfonik musiqi bizim xalqımız üçün səciyyəvi deyildir, biz onu Avropadan əxz etmişik, Azərbaycanda onun banisi Üzeyir Hacıbəyov olmuşdur, sonra isə burada inkişaf etmişdir.

**Rauf Abdullayev:** Cənab prezident, xarici ölkələrə qastrollar təşkil etmək mümkün olsaydı. Bizdə kiçik kollektivlər qastrola çıxırlar, onların maliyyə məsələlərini həll etmək asandır, bizim kollektivimiz isə çox böyükdür. Heç olmazsa, Türkiyəyə qastrola getmək mümkün olsaydı...

**Polad Bülbüloğlu:** Əgər 100 nəfər gedirsə, onda buna çox böyük vəsait lazımdır, bu da çətindir. Yadınızdadırmı, Fransaya Berlioz festivalına gedərkən, Siz təyyarə verdiniz. O zaman Fransada çıxan bütün qəzetlər yazırdı ki, prezident Azərbaycan simfonik orkestrinə təyyarə verdi və orkestr öz təyyarəsində gəldi.

**Heydər Əliyev:** Siz razılığa gəlin, harada çıxış etmək sizin üçün münasib olarsa, bütün xərcləri biz öz üzərimizə götürərik, təki siz çıxış edin. Orada bilet satacaqsınız, ya yox, qazanacaqsınız, ya yox, o da sizin olsun.

**Fatma Abdullazadə:** Bu gün Qalina Pavlovna zəng etmişdi, Sizə salam yetirdi və Samir Cəfərovu yanvar ayına dəvət etdi.

**Fidan Qasımova:** Fatma xanım, o, mənim şagirdim idi, Qazaxıstanda Beynəlxalq müsabiqənin laureatı olubdur.

**Heydər Əliyev:** O, Samirin sizin sinfinizdə oxuduğunu mənə deyibdir.

**Fidan Qasımova:** Mən onunla məşğul oldum və Qazaxıstana, münsiflər heyətinin üzvü olduğum beynəlxalq müsabiqəyə apardım.

**Xuraman Qasımova:** İndi isə bizə Surxay Əsgərovu veriblər. Müslüm Maqomayev məndən xahiş edib ki, onunla məşğul olum.

**Fidan Qasımova:** Cənab prezident, Siz dekabrın 20-də bizim gecəmizə gələcəksinizmi? Həmin gün bizim yaradıcılıq fəaliyyətimizin 25 illiyidir. Bilmirik, o gecədə biz oxuyacağıq, yoxsa, Sizin haqqınızda, bizim həyatımız üçün Sizin nə demək olduğunuz haqqında danışacağıq?

**Heydər Əliyev:** Yox, mənim haqqımda danışmaq lazım deyil, onda bu, yığıncaq olar, oxumaq lazımdır. Mən sizi dinləməyə gələcəyəm. Yaxşı bir konsert hazırlayın, ayın 20-də mütləq gələcəyəm.

**Sərvər Qəniyev:** Türkiyədə biz bir orkestr yaratmışıq, onun üzvlərinin əksəriyyəti azərbaycanlılardır. Biz hazırladığımız proqramı filarmoniyanın açılış mərasimində Sizə hədiyyə etmək istərdik.

**Heydər Əliyev:** Yaxşı. Dekabrın 20-dəki konsertdə sən də iştirak et.

**Sərvər Qəniyev:** Martın 25-də yubileyim keçiriləcək, həmin gün 65 yaşım və səhnə fəaliyyətimin 50 ili tamam olacaq. Yubileyi Doğramacı təşkil edəcəkdir.

**Heydər Əliyev**: Yaxşı, qoy, orada Doğramacı təşkil etsin, sonra da yubiley burada keçirilər.

**Rengin Gökmən:** Əminəm ki, Türkiyədə Azərbaycan Dövlət Simfonik Orkestrinin çıxışını dinləmək istəyənlər çoxdur. İstərdik ki, bizim də orkestrlərimiz Azərbaycanda olsun. Mən qayıtdıqdan sonra bu məsələni müvafiq idarələr qarşısında qaldıracağam. İzmir Bakı ilə qardaşlaşmış şəhərdir və biz mədəniyyət sahəsində də yaxşı əlaqələr yaratmaq istəyirik.

* * *

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV XALQ ARTİSTİ FİDAN VƏ XURAMAN QASIMOVALARI QƏBUL ETMİŞDİR

*Prezident sarayı*
*12 dekabr 2002-ci il*

**Dövlətimizin başçısı Heydər Əliyev görkəmli incəsənət ustalarını səmimiyyətlə salamlayaraq dedi:**

– Siz mənimlə belə görüşü arzulayırdınız. Amma mən sizinlə tez-tez görüşürəm. Elədir, yoxsa yox?!

**Fidan Qasımova**: Cənab prezident, Siz bizə böyük şərəf verdiniz. Biz Sizinlə fəxr edirik.

**Xuraman Qasımova**: Möhtərəm prezident, biz düşünürük ki, bu da azdır. Sizi hər zaman görəndə sevinirik.

**Heydər Əliyev**: Amma siz istəyirdiniz ki, xüsusi bir görüş olsun. Mən də sizi dəvət etmişəm. Çox məmnunam ki, vaxt tapmışam. İş onda deyil ki, mən istəmirəm. Əksinə, məndən olsa, sizi daha da tez-tez dəvət edərəm. Ancaq vaxt olmur. Allaha şükür ki, indi vaxt tapmışam. Mən sizə o gün söz verdim. Dedim, bu günlərdə qəbul edəcəyəm.

Demək, vədimi yerinə yetirmişəm.

**Xuraman Qasımova**: Cənab prezident, Siz hər zaman söz verirsiniz və yerinə yetirirsiniz. Ona görə biz əmin idik ki, vaxt tapacaqsınız. Çox sağ olun ki, vaxt tapdınız.

**Heydər Əliyev:** Maşallah, çox yaxşısınız. Görünüşünüz çox yaxşıdır. Gözəlliyiniz də, təbiidir, bunu deməyə ehtiyac yoxdur. İşləriniz də gedir. Elədirmi?

**Fidan Qasımova**: Bəli, elədir.

**Heydər Əliyev**: Ancaq bilirəm ki, sizin bir probleminiz var. Sizin yaradıcılıq fəaliyyətinizin 25 illik yubileyidir. Görün, vaxt necə gəlib keçir. 25 il...

**Xuraman Qasımova**: Cənab prezident, yaradıcılığımızın 25 illiyini keçirəcəyik. Bunu, Sizin və xalqımızın qarşısında, sadəcə, bir hesabat kimi edəcəyik ki, nəyə nail olmuşuq, nə etmişik. Siz bizim sənətimizə hər zaman böyük qiymət vermisiniz.

**Heydər Əliyev:** Çox şeyə nail olmusunuz. Siz Azərbaycan incəsənətində, musiqisində, xüsusən opera sənətində, ümumiyyətlə, mədəniyyətdə cox böyük fəaliyyət göstərmisiniz. Birincisi, ona görə ki, sizin çox nadir, fitri istedadınız var. Özü də hər ikinizin. Bunu Allah hamıya vermir.

**Fidan Qasımova**: Möhtərəm prezident, Sizin elə gözəl hafizəniz var ki, yadınıza salmaq istəmirəm. Yadınızdadırmı, 1975-ci ildə Siz teatrda "Koroğlu" operasının tamaşasında idiniz. İkinci pərdədən sonra foyeyə çıxdınız. Mən də atam və anamla bir küncdə dayanmışdım.

Mən o vaxtlar 2-3 müsabiqənin laureatı idim. Valideynlərimlə durmuşdum. Siz məni görəndə yaxınlaşdınız, atamla, anamla salamlaşdınız. Məndən soruşdunuz ki, Fidan, bəs səni Nigar rolunda nə zaman görəcəyik? O, Sizin xatirinizdədirmi?

**Heydər Əliyev**: Lap yaxşı xatirimdədir.

**Fidan Qasımova**: İnanın, mən o günü unutmuram. Sizdən gələn o güc, məsuliyyət bu günə qədər də məni ruhlandırır. Sizin sözləriniz məndə o qədər hissiyyatlar yaratdı ki, çox tezliklə Nigarın partiyasını öyrəndim və onu oxudum. Deyirdim ki, kaş Bülbüllə oxuyaydım, onda daha da gözəl tamaşa ola bilərdi. Amma mənim tərəfdaşım Lütfiyar İmanov idi. O, da gözəl oxuyurdu. Amma deyirdim ki, bəlkə Bülbüllə oxusaydım, Üzeyir Hacıbəyovun ruhu şad olardı.

Siz mənə böyük güc verdiniz. Mən ondan sonra, o məsuliyyəti hiss edəndən sonra dedim ki, Xuraman, sən də mənim kimi özünə qarşı tələbkar ol və çətin sənət yolunu layiqincə davam et. Onu asta-asta ürəkləndirdim və dedim ki, sən oxumalısan. Çünki mənə rəhbərimiz belə göstəriş veribdir. Ata-anamız dünyalarını tez dəyişdilər. Təəssüf ki, onlar bizim yaradıcılığımızın 25 illiyini görməyəcəklər. Amma Siz bizə atalıq etdiniz. Çox xoşbəxtik ki, Sizin zamanınızda ucaldıq. Məncə, bu ucalmaq son deyildir. Biz indi elə bir formadayıq ki, istəyirik, Sizin zamanınızda ucalaq. Hər dəfə bizə uzaqdan baxırsınız, bax, bu, bizə güc, ruh verir.

**Heydər Əliyev**: Niyə uzaqdan, indi yaxından baxıram.

**Fidan Qasımova**: Mən Sizinlə Azərbaycan dilində səmimi danışıram.

**Heydər Əliyev**: O vaxt belə danışa bilmirdin.

**Fidan Qasımova:** Danışa bilirəm, amma məktəbi rus dilində oxumuşam. Xuraman məndən də gözəl danışır. Çünki Xuraman çox danışandır, çox gözəl də tələffüzü var.

Həm rus dilində, həm də Azərbaycan dilində yaxşı danışır. Mən onsuz yaşaya bilmərəm. O da Sizsiz yaşaya bilmir.

**Heydər Əliyev:** O da sənsiz yaşaya bilmir. Sənin xatırladığın o görüş mənim yadımdadır, indiki kimi gözümün qabağındadır. Anan da gözümün qabağındadır, atan da. Doğru deyirsən, o vaxt “Koroğlu” operasına gəlmişdim. Fasilə vaxtı mən çıxıb otaqda oturmadım. O vaxt Bakıda yaxşı bir adət var idi, teatra gələnlər həm tamaşadan əvvəl, həm də fasilə zamanı foyedə gəzişirdilər. Mən də gəzirdim, yanımda da adamlar var idi. Özü də giriş qapısına yaxın dayanmışdınız.

**Fidan Qasımova**: Bəli, tamamilə doğru deyirsiniz.

**Heydər Əliyev**: Təbiidir ki, insanlar məni görəndə bir az həyəcanlanırlar. Rəhmətlik anan da, atan da çox həyəcanlandılar, salam verdilər. Mən yanaşdım, atanla da, ananla da danışdım. Səninlə də, indi sən dediyin həmin söhbəti apardım.

**Fidan Qasımova**: Düzdür.

**Heydər Əliyev**: Mən elə bilirdim, sən bunu unutmusan.

**Fidan Qasımova:** Heç bir zaman unutmaram.

**Heydər Əliyev**: Xatirimdədir, ondan sonra sən cəsarətləndin, “Koroğlu”da çox yaxşı çıxış etdin. Nigar partiyası da, başqa çıxışların da çox gözəldir. Sənin Moskvada, Sütunlu salondakı çıxışların mənim xatirimdədir. Mən Moskvada işləyərkən orada bir neçə dəfə Azərbaycanın iştirakı ilə tədbirlər olmuşdu. Mən o tədbirlərə gəlmişdim, konsertlərdə də olmuşdum. Konsertlərdən sonra sizin hamınızla görüşmüşdüm. Bunların hamısı yadımdadır. Sonra da Allahın, taleyin işi imiş ki, mən Azərbaycana rəhbərliyə ikinci dəfə gəldim. Bilirsiniz ki, gələndən də, doqquz ildir sizə himayədarlıq edirəm.

**Xuraman Qasımova:** Biz bunu heç vaxt unutmuruq. Çox xoşbəxtik ki, bizim bütün 25 illik yaradıcılıq fəaliyyətimiz məhz Sizin respublikamıza rəhbərlik etdiyiniz dövrdə keçibdir. Siz bunu çox gözəl bilirsiniz.

**Heydər Əliyev**: Bəli, mənim dövrümdə keçibdir.

Səndən sonra Xuraman da səhnəyə gəldi, oxudu. Deyəsən, Afinada böyük bir mükafat aldı. Biz onu çox alqışladıq. O da yadımdadır.

**Fidan Qasımova**: Cənab prezident, mən İtaliyada birinci yeri tutdum, Xuraman isə Yunanıstanda. Görün, hansı ölkədə, yəni operanın, belkantonun vətənində birinci yeri tutdum. Xuraman xanım Yunanıstanda Mariyya Kallas adına müsabiqədə Qranpri aldı. Ondan sonra Moskvada Çaykovski adına müsabiqədə ikinci yerə çıxdı. Əslində, o ikinci yer birinci yer idi.

**Xuraman Qasımova:** O vaxt orada Azərbaycanın vokal məktəbini göstərmək çox çətin idi.

**Heydər Əliyev**: Elədir, elədir. Birinci yer, ikinci yer, fərqi yoxdur.

**Xuraman Qasımova**: Hər halda, əliboş qayıtmadıq.

**Heydər Əliyev**: İş onda deyil. İş ondadır ki, siz sənətinizi inkişaf etdirmisiniz. Səsinizdən istifadə etmisiniz, böyük müğənni, böyük artist, böyük sənət ustası olmusunuz. Əsas budur. Bilirsiniz, hər adam belə ola bilməz. Bunun üçün istedad, səs, başqa keyfiyyətlər lazımdır. Allah da bunu sizə veribdir.

O vaxt sizin atanızla, ananızla bir az danışdım. Sonra mənə dedilər, deyəsən, onlar da musiqi ilə məşğul olmuşdular.

**Fidan Qasımova**: Atamın səsi var idi.

**Heydər Əliyev**: Bəli, eşitmişdim.

**Fidan Qasımova**: Hətta Üzeyir bəy rektor olanda Niyazi atamın əlindən tutub onun yanına aparmışdı.

**Heydər Əliyev**: Onlar da sizin bu istedadınızı görüb, sizi qorumuşdular və sizə yaxşı yol göstərmişdilər. İndi Allaha şükür, siz böyük sənətkarsınız və Azərbaycanın incəsənətini sizsiz təsəvvür etmək mümkün deyildir. Sizin 25 illik yubileyinizlə əlaqədar nə məsələlər varsa, həll edəcəyik.

**Xuraman Qasımova**: Möhtərəm prezident, Siz hər şeyi nəzarət altında saxlayırsınız. Müstəqil bir respublikaya rəhbərlik edirsiniz. Bizim işlərimizlə də məşğul olmağa vaxt ayırırsınız. Hər şey öz qaydasında gedir. Biz əminik, madam ki, Siz özünüz maraqlanırsınız, demək, hər şey öz yerində olacaqdır. Təki Siz gələsiniz, iştirak edəsiniz və həmin günü böyük bir bayrama çevirəsiniz.

**Heydər Əliyev**: Mütləq gələcəyəm. Buna heç şübhəniz olmasın. Çünki mən sizə söz vermişdim ki, yubileyiniz keçiriləcəkdir. Bir halda ki, mən söz vermişdim, dekabrın 20-də gəlib özüm iştirak edəcəyəm. Bir şey qalmayıbdır, bu gün ayın 12-dir. Gərək siz yaxşı hazırlaşasınız, yorulmayasınız.

**Fidan Qasımova**: Cənab prezident, bizə bu gün də güc verirsiniz.

* * *

# AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİNİN GÖRKƏMLİ NÜMAYƏNDƏLƏRİ FİDAN VƏ XURAMAN QASIMOVALARIN YARADICILIĞININ 25 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

*Respublika sarayı*
*20 dekabr 2002-ci il*

Əziz Fidan xanım!

Əziz Xuraman xanım!

Mən sizi 25 yaşınız münasibətilə, səhnə yaradıcılığı fəaliyyətinizin 25 illiyi münasibətilə təbrik edirəm, sizə cansağlığı arzu edirəm. Daim belə gözəl olasınız!

Həmişə xoşbəxt olasınız və bu gözəl səsinizi də, gözəl istedadınızı da qoruyub saxlayasınız!

Mən səhv etmədim ki, dedim, 25 yaşınız münasibətilə təbrik edirəm. Ona görə ki, həqiqətən, siz bu gün səhnədə elə oxuyursunuz, mürəkkəb mahnıları elə gözəl ifa edirsiniz ki, siz 25 yaşlı bir gənc müğənni təsəvvürü yaradırsınız. Güman edirəm ki, hələ sizin gələcəkdə böyük uğurunuz var.

25 il ərzində Fidan xanım və Xuraman xanım Azərbaycan musiqi sənətinin, opera musiqisinin, klassik musiqi sənətinin tarixinə böyük, gözəl, qızıl səhifələr yazmışlar.

Siz artıq Azərbaycan mədəniyyətinin, incəsənətinin, musiqisinin böyük tarixinə daxil olmusunuz və bu tarixdə ən görkəmli yerlərdən birini tutmusunuz.

Bilirsiniz, mən bu gün bu salonda böyük qürur hissi keçirirəm. Neçə vaxtdır burada oturmuşam, heç hiss etmirəm ki, vaxt keçibdir. Elə bil ki, hələ vaxt qarşıdadır. Dinləyirəm, baxıram və düşünürəm: dünyada Azərbaycan xalqı var, qədim tarixə malik olan, özü də çox zəngin tarixə malik olan Azərbaycan xalqı var. Dünyada müstəqil Azərbaycan dövləti var. Bizim xalqımızın, dövlətimizin hər şeyi var. Ölkəmizin gözəl təbiəti, təbii sərvətləri var, yeraltı zəngin sərvətləri neft və qaz yataqları var. Gö-

zəl meşələri, çayları, bulaqları, dağları – hər şeyi var. Xalqımızın, dövlətimizin böyük iqtisadi potensialı var. Böyük intellektual potensialı var. Gözəl opera və balet teatrı var. Artıq bu gün dünya ölçüsündə yüksək səviyyəyə çatmış bu gözəl simfonik orkestrimiz var. Gözəl, zəngin mədəniyyətimiz var. Bizim müxtəlif janrlarda çox zəngin teatr tariximiz var. Azərbaycan xalqının 130 illik tarixi olan dünyəvi teatrı var. Çox şeylər var. Bunların hamısını bu sarayda oturub düşünürəm. Bu sarayın özünün də 30 yaşı var. 30 ildir ki, bu sarayda gözəl mərasimlər keçir.

Mən düşündüm ki, 30 ildir orada otururam. Çünki, 1972-ci ildə bu sarayın tikilməsinin təşəbbüskarı mən oldum. 1972-ci ilin dekabr ayında bu sarayda ilk təntənəli mərasim oldu. Düzdür, o vaxtdan bəzi fasilələr olubdur, mən Moskvada işlədiyim zaman, yaxud ümumiyyətlə, cəmiyyətdən təcrid edildiyim, Naxçıvanda yaşadığım zaman orada otura bilməmişəm. Ancaq ondan sonra orada yenə də otururam və hələ gələcəkdə də oturacağam. Bunları düşünərkən deyirəm, ilahi, biz nə xoşbəxtik. Ancaq bizim bu xoşbəxtliyimizi, bizim xalqın bu gözəl mədəniyyətini belə yüksəklərə qaldıran Azərbaycanın dəyərli insanları olubdur.

Böyük Üzeyir Hacıbəyov yüz il bundan öncə Azərbaycan opera sənətinin, klassik musiqi sənətinin əsasını, təməlini qoyubdur. Onun davamçıları, yaratdığı məktəbin nümayəndələri Qara Qarayev, Fikrət Əmirov, Tofiq Quliyev və digərləri böyük-böyük əsərlər yazıblar. Azərbaycanda yeni bir mədəniyyət, incəsənət, musiqi janrı – opera, klassik musiqi yaranıbdır. Əgər qonşu müsəlman ölkələri ilə müqayisə etsək, Azərbaycan bu barədə həddindən artıq inkişaf etmiş bir ölkədir. Bunları yaradan insanlar da təbiidir ki, çox nadir fitri istedada malik insanlar olmuşlar. Bu sahədə hər adam müvəffəqiyyət qazana bilməz. Ancaq elələri buna müvəffəq olur ki, tale onlara böyük istedad bəxş edir və başqa imkanlar bəxş edir. Bunlardan, bizim mədəniyyətimizin ən dəyərli, ən görkəmli nümayəndələrindən də biri Fidan xanım və Xuraman xanımdır.

25 il çox vaxt deyil, amma az da deyildir. Mən Fidan xanımı hələ səhnədə olmadan görmüşdüm, tanıyırdım. Biz bu yaxınlarda görüşüb söhbət edəndə mənim xatirimə saldı. Amma mənim hafizəm var. Mən onsuz da bunu Fidan xanıma deyəcəkdim, o, məni qabaqladı. 1970-ci illərin əvvəlləri idi. Opera teatrına getmişdim. Orada "Koroğlu" operası gedirdi və fasilə zamanı mən teatrın foyesində gəzirdim. Bir də gördüm ki, kənarda Fidan xanımın atası, anası durublar, qız da onların yanında. Tanış idim, bunlara yanaşdım, salamlaşdım. Orada Fidan xanımı öpdüm, onda balaca idi. Düzdür, indi də öpməkdən çəkinmirəm. Fidan

xanım öz sənətini inkişaf etdirməyə yeni-yeni başlamışdı. Mən dedim, Fidan, sən nə vaxt operada çıxış edəcəksən, Nigarın rolunu oynayacaqsan? O, çox təvazökar şəkildə başını aşağı saldı. Amma mənim sözlərimdə məna var idi. Mən bilirdim, gün gələcək ki, bəli, Fidan xanım səhnədə bizim Azərbaycan operasının ən şah əsərinin – "Koroğlu" operasının ən gözəl rolu olan Nigarın partiyasını ifa edəcəkdir.

Biz bu gün burada ekranda Fidan xanımın "Koroğlu" operasında Nigar rolunda oxumağını gördük. Nə qədər gözəl, nə qədər məlahətlidir, nə qədər də həqiqətən, Üzeyir Hacıbəyovun nəzərdə tutduğu Nigardır. Yəqin ki, çoxlarınız bilmir. Bəlkə siz də bilmirsiniz ki, Üzeyir Hacıbəyov "Koroğlu" operasını yazanda, təbiidir, birinci növbədə, Koroğlu rolunda böyük sənətkarımız Bülbülü nəzərdə tutmuşdur. Ancaq Nigar roluna onun istədiyi namizədi yox idi.

Ümumiyyətlə, XX əsrdə bizim opera sənətimiz inkişaf edəndə, Üzeyir Hacıbəyov, Müslüm Maqomayev ilk dəfə bu işlərlə məşğul olanda bəzi tamaşalarda qadın rollarını kişilər oynayırdı. Çünki Azərbaycan qadınları gedib belə rollarda çıxış etmirdilər. Sonrakı dövrlərdə, məlumdur ki, bizim böyük aktrisamız Şövkət Məmmədova Azərbaycan operasının inkişafında böyük fəaliyyət göstəribdir. 1920-30-cu illərdə Azərbaycan operasında Fatma Muxtarova da oxuyubdur. Amma ondan sonra ara kəsilibdir.

1937-ci ildə "Koroğlu" əsərini səhnəyə qoyanda Nigar rolunu ifa edən Azərbaycan millətindən deyildi. Siz bunu bilirsiniz. Yəni bu sənət o qədər çətin və o qədər də böyük iradə tələb edən sənətdir ki, o vaxt bizim Azərbaycanda belə müğənnilər tapılmırdı. Ondan xeyli müddət sonra bizim böyük aktrisamız Firəngiz Əhmədova bu rolu oynadı. Daha sonra növbə Fidan xanıma çatdı. Görürsünüz, tarix böyükdür, illər çoxdur. Amma ifaçılar bir-iki-üçdür, ona görə də beləlləri insanların ümumi sayına daxil ola bilməz. Onları həmişə ayrıca saymaq lazımdır. Bir nəfər, iki nəfər, üç nəfər, dörd nəfər, beş nəfər. Allah eləsin ki, çox olsun.

Mən ümidvaram ki, indi Fidanın da, Xuramanın da davamçıları olacaqdır. Azərbaycan səhnəsi boş qalmayacaqdır. Ancaq baxın, Azərbaycan səhnəsinin 25 ilində, əsasən, opera əsərlərində aparıcı rollarda Fidan xanım və Xuraman xanım çıxış ediblər. Bilirsiniz, başqa janrlarda, başqa tamaşalarda müxtəlif rollarda çıxış etmək imkanı olan böyük sənətkarlarımız var. Amma opera sənəti, klassik musiqi həm xüsusi istedad tələb edir, həm xüsusi səs tələb edir, həm də o səsin hazırlanmasını tələb edir. Bizim xalq mahnılarını bir az oxuya bilən adam ifa edir, bir aydan

sonra səhnəyə çıxır və böyük alqışlar da alır. Ancaq bu qızlar, həm Fidan, həm də Xuraman bu yüksək, mürəkkəb opera ariyalarını oxumaq səviyyəsinə gəlmək üçün nə qədər təhsil alıblar, musiqi təhsili alıblar. Nə qədər vaxt sərf ediblər. Bu ariyaları mənimsəmək üçün özlərini nə qədər məcbur ediblər ki, bu səviyyəyə gəlib çatıblar. Bu, onların fədakarlığıdır, zəhmətkeşliyidir.

Fidan xanım, Xuraman xanım indi Qərb klassik operalarının ən çətin, ən ağır partiyalarını məharətlə ifa edirlər. Biz bunu opera teatrımızda görmüşük. Bu gün göstərilən kino lentlərində də gördük. Nəhayət, bunu canlı olaraq burada Fidan xanım və Xuraman xanım öz çıxışları ilə nümayiş etdirdilər.

Beləliklə, bizim zəngin mədəniyyətimizin ən dəyərli inciləri var. Bu incilər çox deyil və çox olsa, onlar heç vaxt qiymətli olmaz. Bax, onlardan ən dəyərliləri Fidan xanımdır, Xuraman xanımdır.

Keçmişdə bizdə, dünyada ən qiymətli şeyi qızılla müqayisə edərdilər. Əgər keçmiş qanun-qayda ilə müqayisə etsək, onlar 999 əyarlı qızıldır. Əgər almaz, brilyant və digər qiymətli daş-qaşları ilə ölçsək, mənə belə gəlir ki, bunlara bərabər nə almaz tapmaq olar, nə brilyant, nə də başqa qiymətli daş-qaş tapmaq olar. Bunlar onlardan da qiymətlidirlər.

Bunların xoşbəxtliyi nədir?! Birincisi, bunlara ilahidən çox fitri istedad verilibdir. İkincisi, gözəl ailə tərbiyəsi alıblar. Bunlar hamısı əsasdır. Ailə tərbiyəsi, yəni yüksək mədəniyyətə malik olan ailədə böyüyüblər. Atası, anası həm musiqiçi olublar, həm də bizim ziyalılardan olublar. Demək, ziyalı da ziyalıdan fərqlidir. Onlar Azərbaycanın keçmiş, ən köklü ziyalılarından idilər. Demək, belə bir ailədə böyüyüblər.

Allah bunlara həm gözəl səs verib, həm də çox zahiri gözəllik veribdir. Hamısı gözəldir. Bunlar hamısı birlikdə harmoniya təşkil edir və bu harmoniya da bax, bizim bu iki gözəl müğənnimizdir, gözəl mahnı oxuyanlarımızdır, gözəl sənət ustalarımızdır.

Mən çox şadam ki, bugünkü mərasim bu qədər gözəl əhval-ruhiyyədə keçir. Mən öz münasibətimi Fidan xanıma da, Xuraman xanıma da bildirirəm. Eyni zamanda, mən hamını bizim cəmiyyətdə belə insanlara xüsusi münasibət, qayğı göstərməyə, belə insanlara hörmət etməyə dəvət edirəm. Hesab edirəm ki, onlar ömürlərinin sonuna qədər Azərbaycan Opera Teatrının daimi solistləridirlər. Mən əmr verirəm, bunu opera teatrında yazın. Daim siyahının başında duran solistlərdirlər.

Fidan, Xuraman teatra gələndə, gərək teatrın qapıçısından ta direktoruna qədər bunlara baş əyib, qarşılasınlar. Çünki bunlar adi adam deyil-

lər. Bunları adi adam kimi qəbul etmək olmaz. Mən bu sözləri göydən götürmürəm. Biz bunu filmlərdə görmüşük. Yüksək mədəniyyətli Avropa ölkələrində bu qədər yüksək ada malik olan sənətkarları hamı, doğrudan da, böyük hörmətlə qarşılayır. Bu, bizdə də olmalıdır. Biz bu mədəniyyəti yaratmalıyıq. Mən bunu təkcə Fidan xanım, Xuraman xanım haqqında demirəm. Ümumiyyətlə, mədəniyyət xadimlərinə xüsusi diqqət göstərilməlidir. Həqiqətən, onlarla hesablaşmaq lazımdır.

Yenə də deyirəm, onlar çox deyillər. Onları barmaqla saymaq olar. Əgər biz bunları göz üstə saxlamasaq, belə insanları cəmiyyət – bizim 8 milyonluq əhalimiz var, – göz üstə saxlamasa, mədəniyyətimizi inkişaf etdirə bilmərik. Bunları adi adamlar sırasına salmaq olmaz. Təkcə bunlar haqqında demirəm. Bizim başqa da dəyərli mədəniyyət xadimlərimiz var, onların da haqqında deyirəm. Amma indi konkret olaraq Fidan və Xuraman xanımı deyirəm.

Eşitmişəm ki, opera və balet teatrının direktoru da Konservatoriyanı qurtarıbdır, musiqiçidir. Amma teatrın direktorudur. O, Fidan xanıma və Xuraman xanıma xüsusi münasibət göstərməlidir. Mədəniyyət naziri Polad Bülbüloğlu yaxşı bilir ki, böyük sənətkar olmaq nədir. Onun atası böyük Bülbülün qarşısında hamı baş əyirdi, hamı ona hörmət edirdi. Onun özü də həm bəstəkardır, həm də mahnı oxuyur, buna da diqqət yetirmək lazımdır. Amma bizim bu iki qız xüsusi yer tutur. Ona görə mədəniyyət naziri də gərək bu qızlara xüsusi diqqət yetirsin, münasibət göstərsin.

Bir sözlə, bu, bizim xalqın mədəniyyətinin nümunəsi olacaqdır. Biz istəyirik ki, xalqımızı Avropa dəyərlərinə daha da yaxınlaşdıraq. İndi biz müstəqil Azərbaycanda Qərb ölkələri ilə, Avropa ölkələri ilə inteqrasiya haqqında danışırıq. İnteqrasiya deyəndə, daha çox iqtisadi məsələləri nəzərdə tuturlar. Amma bu, belə deyildir. İnteqrasiya bütün sahəni əhatə edir. O cümlədən, mədəniyyət, incəsənət, musiqi sahəsini əhatə edir. Biz bu barədə irəlidəyik.

Yenə də deyirəm, böyük Üzeyir Hacıbəyov hələ yüz il bundan qabaq bunun əsasını qoyubdur. Biz artıq on illərdir ki, öz musiqimizə, mədəniyyətimizə görə Avropa səviyyəsindəyik. Bəlkə iqtisadiyyatda onlardan geridəyik, amma mədəniyyətdə yox. Fidan da, Xuraman da Avropanın ən mötəbər opera səhnələrində müvəffəqiyyətlə çıxış edə bilərlər. Bunu bu gün də edə bilərlər. Çünki biz onlara da, özümüzünkülərə də baxırıq və müqayisə etmək imkanımız da var. Doğrudan da, təəssüf ki, biz vaxtilə bu işlə yaxşı məşğul ola bilməmişik. Ancaq indi məşğul olmaq la-

zımdır. Bunu deyərək, mən ümumiyyətlə, istedadı olan hər bir gəncə, hər bir insana xüsusi münasibət göstərilməsini istəyirəm. Çünki bu istedadlardan bizim gələcəyimizin mədəniyyət xadimləri yaranacaqdır və burada Fidan xanım və Xuraman xanım nümunədirlər.

Mənim əziz bacılarım, ikiniz də mənim bacılarımsınız. Yaşca qızıma da yaxınsınız. Bilirsiniz, mənim bir qızım, bir oğlum var. Mən cox şadam ki, bu gün bu mərasimi sizinlə birlikdə təşkil etdik və yaxşı keçiririk. Çox gözəl keçir. Sizin yanınızda yorulmaq olarmı?! Mən yorulmadım.

Mən sizi bir də təbrik edirəm. Sizə cansağlığı, yaradıcılıq uğurları arzu edirəm.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV DÜNYA VOKAL SƏNƏTİNİN MƏŞHUR USTALARI, XALQ ARTİSTLƏRİ MÜSLÜM MAQOMAYEVİ VƏ TAMARA SİNYAVSKAYANI QƏBUL ETMİŞDİR

*Prezident sarayı*
*21 dekabr 2002-ci il*

Azərbaycan Prezidenti Heydər Əliyev Prezident vokal sənətinin məşhur ustalarını – Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələri, xalq artistləri Fidan və Xuraman Qasımovaların yaradıcılığının 25 illiyinə həşr olunmuş təntənəli mərasimdə iştirak etmək üçün Bakıya gəlmiş SSRİ və Azərbaycanın xalq artistləri Müslüm Maqomayevi və onun xanımı Tamara Sinyavskayanı qəbul etmişdir.

Səmimi qəbul üçün minnətdarlıq edən sənətçilər Azərbaycan Prezidenti Heydər Əliyevin təntənəli mərasimdəki parlaq və məzmunlu nitqindən aldıqları təəssüratlarını bölüşərək dedilər ki, həmin nitqdə prezidentin mədəniyyət və incəsənət xadimlərinə sonsuz diqqət və qayğısı bir daha öz ifadəsini tapmışdır. Müslüm Maqomayev vurğuladı ki, çox yüksək səviyyədə olan təntənəli mərasimdə Azərbaycan opera sənətinin tarixi bir daha hamının gözü önündən keçdi. Prezident Heydər Əliyev Azərbaycan opera sənətinin tarixini xatırlayaraq bildirdi ki, ölkəmizdə SSRİ xalq artisti adına layiq görülmüş ilk azərbaycanlı opera müğənnisi Şövkət Məmmədova olmuşdur. O, 1938-ci ildə, Moskvada ilk dəfə Azərbaycan mədəniyyəti ongünlüyü keçirildikdən sonra bu adı almışdı. Həmin vaxt dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyov və mədəniyyətimizin digər nümayəndələri də bu yüksək ada layiq görülmüşdülər. Dövlətimizin başçısı onu da vurğuladı ki, Üzeyir Hacıbəyovun “Koroğlu” operasında Nigarın partiyasını ifa edən ilk azərbaycanlı müğənni SSRİ xalq artisti, bu yaxınlarda Prezident təqaüdünə layiq görülmüş Firəngiz Əhmədova olmuşdur. Ondan sonra isə Nigar rolunda Fidan Qasımova çıxış etmişdir Görüşün sonunda qonaqlar Azərbaycan prezidenti Heydər Əliyevlə xatirə şəkli çəkdirdilər.

# AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT XADİMLƏRİNƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**“Xalq artisti” fəxri adı**

Bağırzadə Məmmədbağır Məmmədəli oğlu
Hüseynov Elxan Ağahüseyn oğlu
Əhmədov İlham Namiq-Kamal oğlu
Əliyeva Mədinə Vaqif qızı
Əyyubova Mələkxanım Yadigar qızı
İbrahimova Səfurə Ağabala qızı
Quliyev Nurəddin Əzulla oğlu
Mustafayeva Laləzar Bəşir qızı
Nemətov Azər Paşa Zəfər oğlu
Perlova İrina Aleksandrovna

**“Əməkdar artist” fəxri adı**

Atakişiyeva Mətanət Ağazahir qızı
Bağırov Pərviz Sadiq Saleh oğlu
Bakıxanov Akif Məmməd oğlu
Bayramov Ağalar Xanlar oğlu
Bayramova Aygün Əliqulu qızı
Cahangirov İlqar Cümşüd oğlu
Dostəliyeva Nazpəri Əhmədəli qızı
Əhmədov Cəfər Namiq-Kamal oğlu
Əhmədova Nuriyyəxanım Əliağa qızı
Əliyev Firuz Əliabbas oğlu

Əsgər Məmməd oğlu
Hacıyev Əli Əliyusif oğlu
Heydərov Ramiz Ağahəsən oğlu
Həmidov Əjdər Qüdrət oğlu
Hümbətova Aygün Aydın qızı
Hüseynov Nicat Abbasəli oğlu
Hüseynov Şövqi Ərəstun oğlu
Xanbabayeva Zülfiyyə Güloğlan qızı
Xanlarova Mehriban Aslan qızı
Xasıyeva Könül Kazım qızı
Xəlilova Sevil Rza qızı
Xudaverdiyev Firuz İslam oğlu
İsgəndərova Rimma Ramisovna
İsgəndərova Sənubər Sabir qızı
İskolski Lev Yakovleviç
Kazımova Aygün Ələsgər qızı
Qafarova Xanım Əbdülqafar qızı
Quliyev Elxan Əlibala oğlu
Lobaçov Yuri Nikolayeviç
Məmmədov Sabir Novruz oğlu
Məmmədov Seyidşah Qəmli oğlu
Mirzəyev Gülağası Ağahüseyn oğlu
Mirzəyev Nizami Əbülfəz oğlu
Mirzəyev Zakir Qulam oğlu
Nəbiyeva Gülər Nəbi qızı
Nurzadə Əli Qayıb oğlu
Poladov Əkrəm Nicat oğlu
Səmədov Şükür Hacıbala oğlu
Şərifova Leyli Fətulla qızı
Vəliyev Nofəl Abdulməcid oğlu

**"Əməkdar incəsənət xadimi" fəxri adı**

Ağayeva Kəmalə Ağa qızı
Əlikişizadə Yulana Yusufovna
Həsənbəyov Yusif Qonaq oğlu
Məmmədov Rafiq Həbib oğlu

**"Əməkdar mədəniyyət işçisi" fəxri adı**

Ağakərim Ağakişi oğlu
Boqdanov Sergey Vladimirov
Cabbarov Cabbar Ağadadaş oğlu
Kaşanlı Rafiq Rizvan oğlu
Məlikov Hüseyn Balababa oğlu
Məmmədova Rasimə Yusif qızı
Musayeva Rəfiqə Hüseyn qızı
Şıxəliyev Kamal Məmmədəli oğlu
Yunusov Telman Əkbər oğlu

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 dekabr 2002-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV DÖVLƏT FİLARMONİYASINDA TİKİNTİ-BƏRPA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR

*Azərbaycan Dövlət Filarmoniyası*
*29 mart 2003-ci il*

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev ölkə memarlıq abidələrindən olan Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının binasında aparılan tikinti-bərpa işlərinin gedişi ilə maraqlanmışdır.

Baş nazirin müavini Abid Şərifov və mədəniyyət naziri Polad Bülbüloğlu dövlətimizin başçısını səmimiyyətlə qarşılayaraq, görülən işlər barədə ətraflı məlumat verdilər.

Bildirildi ki, binanın tikintisi və bərpası üçün əvvəlcə bir neçə xarici şirkətlə danışıqlar aparılmışdı və onlar 18-24 ay ərzində tamamlayacaqları işlərə 24-25 milyon dollar sərf olunacağını söyləyirdilər. Bu şərtlər sərfəli olmadıgına görə, bütün işlər yerli inşaatçılara tapşırıldı. Binada tikinti-bərpa işlərini "Azərenerjitikintiquraşdırma Səhmdar Cəmiyyəti həyata keçirir, burada lazım olan bütün materiallar ən müasir tələblər səviyyəsində və qısa müddətdə Azərbaycanda hazırlanmışdır. Görülən işlərə təqribən 90 milyard manat xərclənəcəkdir. Binanın işıq, su, qızdırıcı, kanalizasıya sistemləri də tamamilə yeniləşdirilmişdir.

Abid Şərifov dövlətimizin başçısına müraciətlə dedi:

– Cənab prezident, Sizə dərin təşəkkürümüzü bildiririk ki, belə gözəl, qədimi bir binanın yenidən tikilməsi və bərpa olunması barədə göstəriş verdiniz. Aprelin 30-dək bina tam təhvil veriləcəkdir. Siz bu işləri həmişə nəzarətdə saxlayırsınız və bütün məsələlər, təbii ki, Sizinlə razılaşdırılmışdır. İndi istəyirik ki, görülən işlərə yerində baxasınız, öz dəyərli tövsiyə və təkliflərinizi verəsiniz. Hələ bizim bir ay vaxtımız var.

Prezident Heydər Əliyev Filarmoniya binasının əvvəlki və müasir görünüşünü əks etdirən fotoşəkillərə baxdı, ayrı-ayrı mərtəbələrdəki otaqları, konsert salonunu gəzdi, milli memarlıq üslublarının qorunub saxlanılması işlərinə xüsusi diqqət yetirdi, qonaq otağından ətrafı seyr etdi.

Mədəniyyət naziri Polad Bülbüloğlu dövlətimizin başçısının iştirakı ilə vaxtilə burada keçirilən görüşləri, onun olduğu konsertləri xatırlatdı, açıq havada yerləşən yay estradasının təmir olunduğunu vurğulayaraq dedi ki, cənab prezident, Dövlət Neft Şirkətinin rəhbərliyinin, o cümlədən cənab İlham Əliyevin köməyi ilə İncəsənət muzeyinin də pəncərə və qapılarını təzələyirik. Bu işdə Bakı Şəhər İcra Hakimiyyəti yaxından kömək göstərir.

Abid Şərifov bildirdi ki, bundan sonra elə bir çətin iş qalmamışdır. Sadəcə, kondisionerlər quraşdırılmalıdır. Avadanlığın əksəriyyəti gətirilib və inşaatçılar, quraşdırıcılar bu işləri aprelin 15-dək qurtaracaqlar. Havalar yağmurlu keçdiyinə görə binanın fasadında görüləsi müəyyən işlər qalmışdır. Çünki texniki tələblərə görə, fasadı rəngləmək üçün havanın temperaturu müsbət 15 dərəcədən çox olmalıdır. Salonda İtaliyada hazırlanmış müasir kreslolar qoyulacaqdır. Bərpadan sonra salonda tamaşaçı yerlərinin sayı 515-ə çatdırılacaq ki, bu da əvvəlkindən 50-60 yer çoxdur. Əsas avadanlıq ABŞ, İtaliya, Almaniya, Yaponiya və İngiltərədən gətirilib və quraşdırılır. Sentyabrın əvvəlindən başlanmış bu işlər aprelin 30-dək başa çatdırılacaqdır. İş üç növbədə gedir və burada 800-dək adam çalışır.

Azərbaycan prezidenti Heydər Əliyev Filarmoniyada quraşdırılmış və ən müasir standartlara uyğun səs sistemi ilə yaxından maraqlandı və dedi ki, əvvəllər, belə müasir aparatlar olmayanda da buranın salonunun akustikası yaxşı olmuşdur. İndi siz salonun akustikasını saxlamısınızmı?

**Polad Bülbüloğlu**: Cənab prezident, bəli, saxlanılıbdır.

**Abid Şərifov**: Biz, sadəcə, müasir üsullara uyğun bərpa işləri aparmışıq.

**Polad Bülbüloğlu**: Konsert salonunun akustikası kompyüterlər vasitəsilə tənzimlənəcək, eyni zamanda, videoyazı və digər işləri görmək də mümkün olacaqdır. Cənab prezident, Siz demişdiniz ki, hər şey müasir olmalıdır və işlər ən yeni texnologiyalar əsasında görülür.

Prezident Heydər Əliyev tikinti-bərpa işlərinin gedişi ilə bağlı dəyərli göstəriş və tapşırıqlarını çatdırdı və sonra jurnalistlərin suallarına cavab verdi.

**Sual**: Cənab prezident, Siz indi tikinti-bərpa işlərinin gedişi ilə tanış oldunuz.

Bununla bağlı nə deyə bilərsiniz? Ümumiyyətlə, tapşırıqlarınız yerinə yetirilibmi?

**Heydər Əliyev**: Bəyəndim. Tapşırıqlarım yerinə yetirilir. Abid Şərifov, Polad Bülbüloğlu, səhmdar cəmiyyətin sədri Həmid Rəsulov, bu-

radakı bütün inşaatçılar yaxşı işləyiblər. Təbiidir ki, qısa vaxtda bunu etmək çox çətin idi. Ancaq belədir, mən qəti göstəriş verəndə, nə olursa olsun, işçilərim onu yerinə yetirirlər. Bir də ki, bu Filarmoniya heç vaxt belə olmayıbdır. Ən yaxşı vaxtlarını götürsək, – mənim xatirimdədir, 1940-cı illərdə buraya gəlmişəm, – Filarmoniya heç vaxt belə olmayıbdır. Amma indi gözəl, müasir avadanlıqla təchiz olunmuşdur və Filarmoniyanın fəaliyyəti üçün burada bütün şərait var. Hesab edirəm, bu, xalqımıza, cəmiyyətimizə, incəsənət xadimlərinə bizim böyük töhfəmizdir. Ancaq aprelin 30-dan o tərəfə bir şey qalmamalıdır.

**Polad Bülbüloğlu**: Cənab prezident, hər halda, mayın 9-da burada konsert olmalıdır. Çünki Rostropoviç gələcək, konsert də mayın 9-da olacaqdır.

**Heydər Əliyev**: Mayın 9-da yox, 8-də. Mən dünən Rostropoviçlə danışırdım. O, ayın 7-də buraya gələcək və mayın 8-də konsert verəcəkdir.

**Abid Şərifov**: Cənab prezident, əmin ola bilərsiniz ki, aprelin 30-da tam təhvil veriləcəkdir.

**Heydər Əliyev**: Bəli. Mən özüm Rostropoviçlə axşam danışmışam. Amma o konsertə qədər gərək Filarmoniyanın təntənəli açılışını edək. Ona görə gərək 30-dək qurtarasınız.

**Abid Şərifov**: Cənab prezident, Sizə ayın 30-dək məruzə edərik.

**Heydər Əliyev:** (Jurnalistlərə müraciətlə): Siz necə, bəyəndiniz, xoşunuza gəldi?

**Jurnalistlər**: Cənab prezident, bəli, çox bəyəndik. Siz dediyiniz kimi, əvvəlki ilə müqayisədə müasirlik baxımından müsbət cəhətləri çoxdur.

**Heydər Əliyev**: Yəni mənfi cəhəti də var?!

**Jurnalistlər**: Mənfi yoxdur. Cənab prezident, Sizin tapşırıqlarınızı heç kəs mənfi yerinə yetirə bilməz.

**Heydər Əliyev**: Yaxşı, başqa sualınız yoxdursa, sağ olun.

# AŞIQ ŞƏMŞİRİN 110 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2003-cü ildə Azərbaycan aşıq yaradıcılığının görkəmli nümayəndəsi, əməkdar incəsənət xadimi Şəmşir Qurban oğlu Qocayevin (Aşıq Şəmşirin) anadan olmasının 110 illiyi tamam olur.

Qədim köklərə malik olan Azərbaycan aşıq sənəti ənənələrinin davam etdirilməsi və zənginləşdirilməsində Aşıq Şəmşirin böyük əməyi vardır. Ömrünün 60 ilini öz sənəti ilə xalqa xidmətə həsr edən el şairi aşıq şeirinin ən müxtəlif formalarında gözəl sənət nümunələri yaratmış, canlı həyat lövhələri ilə dolu əsərlərində doğma xalqının fikir və duyğularını yüksək sənətkarlıqla ifadə etmişdir. Şifahi xalq mədəniyyətimizin dərin bilicisi, mahir dastan ifaçısı kimi tanınan söz ustasının bədii yaradıcılığında Azərbaycan təbiətinin gözəllikləri, Vətən sevgisi, torpağa bağlılıq başlıca motivlərdir. Ustad aşığın yaradıcılığı öz qaynağını xalqımızın milli-mənəvi dəyərlərini tərənnüm edən zəngin saz və söz xəzinəsindən, klassik sənətkarlarımızın bədii irsindən alır.

Azərbaycan aşıq sənətinin inkişafında böyük xidmətləri olan Aşıq Şəmşirin 110 illik yubileyinin ölkəmizdə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi və Elmlər Akademiyası Yazıçılar Birliyi ilə birlikdə Aşıq Şəmşirin 110 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsinlər.
2. Azərbaycan Respublikasının Xanlar rayonundakı musiqi məktəbinə Aşıq Şəmşirin adı verilsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyul 2003-cü il*

# İNCƏSƏNƏT XADİMLƏRİNƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MÜKAFATLARININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının İncəsənət xadimləri üçün Azərbaycan Respublikası prezidentinin mükafatlarının təsis edilməsi haqqında" 28 may 2002-ci il tarixli 707 nömrəli fərmanına uyğun olaraq qərara alıram:

1. Səhnə fəaliyyəti ilə bağlı aşağıdakı aparıcı incəsənət xadimlərinə Azərbaycan Respublikası prezidentinin mükafatları verilsin:

**Azərbaycan Respublikası prezidentinin I dərəcəli mükafatı – hər biri ayda iki milyon manat olmaqla**

Abdullayev Ağaxan Minaxan oğlu
Balayev Rasim Əhməd oğlu
Cəfərova Bəsti Əli qızı
Dadaşov Rəfael Məlik oğlu
Duxovnaya Lyudmila Semyonovna
Əliyeva Mədinə Vaqif qızı
Əsədova Məleykə Əlifağa qızı
Əsgərov Əli Rəhim oğlu
Hacıbəyov İsmayıl Soltan oğlu
Xanlarova Zeynəb Yəhya qızı
Kərimova Qərinə Rəhim qızı
Qasımov Alim Həmzə oğlu
Qasımova Fidan Əkrəm qızı
Qasımova Xuraman Əkrəm qızı
Qədirov Əlabbas Gülabbas oğlu
Quliyev Nurəddin Əzulla oğlu
Nuriyev Yaşar Məmmədsadıq oğlu
Poladov Fuad Ağarəhim oğlu
Şarovski Aleksandr Yakovleviç

**Azərbaycan Respublikası prezidentinin II dərəcəli mükafatı – hər biri ayda bir milyon beş yüz min manat olmaqla**

Ağakişiyeva Zərnigar Fəti qızı
Atakişiyev Hüseynağa Ağahüseyn oğlu
Enami Oliya Həsən Əliabbas oğlu
Əhədzadə Elxan Yəhya oğlu
Əlizadə Rəhman Balarza oğlu
Fərzəlibəyov Mərahim Fərzəli oğlu
Xanızadə Bəxtiyar Oqtay oğlu
İbrahimov Mənsum İsrafil oğlu
İsmayılov Hacı Məcid oğlu
İsmayılova Səkinə Qulu qızı
Kərimov Loğman Seyfulla oğlu
Quliyev Kamran Məmmədqulu oğlu
Quliyev Ramiz Əyyub oğlu
Qurbanova Solmaz Cəbrayıl qızı
Məlikov Ramiz Ağarza oğlu
Məmmədova Gülyanaq Zakir qızı
Məmmədova Gülyaz Zakir qızı
Muradova Təranə Hüseyn qızı
Mustafayeva Laləzar Bəşir qızı
Mütəllimova Firəngiz Bəhər qızı
Nemətov Azər Paşa Zəfər oğlu
Novruzov Ramiz Qəvvam oğlu
Paşayev Ağaverdi Ağa Əli oğlu
Səfərova Afaq Bəşir qızı
Vinoqradova Larisa Afanasyevna

**Azərbaycan Respublikası prezidentinin III dərəcəli mükafatı – hər biri ayda bir milyon manat olmaqla**

Adıgözəlov Telman Abbasqulu oğlu
Bayramova Cəmilə Əsədulla qızı
Bünyatova Tamella Faiq qızı
Eyvazova Şəfiqə Alxaz qızı
Əliyev Novruz Yaqub oğlu

Əliyeva Kubrabəyim Ağa qızı
Əsədov Vaqif Firidun oğlu
Əyyubova Mələkxanım Yadigar qızı
Əzimov Rafiq Əşrəf oğlu
Həşimzadə Xanlar Allahverdi oğlu
Hüseynov Elxan Ağahüseyn oğlu
Xudaverdiyev Kamal Ağahüseyn oğlu
Xudiyev Rza Əli oğlu
İsgəndərov Saqif Sarı oğlu
İsgəndərova Sənubər Sabir qızı
Kərimov Valeh Seyfulla oğlu
Qafarova Xanım Abdulqafar qızı
Qasımova Aida Ələkbər qızı
Quliyev Arif Əli oğlu
Quliyev Şahlar Həsənağa oğlu
Məhərrəmov Məbud Ələsgər oğlu
Məmmədrzayev Pərviz Müzəffər oğlu
Mirzəhəsənov Hüseyn Səfa Qvaməddinoviç
Musayeva Şükufə İmran qızı
Nəsirova Hicran Fətəli qızı
Nəsirova Ulduzə Süleyman qızı
Poladov Əkrəm Nicat oğlu
Teymurova Nəzakət Xosrov qızı
Zeynalov Elşad Allahverdi oğlu
Zəkiyeva Mehriban Mürvət qızı

2. Bu sərəncam 2003-cü il iyul ayının 1-dən qüvvəyə minmiş hesab edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyul 2003-cü il*

# AZƏRBAYCAN RESPUBLİKASININ ŞİRVAN VƏ AĞGÖL MİLLİ PARKLARININ YARADILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Ətraf mühitin mühafizəsi, ondan səmərəli istifadə olunması, nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növlərinin qorunub saxlanılması, respublikanın xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin inkişaf etdirilməsi məqsədi ilə və "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci və 21-ci maddələrini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Bakı şəhəri Qaradağ rayonu, Salyan və Neftçala rayonları inzibati ərazilərinin əlavə olunan xəritədə göstərilmiş 54373,5 hektarlıq sahəsində Azərbaycan Respublikasının Şirvan Milli Parkı yaradılsın.

2. Azərbaycan Respublikasının Ağcabədi və Beyləqan rayonları inzibati ərazilərinin əlavə olunan xəritədə göstərilmiş 17924 hektarlıq sahəsində Azərbaycan Respublikasının Ağ göl Milli Parkı yaradılsın.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

4.Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyul 2003-cü il*

## T.İ.SİNYAVSKAYANIN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Rusiya–Azərbaycan mədəni əlaqələrinin möhkəmləndirilməsindəki xidmətlərinə görə Tamara İlyiniçna Sinyavskaya "Şöhrət" ordeni ilə təltif edilsin.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyul 2003-cu il*

## AZƏRBAYCAN RESPUBLİKASININ XALQ ARTİSTİ TAMARA SİNYAVSKAYAYA

*Bakı şəhəri*
*5 iyul 2003-cü il*

Əziz Tamara İlyiniçna!

Sizi – görkəmli müğənnini və gözəl insanı əlamətdar yubileyiniz münasibətilə təbrik edir, Sizə səadət, cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

Heyrətamiz gözəlliyə və nadir tembrə malik səsiniz demək olar, qırx ildir teatr və konsert səhnələrindən gələrək, istedadınızın pərəstişkarlarının sayını artırır. Sənətdə ilk addımlarınız mötəbər beynəlxalq müsabiqələrin bir sıra mükafatları ilə dərhal qeyd olunmuşdur. Bütün sonrakı fəaliyyətiniz isə belə bir əbədi həqiqəti bir daha təsdiqləmişdir ki, insanların yaddaşında doğrudan da ulduzlara bürünmüş iz buraxmağa ancaq fitri istedadla, olduqca böyük əməksevərliyin və yüksək sənətə fədakarcasına xidmət etmək arzusunun ahəngdar surətdə birləşdiyi mədəniyyət xadimləri qadirdirlər.

Sizin parlaq şəxsiyyətinizə Azərbaycanda xüsusi məhəbbət və hörmət bəsləyirlər. Azərbaycana hər bir gəlişiniz böyük sənət bayramı kimi qarşılanır. Sizi zəmanəmizin görkəmli müğənnisi Müslüm Maqomayevlə bağlayan ailə və yaradıcılıq telləri də buna kömək edir. Artıq neçə illərdir ki, Sizin ailə duetiniz yaradıcılığınızı qiymətləndirənlərin hamısına çox böyük sevinc bəxş edir və sözsüz, Rusiya–Azərbaycan mədəni əlaqələrinin inkişafına öz töhfəsini verir.

Sizə uzun ömür diləyirəm.

Hörmətlə,

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

# “ŞABRAN ŞƏHƏRİ” TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏSİNİN QORUNMASI HAQQINDA

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Əsası eramızdan əvvəl I minilliyin ortalarında qoyulduğu ehtimal edilən Şabran şəhəri Azərbaycanın möhtəşəm qədim şəhərlərindən biri olmuşdur. Şamaxı yüksələnədək Şabran şəhəri Şirvanşahlar dövlətinin paytaxtı idi. Böyük İpək yolu üzərində yerləşən bu şəhər iqtisadi, ticarət və mədəni mərkəz kimi diqqət mərkəzində olmuşdur. Tədricən iqtisadi çətinliklərlə qarşılaşan və tez-tez yadellilərin basqınlarına məruz qalan Şabran XVIII əsrin ortalarında tarix səhnəsindən silinmişdir.

Keçən əsrin 30-cu illərindən başlayaraq həyata keçirilən elmi tədqiqatlar və 5000 $m^2$-dən çox ərazidə aparılan arxeoloji qazıntılar xalqımızın maddi və mənəvi mədəniyyətini əks etdirən zəngin arxeoloji materiallar əldə etməyə imkan vermişdir. Şabranda tarixi mənbələrdə göstərilən 12 qalasından ikisi, atəşpərəstlər məbədi, zərbxana, həbsxana, XI–XIV əsrlərə aid küçələr, sənətkarlıq məhəllələri, 3000-ə qədər numizmatika nümunəsi, arxeoloji ədəbiyyatda analoqu əks etdirilməyən yeni arxeoloji tapıntılar üzə çıxarılmışdır.

Şabran şəhərinin bərpası və qorunması haqqında hələ XX əsrin 80-ci illərində Azərbaycan Elmlər Akademiyası tərəfindən məsələ qaldırılsa da, indiyədək öz həllini tapmamışdır.Hal-hazırda Şabran şəhərinin yerindəki 5 qazıntı sahəsindən yalnız biri qalmış, aşkara çıxarılan tikinti və memarlıq abidələri dağılıb bərbad hala düşmüşdür, arxeoloji qazıntı ərazisindəki torpaq sahələri isə əhaliyə paylanmışdır.

“Şabran şəhəri” tarix və mədəniyyət abidəsinin qorunub gələcək nəsillər üçün saxlanmasını və mühafizəsini təmin etmək məqsədi ilə **qərara alıram**:

1. “Şabran şəhəri” tarix və mədəniyyət abidəsi tarixi qoruq elan edilsin. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

– bir ay müddətində “Şabran şəhəri” tarixi qoruğunun mühafizə zolağını əks etdirməklə onun xəritə təsvirini təsdiq etsin;

– Azərbaycan Milli Elmlər Akademiyasının rəyi nəzərə alınmaqla Şabran şəhəri qalığının konservasiyasına dair tədbirlər planını iki ay müddətində təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının prezidentinə məlumat versin;

– "Şabran şəhəri" tarixi qoruğunda elmi-tədqiqat işlərinin aparılması üçün Azərbaycan Milli Elmlər Akademiyasına müvafiq vəsait ayrılmasını təmin etsin.

3. Azərbaycan Milli Elmlər Akademiyası Şabran şəhərinin Azərbaycan orta əsr şəhərləri arasında seçilməsini nəzərə alaraq onun qalıqlarının arxeoloji cəhətdən daha geniş öyrənilməsi üçün tədbirlər görsün, Şabran şəhəri haqqında elmi-tədqiqat əsərlərinin nəşrini və müxtəlif dillərə tərcüməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyinə tapşırılsın ki, "Şabran şəhəri" tarixi qoruğu haqqında müxtəlif dillərdə bukletlər nəşr etsin və qoruğun beynəlxalq turizm marşrutuna salınması və oraya turistlərin cəlb edilməsi üçün müvafiq tədbirlər görsün.

5. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə və Dəvəçi Rayon İcra Hakimiyyətinə tapşırılsın ki, "Şabran şəhəri" tarixi qoruğunun qorunub saxlanmasını və mühafizəsini təmin etsinlər.

6. Dəvəçi Rayon İcra Hakimiyyəti rayonun hüquq-mühafizə orqanları ilə birlikdə "Şabran şəhəri" tarixi qoruğunun ərazisində onun konservasiyası ilə bağlı olmayan hər hansı tikinti və təsərrüfat işləri aparılmasının qarşısının alınmasını təmin etsin.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*27 sentyabr 2003-cü il*

# KİTABIN İÇİNDƏKİLƏR

XALQ ARTİSTİ LEYLA BƏDİRBƏYLİYƏ
*Bakı şəhəri, 7 yanvar 1999-cu il*......5

XALQ YAZIÇISI RÜSTƏM İBRAHİMBƏYOVA
*Bakı şəhəri, 4 fevral 1999-cu il*......6

P.M.İBRAHİMBƏYOVUN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*Bakı şəhəri, 4 fevral 1999-cu il*......7

XALQ YAZIÇISI, MƏŞHUR KİNO XADİMİ RÜSTƏM İBRAHİMBƏYOVUN 60 İLLİYİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ ÇIXIŞ
*"Gülüstan" sarayı, 5 fevral 1999-cu il*......8

"KİTABİ–DƏDƏ QORQUD" DASTANININ 1300 İLLİK YUBİLEYİ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ İCLASINDA GİRİŞ SÖZÜ
*Prezident sarayı, 16 fevral 1999-cu il*......16

XALQ ARTİSTİ SÜLEYMAN ƏLƏSGƏROVA
*Bakı şəhəri, 21 fevral 1999-cu il*......24

O.S.SADIQZADƏNİN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*Bakı şəhəri, 27 fevral 1999-cu il*......25

XALQ RƏSSAMI OQTAY SADIQZADƏYƏ
*Bakı şəhəri, 27 fevral 1999-cu il*......26

GÖRKƏMLİ QAZAX YAZIÇISI, QAZAXISTANIN İTALİYA VƏ YUNANISTANDAKI SƏFİRİ OLJAS SÜLEYMENOVLA GÖRÜŞDƏKİ SÖHBƏT
*Prezident sarayı, 4 mart 1999-cu il*......28

AZƏRBAYCAN RESPUBLİKASININ ELM, MƏDƏNİYYƏT, İNCƏSƏNƏT XADİMLƏRİNƏ, İCTİMAİ XADİMLƏRƏ AZƏRBAYCAN DÖVLƏTİNİN YÜKSƏK MÜKAFATLARININ – ORDENLƏRİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ
*Prezident iqamətgahı, 7 mart 1999-cu il*......33

AZƏRBAYCANDA KEÇİRİLƏN DAĞISTAN MƏDƏNİYYƏT GÜNLƏRİNDƏ DAĞISTAN İNCƏSƏNƏT USTALARININ KONSERTİNƏ BAXDIQDAN SONRA YARADICI KOLLEKTİVLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*Respublika sarayı, 12 mart 1999-cu il* ........................................................ 45

XALQ RƏSSAMI OQTAY SADIQZADƏ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*Prezident sarayı, 13 mart 1999-cu il* ......................................................... 48

AZƏRBAYCANDA DAĞISTAN MƏDƏNİYYƏTİ GÜNLƏRİ
*14 mart 1999-cu il* ...................................................................................... 50

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV XALQ RƏSSAMI OQTAY SADIQZADƏNİ QƏBUL ETMİŞDİR
*14 mart 1999-cu il* ...................................................................................... 52

TANINMIŞ FRANSIZ MODELYERİ PAKO RABANI QƏBUL EDƏRKƏN
*20 mart 1999-cu il* ...................................................................................... 54

“BAKILI OĞLANLAR”IN YENİ YUMOR KOLLEKSİYASI AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV BAKININ ŞƏN VƏ HAZIRCAVABLAR KLUBU KOMANDASININ KONSERTİNDƏ OLMUŞDUR
*6 aprel 1999-cu il* ....................................................................................... 56

“KİTABİ–DƏDƏ QORQUD” DASTANININ 1300 İLLİK YUBİLEYİ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ NÖVBƏTİ İCLASINDA GİRİŞ SÖZÜ
*Prezident sarayı, 8 aprel 1999-cu il* ........................................................... 59

GÖRKƏMLİ ALİM, AKADEMİK ZƏRİFƏ ƏLİYEVAYA HƏSR EDİLMİŞ "ZƏRİFƏ XANIM ƏLİYEVA" KİTAB–ALBOMUNUN TƏQDİMAT MƏRASİMİNDƏ ÇIXIŞ
*Rəşid Behbudov adına Dövlət Mahnı Teatrı, 14 aprel 1999-cu il* ................. 67

“VAŞİNQTON–POST” QƏZETİNİN JURNALİSTLƏRİ İLƏ GÖRÜŞ VAŞİNQTON, “MONARX” OTELİ
*26 aprel 1999-cu il* ..................................................................................... 69

MƏŞHUR MÜĞƏNNİ YAQUB ZURUFÇU İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*Klivlend şəhəri, "Omni" hoteli, 16 may 1999-cu il* ........................................ 79

MUSTAFA KAMAL ATATÜRKÜN
ÇANKAYA KÖŞKÜNDӘKİ EV MUZEYİNDӘ
*24 may 1999-cu il* ........................................................................81

RUSİYANIN NTV TELEKANALININ
MÜXBİRİNӘ MÜSAHİBӘ
*London, 19 may 1999-cu il*..........................................................82

Bİ-Bİ-Sİ RADİOSUNUN MÜXBİRİNӘ MÜSAHİBӘ
*London, 20 may 1999-cu il*..........................................................86

TÜRKİYӘNİN "NӘRGİZ-TV" TELEKANALININ
MÜXBİRİNӘ MÜSAHİBӘ ANKARA, ÇANKAYA KÖŞKÜ
*23 may 1999-cu il* ........................................................................88

MӘŞHUR RUSİYA RӘSSAMI NİKAS SAFRONOV
İLӘ GÖRÜŞDӘKİ SÖHBӘTDӘN
*Prezident sarayı, 29 iyun 1999-cu il* ............................................93

AZӘRBAYCAN RESPUBLİKASI ӘSİLZADӘLӘR MӘCLİSİNİN
SӘDRİ, XALQ YAZIÇISI, MİLLİ MӘCLİSİN DEPUTATI MAQSUD
İBRAHİMBӘYOV İLӘ GÖRÜŞDӘKİ SÖHBӘTDӘN
*Prezident sarayı, 7 iyul 1999-cu il*...............................................99

AZӘRBAYCAN PREZİDENTİ HEYDӘR ӘLİYEV RESPUBLİKA
ӘSİLZADӘLӘR MӘCLİSİNİN SӘDRİ, XALQ YAZIÇISI MAQSUD
İBRAHİMBӘYOVU QӘBUL ETMİŞDİR
*8 iyul 1999-cu il*..........................................................................100

SSRİ XALQ ARTİSTİ MAHMUD ESEMBAYEVӘ
*Bakı şәhәri, 15 iyul 1999-cu il*...................................................101

DÜNYA ESTRADASININ ULDUZLARINDAN BİRİ MӘŞHUR İSPANİYA
MÜĞӘNNİSİ XULİO İQLESİAS İLӘ GÖRÜŞDӘKİ SÖHBӘTDӘN
*24 iyul 1999-cu il* .......................................................................102

XULİO İQLESİASI QӘBUL EDӘRKӘN
*25 iyul 1999-cu il* .......................................................................105

AZӘRBAYCAN PREZİDENTİ HEYDӘR ӘLİYEV
XALQ ARTİSTLӘRİ MÜSLÜM MAQOMAYEVİ VӘ
TAMARA SİNYAVSKAYANI QӘBUL ETMİŞDİR
*28 iyul 1999-cu il* .......................................................................108

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TANINMIŞ MÜĞƏNNİ YAQUB ZURUFÇUNU QƏBUL ETMİŞDİR
*29 iyul 1999-cu il* ........................................................................ *114*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TANINMIŞ MÜĞƏNNİ YAQUB ZURUFÇUNU QƏBUL ETMİŞDİR
*30 iyul 1999-cu il* ........................................................................ *115*

BAKIDA KLASSİK MUSİQİ FESTİVALININ AÇILIŞI
*19 sentyabr 1999-cu il* .................................................................. *132*

«MUSİQİNİN BÖYÜK İPƏK YOLU» BİRİNCİ BAKI KLASSİK MUSİQİ FESTİVALINA
*Bakı şəhəri, 18 sentyabr 1999-cu il* ................................................ *133*

GÜRCÜSTAN KİNEMATOQRAFÇILAR İTTİFAQININ KATİBİ LOMER AXVLEDİANİNİ VƏ KİNOREJİSSOR VAQİF MUSTAFAYEVİ QƏBUL EDƏRKƏN
*27 sentyabr 1999-cu il* .................................................................. *135*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV QƏRB–ŞƏRQ ÜÇÜNCÜ BAKI–KİNOFESTİVALININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR
*8 oktyabr 1999-cu il* .................................................................... *150*

CƏLİL MƏMMƏDQULUZADƏNİN EV-MUZEYİNİN AÇILIŞ MƏRASİMİ
*Naxçıvan, 13 oktyabr 1999-cu il* ..................................................... *161*

NAXÇIVANDA MÖMÜNƏ XATUN TÜRBƏSİNİ ZİYARƏT EDƏRKƏN
*14 oktyabr 1999-cu il* .................................................................... *173*

A.F.QƏDİMOVA "ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*17 oktyabr 1999-cu il* .................................................................... *177*

AZƏRBAYCAN PREZİDENTİ BİR QRUP YAZIÇI VƏ ŞAİRİ QƏBUL ETMİŞDİR
*Prezident sarayı, 10 noyabr 1999-cu il* ............................................ *178*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV MSTİSLAV ROSTROPOVİÇİ QƏBUL ETMİŞDİR PREZİDENT SARAYI
*22 noyabr 1999-cu il* .................................................................... *212*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV GÖRKƏMLİ MUSİQİÇİ MSTİSLAV ROSTROPOVİÇİN İŞTİRAKI İLƏ KONSERTDƏ OLMUŞDUR
*Respublika sarayı, 26 noyabr 1999-cu il* ........................................ *218*

AZƏRBAYCAN RESPUBLİKASININ ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT XADİMLƏRİNƏ FƏRDİ TƏQAÜDLƏR VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI
*Bakı şəhəri, 6 dekabr 1999-cu il* ........................................ *219*

AZƏRBAYCAN DÖVLƏT AKADEMİK OPERA VƏ BALET TEATRININ BALET TRUPPASININ İŞÇİLƏRİNİN SOSİAL TƏMİNATINI YAXŞILAŞDIRMAQ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI
*Bakı şəhəri, 6 dekabr 1999-cu il* ........................................ *220*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV NƏBİ XƏZRİNİN "BURLA XATUN" PYESİNİN TAMAŞASINDA OLMUŞDUR
*Milli Dram Teatrı, 12 dekabr 1999-cu il* ........................................ *221*

Ə.P.DİLBAZİNİN "İSTİQLAL" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*Bakı şəhəri, 25 dekabr 1999-cu il* ........................................ *227*

XALQ ARTİSTİ ƏMİNƏ XANIM DİLBAZİYƏ
*Bakı şəhəri, 25 dekabr 1999-cu il* ........................................ *228*

"AZƏRBAYCAN–2000" KİTABININ NƏŞRİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI
*Bakı şəhəri, 28 dekabr 1999-cu il* ........................................ *229*

BEYNƏLXALQ "SÜLH MƏDƏNİYYƏTİ İLİ"-NİN AZƏRBAYCAN RESPUBLİKASINDA QEYD EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI
*Bakı şəhəri, 28 dekabr 1999-cu il* ........................................ *230*

K.N.NƏCƏFZADƏNİN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*Bakı şəhəri, 28 dekabr 1999-cu il* ........................................ *232*

XALQ RƏSSAMI KAMİL NƏCƏFZADƏYƏ
*Bakı şəhəri, 28 dekabr 1999-cu il* ........................................ *233*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV GƏNC MÜĞƏNNİ SURXAY ƏSGƏROVU VƏ ONUN ATASINI, ÖLKƏMİZİN SƏKKİZ MİLYONUNCU VƏTƏNDAŞININ VALİDEYNLƏRİNİ QƏBUL ETMİŞDİR
*Prezident sarayı, 31 dekabr 1999-cu il* ....................................................234

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV AZƏRBAYCAN GƏNCLƏRİ GÜNÜNƏ HƏSR EDİLMİŞ BAYRAM GECƏSİNDƏ İŞTİRAK ETMİŞDİR
*Respublika sarayı, 2 fevral 2000-ci il*.......................................................239

AZƏRBAYCANIN XALQ ARTİSTİ BƏSTƏKAR POLAD BÜLBÜLOĞLUNA
*Bakı şəhəri, 4 fevral 2000-ci il*...............................................................240

Ə.B.MƏMMƏDOVUN «ŞÖHRƏT» ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*Bakı şəhəri, 4 fevral 2000-ci il*...............................................................241

XALQ ARTİSTİ ƏLİBABA MƏMMƏDOVA
*Bakı şəhəri, 4 fevral 2000-ci il*...............................................................242

XALQ ARTİSTİ QƏMƏR XANIM ALMASZADƏYƏ
*Bakı şəhəri, 9 mart 2000-ci il*.................................................................243

C.X.ƏKBƏROVUN «ŞÖHRƏT» ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*Bakı şəhəri, 9 mart 2000-ci il*.................................................................245

XALQ ARTİSTİ CANƏLİ ƏKBƏROVA
*Bakı şəhəri, 9 mart 2000-ci il*.................................................................246

Z.M.HƏMZƏYEVANIN «ŞÖHRƏT» ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*Bakı şəhəri, 27 mart 2000-ci il* ..............................................................247

XALQ ARTİSTİ ZƏROŞ XANIM HƏMZƏYEVAYA
*Bakı şəhəri, 27 mart 2000-ci il* ..............................................................248

QƏDİM, MÖHTƏŞƏM, ZƏNGİN, ƏBƏDİYAŞAR MƏDƏNİYYƏT ABİDƏMİZİN YUBİLEYİ
*9 aprel 2000-ci il* ....................................................................................249

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BAKI TÜRK ŞƏHİDLİYİNİN VƏ XATİRƏ ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQİ
*9 aprel 2000-ci il*..........250

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV XALQ ARTİSTLƏRİ FİDAN VƏ XURAMAN QASIMOVA BACILARININ İŞTİRAKI İLƏ KEÇİRİLƏN KONSERTDƏ OLMUŞDUR
*Respublika sarayı, 21 aprel 2000-ci il*..........253

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV VƏ GÖRKƏMLİ ALİM İHSAN DOĞRAMACI «QIZ QALASI» TAMAŞASINA BAXMIŞLAR
*Akademik Opera və Balet Teatrı*
*25 aprel 2000-ci il*..........255

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV NƏSİMİ RAYONUNDAKI YENİ PARKLA TANIŞ OLMUŞDUR
*Bakı şəhəri, 28 aprel 2000-ci il*..........259

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV AKADEMİK ZƏRİFƏ ƏLİYEVA ADINA İSTİRAHƏT PARKININ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR
*Bakı şəhəri, 28 aprel 2000-ci il*..........264

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV «BAKILI OĞLANLAR» KOMANDASININ KONSERTİNDƏ OLMUŞDUR
*Respublika sarayı, 5 may 2000-ci il*..........271

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV AZƏRBAYCAN AKADEMİK MİLLİ DRAM TEATRINDA «AYDIN» PYESİNİN YENİ QURULUŞDA TAMAŞASINA BAXMIŞDIR
*Akademik Milli Dram Teatrı, 7 may 2000-ci il*..........273

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV XALQ ARTİSTİ NƏSİBƏ ZEYNALOVANI QƏBUL ETMİŞDİR
*Prezident sarayı, 20 may 2000-ci il*..........278

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV DAHİ ŞAİR VƏ MÜTƏFƏKKİR NİZAMİ GƏNCƏVİNİN MƏQBƏRƏSİNİ ZİYARƏT ETMİŞDİR
*Gəncə şəhəri, 24 may 2000-ci il*..........279

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV
RESPUBLİKA GÜNÜNƏ HƏSR OLUNMUŞ
BÖYÜK BAYRAM KONSERTİNDƏ OLMUŞDUR
*Respublika sarayı, 27 may 2000-ci il*........................................................*292*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV ÇUVAŞİYANIN
XALQ YAZIÇISI MİŞŞİ YUXMANI QƏBUL ETMİŞDİR
*Prezident sarayı, 17 iyun 2000-ci il* ........................................................*294*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TANINMIŞ
RUSİYA MODELYERİ VALENTİN YUDAŞKİNİ VƏ FƏXRİYYƏ
XƏLƏFOVANI QƏBUL ETMİŞDİR
*Prezident sarayı, 23 iyun 2000-ci il* ........................................................*304*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV AZƏRBAYCAN
DÖVLƏT AKADEMİK MİLLİ DRAM TEATRININ
“AH, PARİS... PARİS...” TAMAŞASINDA OLMUŞDUR
*Akademik Milli Dram Teatrı, 25 iyun 2000-ci il* .....................................*310*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA
RUSİYA FEDERASİYASININ VƏ MOSKVA ŞƏHƏRİNİN MƏDƏNİYYƏT
GÜNLƏRİNİN BAĞLANIŞINDA İŞTİRAK ETMİŞDİR
*Respublika sarayı, 30 iyun 2000-ci il* .....................................................*320*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV AVSTRİYADA
VYANA MOTSART ORKESTRİNİN KONSERTİNDƏ OLMUŞDUR
VYANA, HOFBURQ KRAL SARAYI
*5 iyul 2000-ci il* ........................................................................................*324*

X.H.MİRZƏZADƏNİN “ŞÖHRƏT” ORDENİ İLƏ TƏLTİF
EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI
PREZİDENTİNİN FƏRMANI
*Bakı şəhəri, 4 oktyabr 2000-ci il* ...........................................................*326*

XALQ ARTİSTİ XƏYYAM MİRZƏZADƏYƏ
*Bakı şəhəri, 4 oktyabr 2000-ci il* ...........................................................*327*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV
MÜASİR DÖVRÜN GÖRKƏMLİ MUSİQİÇİSİ
MSTİSLAV ROSTROPOVİÇİ QƏBUL ETDİ
*Prezident sarayı, 7 oktyabr 2000-ci il* ....................................................*328*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV GÖRKƏMLİ
MUSİQİÇİ MSTİSLAV ROSTROPOVİÇ İLƏ KONSERTDƏ OLMUŞDUR
*Respublika sarayı, 9 oktyabr 2000-ci il*...................................................*331*

AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT XADİMLƏRİNƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*Bakı şəhəri, 28 oktyabr 2000-ci il*............................................................333

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV RUSİYA ESTRADASININ ULDUZU ALLA PUQAÇOVANIN KONSERTİNDƏ İŞTİRAK ETMİŞDİR
*Respublika sarayı, 12 noyabr 2000-ci il*..................................................337

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV XEYRİYYƏ KONSERTİNDƏ İŞTİRAK ETMİŞDİR
*Respublika sarayı, 25 noyabr 2000-ci il*..................................................339

T.BAKIXANOVUN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*Bakı şəhəri, 7 dekabr 2000-ci il*............................................................342

XALQ ARTİSTİ TOFİQ BAKIXANOVA
*Bakı şəhəri, 7 dekabr 2000-ci il*............................................................343

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV "AZƏRBAYCANDA MƏCBURİ KÖÇKÜNLƏR: AVTOPORTRET" FOTOSƏRGİSİNİN AÇILIŞINDA İŞTİRAK ETDİ. AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ
*R.Mustafayev adına Dövlət İncəsənət Muzeyi 8 dekabr 2000-ci il*............................................................344

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN UŞAQLARIN BEYNƏLXALQ TELEVİZİYA VƏ RADİO GÜNÜ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN ŞƏNLİKDƏ NİTQİ
*Teleteatr, 10 dekabr 2000-ci il*............................................................349

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV IV BEYNƏLXALQ "ŞƏRQ–QƏRB" BAKI KİNOFESTİVALININ AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR
*Respublika sarayı, 18 dekabr 2000-ci il*..................................................355

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV "BAKILI OĞLANLAR" KOMANDASININ ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR
*Prezident sarayı, 30 dekabr 2000-ci il*..................................................364

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKSOY-UN TOPLANTISININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR
*Prezident sarayı, 16 yanvar 2001-ci il* ........................................ *380*

XALQ ARTİSTİ NƏSİBƏ XANIM ZEYNALOVAYA
*Bakı şəhəri, 19 aprel 2001-ci il* ........................................ *382*

X.Ə.QASIMOVANIN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*Bakı şəhəri, 5 iyun 2001-ci il* ........................................ *383*

XALQ ARTİSTİ XURAMAN QASIMOVAYA
*Bakı şəhəri, 5 iyun 2001- ci il* ........................................ *384*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV "BAKILI OĞLANLAR" KOMANDASININ KONSERTİNDƏ OLMUŞDUR
*Respublika sarayı, 10 iyun 2001-ci il* ........................................ *385*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV GÖRKƏMLİ ELM, MƏDƏNİYYƏT VƏ İDMAN XADİMLƏRİNİN BİR QRUPUNA "İSTİQLAL" VƏ "ŞÖHRƏT" ORDENLƏRİNİ TƏQDİM ETMİŞDİR
*Prezident sarayı, 6 iyul 2001-ci il* ........................................ *389*

XAN ŞUŞİNSKİNİN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI
*Bakı şəhəri, 20 iyul 2001-ci il* ........................................ *403*

"TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN MÜHAFİZƏSİ VƏ ONLARDAN İSTİFADƏ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN QÜVVƏDƏN DÜŞMÜŞ HESAB EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU
*Bakı şəhəri, 5 oktyabr 2001-ci il* ........................................ *404*

"KİTABXANA İŞİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQİ İLƏ ƏLAQƏDAR "MƏDƏNİYYƏT HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU
*Bakı şəhəri, 12 oktyabr 2001-ci il* ........................................ *405*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV DAHİ SƏNƏTKAR RƏŞİD BEHBUDOVUN XATİRƏ GECƏSİNDƏ İŞTİRAK ETMİŞDİR
*Respublika sarayı, 13 oktyabr 2001-ci il* ........................................ *406*

AZƏRBAYCAN DÖVLƏT RƏQS ANSAMBLININ İŞÇİLƏRİNİN SOSİAL TƏMİNATININ YAXŞILAŞDIRILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI
*Bakı şəhəri, 15 oktyabr 2001-ci il*..............................................................419

R.H.MUSTAFAYEVİN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*Bakı şəhəri, 15 oktyabr 2001-ci il*..............................................................420

XALQ ARTİSTİ RAMİZ MUSTAFAYEVƏ
*Bakı şəhəri, 15 oktyabr 2001-ci il*..............................................................421

Y.M.MƏMMƏDOVUN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*Bakı şəhəri, 3 dekabr 2001-ci il*..................................................................422

XALQ ARTİSTİ YAQUB MƏMMƏDOVA
*Bakı şəhəri, 3 dekabr 2001-ci il*..................................................................423

AZƏRBAYCAN RESPUBLİKASININ ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT XADİMLƏRİNƏ FƏRDİ TƏQAÜDLƏR VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI
*Bakı şəhəri, 12 dekabr 2001-ci il*................................................................424

A.XƏLƏFOVA "ƏMƏKDAR ELM XADİMİ" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*Bakı şəhəri, 24 dekabr 2001-ci il*................................................................425

"BİRGƏ KİNO İSTEHSALI HAQQINDA" AVROPA KONVENSİYASI ÜZRƏ AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN SƏLAHİYYƏTLİ ORQANIN TƏYİN EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2000-Cİ İL 15 İYUL TARİXLİ 475 NÖMRƏLİ SƏRƏNCAMINA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI
*Bakı şəhəri, 7 yanvar 2002-ci il*..................................................................426

M.L.ROSTROPOVİÇİN "İSTİQLAL" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*Bakı şəhəri, 3 mart 2002-ci il*.....................................................................427

Y.S.QUSMANA "AZƏRBAYCAN RESPUBLİKASININ XALQ ARTİSTİ" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*Bakı şəhəri, 9 mart 2002-ci il*......428

A.S.VƏKİLOVAYA "ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASL PREZİDENTİNİN FƏRMANI
*Bakı şəhəri, 9 mart 2002-ci il*......429

T.Z.MAHMUDOVANIN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*Bakı şəhəri, 2 aprel 2002-ci il*......430

XALQ ARTİSTİ TAMELLA MAHMUDOVAYA
*Bakı şəhəri, 2 aprel 2002-ci il*......431

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA RUSİYA FEDERASİYASI MƏDƏNİYYƏTİ GÜNLƏRİNİN TƏNTƏNƏLİ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR
*Respublika sarayı, 23 aprel 2002-ci il*......432

TƏSVİRİ SƏNƏT XADİMLƏRİNƏ AZƏRBAYCAN RESPUBLİKASI FƏXRİ ADLARININ VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*Bakı şəhəri, 30 may 2002-ci il*......435

SANKT-PETERBURQDA DAHİ AZƏRBAYCAN ŞAİRİ NİZAMİ GƏNCƏVİNİN ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİ
*9 iyun 2002-ci il*......437

BƏHRUZ KƏNGƏRLİ MUZEYİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ
*18 iyun 2002-ci il*......442

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV AZƏRBAYCAN KİNOSU GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR
*Respublika sarayı, 2 avqust 2002-ci il*......450

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV GÖRKƏMLİ MÜĞƏNNİ VƏ BƏSTƏKAR M.MAQOMAYEVƏ "İSTİQLAL" ORDENİNİ TƏQDİM ETMİŞDİR
*Prezident sarayı, 7 sentyabr 2002-ci il*......453

"TELEVİZİYA VƏ RADİO YAYIMI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*Bakı şəhəri, 5 oktyabr 2002-ci il*......460

İRAN RƏSSAMI VƏDUD MÜƏZZİNİN FƏRDİ SƏRGİSİNİN AÇILIŞINDA AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ
*10 oktyabr 2002-ci il*......462

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV BAKIDA HÜSEYN CAVİDİN EV-MUZEYİNİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR
*Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*24 oktyabr 2002-ci il*......466

DÜNYA ŞÖHRƏTLİ DİRİJOR VƏ GÖRKƏMLİ BƏSTƏKAR NİYAZİNİN 90 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY GECƏSİNDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ
*Respublika sarayı, 6 dekabr 2002-ci il*......477

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV XALQ ARTİSTİ FİDAN VƏ XURAMAN QASIMOVALARI QƏBUL ETMİŞDİR
*Prezident sarayı, 12 dekabr 2002-ci il*......495

AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİNİN GÖRKƏMLİ NÜMAYƏNDƏLƏRİ FİDAN VƏ XURAMAN QASIMOVALARIN YARADICILIĞININ 25 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ
*Respublika sarayı, 20 dekabr 2002-ci il*......499

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV DÜNYA VOKAL SƏNƏTİNİN MƏŞHUR USTALARI, XALQ ARTİSTLƏRİ MÜSLÜM MAQOMAYEVİ VƏ TAMARA SİNYAVSKAYANI QƏBUL ETMİŞDİR
*Prezident sarayı, 21 dekabr 2002-ci il*......505

AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT XADİMLƏRİNƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*Bakı şəhəri, 24 dekabr 2002-ci il*......506

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV DÖVLƏT FİLARMONİYASINDA TİKİNTİ-BƏRPA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR
*Azərbaycan Dövlət Filarmoniyası*
*29 mart 2003-ci il*......509

AŞIQ ŞƏMŞİRİN 110 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI
*Bakı şəhəri, 5 iyul 2003-cü il*......512

İNCƏSƏNƏT XADİMLƏRİNƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MÜKAFATLARININ VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI
*Bakı şəhəri, 5 iyul 2003-cü il* ......513

AZƏRBAYCAN RESPUBLİKASININ ŞİRVAN VƏ AĞGÖL MİLLİ PARKLARININ YARADILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI
*Bakı şəhəri, 5 iyul 2003-cü il*......516

T.İ.SİNYAVSKAYANIN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*Bakı şəhəri, 5 iyul 2003-cu il*......517

AZƏRBAYCAN RESPUBLİKASININ XALQ ARTİSTİ TAMARA SİNYAVSKAYAYA
*Bakı şəhəri, 5 iyul 2003-cü il*......518

"ŞABRAN ŞƏHƏRİ" TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏSİNİN QORUNMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI
*27 sentyabr 2003-cü il* ......519

**AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİNİN M.F.AXUNDOV ADINA AZƏRBAYCAN MİLLİ KİTABXANASI İLƏ BİRGƏ LAYİHƏSİ**

**Buraxılışa məsul:** Fikrət Babayev

**Redaksiya şurası:** Lətifə Məmmədova – sədr
Kərim Tahirov
Samir Abbasov
Leyla Rəsul
Xuraman İsmayılova
Mələkxanım Hacıyeva
Həqiqət Orucova
Könül Kərimova
Yasəmən Sadıqova
Azadə Novruzova
Aynur Qəmbərova
Aynur Hüseynova
Dilşad Sadıqova
Əfsun Əhmədov
Yeganə Qarayeva

**NURLAR**
Nəşriyyat-Poliqrafiya Mərkəzi

Kitab Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi
tərəfindən nəşrə hazırlanmışdır.

# HEYDƏR ƏLİYEV və MƏDƏNİYYƏT
## 3 cilddə (III cild)


Texniki redaktor: Rauf KƏRİMOV
Bədii redaktor: Elnur ƏHMƏDOV
Səhifələyici: Fəxri VƏLİYEV
Korrektor: Suğra OSMANOVA

Yığılmağa verilmişdir: 21. 12. 2007.
Çapa imzalanmışdır: 10. 04. 2008.
Nəşrin ölçüsü: 70x100 1/16.
Fiziki çap vərəqi: 33, 5.
Sifariş: 27. Sayı: 2000 ədəd.

NURLAR
NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Bakı, Az1122, Zərdabi pr. 78 / Tel: 4977021
Faks: 4971295 / E-poçtu: office@nurprint.com

"Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti
Ünvan: AZ1129, Bakı şəhəri, Əhmədli ŞTQ, Aşıq Ələsgər küçəsi, 17
Tel: 474-75-62; 474-73-84; faks: 470-18-49; e-mail: sharq-qarb@box.az